Məmməd MİRZƏYEV
Canalı MİRZƏLİYEV

3
M-67

# "QARA QIZIL" AĞ SƏADƏT RƏNGİNDƏ

## ÜÇÜNCÜ KİTAB

181
KİTABXANASI

AZƏRBAYCAN NƏŞRİYYATI
BAKI—2002

M33(02)

"Qara qızıl" ağ səadət rəngində" eyni adlı ÜÇÜNCÜ KİTABDA Azərbaycanın yeni neft strategiyasının, yeni neft erası - "Əsrin müqaviləsi"nin həyata keçirilməsi ilə əlaqədar materiallara geniş yer ayrılmış, ilk dəfə "Neftçilər günü" bayramı münasibəti ilə keçirilən mərasimdə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi verilmişdir.

Kitabda Rusiya ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin inkişafında mühüm rol oynayan "LUKoyl" şirkətinin yubiley tədbirləri işıqlandırılır, Azərbaycanın neft sənayesinin inkişafında gərgin əmək sərf edən neftçilərin, alimlərin, ziyalıların həyatı qələmə alınır.

Kitabın üçüncü bölməsində xalqımızın səadəti və xoşbəxtliyi uğrunda çalışmış, öz fədakar əməkləri ilə həyatda pozulmaz izlər qoyub getmiş unudulmaz neftçilərimiz yada salınır, xatırlanır, onların həyat və fəaliyyətləri barədə məlumatlar verilir.

M33(02)
**Məmməd Mirzəyev, Canalı Mirzəliyev.** "Qara qızıl" ağ səadət rəngində". Üçüncü kitab. – Bakı, "Azərbaycan" nəşriyyatı, 2002. – 346 s.

M $\frac{4804000000 - 033(02)}{M\ 670(07) - 2002}$ Sifarişlə

© "Azərbaycan" nəşriyyatı, 2002.



***"...bütün mərhələlərdə Azərbaycanda neft sənayesinin yaranmasında, inkişaf etməsində, yeni-yeni neft və qaz yataqlarının kəşf olunmasında zəhmət çəkmiş, böyük işlər görmüş, qəhrəmanlıqlar göstərmiş, dünyaya böyük ixtiralar təqdim etmiş insanlar da bizim tariximizdə görkəmli yer tuturlar...".***

***H. Ə. ƏLİYEV***

# BİRİNCİ BÖLMƏ

## AZƏRBAYCANIN YENİ NEFT STRATEGİYASI, YENİ NEFT ERASI "ƏSRİN MÜQAVİLƏSİ" İLƏ BAŞLANMIŞDIR

### "NEFTÇİLƏR GÜNÜ" PEŞƏ BAYRAMININ TƏSİS EDİLMƏSİ HAQQINDA

*AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI*

Zəngin neft və qaz sərvətlərinə malik olan Azərbaycan bütün dünyada neft diyarı, Odlar diyarı kimi tanınmışdır. 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudan neft fontan vurmuş və bu hadisə dünyada neftin sənaye üsulu ilə çıxarılmasının başlanması kimi tarixə həkk olunmuşdur.

XX əsrdə Azərbaycanın neft sənayesi sürətlə inkişaf etmiş, güclü istehsal bazaları və elmi mərkəzlər yaradılmışdır. Azərbaycan İkinci Dünya müharibəsi illərində Sovet İttifaqında çıxarılan neftin 75 faizini verməklə cəbhəni yanacaqla təmin edərək alman faşizminin məğlubiyyətə uğradılmasında böyük rol oynamışdır.

Keçmiş Sovet İttifaqının hər yerində yeni neft yataqlarının aşkara çıxarılmasında Azərbaycanın qüdrətli elmi-texniki potensialının mühüm yeri vardır. Təsadüfi deyildir ki, Rusiyanın neft regionları ikinci Bakı, Üçüncü Bakı kimi adlandırılırdı.

Ölkəmizin ən böyük nailiyyətlərindən biri də dəniz neft-qaz yataqlarının kəşfi və işlənməsidir. 1949-cu ildə, sahildən 100 kilometr məsafədə, o zaman üçün unikal yataq sayılan Neft Daşlarında dünya təcrübəsində ilk dəfə olaraq açıq dənizdə neft hasil olundu.

1970-1980-ci illər Azərbaycan neftçiləri tərəfindən dənizin daha dərin sahələrinin mənimsənilməsi ilə səciyyələnmişdir. Məhz bu dövrdə görülən məqsədyönlü tədbirlər nəticəsində neft sənayesi möhkəmlənmiş və onun geniş infrastrukturu yaranmışdır. Azərbaycanda dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini təmin etmək üçün xüsusi gəmilər, texnika və avadanlıq gətirilmiş, Bakı dərin özüllər zavodu tikil-

mişdir. Bununla yanaşı neft emalı, neft-kimya sənayesi və neft maşınqayırmasının inkişafında böyük sıçrayış olmuşdur.

Son illərdə neft sənayesində çox mühüm strateji əhəmiyyət daşıyan nailiyyətlər əldə olunmuşdur. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə yeni neft strategiyası və doktrinası irəli sürülərək dünyanın bir çox şirkətləri ilə Xəzər dənizində ilk dəfə olaraq neft və qaz yataqlarının birgə istismarına başlanmışdır. Bu gün Azərbaycan Xəzər hövzəsində neft və qaz yataqlarının birgə işlənilməsi sahəsində 14 ölkənin 30 iri neft şirkəti ilə ümumi dəyəri 60 milyard ABŞ dollarına yaxın olan iyirmi bir beynəlxalq saziş imzalayıb.

Çox qısa müddətdə "Çıraq-1" ilk hasilat platforması istismara verilmiş, "Bakı-Novorossiysk" neft kəməri bərpa edilmiş, "Bakı-Supsa" yeni neft boru kəməri tikilmiş, "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" kimi nəhəng dəniz qazma qurğuları istifadəyə verilmişdir. Neft və qaz müqavilələri üzrə aparılan işlər artıq keyfiyyətcə yeni, həlledici mərhələyə daxil olur. Bu, xüsusilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yatağının tammiqyaslı işlənilməsi, habelə "Şahdəniz" kimi dünya miqyaslı qaz yatağının işlənilməsi, "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac boru kəmərinin və "Şahdəniz" yatağından təbii qazın ixrac boru kəmərinin tikintisi və istismara verilməsi layihələri ilə bağlı məsələlərə aiddir.

Beləliklə, 1994-cü il sentyabrın 20-si imzalanmış və müstəqil Azərbaycanın iqtisadi suverenliyini əks edən ilk beynəlxalq neft sazişi iqtisadiyyatımızın dinamik inkişafının əsasını qoydu və onun praktiki nəticələri göz qabağındadır. Həmin tarixdən başlayaraq görülən işlər bugünkü və gələcək nəsillərə xidmət edir.

Azərbaycanın neft və qaz sənayesinin inkişafında Azərbaycan xalqının dəyərli insanları - böyük alimləri, mühəndisləri, geoloqları, neftçiləri və başqa mütəxəssisləri zəngin neft və qaz sərvətlərinin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüş, fədakarcasına çalışmış və xalqımızın tarixinə şanlı səhifələr yazmışlar.

Azərbaycanın tarixində, onun iqtisadiyyatının inkişafında, xüsusilə müstəqilliyinin möhkəmləndirilməsində neft sənayesinin əhəmiyyətini nəzərə alaraq və neftçilərin əməyini yüksək qiymətləndirərək **qərara alıram:**

1. Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında "Neftçilər günü" peşə bayramı kimi qeyd olunsun.
2. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 avqust 2001-ci il



# "RESPUBLİKA" SARAYINDA "NEFTÇİLƏR GÜNÜ"NƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ MƏRASİM

2001-ci il sentyabrın 22-də "Respublika" sarayında neftçilərin peşə bayramına - "Neftçilər günü"nə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə iştirak etmək üçün saraya gəldi.

Dövlətimizin başçısı əvvəlcə sarayın foyesində təşkil olunmuş "Neft və qaz sənayesi 1991-2001-ci illərdə" mövzusunda fotosərgi ilə yaxından tanış oldu.

Azərbaycan Dövlət Neft Şirkətinin Prezidenti Natiq Əliyev sərginin ayrı-ayrı guşələri barədə məlumat verdi.

Sərgidə dövlətimizin başçısı Heydər Əliyevin hələ XX əsrin 70-80-ci illərində respublikaya rəhbərlik edərkən neft sənayesinin inkişafına göstərdiyi diqqət və qayğını əks etdirən maraqlı fotoşəkillər nəzəri xüsusilə cəlb edirdi.

Prezident Heydər Əliyev "Azərneftyağ", "Azərneftyanacaq", "Geofizika və Mühəndis Geologiyası istehsalat birliklərinin fəaliyyəti, son dövrlərdə tikilmiş müasir qurğular, magistral neft kəmərləri, qazma, geofizika və geologiya işləri, "Balaxanı-Sabunçu-Ramana" yataqları ilə bağlı məlumatlarla tanış oldu, dənizdə və quruda neft çıxarılmasını, eləcə də son illər bu sahələrdə əldə olunmuş nailiyyətləri əks etdirən göstəricilərlə maraqlandı, neft və qaz kəmərləri, xarici şirkətlərlə imzalanmış müqavilələr, xarici iqtisadi əlaqələr, sosial inkişaf və idmanla bağlı hazırlanmış guşələrə baxdı.

Prezident Heydər Əliyev ölkəmizin tanınmış rəssamlarının neft sənayesinə və neftçilərə həsr etdikləri rəsm əsərləri ilə də tanış oldu.

ARDNŞ-nin prezidenti Natiq ƏLİYEV dövlətimizin başçısına müraciətlə dedi:

- Möhtərəm cənab Prezident, biz neftçilər bilirik ki, bu gün həm bizim bayramımızdır, həm də Sizin bayramınızdır. Ona görə Azərbaycanın görkəmli fırça ustası, xalq rəssamı Maral Rəhmanzadənin 40 il əvvəl çəkdiyi bu rəsm əsərini xatirə olaraq Sizə hədiyyə etmək istəyirik. O, Neft Daşlarını ziyarət edən ilk rəssamlardan biridir və bir neçə əsərini məhz bu dəniz şəhərinə həsr edibdir.

Xahiş edirik, bunu neftçilərin adından xatirə olaraq qəbul edəsiniz.

Respublikamızın rəhbəri hədiyyəyə görə təşəkkürünü bildirdi

***

Sonra təntənəli mərasim başlandı.

Salona toplaşanlar Azərbaycan Prezidenti Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar.

Azərbaycanın dövlət himni əzəmətlə səsləndi.

# "NEFTÇİLƏR GÜNÜ"NƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Əziz neftçilər! Hörmətli xanımlar və cənablar! Qonaqlar! Sizi neftçilərin peşə bayramı - "Neftçilər günü" münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan neftçilərinə səadət və gələcək işlərində uğurlar arzulayıram.

Neftçilər günü sentyabrın 20-si müəyyən olunmuşdur. Bu da neftçilərin özlərinin arzusu, istəyi nəticəsində müəyyən edilmişdir. Bu, təsadüfi hal deyildir. Çünki 20 sentyabr 1994-cü ildə Azərbaycanın neft sənayesində yeni era başlanıbdır. Müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyasının əməli surətdə həyata keçirilməsinə başlanmışdır. Ona görə də mən sizin hamınızı Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi"nin 7-ci ildönümü münasibətilə təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, dünyanın müştərək iş gördüyümüz, böyük təcrübəyə, yüksək texnikaya və texnologiyaya malik olan neft şirkətləri ilə və digər şirkətlərlə biz "Əsrin müqaviləsi" ilə əsası qoyulmuş yeni neft erasını uğurla keçirəcəyik.

Ancaq Azərbaycan neft sənayesinin, Azərbaycan neftçilərinin böyük, zəngin və şərəfli tarixi var. Azərbaycanda ən qədim zamanlardan insanlar neft kəşf etmişdilər. Lakin bəzən onun nə cür hasil olunmasını bilməyərək, bəzən də o dövrlərdə heç bir vasitə, heç bir texnika olmadığına görə, bu böyük sərvətdən müxtəlif yollarla istifadə etmişdilər. Buna görə də Azərbaycan qədim neft diyarı adlandırılır. Azərbaycan "Odlar yurdu" adlandırılır. Təsadüfi deyildir ki, müstəqil Azərbaycan dövlətinin milli gerbinin mərkəzində də alov əks etdirilibdir.

Yəni Azərbaycanın ən böyük sərvəti və ondan alınan alov. Ancaq 150 il bundan öncə Azərbaycanda - Bakıda ilk dəfə sənaye üsulu ilə neft hasilatına başlanmışdır. Bu ilk addımlar dünyanın bir çox ölkələrini və o dövrdə artıq mühərriklər, başqa texniki vasitələr icad edən insanları Azərbaycana cəlb etmişdir. Beləliklə də ölkəmizdə 150 il bundan öncə dünyada ilk dəfə olaraq neftin sənaye üsulu ilə hasilatına başlanmışdır. Ancaq o dövrün şəraiti təbiidir ki, işin sürətlə aparılması üçün imkanlar yarada bilməzdi. Amma buna baxmayaraq, tarixi nöqteyi-nəzərdən çox qısa bir zamanda inkişaf etmiş Qərb ölkələrinin şirkətləri, mütəxəssisləri, alimləri Azərbaycan neftindən artıq geniş miqyasda istifadə etmək üçün Azərbaycana axışmışlar və beləliklə də Azərbaycanda artıq neftin geniş miqyasda sənaye üsulu ilə hasilatına başlanmışdır.

Yəqin ki, Azərbaycan neftinin təkcə ölkəmiz üçün yox, o illərdə bizim mənsub olduğumuz Rusiya imperatorluğu üçün yox, bütün dünya üçün nə qədər əhəmiyyətli olduğunu hamı bilir. Amma bir rəqəm onu göstərir ki, həqiqətən dünyada neft istehsalının və ondan artıq müxtəlif sahələrdə istifadə olunmasının təməli, əsası Azərbaycanda qoyulmuşdur.

XX əsrin əvvəlində Azərbaycanda 13 milyon ton neft çıxarılmışdı. Bu isə dünyada hasil edilən neftin 50 faizindən çox idi. Yəni o vaxt dünyada dedikdə, Amerikanı nəzərə almaq lazımdır. Azərbaycanda 13 milyon ton, Amerika Birləşmiş Ştatlarında 11 milyon ton, təxminən 1 milyon ton Rumıniyada. Başqa heç bir yerdə neftin mövcud olduğu bilinmirdi, neft yataqları kəşf olunmamışdı və neft hasilatına başlanmamışdı. Ona görə də biz böyük iftixar hissi ilə deyirik ki, Azərbaycanın zəngin təbii sərvəti olan neftin sənaye üsulu ilə hasil olunmasına başlanması dünyada gələcəkdə böyük dəyişikliklərin baş verməsinin səbəblərindən biri olmuşdur.

Azərbaycanın neft sənayesinin zəngin tarixi bir neçə mərhələdən ibarətdir. Birinci mərhələ, yəqin ki, 1848-ci ildən 1918-1920-ci illərə qədər hesab edilə bilər.

Bu zaman, artıq qeyd etdiyim kimi, Qərb ölkələrinin çox böyük şirkətləri Azərbaycanda fəaliyyət göstərmiş, neft hasil etmişlər və xam neftin emalı ilə məşğul olmuşlar. Xam neftdən digər məhsulların alınmasına nail olmuşlar.

Xarici şirkətlərlə yanaşı, o vaxt meydana çıxmış Azərbaycan milli burjuaziyasının nümayəndələri də bu işlərlə məşğul olmuşlar. 1918-1920-ci illərdən sonra təbiidir ki, burada - Azərbaycanda neft sənayesində artıq xarici ölkələrin şirkətləri fəaliyyət göstərməmişlər. Yəni 1917, 1918, 1919, 1920-ci illərdə baş vermiş hadisələrə görə onlar artıq buradan getmiş və Azərbaycanın neft sənayesinin tarixinin, demək olar ki, ikinci mərhələsi başlanmışdır. Bu işlər o vaxt SSRİ dövləti tərəfindən aparılmışdır. Demək olar ki, 1920-1930-cu illərdə məhz Azərbaycan neftçilərinin qəhrəman əməyi nəticəsində və o vaxt artıq yetişmiş Azərbaycan milli kadrlarının, mütəxəssislərinin, alimlərinin əməyi və ixtiraları nəticəsində Azərbaycanda neft hasilatı sürətlə inkişaf etmişdir.

Əgər o dövrü xatırlasaq, o dövr bizim keçmişdə yaşadığımız SSRİ-nin aqrar ölkədən sənaye-aqrar ölkəyə çevrilməsi dövrü idi. Təbiidir, SSRİ-nin əksəriyyətini təşkil edən Rusiya idi. Rusiya isə keçmişdə olduğu kimi, o vaxta qədər də aqrar bir ölkə olaraq qalmışdı. Sonra isə, təbiidir, 1920-1930-cu illərdə sənayenin inkişafına cəhdlər göstərilmiş və ölkəni aqrar-sənaye, yaxud da ki, sənaye-aqrar ölkəsinə çevirmək planları qurulmuş, həyata keçirilmişdir. Bu dövrdə də məhz Azərbaycanın neft sənayesi xüsusi rol oynamışdır. Təəssüflər olsun ki, o vaxt və ondan əvvəlki dövrdə də Azərbaycan xalqı Allah-təalanın ona bəxş etdiyi zəngin təbii sərvəti olan neftdən özü üçün, öz mənafeyi üçün tam istifadə edə bilməmişdir, daha doğrusu, ona bu sərvətdən olduqca az pay çatmışdır. Ancaq bunlarla yanaşı, Azərbaycan xalqı, Azərbaycan neftçiləri o dövrdə həm Azərbaycanda, həm də SSRİ-də sənayenin inkişafında çox böyük rol oynamışlar.

Əgər Azərbaycan nefti olmasaydı, təbiidir ki, SSRİ kimi böyük bir dövlətin sənayenin inkişaf etdirilməsindəki nailiyyətləri mümkün olmazdı. Çünki artıq bu dövrdə neft ən ön sıraya çıxmışdı. Bütün bunların nəticəsində 1940-cı ildə Azərbaycanda neft hasilatı ən yüksək səviyyəyə çatmışdı, 24-25 milyon ton neft çıxarılmışdı. Onda hələ Azərbaycanın yalnız quru hissəsində neft hasil edilirdi.

Bütün bunlarla yanaşı, SSRİ dövlətinə Azərbaycanın verdiyi ən böyük fayda o olmuşdur ki, İkinci Dünya müharibəsində - faşizmin bəşəriyyət

üçün ən böyük təhlükə kimi meydana çıxıb bütün ölkələrə və xalqlara meydan oxuduğu zaman, Avropanı, demək olar ki, tamamilə işğal edəndən sonra işğalçı ordularla Şərqə doğru irəliləyən zaman məhz Azərbaycan neftçilərinin, Azərbaycan xalqının hasil etdiyi neft, ondan alınan müxtəlif məhsullar o dəhşətli müharibədə tankların, təyyarələrin, avtomobillərin işləməsi və s. üçün, demək olar ki, əsas şərt idi. O illərdə Azərbaycan SSRİ-də hasil edilən neftin 75 faizini verirdi. Bu da faktdır və dəfələrlə müxtəlif səviyyələrdə etiraf edilibdir ki, əgər Azərbaycan nefti, ağır müharibə şəraitində Azərbaycan xalqının, Azərbaycan neftçilərinin qəhrəmanlığı olmasaydı, alman faşizminin qarşısını almaq çox çətin olardı.

Bu dövr Azərbaycan neft sənayesinin tarixində, Azərbaycan xalqının tarixində, Azərbaycan neftçilərinin tarixində ən parlaq səhifələrdən biridir. Bunu heç vaxt unutmaq olmaz. Biz də çalışmalıyıq ki, bu, unudulmasın.

İndi bəzi arxivlərdə kinokadrlar saxlanılır. Düzdür, onlar azdır. Amma onlar bəzən nümayiş etdirilir. Güman edirəm ki, bu gün bizim bu mərasimin ikinci hissəsində də onları bizə göstərərlər. Məsələn, əsrin əvvəlində neft buruqlarında - bu gün buradakı sərgidə onlar barədə bəzi fotoşəkillər vardır - çox bəsit üsullarla neft hasil olunması. Üstündən 100 il keçəndən sonra yenə də adamın ürəyi ağrıyır ki, Azərbaycan oğlu o mazutun, çirkin içində, ağır şəraitdə gecə-gündüz işləyərək neft hasil edibdir. Bu, o dövrə aiddir. Amma sonrakı dövrü - XX əsrin 20-ci, 30-cu, 40-cı illərini götürün. Artıq o vaxt neft sənayesinin inkişaf etdirilməsi üçün bütün Azərbaycan səfərbər olunmuşdu.

Təbiidir ki, SSRİ-nin başqa bölgələrindən neft sənayesinin inkişaf etdirilməsi üçün lazımi avadanlıq gəlirdi. Amma əsas iş burada idi. Bunu həyata keçirən Azərbaycan xalqı idi, bunu həyata keçirən qəhrəman Azərbaycan neftçiləri idi.

Azərbaycan neft sənayesinin, neftçilərinin tarixində ən parlaq səhifələrdən biri də 1949-cu ildə Xəzər dənizində, sahildən 100 kilometr məsafədə suyun dərinliyində neftin hasilatına başlanılmasıdır. Təbiidir ki, bu, bir gündə olan şey deyildi. Ona görə də bu haqda söz deyərkən, birinci növbədə bizim alimlərimizin, geoloqlarımızın, təcrübəli neftçilərimizin, təcrübəli fəhlələrimizin əməyini unutmamalıyıq. O dövrdən 50 il keçibdir. Məhz onları xatırlamaq lazımdır. O vaxt ümumiyyətlə, dünya hansı şəraitdə idi, Azərbaycan hansı şəraitdə idi, bizim əlimizdə hansı texnika, avadanlıq var idi? Bunlar çox məhdud idi. Ancaq 1949-cu ildə yenə də dünyada birinci dəfə olaraq Xəzər dənizində suyun dərinliklərindən neft hasilatına başlandı. Qısa bir müddətdə orada, Neft Daşlarında böyük bir şəhərcik tikildi. Hər bir neftçi Neft Daşlarında işləməyi özünə şərəf hesab edirdi. Baxmayaraq ki, dənizdə işləmək quruda işləməkdən qat-qat çətin idi.

Xəzər dənizi nə qədər gözəl olsa da, o qədər də qorxulu bir dənizdir. Bəzən dalğalar elə qalxır ki, onun yüksəkliyini demək mümkün deyildir. Neft Daşlarında gecə-gündüz çalışan, işləyən insanlar məhz Azərbaycan neftinin şöhrətini qaldırmaq üçün bu qədər fədakarlıq göstəriblər.

O illər bu, dünyada möcüzələr adası hesab olunurdu. O illər hələ dünyada təsəvvür yox idi ki, dənizdə, suyun dərinliklərində neft hasil etmək olar. Ona görə də Azərbaycanda Neft Daşlarının yaranması və orada çox



böyük estakadaların qurulması, hətta orada yaşamaq üçün bəzi evlərin də tikilməsi - bunlar hamısı dünya alimlərinə, dünya mütəxəssislərinə dənizin dərinliklərində olan neft və qaz yataqlarının axtarılması və aşkar edilməsi üçün əsas yaratdı.

Mən o illər Neft Daşlarına özümün və çoxlarının ziyarətini xatırlayıram. Birincisi, Azərbaycana gələn qonaqların hər biri, xüsusən xaricdən gələn qonaqlar mütləq Neft Daşlarına getmək istəyirdilər. İkincisi, yenə də deyirəm, Neft Daşlarında işləyən hər bir kəs ən böyük hörmətə layiq bir insan idi. Orada işləməyən, oranı görməyən, oranı ziyarət etməyən insan bunu təsəvvür edə bilməz.

Mənim xatirimdədir, bir neçə dəfə hətta böyük gəmi ilə Neft Daşlarına gedəndə dənizin dalğaları elə idi ki, bizim gəmimiz bir saat oraya yan ala bilmədi. Belə bir şəraitdə insanlar yaşayırdılar, işləyirdilər. Neft Daşları Azərbaycanda neft hasilatını xeyli artırdı. Neft Daşları yaranandan sonra Azərbaycanın Xəzər dənizində başqa sahələrdə də neft və qaz yataqlarının axtarışına sürətlə başladılar.

Qeyd etmək lazımdır ki, ondan əvvəl də Azərbaycanın alimləri, neftçiləri, geoloqları Xəzər dənizinin dibində neft və qaz yataqları olması haqqında tədqiqatlar aparmış və çox dəyərli əsərlər yazmışdılar.

Onları həyata keçirmək və xüsusən o dövrdə, yenə də deyirəm, texnikanın, texnologiyanın o vaxtkı səviyyəsində bu işləri görmək çox çətin idi. Ancaq Neft Daşlarının yaranması və oradan çox böyük miqdarda neft hasil olunması Azərbaycan neftçilərini, alimlərini Xəzər dənizinin bütün başqa bölgələrində də neft və qaz yataqlarının aşkar edilməsinə yönəltdi və onlar bu sahədə çox dəyərli, çox qiymətli işlər gördülər.

İndi Xəzər dənizi, Xəzər bölgəsi dünyada məşhur olubdur. Demək olar ki, dünyanın bir çox ölkələri Xəzər dənizinə böyük maraq göstərir və bunun bütün dünya iqtisadiyyatı üçün nə qədər böyük əhəmiyyətli olduğunu dərk edirlər. Ancaq bunun əsası, kökü hardadır? Bunun kökü Azərbaycan xalqının, Azərbaycan neftçilərinin gördüyü işlərdədir. Onların əldə etdiyi nailiyyətlərdədir. Onların kəşf etdiyi neft və qaz yataqlarındadır. Nəhayət, bunlar hamısı bizi 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalamağa gətirib çıxartdı. Ona görə Neft Daşları Azərbaycanın tarixində xüsusi yer tutur.

1999-cu ildə Neft Daşlarında ilk neftin hasil edilməsinin 50 illiyi qeyd olundu. İndi təbiidir ki, Neft Daşlarının o qədər gücü yoxdur. Hamı da bilir ki, o neft buruqlarından neft daim eyni miqdarda çıxmır, get-gedə azalır. Ancaq Azərbaycan neftçiləri bunu yaxşı bilərək təkcə Neft Daşları ilə kifayətlənmədilər, yeni-yeni yataqları axtardılar, tapdılar və onları istismar etməyə başladılar. Məsələn, biz Neft Daşlarında neft hasilatına başlayandan indiyə qədər dənizdən 476 milyon ton neft hasil olunubdur. 1971-ci ildə biz Azərbaycanın neft sənayesi tarixində 1 milyard ton neftin hasil olmasını böyük təntənə ilə qeyd etdik. Təsəvvür edin, 1850-ci ildən başlayan işdən sonra, 1971-ci ildə Azərbaycanın 1 milyard ton zəngin təbii sərvəti, nefti hasil olunubdur.

Ancaq təəssüflər olsun ki, bu 1 milyard ton neftin hamısı Azərbaycan xalqına mənsub olmayıbdır. Azərbaycan xalqına bunun ancaq ən kiçik bir

hissəsi çatıbdır. Azərbaycan neftçisi, Azərbaycan xalqı zəhmət çəkibdir, böyük işlər görübdür və dünyada neft sənayesinin inkişafı üçün böyük töhfələr veribdir. Ancaq öz təbii sərvətlərinin sahibi olmayıbdır.

Beləliklə, mən hesab edirəm ki, Azərbaycanın neft sənayesinin tarixində ikinci mərhələ 1918-20-ci illərdən başlayaraq, Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsinə qədər dövr hesab oluna bilər. Ancaq hansı vaxt, hansı hakimiyyətin, hansı dövlətin mövcudluğundan asılı olmayaraq, bu tariximizin hər bir səhifəsi bizim üçün əzizdir. Çünki Azərbaycan xalqının ən böyük təbii sərvəti neft və qaz olubdur. Neft və qaz hasilatı Azərbaycanın inkişafına, təbiidir ki, dünya iqtisadiyyatının inkişafına təsir göstəribdir. SSRİ kimi böyük dövlətin iqtisadiyyatının inkişafına təsir göstəribdir. Ancaq eyni zamanda, hansı dövlətin tərkibində olub-olmamasından asılı olmayaraq, Azərbaycanın inkişafında böyük rol oynamışdır. Ona görə bu tarix bizim üçün əzizdir, bizim üçün dəyərlidir və heç bir şey unudulmamalıdır, heç kəs unudulmamalıdır.

Mən bu gün tarixdən daha çox danışsam, buna vaxt tələb olunar. Ona görə də, sadəcə, demək istəyirəm ki, bütün mərhələlərdə Azərbaycanda neft sənayesinin yaranmasında, inkişaf etməsində, yeni-yeni neft və qaz yataqlarının kəşf olunmasında zəhmət çəkmiş, böyük işlər görmüş, qəhrəmanlıqlar göstərmiş, dünyaya böyük ixtiralar təqdim etmiş insanlar da bizim tariximizdə görkəmli yer tuturlar. Biz onları da heç vaxt unuda bilmərik.

Bu gün Azərbaycanın müstəqilliyinin onuncu ilində, Azərbaycanda yeni neft erasının başlanmasının yeddinci ilində biz Azərbaycan neftçilərinin bütün nəsillərinə böyük hörmət, ehtiramımızı bildirməliyik, minnətdarlığımızı bildirməliyik və bəyan etməliyik ki, məhz onların gördüyü işlər Azərbaycanda bu qədər böyük neft və qaz sənayesi potensialı yaradıbdır. Bu isə bu gün müstəqil Azərbaycanın ən böyük, ən dəyərli sərvətidir.

Azərbaycan neft ölkəsidir deyəndə, bu, heç də o demək deyildir ki, Azərbaycanda ancaq neft sənayesi olubdur. Neft sənayesi Azərbaycanda sənayenin bir çox başqa sahələrinin yaranmasına və inkişaf etməsinə əsas yaradıbdır. Məsələn, Azərbaycanın maşınqayırma sənayesi. Bunun ən böyük hissəsi neft maşınqayırma zavodlarıdır. Məlumdur ki, 1970-ci illərdə Sovet İttifaqında neft avadanlığının 70 faizi Azərbaycanın neft maşınqayırması zavodlarında istehsal olunur və neft sənayesi bu avadanlıqla təmin edilirdi.

Mən dedim ki, Azərbaycanda neft sənayesinin inkişafı və görülən işlər dünya iqtisadiyyatına müsbət təsir edir, SSRİ dövlətinin həyatında böyük rol oynayıbdır. Ancaq təkcə onunla yox ki, sadəcə, bizim təcrübəmizi görüblər, yaxud bizim neft hasilatından əldə olunan gəlirlərdən istifadə ediblər. Yox. Azərbaycanın neftçiləri, alimləri öz təcrübəsi, biliyi, elmi ilə SSRİ-nin bir çox bölgələrində neft və qaz yataqlarının kəşf edilməsində və işlənilməsində böyük xidmətlər göstərmişlər. Yəni onlar o illərdə - hələ 1930-cu illərdə SSRİ-nin başqa bölgələrinə ezam edilmişdilər. Orada İkinci Bakı, Üçüncü Bakı, Dördüncü Bakı kimi böyük neft mərkəzlərinin yaranmasında iştirak ediblər. Bu da Azərbaycan neftçilərinin xidmətləridir.

İndi Rusiyanın böyük neft hasilatı bölgələrinin hansına getsəniz, orada xeyli miqdarda azərbaycanlı görəcəksiniz. Onlar 30-40 il bundan öncə oraya gediblər, yerləşiblər, böyük xidmətlər göstəriblər və orada artıq məskunlaşıblar, orada da yaşayırlar. Bu bizdə, sadəcə, iftixar hissi doğurur. Ona görə ki, demək, azərbaycanlı, Azərbaycan neftçisi gedib Rusiyanın müxtəlif bölgələrində neft hasilatının təmin olunması üçün yardım göstərir, onları öyrədir, öz təcrübəsini verir və ora artıq onun üçün xoş olduğuna görə, oranı sevdiyinə görə orada da yaşayır. Biz bununla fəxr edirik.

Bütün bunların hamısı Azərbaycanın böyük sənaye, iqtisadi potensialının yaranmasının əsasını təşkil edir. Təbiidir ki, neft və neft məhsullarının kənd təsərrüfatında, başqa sahələrdə istifadə edilməsi də bütün Azərbaycan iqtisadiyyatını təmin edən amillərdəndir.

Ancaq fəxr edirik ki, biz 1991-ci ilin sonunda dövlət müstəqilliyini elan etdiyimiz zaman, o vaxt ölkəmizin çox çətin şəraitdə yaşamasına, böyük sınaqlardan keçməsinə baxmayaraq, Azərbaycan o dövrə, yəni müstəqilliyin elan edildiyi dövrə artıq böyük iqtisadi, sənaye potensialı və elmi, intellektual potensialla gəlmişdi. Əgər, bax, bu tarix olmasaydı, əgər bu keçmiş olmasaydı, əgər bütün bu tarix boyu görülən işlər Azərbaycan xalqında elmin, mədəniyyətin inkişafına öz təsirini göstərməsəydi, biz müstəqillik əldə edən zaman və ya ondan sonra rast gəldiyimiz başqa çətinliklərlə yanaşı, iqtisadiyyat sahəsində daha da böyük çətinliklərlə üzləşə bilərdik.

Biz keçən il Azərbaycanda Neft Akademiyasının yaranmasının 80-ci ildönümünü qeyd etdik. Neft Akademiyası 80 ildə təkcə Azərbaycan üçün yox, keçmiş SSRİ-nin bütün bölgələri üçün yüksək səviyyəli kadrlar hazırlamışdı. Bu, təhsil ocağıdır. Amma Azərbaycanın bütün neft sahəsində gördüyü bu işlər ona yeni bir ad veribdir - Azərbaycan Neft Akademiyası adını alıbdır.

Bütün bunların əsasında Azərbaycanda neft sənayesinin üçüncü mərhələsi başlandı. Bu isə bizim Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsindən sonra və onun birbaşa nəticəsi kimi meydana çıxdı.

Bir də qeyd edirəm, biz yeni neft strategiyasını yaradarkən, Azərbaycanın neft sənayesinin yeni erasını başlayarkən böyük potensiala malik idik. Burada çıxış edənlər bu barədə söylədilər. Bunlar olmasaydı, biz bu neft strategiyasını yaradıb, qısa müddətdə bu cür nailiyyətlər əldə edə bilməzdik.

Burada doğru deyildi, təəssüflər olsun ki, 1990-1993-cü illərdə Azərbaycandakı hakimiyyətsizlik, hərc-mərclik, Ermənistanın Azərbaycana etdiyi təcavüz, ictimai-siyasi sabitliyin pozulması - bunların hamısı Azərbaycanın iqtisadiyyatını tənəzzülə uğratdı. O cümlədən əsas sahə olan, iqtisadiyyatın əsasını təşkil edən neft sənayesini tənəzzülə uğratdı. Bir neçə il lazım oldu ki, o tənəzzülün qarşısı alınsın, ondan sonra inkişafa başlayaq. Biz buna yalnız 1995-1996-cı illərdə nail olduq. Ancaq bu, bizim üçün, müstəqil Azərbaycan üçün yetərli deyildi.

Yəni tək Azərbaycanın öz imkanları çərçivəsində iş görmək və Azərbaycana məxsus olan çox zəngin neft və qaz yataqlarının işlənilməsini təmin etmək - bu, artıq bizim özümüz üçün çətin vəzifə idi. Ona görə də biz yeni neft strategiyasını yaratdıq və onu inkişaf etdirməyə başladıq.

Mən qeyd etdim ki, dünyada ilk dəfə Neft Daşlarında dənizin dərinliyindən neft çıxarılıbdır. Ancaq o zamandan 25 il sonra dünyanın bir çox bölgələrində dənizin daha da çox dərinliklərindən neft və qaz hasilatına başlayıb-

lar. Bunun üçün çox yüksək səviyyəli texnikaya və texnologiyaya malik olan işlər lazım idi. Bu isə Azərbaycanda yox idi. Ona görə bizim başqa yolumuz yox idi. Biz bu yolla getməli idik. Təkcə ona görə yox ki, bizim başqa yolumuz yox idı. Bir də ona görə ki, 1993-1994-cü illərdə hazırladığımız yeni neft strategiyası təkcə iqtisadi, kommersiya xarakteri daşımır. Bu, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası üçün ən əsas yollardan biridir. Biz artıq bunun canlı şahıdiyik ki, bizim bu fikrimiz, bizim bu arzumuz ötən yeddi il müddətində həyata keçirilibdir.

Ancaq neft strategiyasını yaratmaq və onun əsasını qoymaq, çox böyük təcrübəyə, böyük potensiala, böyük maliyyə vəsaitinə malik olan şirkətləri Azərbaycana cəlb etmək asan proses, asan iş deyildi. Bunun üçün Azərbaycanda mövcud olan anarxiyaya, hərc-mərcliyə, hakimiyyətsizliyə son qoyulmalı idi. Bunun üçün Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etmək lazım idi. Bunun üçün Azərbaycanda hər bir şirkətin qorxmadan, çəkinmədən işləməsinə zəmanət verən şərait lazım idi. Biz bunların hamısını yaxşı bilirdik. Bilərək də bu işləri kompleks şəklində aparırdıq. Bəli, əgər 1993-cü ildə Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunmasına başlamasaydıq və ona nail ola bilməsəydik, təbiidir ki, indi Azərbaycanda çalışan neft şirkətləri buraya gəlməzdilər. Bizim yeni neft strategiyamız da ancaq fərziyyə kimi, yaxud nəzəriyyə kimi qala bilərdi. Ona görə də bizim gördüyümüz bu işlər Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etdi. Bizə inandılar. Bizə etibar etdilər. Azərbaycana axın başlandı.

Baxmayaraq ki, 1993-cü ilin sonundan 1994-cü ilin sentyabrına qədər "Əsrin müqaviləsi"nin hazırlanması ilə məşğul idik, o da çox mürəkkəb şəraitdə keçirdi. Çünki bir çox məsələlərdə bizim o qədər də təcrübəmiz yox idi. Biz çox məsələlərdə ayrı-ayrı şirkətlərlə eyni fikrə gələ bilmirdik. Biz bunların hamısını bir neçə ay müddətində etdik və 1994-cü il sentyabrın 20-də ilk böyük müqavilə, "Əsrin müqaviləsi" adlanan müqavilə imzalandı. Bu, dünyada bir bomba kimi partladı. Bu, Azərbaycanı bütün dünyaya yenidən tanıtdı. Bu, eyni zamanda Azərbaycanın xarici sərmayə üçün nə qədər əlverişli olduğunu nümayiş etdirdi. Buna sevinənlər də oldu, amma kədərlənənlər də oldu. Buna tərəfdarlar da oldu, əleyhinə çıxanlar da oldu. Ancaq bunların hamısını bir yerə cəmləsək, bizim bu işimizə həm xaricdə, həm daxildə maneçilik törədənlər oldu. Xaricdəkilər ona görə mane olmağa çalışdılar ki, onlar Azərbaycanın inkişafını istəmirdilər. Azərbaycanı əzmək, boğmaq istəyirdilər. Bunu anlamaq olar. Amma daxildə isə insanlar öz şəxsi mənafeyini hər şeydən üstün tutaraq xalqın, millətin mənafeyini öz şəxsi məqsədlərinə qurban verərək, bunların qarşısını almağa çalışdılar. Məlumdur ki, müqavilə imzalanandan bir neçə gün sonra biz böyük faciələrlə rastlaşdıq. Bir dəstə cinayətkar qaçırıldı. İki terror hadisəsi baş verdi. Ondan bir neçə gün sonra burada silahlı çevrilişə cəhd göstərildi. Ancaq xalq artıq anlayırdı ki, yox, bu yol, Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin tutduğu yol ən doğru yoldur. Ona görə də xalq dövlətlə oldu, xalq bizimlə oldu və biz onların qarşısını aldıq.

Sonrakı illərdə də biz çox çətinliklərlə, maneələrlə rastlaşdıq. Bir neçə ölkədə bizim əleyhimizə mətbuatda indiyə qədər də təbliğat aparılır. Təbiidir ki, Azərbaycana düşmən gözü ilə baxan, yaxud da qısqanan dairələrin



fəaliyyəti nəticəsində yenə də Azərbaycanı dünya miqyasında gözdən salmaq istəyirlər. Azərbaycanda əvvəl bəyan edilən qədər neft və qaz ehtiyatlarının olmaması haqqında fikirlər söyləyirlər. Bu, bizi narahat etmir.

Eyni zamanda bu, dünyada gedən proseslərin bir hissəsidir.

Dünya rəqabət dünyasıdır. Dünya mübarizə dünyasıdır. Bu, bizi narahat etmir. Ona görə ki, biz öz işimizi bilirik. Biz gördüyümüz işlərin əsasını bilirik. Biz həqiqəti bilirik. Əgər bilməsək, biz nə özümüzü, nə də başqalarını aldadarıq. Təsadüfi deyildir ki, qısa bir zamanda, "Əsrin müqaviləsi" imzalanandan təxminən 5-6 il keçdi, 21 müqavilə imzalanıbdır. 14 ölkədən 30 böyük neft şirkəti burada fəaliyyət göstərir. Bunlarla yanaşı, 400-ə qədər servis xidməti göstərən müxtəlif xarici ölkələrdən çox böyük potensiala malik olan şirkətlər burada fəaliyyət göstərir. Bütün bu şirkətlərdə 10 mindən artıq Azərbaycan vətəndaşı, Azərbaycan mütəxəssisi, Azərbaycan gənci özünə yaxşı iş yeri tapıbdır. Təkcə bu deyildir. Buradakı hər bir şirkətin fəaliyyətindən Azərbaycanın xəzinəsinə gəlirlər gəlir. Artıq biz birinci müqavilənin - "Əsrin müqaviləsi"nin icrasından mənfəət nefti alırıq. Neft fondu yaranıbdır. İndi orada 435 milyon dollardan artıq vəsait toplanıbdır. Bunların hamısı işin hələ başlanğıcıdır. Əminəm ki, biz bu yeddi il ərzində həm öz xalqımıza, millətimizə, vətəndaşlarımıza gördüyümüz işlərin bu gün üçün, gələcək üçün nə qədər faydalı olduğunu sübut etdik, eyni zamanda, dünyada böyük etibar, etimad qazandıq.

Bu illərdə biz təkcə neft və qaz yataqları ilə məşğul olmadıq. Təbiidir ki, əgər neft çox miqdarda hasil olunursa, onu dünya bazarlarına çıxarmaq lazımdır.

"Şahdəniz" yatağını kəşf etdik. Doğrudur, onu çoxdan kəşf etmişdilər. Yəni onun artıq işlənilməsinə başlandı. Qısa bir müddətdə orada 1 trilyon kubmetrdən artıq qazın olması aydın oldu. İndi artıq biz bir tərəfdən "Şahdəniz" yatağında iş aparırıq, ikinci tərəfdən, qazın ixracı üçün yol axtarırıq və onu tapmışıq. Biz artıq iki ixrac kəmərindən istifadə edirik. Bakı-Novorossiysk və Bakı-Supsa. Əsas neft ixrac kəməri Bakı-Tbilisi-Ceyhandır. Biz böyük çətinliklərdən və müqavimətlərdən keçərək buna nail olduq. 1997-ci ildə Ankara bəyannaməsi, 1997-ci ildə İstanbulda imzalanmış saziş və verilən bəyannamə, sonra isə Türkiyə və Azərbaycan, Gürcüstan və Azərbaycan arasında imzalanmış kommersiya sazişləri artıq Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasına başlanmasına şərait yaratdı.

Bu iş başlanıb və 2004-cü ildə qurtaracaqdır. 2005-ci ilin əvvəlində artıq Azərbaycan nefti həmin bu Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə, uzun məsafədə Gürcüstan və Türkiyə ərazisindən keçərək Aralıq dənizində Ceyhan limanına çatacaqdır. Ceyhan limanına, dünya bazarına çıxacaqdır.

Mən mart ayında Türkiyədə rəsmi səfərdə olduğum zaman biz qazın ixracı üçün də saziş imzalamışıq. Gürcüstanla danışıqlar aparılır. Bu günlərdə o saziş də imzalanacaqdır. Beləliklə, biz qazın ixrac olunması üçün də xüsusi kəmərin çəkilməsinə başlayacağıq. Yəni qazın çıxarılması təmin olunduqda onun dərhal ixracı təmin edilsin.

Bir tərəfdən, dünyanın böyük neft şirkətlərinin Azərbaycana, Xəzər dənizinə cəlb edilməsi, ikinci tərəfdən, neftin və qazın Avropa istiqamətində ixrac olunması - bunlar, yenə də deyirəm, təkcə iqtisadi, kommersiya məsə-

ləsı deyildir. Bu siyasi məsələdir. Bir də qeyd edirəm, bu bizim Qərb ilə, inkişaf etmiş ölkələrlə inteqrasiyamızın əsasıdır. Bu, eyni zamanda bizim bölgəmizdə təhlükəsizliyin təmin olunmasının əsasıdır. Deməli bu, eyni zamanda böyük bir siyasi məsələdir. Biz bu məsələni, problemi də həll edirik.

Yeni neft strategiyası əsasında bizim gördüyümüz bütün bu işlər gələcəyə yönəlibdir. Biz artıq bu gün bunun faydasını görürük. Mən sizə bir neçə rəqəmlər deyim. "Çıraq" neft platformasından 16 milyon ton neft hasil olunubdur və dünya bazarlarına çıxarılıbdır. Azərbaycan oradan öz neft mənfəətini götürübdür. Ancaq bu, hələ indi əldə olunan nailiyyətlərdir. Gələcəkdə isə, indi təsəvvür edin, təkcə "Azəri", "Çıraq" yataqlarından, "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən ildə təxminən 50-60 milyon ton neft çıxarılması nəzərdə tutulubdur.

Azərbaycanda görülən bütün bu işlərə təxminən 60 milyard dollar həcmində vəsait, sərmayə qoyulması nəzərdə tutulubdur. Təbiidir ki, bunlar bir-iki-üç gündə həyata keçirilmir. Bunun bəzilərinin müddəti 2005-ci ildir, bəzilərininki 2007-ci ildir, bəzilərininki 2010-cu ildir. Hətta bəzilərininki 2015-ci ildir. Deməli, biz indi həm bugünkü nəsillər üçün iqtisadi imkanlar yaradırıq, həm də gələcək nəsillərimizin xoşbəxt, firavan yaşaması üçün əsas yaradırıq və onlara böyük irs qoyub gedəcəyik.

Ancaq bu işlərin uğurla həyata keçirilməsi üçün biz daim Azərbaycanda dövlət quruculuğunu möhkəmləndirməliyik. Azərbaycanda artıq demokratik, hüquqi, dünyəvi dövlət qurulub, bütün hakimiyyət orqanları yaranıb, iqtisadi, siyasi, hüquqi islahatlar həyata keçirilir və keçirilməkdədir. Bunlar öz nəticələrini verib, bundan sonra daha da dəyərli nəticələr verəcəkdir. Biz bu yolu tutmuşuq, bu yolla gedəcəyik.

Azərbaycanda daxili ictimai-siyasi sabitliyi qoruyub saxlamaq lazımdır. Bəziləri yenə də sabitliyi pozmağa cəhdlər göstərirlər. Ancaq əbəsdir. Onlar nə özlərini aldatsınlar, nə də başqalarını aldadıb pis yola salsınlar. Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik möhkəmdir, dönməzdir və əbədidir. Bu, bizim və gələcək nəsillərin üzərində olan ən əsas vəzifələrdən biridir. Güman edirəm ki, biz bu vəzifələri şərəflə yerinə yetirəcəyik.

Bu gün çox əlamətdar bir gündür. Biz bu gün neftçilərin nailiyyətindən danışırıq. Ancaq Azərbaycanın hələ həll olunmamış problemləri də vardır. Azərbaycanın həyatında çox çətin işlər də var. Azərbaycan vətəndaşlarının bütün təbəqələrinin rifah halının təmin olunması vəzifəsi var. Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması, ərazi bütövlüyünün bərpa edilməsi və köçkün vəziyyətində, çadırlarda yaşayan bir milyondan artıq insanın öz yerinə, yurduna qayıtması və dağıdılmış, viran olmuş Azərbaycan torpaqlarında yeni həyat qurulması vəzifəsi qarşıda durur. Təsəvvür edin, Azərbaycan nə qədər böyük işlər qarşısındadır. Biz neçə ildir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini, Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində yaranmış problemi sülh və danışıqlar yolu ilə aradan qaldırmaq istəyirik. Ancaq buna hələ nail ola bilməmişik. Lakin nail olacağıq. Mütləq nail olacağıq. Yerindən, yurdundan didərgin düşmüş insanlar öz elinə-obasına qayıdacaqlar. Onda ikinci mərhələ başlanır. Gələcəklər öz torpaqlarına, amma ev yox, bina yox, məktəb yox, yol yox, körpü yox, nəqliyyat yox, infrastruktur yox. Heç bir şey yox.



İndi görün, bizə nə qədər vəsait lazımdır ki, məsələni həll edəndən sonra bu işləri də görə bilək. İnsanları normal yaşamaq üçün təmin edək. İndi görün, bizim çiynimizə nə qədər böyük yük düşübdür. Bu da ancaq onun nəticəsidir ki, Ermənistan hələ 1988-ci ildən Azərbaycana qarşı torpaq iddiası ilə çıxış edərək, hərbi təcavüz edibdir. Onun qarşısı alınmayıbdır və ölkəmiz belə bəlalarla rastlaşıbdır. Ancaq bunlar da, həll olunacaq, bunlar da hesab edirəm ki, geridə qalacaqdır.

Bizim ən böyük vəzifəmiz Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədi etməkdən ibarətdir. Həyata keçirdiyimiz daxili və xarici siyasət, o cümlədən Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlətin qurulması, Azərbaycanın yeni neft strategiyası və Azərbaycan neftinin, qazının adlarını çəkdiyim kəmərlərlə dünya bazarlarına çıxarılması Azərbaycanın müstəqilliyinin daimi olması üçün əsas şərtlərdən biridir. Bu, müstəqilliyimizin təminatıdır. Ona görə də hər bir vicdanlı Azərbaycan vətəndaşı hansı şəraitdə yaşamasından asılı olmayaraq o bilməlidir ki, o xoşbəxt adamdır. Çünki o, artıq azaddır, öz ölkəsinin sahibidir, heç bir başqa ölkənin müstəmləkəsi, yaxud da bir hissəsi olmayan müstəqil dövlətdə yaşayır. Bu, tarixi nailiyyətdir. Biz bunu qiymətləndirməliyik. Hər bir vətəndaş bunu qiymətləndirərək, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün öz töhfəsini verməlidir. Müxtəlif problemlər, fikir ayrılıqları ola bilər. Biz plüralist bir ölkədə yaşayırıq. Biz azad mətbuat ölkəsində yaşayırıq. Ancaq hər bir vətəndaş bilməlidir ki, Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi, Azərbaycanda hüquqi, demokratik dövlətin inkişaf etməsi və ən əsas şərt - Azərbaycanın müstəqilliyinin əbədi edilməsi hamının vəzifəsidir.

Ancaq bilin ki, bizim müstəqilliyimizə qarşı yönəldilmiş təhlükələr də var. Heç kəs arxayınçılığa yol verməməlidir. Biz bu təhlükələrin qarşısını almalıyıq. Biz onlara imkan verməməliyik. Bunun üçün də təkcə dövlət yox, yaxud dövlətin başında duranlar yox, hər bir vicdanlı vətəndaş anlamalıdır, bilməlidir ki, bizim müstəqilliyimizin bu günü və gələcəyi Azərbaycan xalqının birliyindən, Azərbaycan xalqının həmrəyliyindən, Azərbaycan xalqının öz müstəqilliyini qorumaq əzmindən asılıdır. Əminəm ki, mənim bu sözlərimi eşidən hər bir vətəndaş bu yolda öz xidmətlərini göstərəcək və göstərməlidir. Mən əminəm ki, biz Azərbaycanın müstəqilliyini qoruyacağıq, saxlayacağıq və gələcək nəsillərə müstəqil, yüksək iqtisadiyyata və potensiala malik olan bir dövlət bəxş edəcəyik. Bu, bizim hamımızın - həm neftçilərin, həm bütün başqa sahədə çalışan insanların, adi vətəndaşların vəzifəsidir. Bu, Azərbaycan dövlətinin vəzifəsidir. Bu, Azərbaycan Prezidentinin vəzifəsidir. Əmin ola bilərsiniz ki, mənə göstərilən bu etimadı yüksək qiymətləndirərək, bu vəzifəni həyatımın son dəqiqəsinə qədər şərəflə yerinə yetirəcəyəm.

Azərbaycan neftçilərinə eşq olsun! Yaşasın azad, müstəqil Azərbaycan, Azərbaycan, Azərbaycan!

181
KİTABXANASI

2—108

## Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevin çıxışı



- Zati-aliləri, möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Azərbaycan neftçilərinin həyatında ən fərəhli günlərdən biridir. Biz Azərbaycan Respublikasının müstəqillik dövründə ilk dəfə olaraq "Neftçilər günü" peşə bayramını belə təntənəli şəraitdə, ölkəmizin ən möhtəşəm "Respublika" sarayında qeyd etməyə toplaşmışıq. Xoşbəxtik ki, bu günü neftçilərə əzizimiz cənab Heydər Əliyev xüsusi Fərmanla bağışlayıb və bununla həmişəki kimi neftçilərə bəslədiyi qayğısını və diqqətini yenidən xalqımıza nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Azərbaycanın tarixində, onun iqtisadiyyatının inkişafında, xüsusilə müstəqilliyinin möhkəmləndirilməsində neft sənayesinin və neftçilərin əməyini yüksək qiymətləndirərək, bu peşə bayramı ilə əlaqədar 105 nəfər neftçinin orden və medallarla təltif olunması barədə qərar qəbul etmişdir. Bu da bizi hədsiz sevindirir və ruhlandırır.

Bir faktı da qeyd etmək istərdim. Müstəqil dövlətimizin istiqlaliyyət gününün on illik yubileyi ərəfəsində xalqımızın lideri, möhtərəm dövlət başçımız tərəfindən verilən bu mükafatlar, ümumiyyətlə, bütün Azərbaycan neftçilərinin zəhmətinə verilən yüksək qiymətdir.

Möhtərəm cənab Prezident!

İcazə verin, 1969-cu ildən - respublikamıza başçılıq etdiyiniz dövrdən bu günə kimi neft sənayesinin inkişafı naminə əvəzsiz xidmətlərinizə və işlərinizə, neftçilərə daim göstərdiyiniz hörmətə, onların əməyini və adlarını uca tutaraq bu peşə bayramının yüksək səviyyədə keçirilməsi barədə qərar qəbul etdiyinizə görə bütün neftçilər adından Sizə dərin minnətdarlığımızı və səmimi təşəkkürümüzü bildirim.

Azərbaycan dünyanın ən qədim neft ölkəsi, ilk neft quyularının "beşiyi", neft emalının vətəni və dənizdə neftçıxarmanın paytaxtı sayılır. Odlar yurdu Azərbaycan neft və təbii qazla zəngindir. Neft sənayemizin böyük və mənalı tarixi var. Onun salnaməsi neftçilərimizin əmək qələbələrini, qəhrəmanlığını, kəşf və ixtiralarını əks etdirən səhifələrdən ibarətdir.

XIX əsrin axırı - XX əsrin əvvəlində Bakıda müşahidə olunan və dünyada o vaxta kimi görünməmiş "neft bumu", Sovet hakimiyyətinin ilk illərində və Böyük Vətən müharibəsində qələbə çalmaq üçün Azərbaycan neftçilərinin göstərdikləri əmək qəhrəmanlığı və xidmətlər, ötən əsrin 70-



ci illərində dəniz yataqlarının geniş işlənilməsi və Xəzərin daha dərin sularında zəngin yataqların kəşfi, mənimsənilməsi artıq tarixə çevrilmişdir. Lakin görülən nəhəng işlər və keçdiyimiz şanlı əmək yolu Azərbaycan xalqı üçün indi də iftixar mənbəyidir və hər zaman fərəh və qürur hissi ilə xatirələrdə qalacaqdır.

Xüsusilə qeyd etmək istərdim ki, möhtərəm Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində respublikamıza rəhbərlik etdiyi dövr neft sənayemizin intensiv inkişafı, sıçrayışlı tərəqqi illəri idi. Lakin əfsuslar olsun ki, respublikamızın müstəqilliyinin ilk illərində ölkənin digər sahələri ilə yanaşı, neft sənayesi də tənəzzülə uğramışdı. Azərbaycan o vaxt parçalanma ərəfəsində idi. Ölkəmizdə özbaşınalıq, anarxiya hökm sürürdü. Qeyri-qanuni silahlı dəstələr meydan oxuyurdular. Azərbaycanın ərazi bütövlüyü pozulmuş, torpaqları işğal olunmuş, ölkədə siyasi qarşıdurma və vətəndaş müharibəsi təhlükəsi son həddə çatmışdı. Belə bir vəziyyətdə vaxtilə yaradılmış güclü iqtisadiyyat son dərəcə zəifləmişdi. Təsərrüfat obyektləri dağılırdı. İstehsal olunan məhsulun həcmi ildən-ilə sürətlə aşağı düşürdü. Hətta iri zavod və fabriklər fəaliyyətini dayandırmışdı. Neft hasilatında da tənəzzül görünməmiş həddə çatmışdı.

Xalqın təkidli tələbi ilə məhz möhtərəm Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın neft sənayesi yeni inkişaf mərhələsinə qədəm qoydu. Möhtərəm Prezidentimiz Heydər Əliyev neft amilindən məharətlə istifadə etməklə müstəqil Azərbaycanın bu günü və sabahı üçün böyük tarixi əhəmiyyət kəsb edən yeni neft strategiyasını yaratdı və ardıcıllıqla həyata keçirərək, xalqımız və gələcək nəsillər üçün xoş güzəranın təməlini qoydu.

1994-cü ilin 20 sentyabr günü — "Əsrin müqaviləsi"nin imzalandığı gün neft sənayesində yeni eranın başlanması günü kimi tarixə yazıldı. Bu faktı artıq hamı etiraf edir və dəyərləndirir.

Neft sənayesinin maddi-texniki bazası möhkəmləndirildi. Dərin Dəniz Özülləri Zavodunun işi yenidən canlandırıldı. Müasir neft emalı obyektləri və iri tonnajlı kran-gəmiləri, "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" üzən qazma qurğuları istifadəyə verildi. Neçə-neçə zəngin neft və qaz yataqları açıldı. Xarici şirkətlərin vəsaitləri və imkanları iqtisadiyyatımızın inkişafı üçün cəlb olundu. "Əsrin müqaviləsi" qısa bir müddətdə reallığa çevrildi. 21 beynəlxalq müqavilə imzalandı. Bu müqavilələrdə dünyanın 15 ölkəsinin 34 ən iri şirkəti iştirak edir. Nəhayət, İstanbul zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəmərinin çəkilməsi haqqında beynəlxalq sazış imzalandı. Bütün bunlar möhtərəm Heydər Əliyevin dövlətimizin qüdrətlənməsi, xalqımızın rifahının yaxşılaşdırılması sahəsində titanik fəaliyyətinin yalnız kiçik bir hissəsidir.

Respublika Prezidenti möhtərəm Heydər Əliyevin diqqəti və köməyi nəticəsində, xüsusilə 70-ci illərdən başlayaraq yeni neft emal qurğuları tikilmiş, müasir texnologiya tətbiq edilmiş, yeni növ neft məhsullarının istehsalı mənimsənilmişdir. 1976-cı ildə "ELOU-ABT-6", 1980-ci ildə katalitik riforminq, 1981-ci ildə ikinci "ELOU-ABT-6" qurğusu, 1986-cı ildə neftin kokslaşdırılması, 1993-cü ildə katalitik krekinq, 1994-cü ildə 305 nömrəli emal qurğusu, 1995-ci ildə "ELOU-ABT-2", 2000-ci ildə yeni müasir tipli

2*

bitum qurğularının tikilib istifadəyə verilməsi, bir sözlə, dünya standartlarına uyğun neftayırma sənayesinin yaranması müstəqil Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab Heydər Əliyevin uzaqgörənliyinin nəticəsidir.

Qısa bir zamanda böyük müsbət nəticələr əldə olunmuşdur. Bu işlər artıq gözəl bəhrələr verməkdədir. İqtisadiyyatımızın göstəriciləri ildən-ilə yaxşılaşır. Bu da gələcək üçün geniş imkanlar yaradır. Mühüm hadisələr və əldə etdiyimiz parlaq nəticələr neftçilərin fədakarlığı ilə yanaşı, ilk növbədə, respublikamızın Prezidenti Heydər Əliyevin yorulmaz və fədakar əməyi, ardıcıllıqla və böyük uğurla apardığı daxili və xarici siyasəti, xalqın rifahı naminə gördüyü nəhəng işlər sayəsində mümkün olmuşdur.

Yalnız bir faktı qeyd etmək istərdim. Yeni neft strategiyasının həyata keçirilməsi, onun uğurla, mərhələ-mərhələ gerçəkləşdirilməsi üçün, bu yolda yaranan müxtəlif çətinlikləri və problemləri aradan qaldırmaq məqsədi ilə möhtərəm Prezidentimiz cənab Heydər Əliyev 1993-cü ildən başlayaraq yüksək səviyyələrdə 350-dən artıq görüş, habelə xarici neft şirkətlərinin başçıları ilə 60-dan çox görüş keçirmiş, qərarlar qəbul etmiş və onların yerinə yetirilməsi üçün zəruri göstərişlər vermişdir.

Hesab edirəm ki, nəzərdə tutduğumuz böyük layihələr və işlər hələ qabaqdadır. Əminəm ki, bu yolda neftçilərimiz bütün sınaqlardan uğurla çıxacaq, çətinlikləri aradan qaldıracaq, başladıqları işləri layiqincə davam etdirəcəklər.

Bu gün Dövlət Neft Şirkətinin başçısı kimi mən neft sənayesində çalışan bütün neftçilərə, xüsusilə yüksək əmək göstəriciləri əldə etmiş, müsbət nəticələr və uğurlar qazanmış fədakar insanlara dərin təşəkkürümü, sonsuz minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab Prezident!

Məmnunluq hissi ilə bildirmək istəyirəm ki, neft sənayesində insana qayğı həmişə diqqət mərkəzində olmuşdur və bu ənənə qorunub saxlanılır. Neftçilərin iş şəraiti gündən-günə yaxşılaşdırılır. Onların sağlamlığının qorunması üçün tədbirlər görülür. Neft sənayesində uzun illər çalışmış insanlara xüsusi diqqət yetirilir. Onlara daim qayğı göstərilir, maddi yardım edilir və müavinət ayrılır.

Neftçilər əmək cəbhəsində qazandıqları nailiyyətlərlə yanaşı, suveren respublikamızın müdafiəsi və ərazi bütövlüyü uğrunda döyüşlərdə də fədakarlıq göstərmişlər. Torpaqlarımızın müdafiəsi uğrunda erməni təcavüzkarlarına qarşı döyüşlərdə 305 nəfər şəhid olmuş, 211 nəfər əlil olmuşdur.

Cənab Prezident, Sizin tapşırıqlarınızı və göstərişlərinizi yerinə yetirərək, şəhidlərin adlarının əbədiləşdirilməsini, şəhid ailələrinə qayğı göstərilməsini, onlara maddi və mənəvi yardımlar edilməsini daim diqqət mərkəzində saxlayırıq. Məktəblərə, küçələrə, bağçalara, gəmilərə onların adı verilir, büstləri, abidələri, xatirə lövhələri qoyulur, xatirə kompleksləri yaradılır. Şəhid ailələrinin mənzillə növbədənkənar təmin olunması bütün əmək kollektivləri tərəfindən razılıqla qarşılanır və onlar bunu şəhidlərin ruhu qarşısında özlərinə borc hesab edirlər. Odur ki, onlar növbəyə dayandıqları andan imkan yaranan kimi mənzillə təmin olunurlar. 1995-2001-ci illərdə 88 şəhid ailəsi növbədənkənar mənzillə təmin edilmişdir.



Möhtərəm cənab Prezident!

Bu gün neftçilər ordusunu təmsil edən əməkçilərin kiçik bir hissəsi bu möhtəşəm "Respublika" sarayındadır. Onlar peşə bayramını böyük ruh yüksəkliyi və sevinc hissi ilə qeyd etməyə gəliblər. Neftçilərin ən böyük arzusu və istəyi Sizinlə şəxsən görüşməkdir. Onlar bir daha bildirmək istəyirlər ki, Azərbaycan neftçiləri daim Sizinlədir. Ətrafınızda sıx birləşərək, apardığınız siyasəti birmənalı şəkildə bəyənir, dəstəkləyirlər. Onlar bunu öz gərgin əmək fəaliyyətləri ilə hər zaman sübut etməyə hazırdırlar.

Diqqətinizə görə sağ olun.




Neft barədə düşüncələr

## "LUKOYL" ŞİRKƏTİNİN DÜNYA MİQYASINDA TANINMASI AZƏRBAYCANDA "ƏSRİN MÜQAVİLƏSİ"NDƏ İŞTİRAKINDAN BAŞLAYIR

### "LUKOYL" ŞİRKƏTİNİN YUBİLEYİ ŞƏRƏFİNƏ

2001-ci il, oktyabrın 12-də Rusiya Federasiyasının Azərbaycandakı səfirliyi və "LUKoyl" şirkəti "LUKoyl" Açıq Səhmdar Cəmiyyətinin yaradılmasının 10 illiyi münasibətilə "Gülüstan" sarayında rəsmi qəbul təşkil etmişlər.

Azərbaycan Prezidenti Heydər Əliyev qəbulda iştirak etmişdir. Salona toplaşanlar Azərbaycan Prezidentini alqışlarla qarşıladılar. Milli geyimli uşaqlar dövlətimizin başçısına xonça, duz-çörək təqdim etdilər.

"LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərov və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbulda nitq söylədilər.

**"LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərovun nitqi**

- Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti, çox hörmətli Heydər Əliyeviç!

Xanımlar və cənablar! Bu gün şirkətimizin 10 yaşı tamam olur. Biz bu günü burada, Azərbaycanda, Bakı şəhərində qeyd etməyi qərara aldıq. Bu, Bakı şəhərinə ehtiram əlaməti deyildir, bu, respublikaya ehtiram əlaməti deyildir, bu, respublikada yaşayan xalqa hörmət əlamətidir. O xalqa ki, XX əsrdə onun adı neftlə, qələbələrlə, yeni texnologiyaların tətbiqi ilə, dənizdəki yataqların işlənilməsi ilə qoşa çəkilmişdir. Bu, XX əsrdə nəinki Azərbaycanın və Sovet İttifaqının neft sənayesinə, eləcə də dünya iqtisadiyyatına, neft hasilatına, neft emalına, neft kimyasına olduqca böyük töhfə vermiş xalqa ehtiram əlamətidir.

Mən qürur duyur və xoşbəxtəm ki, bu gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mənə "Şöhrət" ordeni təqdim etdi.

Bu, təkcə mənim şəxsi xidmətlərimə ehtiram əlaməti deyildir, bu, həm də şirkətimizə, indi Azərbaycanda da, dünyanın başqa yerlərində də çalışan çoxminlik kollektivə ehtiram əlamətidir. Bu, şirkətimizə ehtiram əlamətidir. Heydər Əliyeviç, şirkətimiz Sizə, Azərbaycana minnətdardır ki, 1994-cü ildə Sizin iştirakınızla bu salonda ilk müqavilənin imzalanmasında "LUKoyl" da iştirak etdi və onu bütün dünya tanıdı. Yalnız bu müqavilə sayəsində biz "LUKoyl" olaraq beynəlxalq neft şirkətinə çevrildik. O gündən, 1994-cü ilin sentyabrından etibarən bizim haqqımızda danışmağa başladılar. İndi 80 milyon ton neft istehsal edən, Rusiyanın ikinci ən böyük vergi ödəyicisi olan, dövriyyəsi artıq 13 milyard dolları keçən şirkətimizin bünövrəsi həm də o uzaq, Azərbaycan Respublikası üçün ağır 1994-cü ildə bu salonda qoyulmuşdur.

Heydər Əliyeviç, o il, o gün Sizin qətiyyətiniz şirkətimizə də, bu gün demək istəyirəm, şəxsən mənə də, görünür, elə bir şəxsiyyət olmağa imkan



verdi ki, indi onunla nəinki keçmiş Sovet İttifaqı məkanında, həm də ümumən dünyada hesablaşırlar.

Mən Rusiya ilə Azərbaycan arasında dostluğun şərəfinə badə qaldırmaq istəyirəm. Vladimir Vladimiroviç Putinin Azərbaycana 2001-ci ilin yanvarında rəsmi səfəri zamanı formalaşmış münasibətlərin şərəfinə badə qaldırmaq istəyirəm. Heydər Əliyeviç, biz əminik ki, Sizin cavab səfəriniz Rusiya və Azərbaycan biznesmenlərinə biznesdə yeni zirvələrin fəth edilməsi üçün yeni layihələr yaradılmasında, qarşılıqlı inteqrasiyada irəliyə doğru daha bir addım, güclü addım atmağa imkan verəcəkdir.

Heydər Əliyeviç, mən Sizin şərəfinizə, Sizin sağlığınıza, müasir dövrün böyük xadiminin şərəfinə, Sizin rifahınız şərəfinə və Azərbaycan xalqının şərəfinə badə qaldırmaq istəyirəm.

***

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev nitq söylədi.

### AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab səfir! Hörmətli Vahid Ələkbərov!

Hörmətli qonaqlar! Hörmətli xanımlar və cənablar!

Mən sizi və Rusiya Federasiyasının "LUKoyl" şirkətində çalışan 120 minlik kollektivi "LUKoyl" şirkətinin yaranmasının 10-cu ildönümü münasibətilə ürəkdən təbrik edirəm, sizə, "LUKoyl"a gələcək uğurlar arzulayıram.

"LUKoyl" şirkətinin yaşı Azərbaycanın dövlət müstəqilliyinin yaşı ilə bərabərdir. Biz bu günlər Azərbaycanın dövlət müstəqilliyini bayram edirik, qeyd edirik. Bu, bizim üçün ən böyük bayramdır. Bu günlərdə Rusiya Federasiyasının "LUKoyl" şirkətinin 10-cu ildönümü qeyd olunur. Mən çox məmnunam ki, "LUKoyl" şirkəti 10-cu ildönümünü, təbiidir ki, Rusiyanın paytaxtı Moskvada keçirəndən sonra Azərbaycanda, Bakıda da bizimlə bir yerdə keçirmək qərarına gəlibdir. Mən təşəkkür edirəm. Təbiidir ki, bunun əsası var. Ancaq ola bilərdi ki, bunu o qədər də qiymətləndirməsinlər. Həqiqətən, "LUKoyl" şirkətinin dünya miqyasında tanınması Azərbaycanda ilk neft müqaviləsinin, "Əsrin müqaviləsi"nin bağlanmasından başlayır.

O illər çox ağır, çətin illər idi. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan hələ 1988-1989-cu illərdən başlayaraq öz torpaqlarının müdafiəsinə qalxmışdı, müharibə gedirdi, qan tökülürdü. Ancaq bununla yanaşı, müstəqil Azərbaycan dövləti Azərbaycanın gələcəyini düşünərək, 1993-cü ildə Azərbaycanın zəngin təbii sərvətləri olan neft və qaz yataqlarının dünyanın böyük və müasir texnikaya, texnologiyaya malik olan, sərmayə qoymaq imkanı olan şirkətləri ilə müqavilələr bağlayıb, birgə işləməyi qərara aldı. Bir də deyirəm, 1993-cü il idi, müharibə gedirdi, qan tökülürdü, Azərbaycanda insanlar çox ağır vəziyyətdə yaşayırdılar.

1993-cü ildə Azərbaycan parçalanmaq təhlükəsi qarşısında idi. Vətəndaş müharibəsi başlamışdı. Biz bunların qarşısını alırdıq. Yəni bizim ən birinci vəzifəmiz bunlardan ibarət idi. Ancaq düşünürdük ki, biz bunların qarşısını mütləq alacağıq, sonrakı günlər isə Azərbaycanın iqtisadiyyatını inkişaf etdirməliyik. Bunun üçün də biz bu işlərlə də məşğul olurduq.

Xatırlayıram, 1993-cü ildə bu müqavilənin hazırlanması üçün nə qədər gərgin mübarizə gedirdi. Burada bəzi fırıldaqçılar bu müqavilədən öz mənafeləri üçün istifadə etmək istəyirdilər. Başqa ölkələrdən bu müqavilənin əleyhinə olan və müqavilənin baş tutmasının qarşısını almaq istəyənlər meydana düşdülər. Ancaq biz bütün bu çətinliklərin içərisindən çıxdıq, düz yol tutduq. 1993-cü ilin sonunda, 1994-cü ilin əvvəlində Azərbaycan Dövlət Neft Şirkəti mütəxəssislərinin böyük bir qrupu əvvəlcə Azərbaycanda, sonra İstanbulda, sonra Hyüstonda bu müqavilənin hazırlanması ilə məşğul oldular. Nəhayət, müqavilə hazır oldu.

O vaxt bizim bu sahədə təcrübəmiz yox idi, bu işlər bizim üçün çox yeni idi. Ancaq bizim neft sənayesi sahəsində böyük təcrübəmiz vardı. Biz öz sərvətlərimizin qiymətini bilirdik, öz sərvətlərimizdən ən səmərəli şəkildə istifadə etmək üçün lazımi tədbirlər görürdük. Bu danışıqlar, bu dartışmalar xeyli vaxt apardı. Hər bir şirkət öz mənafeyini güdürdü. Biz də başa düşürdük ki, əgər belə böyük müqavilə hazırlanırsa, hər bir tərəfin mənafeyi təmin olunmalıdır. Ancaq eyni zamanda, Azərbaycanın mənafeyi birinci növbədə təmin olunmalıdır. Çünki Azərbaycan bu sərvətlərin sahibidir, bu enerji ehtiyatlarının sahibidir. Əgər öz təbii sərvətlərimizdən, öz xalqına, öz dövlətinə məxsus olan sərvətlərdən başqa şirkətlərlə birlikdə istifadə etmək istəyiriksə, demək, Azərbaycanın mənafeləri birinci növbədə təmin olunmalı idi.

Bizim adamlar bu barədə təcrübə topladılar. Xatirimdədir, son dəfə bizim qrupumuz 45 gün Amerika Birləşmiş Ştatlarının Hyüston şəhərində gecə-gündüz çalışdı ki, bu müqavilə hazırlansın və hazırlandı. 1994-cü ilin sentyabr ayında burada, bu mötəbər "Gülüstan" sarayında - artıq bu saray tarixi məna daşıyır - biz bu müqaviləni imzaladıq. O vaxt bizim bu müqaviləyə maraq göstərənlər Amerika Birləşmiş Ştatlarının şirkətləri idi. Avropanın bəzi ölkələrinin şirkətləri idi. Ancaq eyni zamanda, bu müqaviləyə Rusiyada da maraq var idi. Amma irəliyə çıxan yalnız və yalnız "LUKoyl" oldu. "LUKoyl" da ilk gündən bizim hazırlıq işlərimizdə iştirak etdi və müqaviləni imzaladı. Beləliklə də, dünyanın məşhur, çox zəngin neft şirkətləri ilə eyni sırada durdu.

"LUKoyl" şirkətinin yaranması Sovetlər İttifaqının dağılmasının nəticəsidir. Azərbaycanın və Sovetlər İttifaqına mənsub olan digər müttəfiq respublikaların dövlət müstəqilliyini elan etməsi SSRİ-nin dağılması ilə əlaqədardır. Millət kimi, xalq kimi və respublika kimi, təbiidir ki, biz öz müstəqilliyimizi arzu edirdik və SSRİ dağılan kimi bu müstəqilliyi elan etdik. Ancaq biri var ki, xalq, dövlət müstəqilliyini elan edir və müstəqil yaşamaq istəyir. Biri də var ki, keçmiş sistem, yəni sosialist iqtisadi sistemi birdən partlayır, yeni bazar iqtisadiyyatı yoluna düşən bir şirkət əmələ gəlir. Bu da "LUKoyl" şirkəti idi. Yeganə şirkətdir. Rusiyada belə şirkətlər ondan sonra yaranıbdır. Amma "LUKoyl" qabaqda gedəndir. "LUKoyl" Rusiyanın bütün başqa iqtisadi qurumlarına bazar iqtisadiyyatına keçmək və yeni iqtisadi prinsiplər əsasında işləmək üçün yol açdı. "LUKoyl"un yaradılması təşəbbüsünü birinci növbədə şirkətin prezidenti Vahid Ələkbərov ortaya atdı.

"LUKoyl"u dünya şirkətləri sırasına çıxaran digər amil Azərbaycan ilk neft müqaviləsini hazırlayarkən "LUKoyl"u qəbul etməsidir.



Çünki biz də anlayırdıq ki, gərək elə şirkətlərlə müqavilə imzalayaq ki, onlar tamamilə etibarlı olsunlar. Onların vəsaiti olsun, onlar başqa şirkətlərlə bir sürətlə gedə, ayaqlaşa bilsinlər. "LUKoyl" belə bir zamanda yarandı, belə bir yola düşdü. İndi görürsünüz, Vahid Ələkbərov "LUKoyl"un bugünkü vəziyyəti haqqında bir neçə rəqəmlə məlumat verdi. O, on il əvvəl yaransa da, onun əsas inkişafı, Vahidin dediyinə görə, elə 7 il bundan öncə - bizim müqavilənin imzalanmasından başlayır. Bu müddətdə nə qədər inkişaf edibdir. 80 milyon tona qədər neft hasil edirlər. 120 min insan çalışır və təbiidir ki, bu 120 min insan yeni iqtisadi sistem içərisində iş yeri alıbdır, eyni zamanda onlar yüksək dərəcədə təmin olunan insanlardırlar. Rusiyanın bazar iqtisadiyyatı yolu ilə getməsində "LUKoyl" şirkətinin böyük rolu vardır.

"LUKoyl" Azərbaycanda bizimlə bərabər işə başladı və çox uğurlu başladı. İndiyə qədər "LUKoyl" Azərbaycana təxminən 500 milyon dollar sərmayə qoyubdur. Səhv etmirəmsə, bizim müqaviləyə 242 milyon dollar sərmayə qoyubdur. Ancaq indi oradan öz mənfəətini götürür. Qoyduğu sərmayənin 87 faizini götürübdür. Görürsünüz, artıq 87 faizini alıbdır. Beləliklə, "LUKoyl" həm Rusiya üçün irəlidə gedən və Rusiyanın iqtisadi islahatlarının inkişaf etməsində xüsusi rol oynayan bir şirkətdir. Həm də indi o, dünyada məşhur olan şirkətdir. "LUKoyl" gedib Amerika Birləşmiş Ştatlarında benzindoldurma stansiyaları yaradıb, Amerika Birləşmiş Ştatlarında onun 1400 benzindoldurma stansiyası var. Düzdür, Azərbaycanda da var, 15 dənədir.

Çox rəqəmlər demək olar. İndiyə qədər biz 21 müqavilə imzalamışıq. Bu müqavilələrdə 14 ölkədən 32 neft şirkəti iştirak edir. 21 müqavilənin 5-də "LUKoyl"un payı var və bir neçə müqavilədə çox uğurla iştirak edir.

İndi "LUKoyl" istehsal həcminə və iqtisadi potensialına görə dünya şirkətləri içərisində dördüncü yerdədir. "Ekson", "BR", "Şevron-Teksako" və sonra da siz. Bu, sizin üçün kifayətdir.

Vahid ƏLƏKBƏROV: Cənab Prezident, daha da irəliyə getmək lazımdır.

Heydər ƏLİYEV: Bilirsən, əgər siz bu müddət ərzində belə güclü sıçrayış edə və dünyada dördüncü yer tuta bilmisinizsə, bu, böyük işdir. Bunda Azərbaycanın da xidməti var. Bu xidmətin nədən ibarət olduğunu mən izah etdim. Ancaq eyni zamanda "LUKoyl"un bu cür sıçrayış etməsi, təbiidir ki, onun prezidentinin, işgüzarlığından, bacarığından, öz işinə sadiq olmasından çox-çox asılıdır. Bu da bizim həmyerlimiz, Azərbaycanın yetişdirməsi Vahid Ələkbərovdur.

Mən bu gün Vahid Ələkbərova Azərbaycanın yüksək mükafatını, "Şöhrət" ordenini təqdim edərkən, Azərbaycan neftçilərinin keçmiş SSRİ məkanında nə qədər böyük xidmətlər göstərdiklərini dedim. Onlardan birini də, yəni ən ucaya qalxanlardan biri də Vahid Ələkbərovdur. O, 1974-cü ildə Azərbaycanın Neft-Kimya İnstitutunu bitiribdir. Sən onda işə təzəcə başlamışdın, biz burada, Azərbaycanda quruculuq işləri aparırdıq. Sonra 1979-cu ilə qədər burada "Xəzərdənizneft"də işləyibdir. Ondan sonra fikirləşib ki, yox, mənim üçün daha geniş bir sahə lazımdır. Sibirə, Tüмenə gedibdir.

Mən bu gün orada da dedim, burada da deyirəm: Azərbaycanda neft sahəsində irəlidə olmaq hər adama nəsib olmur. Ancaq bu, kiçik bir respublikadır, əhalisi də azdır, az deyil, özümüzə görə var, amma başqalarına nisbətən azdır. Amma Rusiya kimi böyük bir dövlətdə, ondan qabaq SSRİ kimi böyük bir dövlətdə bu cür inkişaf etmək və cəmiyyətdə öz yerini tutmaq, təbiidir ki, adi bir hal deyildir. Bu, hər adama nəsib olmur.

Eyni zamanda bu, göydən də düşmür. Bu, insanın biliyindən, fitri istedadından, bacarığından və işinə sədaqətindən asılıdır. Bunların da kökü Azərbaycandadır. Hər bir belə insanların mütləq genetik xüsusiyyətlərini axtarmaq lazımdır. Vahid Ələkbərovun genləri Azərbaycandandır. Azərbaycandan olan bu genlər gör nə qədər güclüdür ki, o, gedib belə böyük işlər görür və "LUKoyl" şirkəti Rusiyanın iqtisadiyyatında öz böyük payını verir. Bunlar hamısı sevindirici hallardır.

Mən çox böyük sevinc hissi keçirirəm ki, biz bu günü "LUKoyl"a həsr etmişik. Mən Azərbaycanın yüksək mükafatını - "Şöhrət" ordenini təqdim etdim, sonra hamımız birlikdə böyük rus şairi, dünyanın böyük ədəbiyyat və mədəniyyət şəxsiyyətlərindən biri Aleksandr Sergeyeviç Puşkinin Azərbaycanda qoyulmuş heykəlini, abidəsini açdıq. İndi də gəlmişik, bu gözəl salonda işimizi davam etdiririk. Bu gün Azərbaycanda həm dövlət müstəqilliyinin 10-cu ildönümü günləridir, həm də bu gün Azərbaycanda bizim üçün doğma olan "LUKoyl" şirkətinin günüdür.

Əziz dostlar, mən sizi bir də təbrik edirəm. "LUKoyl"u təbrik edirəm. "LUKoyl"un prezidenti Vahid Ələkbərovu təbrik edirəm. Rusiya Federasiyasını təbrik edirəm. Rusiya Federasiyasının Prezidenti hörmətli cənab Vladimir Putinə buradan öz hörmət-ehtiramımı və səmimi dostluq salamlarımı göndərirəm. Təklif edirəm ki, badələri "LUKoyl"un şərəfinə, "LUKoyl"un prezidenti Vahid Ələkbərovun şərəfinə, Rusiya-Azərbaycan dostluğunun və qarşılıqlı surətdə faydalı əməkdaşlığının şərəfinə, rus və Azərbaycan xalqlarının dostluğu şərəfinə qaldırasınız. Sağ olun.

(Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı).



# "LUKOYL" RUSİYA İLƏ AZƏRBAYCAN ARASINDAKI İQTİSADİ ƏLAQƏLƏRİN İNKİŞAF ETMƏSİNDƏ XÜSUSİ ROL OYNAYIR

## RUSİYA FEDERASİYASININ "LUKOYL" NEFT ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROVA "ŞÖHRƏT" ORDENİ TƏQDİM OLUNMUŞDUR

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

2001-ci il oktyabrın 12-də Azərbaycan Prezidentinin iqamətgahında Rusiya Federasiyasının "LUKoyl" neft şirkətinin prezidenti Vahid Ələkbərova ölkəmizin yüksək mükafatı - "Şöhrət" ordeni təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli fərmanı ilə Vahid Ələkbərov şirkətin yaradılmasının 10 illiyi münasibətilə bu yüksək mükafata layiq görülmüşdür.

Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə iştirak etmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mərasimdə nitq söylədi.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Bu gün burada Moskvanın nümayəndələri var. Mənə elə gəlir ki, onlar mənim çıxışımın mətnini sonra rus dilində oxuya bilərlər. Amma mən Rusiya şirkəti olan "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərova "Şöhrət" ordenini təqdim edərkən dövlət dilində, doğma Azərbaycan dilində bir neçə kəlmə demək istəyirəm!

Hörmətli Vahid Ələkbərov!

Mən çox məmnunam ki, bu gün sənə Azərbaycan Respublikasının yüksək mükafatının - "Şöhrət" ordeninin təqdim olunması mərasimində iştirak edirəm. İndi artıq müstəqil Azərbaycanın hər şeyi var. O cümlədən yüksək mükafatları da var, ordenləri də var. Onların içində çox yüksək statusa malik olan bir orden də "Şöhrət" ordenidir

Biz adətən öz ordenlərimizlə öz vətəndaşlarımızı təltif edirik. Amma çox nadir hallarda başqa ölkələrin vətəndaşlarını da təltif edirik. Amma sənin təltif olunmağın bütün bunların hamısından fərqlidir. Çünki sən azərbaycanlısan, burada doğulmusan, burada böyümüsən, burada təhsil almısan. Sonra həyat fəaliyyətinin çox hissəsini Rusiyada keçirmisən, Rusiya vətəndaşısan və Rusiyanın ən böyük neft şirkəti olan "LUKoyl" şirkətinin prezidentisən. Bu, bizim xalqımız üçün iftixar hissidir ki, azərbaycanlı, Azərbaycanın yetişdirməsi indi dünyanın böyük dövlətlərindən biri olan Rusiyanın ən aparıcı neft şirkətinin prezidentidir.

Vahid Ələkbərovun tərcümeyi-halını yəqin ki, burada oturanlar bilirlər. Amma bir neçə kəlmə demək istəyirəm ki, onun 50 yaşı keçən il tamam

olubdur, cavandır. Azərbaycanda, Bakıda anadan olub, azərbaycanlıdır, həm orta təhsilini, həm də ali təhsilini burada alıbdır. Təkcə Azərbaycanda yox, hesab edirəm ki, bütün dünya miqyasında çox böyük hörmətə malik olan Neft-Kimya İnstitutunu, - indi Neft Akademıyası adlandırılır, - 1974-cü ildə bitiribdir. Neft sahəsində yüksək mütəxəssis diplomu alıbdır. Sonra isə Azərbaycanın neft sənayesində, "Xəzərdənizneft" birliyində müxtəlif işlərdə işləyibdir. 1979-cu ildə Sibirə gedib, orada iş fəaliyyətini davam etdirib və böyük nailiyyətlər əldə edibdir. Bu, bir tərəfdən qeyri-adi haldır. Amma ikinci tərəfdən də tamamilə təbiidir. Çünki Azərbaycan keçmişdə dünyanın ən böyük neft mərkəzlərindən biri idi. Rusiya İmperatorluğu zamanı, keçən əsrin əvvəlində Azərbaycan dünyada hasil olan neftin 50 faizini verirdi.

İkinci Dünya müharibəsi zamanı alman faşizmi dünyaya böyük faciələr gətirdiyi zaman Sovet İttifaqı onun qarşısını almaq üçün müharibəyə başladı. Ancaq bütün mütəxəssislər, tarixçilər, bütün tədqiqatçılar həmişə etiraf edirlər ki, o zaman, o illərdə Azərbaycan SSRİ-də hasil olan neftin 70 faizini verirdi. Bu fikir də tam həqiqətdir ki, əgər Azərbaycanın nefti olmasaydı, - amma neftin olmağı öz-özlüyündə o qədər də böyük əhəmiyyət kəsb etmir, - əgər Azərbaycan xalqı, Azərbaycanın neftçiləri o ağır dövrdə, ağır şəraitdə gecə-gündüz çalışaraq neft hasil edib, çox çətin yollarla onu Rusiyaya, cəbhəyə göndərə bilməsəydilər, bəlkə də alman faşizmi Şərqə doğru, o cümlədən Qafqaza, bizim bu torpaqlara doğru hücumunu davam etdirə bilərdi. Bəlkə də İkinci dünya müharibəsində SSRİ məğlub ola bilərdi. Bu da o demək idi ki, faşizm dünyada qələbə çala bilərdi.

Mən bununla onu demək istəyirəm ki, Azərbaycan həm qədim neft diyarıdır, həm də neft sahəsində çox yüksək səviyyəli mütəxəssislər hazırlayıb keçmiş SSRİ-nin bütün bölgələrinə öz xidmətini göstərən bir ölkədir. Dəfələrlə deyilibdir ki, SSRİ-də "İkinci Bakı", "Üçüncü Bakı", "Dördüncü Bakı" adlanan yerlər indi Rusiyanın ən güclü neft hasilatı bölgələridir. Onların adını nə üçün ikinci, üçüncü, dördüncü Bakı qoyurdular? Çünki birincisi, ümumiyyətlə, "Bakı-neft, neft-Bakı" ifadəsi eyni məna daşıyırdı. İkincisi isə, həmin bölgələrdə neftin aşkar olunmasında neft yataqlarının işlənilməsində Azərbaycanda yetişmiş kadrların çox böyük xidmətləri olmuşdur. İndi həmin bölgələrdə hər yerdə azərbaycanlıya rast gəlmək olar. Çoxları da böyük xidmətlər göstəriblər, orada məskunlaşıblar, orada yaşayırlar və Rusiyaya xidmət edirlər. Amma bizim üçün əhəmiyyətlidir ki, Azərbaycan xalqının nəyə qadir olduğunu bir daha nümayiş etdirirlər.

Çox adlar çəkmək olar. Məsələn, bizim hamımızın çox hörmət etdiyimiz Nikolay Konstantinoviç Baybakov Azərbaycanda doğulub və burada böyük işlər görəndən sonra gedib Rusiyanın bir neçə bölgələrində çalışıbdır. Uzun müddət neft sənayesi naziri işləyib və SSRİ hökumətinin başında duran adamlardan biri olubdur. Yaxud mərhum Sabit Orucov çox dəyərli bir neftçi idi. Azərbaycanda, Xəzər dənizində neftin aşkar olunmasında və onun hasil edilməsində Sabit Orucovun böyük xidmətləri olmuşdur. Amma ondan sonra o həyat fəaliyyətinin çox hissəsini Rusiyada keçirmişdi. Krasnodar vilayətində, Sibirdə, başqa yerlərdə. Mən bunların hamısını kitablardan yox, ayrı-ayrı qəzetlərdən yox, şəxsi təmaslarımdan deyirəm. Çünki bu adamların hamısı ilə mən uzun illər əlaqədə olmuşam, dostluq əlaqələri də



olubdur. Sabit Orucov da, hesab edirəm ki, o vaxtkı SSRİ-nin həm neft, həm də qaz sənayesinin inkişaf etməsində çox böyük xidmətlər göstərmişdi və SSRİ-nin qaz sənayesi naziri təyin olunmuşdu.

Mənim xatirimdədir, o, Şimal dənizində və Rusiyanın Tümen bölgəsində böyük qaz yataqlarının olduğunu dəfələrlə demişdi. O vaxt mən burada, Azərbaycanda işləyərkən mənə müraciət etmişdi. Mən onun məktublarını bir neçə dəfə keçmiş SSRİ-nin rəhbəri Brejnevə çatdırmışdım, onu qəbul etmişdi. Məhz onun təşəbbüsü ilə SSRİ-də Xüsusi Qaz Sənayesi Nazirliyi yarandı. İndi də qazın Rusiya dövləti üçün nə qədər böyük sərvətlər gətirdiyi göz qabağındadır. Keçmişdən belə faktlar çox çəkmək olar. Ancaq biz çox şadıq ki, bu gün də biz belə faktlarla fəxr edə bilərik. İndi onların davamçısı, çox böyük işlərlə məşğul olan, bizim həmyerlimiz Vahid Ələkbərovdur.

Mən onun həyatı və fəaliyyəti haqqında qısaca dedim. Buradan gedib Sibirdə iş görmək və orada inkişaf etmək, böyük sahələrə rəhbərlik etmək asan məsələ deyildir.

Birincisi, mən yaxşı bilirəm, oranın iqlimi çox sərtdir, belə şəraitdə hər adam yaşaya bilmir. İkincisi də, təbiidir, ora Azərbaycan deyil, Rusiyadır. Orada çox hazırlıqlı, bilikli insanlar var. Bizim Azərbaycanda bir xalq məsəli var: belə şəraitdə baş çıxarmaq böyük qəhrəmanlıqdır. Vahid Ələkbərov orada nəinki baş çıxarıb, hətta çox böyük vəzifələr tutub, keçmiş SSRİ-də neft sənayesi nazirinin birinci müavini təyin olunubdur. Ondan sonra isə "LUKoyl" adında bir şirkətin yaradılmasının təşəbbüskarı olubdur. İndi on ildir ki, bu şirkətə rəhbərlik edir.

"LUKoyl"un yaranması Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi ilə bir dövrə düşür. Güman edirəm ki, SSRİ-nin dağılması, müttəfiq respublikaların öz müstəqilliyini, istiqlaliyyətini elan etməsi və Azərbaycanın da dövlət müstəqilliyini elan etməsi, bu dövr artıq keçmiş SSRİ məkanında iqtisadiyyatın müxtəlif sahələrində yeni idarəetmə formalarının istifadə olunmasını tələb edirdi.

Mən məmnuniyyətlə deyə bilərəm ki, Vahid Ələkbərov bu barədə ən qabaqcıl adamlardan biridir. Məlumdur ki, "LUKoyl" şirkəti Rusiyada yaranmış birinci səhmdar cəmiyyətdir, ayrıca şirkətdir, əvvəl konsern, sonra səhmdar cəmiyyət kimi çox böyük yer tutur. Dünyanın ən böyük neft şirkətləri ilə rəqabət aparır. Əgər mən səhv etmirəmsə, dünyanın böyük şirkətləri içərisində üçüncü, dördüncü yerdə durur.

Təbiidir ki, belə bir yeni iqtisadi sistemdə 10 il müddətində bu qədər nailiyyətlər əldə etmək asan deyildir. Bunun təşkilatçısı, yaradıcısı bizim həmyerlimiz hörmətli Vahid Ələkbərovdur. Bizim üçün ən əhəmiyyətlisi odur ki, Vahid Ələkbərov "LUKoyl" şirkətini yaradandan sonra yenə də öz fəaliyyətinin böyük bir hissəsini Azərbaycanla bağlayıbdır. 1994-cü ilin sentyabr ayında imzalanmış və müstəqil Azərbaycanın neft strategiyasının əsasını qoyan "Əsrin müqaviləsi"ndə "LUKoyl" şirkəti də iştirak edir.

Bəzən bizə deyirlər ki, nə üçün Azərbaycanın təbii sərvəti olan neft və qaz yataqlarının işlənilməsi üçün Qərb ölkələrinin şirkətlərini dəvət edirik. Biz hamını dəvət etdik. Amerikada olan şirkətləri də, Avropada olan şirkətləri də. Ancaq Rusiyada olan şirkətlərdən bu işə yeganə qoşulan "LUKoyl"

şirkəti oldu. Güman edirəm bu, bir tərəfdən, Ələkbərovda vətənpərvərlik hissindən irəli gəlmişdisə, ikinci tərəfdən, ən əsası ondan irəli gəlmişdi ki, artıq bu şirkət dünyanın həmin o böyük şirkətləri ilə bərabər böyük işlər görmək, sərmayə qoymaq və bu cür böyük müqavilələrdə iştirak etmək iqtidarına malikdir. Bundan sonra da bir çox müqavilələrdə iştirak ediblər. İndi "LUKoyl" Azərbaycanın neft strategiyasının həyata keçirilməsində, ölkəmizin dünyanın böyük neft şirkətləri ilə birlikdə apardığı işlərdə fəal iştirak edir və qabaqcıl yerlərdən birini tutur. Bu, onun və şirkətinin bilavasitə fəaliyyətidir. Amma bu fəaliyyətin başqa mənası da ondan ibarətdir ki, "LUKoyl" Rusiya ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin inkişaf etməsində xüsusi rol oynayır.

Mən dəfələrlə demişəm, bu gün də bildirmək istəyirəm ki, biz Rusiya ilə dostuq, qonşuyuq, bizim qədim əlaqələrimiz var. Bizim iqtisadiyyatımızı inkişaf etdirmək üçün Rusiya-Azərbaycan iqtisadi əlaqələrinin çox böyük imkanları vardır. Ancaq bu imkanlardan istifadə etmək lazımdır. Təbiidir, bunun üçün biz də çalışmalıyıq. Amma eyni zamanda Rusiyanın müxtəlif iqtisadi strukturları da buna maraq göstərməlidir. "LUKoyl" şirkəti maraq göstəribdir. Biz ona böyük imkanlar yaratmışıq və hesab edirəm ki, hələ gələcəkdə də "LUKoyl" buradan öz faydasını götürəcəkdir. Buraya sərmayə qoyubdur və artıq indi bundan mənfəət alır. Artıq o qoyduğu sərmayənin əvəzinə gəlir götürür. Ona görə də burada həm "LUKoyl" üçün, həm də bizim üçün bunun kommersiya əhəmiyyəti var. Amma eyni zamanda bu, təbiidir ki, Rusiya-Azərbaycan əlaqələrini bütün sahələrdə inkişaf etdirmək üçün çox əhəmiyyətlidir.

Təsadüfi deyil ki, "LUKoyl" onillik yubileyini Rusiyada qeyd edəndən sonra onu Azərbaycanda da qeyd etmək qərarına gəlibdir. Biz də bunu məmnuniyyətlə qəbul etmişik. Bax, bütün bu fəaliyyətlərinə görə, birinci növbədə, Rusiya ilə Azərbaycan arasında bu 10 il ərzində iqtisadi əlaqələrin inkişaf etməsində göstərdiyi böyük xidmətlərə görə Vahid Ələkbərov müstəqil Azərbaycanın "Şöhrət" ordeni ilə təltif olunubdur.

Mən bu gün böyük məmnuniyyətlə Azərbaycanın bu yüksək mükafatını dostumuz, həmyerlimiz Vahid Ələkbərova təqdim edirəm. Ona cansağlığı, bütün işlərində uğurlar və "LUKoyl" şirkətinin Azərbaycan ilə əlaqələrinin bundan sonra daha da inkişaf etməsini arzu edirəm. Eyni zamanda arzu edirəm ki, Rusiyanın başqa böyük şirkətləri də "LUKoyl"-Azərbaycan əlaqələrindən özləri üçün nümunə götürsünlər. Biz onların hər biri ilə bu cür əməkdaşlıq etməyə hazırıq.

Elə bilirəm ki, siz hamınız mənim dediklərimi başa düşdünüz. Vahid, bu mükafat münasibətilə mən səni ürəkdən təbrik edirəm. Mən buradakıları sənin həyat yolun, fəaliyyətin barədə məlumatlandırdım. Mən müstəqil Azərbaycanın bu yüksək mükafatını böyük sevinc hissi ilə sənə təqdim edirəm.

***

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərova "Şöhrət" ordenini və onun vəsiqəsini təqdim etdi.



Dövlətimizin başçısı ona müstəqil Azərbaycanın neft strategiyasına, o cümlədən də Rusiyanın "LUKoyl" şirkətinin ölkəmizin ərazisində fəaliyyətinə həsr olunmuş kitab da bağışladı.

Mərasimdə "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərov çıxış etdi.

## "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərovun çıxışı



- Çox hörmətli Azərbaycan Respublikasının Prezidenti, möhtərəm Heydər Əliyeviç!

Xanımlar və cənablar!

Bu gün mənim həyatımda ən xoşbəxt gündür. Heydər Əliyeviç, bu gün mükafatı mənə Sizin şəxsinizdə Vətənim təqdim etdi. Mən xoşbəxt adamam. Mən bütün bu illər ərzində vicdanla xidmət etdiyim üç dövlətin mükafatları ilə - Sovet İttifaqının mükafatları, Rusiya Federasiyasının mükafatları ilə təltif olunmuşam və bu gün Sizdən Azərbaycanın "Şöhrət" ordenini qəbul edirəm.

Respublikamın ərazisində yaşadığım, oxuduğum, işlədiyim illərdə, Qərbi Sibirdə çalışdığım bütün illərdə, - Siz öz nitqinizdə mənim əmək fəaliyyətimin bütün bu mərhələlərini qeyd etdiniz, - mən həmişə qürur hissi duymuşam ki, azərbaycanlıyam. Bu gün mən rusiyalıyam, ancaq fəxr edirəm ki, milliyyətcə azərbaycanlıyam. Mən vətənimin hara olduğunu həmişə xatırlayıram və mənim üçün elədiklərinə görə həmişə minnətdaram.

Bu gün mən bu mükafatı alarkən aydın başa düşürəm ki, onu Rusiyanın başçısı olduğum "LUKoyl" neft şirkətinin çox böyük kollektivi qəbul edir. Bu, kollektivimizin yeddi ildə Azərbaycan ərazisində gördüyü işlərə görə verilmiş mükafatdır. Bu, Sizin 1994-cü ildən - burada xarici şirkətlərin fəaliyyəti üçün şərait yaratdığınız, bütün postsovet məkanında misilsiz sərmayə mühiti yaratdığınız və indi Azərbaycanın və onun xalqının rifahına işləyən sərmayələrin buraya gəldiyi vaxtdan bəri kollektivimizin fəal işinə verilmiş mükafatdır.

Mən bu gün həyəcanlıyam və görünür, bu, təbii haldır, axı, mükafatı elə bir insanın əlindən qəbul edirsən ki, indi o, həm Azərbaycanın neft sənayesinin inkişafını təcəssüm etdirir, həm də vaxtilə, xüsusən ən keşməkeşli 80-ci illərdə Sovet İttifaqının sənayesinin inkişafını təcəssüm etdirirdi. O, elə bir insandır ki, Azərbaycanın ən yeni tarixi onun adı ilə yazılır. Heydər Əliyeviç, çox sağ olun. Mən bir şeyi demək istəyirəm. Mən Rusiya üçün işləmək istəyirəm, mən Azərbaycan üçün işləmək istəyirəm, arzum budur ki, Siz hələ uzun illər belə gümrah olasınız, belə nadir yaddaşa malik olasınız.

Bu gün mən özüm haqqında o qədər şeylər eşitdim ki, onları artıq çoxdan unutmuşdum. Mən Sizə cansağlığı və firavanlıq arzulayıram!

***

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev Rusiyanın "LUKoyl" neft şirkətinin prezidenti Vahid Ələkbərovla xatirə şəkli çəkdirdi.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev şirkətin rəhbərliyi adından Vahid Ələkbərova gül dəstəsi təqdim edərək dedi:

- Şirkətimiz səni Vətənin yüksək mükafatı münasibətilə səmimi-qəlbdən təbrik edir. Biz hesab edirik ki, bu gün möhtərəm Prezidentimiz Heydər Əliyev həm Rusiyanın, həm də Azərbaycanın rifahı naminə gördüyün bütün işlərə görə bu mükafatı sənə haqlı olaraq təqdim etdi. Bu, böyük şərəf və fəxrdir. Odur ki, səninlə birlikdə bu hisslərə biz - sənin dostların, həmkarların da şərikik. Azərbaycan Dövlət Neft Şirkəti adından biz səni ürəkdən təbrik edirik, sənə Rusiyada da, Azərbaycanda da, bu iki dövlətin hüdudlarından kənarlarda da uğurlar arzulayırıq.

***

Mükafatın təqdim olunması mərasimində Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Prezidentin İşlər İdarəsinin müdiri Akif Muradverdiyev, Prezidentin Katibliyinin rəisi Dilarə Seyidzadə, Rusiyanın Bakıdakı fövqəladə və səlahiyyətli səfiri Nikolay Ryabov, ARDNŞ-nin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev, ARDNŞ-nin vitse-prezidenti Xoşbəxt Yusifzadə, "LUKoyl" şirkəti rəhbərliyinin nümayəndələri, digər rəsmi şəxslər iştirak edirdilər.





# İKİNCİ BÖLMƏ

## NEFT SƏNAYESİNİN İNKİŞAFINDA GƏRGİN ƏMƏK SƏRF EDƏNLƏR



# O, PEŞƏKARLIĞI VƏ CİDDİLİYİ İLƏ BAŞQALARINDAN SEÇİLMİŞDİR

*"Gözəl üslub ürəkdən doğur"*

*D. Didro*

Cəlal Məmmədov 1925-ci il avqust ayının 19-da anadan olub 1949-cu ildə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu bitirdikdən sonra, 1949-1954-cü illərdə "Azərneft" İstehsalat Birliyində mühəndis, böyük mühəndis, rəis müavini, qazma idarəsində mühəndis vəzifələrində işləyib. 1954-1956-cı illərdə Moskva Neft Akademiyasında təhsilini davam etdirdikdən sonra, 1956-1963-cü illərdə yenə də "Azərneft" İB-nin qazma idarəsində, kəşfiyyat trestində baş mühəndis vəzifələrində çalışıb. 1963-1965-ci illər Cəlal müəllimin fəaliyyətinin Kuba dövrü başlanır. Kubada qazma üzrə kontraktın rəhbəri işləyən C. Məmmədov, həm də bu ölkədə neft sənayesini quranlardan biri olmuşdur 1966-1968-ci illərdə Azərbaycan Neft Sənayesi Nazirliyində qazma şöbəsinin rəisi işləyən Cəlal müəllim 1968-1971-ci illərdə yenidən Kubaya ezam olunur. Bu dəfə o, həmin ölkədə çalışan sovet neftçiləri qrupunun rəhbəri təyin edilir.

1971-1981-ci illərdə "Xəzərdənizneft" İB-də qazma üzrə rəis müavini vəzifəsində çalışır. 1981-1984-cü illərdə yenidən xaricə, bu dəfə Vyetnama ezam olunan C. Məmmədov bu ölkədə neftçıxarma ilə məşğul olan birgə müəssisənin baş direktoru vəzifəsində əlindən gələni əsirgəməyib. Bu gün ildə 12 mln t. neft hasil edən Vyetnamın neft sənayesinin təşkilində Cəlal müəllimin danılmaz xidmətləri var. Xaricdən qayıtdıqdan sonra, 1985-1997-ci illərdə Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin qazma şöbəsində fəaliyyət göstərib. 1997-ci ildən bu günə kimi isə "Dənizneftqazlayihə" Dövlət Elmi-Tədqiqat Layihə İnstitutunda quyu tikintilərinin layihələşdirilməsi şöbəsinin müdiri vəzifəsində çalışır.

Cəlal Məmmədov 53 illik iş stajının 49 ilini neft sənayesində çalışmışdır. Bu müddət ərzində o, ömrünü neft sənayesinin inkişafına həsr etmiş, özünü qazma işləri üzrə yüksək ixtisaslı mühəndis, təcrübəli təşkilatçı kimi göstərmişdir. Göstərilən dövrdə o, həm də elmi fəaliyyətini davam etdirmişdir. Yarım əsrlik elmi fəaliyyətin nəticəsi olaraq 12 elmi məqalənin, 5 ixtiranın müəllifi olmuşdur.

Cəlal müəllim neft sənayesinin təşkilatçısı kimi xarici ölkələrdə də xalqını ləyaqət və şərəflə təmsil etmişdir. Təsadüfi deyildir ki, o, həm Kubanın, həm də Vyetnamın fəxri vətəndaşıdır.

C. Məmmədovun mənalı həyat yolu, zəngin elmi-praktik yaradıcılığı və şəxsiyyəti çalışdığı kollektivlərdə həmişə örnək olmuşdur. O, öz fəaliyyətindəki uğurlara hər şeydən əvvəl, ciddiliyi, yüksək peşəkarlığı, böyük təşkilatçılıq qabiliyyəti, özünə və başqalarına hədsiz tələbkarlıqla yanaşması sayəsində nail olmuşdur. Rəhbərlik etdiyi bütün kollektivlərdə həmişə sağlam iş əhval-ruhiyyəsi hökm sürmüşdür.

C. Məmmədovun fəaliyyəti dəfələrlə hökumət təltifləri ilə mükafatlandırılmışdır. O, keçmiş SSRİ-nin fəxri neftçisi, Rusiya Federasiyası Yanacaq-Enerji Nazirliyinin əməkdar işçisidir.

Təvazökarlığı və ziyalılığı ilə seçilən Cəlal Məmmədov bu gün ömrünün yetkin çağını yaşayır. Bu gözəl insana yeni-yeni yaradıcılıq uğurları, elmi fəaliyyətində və şəxsi həyatında müvəffəqiyyətlər arzulayırıq.



3*



# NARAHAT ÜRƏKLİ NEFTÇİ...

*"Xoşbəxt o adamdır ki, səhər işə, axşam isə evə tələsir"*

*N. Hikmət*

Odlar diyarımızı dünyada tanıdıb məşhur edən - "Qara qızıl"a və bu sərvəti min bir zəhmətlə yerin dərin qatlarından çıxarıb xalqının rifahı, həmçinin iqtisadiyyatımızın onurğa sütununa çevirən neftçilərimizin həyatına həsr olunmuş kitabın bir səhifəsinə çevriləcək bu yazı bir neftçi dostumuz haqqındadır. Əslən Qazax mahalından olan Vaqif İbrahim oğlu Abdullayev gecə-gündüz nərə çəkib bu qədim yerləri, qaçaqlar oylaqları - Qarayazı meşələrini, el-obaları vəcdə gətirən - Dəli Kürün sahilində məskunlaşmış Poylu kəndində 1949-cu il sentyabr ayının 10-da dünyaya göz açıb.

1956-cı ildə orta məktəbin birinci sinfinə gedən Vaqif 1966-cı ildə Poylu kənd orta məktəbini bitirir və bir il kolxozda çalışıb, staj toplayandan sonra, küləklər şəhəri - Bakıya gəlir. Elə həmin il, yəni 1967-ci ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunun "Neft və qaz yataqlarının işlənməsi, texnologiyası və kompleks mexanikləşdirilməsi" ixtisası verən, "Neft mədən" fakültəsinə qəbul olmuş, 1972-ci ildə institutu müvəffəqiyyətlə bitirərək, "Azərneft" İstehsalat Birliyi Tamponaj Kontoruna gənc mütəxəssis kimi göndərilmişdir. Burada fəhləlikdən - kontorun böyük mühəndisi vəzifəsinədək yüksəlmişdir. 1975-1991-ci illər ərzində isə bacarıqlı mütəxəssis kimi "Xəzərdənizneft" İstehsalat Birliyinin yeni yaradılmış Tamponaj idarəsində böyük mühəndis, istehsalat şöbəsinin müdiri, baş mühəndis və nəhayət, son on ili isə bu kollektivin rəisi vəzifələrində çalışmışdır. Vaqif Abdullayev bir müddət dövlət işinə irəli çəkilir. 1991-92-ci illərdə Qaradağ rayon İcra Hakimiyyətinin 1-ci müavini vəzifəsində işləyir. Sonrakı illər, yəni 1992-2002-ci ilin yanvar ayının 9-dək, Quruda NQÇ İB Tamponaj və layların neft veriminin artırılması idarəsində rəis vəzifəsində işləmişdir. Hal-hazırda fəaliyyət göstərdiyi Ə. C. Əmirov adına NQÇİ-nin rəisidir.



İnsan ömrü təkcə istehsalat fəaliyyəti ilə ölçülmür. Müdriklərin çox ibrətamiz bir kəlamı var: - O kəs xoşbəxtdir ki, səhər erkən işə tələsir, çünki işdə onu yoldaşları, dostları gözləyir və axşam, iş qurtardıqdan sonra isə evə - ailəsi ilə görüşə tələsir, çünki, onu mehriban ailəsi gözləyir. Bu kəlam Vaqif müəllimin həyat kredosuna çox yaraşır. Onun mehriban ailəsi, oğul və qız övladları var.

Həyatda nizam-intizamı sevən, öz davranışına ciddi yanaşan Vaqif İbrahim oğlu ailədə də, istehsalatda da tələbkardır. İntellektual biliyə, insani keyfiyyətlərə, geniş elmi təfəkkürə malik olan Vaqif müəllim şəxsi təşəbbüskarlığı yüksək qiymətləndirir.

Qazax bölgəsinin insanlarına xas olan şerə, aşıq sənətinə, bədii sözə vurğundur – narahat ürəkli neftçi dostumuz!

Bu qısa yazıda onun portret cizgilərini çəksək də, daxili aləmini, arzu-niyyətlərini tam açıqlaya bilmədik. Sağlıq olsun, neftçilərimiz haqda hələ çox yazılacaq, çox deyiləcəkdir, Vaqif İbrahim oğlu haqqında da həmçinin...





# ATA NƏSİHƏTİ

***Həzrəti Məhəmməd əleyhissəlam buyurmuşdur:***
***"Heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz"***

"Ey oğul, ağıllı ol, öz əcdadının qədrini bil, nanəcibliyə yol vermə. Nə qədər ki, sağsan, gərək iş görüb fəaliyyət göstərəsən, bəlkə, beləliklə, əbədilik qazanasan. Əbədilik müvəqqətilikdən üstündür. Əbədiliyi isə yalnız bu dünyada qazanmaq olar. Bu dünya tarla kimi bir şeydir, yaxşıdan-pisdən nə əksən, onu da biçəcəksən..." ("Qabusnamə"dən).

Mərhum Ömər kişi həmişə bu fikirləri böyüdüb tərbiyə etdiyi övladlarına aşılamağa çalışmışdır. Onun həyat yoldaşı Həlimə xanım da bu fikirdə olmuş, elə indi də bu fikirdədir. Ömər kişi ilə Həlimə xanımın övladları - Moskvada yaşayan Məhəmməd, Bakıda yaşayan Rəşid, Səyyad (2000-ci ildə vəfat etmişdir), Raya, Cümşüd, İmran, ailəyə gəlin gəlmiş Elmira xanım, balaca nəvələr - Səbinə, Rəşad və başqaları ailə ənənələrinə sadiq olaraq əsl işgüzarlıq nümunəsi göstərirlər.

Hüseynov Rəşid Ömər oğlu 1957-ci ildə Ermənistanın Axtı rayonunda anadan olmuşdur. Sonradan Kalinino rayonuna köçmüşlər. Orada orta məktəbi bitirdikdən sonra Bakı şəhərinə gəlmiş, buradakı 81 saylı texniki məktəbdə təhsil almışdır. Həmin məktəbi fərqlənmə attestatı ilə bitirdikdən sonra B. Sərdarov adına maşınqayırma zavodunda körpülü kran sürücüsü işləmiş, sonra isə hərbi xidmətdə (1977-1979) olmuşdur.

Hüseynov Rəşid hərbi xidmətdən tərxis olunduqdan sonra "Azneft" Birliyi Binəqədi rayon bazasında, 1982-ci ildən 1984-cü ilədək tikilməkdə olan stasionar dərin dəniz özülləri zavodunda kran sürücüsü işləmişdir. Bu sadə peşədə çalışarkən Rəşid özünün əməksevərliyi ilə hamının diqqətini cəlb etmiş, kollektivdə böyük hörmət sahibi olmuşdur. O, şərəfli fəhlə peşəsində çalışarkən ali təhsil almaq arzusunda olmuş, özünün gərgin əməyi ilə bu istəyinə də nail olmuşdur. Rəşid 1979-cu ildə D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş, 1984-cü ildə ali təhsil diplomu almışdır. Gənc mütəxəssis institutu bitirdikdən sonra zavodda maliyyəçi-mühəndis, şöbədə iqtisadçı, zavod maliyyə şöbəsinin rəisi işləmişdir.



Hüseynov Rəşid 1994-cü ilin avqust ayının 2-dən ARDNŞ-nin maliyyə şöbəsinin rəisi vəzifəsində çalışmış, 2000 ildən indiyə qədər ARDNŞ-nin iqtisadiyyat maliyyə idarəsinin rəis müavinidir. O, İstehsalat Birliyində maliyyə məsələlərinin sistemləşdirilməsində, həyata keçirilməsində ciddi səy göstərir, özünün səmərəli təkliflərini söyləyir, gənc kadrların yetişdirilməsində əməyini əsirgəmir.





## O, "XƏZƏRDƏNİZ-NEFTDONANMA"NIN İNKİŞAFINDA BÖYÜK ƏMƏK SƏRF ETMİŞDİR

*"Quyuya salsan da yaxşılığı, bil,*
*Yenə qayıdacaq, o itən deyil".*

*Nizami*

Danıtski Vatslav Vikentyeviç 1918-ci ildə anadan olmuşdur. O, ali təhsil aldıqdan sonra taleyini "Xəzərdənizneftdonanma" ilə bağlamışdır. Təcrübəli dəniz donanması işçisi onlarca gənc mütəxəssis yetişdirmiş, öz zəngin təcrübəsini dəniz donanmasında çalışanlara həvəslə öyrətmişdir.

V. V. Danitski hazırda respublikamızdan kənarda yaşasa da, yenə doğma "Xəzərdənizneftdonanma" ilə sıx əlaqə saxlayır.

O, 1943-cü ildə Odessa Dəniz Nəqliyyatı Mühəndisləri İnstitutunu bitirmiş. 1949-cu ildən "Xəzərdənizneftdonanma" idarəsində əvvəlcə kapitan, 1950-ci ildən donanmanın istismar və hərəkət xidmətinin rəisi, 1964-1985-ci illərdə "Xəzərdənizneftdonanma" idarəsinin rəisi işləmişdir.

V. V. Danitski donanmada gəmilərin yeniləşdirilməsinə, onun texniki təchizatının yaradılmasına, dəniz neftçıxarmasının inkişafına böyük diqqət yetirmişdir.

O, "Oktyabr İnqilabı", Qırmızı Əmək Bayrağı ordenləri, 5 medal, 2 dəfə Azərbaycan Respublikasının Fəxri Fərmanı ilə təltif edilmiş, "Əməkdar Mühəndis", "Fəxri neftçi" kimi adlara layiq görülmüşdür.



## İSTEHSALAT XİDMƏTİNİN BAŞÇISI



*"Ağıl təbiətin vergisi deyil, təcrübənin nəticəsidir"*

*Əfqan atalar sözü*

Məmmədov Rafiq Həsən oğlu 1932-ci ildə Füzuli rayonunda anadan olmuş, həmin rayonda orta məktəbi bitirdikdən sonra 1952-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) neft-mədən fakültəsinə daxil olmuş, 1957-ci ildə həmin fakültəni bitirmişdir. İnstitutun göndərişi ilə 1957-ci ildə əmək fəaliyyətinə "Əzizbəyovneft"in mədənlərində operatorluqdan başlamış, bir ildən sonra yeraltı təmir ustası vəzifəsinə keçirilmişdir. Üç ildən sonra - 1961-ci ildə "Əzizbəyovneft" NQÇİ-nin 1 saylı mədənində mədən müdirinin müavini - böyük mühəndis vəzifəsinə keçirilmiş, 1965-ci ildə isə həmin Neftqazçıxarma İdarəsinin 4 saylı mədəninə müdir təyin edilmiş, bu vəzifədə 5 ilə yaxın çalışmışdır,

İşə ciddi münasibət, fədakarlıq, texnika və texnologiya yeniliklərini istehsalata tətbiq etmək, yüksək nailiyyətlər uğrunda gecə-gündüz yorulmadan çalışmaq həvəsi onun 1969-cu ildə "Siyəzənneft" NQÇİ-nə rəis təyin edilməsilə nəticələnmişdir. Bu rayonda uzun müddət çalışaraq, o, nəinki "Siyəzənneft"də çalışan neftçilərin, bütün rayon zəhmətkeşlərinin dərin hörmətini qazanmış, onların sosial problemlərinin həll olunmasında yaxından iştirak etmişdir. Gənc sənaye şəhərinə yollar çəkilməsində, abadlıq işlərinin aparılmasında, şəhərin qazla, su ilə təmin olunmasında, məktəb binalarının və mədəni-məişət obyektlərinin tikilib istifadəyə verilməsində rayon rəhbərliyinə yaxından köməklik etməklə yanaşı, "Siyəzənneft" NQÇİ-nin o vaxtkı SSRİ neft sənayesi sistemində qabaqcıl müəssisələr sırasına çıxarılmasına nail olmuşdur.

Bundan sonra Rafiq Məmmədovu 1974-cü ildə Ümumittifaq "Xəzərdənizneft" İstehsalat Birliyinin Baş mühəndisi kimi yüksək və məsul vəzifəyə layiq görmüşlər. Bu vəzifədə beş il çalışdıqdan sonra 1979-cu ilin iyul ayında onu Respublika Nazirlər Soveti nəzdində Baş Qaz İdarəsinin rəisi

vəzifəsinə təyin etmişlər və burada o, 3 ildən artıq çalışmışdır. Bu müddət ərzində respublikada təbii qazla sosial-məişət obyektlərinin qazlaşdırılması keçən dövrə nisbətən 3 dəfə çox artmışdır. Məsələn, Naxcıvan şəhərində 7000 yaşayış evində qazlaşmanı 9 ay ərzində başa vurmuşlar. Sonralar R. Məmmədov yenə də doğma "Siyəzənneft" NQÇİ-yə, Azərbaycan SSRİ-nin Yanacaq Komitəsinə rəhbərlik etmişdir. Ömrünün ahıl çağında R. Məmmədov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İstehsalat üzrə xidmətinə başçılıq edir.

Çətin, maraqlı və şərəfli həyat yolu keçmiş mütəxəssis olan R. H. Məmmədov iki dəfə "Şərəf nişanı" ordeni ilə, "Əmək fədakarlığına görə" medalı ilə təltif edilmiş, Azərbaycan SSR "Əməkdar neft və qaz sənayesi işçisi" fəxri adına, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bir bürünc, iki gümüş medallarına, Azərbaycan SSP-nin Əmək veteranı adına, Respublikada bir milyard ton neft çıxarılması münasibətilə fəxri medallara, dəfələrlə Respublika və Ümumittifaq Neft Sənayesi Nazirliyinin fəxri fərmanlarına layiq görülmüşdür.





# TƏCRÜBƏLİ NEFTÇİ



***"Gənclikdə qazanılan bilik, qocalıqda müdriklik deməkdir".***

***İngilis atalar sözü***

Pənah Həsən oğlu Nəzərov 1925-ci il mayın 5-də qədim Zəngibasar mahalının Eylas kəndində doğulub. Dörd yaşı olanda ailəsi Bakıya köçüb. 1932-ci ildə Gəncədəki 28 saylı dəmiryol məktəbində təhsil alıb. 1941-ci ildən sonra keçmiş SSRİ Ali Sovetinin əmri ilə səfərbərliyə alınan gənclərdən biri də Pənah olub. O, tornaçı peşəsində çalışıb, həm də təhsilini davam etdirib.

1946-cı ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) neft-mədən fakültəsinə qəbul olunan P. Nəzərov 1951-ci ildə ali təhsilini başa vurub. Həmin il onu 2 saylı qazma Trestinin Stalinneft Qazma İdarəsində işə qəbul ediblər. Bir müddət qazma ustası kimi çalışıb, sonra 7 ay sahə rəisini əvəz edib. 1952-53-cü illərdə idarənin texniki şöbəsinin böyük mühəndisi, 1953-54-cü illərdə Molotovneft Qazma İdarəsinin baş mühəndisi vəzifələrində çalışıb. Həmin dövrdə "Azneft" üzrə qazma idarələrinin çoxu ləğv edildiyindən həmin idarələrdə müxtəlif vəzifə tutan kadrları yeni yaradılan qazma idarələrinə bir pillə aşağı vəzifələrə keçiriliblər. O cümlədən də P. Nəzərov. Onu 1959-cu ildə "Azdənizneft" Trestinin birinci qazma idarəsinin baş mühəndisi təyin ediblər. 1961-ci ildə birinci Qazma Trestinin kadr ehtiyatı hesabına Primorsk qəsəbəsində ikinci, "Bulla-dəniz"də isə üçüncü Qazma İdarəsi (trestin nəzdində) təşkil edilir.

1961-76-cı illərdə Xəzər dənizində neft üzrə aparılan bütün geoloji kəşfiyyat və qazma işlərini "Azdənizneftkəşfiyyat" və "Xəzərdənizneftkəşfiyyat" adlanan bu trestin qazma idarəsi yerinə yetirib. Həmin trestə 1961-66-cı illərdə Mahmud Salamov, 1966-76-cı illərdə isə məşhur neftçi Qurban Abbasov (neftçi Qurban) rəhbərlik edib. O zaman bu məşhur neftçilərlə çiyin-çiyinə çalışan rəhbər kadrlardan biri də Pənah Nəzərov olub. Həmin illərdə adı sonralar ləğv edilən trestin bir idarəsi də Türkmənistanın Çımkənd sahəsində fəaliyyət göstərib. Qazmaçılarımız o illərdə üç böyük

qaz yatağı ("Qubkin", "Jdanov", "Lam") açaraq "Türkmənneft"in neftçilərinə təhvil veriblər.

1976-cı ilin iyulunda birinci Trest (Xəzərdənizneftkəşfiyyat) ləğv edilir və Pənah Nəzərov keçmiş "İliç Buxtası" (indiki "Bayıl Limanı") DKQİ-yə baş mühəndis vəzifəsinə göndərilir. 1980-ci ilədək bu vəzifədə çalışıb təqaüdə çıxan Pənah Nəzərov doğma kollektivdən ayrılmır. Hazırda mexaniki sexdə usta işləyir.

P. Nəzərov gənc neftçilərlə bağlı keçmiş xatırələrdən danışır: "indi idarə rəisi işləyən Fərhad Məmmədovun da haqqında ayrıca söz açır. Onun fəaliyyətini, işini yüksək qiymətləndirir: "Fərhad müəllimin işi bir ağsaqqal neftçi kimi məni çox razı salır. Fikirləşirəm ki, o, irəliyə doğru addımlayır. İndi ona hansı sahənin rəhbərliyini desən həvalə etmək olar. Çünki buna Fərhadın qabiliyyəti də çatır, bacarığı da. Ona görə ki, o çox işgüzar adamdır. Əvvəllər mən onu sexdə işləyən vaxt görmüşdüm. Sonralar onun qabiliyyətinə, bacarığına bələd oldum. Gördüm ki, lazım olan material və avadanlıqları istənilən anda tapıb gətirir. Yəni qarşıdakı adamla tez ünsiyyət tapır. Məncə, indiki çətin şəraitdə - keçmiş əlaqələrin qırıldığı bir vaxtda Fərhad Məmmədov kimi kadrlara nəinki ölkənin neft sahəsində, digər sahələrində də böyük ehtiyac var. Axı, o vaxtlar mən də işləmişəm, hər şeyi görmüşəm, avadanlıq sarıdan, elə çətinlik olmazdı nəyi tələb etsən, o saat onu əldə etmək mümkün olurdu. Amma indi zaman da, dövr də, quruluş da dəyişib. Belə dövrdə idarə rəhbəri qarşısında tələb çox yüksəkdir. Mən bu tələbi bacarıqla yerinə yetirən idarə rəisi kimi onun işinə baxıb yüksək qiymət verirəm və buna daxilən sevinirəm. Biz köhnə neftçilərdə qayda belə idi. Baxırdıq, cavandır, fəaldır, gözüaçıqdır, tapşırılan işin öhdəsindən layiqincə gəlir, onu irəli çəkirdik. Biz ancaq iş barədə fikirləşirdik. Demirdik: bu mühəndisdir, yaxud bu idarə rəisidir. Hamı yalnız və yalnız nəyə isə nail olmaq barədə düşünürdü. Rəhmətlik Mahmud Salamov mənə deyərdi ki, Pənah, sən get irəli, nə lazımdır iş gör, mən sənə dəstək verəcəyəm. O, elə bir insan idi ki, otağına ağlaya-ağlaya girən adam oradan gülə-gülə çıxardı. Hamını öz dilində danışdırmağı, öz dilində buyurmağı bacaran adam idi Salamov. Rəhmətlik Qurban Abbasov isə bir az hövsələsiz insan olsa da, heç bir səhvi bağışlamazdı. Amma çox qoçaq adam idi. İşdən yorulmaq nədir, bilməzdi. Bir də görürdün ki, 3-4 gün gecəli-gündüzlü buruqları gəzərdi. Problemlərlə, çətinliklərlə şəxsən tanış olar, maraqlanardı. Çünki özü fəhləlikdən rəisliyə kimi ucalmışdı. Çətinlikləri, ağırlıqları yaxşı bilirdi. Onun elə güclü yaddaşı var idi, bu, bizi heyran edərdi. O, ən çox dayaz quyuların qazılmasında işləmişdi, əsas çətinliyin dərin quyuların qazılmasında olduğunu sonralar etiraf edirdi. Yəni bu gün neftçilər bilir ki, dənizdə neft quyusunun qazılması nə deməkdir".

Bəs Pənah Nəzərovun işlədiyi dövr ərzində onun əməyinə hansı qiymətlər verilib?

- 1945-ci ildə "Əməkdə fərqlənməyə görə" medalı;
1965-ci ildə "Azərbaycanın əməkdar mühəndisi" fəxri adı;
1966-cı ildə "Şərəf nişanı" ordeni;
1967-ci ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin medalı;
1970-ci ildə V. İ. Leninin 100 illik yubiley medalı;
1975-ci ildə "Neft istehsalat əlaçısı" döş nişanı və s.



# SƏMƏRƏLİ FƏALİYYƏT



*Əməl nəzəriyyə ilə təcrübənin canlı vəhdətidir.*

***Aristotel***

Verdiyev Tanrıverdi Məmməd oğlu 1935-ci ildə Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olmuşdur. O, orta məktəbi bitirdikdən sonra Məşədi Əzizbəyov adına Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Sənaye İnstitutunun neft mexanika fakültəsinə daxil olmuş və 1959-cu ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir. Həmin il gənc mütəxəssis Şirvanneft NMİ-sinə göndərilmişdir.

Orada 1959-cu ildən 1960-cı ilə qədər Quyuların Əsaslı təmiri sexində mühəndis mexanik və 1960-cı ildən 1962-ci ilə qədər böyük mühəndis-mexanik vəzifələrində çalışmışdır.

T. Verdiyev 1962-ci ildə öz xahişi ilə işdən azad edilmiş və elə həmin ildə Azərbaycan Elmi-Tədqiqat və Layihə Konstruktor İnstitutuna böyük mühəndis vəzifəsinə qəbul olunmuşdur. 1966-cı ilə qədər həmin vəzifədə işləmiş və 1966-cı ildən 1973-cü ilə qədər layihənin baş konstruktoru vəzifəsində çalışmışdır.

Bu dövrdə onun rəhbərliyi və iştirakı ilə mədəndaxili yolüstü qazın yığılması və nəqli üçün yırğalanan silindrli kompressorların layihə edilməsinin elmi-nəzəri əsasları işlənmiş və onun əsasında həmin tip kompressorlar layihə edilmiş, hazırlanmış, sınaqdan keçirilmiş və geniş tətbiq edilmişdir.

Bununla yanaşı, onun iştirakı ilə piston qrupu yağlanmayan pistonlu qaz kompressorlarının tədqiqi və tətbiq olunması işləri həyata keçirilmişdir. Həmin vaxtda o, istehsalatdan ayrılmadan AzİNMAŞ-ın nəzdində fəaliyyət göstərən aspiranturaya qəbul olunmuş və 1973-cü ildə "Mədəndaxili yolüstü neft qazının yığılması və nəql edilməsi üçün ƏK tipli yırğalanan silindrli kompressorlar" mövzusunda dissertasiya müdafiə edərək texniki elmləri namizədi alimlik dərəcəsi, 1980-ci ildə isə SSRİ Ali Attestasiya komitəsi tərəfindən böyük elmi işçi adını almışdır.

Tanrıverdi müəllim 1974-cü ildən 1975-ci ilə qədər baş elmi işçi vəzifəsində çalışmışdır. Bu dövrdə o, neft mədən avadanlığı, o cümlədən man-

canaq dəzgahlarının reduktorlarında Novikov ilişməli dişlı çarx ötürməsinin tətbiqi sahəsində elmi tədqiqat və layihə konstruktor işləri ilə məşğul olmuşdur. Onun tərəfindən ilk dəfə olaraq dəyişən yük altında işləyən dişli çarx ötürmələrinin kinematik sxeminin optimal layihə edilməsi üçün riyazı model işlənmiş və tətbiq edilmişdir.

T. Verdıyev 1975-ci ildə Neft mədən avadanlığının uzunömürlülüyü və etıbarlılığı bölməsinə müdir vəzifəsinə irəli çəkilmiş, sonra isə həmin laboratoriyanın müdiri seçilmiş, 1980-ci ilə qədər laboratoriyaya rəhbərlik etmışdır. Laboratoriya (bölmə) onun rəhbərliyi ilə neft-mədən avadanlığının uzunömürlülüyü və etibarlılığı sahəsində geniş elmi tədqiqat işləri aparmış, nəticədə, SSRİ-nin və Azərbaycan SSR-in jurnallarında elmi məqalələr dərc edilmiş, metodik materiallar, müəssisə və sahə standartları işlənib təsdiq edilmiş, neft mədən avadanlıqlarının uzunömürlülük və etibarlılıq göstəriciləri təyin edilərək, normativ sənədlərdə öz əksini tapmışdır. Eyni zamanda Neft mədən avadanlıqları üçün ehtiyat hissələrinin elmi əsaslandırılmış normalarının təyin edilməsi üçün iş aparılmış, onun əsasında isə normalar işlənərək SSRİ Kimya və Neft Maşınqayırma Nazirliyi və SSRI Neft Sənayesi Nazirliyi tərəfindən təsdiq edilərək tətbiq olunmuşdur.

T. Verdıyev 1980-ci ildə öz xahişi ilə "Quyuların ştanqlı quyu nasosu ilə istismarı üçün avadanlıqların tədqiqi və layihə edilməsi" şöbəsinə qrup müdiri, 1982-ci ildə həmin şöbədə bölmə müdiri, 1992-ci ildə isə şöbə müdirinin muavini vəzifəsinə keçirilmişdir. Həmin vəzifədə 1994-cü ilə qədər işləmişdir.

İşlədiyi müddətdə onun rəhbərliyi və iştirakı ilə neftçıxarmada ən geniş yayılmış ştanqlı quyu nasosları ilə istismar üsulunda tətbiq edilən qurğuların, onların əsas sistemlərinin, qovşaqlarının və hissələrinin işləri hərtərəfli araşdırılaraq öyrənilmiş, görülən işlərin nəticəsi olaraq onların hesablanmasının, layihə edilməsinin, sınaqdan keçirilməsinin, uzunömürlülüyünün və etibarlılığının öyrənilməsinin yeni elmi, nəzəri və metodiki əsasları hazırlanmışdır. İşlənmiş yeni metodiki materialların əsasında mancanaq dəzgahlarının, onların reduktorlarının, idarəetmə stansiyalarının, nasos ştanqlarının və s. yeni yüksək texniki səviyyəli konstruksiyaları, onların sınaq stendləri yaradılmış, həmin avadanlıqların normal sıraları layihə edilərək istehsal olunmuş və geniş tətbiq edilmişdir.

T. Verdiyev 1994-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) istehsalat şöbəsinə baş elmi işçi vəzifəsinə keçirilmiş, hazırda referentdir. ARDNŞ-də işlədiyi müddətdə qazın yığılması, nəqli, emalı və kompressor təsərrüfatı sahələrinin işinin araşdırılmasında, həmin sahələrə aid tövsiyə və proqramların hazırlanmasında bilavasitə iştirak etmişdir.

1998-ci ildə onun iştirakı ilə "Azərbaycan Dövlət Neft Şirkətinin qaz hasilatının artırılması, itkilərin qarşısının alınması və maksimum emal olunmasını təmin edəcək tədbirlər proqramı" işlənərək ARDNŞ-nin prezidenti tərəfindən təsdiq edilmişdir.

O, ARDNŞ-nin nəzdində fəaliyyət göstərən "Maşınqayırma İB-nin məqsədyönlü fəaliyyət göstərməsi üçün iş aparmışdır.



O, bu gün də elmi və texniki yeniliklərin istehsalata tətbiq olunması yolunda daim axtarış aparır və bu yeniliklərin neft sənayesində tətbiq edilməsində fəal iştirak edir.

ARDNŞ-də işlədiyi dövrdə o, öz əsas işləri ilə yanaşı, Ştanqlı quyu nasosu (ŞQN) qurğularının daha mütərəqqi konstruksiyalarının yaradılması məqsədilə onların mövcud konstruksiyalarının və iş şəraiti elmi nəzəri cəhətdən hərtərəfli araşdırılmış və nəticədə mancanaq dəzgahının çevirici mexanizminin kinematik sxeminin sintezi üçün riyazi model işləmişdir. Həmin riyazi modelə görə 1997-ci ildə patent almışdır.

Onun rəhbərliyi və iştirakı ilə görülən işlərin ümumiləşdirilməsi əsasında ilk dəfə quyu, yerüstü və quyu daxili avadanlıqlara vahid sistem kimi baxılaraq, onların hesablanması, optimal layihə edilməsi və istismarını özündə birləşdirən riyazi model, onun əsasında isə kompüter proqramı dəstləri işlənmiş, eyni zamanda respublika dövlət standartı işlənib təsdiq edilmişdir.

Onun 10-dan çox səmərələşdirici təklifi istehsalata tətbiq edilmişdir, 12 ixtiranın, iki patentin, 2 monoqrafiyanın və müxtəlif elmi jurnallarda dərc olunmuş 65 məqalənin müəllifidir. Bundan başqa, 80-dən çox elmi hesabatın elmi rəhbəri və həmmüəllifidir. Onun rəhbərliyi və iştirakı ilə 8 müəssisə, 1 texniki şərt və 3 sahə standartı işlənmiş və tətbiq edilmişdir.

T. Verdiyev 1977-ci və 1980-ci illərdə sosializm yarışının qalibi döş nişanı ilə, 1980-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Əmək igidliyinə görə" medalı ilə, 1983-cü ildə "Əmək veteranı" medalı ilə təltif olunmuş və 1985-ci və 1995-ci illərdə işlədiyi idarələrin rəhbərliyi tərəfindən təşəkkürlər almışdır. Tanrıverdi müəllim əsas işi ilə bərabər uzun müddət Azərbaycan Neft və Kimya İnstitutunda saathesabı dərs demişdir.





# MƏŞHUR NEFTÇİNİN OĞLU

*"Ağıllı tərbiyə, hünər, nəzakət,*
*Ağıla nur verər, ürəyə qüvvət".*
*Nizami*

Elçin Cümşüd oğlu İbrahimov 1960-cı il oktyabrın 25-də Bakı şəhərində məşhur neftçi ailəsində anadan olmuşdur. Onun atası Cümşüd Qulu oğlu İbrahimov uzun illər neft sənayesində çalışmış, ömrünün axırına kimi neft və qaz yataqlarının mənimsənilməsində böyük xidmətlər göstərmiş, gənc neftçi kadrların yetişdirilməsində böyük əmək sərf etmişdir. Elçin Cümşüd oğlu İbrahimov 1981-ci ildə Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutunun "Avtomobillər və avtomobil təsərrüfatı" ixtisası üzrə tam kursu keçmiş və ona mühəndis-mexanik ixtisası verilmişdir.

İnstitutu bitirdikdən sonra o, gənc mütəxəssis kimi "Xəzərdənizneftqaz" hazırkı Dənizdə NQÇ İB-nin 1 saylı Texnoloji nəqliyyat idarəsinə göndərilmiş, orada böyük dispetçer, mühəndis, qaraj müdiri, Baş mühəndisin müavini, Baş mühəndis vəzifələrində çalışmışdır.

E. C. İbrahimov 1993-cü ildə ARDNŞ-nin Xüsusi Texnika və Nəqliyyat Baş İdarəsinin rəisi vəzifəsinə irəli çəkilmişdir. Həmin ildə ARDNŞ-də struktur dəyişiklikləri edildikdən sonra adı çəkilən Baş idarə Avtomobil, dəniz nəqliyyatı və xüsusi texnika şöbəsinə çevrilmiş və o, 1994-cü ildən həmin şöbəyə başçılıq etmişdir.

E. C. İbrahimov 2000-ci ilə kimi fəaliyyət göstərən ARDNŞ-nin Avtomobil, dəniz nəqliyyatı və xüsusi texnika şöbəsinə rəhbərlik etmiş, ARDNŞ-də struktur dəyişiklikləri edildikdən sonra Maddi-texniki təchizat, nəqliyyat və sosial-inkişaf xidmətində referent vəzifəsinə təyin edilmişdir.

E. C. İbrahimov ARDNŞ-yə məxsus 7 mindən çox müxtəlif markalı avtonəqliyyat və xüsusi texnika vasitələri olan struktur bölmələrində nəqliyyat xidmətinin təşkilinə, təmir işlərinin aparılmasına və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə rəhbərlik edir.



O, son illərdə nəqliyyat vasitələrindən və yanacaq-sürtgü materiallarından səmərəli istifadə edilməsi sahəsində rəhbərlik qarşısında təkliflər qaldırmış, bu sahədə şirkət üzrə əmrlərin və müşavirə qərarlarının qəbul etdirilməsinə nail olmuşdur. Öz sahəsinə aid olan məsələlərin operativ həll edilməsində struktur bölmələrinə köməklik göstərmişdir.

Onun səyi nəticəsində son illərdə avtonəqliyyat və xüsusi texnika vasitələrinin parkdan istifadə və texniki hazırlıq əmsalları artmış, normativ istismar müddəti bitmiş, aşınmış və bərpası iqtisadi cəhətdən əlverişli olmayan nəqliyyat vasitələri balansdan silinib təzəsi ilə əvəz edilmişdir. Nəqliyyat və sənayenin digər sahələrində yanacaq-sürtgü materiallarından səmərəli istifadə edilməsi sahəsində tədbirlər görülmüş, nəzarət gücləndirilmiş və bunun nəticəsində yanacağın sərfi azaldılmışdır.

E. C. İbrahimov ARDNŞ-də yol hərəkəti təhlükəsizliyi komissiyasının sədr müavini kimi bu vacib sahəyə də diqqət yetirir, onun tələbkarlığı nəticəsində son illərdə yol nəqliyyat hadisələrinin sayı azalmışdır. Bu sahədə işlər davam etdirilir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Şurasının qərarı ilə Elçin Cümşüd oğlu İbrahimov Respublikanın neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə Fəxri Fərmanla təltif olunmuşdur.





# FƏAL İŞTİRAK EDİR

*"Uzadaq ömrünü hər bir anın da,*
*Yel kimi keçməsin vaxt üstümüzdən".*
*S. Vurğun*

Vitali Bəylərbəyov 1955-ci il iyul ayının 28-də Bakı şəhərində anadan olmuşdur. O, 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin (BDU) mexanika-riyaziyyat fakültəsini bitirmişdir. 1983-1987-ci illərdə Novosibirsk şəhərində Sənaye İstehsalının Təşkili və İqtisadiyyatı İnstitutunda və Ümumittifaq Kompleks Yanacaq Energetika Problemləri Elmi-tədqiqat İnstitutunda (Moskva şəhəri) aspiranturada oxumuşdur.

V. Bəylərbəyov 1987-ci ildə "Neftqazçıxarma sənayesində proqnozlaşdırma riskinin təhlili" mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. O, 40-dan çox dərc edilmiş elmi nəşrin müəllifi, neft sənayesində danışıqlar üzrə Beynəlxalq mütəxəssislər Assosiasiyasının, Beynəlxalq iqtisadi energetika Akademiyasının ARDNŞ-nin təşkil etdiyi müştərək müəssisə və alyansların üzvüdür.

V. Bəylərbəyov 1992-ci ildən başlayaraq ARDNŞ-də kontrakt şöbəsinin rəisi, böyük investisiya layihələri şöbəsinin rəisi olmuş, hazırda ARDNŞ-də Xarici İnvestisiyalar İdarəsi rəisinin müavini, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti prezidentinin müşaviri kimi səmərəli fəaliyyət göstərir. O, müxtəlif müqavilə və razılaşmaların hazırlanmasında, müxtəlif danışıqlarda, investisiya layihələrinin təhlili və icra edilməsində fəal iştirak edir. V. Bəylərbəyov müqavilə və danışıqlar zamanı vaxt və məkan amillərinə, uğurlu danışıq priyomlarına ciddi diqqət yetirir.



# DƏNİZDƏ MÜHƏNDİS-GEOLOJİ TƏDQİQATLAR



*Məhəmməd Peyğəmbər buyurmuşdur:*
*"İnsanların ən yaxşısı camaatın xeyirinə çalışanlardır".*

Vəliyev Rasim Vəli oğlu 1963-cü il yanvarın 1-də Qazax rayonunun Fərəhli kəndində anadan olmuşdur. 1979-cu ildə orta ümumtəhsil məktəbini bitirmiş, həmin ildə Azərbaycan Neft və Kimya İnstitutunun Geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur. 1984-cü ildə institutu bitirmiş və dağ mühəndisi hidrogeoloq-mühəndis geoloq ixtisasına yiyələnmişdir.

İnstitutu bitirdikdən sonra,1984-cü ildə təyinatla "Xəzərdənizneftqaz" Ümumittifaq Sənaye Birliyinə göndərilmiş, "Dənizneftqazlayihə" Dövlət Elmi Tədqiqat-Layihə İnstitutunun Dənizdə mühəndis-axtarış şöbəsində mühəndis kimi əmək fəaliyyətinə başlamışdır. 1990-cı ilədək o, burada mühəndis-geoloq, geoloq, böyük geoloq vəzifələrində çalışmışdır. 1990-91-ci illərdə həmin institutda Qruntlar mexanikası laboratoriyasında böyük geoloq kimi əmək fəaliyyətini davam etdirmiş, 1991-1996-cı illərdə institutun Mühəndis-axtarış şöbəsində böyük geoloq, qrup rəhbəri vəzifələrində çalışmışdır.

R. V. Vəliyev 1997-ci ilin yanvar ayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti aparatında geologiya şöbəsinə aparıcı mütəxəssis vəzifəsinə keçirilmişdir. 2000-ci ildən ARDNŞ-nin Geologiya, geofizika və yataqların işlənməsi üzrə referenti vəzifəsində çalışır.

R. V. Vəliyev əmək fəaliyyətinə başladığı gündən əsasən Xəzər dənizi hövzəsində mühəndis-geoloji tədqiqat işlərinin həyata keçirilməsi ilə məşğul olmuşdur. O, Xəzər dənizi hövzəsində bütün sektorlar üzrə aparılmış hidrotexniki qurğuların - dərin dəniz özüllərinin, yarımbatmış və özüqalxan üzən qazma qurğularının qoyulması, neft və qaz boru xətlərinin, təmizləyici-kanalizasiya sistemlərinin, sualtı elektrik və telefon kabel xətlərinin çəkilməsi və s. bu kimi işlərin yerinə yetirilməsindən əvvəl aparılmış mühəndis-tədqiqat işlərində yaxından iştirak etmişdir.

4*

R. V. Vəliyev Xəzər dənizi hövzəsində neft-qaz yataqlarında və perspektivli sahələrdə, o cümlədən Xəzərin Azərbaycan, Türkmənistan, Qazaxıstan, Rusiya sektorlarında dəniz dibində kəsilişin üst hissəsinin (KÜH) geoloji quruluşunun öyrənilməsi problemləri, çöl mühəndis-geoloji materiallarının kameral emal edilməsi, analizi və ümumiləşdirilməsi, laboratoriya tədqiqatları ilə səmərəli surətdə məşğul olmuşdur. O, 1988-ci və 1989-cu illərdə İran İslam Respublikası Milli Neft Şirkətinin sifarişi ilə Xəzərin İran sektorunda "Ənzəli" sahəsində özüqalxan üzən qazma qurğusunun qoyulması üçün mühəndis-geoloji işlər aparmış elmi-tədqiqat ekspedisiyasının tərkibində olmuş və 1994-cü ildə Xəzərin İran sektorunun "Mehdad" sahəsində özüqalxan üzən qazma qurğusunun qoyulması üçün hazırlanmış yekun hesabatının tərtibində fəal iştirak etmişdir.

R. V. Vəliyev "Dənizneftqazlayihə" DETLİ-nın bir çox neft və qaz yataqlarının abadlaşdırılması, hidrotexniki qurğuların tikintisi və yenidənqurulması işlərindən əvvəl aparılmış mühəndis tədqiqat işlərinin yekun hesabatlarının, mühəndis-geoloji rəylərin həmmüəllifi və müəllifi olmuşdur.

1997-ci ildən R. V. Vəliyev ARDNŞ-nın Dənizdə, Quruda neft və qazçıxarma və Geofizika və mühəndis geologiyası İstehsalat Birlikləri tərəfindən aparılan mühəndis-geoloji tədqiqat işlərinin istiqamətləndirilməsi işlərində və xarici neft şirkətləri ilə birgə aparılan işlərdə fəal iştirak edir. O, Xəzərin Azərbaycan sektorunda son illərdə kəşf olunmuş "Qarabağ" və "Şahdəniz" yataqlarının KÜH tədqiqat işlərində ARDNŞ-nin nümayəndəsi kimi iştirak etmişdir. Əsas cəhət budur ki, Rasım müəllim xalqımızın xeyri üçün ciddi səy göstərir.

R. V. Vəliyev 1998-ci ildə Yaponiya Milli Neft Korporasiyasının dəvəti ilə onun Elmi-Tədqiqat Mərkəzində kəşfiyyat-geologiyası üzrə kurslarda ARDNŞ-nın nümayəndəsi kimi dinləyici olmuş, kursları müvəffəqiyyətlə bitirərək sertifikatla təltif olunmuşdur. Həmin mərkəzin rüblük "Elmi-Tədqiqat Mərkəzi Yenilikləri" jurnalında Azərbaycan haqqında və "Azərbaycan Geofizika Yenilikləri" jurnalında kurslar barəsində məqalələr dərc etdirmişdir.

R. V. Vəliyev 2000-ci ildə Türkiyənin İstanbul şəhərində Amerika Neftçi Geoloqlar Cəmiyyətinin təşkil etdiyi Beynəlxalq Regional Konfransda iştirak etmişdir.

R. V. Vəliyev Azərbaycan Geofizikləri Milli Komitəsinin, ARDNŞ-nin Ekspert Komissiyasının üzvüdür.



# NEFTÇİ, MÜHARİBƏ VETERANI



*"İnsanın hər cür şəraitdə öz vəzifəsini yerinə yetirməsi də qəhrəmanlıqdır"*

***M. İ. Kalinin***

Qəhrəmanov Qəhrəman Nəriman oğlu 1954-cü ildə Azərbaycanın dilbər guşəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Tuğ kəndində anadan olmuşdur. 1970-ci ildə orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur.

Qəhrəman əmək fəaliyyətinə erkən - 1971-ci ildə indiki Səttarxan zavodunda tokar kimi başlamışdır. 1973-75-ci illərdə Sovet Ordusu sıralarında Zabaykalye və Uzaq Şərq hərbi dairələrində xidmət etmişdir. Əsgəri xidmətini başa vurduqdan sonra Qəhrəman yenidən Bakıya qayıdaraq təhsilini davam etdirmiş və eyni zamanda Azərbaycan Elmlər Akademiyasının Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda neft layının fizikası laboratoriyasında laborant işləmişdir.

1978-ci ildə institutu yaxşı və əla qiymətlərlə bitirən Qəhrəman "neft və qaz yataqlarının geologiyası və kəşfiyyat" ixtisasına yiyələnmiş və həmin ildən dəniz neft mədənlərində fəaliyyətə başlamışdır. O, əvvəlcə Çilov adasında SSRİ-nin 50 illiyi adına NQÇİ-də (indiki Bulla-Dəniz NQÇİ) neftçıxarma operatoru, mühəndis-texnoloq, neftqazçıxarma sexinin böyük geoloqu işləmişdir.

Qəhrəman öz işi ilə yanaşı, həm də ictimai işlər aparmış və bu sahədə aktiv fəaliyyət göstərmişdir. 1980-ci ildə Qəhrəman gənclər təşkilatının rəhbəri kimi Neft Daşlarına işə göndərilmiş və 1982-ci ilin sonunadək bu vəzifədə 3 il işləmişdir. Həmin müddətdə o, ixtisası üzrə istehsalatdan ayrılmamaq şərtilə aspiranturaya daxil olmuşdur.

1982-ci ildə Qəhrəman Qəhrəmanov gənclərin əmək fəaliyyətinə səfərbərlik edilməsində təşkilatçılıq işinə görə SSRİ Qaz Sənayesi Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmiş, SSRİ gənclərinin ən ali forumunun nümayəndəsi olmuşdur (Ümumittifaq komsomolunun XIX qurultayı).

Q. Qəhrəmanov 1982-ci ildən 1991-ci ilədək ictimai-siyasi işdə - neft-qazçıxarma idarələrinin (Neft Daşları - Çilov adası, "Əzizbəyovneft" (indiki H. Tağıyev adına) partiya komitələrinin rəhbəri, Əzizbəyov rayon Partiya komitəsində sənaye şöbəsində işləmişdir.

1989-cu ildə o, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun gündüz şöbəsinə göndərilmiş və 1991-ci ildə bu institutu fərqlənmə diplomu ilə bitirmişdir.

Qəhrəman Qəhrəmanov Dağlıq Qarabağda Azərbaycan Respublikasının suverenliyinin yenidən bərqərar olunması yolunda fəal mübarizlərdən biridir. 1989-92-ci illərdə o, şəxsi təşəbbüsü və həm də respublika ali siyasi hakimiyyətinin göndərişi ilə Dağlıq Qarabağ üzrə yaradılmış Respublika Təşkilat Komitəsinin üzvü kimi regionda fəaliyyət göstərmiş, Azərbaycan Daxili İşlər Nazirliyinin apardığı bir sıra operativ və döyüş əməliyyatlarında iştirak etmişdir. 1991-ci ildə Azərbaycan KP MK aparatında işə qəbul edilən Q. Qəhrəmanov yenidən Dağlıq Qarabağa qayıtmış və Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə aparmışdır.

1991-ci ilin sonunda Q. Qəhrəmanov Dənizdə Neft Qazçıxarma İstehsalat Birliyində mühəndis vəzifəsinə işə qəbul edilmiş, 1994-cü ildən isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə baş mütəxəssis, referent vəzifəsinə təyin edilmişdir.

Azərbaycan Respublikasının müharibə veteranıdır.

Qəhrəman Qəhrəmanov 1996-cı ildə "geoloji-mədən tədqiqatları əsasında Abşeron yataqları üzrə neft ehtiyatının dəyişməsinin modelləşdirilməsi" mövzusunda dissertasiya müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Qəhrəman Abşeron yarımadasının quru yataqları üzrə neft ehtiyatının yenidən hesablanması zamanı modelləşdirmənin, riyazi statistikanın və digər müasir üsulların tədbiq edilməsi istiqamətində 20 elmi məqalənin və bir monoqrafiyanın müəllifidir.

Öz işi ilə yanaşı Qəhrəman həm də respublikanın ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində fəallıq göstərir. O, Dağlıq Qarabağın azərbaycanlı icmasının nümayəndəsi kimi müxtəlif beynəlxalq müşavirələrdə iştirak etmiş, Qarabağın azərbaycanlı əhalisinin hüquq və mənafeyini beynəlxalq miqyasda müdafiə etmişdir. Qəhrəman Qəhrəmanov dəfələrlə Almaniyada, Çexiyada, Bosniya-Hersoqovinaya, Hollandiya və bir sıra MDB ölkələrində milli münaqişələr, separatizm, terrorizm və s. mövzularda keçirilən konfranslarda çıxış edərək, erməni millətçilərini ifşa etmiş, Azərbaycana qarşı edilən təcavüzü dünya ictimaiyyətinə çatdırmışdır.

Qəhrəman Qəhrəmanov 1993-cü ildə respublikada keçirilən prezident seçkilərində Səbayil rayonunda seçki məntəqəsinin sədri olmuş, 1998-ci ildə keçirilən prezident seçkilərində Mərkəzi Seçki Komissiyasının üzvü kimi fəaliyyət göstərmişdir.

Qəhrəman xidməti işi ilə əlaqədar mütəmadi olaraq istehsalat sahələrində, neftqazçıxarma idarələrində olur, müxtəlif zəruri istehsalat məsələlərinin müzakirəsində aktiv iştirak edir.

Onun bir sıra elmi-publisistik, ictimai-siyasi mövzuda məqalələri respublikanın dövri mətbuatında dərc edilmişdir.



# YANACAQ XƏZİNƏSİNİN "XƏZİNƏDARI"



*"Əmək mübarizədir, mübarizə isə həzzdir".*

***R. Rollan***

Ədilə Hacızadə Bakıda anadan olub. 1955-60-cı illər ərzində Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyasının) geoloji-kəşfiyyat fakültəsini "neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı" ixtisası üzrə bitirdikdən sonra mədəndə üç il operator işləmişdir. 1963-1965-ci illlərdə Bakı Sovetinin Deputatı seçilmişdir. 1963-cü ildən, yəni Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin yarandığı gündən orada neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı şöbəsində geoloq, böyük geoloq, aparıcı geoloq vəzifələrində özünü bacarıqlı işçi kimi tanıtmışdır.

Dənizdə açılmış "Xərə-Zirə adası", "Bulla-dəniz", "8 Mart", "Ələt-dəniz", "Bahar", "Günəşli", "Çıraq", "Azəri", "Kəpəz" yataqlarında Ədilə xanımın da əməyi az olmamışdır.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Şurasının 94 saylı, 1 noyabr 1999-cu il tarixli qərarı ilə ölkəmizin neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə Ədilə xanım Hacızadə fəxri fərman və pul mükafatı ilə təltif edilmişdir.

Şöbədə çalışdığı uzun illər ərzində Ədilə xanım neft işilə bağlı ən vacib sahə sayılan ehtiyat məsələlərilə məşğul olmuşdur. Müəyyən vaxt ərzində laydan çıxarılan neftin faktik miqdarı ilə layda qalan neftin miqdarı arasındakı fərqlə bağlı xüsusi diqqət tələb edən hesabatlara şöbədə Ədilə xanım tərəfindən nəzarət olunur. Müəssisələrin geoloji şöbələrilə sıx əlaqə şəraitində işləyən Ədilə xanım gənc geoloqların inkişaf edib professional səviyyəyə qalxması, yüksək ixtisaslı mütəxəssis kimi yetişməsi üçün böyük səy göstərir, bilik və təcrübəsini əsirgəmir.

Ədilə xanım 1968-72-ci illər ərzində həyat yoldaşıyla birlikdə Əlcəzair Xalq Demokratik Respublikasında ezamiyyətdə olmuşdur.

O, həmişə dostlarını arayıb axtarmış, hamının taleyilə maraqlanmışdır. Rəfiqələri Elza, Rəfiqə, Rəhilə, Fatma, Sona, Tamilla, Almas, Sara, Vəci-

hə, indi də dilindən düşmür. Ədilə xanım dəniz neft-qaz yataqlarının ehtiyatı üzrə savadlı mütəxəssis sayılır. Yəni çıxarıla bilən ehtiyat, həmin ehtiyatdan faktik olaraq çıxarılanı, yeni neft-qaz ehtiyatı artımı Ədilə xanım tərəfindən haqq-hesab edildiyindən onu yeraltı xəzinələrin "xəzinədarı" hesab edə bilərik.

Ədilə xanımın həm də nümunəvi ailəsi var. Həyat yoldaşı, özüylə həmsənət olan geologiya-mineralogiya elmləri namizədi, dosent Ziya Hacızadə Azərbaycan Dövlət Neft Akademiyasının geoloji-kəşfiyyat fakültəsində ixtisas fənnindən mühazirələr oxuyur, tələbələrin sevimlisidir. Onun Ədilə xanımla birgə tərbiyə edib, boya-başa çatdırdıqları ali təhsilli iki övladı var. Kiçiyi həkimdir, böyüyü isə valideynlərinin sənətini davam etdirir - geoloqdur, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətində işləyir. Ailədə 4 nəvə böyüyür. Ədilə xanım "Neftçi qadınlar" cəmiyyətinin üzvü kimi də fəal iş görür.

Ömrünün 40 ilini neft işinə həsr etmiş Əmək veteranı Ədilə xanım Hacızadəyə işində və ailə həyatında yeni uğurlar arzulayırıq.





# RƏĞBƏT BELƏ QAZANILIR



***"Rəğbət qapısını mərifət açar,***
***Gül olduğu yerə xoş ətir saçar.***
***Şad-xürrəm, gülərüz səhərə bənzə,***
***Şəfəqin, nurunla aləmi bəzə".***

***B. Hilali***

Zöhrab Həmid oğlu Məmmədov 1953-cü ildə Xaçmaz rayonunun Xudat şəhərində anadan olmuşdur. O, 1970-ci ildə Xudat şəhər 1 №-li orta məktəbini bitirdikdən sonra Bakıya gələrək "Azərneft" İB-nın 26 Bakı komissarı adına NQÇİ-də əmək fəaliyyətinə başlamışdır. 1970-1978-ci illər ərzində bu NQÇİ-də neftçıxarma operatoru, neft və suyun hazırlanması sexinin sahə rəisi, neft-mədən avadanlıqlarının təmiri sexinin rəis müavini vəzifələrində işləmişdir.

İstehsalatda işləyərək 1971-ci ildə Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsinə daxil olmuş, 1977-ci ildə bu təhsil ocağını bitirmiş, mühəndis-mexanik ixtisasına yiyələnmişdir. 1978-1987-ci illər ərzində "Xəzərdənizneftqazsənaye" ÜİSB-nin Neft hasilatı üzrə istehsalat şöbəsində böyük mühəndis, "Artyomneftqaz" NQÇİ-nin Baş mexaniki vəzifələrində işləmişdir. O, 30-dan artıq səmərələşdirici təklifin müəllifidir.

1987-ci ilin axırında SSRİ Qaz Sənayesi Nazirliyinin əmri ilə təcrübəli neftçi-mühəndis kimi "Vyetsovpetro" müştərək müəssisəsinin neftçıxarma idarəsinə 2 illiyə Baş mexanik vəzifəsində işləmək üçün Vyetnam Sosialist Respublikasına ezam edilmişdir. O, Cənubi Çin dənizində istismar olunan dərin stasionar özüllərdə neftçi-mexanikə böyük ehtiyac olduğundan Vyetnam tərəfi Zöhrab Məmmədovun kontraktını 1 il də artırmışdır.

O, öz təcrübəsini vyetnamlı həmkarlarına bacarıqla öyrətdiyinə və yaxşı əmək fəaliyyətinə görə Vyetnam Sosialist Respublikasının və "Vyetsovpetro" müştərək müəssisəsinin fəxri fərmanları ilə təltif edilmişdir. O, 1990-cı ildə Vulttau-Kondau əyalətinin fəxri vətəndaşı adına və medala layiq görülmüşdür. 1990-1996-cı illərdə "Xəzərdənizneft" İB-nin Baş mexanikinin müavini, Neft Şirkətinin əsaslı tikinti üzrə Baş idarəsinin təchizat şöbəsinin rəisi, Neft Şirkəti aparatının təchizat şöbəsinin Baş mütəxəssisi vəzifələrində çalışmışdır.

Z. Məmmədov 1996-cı ildən Azərbaycan Dövlət Neft Şirkətinin istehsalat xidmətində mexanika və energetika üzrə referent vəzifəsində çalışır.

Neft sistemindəki 31 illik əmək fəaliyyətində o, uğurlu nəticələr əldə etmişdir. Bir qayda olaraq rəhbərlik tərəfindən ona həvalə edilən tapşırıqları layiqincə yerinə yetirir. Yeni texnikanın və texnologiyanın istehsalata tətbiq edilməsində onun xüsusi rolu vardır.

Böyük neftçi ordusunun Zöhrab Məmmədova xüsusi hörməti var.

Zöhrab Məmmədovun üç övladı respublikanın ali təhsil ocaqlarında oxuyur. Mehriban ailə başçısı özünün layiqli işi, yüksək mədəniyyəti, mərifəti ilə rəğbət qazanmışdır.





# "BAYIL LİMANI"NIN BAŞ GEOLOQU



*"Dünyanı tərpətmək üçün Arximedin tələb etdiyi dayaq nöqtəsi - azad əməkdir"*

*M. Qorki*

Əsgərov Tofiq Bəhmən oğlu 1936-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Orada orta məktəbi bitirdikdən sonra 1953-cü ildə M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş, 1958-ci ildə institutu "Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" ixtisası üzrə bitirmişdir. O, 1958-1959-cu illərdə SSRİ Geologiya və Yer Təkinin Mühafizəsi Nazırliyinin N. Nərimanov adına ekspedisiyasında kollektor və kiçik geoloq vəzifələrində işləmişdir.

1960-1980-ci illərdə "Xəzərdənizneftqazsənaye" ÜİB-nin Dənizdə Geoloji Kəşfiyyat Kontorunda texnik-geoloq, geoloq, kəşfiyyat və tematik partiya rəisi, geoloji şöbənin rəisi və baş geoloq vəzifələrində çalışmışdır.

T. B. Əsgərov 1980-ci ildən "Bayıl limanı" Dənizdə Kəşfiyyat Qazması İdarəsində baş geoloq işləyir.

Bakı arxipelaqının Yanan tava, Bulla dəniz, Ülfət dəniz, Daşlı sahələrində aparılmış struktur-axtarış işlərinin nəticələrinə həsr edilmiş hesabatların müəllifidir. Hesabatlarda həmin sahələrdə aparılmış geoloji-geofiziki işlərin nəticələri araşdırılmış və aparılacaq axtarış-kəşfiyyat işlərinin istiqamətləri göstərilmişdir. Eyni zamanda Bakı arxipelaqının mərkəzi hissəsində aparılmış xəritəalma qazması işlərinin nəticəsinə həsr edilmiş hesabatların müəlliflərindən biridir. Həmin işlərin nəticəsində Bakı arxipelaqında dəniz dibinin dəqiq geoloji xəritəsi tərtib edilmişdir.

1980-ci ildən "Bayıl limanı" Dəniz Kəşfiyyat Qazması İdarəsində baş geoloq vəzifəsində işləyir. İdarənin kollektivi son illər Günəşli sahəsində maili istismar quyuları qazmaqla məşğuldur. İndiyədək kollektiv 170 yüksək debitlü istismar quyusunun qazılmasını başa çatdıraraq mədənçilərə təhvil vermişdir. Quyuların qazılmasında və xüsusən mənimsənilməsində baş geoloqun xeyli zəhməti olmuşdur.



# NÜFUZ ƏMƏKLƏ QAZANILIR

*"Bəxtiyarsan, əgər çəkdiyin əmək,*
*Cahan süfrəsinə versə bir çiçək".*

*H. Cavid*

İnayət Məhəmməd oğlu Hüseynov 1950-ci ildə Qubadlı rayonunun Dəmirçilər kəndində anadan olmuşdur. 1968-ci ildə Bakıda Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Ümumi İqtisad fakültəsinə daxil olaraq 1973-cü ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Ailəlidir, 3 oğul atasıdır.

İ. M. Hüseynov əmək fəaliyyətinə 1973-cü ildə SSRİ Mərkəzi Statistika İdarəsi nəzdindəki Uçot və Hesablama İşlərinin Mexanikləşdirilməsi üzrə Ümumittifaq Layihə Texnoloji İnstitutunda mühəndis vəzifəsindən başlayaraq, 1978-ci ilə qədər orada aparıcı mühəndis vəzifəsində işləmişdir. 1978-ci ildə İ. M. Hüseynov Azneft İB-nın Kust İnformasiya Hesablama Mərkəzinə böyük mühəndis vəzifəsinə işə qəbul olunmuş, 1982-ci ildə isə köçürmə yolu ilə Xəzərdənizneftqaz İB-nin Kust İnformasiya Hesablama Mərkəzinə əvvəl büro rəisi, şöbə rəisi, sonra 1992-ci ildə direktor müavini vəzifəsinə təyin edilmişdir. Bütün yuxarıda göstərilən vəzifələrdə işləyərkən İ. M. Hüseynov özünü yüksək ixtisaslı peşəkar bir mütəxəssis kimi göstərərək, 1993-cü ildə "Azərineftinformatika" Hesablama Mərkəzinə direktor təyin edilmişdir.

"Azərineftinformatika" Hesablama Mərkəzi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və onun İstehsalat Birliklərinə yeni informasiya texnologiyalarının tətbiqi sahəsində xidmətlər göstərən bir struktur vahididir. Müəssisənin əsas fəaliyyəti Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İstehsalat Birliklərinin və onun istehsalat bölmələrinin tələblərini hərtərəfli yerinə yetirən elmi-texniki və proqram kompleksinin işlənməsi və tətbiqi, həmçinin onların istismarının etibarlı sistemlərlə təmin edilməsi, müasir tələblərə cavab verən yüksək keyfiyyətli digər informasiya xidmətləri ilə bağlıdır.

Hazırda Hesablama Mərkəzində respublikanın neft sənayesində neft və qaz yataqlarının intensivləşdirilməsi ilə əlaqədar müasir informasiya idarəetmə sistemlərinin yaradılması işləri aparılır.



Hesablama Mərkəzinin 30 ildə topladığı intellektual potensialı və yeni informasiya texnologiyası sahəsində yığdığı böyük təcrübəni nəzərə alaraq İ. M. Hüseynova 2001-2005-ci illər üçün təsdiq edilmiş elmi-texniki konsepsiya əsasında Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyi üçün belə idarəetmə sisteminin yaradılması kimi məsuliyyətli işə rəhbərlik etməsi tapşırılmışdır. Bu konsepsiyanın həyata keçirilməsi nəticəsində operativ nəzarət və idarəetmə məsələlərinin həllində keyfiyyətcə yeni və səmərəli istiqamətlərin açılmasına böyük imkanlar yaranacaqdır.

Hazırda Hesablama Mərkəzində İ. M. Hüseynovun rəhbərliyi altında informasiya idarəetmə sistemlərinin yaradılmasında mühüm mərhələ hesab edilən məlumatlar bazasının işlənməsi, uzunmüddət saxlanılması, etibarlığının təmin edilməsi və mühəndis tədqiqatlarında səmərəli istifadəsi üçün tələb edilən texniki və proqram təminatı işləri müasir səviyyədə görülərək müvəffəqiyyətlə başa çatdırılmışdır.

Məlumatlar bazasının Hesablama Mərkəzində mərkəzləşdirilməsi gələcəkdə yataqların istismar səmərəliliyinin qaldırılması, geoloji və geofiziki modellərin qurulması, neft və qaz ehtiyatlarının hesablanması, yataqlardan neft və qazın çıxarılması üçün optimal geoloji üsulların seçilməsi kimi vacib elmi-texniki problemlərin həllində geniş imkanların açılmasına şərait yaradacaqdır.

Hesablama Mərkəzinin son illərdə yeni informasiya texnologiyalarının tətbiqi sahəsində əldə etdiyi nailiyyətləri əmək kollektivinin böyük zəhməti ilə yanaşı, İ. M. Hüseynovun rəhbərlik fəaliyyəti ilə sıx bağlı olmasını xüsusilə qeyd etmək lazımdır.

İ. M. Hüseynov gözəl təşkilatçı, səmimi insan, özünə qarşı tələbkarlığı ilə kollektivin böyük hörmət və rəğbətini qazanmış bir rəhbər işçi kimi İstehsalat Birliyində böyük nüfuza malikdir. Respublikamızın neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə İ. M. Hüseynov 1999-cu ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Şurasının Fəxri Fərmanı ilə təltif edilmişdir.

İ. M. Hüseynovun rəhbərliyi altında işləyən Hesablama Mərkəzinin kollektivi qarşıda duran mühüm problemlərin mahiyyətini dərindən dərk edərək respublikanın neft sənayesi siyasətinin uğurla həyata keçirilməsi işində üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirmək əzmindədir.



# ONA RƏĞBƏT BƏSLƏYİRLƏR

*"İnsan böyük və möhtəşəm işlər görmək üçün doğulur".*

*L. B. Alberti*

Murad Səfa oğlu Əliyev 1947-ci il dekabrın 31-də Bakı şəhərində doğulmuşdur. Orta məktəbi bitirdikdən sonra, indiki Neft Akademiyasının energetika fakültəsinə daxil olmuş, 1971-ci ildə institutu bitirmişdir. Həmin il o, Abşeronneftqaz NQÇİ-yə təyinatla işləməyə göndərilmişdir.

Murad Əliyev 1972-74-cü illərdə Sovet Ordusunda zabit kimi qulluq etmişdir. O, 1974-cü ildə ordudan tərxis olunduqdan sonra "Bakı" və "Xəzər" üzən qazma qurğularında elektrik montyoru, elektrik mexaniki, böyük elektrik mexaniki, qurğu rəisinin energetika üzrə müavini işləmiş, bu illər ərzində Xəzər dənizinin "Şərqi-Livanov", "Cənub-2", "8 Mart", "Bulla-dəniz", "Abşeron" yataqlarında kəşfiyyat quyularının qazılmasında yaxından iştirak etmişdir. 1986-cı ildən "Neft Daşları" NQÇİ-nin (o vaxtlar XXII partiya qurultayı adına İB) baş energetiki vəzifəsinə təyin olunmuş, orada işlədiyi müddətdə yeni qaz-turbin elektrik stansiyasının işə buraxılmasında və istismar olunmasında, təbii fəlakətdən dağılmış "Neft Daşları"nda və Palçıq Təpəsində elektrik təsərrüfatının bərpa edilməsində, "Günəşli" yatağının elektrikləşdirilməsində fəal iştirak etmişdir.

M. Əliyev 1999-cu ilin noyabr ayından Dənizdə neft və qazçıxarma İB-nin baş energetiki şöbəsinin rəisi vəzifəsinə təyin olunmuşdur.

O, İB-də işlədiyi illər ərzində elektrik təsərrüfatının daim işlək vəziyyətdə olması üçün çalışmışdır.

İndi "Qum adası" NQÇİ-də elektrik təsərrüfatının yenidən qurulması, orada istismar olunan böyük kompressor təsərrüfatının elektrik təchizatını etibarlı etmək üçün işlər görülür. Nərimanov adına NQÇİ-də köhnəlmiş hava elektrik ötürücü xətlərinin əvəzinə yeni xətlər çəkilir. Burada istismar olunan kompressor təsərrüfatında elektrik təchizatı demək olar ki, tamamilə yeniləşib. Bütün bu işlərdə Murad Əliyevin böyük əməyi vardır. Onun həyat amalı xeyirxah işlər görmək istiqamətində köklənmişdir. O, həyatın mənasını xalqına xidmətdə görür, ömrünü də bu işə sərf etməkdən böyük məmnunluq duyur. Elə buna görə də neftçilər tərəfindən sevilir, ona rəğbət bəsləyirlər.



# ŞILTAQ XƏZƏRİN DƏRİNLİKLƏRİNİ FƏTH EDƏN FATEH



*"Həyat nə bir bayram, nə bir yas günüdür. Həyat iş günüdür".*

*Nelson*

Dünyanın bütün inkişaf etmiş ölkələrində olduğu kimi, müstəqil Azərbaycanımızda da Xəzərin qoynunda yeni-yeni neft və qaz yataqlarının kəşf edilməsi və istismarı məqsədilə üzən qurğulardan axtarış, kəşfiyyat və istismar quyularının qazılması üsulundan istifadə edilir ki, bu da dənizdə tikilən stasionar hidrotexniki qurğulardan, yəni ayrı-ayrı özüllərdən və estakadalardan həmin quyuların qazılması üsullarından daha səmərəlidir və kapital qoyuluşuna xeyli qənaət etməyə imkan verir.

Qeyd etmək lazımdır ki, belə möhtəşəm işin öhdəsindən bacarıqla gəlmək və müvəffəqiyyət əldə etmək üçün yüksək ixtisaslı və çoxillik istehsalat təcrübəsinə malik olan dəniz qazmaçı kadrlarına böyük ehtiyac vardır. Çünki, üzən qurğulardan dərin kəşfiyyat (maili) quyuların qazılması daha mürəkkəb və çətin qazma texnologiyalarının həyata keçirilməsini tələb edir.

Belə qazmaçı kadrlardan biri ÜQ-la KQJ-nin baş mühəndisi Orxan Qüdrət oğlu Səlimxanovdur.

O. Səlimxanov 1940-cı ildə Bakının Fatmayı kəndində həkim ailəsində anadan olub. 1957-ci ildə 31 saylı orta məktəbi bitirərək həmin ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunun "Neft və Qaz yataqlarının qazılması ixtisası üzrə neft-mədən fakültəsinə daxil olmuş və 1962-ci ildə həmin fakültəni bitirərək dağ mühəndisi" ixtisasına yiyələnmişdir.

Təhsilini bitirdikdən sonra ilk əmək fəaliyyətinə Sosialist Əməyi Qəhrəmanı, görkəmli neftçi Qurban Abbasovun rəhbərlik etdiyi "Qum adası" qazma idarəsində başlayıb. Həmin idarədə 1968-ci ilə qədər qazmaçı köməkçisi, texniki şöbədə mühəndis, buruq ustası, sahə rəisi vəzifələrində işləmişdir.

Neftçi Qurbanın rəhbərliyi ilə əmək cəbhəsinə atılan Orxan Səlimxanov az bir vaxtda əməksevərliyi, polad nizam-intizamı ilə kollektivin dərin hörmətini qazanır.

968-ci ildən 1971-ci ilə qədər O. Səlimxanov Kuba Respublikasında "Baradero" yatağında qazma üzrə məsləhətçi vəzifəsində çalışmış və həmin ölkədə müvəffəqiyyətlə 10 quyu qazıb və istismara buraxmışdır. Orada qazdığı həmin quyularla 5500 m-lik dərinliyi fəth etmişdir.

Müvəffəqiyyətli əmək fəaliyyətinə görə o, "Kubanın fəxri vətəndaşı" adına layiq görülmüş və "Misilsiz əməyinə görə" yubiley medalı ilə təltif edilmişdir.

Xarici ölkədən ezamiyyətdən qayıtdıqdan sonra O. Səlimxanov "Xəzər" adlı ilk Hollandiya üzən qurğusunda, keçmiş Sovet İttifaqının layihələndirdiyi "Bakı" və "Kaspıy" adlı özüqalxan üzən qurğuların tikintisində və hökumət komissiyası tərkibində qəbulunda iştirak etmişdir. O cümlədən, həmin qurğularla aparılan qazma işlərinə rəhbərlik etmişdir. Yəni həmin qurğuların rəisi vəzifəsində çalışmışdır.

1978-ci ildən 1980-ci ilə kimi "Qum adası" qazma işləri idarəsinin rəisi vəzifəsində işləmiş və bu dövr ərzində respublikada ilk dəfə olaraq qazma alətinin qaldırma və endirmə əməliyyatlarının avtomatlaşdırılmasına, yəni əl əməyinin aşağı salınmasına nail olmuşdur.

1980-1982-ci ilə kimi "Xəzərqazmaneftqaz" istehsalat birliyinin texniki şöbəsinin rəisi olmuşdur.

1982-ci ildə ÜQ-la KQİ-də rəis işləmiş, hal-hazırda baş mühəndis vəzifəsini icra edir.

1989-cu ildən 1991-ci ilə kimi İranda "Xəzər-6" qurğusunun işinə rəhbərlik etmişdir. Orada onun rəhbərliyi ilə 5776 m dərinlikdə bir quyu qazılmışdır. İrandakı yüksək əmək fəaliyyəti respublikamıza 11 milyon dollarlıq gəlir gətirmişdir. O dövrdə respublikamızın iqtisadiyyatının çətin vaxtında əlavə olaraq 1,2 milyon dollarlıq sənaye və ərzaq məhsulları gətirilmişdir. Həmin ildə gətirilən mallardan respublikamızın bütün neftçiləri istifadə etmişlər.

1995-1997-ci illərdə İranda 2-ci quyu 5800 m dərinlikdə qazılıb başa çatmışdır.

O. Səlimxanovun xidmətlərindən biri də o olmuşdur ki, onun rəhbərliyi ilə Xəzər dənizində "Azərbaycanın 60 ili adlı" üzən qurğudan rekord dərinlik əldə edilmişdir, yəni "Andreyev bankası" - "ümid" sahəsində qazılan 4 saylı quyunun dərinliyi 6715 m olmuşdur.

Dəniz qazmasının xüsusiyyətlərini və incəliklərini dərindən, eləcə də hərtərəfli bilən bu dəniz fatehi dəniz qazıması üzrə gənc kadrların hazırlanmasına xüsusi diqqət yetirir ki, onlar gələcəkdə də özüqalxan üzən qurğuların mürəkkəb avadanlıqlarını işlədə bilsinlər və respublikamızın iqtisadiyyatının inkişaf etdirilməsində misilsiz rolu olan bu işlərin müvəffəqiyyətlə davam etdirilməsi estafetini həyata keçirə bilsinlər.

O. Səlimxanov indiyə qədər bir çox gənc kadrların yetişməsinə nail olmuşdur. Həmin kadrlar neft sənayesinin müxtəlif sahələrində çalışırlar.

O. Səlimxanov qazma sahəsinə aid olan elmi-tədqiqat problemlərinə də həmişə böyük diqqət yetirir. Məlumdur ki, quyuların qazılması zamanı müxtəlif əngəllər və mürəkkəbləşmələr baş verir. Onun böyük xidmətlərindən biri də o olmuşdur ki, təklif edilmiş "Quyuların hidrodinamiki tarazlıq şəraitində qazılması" üsulu üzrə konkret hidrodinamiki hesabatlar apararaq alınan nəticələri quyuların qazılmasında tətbiq etmiş və müsbət nəticələr əldə etmişdir.

Mühəndis həlli tələb edən digər qazma problemi ondan ibarətdir ki, müasir turboburların çətin şəraitdəki iş qabiliyyətini artırmaq lazımdır.

Çünki dənizdə maili quyuları qazarkən tətbiq edilən yastıq dəstləri konstruksiyaları (şpindel və turbin yastıq dəstləri) özünü doğrultmur və tez-tez sıradan çıxırlar. Sıradan çıxmış turboburların yenidən yığılması texnologiyası öz təkmilləşdirilməsini uzun illər idi ki, gözləyirdi.



O. Səlimxanov bu problemin həllinə də nail oldu, yəni "Truboburların stator və rotorlarının verilmiş azimutlarına əsasən yığılması qaydası" üsulu işlənib hazırlandı. O, həm də şpindel və turbin yastıq dəstlərinin yeni konstruksiyasına aid olan ixtiranın (potentin) müəllifidir.

Xəzər dənizində 75-80% yataqların açılmasında belə ki, Azərbaycan sektorunda 1985-ci ildə "Çıraq", 1987-ci ildə "Azəri", 1988-ci ildə "Kəpəz" yataqlarında, O. Səlimxanovun bilavasitə iştirakı olub. Hətta 1972-1973-cü illərdə "Banka-Livanova" yatağının açılışında yaxından iştirak edərək müsbət nəticə əldə edib.

Bir neftçi kimi yetişməyində və əldə etdiyi nailiyyətlərə görə qohumu Gülbala Əliyevin, böyük qardaşı Xanlar Səlimxanovun əməyini danmır. Bu peşənin sirlərinə yiyələnməkdə bu iki insana ömrü boyu borclu olduğunu söyləyir.

Yüksək əmək fəaliyyətinə görə keçmiş sovet dövründə V. İ. Leninin anadan olmasının 100 illiyi münasibəti ilə "Əməyə görə" medalına, 1983-cü ildə "Yarımdalma" üzən qazma qurğularının tikintisində və istismarında əldə etdiyi müvəffəqiyyətə görə SSRİ Nazirlər Sovetinin mükafatına, Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin 3 dəfə qalibi olaraq, bürünc medalına, SSRİ Nazirlər Sovetinin Mükafatı laureatı adına layiq görülmüşdür.

1999-cu ildə ARDNŞ-nin "Fəxri Fərmanı" ilə təltif olunmuşdur. Əmək veteranıdır.

Yaddaqalan ömür yolu keçərək sevimli peşəsi sahəsində böyük nüfuza malik olan O. Səlimxanovun yüksək iş təcrübəsindən, həyatda qazandığı hörmətdən böyük bir əsər yazmaq mümkündür.

O. Səlimxanov sevib seçdiyi şərəfli, lakin çətin yolda bilik və bacarığını əsirgəmədən var qüvvəsi ilə çalışır ki, büdrəməsin. Çünki o, neftçi Qurbanın yetirməsidir.





# ONUN HƏYATI GƏNCLƏR ÜÇÜN NÜMUNƏDİR

*"Hər kəs sənətindən yapışsa əgər,
Dünyada nə əksə, onu da biçər".*
*Nizami*

Hacı Abdulla Hacıcalal oğlu Muradov 1935-ci ildə Qubadlı rayonunun Çardaxlı kəndində kasıb, kəndli ailəsində anadan olmuşdur. Natamam orta məktəbi həmin kənddə bitirmiş, sonralar isə təhsilini Qubadlıdakı məktəbdə davam etdirmişdir. Gənc Abdulla 3 il bu məktəbin nəzdində olan yataqxanada qalmışdır. Həftənin istirahət gününü doğma kəndində keçirər, Qubadlıya məktəbə gedəndə anası ona bir büküm çörək verər və Abdulla bu çörəklə bir həftə ərzində dolanardı. Belə çətinliklərə qalib gələrək Abdulla Qubadlıdakı orta məktəbi əla qiymətlərlə bitirmişdir.

1954-cü ildə Abdulla Muradov təhsilini davam etdirmək məqsədilə Bakıya gəlmiş və kənd təsərrüfatı texnikumunun mexanika fakültəsinə daxil olmuşdur. Bir il təhsili başa vurduqdan sonra onu əsgəri xidmətə çağırmışlar. Abdulla əsgəri xidməti Rusiyanın Vitebsk vilayətində desant alayında keçirmişdir. Əsgərlik dövründə təyyarədən 27 dəfə paraşütlə tullanaraq alay komandirinin əmrini ləyaqətlə yerinə yetirmişdir.

Əsgəri xidməti başa vurduqdan sonra Abdulla Muradov Bakının Lökbatan qəsəbəsinə qayıtmış, böyük qardaşı Şahsuvarın məsləhəti ilə Lökbatanda açılmış Bakı Neft Texnikumunun filialına daxil olmuş və 1960-cı ildə bu texnikumun mexanika fakültəsini əla qiymətlərlə bitirmiş, təyinatını "Molotovneft" neft-qazçıxarma idarəsinin 2 nömrəli qazma idarəsinin vışkaquraşdırma sexinə almışdır. Bu sexdə Abdulla Muradov fəhləlikdən mexanik dərəcəsinə qədər müxtəlif vəzifələrdə çalışmış, eyni zamanda Lökbatanın "Novıy trest" deyilən qəsəbəsində 8 nömrəli orta məktəbdə də dərs demişdir. Orada o, partiya təşkilatının katibi seçilmişdir.

1966-cı ildə Abdulla Muradov Ali Partiya Məktəbinə daxil olmuşdur. Burada dərslər rus dilində keçirilirdi. Bu da Abdulla üçün müəyyən çətinliklər törədirdi. Ancaq o, buna baxmayaraq, qısa bir zamanda rus dilinə yiyələnib, 1968-ci ildə Ali Partiya Məktəbinin tam kursunu fərqlənmə diplomu ilə bitirməyə nail olmuşdur.



Ali Partiya Məktəbini bitirdikdən sonra Abdulla Muradov Nərimanov rayonu Partiya Komitəsində təlimatçı, sonralar isə texnikum direktoru və Bakı soyuducular zavodunda rəis müavini vəzifələrində çalışmışdır.

1986-cı ildən Abdulla Muradov Dənizdə Neft və Qaz Çıxarma İdarəsi İstehsalat Birliyinin tabeçiliyində olan 1 №-li texnoloji nəqliyyat idarəsinə müdir vəzifəsinə təyin olunmuşdur. O, buraya işləməyə gələndə idarənin balansında cəmi 70 avtomaşın var idi. Bunların çoxu yararsız, nasaz vəziyyətdə olduğundan, xəttə çıxa bilmirdi. Bütün təsərrüfat bərbad halda idi. Hər şeyi sıfırdan başlamaq lazımdı. Qısa müddət ərzində Abdulla Muradovun rəhbərliyi altında 1 №-li texnoloji nəqliyyat idarəsi tamamilə dəyişildi. Köməkçi təsərrüfat və əsas binalar tikilib istifadəyə verildi.

Hal-hazırda idarənin balansında 325 ədəd texnika (avtomaşınlar, 40 traktor, yük qaldırıcı kranlar, buldozerlər və s.) vardır ki, bunlardan gündə 180 ədədi xəttə çıxır.

İdarənin əməkdaşları aylıq əmək haqqını müqavilədə göstərilən vaxt, gecikdirilmədən alırlar. İdarə 93 qaçqın ailəsini himayəsinə götürmüş, onlardan 50 nəfəri texnoloji nəqliyyat idarəsində işə qəbul edilmişdir.

Abdulla Muradov atası kimi Məkkədə ziyarətdə olub və ona Hacı adı verilib. İndi o, Hacı Abdulla Hacıcalal oğlu Muradov kimi neftçilərə yaxşı tanışdır. Axı, Abdulla Muradov həm işgüzar işçi, həm də gənclərin hami tərbiyəçisi kimi hörmət qazanmışdır.





# MƏSULİYYƏT VƏ CAVABDEHLİK HİSSİ

*"Hər cür bilik müşahidələrə və təcrübəyə əsaslanır"*

*V. Ş. Sent*

Əvəz Cavad oğlu Abdullayev 1937-ci ildə Salyan şəhərində qulluqçu ailəsində doğulmuşdur.

O, 1944-cü ildə Salyan şəhər orta məktəbinin birinci sinfinə getmiş və 1954-cü ildə oranı bitirmişdir. Həmin ildə Azərbaycan Neft və Kimya İnstitutunun neft-mədən fakültəsinə daxil olmuş, 1959-cu ildə dağ mühəndisi ixtisasına yiyələnərək institutu qurtarmışdır.

İnstitut illərindən sonra Ə. C. Abdullayev neft sənayesinin ən çətin və şərəfli sahələrindən olan qazma işləri ilə məşğul olaraq daim onun qaynar nöqtələrində məsul vəzifələrdə çalışmışdır.

O, əmək fəaliyyətinə "Qaradağneft" NMİ-nin qazma kontorunda qazmaçı kimi başlayaraq, böyük mühəndis, qazma üzrə böyük mühəndis və nəhayət qazma ustası vəzifəsinə yüksəlmişdir. Artıq istehsalatdan müəyyən qədər təcrübə toplamış mütəxəssis, 1962-ci ildə Azərbaycan EA Dərin Neft və Qaz Yataqlarının Problemləri İnstitutunda aspiranturaya daxil olmuş, 1969-cu ildə "Quyuların almaz baltaları ilə qazılmasının texnologiyası" mövzusunda dissertasiya müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. 45 elmi məqalə, iki ixtira və onlarca səmərələşdirici təkliflər onun əməyinin məhsuludur.

Ə. Abdullayev, "Dənizneft" birliyinin quyuların qazılması üzrə istehsalat şöbəsində böyük mühəndis kimi yenidən istehsalat fəaliyyətinə başlayır.

Ə. C. Abdullayev 1969-cu ildə "Şirvanqazmaneft" qazma işləri trestinin 3 saylı qazma kontoruna baş mühəndis vəzifəsinə göndərilir, daha sonra "Azərneft" birliyinin quruda geoloji-kəşfiyyat kontorunda baş mühəndis, 1972-ci ildə Qarabağlı, Neftçala qazma işləri idarəsinin rəisi, 1974-cü ildə "Azərneftkəşfiyyat" trestinə baş mühəndis təyin olunur. Azərbaycan Respublikasının bütün ərazisində dərin kəşfiyyat quyuları qazmaqla məşğul



olan bu trest həmin illərdə və bu gün də dünyada ən dərin üç quyudan biri olan, köhnə SSRİ-də analoqu olmayan T-1 Saatlı 15000 m quyunun tikintisi və sonradan qazması ilə məşğul oldu. Quyu 8374 m-ə kimi qazıldı.

SSRİ neft sənayesi nazirliyində struktur islahatları ilə əlaqədar olaraq, trest ləğv olunduqdan sonra Ə. C. Abdullayev Azərbaycan Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunda bölmə müdiri, 1976-cı ildə "Azərneft" İB-nin baş mühəndisi, ƏM və TT üzrə müavini kimi çalışmışdır. 1979-cu ildə o, "Qobustan Kəşfiyyat Qazma İdarəsi"nə rəis təyin olunur. Burada 6 illik fəaliyyətində Abşeron Kür ətrafı düzənlik və Gürcüstan sərhədlərində Kür və İori çayları aralığında kəşfiyyat işləri aparan idarədə böyük bir kollektivə rəhbərlik edir. Bu idarənin qazdığı quyuların orta dərinliyi 5000 m-dən artıq idi.

Daha sonra tale onu SSRİ neft sənayesinin təcrübəli mütəxəssisi kimi uzaq Suriyada Ərəb Respublikasında sınağa çəkdi. O, dörd ilə yaxın 1986-89-cu illərdə Suriya Ərəb Respublikası Neft Şirkətində baş mütəxəssis kimi çalışmışdır. Ezamiyyətdən qayıtdıqdan sonra, 1989-cu ildən "Qobustan" buruqquraşdırma idarəsinin rəisi kimi yenə kəşfiyyat qazmasına xidmət göstərərək, özünün bir daha tikintiquraşdırma işlərində də xüsusi qabiliyyəti olduğunu sübut etmişdir.

Ə. C. Abdullayev 1993-cü ildə "Sahil" kəşfiyyat qazma idarəsində İTŞ-nın rəisi, 1994-cü ilin noyabrından isə "Neft Daşları" DQİİ-nin rəisi kimi fəaliyyətini davam etdirir.

Birinci növbədə idarənin bütün struktur bölmə və sexlərində dəmir nizam-intizam yaradıldı. İdarədə şöbə və sexlərin rəhbərliyinin arasında islahatlar aparıldı və hamının qarşısında konkret cavabdehlik qoyuldu.

Rəisin səyi nəticəsində maili quyuların qazılmasında rotor üsulundan istifadəyə geniş yer verildi, mərkəzləşdiricilərlə onların diametrinə və baltadan olan məsafənin nizamlanması ilə quyuların tuşlanması ciddi nəzarətə götürülərək quyular öz məqsədinə, yəni istənilən nöqtəyə qazılmışlar.

Bütün bu sadalanan fəaliyyət görülən işlərin cüzi bir hissəsidir.

İdarə 1996-cı ildən 2001-ci il daxil olmaqla mütəmadi olaraq tapşırıqları bütün texniki-iqtisadi göstəricilər üzrə yerinə yetirmiş və böyük qənaətlə işləmişdir.

Ə. C. Abdullayev 1977-ci ildə ADİ nəzdində bir illik ingilis dili kursu keçmişdir və 1972-76-cı illərdə istehsalat rəhbərlərinin üç illik alı məktəbini bitirmişdir. Ə. C. Abdullayev sovet mütəxəssisləri üçün ərəb-rus dili lüğəti hazırlamışdır.

Özündə olan yaxşı keyfiyyətlərə görə o, istehsalatda gördüyü, neft korifeylərinə - Bəxtiyar Məmmədova, Ələkbər Süleymanova, Əli Əmirova, Bəhmən Hacıyevə, Akif Cəfərova, Nazım Əliyevə, Rəhman Qurbanova, Cümşüd İbrahimova borcludur.



# QURUB-YARATMAQ EŞQİ

*"Xəzinə kəşf etmək istəsən əgər,*
*Hər bir çətinliyə tab et, sinə gər".*
*Nizami*

Doğma respublikamızın təbii sərvətləri sayılan neftin və qazın hasil edilməsində xüsusilə böyük xidmətləri olan Dənizdə NQÇ İB "Azərdənizneftinşaat" trestinin əməksevər kollektivi həm quruda, həm də Xəzərin mavi dalğaları qoynunda tikib-yaratdığı əzəmətli neftmədən qurğularının toplusu ilə özünə möhtəşəm bir abidə ucaltmışdır. Bu qocaman trest ölkəmizdəki tikinti təşkilatları sırasında təkcə öz dəst-xətti ilə deyil, həm də yüksək ixtisaslı, dərin bilikli, fədakar mütəxəssisləri ilə daim fərqlənmişdir. Abşeron torpaqlarının altından və dənizin dibindən zəngin neft-qaz yataqlarının üzə çıxarılması və istismar edilməsində əzmlə çalışmış, bu gün də dəniz mədənlərində qiymətli karbohidrogenlərin hasilatının sabitləşdirilməsi və daha da artırılması məqsədilə yorulmadan işləyən neft inşaatçılarının öncüllərindən biri də dərin savadlı mühəndis, istedadlı təşkilatçı, SSRİ neft sənayesi əlaçısı, qayğıkeş yoldaş, nəhayət çox alicənab və sadə insan Əliniyaz Cahangir oğlu Babayevdir.

Azərbaycanın cənub incisi Lənkəranda anadan olan Əliniyaz Babayevin mavi Xəzərə vurğunluğu təsadüfi deyildi. Orta məktəbi gümüş medalla bitirən gənc Əliniyaz daha "prestijli" ali məktəblərə də qəbul ola bilərdi. Lakin o zaman şıltaq ləpələrin qoynunda neft uğrunda genişlənən mübarizədə iştirak etmək arzusu, dəniz inşaatçısı olmaq istəyi onu Azərbaycan Politexnik İnstitutuna gətirib çıxardı. 1965-ci ildə ali təhsili başa vuran Əliniyaz Babayev taleyini həmişəlik məhz "Azərdənizneftinşaat" trestinə bağladı.

İşə 2 saylı Tikinti-Quraşdırma İdarəsində usta kimi başlayan gənc Əliniyaz "Qum adası" və "Səngəçal-dəniz" neft yataqlarında estakadaların, estakadayanı meydançaların və digər neft-mədən qurğularının inşasında iştirak etdi. Sonralar bu mədənlərdə hasilatı sabit saxlamaq və artırmaq məqsədilə sahildə qaz-kompressor stansiyaları tikilməyə başlayanda Əliniyaz Babayev məhz bu mürəkkəb texnoloji qurğular üzrə ixtisaslaşmağa başladı.



2 saylı TQİ kollektivinin layiqli üzvü olan Əliniyaz Babayev 23 il fasiləsiz çalışdığı bu idarəni özünün ikinci evi hesab edir. Bu kollektivdən, xüsusilə bacarıqlı və təcrübəli briqadirlər mərhum Leonid Kurqanov və Nikolay Xolodkovdan, indi də 2 saylı TQİ-də çalışan Şubay Vəliyevdən o çox şey görüb-götürüb, mürəkkəb konstruksiyaların quraşdırılması sirlərini öyrənib, əsl həyat məktəbi keçib. Kollektivin etimadını qazanan Əliniyaz Babayev 1976-cı ildə 2 saylı TQİ-nin baş mühəndisi, 1982-ci ildə isə rəisi vəzifəsinə irəli çəkilib. Bu illərdə kollektiv respublika əhəmiyyətli obyektlərin tikintisində fəal iştirak edib. Ə. Babayevin rəhbərlik etdiyi idarəyə böyük etimad göstərilərək SSRİ miqyaslı Urenqoy-Petrovsk və Urenqoy-Novopskovsk yüksək təzyiqli qaz kəmərlərinin, Volqa çayının Kuybışev su hövzəsində üst-üstə uzunluğu 66 km olan su altı qaz kəmərinin çəkilişi, Kür çayı üzərində estakada tipli 4 körpünün qurulması, zəlzələdən zərər çəkmiş İsmayıllıda, Özbəkistanın Qəzli şəhərində tikintilər həvalə edilmişdi. Əliniyaz müəllimin inşa etdiyi SSRİ miqyasında o vaxt analoqu olmayan, əfsanəvi Neft Daşlarında polad dirəklər üzərində ilk dəfə tikilmiş Qaz-turbin elektrik stansiyası, 1 saylı Sıxıcı kompressor stansiyası, gərginlik yüksəldici yarımstansiya, "Günəşli" yatağından gələn neftin və qazın yığılması və ayrılması kompleksi kimi mühüm obyektləri sadalamaqla qurtarmaq mümkün deyil. Xəzərin şahə qalxan dalğalarına sinə gərən, çətinliklərdən bir an belə qorxmadan dəniz neft mədənləri üçün yüzlərlə kilometr estakada, onlarla estakadayanı meydança tikən fədakar dəniz inşaatçılarının daim ön cərgəsində olub Əliniyaz müəllim.

1989-cu ildən "Azərdənizneftinşaat" trestinin baş mühəndisi kimi məsul bir vəzifədə çalışan Əliniyaz müəllim Xəzər sularının daha dərin qatlarına cəsarətlə ilkin addımlayan dəniz inşaatçılarını, bu qəhrəman əməkçiləri daim irəli aparmışdır.

Doğma respublikamız müstəqilliyini bərpa etdikdən sonra xarici şirkətlər üçün ölkəmizin zəngin neft-qaz yataqlarının işlənməsində yaxından iştirak imkanı yarandı. Xarici şirkətlərlə birgə işə ilk başlayan təşkilatlardan biri də "Azərdənizneftinşaat" tresti oldu. "Günəşli" neft yatağının səmt qazlarının utilizasiyası" layihəsi üzrə keçirilən tenderdə qalib gəlmiş "Pennzoyl" şirkətinin, mütəxəssislər qrupu ilə birgə "Neft Daşları"nda ilk dəfə məhz Əliniyaz Babayev olmuş, tikiləcək 2 saylı SKS üçün onlarla birlikdə yer seçmişdi. Müqavilə imzalandıqdan sonra Azərbaycan tərəfindən hazırlıq işləri Əliniyaz müəllimin yaxından iştirakı ilə qısa bir müddətdə icra edildi. 1993-cü ilin avqustunda inşasına başlanan obyekt 1994-cü ilin dekabrında təhvil verildi. Bu gün Əliniyaz müəllim fəxrlə qeyd edir ki, ötən illər ərzində "Təbii sərvətin milli sərvətə çevrilməsi" layihəsi üzrə artıq milyardlarla kubmetr qaz sahilə nəql edilmişdir.

"Azərdənizneftinşaat" trestindəki fəaliyyəti dövründə 15 qaz-kompressor stansiyasının tikilməsində, quraşdırılmasında, texnoloji prosesin tənzimlənməsində iştirak etmiş Əliniyaz Babayev bu sahədə respublikada ən görkəmli mütəxəssislərdən biri hesab edilir. Həmkarlarının qeyd etdiyi kimi, işgüzar və zəhmətkeş insan olan Əliniyaz müəllim qaz-kompressor stansiyalarının istismara daxil edilməsi ardıcıllığını çox gözəl bilir və böyük ustalıqla tətbiq edir.

2000-ci il ərzində Əliniyaz müəllim Səngəçalda 5 saylı, "Neft Daşları"nda 3 saylı qaz-kompressor stansiyalarının təmiri, 2 saylı sıxıcı kompressor stansiyasının genişləndirilməsi işlərində uğurla və fəal surətdə iştirak edib. Hal-hazırda dəniz inşaatçıları "Neft Daşları"nda 5 saylı əmtəə çənləri parkının rekonstruksiyasını müvəffəqiyyətlə davam etdirirlər. Əlbəttə ki, bütün bu işlər neft və qaz hasilatının sabit saxlanmasına və artırılmasına xidmət edir.

Ömrünün 35 ilini sevimli trestinin və mehriban kollektivin qurub-yaratdığı obyektlərin tikintisinə həvəslə həsr etməyindən fərəhlə danışır Əliniyaz müəllim. Hər bir obyekti tikib təhvil verəndə o, ürəkdən sevinib. Son illərdə təhvil verilən obyektlərin sayının ilbəil artması da onun ürəyincədir. Axı, elin sərvətinin artması, vətənin çiçəklənməsi, Azərbaycanın qüdrətlənməsi Əliniyaz Babayevin həyatının mənasıdır. Gənc nəslin hamisi və tərbiyəçisi kimi tanınan Əliniyaz müəllim vətənə məhəbbət, ictimai borca sədaqət, vicdan təmizliyi və hər işdə ən ciddi məsuliyyət kimi yüksək amallarla yaşamış və övladlarını da belə tərbiyə etməyə çalışmışdır. Atalarının yolunu şərəflə davam etdirən üç oğuldan ikisi inşaatçı, biri isə Dənizdə NQÇ İB-də şöbə müdiridir. Babasının adını daşıyan kiçik Əliniyazın neftçi, ya inşaatçı olacağını dəqiq demək mümkün olmasa da, onun cəmiyyətdə babası kimi layiqli və ləyaqətli vətəndaş olacağına inam çox böyükdür.





# ПАТРИАРХ МОРСКОЙ ГЕОЛОГИИ



***"Keçmişi bilmədən müasir dövrün əsl mənasını və gələcəyi anlamaq qeyri-mümkündür"***

***M. Qorki***

Фотоальбом, в котором запечатлена целая жизнь. С фотографии смотрит человек с военной выправкой, облаченный в элегантный гражданский костюм с орденскими планками на груди. Это Федор Григорьевич Похил - ветеран Великой Отечественной войны и труда, из 78 прожитых лет 52 отдавший любимому делу - геологическому картированию дна Каспийского моря.

В 1964-1970 гг. мне (М. Мирзоев) довелось поработать с этим, безусловно, интересным, высокоэрудированным геологом. С тех пор много воды утекло. Я успел побывать в разных нефтеразведках, экспедициях, в казахских степях, а Федор Григорьевич, сменив не одно поколение экспедиционных судов, продолжал заниматься морской геологией. И вот, буквально на днях, в актовом зале Комплексного морского геологоразведочного управления состоялась наша новая встреча. В тот день коллектив геологоразведчиков проводил патриарха картировочного бурения Федора Григорьевича Похила на заслуженный отдых.

Альбом начинается с фотоснимка, на котором изображен сооруженный в г. Хосте Краснодарского края мемориал погибшим в Великой Отечественной войне солдатам и офицерам. Снимок датирован вторым декабрем 1942 года. Здесь покоится прах отца Федора Григорьевича - Григория Эммануиловича Похила. Шестью месяцами раньше в июне 1942 года в г. Краснодаре был призван в армию и сам Федор Григорьевич. Службу начал курсантом Винницкого общевойскового училища. В октябре 1942 г. в самые критические дни Великой Отечественной войны, когда группа армии "ЮГ" немецкого командования рвалась к бакинской нефти, училище было расформировано, а курсанты направлены в действующую армию. Один из батальонов, в котором служил Ф. Г. Похил, был включен в сос-

тав Северо-Кавказского фронта, который вел оборонительные бои под г. Моздоком. Здесь, в одном из боев, Федор Григорьевич был ранен, контужен, а после выздоровления снова воевал в составе 58-й армии Северо-Кавказского фронта.

В августе 1943 г., когда положение на фронтах несколько стабилизировалось, возник вопрос пополнения Вооруженных Сил СССР военными кадрами. Для продолжения учебы Ф. Г. Похил был направлен в Тамбовское общевойсковое стрелково-пулеметное училище. В июне 1944 года после окончания училища он воевал в составе 6-й гвардейской армии 1-го Прибалтийского фронта.

Второе ранение Ф. Г. Похил получил в октябре 1944 г. в районе города Либавы. Ранение оказалось тяжелым. Пришлось серьезно лечиться в госпитале г. Опарина Кировской области до февраля 1945 года. Вылечившись, Федор Григорьевич снова воевал, теперь уже в составе 7-й гвардейской армии 2-го Украинского фронта. Победу он встретил в Чехословакии. Об этом периоде жизни Ф. Г. Похила свидетельствуют черно-белые фотоснимки и документы. Боевые заслуги Ф. Г. Похила достойно оценены командованием. Он награжден орденами "Красная звезда", "Отечественной войны 1941-1945 гг." первой степени, медалями. Так закончилась военная жизнь Федора Григорьевича, а после демобилизации в августе 1946 года началась его мирная, трудовая жизнь, которая оказалась значительной и емкой по содержанию.

В 1947 г. Ф. Г. Похил поступил на геологоразведочный факультет Бакинского нефтяного техникума им. Октябрьской Революции и в 1950 году получил квалификацию горного техника-геолога. Трудовую деятельность начал техником-геологом в организованной в 1950 г. в Баку союзной геолого-поисковой конторе в море, нынешнем Комплексном морском геолого-разведочном управлении. В марте следующего года Федор Григорьевич возглавил разведочную партию по геологическому картированию, базирующуюся на мотоботе "Петр Аброскин".

Геологическое картирование в то время носило рекогносцеровочный и полудетальный характер - оконтуривались антиклинальные складки по выходам на дне моря отложений акчагыльского яруса, который, кстати, является хорошим маркирующим горизонтом. Сводовые части структур картировались по разреженной сетке. На сводах структур выявлялись многочисленные разрывные нарушения. Тектоника складок была связана с диапиризмом и осложнялась грязевым вулканизмом. Словом, природа преподносила Ф. Г. Похилу множество загадок, которые он под мудрым руководством главного геолога конторы А. Л. Путкарадзе успешно расшифровывал.

Так, из года в год молодой геолог набирался опыта, который пригодился ему при переоборудовании судов под картировочное бурение, составлении геологических карт поднятий Каспия.

Под руководством Ф. Г. Похила в последующие годы под картировочное бурение были переоборудованы суда нового класса с более мощными техническими данными, тральщики - "Генерал Багратион", "Александр Невский", "Адмирал Нахимов", "Адмирал Лазарев", буксирные теплоходы "Скорый", "Скромный", "Имант Судмалис", "Казах", "Таджик". С помощью этих судов геологическая съемка проводилась на площадях Абшеронского и Бакинского архипелагов, на дагестанском побережье, подводном склоне Прикаспийско-Кубинской нефтегазоносной области, на восточном шельфе Каспия. В результате этих работ были выяснены элементы Жилинской структуры, установлено наличие новой ундуляции оси, образующей самостоятельное поднятие камней Григоренко. Ряд картировочных скважин были пробурены на площади, расположенной к востоку от выходов известняков, оконтуривающих мыс Алят до острова Булла и в районе острова Глиняного. Было установлено, что ось складчатой зоны Алятской гряды, представляющей собой крупную тектоническую зону Юго-Восточного Кобыстана, ундулирует и в районе моря образует еще одно поднятие - Аляты-море. По каждой из площадей - Сангачалы-море, Дуванный-море, Булла-море, Хамамдаг-море, Саньги Мугань, Гарасу, к. Персиянина, к. Игнатия, Бяндован-море, Погорелая Плита, б. Головачева, б. Куринская, Куринский Камень была составлена детальная геологическая карта в масштабе 1:25000 с нанесением направления и амплитуды смещения поперечных и продольных разрывных нарушений, прослежены зоны выклинивания отложений продуктивной толщи, оконтурены островные и подводные, а также погребенные грязевые вулканы. Одновременно для определения положения скважин на планшете метод обратной засечки секстаном со временем был заменен на новейшие методы навигации, в частности, радиогеодезическое и спутниковое, что резко повысило точность привязки скважин к конкретному району исследований.

Определенный объем морских геологических исследований был проведен Ф. Г. Похилом на шельфах Казахстана и Туркменистана. Так, от мыса Сагандык на севере до северной оконечности острова Огурчинского проводилось рекогносцеровочное картировочное бурение с целью изучения стратиграфии и литологии морского дна, выявления тектонической и стратиграфической связей шельфа с материком, выделения участков для проведения детальных картировочных работ для подготовки к последующим этапам разведочных работ, освоения в навигационном и гидрометеорологическом отношении слабо изученных берегов восточного побережья Каспия. Результатом этих работ явилась схематическая геологическая карта района исследований в масштабе 1:200000, в районе Куули выявлено крупное продольное нарушение, делящее западное крыло Бекдашской складки на два блока, по которому восточный блок опущен. В районе мыса Суэ по отложениям сарматского яруса отмечен перегиб пластов субмеридионального простирания.

Установлено, что побережье Каспийского моря от мыса Карши до мыса Тарта сложено отложениями абшеронского яруса, перекрытыми четвертичными осадками небольшой мощности. Аналогичная картина имеет место и на морском продолжении Челекенского поднятия. Вся остальная территория сложена осадками галоцена и плейстоцена.

В 1980 г. в эксплуатацию было введено новое судно структурно-картировочного бурения - "Спецсудно-1 им. А. Амирова", построенное французской фирмой "Серет". На этом судне впервые было установлено оборудование шлангокабельного бурения, аппаратура для сейсмоакустического профиллирования, сонар бокового обзора и установки для гидрологических исследований. Приемка этого уникального судна и доставка на Каспийское море через систему каналов, а также бурение с этого корабля множества скважин были также осуществлены под руководством Федора Григорьевича Похила, за что он был награжден бронзовой медалью ВДНХ СССР.

Пожалуй, самая большая заслуга Ф. Г. Похила заключается в результатах, полученных инженерно-геологическим судном "Бакерит", которое затем было переименовано в "Джумшуд Ибрагимов". Это судно было построено в Финляндии по заказу "Союзморинжгеология". С помощью этого судна можно было бурить скважины на акватории моря с глубинами от 80 до 300 м. Специальное оборудование позволяло отбирать пробы горных пород методом опережающего вдавливания. На борту судна производились экспресс-анализы, на установке "Тристар" выполнялись анализы проб грунта для определения физических прочностных и деформационных характеристик.

Проводимая Ф. Г. Похилом инструментальная геолого-геоморфологическая съемка прикаспийского района способствовала дешефрированию аэрофотосъемочных работ в этом регионе и дальнейшему составлению геологической карты северо-западной азербайджанской части акватории Каспия.

Исследования Ф. Г. Похила отражены в авторских тематических отчетах, защищенных на научно-технических советах. Все отчеты были приняты с оценкой "отлично", и в настоящее время они представляют собой архивные источники по геологии Каспийского моря.

...52 года, отданные морской геологии. За более чем полувековой срок Ф. Г. Похил работал с такими геологами, как Ч. А. Халилбейли, А. Н. Гасанов, А. А. Победин, П. Р. Дудка, Д. С. Бурман, Б. В. Демин, М. М. Агаев, Б. И. Дудин, Р. А. Аскеров, Б. П. Борщиков. Многих из этих людей уже нет в живых, но память о них жива.

Большую научную и практическую работу по воспитанию и становлению полевых геологов ныне проводит директор Комплексного морского геолого-разведочного управления Гусейн Юсифович Гасанов, геолог высокой квалификации и щедрой души человек, с особым тактом относящийся к ветеранам труда.

В стенах этого управления сформировались такие геологи, как Н. И. Ваньков, В. И. Лукьянов, А. И. Сулейманов, И. М. Голицына (Заикина), Т. Б. Аскеров, Г. Г. Тагиев, Т. К. Мурадов и другие. Многие из них по праву считают Ф. Г. Похила своим учителем.

Многолетний труд Ф. Г. Похила отмечен медалями "За доблестный труд", "Ветеран труда", значком "Миллион тонн нефти", благодарностями и ценными подарками геологоразведочного управления.

Сегодня все, кто знает Ф. Г. Похила и работал с ним, желают ему доброго здоровья, благополучия во всем.



# RUH YÜKSƏKLİYİ İLƏ



***"Təcrübə ən yaxşı müəllimdir"***
***Tacik atalar sözü***

Mustafayev Məhəmməd Məhərrəm oğlu 1951-ci il mart ayının 2-də Tovuz rayonunun Düzqırıxlı kəndində fəhlə ailəsində anadan olmuşdur. O, orta məktəbi bitirdikdən sonra 1968-ci ildə Azərbaycan Politexnik İnstitutunun "Sənaye və mülki tikintilərin konstruktorları" fakültəsinə daxil olmuş, 1973-cü ildə təhsilini başa vurmuş, sənaye və mülki tikinti üzrə inşaat mühəndisi ixtisasına yiyələnmişdir.

M. M. Mustafayev institutu bitirdikdən sonra 1973-cü ildən 1975-ci ilə kimi SSRİ Dövlət Sərhəd Qoşunlarının Sakit Okean Hərbi Dairəsində hərbi xidmətdə olmuşdur. Hərbi hissədən tərxis olunduqdan sonra 1975-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Quruda NQÇ İstehsalat Birliyinin "Azərnefttikinti" Trestində əmək fəaliyyətinə başlamışdır. 1981-ci ildə həmin trestin 3 nömrəli Tikinti-quraşdırma İdarəsinin rəisi, 1983-1990-cı illərdə isə trestin DVM zavodunun direktoru vəzifəsində çalışmışdır.

M. M. Mustafayev 2000-ci ilin sentyabr ayından ARDNŞ-nin "ANŞAD Petrol" müştərək neft və qazçıxarma müəssisəsində baş direktor vəzifəsində çalışır.

Bu müştərək müəssisə 1993-cü il fevralın 25-də ARDNŞ ilə Türkiyənin "Atilla Dotan Petrosan Korporeyşn" Şirkəti ilə bağlanmış müqavilə əsasında yaradılmışdır. Müştərək müəssisə 1994-cü il martın 1-də fəaliyyətə başlayıb. Neftçala, Xıllı və Gürovdağ neft və qaz yataqlarının işlənməsi, neft-qaz hasilatı və emalı ilə məşğul olur. 1995-ci il martın 1-dən Malayziyanın "Lend ceneral verxod" şirkəti də bu müqaviləyə qoşulub.

Hal-hazırda Neftçala, Xıllı, Düzdağ yataqlarındakı işləyən quyuların sayı 170-ə çatır. Müştərək müəssisənin işçiləri qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində bir sıra nailiyyətlər əldə etmişlər. 2001-ci ildə illik tapşırığa 160 faiz əməl olunmuşdur. Neftçilər indi də böyük ruh yüksəkliyi ilə işləyirlər. "Anşad Petrol" müştərək neft və qazçıxarma müəssisəsinin baş direktoru M. M. Mustafayev qüvvə və bacarığını əsirgəmir.



# 43 İL BİR MÜƏSSİSƏDƏ

*"Vüqarlılıq - daxili əzəmətdir, mənəvi ucalıqdır".*

*C. M. Dəvani*

Firəngiz Hilal qızı Manafova 1937-ci ildə Salyan rayonunda hərbçi ailəsində anadan olmuş, 1954-cü ildə Salyan rayonundakı 3 saylı orta məktəbi bitirib, həmin il M. Əzizbəyov adına "Neft və Kimya İnstitutuna daxil olmuş, 1959-cu ildə Mühəndis-iqtisad fakültəsini bitirmiş, təyinatla gənc mütəxəssis kimi keçmiş "Azərneft" Kəşfiyyat Trestinin 5 saylı Qazma kontoruna göndərilmişdir (bu qazma kontoru indi Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsi adlanır).

O vaxt bu kontor Qaradağ rayonunun Pirsaat qəsəbəsində ilan mələyən qumluq səhrada yerləşirdi. F. H. Manafova bu müəssisəyə gələn 21 yaşlı ilk azərbaycanlı qızlardan biri olmuşdur. O, 1959-cu ildən 1969-cu ilə kimi iqtisadçı, sonra böyük iqtisadçı vəzifələrində çalışmış, 1969-cu ildən bu günə kimi əməyin təşkili və əmək haqqı şöbəsinə rəhbərlik edir. Artıq o, 43 ildir ki, təyinatla göndərildiyi bir müəssisədə işləyir. Bu müəssisədə işləyən neftçi ilə həyat qurmuş, artıq dörd övladı boya-başa çatdırmışdır. Onlardan üçü ali təhsilli neftçidir, biri isə Müstəqil Azərbaycan Universitetində İngilis dili fənni üzrə müəllim işləyir.

F. H. Manafovanın 43 ildə yetişdirdiyi mühəndislər Azərbaycanın müxtəlif bölgələrində və keçmiş SSR-nin müxtəlif şəhərlərində çalışırlar.

F. H. Manafovanın əməyi dövlət tərəfindən qiymətləndirilmişdir. O, fəxri fərmanlarla, 1970-ci ildə "Əmək rəşadətinə görə" yubiley medalı ilə təltif olunmuş, 1982-ci ildə "Respublikanın əməkdar iqtisadçısı", 1987-ci ildə "Neft sənayesi əlaçısı" fəxri adlarına layiq görülmüş, ona "Əmək veteranı" medalı verilmişdir.

Firəngiz xanım işdə və ictimaiyyət arasında özünü işgüzar, səmimi və vüqarlı aparır.



# HAMIDAN ÖYRƏNMƏYƏ ÇALIŞAN VƏ HEÇ KİMƏ BƏNZƏMƏYƏN İNSAN



*"İnsanda yaxşı nə varsa, günəşin şüalarında və ananın südündədir - bizdə həyat məhəbbətini doğuran budur".*

*M. Qorki*

İbrahimov Ağalar Allahverdi oğlu 1956-cı ilin oktyabr ayının 5-də Qutqaşen rayonunda (indiki Qəbələ) anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1973-cü ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə daxil olmuş, ailə vəziyyəti ilə əlaqədar 1974-cü ildə təhsilini yarımçıq qoyaraq istehsalata gəlmişdir.

1978-1985-ci illərdə Odessa Ali Dənizçilik Məktəbinin Dəniz yollarında Gəmi idarəetmə bölməsini müvəffəqiyyətlə bitirərək gəmi sürücülüyü mühəndisi ixtisası qazanmışdır.

1978-ci ildən bu günə kimi Dəniz Neft Sənayesi sistemində çalışır.

A. A. İbrahimov səbr və əzmkarlıqla dənizçilik peşəsinin bütün mərhələlərindən uğurla keçərək matros şagirdliyindən, strateji dövlət əhəmiyyətli "Xəzərdənizneftdonanma" baş idarəsinin rəisi kimi çox məsul bir vəzifəyədək yüksəlmişdir.

A. A. İbrahimov peşəkar dənizçi kimi, Yuqoslaviya, Vyetnam, Sinqapur, İngiltərə, Fransa və sair ölkələrdə xidməti ezamiyyətlərdə olmuş və tapşırıqların öhdəsindən bacarıqla gəlmişdir.

1996-cı ildən bu günə kimi Xəzər Dəniz Dalğıc və Qəza Xilasetmə İşləri idarəsinin rəisi vəzifəsində çalışır.

Ana dilindən başqa rus, ingilis və türk dillərində də sərbəst danışır.

İşlədiyi bu illər ərzində başçılıq etdiyi müəssisənin ahəngdar işləməsi, verilən sifarişlərin vaxtlı-vaxtında yerinə yetirilməsi, əmək və icra intizamının daha da möhkəmləndirilməsi, işçilərin maddi rifah halının yaxşılaşdırılması istiqamətində görülən səmərəli fəaliyyətinə görə ARDNŞ-nin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Ailəlidir, iki övlad atasıdır.

Onun milli və mənəvi sərvətlərimizə sadiqliyi və yüksək peşəkar dənizçilik səviyyəsinə yiyələnməsinin məntiqi nəticəsi olaraq 90-cı illərin əv-

vəllərində yaranmış vəziyyətlə əlaqədar "Xəzərdənizneftdonanma" idarəsinə rəhbərlik məsələsi müzakirə edilərkən A. A. İbrahimovun namizədliyi həm ARDNŞ rəhbərliyi, həm də dənizçilər tərəfindən yekdilliklə irəli sürülmüş və müdafiə edilmişdir.

Onun donanmaya rəhbərlik etdiyi illər bütün regionlar və müəssisələr arasında iqtisadi əlaqələrin pozulması, ölkədə mövcud olan qeyri-sabitlik, hakimiyyət çevrilişinə edilən cəhdlər dövrünə təsadüf etsə də, həmin "Xəzərdənizneftdonanma" idarəsinin bilavasitə yaxından iştirakı ilə Xəzər Dənizində Geoloji-Kəşfiyyat, Qazma, Tikinti Quraşdırma, Neft və Qaz Hasilatının artırılması və qiymətli karbohidrogenlərin boru kəməri vasitəsi ilə sahilə nəql edilməsi, sərnişin daşınması və digər sahələrlə bağlı görülən işlərdə çox yüksək nəticələr əldə edilmişdir.

"Əsrin müqaviləsi"nə müvafiq olaraq gəmilərin xarici şirkətlər tərəfindən əlverişli qiymətlərlə icarəyə götürülməsi üçün normativ sənədlərin işlənib hazırlanması və onun həyata keçirilməsində, ən əsası isə işçilərin sosial hüquqlarının mühafizəsi istiqamətində görülən işlərə diqqət və qayğının artırılması A. A. İbrahimovun ən önəmli iş prinsiplərindən biri olmuşdur.

O, dövrdə "Xəzərdənizneftdonanma" idarəsi ilə Şotlandiya "BİE MARİN" şirkəti arasında Azərbaycanda fəaliyyət göstərən neft konsersiumlarına gəmi xidmətlərinin göstərilməsi üzrə birgə saziş bağlanmışdır. Bu Alyansdan alınan gəlirlərlə donanmanın maliyyə vəziyyətini yaxşılaşdırmaqla bərabər, yeni tələblərə cavab verəcək infrastrukturların bərpası həyata keçirilmişdir.

A. A. İbrahimovun həyata real baxışı, hadisələrə düzgün qiymət vermək bacarığı, kütləsi inandıra bilmək qabiliyyəti və milli-mənəvi dəyərlərimizə dərindən bağlılığı həmişə və hər yerdə yüksək vətəndaşlıq mövqeyindən çıxış etməsi 1990-cı ilin qanlı-qadalı yanvar günlərində özünü daha qabarıq surətdə büruzə vermişdir.

20 Yanvar faciəsinin dünya ictimaiyyətinə çatdırılmasında heç bir ifrata yol verilmədən müxtəlif təyinatlı gəmilərin və onların heyət üzvlərinin yaranmış çox böhranlı vəziyyətlə əlaqədar öz mövqelərini düzgün müəyyənləşdirməkdə və həmin böhrandan mümkün qədər ağrısız çıxmaq üçün SSRİ-nin o dövrki Bakıya gəlmiş rəhbərləri ilə aparılan danışıqlar nəticəsində müstəqil respublikamızın milli sərvəti olan gəmilərin təhlükəsizliyini təmin etmək üçün A. A. İbrahimov tərəfindən əsl əzmkarlıq və vətəndaşlıq mövqeyi nümayiş etdirilmişdir.

...1996-cı ilin yanvarında Xəzər Dəniz Dalğıc və Qəza Xilasetmə İşləri İdarəsinə rəis təyin edilən A. A. İbrahimovun tələbkarlığı, qətiyyəti və yüksək təşkilatçılıq qabiliyyəti sayəsində müəssisənin ahəngdar işləməsi, verilən dövlət sifarişlərinin vaxtlı-vaxtında yerinə yetirilməsi, idarədə əmək və icra intizamının möhkəmləndirilməsi, işçilərin maddi rifah halının yaxşılaşdırılması istiqamətində xeyli iş görülmüşdür.

Bu gün mübaliğəsiz demək olar ki, Xəzər dənizində neft və qaz yataqlarından karbohidrogen məhsullarının çıxarılmasında və onun sahilə nəql edilməsi üçün inşa edilmiş obyektlərin istismara verilməsində A. A. İbrahimovun başçılıq etdiyi idarənin xüsusi rolu vardır.



Ağalar müəllimin təşəbbüsü ilə az bir zaman ərzində Respublikada Neft Şirkəti sistemində ilk dəfə olaraq dövlət dilində Azərbaycan Dövlət Neft Akademiyasında öyrənilən "Dalğıc işləri" kursunun proqramına uyğun olaraq latın qrafikalı əlifba əsasında 2 fundamental dərs vəsaiti, digər normativ sənədlər və əsasnamələr çap olunaraq mütəxəssislərin, dalğıcların ixtiyarına verilmişdir.

İdarədə yeni texnika və texnologiyanın son nailiyyətlərinə dərindən yiyələnməyin və dalğıc qəza-xilasetmə işlərinin yüksək təşkilinin nəticəsidir ki, hazırda heç bir xarici şirkətin köməyi olmadan idarənin mütəxəssisləri və dalğıcları tərəfindən dənizin 60-120 metr dərinliklərində iş aparır.

Bütün bu nailiyyətlərin qazanılmasında həm bacarıqlı idarə müdiri kimi, həm də peşəkar bir dənizçi kimi Ağalar İbrahimovun xüsusi xidmətləri vardır.

Ağalar müəllim sözsüz ki, Dəniz neft Sənayesində öz sözü, öz yeri olan şəxsiyyətlərdən biridir. Cavan olmasına baxmayaraq, ARDNŞ sistemində və onun hüdudlarından kənarda çoxlarının ona qibtə edə biləcəyi, xeyirxah, təvazökar, yüksək təşkilatçılıq qabiliyyətinə malik nüfuzlu idarə rəhbəri imici qazanmışdır.



6—108



# ÇƏTİN VƏ MƏSULİYYƏTLİ PEŞƏDƏ

*"Lazım olan bir sənəti tapdınmı,
Möhkəm yapış, əldən vermə, amandır".*

*Ə. Cami*

Əbülfəz Əbil oğlu Nəsirov 1963-cü ildə Cəlilabad rayonunda anadan olmuşdur.

1980-ci ildə orta məktəbi bitirdikdən sonra M. Əzizbəyov adına Neft və Kimya İnstitutuna daxil olmuş, 1985-ci ildə institutu bitirdikdən sonra gənc mütəxəssis kimi "Xəzərdəniz Neft Sənaye" İstehsalat Birliyinin "İxtisaslaşdırılmış Sualtı Texniki İşlər və Dənizin Neftlə Çirklənmədən Qorunması" İdarəsində mühəndis vəzifəsində əmək fəaliyyətinə başlamış, sonrakı illərdə həmin idarədə Baş dalğıc mütəxəssisi, Dalğıc xidməti şöbəsinin rəisi - Baş dalğıc mütəxəssisi, 1998-ci ildən isə "Xəzər Dəniz Dalğıc və Qəza-Xilasetmə İşləri" İdarəsində dalğıc işləri üzrə rəis müavini - Baş dalğıc mütəxəssisi vəzifəsində çalışır. Dəniz Neft Sənayesində əldə etdiyi yüksək əmək göstəricilərinə görə ARDNŞ-nin"Fəxri Fərmanına" layiq görülmüşdür. Ailəlidir, iki övlad atasıdır.

Ə. Ə. Nəsirovun yaxından iştirakı ilə Azərbaycan Dövlət Neft Şirkəti sistemində ilk dəfə olaraq latın qrafikalı Azərbaycan əlifbası əsasında müxtəlif dərs vəsaitləri və digər Əsasnamə və normativ sənədlər işlənib hazırlanaraq dalğıc mütəxəssislərinə verilmişdir.

Ə. Ə. Nəsirovun dalğıc işlərinə dair yeni texnika və texnologiyanın sirlərinə dərindən bələd olmasının nəticəsidir ki, hazırda XDD QXİ İdarəsi tərəfindən heç bir xarici neft şirkətlərinin mütəxəssislərinin köməyi olmadan dənizin 85-90 metr dərinliyində müxtəlif sualtı dalğıc işləri aparılmasında yüksək nəticələr əldə edilmişdir.

Bütün bu nailiyyətlərin qazanılmasında bacarıqlı, yüksək təşkilatçılıq qabiliyyətinə malik, peşəsini sevən mütəxəssis Ə. Ə. Nəsirovun xüsusi xidmətləri olmuşdur.



# FƏAL İŞTİRAK EDİR



*"Ağıllı o adamdır ki, başqalarının müdrikliyindən və təcrübəsindən öyrənir".*

*X. Manuel*

Fəxrəddin Xankişi oğlu Bünyatov 1950-ci il yanvar ayının 1-də Naxçıvan şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1966-cı ildə orta məktəbi bitirdikdən sonra 1967-ci ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutuna daxil olmuş və oranı bitirdikdən sonra gənc mütəxəssis kimi "Xəzərdəniz Neft Sənaye" İstehsalat Birliyinin "Qum adası" Dəniz Qazma İşləri İdarəsində Qazmaçı köməkçisi kimi əmək fəaliyyətinə başlayan F. X. Bünyatov öz çalışqanlığı və işgüzarlığı ilə az bir zaman ərzində Dəniz Neft Sənayesində dalğıc işləri üzrə ən bacarıqlı və işgüzar mütəxəssislər sırasına daxil olmuşdur. O, hazırda Xəzər Dəniz Dalğıc və Qəza-Xilasetmə İşləri İdarəsinin Baş mühəndisi vəzifəsində çalışır.

F. X. Bünyatov 1978-ci ildə Sualtı Texniki İşlərin yerinə yetirilməsi üzrə dalğıc ixtisasına yiyələndikdən sonra, Xəzər dənizində neft və qaz yataqlarının işlənməsi prosesində dəniz hidrotexniki qurğuların inşaasının, təmiri və onlara texniki xidmət göstərilməsində XDD QXİ idarəsi tərəfindən həyata keçirilən işlərdə fəal iştirak etmiş və müxtəlif vaxtlarda yüksək əmək göstəricilərinə nail olmuşdur.

O, bacarıqlı və işgüzar dalğıc mütəxəssisi kimi 1987-1991-ci illərdə Vyetnam Respublikasına xidməti ezamiyyətə göndərilmiş "Vyetsovetro" müştərək müəssisəsinin xətti ilə orada fəaliyyət göstərən müəssisələrin birində dəniz nəqliyyatı və dalğıc işləri üzrə direktor müavini - ixtisaslaşdırılmış sualtı işlər xidməti şöbəsinin rəisi vəzifəsində çalışaraq, uzaq Vyetnamda Azərbaycan neftçilərini şərəflə təmsil etmişdir.

İşlədiyi müddət ərzində ona tapşırılan vəzifələrin öhdəsindən bacarıqla gələrək, müəssisənin ahəngdar işləməsi, onun maddi texniki bazasının möhkəmləndirilməsi, neftçilər tərəfindən verilən sifarişlərin vaxtlı-vaxtında yerinə yetirilməsi, dənizdə çıxarılan neft və qazın sahilə nəql edilməsində, sualtı-texniki işlərin həyata keçirilməsində fəal iştirak edir, başqalarının təcrübəsindən istifadə edir.



## O, MÜRƏKKƏB GEOLOJİ ŞƏRAİTDƏ BÖYÜK ZƏHMƏT SƏRF ETMİŞDİR

*"Kim başqalarına xoşbəxtlik gətirirsə, o, özü xoşbəxtdir"*
*Hind atalar sözü*

Məcidov Nazim Abdurrəhman oğlu 1971-ci ildə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir: "Neft və qaz yataqlarının işlənməsi, texnologiyası və kompleksli mexanikləşdirilməsi" ixtisasına yiyələndikdən sonra təyinatla "Azərneftkəşfiyyat" trestinin "Carlı" Kəşfiyyat Qazma İdarəsində əmək fəaliyyətinə başlamışdır. O, 1971-1986-cı illərdə fəhləlikdən buruq rəisi vəzifəsinə kimi yüksəlmişdir.

1986-1996-cı illərdə "Xəzərdənizneft" İstehsalat Birliyinin "Bulla" Dəniz Kəşfiyyat Qazma İdarəsində baş mühəndis vəzifəsində çalışmış və mürəkkəb geoloji şəraitdə dərinliyi 6000-6500 metr olan neft-qaz quyularının qazılıb başa çatdırılmasında böyük zəhmət sərf etmişdir.

1996-cı ildən 1998-ci ilin iyun ayına kimi Suriya Ərəb Respublikasında qazma işləri üzrə baş mütəxəssis vəzifəsində işləmişdir.

1998-ci ilin iyul ayından "Pirallahı" Dəniz Qazma İşləri İdarəsinin təşkil edildiyi vaxtdan hal-hazıra kimi Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin "Pirallahı" Dəniz Qazma İşləri İdarəsinin rəisi vəzifəsində işləyir, insanların xoşbəxtliyi naminə səy göstərir.

O, nizam-intizama riayət edən, özünə və tabeliyində olan işçilərə qarşı tələbkar, yüksək təşkilatçılıq qabiliyyətinə malik, dənizdə neft və qaz quyularının qazılması texnologiyasını mükəmməl bilən, elmi biliyini daim artıran, kollektivdə layiqli hörmətə malik olan mütəxəssisdir. 2000-ci ildən Azərbaycan Dövlət Neft Akademiyasının dissertantıdır. Neft sənayesinə aid jurnallarda bir neçə məqaləsi dərc edilmişdir.

Onun Azərbaycan Respublikasının neft və qaz sənayesindəki əməyi yüksək qiymətləndirilmişdir. O, 1986-cı ildə "Şərəf nişanı" ordeni ilə və 1999-cu ildə Dövlət Neft Şirkətinin "Fəxri Fərman"ı ilə təltif edilmişdir.



## YÜKSƏK MƏNƏVİYYATLI ZƏHMƏT ADAMI



*"Zəhmət padşahlığa layiq işdir"*
*Makedoniyalı İsgəndər*

Borcun, vicdanın, şərəfin, ləyaqətin və müvafiq kateqoriyaların mənəvi cəhətdən dərk edilməsi formalarının təhlili göstərir ki, əsl mənəviyyatlı şəxsiyyət yalnız onun mənəvi şüur formaları ictimai məzmuna malik olduqda, başqa sözlə desək, şəxsiyyətin mənəvi şüuru ictimai tələblərin məzmununa müvafiq gəldikdə təşəkkül tapır.

Əsl mənəvi şüur - bu, ahəngdar şüurdur ki, onda inkişaf etmiş mənəvi tələbat, borcun dəqiq ifadə edilmiş şəkildə başa düşülməsi və hiss olunması, vicdanın hiss olunması, şərəfin və ləyaqətin başa düşülməsi öz əksini tapır. Buna görə də həyatda, tərbiyə sistemində mənəvi şüurun bütün ünsürlərinin ahəngdar surətdə inkişaf etməsinə səy göstərmək vacibdir.

Bu istiqamətdə Adil Davud oğlu Məmmədov gərgin əməklə çalışır, ciddi səy göstərir.

Məmmədov Adil Davud oğlu 1946-cı ildə anadan olmuşdur.

Adil Davud oğlu Məmmədovun adı respublikanın neftçilərinə yaxşı tanışdır. Fəaliyyətinə quyuların yeraltı təmiri üzrə operator köməkçisi kimi başlamış, hazırlıq briqadasına rəhbərlik etmişdir.

A. Məmmədova 1984-cü ildə SSRİ Dövlət Mükafatının verilməsi onun mahir ustalıq bacarığına və briqadasına verilən yüksək qiymət idi. A. Məmmədov "Şərəf Nişanı" ordeni ilə təltif olunmuşdur.

"Xəzərdənizneftqazsənaye" ÜİB quyuların yeraltı təmiri üzrə olan briqadalardan heç biri praktiki olaraq bu briqadanın əldə etdiyi göstəriciləri təkrar edə bilməmişdir.



# İŞGÜZARLIQ VƏ XOŞ ÜNSİYYƏT BACARIĞI

*"Gözəl dil yaxşı silahdır"*
*A. İ. Tomas*

Məmmədzadə Məhəmmədəli İsrafil oğlu 1951-ci il fevral ayının 10-da Cəbrayıl rayonunun Hovuslu kəndində anadan olmuşdur. 1968-ci ildə Cəbrayıl rayonu M. Mehdızadə (M Qorki) adına orta məktəbi əla qiymətlərlə bitirmiş və həmin ildə Azərbaycan Neft Akademiyasına (M. Əzizbəyov adına Neft və Kimya İnstitutu) daxil olmuşdur. 1973-cü ildə ali təhsilini uğurla başa vurduqdan və zabit kimi hərbi xidmətdə olduqdan sonra taleyini həmişəlik dənizlə bağlamışdır.

1975-ci ildə "Neft Daşları"nda elektrik montyoru kimi əmək fəaliyyətinə başlayan M. Məmmədzadə qısa bir zamanda öz əməksevərliyi, biliyi və xüsusi qabiliyyəti sayəsində NQÇİ kollektivinin dərin hörmətini və etimadını qazanmış və 1981-ci ilə kimi müxtəlif vəzifələrdə çalışmışdır. Gənc mühəndisin çətinliklərə sinə gərməsi, daim öz üzərində işləməsi neft sənayesi rəhbərliyinin gözündən yayınmamış, 1981-ci ildə onu "Xəzərdənizneftqaz" Ümumittifaq İstehsalat Birliyinin Baş energetik şöbəsinə böyük mühəndis vəzifəsinə təyin etmişlər.

"Neft Daşları"nda topladığı zəngin təcrübə burada onun karına gəldi "Günəşli"dən tutmuş "Pirallahı"yadək, "Bahar"dan "Səngəçal"adək onlarla energetik obyektlərinin tikintisində, yüksək gərginlikli elektrik verilişi xətlərinin və "sualtı" kabellərin çəkilməsində onun xüsusi xidmətləri olmuşdur. "Neft Daşları"ndakı unikal Qaz Turbinli Elektrik stansiyasının (QTES-48) tikintisinin qısa müddətdə və uğurla başa çatdırılmasında yoldaşları ilə bərabər gərgin çalışmışdır.

1989-cu ildə Baş energetik şöbəsinə rəis müavini vəzifəsinə təyin edilən M. Məmmədzadənin neft-qaz yataqlarının elektrik təsərrüfatının istismarında və bu günkü səviyyəyə çatdırılmasında müstəsna rolu olmuşdur. Özünün böyük təşkilatçılıq bacarığı, işgüzarlığı, zəhmətkeşliyi və tələbkarlığı ilə fərqlənən M. Məmmədzadə neft-qaz mədənlərinin elektrik enerjisi ilə fasiləsiz təmin edilməsi üçün bu gün də böyük səy göstərir.



O, 1991-1992-ci illərdə İstanbul Universiteti və Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Xalq Təsərrüfatının İdarəetmə İnstitutunun birgə təşkil etdiyi xüsusi kursu bitirərək "Menecment" sertifikatına layiq görülmüşdür.

1994-1996-cı illərdə Xarici İşlər Nazirliyinin tövsiyəsi və Nazirlər Kabinetinin ARDNŞ-ə məktubu əsasında Ankaradakı Türkiyə və Orta Şərq Ölkələri üzrə İctimai İdarəetmə İnstitutunda təhsil almışdır. Paralel olaraq Türkiyə XİN-nin TİKA təşkilatında məsləhətçi-tərcüməçi kimi çalışmış, respublikamızdan və digər ölkələrdən Türkiyə Cümhuriyyətinə gələn çoxsaylı nümayəndə heyətlərinə mehmandarlıq etmişdir.

M. Məmmədzadə hələ "Neft Daşları"nda çalışdığı dövrdən fəal ictimaiyyətçi olmuş, gənclər təşkilatında geniş fəaliyyət göstərmişdir.

DNQÇ İB-nin Həmkarlar komitəsinin sədri, Azərbaycan Neft və Qaz sənayesi işçiləri Həmkarlar İttifaqları Respublika Komitəsi rəyasət heyətinin üzvü, Respublika Həmkarlar İttifaqları Konfederasiyasının məclis üzvü kimi fəaliyyət göstərmiş, hazırda YAP ARDNŞ-ərazi ilk təşkilatı sədrinin müavini, Səbail rayon təşkilatının siyasi şurasının üzvü kimi fəaliyyətini davam etdirir. O, həm də Qarabağ müharibə veteranıdır.

Ömrünün çiçəklənən dövrünü yaşayan M. Məmmədzadə həm də gözəl ailə başçısıdır.

Həyat yoldaşı Fəzilə xanım DNQÇ İB-də onunla çiyin-çiyinə çalışır. Qızı Cəmilə - ADNA-nın 4-cü kurs, oğlu Vüqar isə Ukrayna Beynəlxalq Əlaqələr Akademiyasının Heydər Əliyev adına Sosial və Beynəlxalq Əlaqələr Hüquq İnstitutunun 2-ci kurs tələbəsidir. Hər ikisi də dərs əlaçısıdır.

M. Məmmədzadə dəfələrlə qiymətli mükafatlar, Neft sənayesindəki uzun müddətli səmərəli fəaliyyətinə və 20 sentyabr Respublika Neftçilər Günü münasibətilə ARDNŞ-nin Fəxri Fərmanına, anadan olmasının 50 illiyi və respublikamızın müstəqilliyi uğrunda apardığı mübarizəyə görə Kütləvi İnformasiya Vasitələri HİK-nin "Azərbaycan Bayrağı" mükafatına layiq görülmüşdür.

M. Məmmədzadəni fərqləndirən cəhət - hadisələri obyektiv qiymətləndirmək bacarığı, özünün prinsipial mövqeyinin olması və hər işə məsuliyyətlə yanaşmasıdır. O, çalışdığı sahədə kifayət qədər savadlı və təcrübəli olmaqla yanaşı, öz həmkarlarına qarşı münasibətdə diqqətli və təvazökardır. Onun gözəl və şirin dili, yaxşı nitq qabiliyyəti var, hər kəslə xoş ünsiyyət yaratmağı, başqalarını dinləmək bacarığı sayəsində neftçilər arasında böyük hörmət qazana bilmişdir.



# NEFTÇİ PEŞƏSİNƏ BAĞLILIQ

*"Həyat ötən günlər yox, yadda qalan günlərdir"*

*P. A. Pavlenko*

Nuhov Ənvər Yusif oğlu 1936-cı il dekabr ayının 24-də Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur. O, orta məktəbi bitirdikdən sonra 1956-cı ildə Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, 1961-ci ildə həmin təhsil ocağının neft-mədən fakültəsini bitirmiş, "Neft və qaz yataqlarının işlənməsi" üzrə dağ mühəndisi ixtisasına yiyələnmişdir.

Ə. Y. Nuhov əmək fəaliyyətinə 1961-ci ildə "Neft Daşları"nda Neft və Qazçıxarma operatoru kimi başlamışdır. Ə. Y. Nuhov 40 ildən çoxdur ki, Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin müəssisələrində fasiləsiz olaraq müxtəlif vəzifələrdə çalışmış və hal-hazırda əmək fəaliyyətini davam etdirir. O, bu mənalı illər ərzində mühəndis, böyük mühəndis, "Neft Daşları" NQÇİ-nin istehsalat-texniki şöbəsinin rəis müavini və başqa vəzifələrdə qüsursuz fəaliyyət göstərmişdir.

Nuhov Ənvər Yusif oğlu ümumi əmək fəaliyyətinin 14 ilini "Açıq qaz və neft fontanlarının qarşısının alınması və ləğvi" üzrə Xəzər Hərbiləşdirilmiş Hissəsində çox ağır və məsuliyyətli işə sərf etmişdir.

Ə. Y. Nuhov əmək veteranıdır. O, hazırda "28 May" NQÇİ-də əməyin mühafizəsi və təhlükəsizlik texnikası şöbəsində mühəndis vəzifəsində işləyir. Çalışdığı vəzifənin məsuliyyətini dərindən dərk edir və öz işinə xüsusi məsuliyyətlə yanaşır. Elə buna görə də kollektivdə hörmət qazanmışdır.

Ənvər müəllimin üç övladı vardır. Onun böyük oğlu neftçi peşəsini seçmişdir. O, Dövlət Neft Akademiyasını 1997-ci ildə bitirmişdir, Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin Elmi-tədqiqat Layihə İnstitutunda mühəndis işləyir, aspiranturaya qəbul olunmuşdur. Ənvər müəllimin o biri övladları - qızı ailəlidir, kiçik oğlu isə tələbədir.

Bu səmimi ailədə neftçi peşəsinə böyük hörmət vardır.



# STEND LABORATORİYASINDA

*"Ağıl yumruqdan güclüdür"*

*F. Rable*



Vəliyev Teymur Kazım oğlu 1959-cu ildə Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsini bitirdikdən sonra 1960-67-ci illərdə "Neftkimyapribor" XKB-da işləmiş, neftin, qazın və suyun həcmi ölçü cihazlarının yaradılmasında yaxından iştirak etmişdir. O, 1967-ci ildən Azərbaycan elmi-tədqiqat, layihə-konstruktor neft maşınqayırma institutunda ardıcıl olaraq layihələrin Baş konstruktoru (1967-1972), laboratoriya müdiri (1972-1974), quyuağzı fontan avadanlıqları şöbəsinin müdiri (1974-1998) və stend laboratoriyasının müdiri (1998-ci ildən) vəzifələrində öz istedadını göstərə bilmişdir.

AzİNMAŞ-da işlədiyi dövrdə onun iştirakı və rəhbərliyi ilə 150-dən çox tipölçülü işçi təzyiqi 14 MPa-dan 105 MPa-ya qədər olan quyuağzı fontan avadanlıqları, o cümlədən sütun sarğıları, fontan və vurucu armaturları, manifoldlar və başqa avadanlıqlar yaradılmış və böyük seriyalarla istehsal olunmuşdur.

Bu avadanlıqlar müxtəlif zavodlarda istehsal olunmaqla, keçmiş SSRİ-nin həmin avadanlığa olan tələbatının 70 faizini, respublikamızın neft sənayesinin tələbatının isə 100 faizini ödəmişdir.

T. K. Vəliyev 1980-ci illərdən başlayaraq yüksək təzyiqli neft və qaz quyularının istismarını təmin etmək üçün ANİ (APJ) standartlarının tələblərinə cavab verən, işçi təzyiqi 35,70 və 105 MPa olan 3 və 4 gövdəli sütun sarğılarının, avtomatik və məsafədən idarə olunan fontan armaturlarının və idarəetmə stansiyalarının (SUAP1, SUAP3, AİS1, AİS2) işlənməsi və yaradılmasında iştirak və rəhbərlik etmişdir. O, yüksək işçi təzyiqli düzaxımlı paralel şiberli siyirtmələrin kıpgəclərinin və tıxaclarının hermetikliyi problemlərinin məşhur tədqiqatçısı olmuş, bu sahədə istehsalatçılara dəyərli tövsiyələr vermişdir.

T. K. Vəliyev elmi və texniki fəaliyyətinin nəticəsi, onun 100-dən çox məqaləsi, bir monoqrafiyası, 23 patent və müəlliflik şəhadətnaməsi, bir ne-

çə dövlət standartları və kataloqlarda şərh olunmuşdur. O, metalşünaslıq sahəsində namizədlik dissertasiyasını müdafiə etmiş, mexanika elmləri namizədi alimlik dərəcəsi almış, respublikanın müəssisələrində yeni sərfəli materialların tətbiq olunmasına nail olmuşdur.

T. K. Vəliyev mühəndis kadrların hazırlanmasında yaxından iştirak edir, ADNA tələbələrinin diplom işlərinə rəhbərlik edir, işlədiyi şöbədə çalışan gənc mühəndislərə öz bilik və təcrübəsini öyrədir. Onun neft maşınqayırma sahəsindəki xidmətləri fəxri fərmanlarla və "Şərəf nişanı" ordeni ilə qiymətləndirilmişdir.

İndiki zamanda, iqtisadiyyatın vəziyyəti ilə əlaqədar T. K. Vəliyev rəhbərlik etdiyi stend laboratoriyasında fontan armaturlarının təmir edilməsi və etibarlı işləmə müddətinin uzadılması problemi həll olunmuşdur. O, bu nailiyyətlərə Dənizdə neft və qaz çıxarma Baş idarəsinin müəssisələri ilə sıx əlaqə saxlamaqla nail olunmuşdur.





# BİLİK VƏ BACARIĞINI SƏRF EDİR



***"İnsan əməyi ilə tanınar"***
***Atalar sözü***

Bəbirov İlyas Qaytaran oğlu 1952-ci il yanvarın 18-də Füzuli rayonunun Böyük Bəhmənlı kəndində anadan olmuşdur. 1968-ci ildə Böyük Bəhmənli kənd orta məktəbini bitirdikdən sonra həmin kənddə sıravi kolxozçu işləmiş, 1971-1973-cü illərdə Ordu Sıralarında hərbi xidməti başa vurduqdan sonra isə Bakı şəhərinə gələrək "Xəzərdənizneft" İstehsalat Birliyinin "Xəzərdənizneftdonanma" idarəsində motorçu şagirdi kimi əmək fəaliyyətinə başlamış, az müddət ərzində öz işgüzarlığı və çalışqanlığı sayəsində kollektivin hörmətini qazanmışdır.

1974-1980-ci illərdə Bakı Dövlət Universitetinin tarix fakültəsinin axşam şöbəsini bitirmişdir.

Evlidir, bir övlad atasıdır.

"Xəzərdənizneftdonanma" idarəsi kimi strateji dövlət əhəmiyyətli bir müəssisədə 25 ilə qədər əmək fəaliyyəti göstərən İ. Q. Bəbirov bu illər ərzində motorçu şagirdi, dispetçer, dənizçilərin reysarası istirahət evinin müdiri, müxtəlif təyinatlı gəmilərdə kapitanın I köməkçisi, kadrlar xidmətinin rəis müavini, sosial-inkişaf şöbəsinin rəisi və rəis köməkçisi vəzifələrində çalışmışdır.

O, bu vəzifələrdə çalışarkən uzun illər ərzində zəngin həyat təcrübəsinə malik olan bacarıqlı mütəxəssislərin əhatəsində olmuş və o dövrlər nəinki "Xəzərdənizneftdonanma" idarəsində, eləcə də bütün dəniz neft sənayesinin ən böyük istehsalat təşkilatçılarından olan və ayrı-ayrı illərdə donanmaya bacarıqla rəhbərlik etmiş, indi isə dünyalarını dəyişmiş V. V. Danitski, C. X. Məmmədov, A. Ə. Bədirxanov, A. Ə. Qasımov və hazırda Xəzər Dəniz Dalğıc və Qəza-Xilasetmə İşləri İdarəsinin rəisi vəzifəsində çalışan A. A. İbrahimov və digər rəhbər kadrlarla çiyin-çiyinə çalışaraq, özünü bacarıqlı, işgüzar və çalışqan işçi kimi təsdiq edə bilmişdir.

O, eyni zamanda idarənin ictimai həyatında da fəal iştirak etmiş, dəfələrlə donanmanın, Komsomol, Partiya, Həmkarlar və digər ictimai təşkilatların rəhbər orqanlarına seçilmiş və ona göstərilən etimadı layiqincə doğrultmuşdur.

İ. Q. Bəbirov 1997-ci ildə yenicə təsis edilmiş Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyi işçiləri Birləşmiş Həmkarlar İttifaqı Komitəsinə təşkilati məsələlər üzrə mütəxəssis vəzifəsinə dəvət edilmiş və 2001-ci ilədək həmin vəzifədə çalışmışdır.

2001-ci ilin may ayından isə Xəzər Dəniz Dalğıc və Qəza-Xilasetmə İşləri İdarəsinin Kadrlar şöbəsinin rəisi təyin edilmiş və hal-hazırda həmin vəzifədə çalışır.

O, bu vəzifədə çalışdığı müddət ərzində nadir peşə sahibləri olan dalğıcların və digər çətin peşələr üzrə kadrların seçilməsi, onların ixtisaslarına uyğun yerləşdirilməsi və peşə hazırlığının artırılması üçün öz bilik və bacarığını əsirgəməmişdir.

Onun harada, hansı sahədə çalışmasından asılı olmayaraq, təvazökarlıq, tapşırılan işin icrasına ciddi məsuliyyət hissi ilə yanaşmaq, özünə və başqalarına qarşı yüksək tələbkarlıq, ünsiyyətdə olduğu adamların dərin hörmət və ehtiramını qazanmaq onun ən ümdə xarakterik xüsusiyyətlərindən biridir.

İlyas müəllim dəniz neft sənayesində səmərəli əmək fəaliyyəti göstərir və verilən tapşırıqların müvəffəqiyyətlə həyata keçirilməsi üçün öz bilik və bacarığını əsirgəmir.





# TƏMİZ ƏQİDƏ VƏ SAF MƏNƏVİYYAT



***"Ağıl yumruqdan güclüdür"***

***F. Rable***

Hüseyn Bəndalı oğlu Zeynalov 1937-ci il mart ayının 10-da İmişli rayonunda anadan olmuşdur. O, orta məktəbdə oxuyarkən M. Əzizbəyov adına Azərbaycan sənaye institutunda (indiki Azərbaycan Neft Akademiyası) təhsil alan tələbələr institutun verdiyi xüsusi formada məktəbə gələr və şagirdlərlə maraqlı söhbətlər keçirərdilər. Onların geydiyi forma H. Zeynalovda həmin institutda oxumağa həvəs oyatmışdır. O, arzusunun dalınca gedərək 1954-cü ildə həmin institutun geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş və 1959-cu ildə təhsilini müvəffəqiyyətlə bitirmişdir.

Əmək fəaliyyətinə "Orconikidzeneft"dən (indiki Suraxanıneft NQÇİ) başlamış, əvvəllər neftçıxarma və quyuların tədqiqatı operatoru, sonralar isə yerüstü avadanlıq ustası və mədən geoloqu vəzifələrində çalışmışdır.

1967-ci ildə Azərbaycan Dövlət dağ-texniki nəzarət komitəsində böyük mühəndis vəzifəsinə irəli çəkilmişdir.

1971-ci ildə yenidən "Azneft" birliyinə keçmiş və 1971-1974-cü illərdə Abşeron Qazma İşləri İdarəsində geoloq, böyük geoloq vəzifələrində çalışmışdır.

H. B. Zeynalov 1974-1980-ci illərdə "Əzizbəyovneft" (indiki H. Tağıyev adına) NQÇİ-də geoloji şöbənin rəisi, 1980-1987-ci illərdə "Muradxanlıneft" NQÇİ-də baş geoloq vəzifəsində çalışmışdır. Bu müddətdə onun bir geoloq kimi fəaliyyəti üçün geniş imkanlar açılmış, Muradxanlı, Cəfərli və Tərsdəllər neft yataqlarının səmərəli işlənməsinin təşkili Hüseyn müəllimin rəhbərliyi altında həyata keçirilmişdir.

Hüseyn müəllim 1987-1991-ci illərdə Azərbaycan dövlət neft sənayesi elmi-tədqiqat və layihə institutunda elmi işçi vəzifəsində çalışmışdır. Onun bilavasitə rəhbərliyi ilə bu illərdə Kür çökəkliyi neft yataqlarının işlənilməsinə dair bir sıra elmi-tədqiqat işləri aparılmış və o, bu tədqiqatların tətbiqində fəal və ardıcıl iştirak etmişdir.

Hüseyn müəllim 1991-1992-ci illərdə "Xəzərdənizneftqazlayihə" dövlət ETLİ-də böyük elmi işçi, 1992-ci ildən isə "Xəzərdənizneftqaz" İstehsalat Birliyinin (indiki Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyi) neft və qaz yataqlarının işlənməsi şöbəsində aparıcı mühəndis vəzifəsində işləyir.

İşlədiyi müddətdə özünü yüksək ixtisaslı mühəndis kimi göstərmişdir. O, neft və qaz yataqlarının işlənilməsinin bir çox aktual məsələlərinə həsr olunmuş 27 elmi məqalənin və bir ixtiranın müəllifidir.

Hüseyn müəllim tərəfindən işlənilən "Süni təsir tətbiq olunan yataqlarda səmərəliliyin qiymətləndirilməsi" adlı metodik təlimat NQÇİ-lərdə rəhbər sənəd kimi istifadə olunur.

H. Zeynalov dənizdə neft və qaz yataqlarının işlənməsi məsələləri ilə əlaqədar 1993-cü ildə Amerika Birləşmiş Ştatlarında ezamiyyətdə olmuşdur.

Neft sənayesində uzun illər fasiləsiz və səmərəli işlədiyinə görə 1986-cı ildə "Əmək veteranı" medalı ilə təltif olunmuşdur.

Təmiz əqidəyə və saf mənəviyyata malik olan H. Zeynalov ciddi münasibəti ilə seçilir, çalışdığı kollektivdə dərin hörmətə malikdir. O, hansı vəzifədə işləməsindən asılı olmayaraq prinsipiallığı və obyektivliyi ilə seçilir.





# TƏCRÜBƏLİ MÜTƏXƏSSİS



*"Yaxşı təcrübə gərəkli olar"*

***Atalar sözü***

Rəhimov Zakir Mikayıl oğlu 1930-cu ildə Kəlbəcər rayonunun Nadirxanlı kəndində kəndli ailəsində anadan olmuşdur. 1936-cı ildə Oılınclı kənd orta məktəbinin 1-ci sinfinə daxil olmuş və 1943-cü ildə həmin məktəbin 7-ci sinfini bitirmişdir. 1943-cü ildən məktəbin yuxarı sinifləri ləğv olunduğundan iki il Nadirxanlı kəndində kolxozda müxtəlif peşələrdə işləmişdir. 1945-ci ildə 8-ci sinfə daxil olub, 1948-ci ildə 10-cu sinfi bitirmişdir. 1948-1950-cı illərdə Kəlbəcər rayonunun Seyidlər və Güneypəyə kəndlərində fizika və riyaziyyat fənləri üzrə müəllim işləmişdir.

O, 1950-ci ildə Qırmızı Əmək Bayrağı ordenli M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun neft-mədən fakültəsinə daxil olmuş, 1955-ci ildə bu təhsil ocağını "Neft və qaz quyularının qazılması" ixtisası üzrə bitirmişdir.

Azərbaycan Neft Sənayesi Nazirliyinin təyinatı ilə "Gürganneft" Neft Mədənləri İdarəsinin 1 nömrəli Qazma kontorunda işə qəbul olunmuş və qazmaçı köməkçisi, qazmaçı və qazma ustası vəzifələrində işləmişdir. 1957-ci ilin ikinci rübünün plan göstəricilərinin yerinə yetirilməsini təmin etmək məqsədilə, nazirliyin nümayəndəsi Seyid Rzanın rəhbərliyi ilə keçirilən müşavirədə Z. Rəhimov 600 metr aylıq planın 150% yerinə yetiriləcəyinə söz vermiş və briqada ay ərzində 909 metr qazma işi görmüşdür. 1957-ci ilin noyabr ayında baş vermiş fırtına nəticəsində hidrotexniki qurğuların müəyyən hissəsi dağıldığından üç briqada, o cümlədən Z. Rəhimovun briqadası başqa Qazma idarələrinə göndərilmişdir.

O, 1958-1965-ci illərdə "Azərdənizneftkəşfiyyat" trestinin 1 nömrəli Qazma Kontorunda qazma ustası vəzifəsində işləmişdir. "Qum adası", "İliç buxtası", "Çilov" və sair yataqlarda kəşfiyyat quyuları qazmışdır. İki dəfə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iştirakçısı olmuşdur. Adı kontorun "Fəxri kitabı"na yazılmışdır.

1965-1968-ci illərdə "Azərdənizneftkəşfiyyat" trestinin 3 nömrəli Qazma Kontorunda sahə rəisinin müavini və sahə rəisi vəzifələrində işləmişdir. Onun təşəbbüsü ilə burada üçpərli qazma baltaların istehsalata tətbiq etmiş və bunun nəticəsində qazma sürətinin xeyli yüksəldilməsinə nail olmuşdur. O, "Bulla", "Bulla dəniz", "Hamamdağ" və digər yataqlarda qazma işlərinin aparılmasında fəal iştirak etmişdir.

O, 1969-1972-ci illər ərzində "AzNİPİNeft" Elmi Tədqiqat İnstitutunun Qazma texnologiyası laboratoriyasında böyük mühəndis vəzifəsində işləmişdir. Bir neçə elmi məqalənin müəllifidir.

1972-ci ilin avqust ayından 1973-cü ilin dekabr ayına qədər "Xəzərdənizneftkəşfiyyat" trestinin "Sahil dəniz kəşfiyyat qazması idarəsində istehsalat-texniki şöbənin böyük mühəndisi vəzifəsində işləmişdir.

1973-cü ilin dekabr ayından 1987-ci ilin iyul ayına qədər Azərbaycan Respublikası "Dövdağtexnəzarət" Komitəsinin "Neft-qazçıxarma sənayesində təhlükəsiz iş aparılmasına nəzarət müfəttişlıyı"ndə rəis müavini və rəisi vəzifələrində işləmişdir. O, həmçinin Komitənin Kollegiya üzvü təsdiq edilmişdir. Z. Rəhimov "Dövdağtexnəzarət" Komitəsində işlədiyi dövr ərzində neft sənayesində təhlükəsizlik qaydalarının tələblərinə riayət edilməsinə nəzarət sahəsində böyük tələbkarlıq göstərmişdir. Təhlükəsizlik qaydalarının və müxtəlif təlimatların hazırlanmasında öz tövsiyələrini vermişdir. Dəfələrlə Ümumittifaq müşavirələrində iştirak etmiş və məruzələrlə çıxış etmişdir. O, 1980-ci ildə SSRİ "Dövdağtexnəzarət" Komitəsinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Z. Rəhimov 1987-ci ilin iyul ayından 1989-cu ilin sonuna kimi "Fontana qarşı Xəzər hərbiləşdirilmiş hissəsi"ndə rayon mühəndisi işləmişdir.

1990-cı ildə "28 May" NQÇİ yarananda Z. M. Rəhimov Baş mühəndisin ƏM və TT üzrə müavini vəzifəsinə təyin olunmuş və 1997-ci ilin iyun ayına qədər həmin vəzifədə işləmişdir. 1997-ci ilin iyul ayından hal-hazıra kimi ƏM və TT şöbəsinin rəis müavini vəzifəsində işləyir. O, işlədiyi müddət ərzində Neft sənayesinin bütün sahələri üzrə Təhlükəsizlik Qaydalarının və Nümunəvi təlimatların hazırlanması zamanı, bu sahədə müəyyən təcrübəyə malik mütəxəssis kimi, öz irad və təkliflərini vermişdir və onun tövsiyələri həmin sənədlərdə öz əksini tapmışdır. Onun təcrübəsindən gənclər həvəslə bəhrələnirlər.



# "İFRAT DƏRİN" QUYU



*"Bilmədiyi şeyi soruşsa hər kəs,*
*Mənzilə düz gedər, yolu itirməz".*
***Sədi***

Əhməd Ziya oğlu Mustafayev 1947-ci il sentyabr ayının 21-də Qərbi Azərbaycanın Qaraqoyunlu mahalının Gölkənd kəndində anadan olmuşdur. 1954-cü ildə Gölkənd orta məktəbinə daxil olmuş, 1965-ci ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 1965-ci ildə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Neft Akademiyası) Geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş və həmin fakültəni 1970-ci ildə bitirərək "Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" ixtisasına yiyələnmişdir.

Ə. Z. Mustafayev əmək fəaliyyətinə 1968-ci ilin əvvəlində "Azərneftkəşfiyyat" trestinin 3 №-li qazma kontorunda laborant-kollektor kimi başlamışdır. 1969-1971-ci illərdə "Azərneftkəşfiyyat" trestinin idarəetmə aparatında texnik-kartoqraf, mühəndis-geoloq kimi çalışmışdır.

Ə. Z. Mustafayev 1971-1972-ci illərdə Estoniya Respublikasında ordu sıralarında xidmət etmişdir. Ordudan tərxis olunduqdan sonra bir müddət "Azərneftkəşfiyyat" trestinin aparatında Əməyin elmi təşkil laboratoriyasında mühəndis işləmişdir.

Ə. Z. Mustafayevin fəaliyyəti 1972-ci ilin avqust ayından bilavasitə istehsalatla bağlıdır. Həmin dövrdə o, özünün təşəbbüsü və "Azərneftkəşfiyyat" trestinin rəhbərlərindən biri, məşhur kəşfiyyatçı-geoloq A. Ş. Şıxlinskinin xeyir-duası ilə o dövrdə respublikanın mərkəzi rayonlarında geniş miqyaslı axtarış-kəşfiyyat işləri aparan Carlı kəşfiyyat qazma idarəsinə işə göndərilir. Ə. Z. Mustafayev burada unikal Muradxanlı neft yatağının kəşfiyyatında iştirak edir, müəyyən istehsalat təcrübəsi toplayır.

1973-cü ildə Ə. Z. Mustafayev daha məsul işə - yeni yaradılmış Saatlı Neft Kəşfiyyatı Ekspedisiyasına təyinat alır.

Ə. Z. Mustafayev Saatlı Neft Kəşfiyyatı Ekspedisiyasında 1986-cı ilə kimi böyük geoloq, geoloji şöbənin rəisi vəzifələrində işləmişdir. Onun burada işlədiyi dövrdə Saatlı 1 saylı "qabaqlayıcı" quyu 6240 m dərinliyə qədər

qazılmış və sonradan qazılacaq 1 saylı "ifrat dərin" quyunun layihələndirilməsi üçün çox mühüm məlumatlar əldə edilmişdir.

Bilavasitə onun iştirakı ilə rekord dərinliyə - 8324 m qazılmış Saatlı "ifrat dərin" quyusu, Alp-Himalay qırışıqlıq qurşağının nəhəng neftli-qazlı hövzələrindən birinə aid olan - Kür dağlararası çökəklikdə yer qabığının kontinental hissəsinin dərinlik quruluşu, tərkibi və fiziki xassələri haqqında unikal geoloji-geofiziki informasiya almağa imkan vermişdir. Bu quyu vasitəsilə dünyada ilk dəfə olaraq dağlararası çökəkliyin dərinlik kəsilişini, demək olar ki, fundamentə qədər almaq mümkün olmuşdur. Saatlı "ifrat dərin" quyusunun qazılması nəticəsində mövcud təsəvvürlərin əksinə olaraq bir mənalı şəkildə sübut olundu ki, regionun yer qabığının kəsilişində vulkanogen qatının qalınlığı 5000 m-dən artıqdır. Saatlı 1 saylı "ifrat dərin" quyusunun materialları üzrə qırışıqlıq zonalarında birinci olaraq eyni fasiləsiz kəsilişdə metamorfik dəyişikliklər, qanunauyğunluqlar öyrənilmişdir.

1986-cı ildə Ə. Z. Mustafayev "Azərneft" İstehsalat Birliyinə yüksək vəzifəyə irəli çəkilərək Birliyin Baş markşeyderi vəzifəsinə təyin edilmişdir. Sonradan bu vəzifənin funksiyaları Geoloji şöbənin funksiyaları ilə birləşdirilmiş və Ə. Z. Mustafayev 1987-ci ildə Geoloji şöbəyə rəis təyin edilmiş, 1992-ci ilədək həmin vəzifədə çalışmışdır.

1992-ci ilin oktyabrında Ə. Z. Mustafayev, ləğv edilmiş "Azərneft" və "Xəzərdənizneft" İstehsalat Birliklərinin bazasında yeni təşkil edilmiş Neft və Qazçıxarma üzrə "Azərneft" Baş İdarənin Geoloji şöbəsinə rəis müavini təyin edilmişdir.

1994-cü ildə Quruda Neft və Qazçıxarma İstehsalat Birliyi yaradıldıqda Ə. Z. Mustafayev Birliyin Axtarış və kəşfiyyat üzrə geoloji şöbəsinin rəis müavini, 1997-ci ildə isə həmin şöbənin rəisi təyin edilir.

Ə. Z. Mustafayev 1984-1985-ci illərdə Sənaye istehsalatının təşkili üzrə Ümumittifaq kurslarını bitirmiş və "Sənaye istehsalatının təşkilatçısı" ixtisası almışdır.

1996-1997-ci illərdə İnsan Resurslarının İnkişafı Beynəlxalq Korporasiyasının "Beynəlxalq müqavilələrin maliyyə-kommersiya məsələləri" kurslarında iştirak etmiş və uyğun sertifikatla təltif olunmuşdur.

Ə. Z. Mustafayev 1998-1999-cu illərdə Yanacaq və Energetika kompleksi üçün kadrların hazırlanması üçün Tədris Mərkəzinin təşkilinə aid Bakıda və Oksford Petroleum və Enerji kollecində TASİS proqramı çərçivəsində kursları müvəffəqiyyətlə bitirmiş, ona "Müasir Menecment texnologiyaları" və "Kontraktların və kontraktorların idarə olunması" ixtisasları üzrə Beynəlxalq sertifikat verilmişdir.

ARDNŞ-in xarici neft şirkətləri ilə apardığı birgə tədqiqatlar proqramında iştirak etmiş və bu məqsədlə 1994, 1996-cı illərdə ABŞ-da, Böyük Britaniyada xidməti ezamiyyətlərdə olmuşdur. O, Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin idarəetmə aparatının Həmkarlar İttifaqı Komitəsinin sədridir. Ona göstərilən etimadı doğrultmağa çalışır, kollektivin hər bir üzvünün problemlərinin vaxtında həll olunması üçün bütün mümkün vasitələrdən istifadə edir.

Ə. Z. Mustafayev istehsalatda əldə etdiyi müvəffəqiyyətlərə görə 1982-ci ildə Neft Sənayesi Nazirliyi və Sahə Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyətinin üzvüdür. O, öz üzərində səylə çalışır, oxuyur, bilmədiyini soruşur, öyrənir.



# TƏCRÜBƏLİ METROLOQ



*"Əmək xoşbəxtliyin atasıdır"*
***B. Franklin***

Rövşən Kərəm oğlu Kərimov 1955-ci ildə Bakıda neftçi ailəsində anadan olmuşdur. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir. Neft sənayesində əmək fəaliyyətinə "Artyomneftqaz" (indiki "Abşeronneft") NQÇİ-nin Yeraltı Təmir Sexində 5-ci dərəcəli operator kimi başlamışdır. Bir ildən sonra NQÇİ-nin ən ağır sahəsində - 2-ci dəniz mədənində yeraltı təmir briqadasına usta vəzifəsinə təyin olunmuşdur. Küləkli, qarlı-şaxtalı qış günlərində dənizdə dalğaları yara-yara neft buruqlarına yollanarkən neftçi əməyinin necə ağır olduğunu başa düşmüş, neftçilərin haqqında deyilənləri anlamışdı: Neftçilərin əməyi qəhrəmanlıqdan da artıqdır!

O, 1988-ci ildə NQÇİ-nin baş metroloqu təyin edilmiş, idarədə neft və qazın uçotu, keyfiyyəti məsələləri ilə məşğul olmuşdur.

R. Kərimov 1996-cı ilin dekabr ayından Quruda NQÇ İB-nin baş metroloqudur. O, burada işə başladıqda Quruda NQÇ İB-nin idarə və müəssisələrində qazın, suyun sərfi borunun en kəsiyi ilə hesablanırdı ki, bu da külli miqdarda vəsaitin israfçılığına gətirib çıxarmışdı. 1997-ci ildən başlayaraq onun rəhbərliyilə bu sərfi dəqiqləşdirmək məqsədilə qəbul məntəqələrində sayğaclar quraşdırmağa başlandı. Bu tədbir 100 milyon manatlarla vəsaitin qənaətinə imkan verdi. Bu iş indi də davam etdirilir.

R. Kərimov fəxr edir ki, çox saylı neftçilər dəstəsində o da var və atasının yolunu davam etdirir. Özünü xoşbəxt sayır, ona görə ki, sərf etdiyi əməkdən zövq alır.

7*



# ÖMRÜNÜ KƏŞFİYYAT QAZMASINA HƏSR ETMİŞ MÜHƏNDİS

***"Yaxşı iş tutmaq, xeyirli fəaliyyət göstərmək bulud altından çıxan günəşə bənzər".***

***N. Tusi***

Mirzəyev Xanlar Bəhmən oğlu 1930-cu ildə Yevlaxda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1946-cı ildə M. Əzizbəyov adına Sənaye İnstitutuna daxil olmuş, oranı 1951-ci ildə dağ mühəndisi ixtisası üzrə bitirmişdir.

X. Mirzəyev 1952-ci ildən kəşfiyyat qazma idarəsində əmək fəaliyyətinə başlamışdır. İlk dəfə "Kəbirstanneftkəşfiyyat" trestinin "Ceildağ" qazma kontorunda buruq ustası köməkçisi peşəsində çalışaraq, qısa müddətdə buruq ustası, kontorda böyük mühəndis, trest aparatında böyük mühəndis vəzifəsinə qədər yüksəlmişdir.

Sonralar o, müxtəlif kəşfiyyat kontorlarında sahə rəisi, istehsalat şöbə rəisi və baş mühəndis vəzifələrində işləmişdir. Bu illər ərzində o, öz sənətinin incəliklərinə mükəmməl yiyələnmiş, yeni neft və qaz yataqlarının kəşf olunmasında fəal iştirak etmişdir.

X. Mirzəyev, əmək fəaliyyəti nəzərə alınaraq, 1963-cü ildə "Azərneftkəşfiyyat" Trestinə baş mühəndis vəzifəsinə təyin olunmuşdur. Respublikanın quruda bütün ərazidə aparılan kəşfiyyat qazma işlərinə rəhbərlik etmişdir. 1963-1974-cü illər trestin baş mühəndisi vəzifəsində işləyərək, dərin kəşfiyyat quyularının qazma işlərinin təkmilləşdirilməsində və qazma texnologiyasının tərəqqisində böyük fəaliyyəti olmuşdur. Bu dövr ərzində onun əməyi qiymətləndirilərək respublikanın Ali Sovetinin "Fəxri fərman"ına layiq görülmüşdür, o, "Şərəf nişanı" ordeni və bir neçə medallarla təltif olunmuşdur. 1967-ci ildə isə ona "Neft sənayesinin əlaçısı" nişanı verilmişdir.

X. Mirzəyev 1974-cü ildə Suriya Ərəb Respublikasına xidməti ezamiyyətə göndərilmişdir. Orada 2,5 il qalaraq, kəşfiyyat qazmaçılar qrupuna rəhbərlik etmiş, tapşırıqlar daim yerinə yetirilmişdir. Onun Suriya Ərəb Respublikasında da yeni neft və qaz yataqlarının aşkar edilməsində böyük fəaliyyəti olmuşdur. Buna görə də onun əməyi Səfirlik və SSRİ neft sənayesi nazirliyi tərəfindən qiymətləndirilmişdir.

X. Mirzəyev 1977-ci il ezamiyyətdən qayıtdıqdan sonra "Azərneft" İstehsalat Birliyində qazma texnologiyası şöbəsinin rəisi vəzifəsində çalışmışdır.

Hazırda o, Quruda Neft və Qazçıxarma İstehsalat Birliyində qazma və qazma texnologiyası şöbəsinin rəisi vəzifəsində işləyir. Ömrünü kəşfiyyat qazmasına həsr etmiş mühəndis üzərinə düşən vəzifənin öhdəsindən bacarıqla gəlmək üçün ciddi səy göstərir.





# RESPUBLİKANIN ƏMƏKDAR NƏQLİYYATÇISI

*"Bir olsa yoldaşın, dostun əməli,*
*Daşdan su çıxarar onların əli".*
*Nizami*

Şahmalıyev Şamil Hüseyn oğlu 1938-ci il noyabr ayının 30-da Qazax rayonunun Əzizbəyli kəndində qulluqçu ailəsində anadan olmuşdur. O, 1956-cı ildə orta məktəbi bitirmiş, 1957-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1962-ci ildə həmin institutun mexanika fakültəsinin avtomobil nəqliyyatının istismarı şöbəsini qurtararaq mühəndis-mexanik ixtisası üzrə diplom müdafiə etmişdir.

1962-ci ildə institut tərəfindən gənc mütəxəssis kimi "Azərneft" Birliyinə işə göndərilmişdir. Birliyin rəhbərliyinin sərəncamı ilə Azərneft kəşfiyyat trestinin Avtonəqliyyat-traktor idarəsində işə qəbul edilmişdir. O, burada nəzarətçi mexanik, sex ustası, təmir emalatxanalarında rəis, istehsalat üzrə rəis işləmişdir.

1967-ci ildən 1975-ci ilin noyabr ayına qədər baş mühəndis, 1975-ci ilin noyabr ayından 1993-cü ilin fevral ayına qədər Qobustan texnoloji nəqliyyat idarəsində rəis vəzifələrində çalışmışdır. Həmin idarədə işlədiyi bütün illərdə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmış, plan tapşırıqlarını yerinə yetirmək üçün kollektiv səfərbər olunaraq yaxşı nəticələrə nail olmuşdur.

Bir çox illərdə kollektiv rayon üzrə təsis olunmuş mükafatlara layiq görülmüşdür. Bir neçə dəfə kollektiv Azərbaycan KP Qaradağ rayon komitəsinin və İcraiyyə komitəsinin Keçici Qırmızı Bayrağını və diplomunu almışdır.

Ş. H. Şahmalıyev Qaradağ rayonunda partiya komitəsinin Fəxri Fərmanı və SSRİ neft sənayesi, neft və qaz sənayesi həmkarlar ittifaqı mərkəzi komitəsinin fəxri fərmanları ilə, yol hərəkətinin təhlükəsizliyini təmin etmək sahəsində Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikası Həmkarlar Şurasının II dərəcəli diplomu ilə təltif olunmuşdur.

Kollektiv üzvlərinin sosial məsələlərini yaxşılaşdırmaq məqsədi ilə Qobustan qəsəbəsində idarənin sifarişi və köməyi ilə iki 5 mərtəbəli yaşayış evi tikilib istifadəyə verilmişdir. Bu da kollektivin sabitləşməsinə və daha yaxşı işləməsinə böyük təsir göstərmişdir.

Kollektivin əməkçiləri Muradxanlı, Kolanı, Kələməddin, Zərdab, Tərsdəllər, Ceyrançöl, Sajdağ sahələrində, Dəvəçi, Siyəzən və Şamaxı rayonlarında neft kəşfiyyat quyularının qazılmasına böyük köməklik göstərmiş, ağır qazma avadanlıqlarının, kimyəvi reagentlərin, boruların vışka hissələrinin və s. daşınmasını vaxtında təşkil etmişlər.

S. H. Şahmalıyev 1993-cü ilin fevral ayından 1994-cü ilin mart ayına qədər Dövlət Neft Şirkətinin "Avtonəqliyyat və xüsusi texnika üzrə Baş idarəsinin rəis müavini, 1994-cü ildən isə Quruda Neft və Qazçıxarma İB-də "Avtonəqliyyat və xüsusi texnika şöbəsinin rəisi vəzifələrində işləyir.

Respublikada neft sənayesinin inkişafında göstərdiyi xidmətlərə görə S. H. Şahmalıyev 1989-cu ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanına, 1990-cı ildə isə Azərbaycan SSR Ali Sovetinin fərmanı ilə "Respublikanın əməkdar nəqliyyat işçisi" adına layiq görülmüşdür.





# FASİLƏSİZ VƏ ETİBARLI RABİTƏ

*"Təvazökarlıq istedadla düz mütənasibdir"*

*G. V. Plexanov*

İsmayıl Müzəffər oğlu Allahverdiyev 1950-ci il yanvarın 1-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Qafan rayonunun Xələc kəndində dünyaya göz açıb. Uşaqlıq illərini təbiətin heç nə əsirgəmədiyi doğulduğu kənddə ziyalı ailəsində keçirib. Atası Allahverdiyev Müzəffər məktəb direktoru, anası Allahverdiyeva Nərgiz Baxşəli qızı müəllimə işləyiblər. İsmayıl 1967-ci ildə Qafan şəhəri 4 saylı orta məktəbi bitirib. Bakı şəhərinə gələrək Əzizbəyov adına Neft və Kimya İnstitutuna daxil olub, ilk əmək fəaliyyətinə "Leninneft"də elektrik montyorluğundan başlayıb. Orada işlədiyi illərdə yaxşı işinə görə SSRİ hökuməti tərəfindən 1970-ci ildə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilib. 1976-cı ildən "Xəzərdənizneft" İB-ın Baş energetika şöbəsində böyük mühəndis işləmiş, 1981-ci ildən isə daha məsul işə - N. Nərimanov adına NQÇİ-nın Baş energetiki vəzifəsinə təyin edilmişdir. Bu müddət ərzində onun rəhbərliyi ilə NQÇİ-nın energetika təsərrüfatında xeyli iş görülmüşdür. 2 saylı 110 kv elektrik xətti istismara verilmişdir.

1988-ci ildə A. İsmayıl "Xəzərdənizneftqaztikinti" trestinin 1 saylı Tikinti Quraşdırma idarəsinə rəis seçilmişdir. 1989-cu ildə yenidən N. Nərimanov adına NQÇİ-in rəis müavini vəzifəsinə təyin edilmişdir. 1992-ci ildə "Xəzərdənizsosialtikinti" trestinin Baş texnoloqu, 1993-cü ildə Dövlət Neft Konserninin Baş tikinti idarəsinin Baş energetika şöbəsinin rəisi, 1994-cü ildə Dövlət Neft Şirkətində energetika üzrə Baş mütəxəssis işləmişdir.

İ. M. Allahverdiyev işlədiyi müddətdə savadı, bacarığı sayəsində öz ixtisasını dərindən bilən istedadlı bir mütəxəssis kimi yetişmişdir. Bunun nəticəsi olaraq Neft sənayesində sıravi vəzifələrdən yüksək vəzifələrədək yüksəlmişdir.

ARDNŞ aparatında iş bacarığını nəzərə alaraq İ. M. Allahverdiyev şirkətin prezidenti tərəfindən 1996-cı ildə QNQÇ İB-in Rabitə idarəsinə rəis vəzifəsinə təyin edilmişdir. Rabitənin neft sənayesində önəmli yerini nəzərə alaraq ilk günlərdən rabitədə möhkəm intizam, işgüzar şərait yaratmışdır. Burada çalışan işgüzar, mehriban kollektivin üzvlərinin səmərəli işləri nəticəsində rabitədə qəzalar, boş dayanmalar minimuma endirilmişdir. ARDNŞ-nin rabitəsinin 80%-i bu idarə tərəfindən həyata keçirilir. Neftçilər fasiləsiz və etibarlı rabitə ilə təmin edilmişlər. 1996-cı ildən başlayaraq rabitədə irəliləyişlər baş verdi. Bu hal dəfələrlə rəhbərlik tərəfindən qeyd edilmişdir.

Baş mühəndis L. Həmidov, istehsalat texniki şöbəsinin rəisi X. Hüseynov, sex rəisləri A. Mirzəyev, A. Ağayev, Ə. Bədəlov, B. Cabbarov, N. Novruzov və başqaları. İ. M. Allahverdiyevin rəhbərliyi ilə Balaxanıneft NQÇİ-də III mədəndə və elektrik şöbəsində əl ilə idarə olunan telefon stansiyaları ləğv edilərək, əvəzinə avtomat telefon stansiyası qurulmuşdur. Azərneft-Balaxanıneft istiqamətində sıxlaşdırıcı aparat qurulmuş, bunun nəticəsində 14 Azərneft telefonu Balaxanı - Suraxanı və Tağıyev neftçilərinin istifadəsinə verilmiş, Siyəzənneft istiqamətində yeni radio-telefon xətti qurulmuşdur. Qobustan-Kürsəngi-Şirvan magistral kabel xəttinin 34 km hissəsi yenidən qurulmuşdur. Azərneft-Kürsəngi istiqamətində radio-telefon xətti qurulmuşdur. Əmirov adına NQÇİ-də 300 saylı ATS quraşdırılıb istifadəyə verilmişdir. Azərneftlə-Bibi-Heybət NQÇİ-si arasında birbaşa əlaqə yaradılmışdır və s. Bütün bu işlər idarənin daxili imkanları hesabına edilmişdir və bu gün də bu iş davam edir.

İ. M. Allahverdiyevə neft sənayesində uzun müddət səmərəli fəaliyyətinə görə QNQÇ İB-nin Baş direktoru Y. Camalov tərəfindən təşəkkür elan edilmişdir.

O, neftçi rabitəçilər kollektivinə bacarıqla başçılıq edən rəhbər olmaqla yanaşı, sadə, mehriban, təvazökar insandır. Üç övlad atasıdır.





# ZİYALILAR AİLƏSİ

*"Bilir bu hikməti hər arif kişi,*
*Pis nəticə verməz yaxşının işi.".*

*Nizami*

Laçın Surxay oğlu Həsənov 1939-cu il noyabrın 7-də Azərbaycanın dilbər guşəsi olan Muğan düzündə, İmişli rayonunun Xoşçobanlı kəndində dünyaya göz açıb. Uşaqlıq illəri fin və İkinci Dünya müharibəsi dövrünə təsadüf etmişdi. Çox ağır zaman idi, müharibə ac canavar kimi hər şeyi didib-parçalayırdı. Hələ təzə-təzə həyatı dərk edən, acılı-şirinli dünyada qayğısız böyüyən balaca Laçının 5 yaşı olanda, müharibənin törətdiyi ağır şəraitlə əlbəyaxa qalan atası Surxay kişi dünyasını dəyişdi. Atasız qalan balaca Laçın anasının köksünə sığındı. Kipriyi ilə od götürən anasının sığalı ilə böyüdü, məktəbə getdi Laçın.

1957-ci ildə İmişli şəhər 2 saylı orta məktəbini bitirən gənc ilk həyat sınağından doğma kəndinin kolxoz tarlalarında çıxdı, burada özünün əməkdən, ağır zəhmətdən qorxub çəkinmədiyini sübut etdi. Kənd kitabxanasının müdiri işlədiyi dövr isə həyatında həlledici rol oynadı. Daim kitablarla ünsiyyətdə olan Laçının ürəyində elmə, biliyə, savada xüsusi həvəs, ali təhsil almaq arzusu közərməyə başladı. Eyni zamanda ana öyüd-nəsihəti, xeyirduası onu əvvəlcədən hər bir çətinliyə sinə gərməyə hazırlayırdı. Sonralar, kənddə və İmişlidə kino-mexanik işləyəndə də, dəmir yolunda çalışanda da bu həvəs, bu arzu közü nəinki sönmədi, əksinə, daha da alovlandı. Bu arzunun qanadlarında şahin könlü göyün ənginliklərinə pərvaz edən, öz üzərində daim çalışan Laçın Həsənov, əvvəlcə 1972-ci ildə Xarkov Dəmir Yolu Mühəndisləri İnstitutunu bitirib iqtisadçı-mühəndis ixtisasına yiyələndi, daha sonra isə, 1987-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun əmtəəşünaslıq fakültəsini bitirdi.

1977-ci ilin may ayından Laçın müəllim neft sənayesində müxtəlif vəzifələrdə çalışır. İşlədiyi bütün sahələrdə uğurlu fəaliyyəti ilə ictimaiyyətin dərin hörmətini qazanan Laçın Həsənov, nəhayət, 1992-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə sosial inkişaf üzrə idarəyə şöbə rəisi vəzifəsinə işə dəvət olunur.

1994-cü il fevralın 10-dan isə Laçın müəllim Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin sosial inkişaf şöbəsinin rəisi təyin edilmişdir. Onun şöbəyə rəhbərlik etdiyi illər ərzində sosial məsələlərin həllində xeyli uğur və müvəffəqiyyətlər əldə edilmiş, yüzlərlə neftçi mənzil almış, idman və sağlamlıq sahəsində bir çox işlər görülmüş, nailiyyətlər qazanılmışdır.

Təşkilatçılıq bacarığı və işgüzarlığı, əməksevərliyi və tələbkarlığı ilə fərqlənən Laçın müəllim keçid dövrü adlandırdığımız bu çətin zamanda bütün dövrlər üçün mühüm əhəmiyyət kəsb edən sosial problemlərin həlli işində böyük irəliləyişlərə nail ola bilib. Öz işində daim yenilik tətbiq edən və daim qarşıya qoyduğu məqsədə çatmağa can atan Laçın Həsənovun adı həmişə neftçilər arasında "yaxşı zəhmət adamı, gözəl insan" kimi çəkilib. Altmış üç yaşın zirvəsindən dönüb taleyin ona bəxş etdiyi ömür kitabını vərəqlədikdə bir həqiqəti dərk edirsən ki, o, yalnız bir amal, bir istəklə yaşayıb - sənə tapşırılan işin, vətənə sədaqətin məsuliyyətini dərk et, haqqın, ədalətin əlindən, ulu Tanrının ətəyindən bərk tut!

Ömrünün çiçəklənən dövrünü yaşayan, 1961-ci ildən ailə həyatı qurmuş bu müdrik ağsaqqal həm də gözəl ailə başçısı, nümunəvi atadır. Özü ata qayğısından erkən məhrum olmuş bu insan bütün məhəbbətini, sevgisini övladlarına həsr etmiş, hal-hazırda müstəqil Azərbaycanımızın iqtisadiyyatının, elminin, təhsilinin tərəqqisi naminə çalışan üç oğul və dörd qızının hər birinə ali təhsil verməyə çalışmış və buna nail olmuşdur - bu gün Laçın müəllimin ailəsini həqiqətən ziyalılar ailəsi adlandırmaq olar.





## İCTİMAİ İŞ FƏALLARINDAN BİRİ

*"Düzgün fikirləşib doğru tədbir tökmək, ağıl və təmkinlə hərəkət etmək hər şeydən üstündür".*

*"Kəlilə və Dimnə"dən*

Züleyxa Həsən qızı Məmmədova 1937-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1956-cı ildə Minsk şəhərində orta kitabxanaçılıq təhsilini bitirmişdir. Əmək fəaliyyətinə 1955-ci ildə Xəzər Dənizçilərinin mədəniyyət evində kitabxanaçı vəzifəsindən başlamış, 1959-cu ildə kitabxana müdiri vəzifəsinə təyin edilmiş və bu vəzifədə 1966-cı ilə qədər işləmişdir. 1959-cu ildə Moskva şəhərində yerləşən Dəniz Donanması Nazirliyi tərəfindən "Fəxri fərman"la təltif olunmuşdur.

Onun sonrakı əmək fəaliyyəti 1970-ci ildən neftlə bağlı olmuşdur. Oobustan Dəniz KQİİ-də texnik vəzifəsində çalışmış. 1985-ci ildən "Azərneft" İB-nin aparatında mühəndis, böyük mühəndis, aparıcı mühəndis vəzifələrində işləmişdir və tapşırılan sahədə yüksək səviyyəli mütəxəssis kimi işinin öhdəsindən gəlmişdir. Əldə etdiyi nailiyyətləri nəzərə alaraq 1986-cı ildə İB-nin şöbə rəisi vəzifəsinə təyin edilmiş və bu günədək həmin vəzifədə çalışır.

Z. H. Məmmədova eyni zamanda ictimai işlərlə də fəal məşğul olur. Həyat yoldaşıyla birgə 1966-cı ildən 1969-cu ilədək Hindistanda ezamiyyətdə olduğu zaman o, səfirlik nəzdində çalışan neftçi mütəxəssislərin ailə üzvləri arasında böyük ictimai iş aparmış və bununla əlaqədar səfirlik tərəfindən təşəkkür almışdır. O, şəhərcikdə səfirin təyinatı ilə ictimai kitabxana müdiri vəzifəsinə təyin olunmuşdvr.

Z. H. Məmmədova "Neftçi Qadınlar" cəmiyyətində idarə heyətinin üzvüdür. O, bu sahədə yorulmadan çalışır. 1998-ci ildə Azərbaycan qadınlarının 1-ci qurultayına nümayəndə seçilib. Bir çox Beynəlxalq Konfranslarda (ABŞ-da, Hollandiyada, İranda, Pakistanda və s.) iştirak etmişdir. 2001-ci il sentyabr ayının 19-da ARDNŞ Şurasının qərarı ilə respublikanın neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə Fəxri Fərmanla təltif olunub. Azərbaycan Dövlət Neft Şirkətində hamı Züleyxa xanımı tədbirli və təmkinli bir qadın kimi tanıyır.



## PEŞƏKAR ENERGETİK



*"Əvvəldən sevdiyim əməkdir, işdir,*
*Hər ağac bir bağdan gətirilmişdir".*

*Nizami*

Cəmil Kazbin oğlu Heydərov 1942-ci ildə Azərbaycanın səfalı guşələrinin birində, Qusar şəhərində qulluqçu ailəsində anadan olmuşdur.

O, 1960-cı ildə Qusar şəhərindəki 2 saylı rus orta məktəbini bitirmişdir. Əmək fəaliyyətinə 1960-cı ildə başlamış, 1960-1962-ci illərdə "Stalinneft" neftçıxarma idarəsində (indiki Bibi-Heybətneft NQÇİ) fəhlə işləyərək təhsilini davam etdirmək üçün Azərbaycan Dövlət Universitetinin axşam şöbəsinə daxil olmuşdur. 1962-1965-ci illərdə Sovet Ordusu sıralarında - Almaniya Demokratik Respublikasında qulluq etmişdir.

Artıq Sovet Ordusunda yeni, müasir texnikaya yiyələnmiş Cəmil Heydərov mühəndis olmaq arzusu ilə 1965-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) energetika fakültəsinin əyani şöbəsinə daxil olmuşdur.

O, 1970-ci ildə həmin institutu bitirərək taleyini həmişəlik respublikanın neft sənayesi ilə bağlamışdır.

C. Heydərov 1970-1975-ci illərdə 26 Bakı Komissarı adına NQÇİ-də (indiki Bibi-Heybətneft NQÇİ) öncə elektrik montyoru, sonra mühəndis işləmişdir.

O illərdə "Azərneft" İB-in baş energetik vəzifəsində uzun müddət çalışmış mərhum Vaqif Rəşid oğlu Camalovun diqqətini cəlb etmiş, işə canyandıran gənc mühəndis C. Heydərov onun təşəbbüsü ilə 1975-ci ildə İB-in baş energetik şöbəsinə mühəndis vəzifəsinə irəli çəkildi.

O vaxt təzə açılmış perspektiv Muradxanlı neft yataqlarında qazma işlərini gücləndirmək məqsədilə orada Sabirabaddan 46 km uzunluğunda 110 kV-luq hava elektrik ötürücü xətti tikilərək 2x10000 kVa güc transformatorlu 110/35/6 kV-luq yarımstansiyanın quraşdırılması layihələşdirildi. Bu yarımstansiyanın və onu doyduran 110 kV-luq EÖX-in layihələşdirilməsində və tikilməsində bilavasitə fəal iştirak etmiş Cəmil müəllim, elektrik ava-

danlıqların quraşdırılmasında və sazlanmasında yaranan texniki çətinliklərin həllini asanlıqla tapırdı.

Bu və digər mühüm obyektlərin layihələşdirilməsində və tikintisində fəal çalışan C. Heydərov artıq püxtələşmiş mühəndis kimi fərqlənirdi.

1978-1980-ci illərdə Qaradağneft NQÇİ-də (indiki Ə. C. Əmirov adına NQÇİ) istehsalat planlarının yerinə yetirilməsində böyük gərginlik yaranmışdı, bununla əlaqədar "Azərneft" İB-i tərəfindən NQÇİ-yə texniki yardım göstərməklə yanaşı, onun rəhbərliyinin gücləndirilməsi kimi tədbirlər də qısa müddətdə həyata keçirilirdi.

Artıq respublikada tanınmış neftçi Kərim Kərimov 1981-ci ildə Qaradağneft NQÇİ-nin rəisi vəzifəsinə, həmin ildə C. Heydərov isə NQÇİ-nın baş energetiki vəzifəsinə təyin olunur. Qısa bir müddətdə "Azərneft" İB-ın köməyilə və yeni təyin olunmuş mütəxəssislərin səyilə Qaradağneft NQÇİ-nin adı qabaqcıllar sırasında çəkilir, nailiyyətləri tez-tez mətbuatda işıqlandırılır.

C. Heydərov Ə. C. Əmirov adına NQÇİ-də işlədiyi illərdə neft mədənlərinin elektrik təchizatının etibarlığının artırılması, elektrik və istilik enerjisindən səmərəli istifadə və s. bu kimi bir sıra təkliflər tətbiq edərək idarənin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına nail olur.

C. Heydərovun təşəbbüsü ilə Ə. C. Əmirov adına NQÇİ-nin Puta və Lökbatan yataqlarında iqtisadi cəhətdən səmərəli olmayan kompressor üsulu ilə istismar olunan quyuların dalma və dərinlik nasosu üsuluna keçirilməsi təmin edilərək kompressor stansiyaları ləğv edilmiş, nəticədə milyonlarla manat vəsaitə qənaət olunmuşdur.

1984-1985-ci illərdə Ə. C. Əmirov adına NQÇİ-nin Umbakı yatağında neft sənayesində yeni üsul olan layları yerin altında yandırmaqla neftin artırılması üsulu tətbiq olunmuşdur. Bu obyektə lazım olan kompressor stansiyasını elektrik enerjisi ilə təmin etmək üçün C. Heydərovun rəhbərliyi ilə 2x1000 kVa gücündə 6/0,4 kV-luq yarımstansiya tikilir.

C. Heydərov xatırlayır ki, Ə. C. Əmirov adına NQÇİ-də 1980-ci illərdə qazma işlərinə diqqət artmışdı, buruqlar bir nöqtədən digər nöqtəyə keçiriləndə yüksək gərginlikli 35 kV-luq ENÖX müəyyən çətinliklər yaradırdı. ENÖX-nın gündüz, iş vaxtı açılması rayonun sənaye müəssisələrinin boş dayanmasına səbəb olurdu. Odur ki, Qaradağ sahəsində buruğun keçirilməsinə mane olan Qaradağ sement zavodunu və Qaradağ karxanalarını qidalandıran 35 kV-luq ENÖX-nı neftçilərin praktikasında ilk dəfə olaraq gecə saat 24.00-dən 5.00-dək açaraq (müəssisələrin işləmədiyi vaxtda) vışkanın çəkilməsi təmin olunurdu.

1987-ci ildə respublikanın neftçıxarma sənayesində aparılan struktur dəyişiklikləri ilə əlaqədar, "Qaradağneft" NQÇİ və 26 Bakı Komissarı adına NQÇİ ilə birləşdirilir. Yeni yaranmış Ə. C. Əmirov adına NQÇİ-nin böyük elektrik təsərrüfatına rəhbərlik daha təcrübəli mühəndis C. Heydərova həvalə olunur.

Bu illərdə Ə. C. Əmirov adına NQÇİ-nin hər iki sahəsində, Bibi-Heybət və Lökbatanda, elektrik təchizatı sxemlərinin təkmilləşdirilməsi işləri aparılır, qəza vəziyyətində olan yarımstansiyalar və elektrik qurğularının yükü digər elektrik mənbələri arasında bölünərək ləğv edilir, nəticədə qəza halları azalır, elektrik enerjisinin təchizatının etibarlığı artır.



1994-cü ildə C. Heydərov Quruda NQÇİ İB-in Baş energetik, nəzarət ölçü cihazları və istehsal proseslərinin avtomatlaşdırılması şöbəsinin rəis müavini vəzifəsinə irəli çəkilir və bu günə kimi bu vəzifədə çalışır.

Quruda NQÇ İB-in çoxşaxəli elektrik təsərrüfatında istifadə olunan mürəkkəb elektrik qurğularının etibarlı və təhlükəsiz istismar edilməsi üçün idarələrin energetik xidmətlərinə daim praktik köməyi əsirgəmir. Rəis müavini işlədiyi müddətdə onun rəhbərliyi ilə İB-in NQÇİ-lər fasiləsiz elektrik enerjisi ilə təmin etməklə yanaşı elektrik təsərrüfatlarında daim yenidənqurma işləri aparılır. Belə ki, NQÇİ-lərin neft mədənlərini qidalandıran 6 kV-luq elektrik şəbəkəsində bir fazanın itməsindən mühafizə sxemi işlənərək neft mədənlərində tətbiq olunmuş və bu səbəbdən sıradan çıxan xeyli elektrik mühərriklərinin qarşısı alınmışdır.

DNŞ-nin inzibati binasının elektrik təchizatının yenidən qurulmasında, Bibi-Heybət məscidinin tikilməsi ilə əlaqədar Şıxov qəsəbəsinin elektrik təchizatının yaxşılaşdırılmasında, Şurabad neft yatağında tikilməkdə olan 35/6 kV-luq yarımstansiyasında C. Heydərovun əməyi böyükdür. C. Heydərov daim öz biliyini artıran novator mühəndisdir.

O, 1985-ci ildə Moskvanın İ. M. Qubkin adına neft institutunun rəhbər işçilərinin ixtisasının artırılması kurslarını bitirmişdir.

Cəmil Heydərov neft sənayesinin elektrik enerjisi ilə təmin olunmasında fəal çalışan, energetika problemlərini yaxşı bilən, dərin biliyə və yüksək təcrübəyə malik mütəxəssis olmaqla yanaşı, həm də gözəl ailə başçısıdır. İki övlad atasıdır.

C. Heydərovun həyat yoldaşı Maral xanım tanınmış neftçi-qazmaçı, Sosialist Əməyi Qəhrəmanı Hacı-Murad Temirxanovun qızıdır. Hazırda Bibi-Heybətneft NQÇİ-də mühəndis vəzifəsində çalışır.





# TƏCRÜBƏLİ ALİM, NEFTÇİ-GEOLOQ

*"Əmək bəşəriyyət tarixinin lap əvvəlindən yer üzərinə işıq saçan müqəddəs şamdır, onu söndürsəniz hər yer zülmətə çevrilər"*

*K. D. Uşinski*

Qoldına Liliya İosifovna 1927-ci ildə Bakı şəhərində anadan olub 1946-cı ildə M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun Geoloji-kəşfiyyat fakültəsini "Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" ixtisası üzrə bitirmişdir. Elə həmin il "Kaqanoviçneft" trestinin geoloji şöbəsində geoloq vəzifəsində əmək fəaliyyətinə başlamışdır.

L. İ. Qoldina 1946-cı ildən 1968-ci ilədək "Kaqanoviçneft" (sonralar "Orconikidzeneft") trestində geoloji xidmətin bütün pillələrindən keçərək geoloq, böyük geoloq, geoloji şöbənin rəisi vəzifələrində çalışmışdır.

O illərdə yüksək səviyyəli və bacarıqlı geoloq kimi yetişən L. İ. Qoldına 1968-ci ildə "Orconikidzeneft" NQÇİ-nin baş geoloqu vəzifəsinə təyin edilmiş və bu məsuliyyətli vəzifənin öhdəsindən ləyaqətlə gəlmişdir.

1989-cu ildə L. İ. Qoldına "Azərneft" İB-nin "Neft və qaz yataqlarının işlənməsi şöbəsi"nin aparıcı geoloqu vəzifəsinə keçirilmişdir. 1994-cü ildən 2001-ci ilədək Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin "Neft və qaz yataqlarının işlənməsi şöbəsi"nin geoloqu vəzifəsində işləmişdir.

Böyük istehsalat təcrübəsi ilə yanaşı, L. Qoldina yüksək elmi biliklərə malikdir. O, müxtəlif aspektdə neft və qaz yataqlarının işlənməsinə dair bir sıra elmi məqalələrin müəllifidir, geologiya-mineralogiya elmləri namizədidir.

L. İ. Qoldinaya neft sənayesində uzunmüddətli işinə görə "Əmək veteranı" adı verilmişdir.

Qoldina Liliya İosifovna kollektivdə böyük nüfuz qazanmışdır. Bu nüfuzu o, kiminsə minnəti hesabına yox, yalnız özünün şərəfli əməyi nəticəsində qazanmışdır. Elə buna görə də Liliya xanım neftçilərin sevimlisi, onların yaxın dostudur.



# ƏMƏK ADAMI



*"Bütün ömrüm boyu yalnız işləməyi sevən və bacaran adamları qəhrəman gördüm"*

*M. Qorki*

İnsanın həyatı yalnız böyük məqsədlə istiqamətləndirildikdə və müəyyənləşdirildikdə məna kəsb edir və məzmunlu olur. Bu məqsəd isə həyatı şən, gözəl və ahəngdar edir, onu daha yüksək məna və yaradıcılıq fərəhi ilə zənginləşdirir. Əlbəttə, məqsəd insan üçün nə qədər çox əhəmiyyət kəsb edirsə, iradə qüvvəsini də bir o qədər çox hərəkətə gətirir.

- Həyatın mənası ən mürəkkəb və dərin mənəvi problemlərdən sayılır, bu problem üzərində müstəqil həyata qədəm qoyan hər bir gəncin dərindən düşünməsi xüsusilə vacibdir, - deyə sualımıza cavab verən neftçi veteran Sahib Qasımov öz fikrini bildirdi.

Təcrübəli neftçi Sahib Qasımov gənclərin mənəvi tərbiyəsində, onların həyata hazırlanmasında, həmçinin gənc neftçi kadrlarının yetişdirilməsində böyük əmək sərf etmişdir. O, indi də bu xeyirxah işini davam etdirir. Belə nəcib işlərinə görə təcrübəli neftçi öz həmkarları arasında böyük hörmət qazanmışdır.

Qasımov Sahib Kamal oğlu 1926-cı ildə İsmayıllı rayonunda anadan olmuşdur. O, 1942-ci ildə orta məktəbi bitirdikdən sonra, 1943-1944-cü illərdə rayonun Təzəkənd orta məktəbində müəllim işləmişdir (o vaxtlar ali və orta ixtisaslı müəllim kadrları çatışmadığı üçün orta məktəbi bitirənlər müvəqqəti olaraq müəllimlik fəaliyyəti ilə məşğul olurdular).

S. Qasımov 1944-cü ildən 1950-ci ilə qədər hərbi hissədə, zenit artilleriya alayında xidmət etmişdir. Hərbi xidmətdən sonra 1951-1952-ci illərdə məsul komsomol işində çalışmışdır. Sonra isə neft sahəsində işləməyə gəlmişdir. S. Qasımov 1954-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsini uğurla başa vurmuş, ali təhsil almışdır.

O, 1953-1971-ci illərdə Kaqanoviç Neft və Qazçıxarma İdarəsində sex rəisi, 1971-1987-ci illərdə Suraxanı Neft və Qazçıxarma İdarəsində rəis müavini vəzifələrində çalışmışdır.

8—108

S. Qasımov 1987-ci ildə təqaüdə çıxıb. O, 1988-1990-cı illərdə Serebrovski qəsəbəsində kənd Sovetinin sədri seçilib. Düzdür, o, bu vəzifədə etimada layıq işləyib, ancaq yenə də neft sahəsi üçün darıxıb. Elə bu münvalla da 1991-ci ildə neft sahəsinə işləməyə qayıdıb. O, 1991-1999-cu illərdə Suraxanı Neft və Qazçıxarma İdarəsində təchizat şöbəsinin rəisi vəzifəsində işləyib.

Müharibə və əmək veteranı S. Qasımov bütün ömrü boyu işdən, yaradıcı əməkdən həzz almış, sevinc duymuşdur.





# İŞGÜZAR ALİM



***"Bütün sənətlərin açarı elm və tərbiyədir"***

***"Qobusnamə"dən***

Mehdi Rza oğlu Hüseynov 1931-ci ilin oktyabrında Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub. 1956-cı ildə M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirdikdən sonra "Sıyəzənneft" neftqazçıxarma idarəsində əmək fəaliyyətinə başlayıb. Burada əvvəl operator, sonra isə quyuların tədqiqatı və yeraltı təmiri üzrə usta və elmi-tədqiqat istehsalat sexində böyük mühəndis vəzifəsində işləyib. 1961-1970-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Qazma İnstitutunda "Qazılan quyuların geoloji şəraitinin tədqiqatı" laboratoriyasında mühəndis, böyük mühəndis, baş elmi işçi və laboratoriya rəisinin müvəqqəti əvəzedicisi kimi fəaliyyət göstərib. 1970-ci ildən Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin Tamponaj və Layların Neftveriminin Artırılması İdarəsində əvvəl layların neftveriminin artırılması sexinə rəhbərlik etmiş, 1984-cü ildən isə idarənin texniki istehsalat şöbəsinin rəisi vəzifəsində çalışır.

"Siyəzənneft" NQÇİ-nin elmi-tədqiqat istehsalat sexində böyük mühəndis işləyərkən Mehdi Hüseynov Maykop lay dəstəsinin ehtiyatlarının hesablanması ilə məşğul olmuşdur. Yatağın ehtiyatlarını hər iki üsulla - həm həcmi, həm də statistik üsulla hesablayıb. Ehtiyatların hesablanması üçün lazım olan ilkin məlumatlar düzgün və dəqiqliklə seçildiyinə görə hər iki üsulda alınan nəticələr eyni olaraq bir-birini təsdiq etmişdir. Sonradan Mehdi müəllim bu mövzu üzrə ilk elmi məqaləsini yazaraq "Azərbaycan Neft Təsərrüfatı" jurnalına təqdim edir. Burada məqalə barədə rəy almaq üçün onu Dənizdə Neft və Qazçıxarma İB-nın baş geoloqu Fuad Səmədovun yanına göndərirlər. Fuad müəllim M. Hüseynova bir sıra elmi məsləhətlər verərək məqaləni yenidən işləməyi müəllifə tövsiyə edir. Beləliklə, Fuad müəllimin xeyir-duası, müsbət rəyi ilə Mehdi müəllimin ilk elmi məqaləsi adı çəkilən jurnalda işıq üzü görür. Gözəl insan, əvəzsiz mütəxəssis, neft sahəsində dərin elmi-nəzəri biliklərə və böyük təcrübəyə malik olan neftçi-alim

Fuad Səmədovu Mehdi müəllim indi də böyük minnətdarlıq hissi ilə xatırlayır.

İlk elmi işin uğurundan ruhlanan M. Hüseynov istehsalatdan ayrılmadan dissertasiya mövzusu üzərində işləməyə başlayır. Azərbaycan EA-nın akademiki Əliəşrəf Əlizadənin rəhbərliyi, yaxından köməkliyi və qayğısı sayəsində Mehdi müəllim 1968-ci ildə Siyəzən neft yatağının Maykop lay dəstəsində neft yataqlarının əmələgəlmə şəraiti" mövzusu üzrə dissertasiya müdafiə edərək elmlər namizədi elmi dərəcəyə layiq görülür. Qeyd etmək lazımdır ki, "Siyəzənneft" NQÇİ-də işlədiyi müddət ərzində bu neft yataqlarının kəşfiyyatı, işlənməsi və istismarı ilə əlaqədar olaraq M. Hüseynovun əldə etdiyi təcrübənin neft elmi sahəsində olan nəzəri biliklərlə müqayisəli şəkildə ümumiləşdirilməsi dissertasiya işinin müvəffəqiyyətlə başa çatdırılmasında böyük əhəmiyyət kəsb etmişdir. Mehdi müəllim indi də AzNSETLİ-nin alimləri A. Abbasova, Ç. Şeydayeva və S. Nadirova müdafiə zamanı qarşıya çıxan məsələlərin həllində göstərdikləri diqqət və qayğıya görə özünü onlara borclu hesab edərək minnətdar olduğunu bildirir.

Artıq 31 ildir ki, Layların Neftveriminin Artırılması İdarəsində çalışan M. Hüseynovun rəhbərlik etdiyi kollektiv və şəxsən özü yaxşı işlədiyinə, tapşırıqların öhdəsindən müvəffəqiyyətlə gəldiyinə görə dəfələrlə minnətdarlıq almış, fəxri fərmanlarla təltif edilmişdir. İdarənin tarixində ilk dəfə olaraq onun elmi əsaslarla işlənmiş texnoloji sxemi (reqlamenti) Mehdi müəllim tərəfindən hazırlanmışdır. Bu texnoloji sxem həm sahə elmi-tədqiqat institutları, həm də İB-nın neftqazçıxarma idarələri tərəfindən çox yüksək qiymətləndirilmişdir. Onun istehsalatda geniş tətbiqi isə idarəyə külli miqdarda iqtisadi səmərə vermişdir. İstehsalatda işinin çoxluğuna və vaxtının məhdudluğuna baxmayaraq Mehdi müəllim elmi yaradıcılıqla da məşğul olur. 70-dən çox elmi və publisistik məqalənin, 40-dan çox səmərələşdirici təklifin müəllifidir. Elmi məqalələri əsasən istehsalatın bu və ya digər sahəsinin genişləndirilməsinə, neft yataqlarının işlənməsi, istismarı və layların neftveriminin artırılması məqsədilə tətbiq edilən texnologiyaların təkmilləşdirilməsinə həsr edilmişdir.

M. Hüseynov daim kollektivin mənafeyini şəxsi mənafeyindən yüksək tutub, şərəfli əməyi ilə həmişə fəxr edib. İnsan ləyaqətinə dərin hörmət, insanlara xeyirxahlıq göstərmək və onların üzündə xoş təbəssüm görmək arzusu ilə yaşayıb. Halal zəhməti hər şeydən üstün tutub. Elə bunun üçün də özünün dediyinə görə heç kəsin yanında "gözükölgəli" olmayıb. Bu illər ərzində mənəvi və psixoloji sarsıntılar da keçirib, haqsızlıqla da qarşılaşıb. Lakin özünə onunla təsəlli verib ki, pis adamların sayı yaxşılardan qat-qat azdır. Çünki bir neçə təsadüfi halı çıxmaq şərti ilə Mehdi müəllim yaxşı insanlarla daha çox təmasda olub. Həmişə xalqın mövqeyindən çıxış edən, təmiz əqidəyə və saf mənəviyyata malik olan Mehdi müəllimin iş yoldaşları, rəhbərlik arasında da xüsusi hörməti vardır. Layların Neftveriminin Artırılması İdarəsinin rəis müavini Dostu Səlimov onun haqqında deyir: "Mehdi Hüseynov bacarıqlı işçi, yaxşı alim, xeyirxah insandır. İşinə çox məsuliyyətlə yanaşır və bunu başqalarından da tələb edir. Yaxşılığı, yaxşı insanları heç vaxt unutmur və bacardıqca özü də xoş əməlləriylə başqalarına kömək etməyə çalışır".



# PEŞƏSİNİN VURĞUNU

*"Xoşbəxtliyə gedən yol - azad əməkdən başlayır"*

*M. Qorki*



İsabala Nəsrulla oğlu İsayev 1951-ci il avqustun 7-də respublikamızın ən səfalı guşələrindən biri olan Qusar rayonunun Yuxarı Zeyxur kəndində anadan olmuşdur. 1968-ci ildə İmamqulukənd kənd orta məktəbini bitirərək M. Əzizbəyov adına Neft və Kimya İnstitutunun Energetika fakültəsinin axşam şöbəsinə qəbul olunmuşdur.

Böyük Vətən müharibəsi əlili olan Nəsrulla kişinin ailəsindəki 4 övladdan ən böyüyü olan İsabala 1969-cu ildən 1 №-li "Bakı şəhər tikinti" trestinin 3 №-li tikinti-quraşdırma idarəsində əmək fəaliyyətinə fəhləlikdən başlayıb. 1970-72-ci illərdə Sovet Ordusunda hərbi xidmətdən sonra, 1972-ci ildən "Azərneft" İstehsalat Birliyinin 26 Bakı Komissarı adına (indiki Bibi-Heybətneft) NQÇİ-də Elektrik quraşdırma sexində elektrik montyoru, 1975-ci ildən elektrik laboratoriyasında rele mühafizəsi üzrə mühəndis, 1980-ci ildən NQÇİ-nin idarə aparatında baş energetik şöbəsində mühəndis işləmişdir.

İ. İsayev 1987-ci ildə "Azərneft" İB-in Normativ-tədqiqat stansiyasında yeni yaradılmış "Texniki material və yanacaq-enerji ehtiyatlarının normalaşdırılması" şöbəsində böyük mühəndis, 1988-ci ildən şöbə rəisinin müavini, 1993-cü ildən isə həmin şöbənin rəisi işləmişdir. 1994-cü ilin fevral ayından yenidən yaradılmış Quruda NQÇ İB-də Baş energetik, NÖC və İPA şöbəsində aparıcı mühəndis, 1997-ci ildən hal-hazıra kimi isə şöbə rəisinin müavini işləyir.

İ. N. İsayev 1978-ci ildə istehsalatdan ayrılmamaqla M. Əzizbəyov adına Neft və Kimya İnstitutunu müvəffəqiyyətlə bitirərək mühəndis-elektrik ixtisasına yiyələnmiş, həmin ildə də Neft və Kimya İnstitutunun aspiranturasının qiyabi şöbəsinə daxil olmuş və 1982-ci ildə oranı bitirmişdir. Lakin, ailə vəziyyətinin ağırlığı və istehsalatda daimi məşğulluq üzündən neft sənayesində həmişə aktual olan "Gərginliyin qısa müddətdə itməsi zamanı sinxron elektrik mühərriklərinin statik və dinamik xarakteristikalarının tədqiqi" adlı elmi işini başa çatdıra bilməmişdir.

İ. N. İsayev 1978-ci ildən 1988-ci illədək əsas istehsalat işindən sonra M. Əzizbəyov adına Neft və Kimya İnstitutunun Energetika fakültəsində saat-hesabı ilə müəllim işləyərək, neftqaz sənayesi üçün gələcək ali təhsilli, yüksək ixtisaslı energetiklərin yetişdirilməsində öz köməyini əsirgəməmiş-dir. Təsadüfi deyildir ki, indiki neftçi-energetiklərin arasında vaxtilə onun dərs dediyi tələbələr az deyildir.

Qəlbən bağlandığı energetika sahəsində öz yorulmaz zəhməti ilə seçi-lən İ. İsayev vaxtilə işlədiyi Bibi-Heybətneft NQÇİ-də elektrik enerjisindən qənaətlə istifadə etmək məqsədilə bir sıra səmərələşdirici təkliflər vermiş və onların istehsalatda tətbiqinə çalışmışdır.

O, Normativ-Tədqiqat Stansiyasında işlədiyi müddətdə isə yüksək əmək nailiyyətlərinə görə dəfələrlə idarənin fəxri fərmanları ilə təltif olun-muşdur.

Yüksək ixtisaslı energetik olan İ. N. İsayev neft sənayesindəki əmək fəaliyyətinin 30 ili ərzində neftqazçıxarma və qazma üzrə texnoloji proses-lərə də yiyələnmiş, neftqazçıxarma və qazma proseslərində yanacaq-enerji ehtiyatlarının normalaşdırılması, uçotunun aparılması, elektrik enerjisinə qənaət tədbirləri, yanacaq-enerji ehtiyatları üzrə statistik hesabatların tərti-bi və bu sahədə idarələrə metodiki göstərişlərin verilməsi üzrə neft sənaye-si sahəsində yeganə mütəxəssis sayıla bilər.

Savadlı mütəxəssis olan İ. N. İsayev hal-hazırda da şöbənin gündəlik fəaliyyətində fəal iştirak etməklə öz funksiyalarının yerinə yetirilməsinə vicdanla yanaşır, ixtisas biliklərinin yüksəldilməsi və şöbənin gənc mühən-dislərinin də bilik və ixtisaslarının artırılması üçün bacarığını əsirgəmir.

İşlədiyi kollektivdə səmimi və təvazökar bir insan kimi tanınan İsabala İsayev həm də gözəl ailə başçısı, 3 övlad atasıdır.





# ZƏHMƏT ADAMI



***"Qabarlı əldə olan hünər, qeyrət - ağ əlcəkli əldə ola bilməz"***

***N. Nərimanov***

Ramiz Mustafa oğlu Hacıyev 1934-cü il yanvarın 25-də Lənkəran şəhərində anadan olmuşdur. 1942-ci ildə Lənkəran şəhər 3 saylı orta məktəbin 1-ci sinfinə daxil olmuş, 1952-ci ildə həmin mək-təbi müvəffəqiyyətlə bitirmişdir.

O, 1952-ci ildə Azərbaycan Sənaye İnstitutunun neft-mədən fakültəsinə daxil olmuş. 1957-ci ildə ali məktəbi bitirib, təyinatla "Stalinneft" Neft və Qaz Çıxarma İdarəsinə neft və qaz çıxarma nəqliyyatçısı vəzifəsinə göndə-rilmişdir. 1958-ci ildə neftçıxarma ustasının köməkçisi işləmişdir.

R. Hacıyev 1959-cu ildən 1971-ci ilədək Yeraltı təmir sexində sahə rəi-si vəzifəsində, 1972-ci ildən 1977-ci ilədək Neft və Qaz Çıxarma idarəsi-nin MMTX-də vaxt rəisi vəzifəsində, 1978-ci ildən 1987-ci ilədək yeraltı təmir sexinin böyük mühəndisi vəzifəsində, 1987-ci ildən Neft və Qaz Çı-xarma İdarəsinin 3 saylı NQÇİ-də böyük mühəndis vəzifəsində işləmişdir.

R. Hacıyev 1992-ci ildən "Bibiheybətneft" NQÇİ-nin Əsaslı-təmir sexi-nin dərinlik nasosları emalatxanasında baş usta işləyir.

Ramiz Hacıyev düz 45 ildir ki, yorulmaq bilmədən neft sənayesində ça-lışır. O, neftçilər arasında böyük hörmət sahibidir. Uzun illik əmək fəaliy-yəti qiymətləndirilmiş, ona Əmək Veteranı adı verilmişdir. Bu əmək vete-ranının əlindəki qabarlar xoşbəxtlik nişanələridir.



# HƏSSAS VƏ İŞGÜZAR İNSAN

*"İnsan etsə əgər bir işə vərdiş,*
*Çətin olsa belə görülər bu iş".*
*Nizami*

Rəna Müseyib qızı Əzizova 1934-cü ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 176 saylı orta məktəbi 1951-ci ildə gümüş medalla bitirmişdir. Elə həmin ildə M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş. 1956-cı ildə əla qiymətlərlə institutu bitirmişdir. O, institutun təyinatı ilə "Stalinneft" neft-mədən idarəsinə tədqiqat üzrə operator vəzifəsinə təyin olunmuş, sonra tədqiqat ustası kimi işləmişdir.

1958-ci ilin oktyabr ayında neft-mədən idarəsində Elmi-tədqiqat sexi açılmışdır. R. Əzizova geologiya-hidrogeologiya şöbəsinə böyük geoloq, daha sonra şöbə rəisi təyin olunmuşdur. İşlədiyi bu şöbədə Bibiheybət yatağının geologiyası və hidrogeologiyasını mükəmməl öyrənmişdir. İlk dəfə Bibiheybət yatağında məhsuldar qat horizontlarının işlənməsi ilə əlaqədar suların kimyəvi tərkiblərinin cari vəziyyət üçün dəyişməsini sübut etmişdir.

O, çap olunan elmi məqalələrində Bibiheybət yatağında ən böyük vulkan "Buxta"nın quyuların işlənməsinə təsirini göstərmişdir. Vulkana yaxın zonalarda quyuların qazılmamasını təklif etmişdir. Suların tərkibində yodun, bromun, radioaktiv elementlərin olmasını yazdığı kiçik elmi əsərində şərh etmişdir.

İkinci metod üsulu Bibiheybətdə 1952-ci ildən aparılır. Suvurucu quyular vasitəsi ilə laylara dəniz suyu vurulurdu. Vurulan dəniz suyunun yuxarı laylarda olan cod sularla təmasında, suların tərkibində sulfatların əmələ gəlməsini R. Əzizova öz məqalələrində bir daha göstərmişdir. Eyni zamanda kükürdün suların tərkibində olması, yeraltı avadanlıqların korroziyaya uğramasının qarşısını almaq təklifini də irəli sürmüşdür..

R. Əzizova 1971-ci ildən 26 Bakı komissarı adına neftqazçıxarma idarəsində böyük geoloq, 1976-cı ilin fevral ayından bu idarənin geoloji şöbəsinin müdiri işləyir. Hazırda Bibiheybət yatağının cari vəziyyətini təhlil edir, perspektiv neft və qaz planlarının yerinə yetirilməsinə nəzarət edir, geoloji



texniki tədbirlərin həyata keçirilməsində iştirak edir, neft və qaz ehtiyatlarının hesablanmasını təşkil edir.

Hal-hazırda Dövlət Arxivində olan sənədlərdən istifadə edərək, ilk dəfə quyunun dünyada 1848-ci ildə Bibiheybətdə qazılmasını təsdiq edən dəlillər gətirib.

Bibiheybət yatağının 1871-ci ildən, Bibiheybət buxtasının 1923-cü ildən yaranmasını təsdiq edən sənədlərdən istifadə etməklə Bibiheybət yatağının 130 illiyini qarşılamaq üçün arxiv sənədləri üzərində çalışır.

Rəna xanım ictimai işlərdə fəal iştirak edir. O, "Neftçi qadınlar" cəmiyyətinin idarə heyətinin üzvlərindən biri olub. 1995-ci ildə Pekində ümumdünya Qadınlar konqresində iştirak edib.

Rəna xanım Əzizova işlədiyi sahədə işgüzarlıq nümunəsi göstərir, iş yoldaşlarına həssas münasibət bəsləyir.





# YAŞASIN ŞAİRƏ EL MƏHƏBBƏTİ...

*Sordu: "Köhnə qızılmı, təzə sözmü yaxşıdır?"*
*Söz sərrafı söylədi: "Söz dünyanın naxşıdır".*
***Nizami***

Zaməddin Ziyad oğlu Həmişəyev (Ədəbi təxəllüsü - Zaməddin Ziyadoğlu) - 1947-ci il aprelin 1-də, qoç bürcündə, Azərbaycanımızın dilbər guşələrindən olan Qazax rayonunun Xanlıqlar kəndində dünyaya gəlmişdir. Məktəbə çox erkən gedən Zaməddin - 15 yaşında Xanlıqlar kənd orta məktəbini bitirmiş və gələcək taleyini Odlar yurdumuzun paytaxtı - küləklər şəhəri Bakıya bağlamışdır. Təhsil və sənət arxasınca, arzularının qanadında uçan gənclər kimi, bu gənc də əmək fəaliyyətinə - əfsanələr şəhəri, dünyanın səkkizinci möcüzəsi sayılan Neft Daşlarında başlamışdır. 1966-69-cu illər ordu sıralarında xidmət etdikdən sonra o, yenidən Neft Daşlarına - "Azərdənizneftinşaat" trestinin 6 saylı tikinti-quraşdırma idarəsinə - doğma kollektivinə qayıtmış və tikinti maşınlarının təmiri üzrə çilingər işləmişdir.

Zaməddin Həmişəyev istehsalatda işləməklə bərabər, təhsilini də davam etdirmiş, Neft Daşlarında fəaliyyət göstərən Bakı Neft Texnikumunun axşam şöbəsinə qəbul olunmuş və 1972-ci ildə "Neft və qaz quyularının istismarı" ixtisası üzrə texnikumu əla qiymətlərlə bitirmişdir. İşlədiyi doğma kollektiv isə, böyük etimad göstərərək onu 17 il dalbadal idarənin həmkarlar ittifaqı komitəsinin sədri seçmişdir. Həmkarlar işini kamil bilən Zaməddinin arzusu onu Moskvaya - N. M. Şvernik adına Əmək və Sosial Münasibətlər Akademiyasına apardı. O, 1977-ci ildə imtahanları müvəffəqiyyətlə verərək arzusuna çatdı və 1983-cü ildə əməyin iqtisadiyyatı üzrə mütəxəssis kimi Moskvadan Bakıya qayıtdı... və yenidən möcüzələr şəhərinə - "Neft Daşları"na getdi.

Zaməddin müəllim ömrünün 25 ilindən çoxunu bu dəniz şəhəri ilə bağlayıb. Burada istehsalatda çalışmaqla bərabər, təhsil alıb, ictimai işlərdə fəallıq göstərib, "Neft Daşları" - "Neftyanıe kamni" qəzetlərinin müxbiri kimi yüzlərcə məqalənin, məlumatın, zarisovkanın, oçerkin və şerin müəllifi



olub. Sonra respublikamızın mətbu orqanlarında, həmçinin SSRİ-nin digər qəzet və jurnallarında da dərc olunub. Onun şəxsi arxivində səliqə ilə saxladığı yazı və şerləri dərc olunan mətbu orqanlarından hərəsindən bir nüsxə vardır...

İstehsalatda, ictimai işlərdə fəallığının nəzərə alaraq Zaməddin Həmişəyevi 1991-ci ilin yanvarında Azərbaycan neft və qaz sənayesi işçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinə işləməyə dəvət etdilər. Əvvəlcə hüquq şöbəsində, daha sonra isə "Sosial inkişaf" şöbəsində çalışdı. 1992-ci ilin oktyabrın 21-də Həmkarlar İttifaqı Respublika Komitəsinin plenumunda 45 yaşlı Zaməddin Həmişəyevi RK-nın sədri seçdilər. O illər ölkəmizin çox gərgin vəziyyətdə olduğu müharibə illəri idi. Neftçilərimizin sosial-iqtisadi mənafelərini, hüquqlarını qorumaqla yanaşı, müharibə gedən - Qazaxdan Cəbrayıl bölgəsinədək, səngər-səngər neftçilərin həmkarlar nümayəndəsi milli ordumuzun əsgərlərinə kömək etmiş, müharibə bölgələrindən didərgin düşmüş eloğlu-elqızlarına ilk maddi və mənəvi yardımları məhz Zaməddin Həmişəyevin rəhbərlik etdiyi komitə göstərmişdir. Bunu, respublika mətbuatında dərc olunan və artıq tarixə çevrilən yazılar da təsdiq edir.

Azərbaycan neftçilərinin həmkarlar ittifaqı ilk dəfə Türkiyə Respublikasının, Rusiya, Ukrayna, Gürcüstan, Belarus respublikalarının eyni adlı sahə həmkarları ilə birbaşa müqavilə bağlayaraq, həmkarlar hərəkatının beynəlxalq təcrübəsindən istifadə etmiş, 1995-ci ildə isə - Beynəlxalq AİSEF təşkilatına üzv olmuş və bu təşkilatın Vaşinqton şəhərində keçirilən konqresində Azərbaycan neft və qaz sənayesi həmkarlar ittifaqı nümayəndə heyəti iştirak etmişdir. Türkiyənin "PETROL İŞ" sendikası (həmkarları) ilə ikitərəfli görüşlər təşkil etmişdir... və bu ənənə indi də davam etdirilir.

Möhtərəm prezidentimiz yenidən ölkəyə rəhbərliyə qayıtdıqdan sonra Z. Həmişəyevin şəxsi təşəbbüsü ilə cənab Heydər Əliyev neftçi həmkarlarının çağırışına rəğmən, "Suraxanıneft" yataqlarının sənaye üsulu ilə istismar olunmasının 90 illik yubileyində şəxsən iştirak etmişdir. "Mazut konstruksiyası" kimi dünyada tanınan ilk kollektiv müqavilənin 90 illik yubileyi dövlət və hökumət rəhbərlərinin iştirakı ilə yüksək səviyyədə keçirilmişdir. Müharibə illərində, yəni 1992-ci il oktyabrın 24-də ilk dəfə olaraq, "Neftçi" sağlamlıq mərkəzinin 1-ci spartakiadası keçirilmiş, sonrakı illər isə bu ənənə davam etdirilir. Respublika günü - 28 May ərəfəsində Dövlət Neft Şirkəti tabeliyində olan uşaq bağçalarının, mədəniyyət sarayları yaradıcılıq kollektivlərinin yekun tədbirlərinin keçirilməsi ənənəsinin də təməli həmin ildən qoyulmuşdur. Məşhur neftçilərin yubileylərinin keçirilməsini də Hİ RK-nın adına yazmaq lazımdır.

Odlar yurdumuzun qaynar həyatından bir an belə aralı düşməyən neftçi həmkar və şair Zaməddin Ziyadoğlu lap gənc yaşlarından həm də poeziya vurğunudur. Onun indiyədək dövri mətbuatda yüzlərcə şeri, həmçinin üç kitabı - "İlham bulağı", "Vurğuna vurğun gəlin" və "Tale yolum" işıq üzü görüb. İki dram əsərinin müəllifidir - "Vurğuna vurğun gəlin" və "Borçalı nisgili". Birinci mənzum dram dahi şairimiz Səməd Vurğuna həsr olunmuş və böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Zaməddin Ziyadoğlunun sayca dördüncü, daha sanballı kitabı da nəşrə hazırdır. O, "Vışka" qəzetinin nəzdində fəaliyyət göstərən - "Neftçi" Ədəbi Məclisi"nin yaradıcı-

sı və rəhbəridir. 40-a yaxın neftçi şairin "sandıq şerlərinin" işıq üzü görməsində savab iş görüb, onları ədəbi ictimaiyyətə tanıtdırıb...

Zaməddin Həmişəyev həmçinin ekoloqdur. Öz xahişi ilə Respublika Komitəsindən - birbaşa istehsalata - Ə. C. Əmirov adına NQÇİ-yə ekologiya üzrə rəis müavini vəzifəsinə gəlmişdir. "Qaradağneft" kimi məşhur olan mədən əraziləri uzun illər istismar olunduğundan bu ərazilərin flora və faunası kasaddır. Ərazi vulkanik çöküntülərdən əmələ gəldiyindən bitki örtüyünə az təsadüf edilir. Bu ərazilərdə ekoloqların əsas diqqəti çirkab tullantılarına yol verməmək, lay sularından səmərəli istifadə etmək və maliyyə imkanları daxilində bu ərazilərin yenidən münbit torpaqla üst qatını örtmək (rekultivasiya etmək). Zaməddin müəllimin bu təklifləri Norveç-Rusiya-Azərbaycan ekoloqları Mühəndislər Birliyinin təşkil etdiyi "Təmiz istehsal" üzrə beynəlxalq təşkilat tərəfindən bəyənilmiş, qrant alınması üçün təklif olunmuşdur və ona beynəlxalq sertifikat verilmişdir.

Zaməddin Ziyadoğlu - Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatıdır. 1999-cu ildə dəniz neftinin əlli illik yubileyi münasibətilə "Vışka" qəzetinin keçirdiyi müsabiqədə "Gümüş qələm"ə layiq görülmüşdür.

Zaməddin Həmişəyev əməkdə və ictimai işlərdə fərqləndiyinə görə dəfələrlə fəxri fərmanlarla, diplomlarla, ÜİHİŞ-nın laureatı qızıl medalı ilə, həmçinin "Əmək veteranı" medalı ilə təltif olunmuşdur.

Ailəlidir. Üç övlad atasıdır, hər üçü də ali təhsillidir. Həkim, iqtisadçı və müəllim. Zaməddin müəllim özü isə zəhmətkeş ziyalı ömrü yaşayır.

Məqaləyə son akkord olaraq, neftçi şair Zaməddin Ziyadoğlunun mərhum neftçi dostu Qurban Abbasovun xatirəsinə həsr etdiyi şerini əlavə edirik.

## NİYƏ, BELƏ GƏLDİ... ZAMAN?

*Məşhur neftçi Qurbanın məzarı önündə*

Gözə dəymir qohum-qardaş,
Dostlarından, bilən yoxdur?
Yada salmır bircə sirdaş.
Ziyarətə gələn... yoxdur?
Bu nə dövran, Neftçi Qurban,
Niyə, belə gəldi... zaman?

Toz basıbdır məzarını,
Kədərini bölən yoxdur?
Çox sevərdin Xəzərini,
Göz yaşını silən yoxdur?



Məşhur adın-sanın vardı,
Çox şöhrətin-şanın vardı.

Gülərüzlü qəhrəmandın,
Şirindilli bir oğlandın.
Gözəl çağın - anın vardı,
Daha demə, köks qubardı...

Zabitəli müdir idin,
İclaslarda sədr idin.
Qəbullardan kəsilməzdi,
"Dostlarının" ayaq izi.
Dillərindən əksilməzdi,
Toy-düyündə tərif sözü.
Kimlərəsə... dayı idin,
Sən ruzusu-payı idin...

Millətimin vəkiliydin,
Sözü ağır çəkiliydin...
Qınama sən, məni qardaş,
Qoy eşitsin qohum-qardaş.
Qoy eşitsin unutqanlar.
Qoy eşitsin qəlp insanlar.
Neftçi Qurban, dönüb dövran,
Niyə, belə gəldi... zaman?
Niyə, belə gəldi... zaman?!

*Fəxri Xiyaban. 21.03.2001.*





# SADƏ VƏ TƏVAZÖKAR ƏMƏK QƏHRƏMANI

*"Ağac bar verdikcə başını əyər,*
*İnsan sadəliklə göyə yüksələr".*
*Nizami*

Akif Əmənov 1942-ci il aprel ayının 12-də qulluqçu ailəsində anadan olmuşdur. Uşaqlıq və cavanlıq illəri dünyaya göz açdığı, el arasında "Azərbaycanın Ukraynası" adlandırılan, barlı-bərəkətli taxıl zəmiləri ilə məşhur bir diyarın mərkəzində - Cəlilabad şəhərində keçmişdir. Şəhər 2 saylı orta məktəbinin 8-ci sinfini tərifnamə ilə bitirərək, ömrünü zəhmətə bağlamışdır. Rayon şəraitində böyük ailəni dolandırmaq (Akifgil ailədə 4 qardaş, 7 bacı olmuşlar) sizlərə asan gəlməsin!

Hələ 4 yaşında ikən gözünün ağı-qarası, dünyalar qədər sevdiyi anasını itirən Akif, təbiətcə mübariz və nikbin böyümüşdür. Atasının və yaxın qohumlarının xeyir-duası ilə sənədlərini Oktyabr İnqilabı adına Bakı Neft Texnikumunun "Neft və qaz quyularının qazılması" fakültəsinə vermiş, 1962-ci ildə isə qazmaçı-texnik ixtisası üzrə texnikumu müvəffəqiyyətlə bitirmişdir.

Akif Əmənovun gənc mütəxəssis kimi təyinatını Əli Bayramlı şəhərində yerləşən 3 saylı Qazma Kontoruna verdilər. İlk dəfə idi ki, arzusu həyatı reallıqla üst-üstə düşmüşdü. Buralar doğma yerlərə yaxın idi. O vaxtlar SSRİ dövründə təyinatı lap Volqaboyuna, Manqışlağa, Tümenə, Sibirin sərt iqlimində yerləşən kəşfiyyat-qazma kontorlarına da verilə bilərdi.

Gənc qazmaçı təyinat yerinə böyük arzularla yola düşdü. İnsafən, qazma kontorunun rəhbərliyi onu xoş ovqatla qarşıladı. İlk təəssürat da çox vaxt həyatda böyük rol oynayır və insan taleyinin uğur qazanmasına yol açır. Akif, öz taleyi ilə bunu bir daha əyani sübut etdi. Kontor rəhbərliyinin tövsiyəsi və xeyir-duası ilə Qarabağlı sahəsində ilk əmək fəaliyyətinə qazmaçı köməkçisi kimi başladı. Akif Əmənov o günü yaddaşına həmişəlik həkk etdi - 1 avqust 1962-ci il! Tapşırılan işə can yandırması, tapşırığı dəqiq və vaxtında yerinə yetirməsi, özünə qarşı tələbkar olması, boş vaxtlarında dövri mətbuatı, həmçinin qazmada olan yeni təcrübələr toplularını,



dərgiləri oxuyub, mütaliə etməsi rəhbərliyin gözündən yayınmadı. Tez bir vaxt ərzində onu qazma ustası vəzifəsinə təyin etdilər. Bu məsuliyyətli işin öhdəsindən məharətlə gələn gənci kontorun digər qazma briqadalarına nümunə göstərirdilər.

Odlu-alovlu Şirvan düzünün Qarabağlı sahəsi, o vaxtlar neft və qaz ehtiyatı ilə ən perspektivli yataqlardan idi. Artıq püxtələşmiş gənc qazmaçıya 1963-cü ildən buruq ustası kimi daha məsul vəzifə tapşırıldı. - Bu təyinat, ömrümün uğurlarına təməl oldu - deyəcək sonralar Akif Əmənov. - Ümumiyyətlə isə, buruq ustası işlədiyi müddətdə, Şirvan düzünün dərin qatlarında əsrlərlə uyuyan "qara qızıl" və "mavi yanacaq" yataqlarına geniş hücum başlanmışdı. Onun briqadasına isə Müşovdağda, Qırovdağda, Kəlaməddində, Kürsəngidə və Qarabağlı sahələrində onlarca quyu qazmaq qisməti nəsib oldu. Həmişə də dərin quyuların qazılmasını Akif Əmənovun başçılıq etdiyi briqadaya tapşırardılar. Bu sahələrdə isə orta dərinlik - 3500-3600 metr idi. Üstəlik də, SSRİ dövründə quru yataqlarında yeni texnika və texnologiyanın qazmada tətbiq olunması da onların briqadasına tapşırılardı. Akif müəllim söhbətində bir məqamı xatırladı və dedi: - Yadımdadır, Qarabağlı sahəsində 75 saylı, layihə dərinliyi 6 min metr olan kəşfiyyat quyusunun qazılmasını da bizə etibar etdilər. Həddindən artıq məsuliyyətli iş idi. Fikirləşib götür-qoy etməyə macal da verilmədi... Bu quyunun qazılmasında əsas məqsəd təcrübə üçün, iki dizel və iki elektrik qazma avadanlıqlarını və priventer kommunikasiyasını sınaqdan keçirmək idi. Məhz ilk dəfə bu avadanlıqların həyata vəsiqə alması bizim qazma briqadasının adı ilə bağlıdır. Eyni zamanda, dünyada ilk dəfə lay təzyiqinə bərabər bufer təzyiqi yaratmaqla, quyunu da bizim briqada qazmışdır. Elə həmin dövrlərdə yenə də SSRİ-də ilk dəfə gilli-gipsli məhlulla da neft quyusunun qazılmasını bizim briqadaya həvalə etmişdilər. Bir sıra qazma texnologiyasını həmin quyuda sınaqdan çıxarmışdıq, həyata vəsiqəsini də biz vermişdik. Azərbaycanda qazma avadanlıqları və texnologiyasını sınaqdan çıxaran baza - bizim qazma briqadası idi və bütün bunlar haqda, o vaxtkı dövri mətbuat məlumatlar dərc etmişdir.

Akif Əmənov 38 yaşında "Sosialist Əməyi Qəhrəmanı" qızıl medalına və "Lenin ordeni"nə layiq görüldü. Ancaq, bu yüksək dövlət mükafatı ilə təltif olunana qədər buruq ustası Akif Əmənov, Azərbaycan Ali Sovetinin Fəxri Fərmanı, Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin diplomu, "SSRİ-nin fəxri neftçisi", "Neft sənayesinin əlaçısı" və s. respublika əhəmiyyətli fəxri fərmanlarla təltif olunmuşdur.

Akif Əmənov deyir:

- Ağac bar gətirdikcə başını aşağı dikər. Bəlkə də bu ad-sanı əziyyət çəkmədən, "dayı"nın hesabına alsaydım, peşiman olardım. Ancaq, lap kiçik yaşlarımdan zəhmətin nə olduğunu yaddaşıma köçürmüşəm, başqa yolla gedə bilməzdim. Bir də ki, mənim özümə örnək, nümunə seçdiyim məşhur Azərbaycan neftçilərinin həyat yolu var idi - Ağa Nemətulla, Gülbala Əliyev, Neftçi Qurban, Ağadadaş Kərbəlayı oğlu... (allah hamısına rəhmət eləsin) Bilmirəm niyə, o vaxtlar neftçi olmaq həvəsi gənclərimizdə, kosmonavt olmaq həvəsindən güclü idi. Məndə lap uşaqlıqdan neftçi olmaq həvəsi yarandı. Neftçi sözü böyük məfhumdur. Qazmaçı olmasa, təbii ki, nef və

qaz sərvətini üzə çıxarmaq qeyri-mümkündür. İnşaatçılar, vışkaquraşdıranlar da olmasa, qazmaçılar quyu qaza bılməzdı. Ona görə də ömrümün 34 ilini sevimli neftçi peşəmə vermişəm və peşman deyiləm! İki dəfə "Lenin ordeni", "Qırmızı Əmək Bayrağı" ordeni, "Şöhrət ordeni" və s. medallarla təltif olunmağım sadə neftçi əməyinə verilən qiymətdir. Möhtərəm prezidentimiz Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində işləyən zaman gənclərin irəli çəkilməsinə xüsusi qayğı ilə yanaşırdı, neftçi gənclərə isə xüsusi olaraq. Dəfələrlə sovet parlament qrupunun, müxtəlif nümayəndə heyətlərinin tərkibində xarici ölkələrdə və SSRİ-nin bir çox şəhərlərində ezamiyyətlərdə olmuşam, həmçinin SSRİ Sülhu Müdafiə Komitəsinin üzvü kimi də bir çox xeyirxah işlərə cəlb olunmuş və dəyərli təkliflər vermişəm. Bu ixtiyar sıravi neftçiyə, adi əmək adamına verilmiş hüquqlar idi.





# QABAQCILLAR SIRASINDA



*"İnsan eşitdikləri və dedikləri ilə deyil, əmək və fəaliyyəti ilə kamilləşir"*
*A. Eynşteyn*

Əmək o vaxt gözəl olur ki, dərrakə, bilik, təcrübə, iradə, xarakter əmək fəaliyyəti zamanı birləşir. İnsan özünü bütöv, harmonik şəxsiyyət kimi göstərir. İnsan mənəvi yüksəklik hiss edir, yaradıcılıq ehtirası, şən ruh onun qəlbini xoş ovqatla zənginləşdirir. İnsan qabiliyyətinin, bacarığının, işə yaradıcı münasibətin təzahürü olan əmək prosesinin özü və yaxud novatorluq böyük sevinc gətirir. Onu da qeyd etmək lazımdır ki, əməyə olan münasibət dəyişdikcə, adamların psixologiyası da dəyişir, onlarda bir-birinə etibar yaranır, əmək məhsuldarlığı yüksəlir.

Bu deyilənləri bir daha yada saldıqca adamın gözləri qarşısında işgüzar, əməksevər kadrlar canlanır. O kadrlar ki, söz qəhrəmanı deyil, iş qəhrəmanıdır. O kadrlar ki, dedikləri ilə deyil, əmək fəaliyyəti ilə tanınır, yüksəlir, hörmət qazanır. Belə kadrlardan biri də neftçi Məhəmmədəli Əliheydərovdur.

Abşeron Qazma İşləri İdarəsinin rəisi Əliheydərov Məhəmmədəli Əliağa oğlu 1951-ci ildə Kürdəmir rayonunda anadan olmuşdur. O, 1967-ci ildə orta məktəbi bitirdikdən sonra, Azərbaycan Neft və Kimya İnstitutuna qəbul olub, neft-mədən fakültəsini bitirib. 1972-ci ildə ali məktəbi bitirən gənc neftçi özünün istəyi ilə təyinatını "Carlı" Kəşfiyyat Qazma İdarəsinə alıb. O zaman burada dərin və çox dərin quyular qazılırdı. "Muradxanlı" kimi böyük neft yatağı aşkar edilmiş "Zərdab", "Şıxbağı"," Sovetlər" və başqa sahələrdə buruqlar qazılırdı. M. Ə. Əliheydərovun əmək fəaliyyəti məhz belə gərgin və məhsuldar dövrə təsadüf edirdi. O, əvvəlcə, qazmaçı köməkçisi, qazmaçı, sonralar mühəndis, rayon mühəndis-texniki xidmət sahəsinin rəisi, rəis müavini və idarənin rəisi vəzifəsinə qədər yüksəlmişdir.

O, 1983-1986-cı illərdə Hindistanda Neft Kontraktları ilə əlaqədar oraya ezam edilmiş, böyük mühəndis, qrup rəhbəri, kontrakt rəhbəri vəzifələrində çalışmışdır.

9– 108

1996-cı ildə ona böyük etimad göstərilərək "Carlı" Dərin Kəşfiyyat Qazma Ekspedisiyasının rəisi təyin olunmuşdur. Üç ildən artıq müddətdə bu vəzifədə işləyən M. Ə. Əliheydərov 1999-cu ilin sentyabrında Abşeron Qazma İşləri İdarəsinin rəisi vəzifəsinə keçirilmişdir.

M. Ə. Əliheydərov rəis təyin olunduğu ilk gündən, qısa müddət ərzində Abşeron Qazma İşləri İdarəsi qabaqcıllar sırasına çıxmışdır. Bunun nəticəsində də idarə dövlət planlarını yerinə yetirir.







# KƏŞFİYYAT QAZMA İŞLƏRİ UĞURLA DAVAM EDİR

*"Xidmət etmək sayılır kişilikdən nişana,*
*Xalqına xidmət etmək bir şərəfdir insana".*
*Nizami*

Hacıyev Namiq Məhəmməd oğlu 1945-ci ildə Şəmkır rayonunun Kolxozkənd kəndində anadan olmuşdur. O, 1963-cü ildə Şəmkır rayon onbirillik orta məktəbini bitirmişdir.

1963-cü ildə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun neft mədən fakültəsinin gündüz şöbəsinə daxil olub, 1968-ci ildə "Neft və qaz yataqlarının işlənməsinin texnologiyası və kompleks mexanikləşdirilməsi ixtisası üzrə tam kursu bitirmişdir. O, gündüz oxumaqla bərabər 1964-cü ildə istehsalatda - Buzovnaneft neft mədənləri idarəsində 2-ci dərəcəli operator kimi işləmişdir.

1968-ci ildə institutu bitirərək təyinat üzrə Əli Bayramlı şəhəri "Şirvanneftqazma" trestinin 1 saylı qazma kontorunda 5-ci dərəcəli qazmaçı kimi işə qəbul olunmuşdur. Sonralar o, həmin kontorda istehsalat texniki şöbədə böyük mühəndis, növbə rəisi və 1971-1978-ci illərdə rayon mühəndis texnoloji xidmətinin rəisi vəzifələrində işləmişdir.

Bu dövr ərzində Müşovdağ, Gürovdağ, Qarabağlı, Kələməddin və Muradxanlı sahələrində istismar və kəşfiyyat quyuları qazılmışdır. Hacıyev Natiq Məhəmməd oğlu tanınmış neftçilərdən: Cümşüd İbrahimov, Ələkbər Əsgərov, Nəriman Hüseynov, Qəhrəman Məmmədov, Sosialist Əməyi Qəhrəmanları Qaraş Əmirov və Yarmed Yaraliyevlə birlikdə işləmişdir. 1978-ci ildən "Azərneft" istehsalat birliyinin dəvəti ilə Qobustan kəşfiyyat qazma işləri idarəsinin baş mühəndisi vəzifəsində işləmiş, axtarış kəşfiyyat quyularının qazılmasına bilavasitə rəhbərlik etmişdir.

Keçmiş "Azərneftkəşfiyyat"ın varisi olan Qobustan qazma işləri idarəsi əsasən kəşfiyyat quyuları qazmaqla quruda bir çox yataqların neftli və qazlı olmasını aşkar etmişdir.

N. M. Hacıyev 1983-1986-cı illərdə qazma üzrə Baş mühəndis kimi Anqola Xalq Respublikasında xidməti ezamiyyətdə olmuş və dünyanın ən

9*

güclü neft şirkətləri (TEXCACO, AGIP, ELF) ilə işləyərək onların gördükləri işlərə nəzarət etmiş, xidməti ezamiyyətdən qayıdarkən səfirlik tərəfindən ona Fəxri Fərman verilmişdir. Xidməti ezamiyyətdən sonra o, yenə doğma kollektivə qayıdaraq 1986-1991-ci illərdə mərkəzi-mühəndis texnoloji xidmətinin rəisi, 1991-1996-cı illərdə həmin idarədə Baş mühəndis işləmişdir. 1996-cı ildən Qobustan kəşfiyyat qazma işləri idarəsinin rəisi vəzifəsində çalışır. Bir çox səmərələşdirici təklif və ixtiranın müəllifidir.

İdarənin kollektivi Binəqədi NQÇİ, Əmirov adına NQÇİ və Muradxanlı neft mədənləri idarəsinin sifarişi əsasında Binəqədi, Atəşgah, Lökbatan, Quşxana, Ağaməmmədli, Naftalan və Tərsdəllər sahələrində istismar və axtarış kəşfiyyat quyuları qazır. Son beş ildə mədənçilərə 51 quyu təhvil verilmişdir.

İdarədə 610 nəfər işçi çalışır. Respublikanın tanınmış neftçilərindən Seyid Rza, Əsəd Rüstəmbəyov, Cümşüd Quliyev, Qaraş Əmirov, Salman Nağıyev, Qəhrəman Məmmədov, Arif Şıxlinski, Yusif Mehdiyev və bir çoxları Qobustan Kəşfiyyat qazma işləri idarəsinin yetişdirmələri olmuşlar.





# O, İŞƏ ÜRƏKDƏN YANAŞIR



*"Həvəslə gördüyümüz iş çətinliyi azaldır"*

***V. Şekspir***

Turabov Əliabbas Heydər oğlu 1933-cü il oktyabrın 9-da Quba şəhərində fəhlə ailəsində anadan olmuşdur.

1954-cü ildə Quba şəhərində orta məktəbi bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutunun Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı ixtisası üzrə geoloji kəşfiyyat fakültəsinə daxil olaraq 1959-cu ildə həmin institutu bitirmişdir. İnstitutu bitirdikdən sonra Dəvəçi şəhərində Azərbaycan Neft Kəşfiyyat Trestinin 4 saylı qazma idarəsində laborant-kollektor, mühəndis geoloq və sahənin böyük geoloqu vəzifələrində işləmişdir.

1970-1981-ci illərdə Qobustan kəşfiyyat qazma işləri idarəsində sahənin böyük geoloqu, rayon mühəndis texnoloji xidmət rəisinin müavini, böyük geoloq, sonra isə idarənin geoloji şöbəsinin rəisi vəzifələrində işləmişdir.

Ə. H. Turabov 1982-ci ilin yanvarından 1985-ci ilin avqustuna kimi Siyəzən qazma işləri idarəsində baş geoloq, 1985-ci ilin sentyabrından 1987-ci ilin mart ayına kimi Ceyrançöl Kəşfiyyat qazma işləri idarəsində baş geoloq vəzifəsində işləmişdir.

Ə. H. Turabov 1987-ci ilin mart ayından bu günə kimi Quruda Neft və Qazçıxarma İstehsalat Birliyinin Qobustan kəşfiyyat qazma işləri idarəsində baş geoloq - müdir müavini vəzifələrində işləyir.

O, Beqimdağ-Tekçay, Cənubi-Kürsəngi Kəlamətdin, Zərdab və Tərsdəllər və s. neft yataqlarının açılışında bilavasitə iştirak etmişdir.

Bir neçə səmərələşdirici təklifin müəllifidir. 1978-ci ildə keçmiş Neft Sənayesi Nazirliyinin Fəxri Fərmanı ilə və 1983-cü ildə isə Azərneft İstehsalat Birliyinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası Ali Soveti Rəyasət heyətinin 1982-ci il 3 dekabr tarixli fərmanı ilə Ə. H. Turabova Azərbaycan Respublikasının "Əməkdar geoloq"u fəxri adı, 1984-cü ildə isə "Əmək veteranı" medalı verilmişdir. O, gördüyü işi həvəslə, canıdildən yerinə yetirir.



# O, TALEYİNDƏN RAZIDIR

*"Tərbiyə böyük işdir, insanın taleyini o həll edir"*

*V. Q. Belinski*

Kərimli Əli Qaraş oğlu 1934-cü il aprelin 10-da Sabirabad rayonunun Muğangəncəli kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1951-ci ildə orta məktəbi bitirib, həmin ildə də Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, 1956-cı ildə institutu müvəffəqiyyətlə qurtardıqdan sonra göndərişlə Siyəzən qazma idarəsində qazmaçı köməkçisi, qazmaçı və qazma ustası vəzifələrində çalışmışdır.

1957-ci ildə Əli Bayramlı şəhərində neft sənayesinin intensiv inkişafı ilə əlaqədar Əli Bayramlı qazma idarəsinə köçürülmüş və orada 1960-cı ilə kimi qazma ustası işləmişdir.

1960-cı ilin yanvar ayında 2 saylı qazma idarəsinin yaranması ilə əlaqədar həmin idarədə böyük mühəndis, az sonra həmin idarədə istehsalat-texniki şöbənin rəisi vəzifəsində çalışmışdır.

Ə. Q. Kərimli 1963-cü ildə "Şirvanneftqazma" trestinin yaranması ilə əlaqədar həmin trestin baş texnoloqu vəzifəsinə keçirilmiş, sonra isə 1 saylı qazma idarəsinin baş mühəndisi vəzifəsinə təyin edilmişdir.

1964-cü ildə Azərbaycan Elmlər Akademiyasının problemlər institutunun aspiranturasına qiyabi daxil olmuşdur. O, baş mühəndis vəzifəsindən "Şirvanneftqazma" trestinin istehsalat texniki şöbəsinin rəisi vəzifəsinə keçirilmiş və elmi işini tamamladıqdan sonra 3 saylı qazma idarəsinə direktor təyin edilmişdir.

Ə. Q. Kərimli 1970-ci il mayın 13-də "Çox dərin quyuların rotor üsulu ilə qazılması zamanı rejim və energetik parametrlərin tədqiqi" mövzusunda dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. Sonra Qarabağlı qazma işləri idarəsinə baş mühəndis vəzifəsinə təyin edilmişdir.

1974-cü ildə Kürsəngi qazma işləri idarəsinə baş mühəndis vəzifəsinə keçirilmiş, 1978-ci ildə səhhətilə əlaqədar Qobustan kəşfiyyat qazma işləri idarəsinə baş texnoloq təyin edilmiş, indi də həmin vəzifədə çalışır.



O, 149 səmərələşdirici təklif vermiş, 3 kəşfin patentini almışdır.

58 elmi məqalənin (bunlardan 4-ü hal-hazırda ANT-da nəşr olunmaq üzrədir) müəllifidir.

Ə. Q. Kərimli 1958-1959-cu illərdə qazma ustası işləyərkən 23 saylı kəşfiyyat quyusu ilə Şimali Gürovdağ kimi nəhəng neft yatağını açmış, Gürovdağ, Kəlaməddin, Tərsdəllər, Qarabağlı, Kürsəngi kimi neft yataqlarının açılmasında şəxsən iştirak etmişdir. Əli müəllim işgüzar neftçi, qeyğıkeş ailə başçısıdır. Övladlarının hamısı ali təhsil almışdır. Nəvələri ona hər gün bir dünya sevinc bəxş edir. Əli müəllim taleyindən razıdır.





# KƏŞFİYYAT QAZMA İŞLƏRİ DAVAM EDİR

*"Hər bir çətinlik qüvvəni artırır"*
*B. Verxarn*

Ağalar Əli oğlu Abbasov 1936-cı ildə Qubadlı rayonunda anadan olubdur. 1953-cü ildə indiki Azərbaycan Dövlət Neft Akademiyasına daxil olmuş və 1958-ci ildə oranı qurtarıb "Dağ mühəndisi" ixtisası almışdır. İnstitutu bitirdikdən sonra 1958-1967-ci illərdə "Əzizbəyovneft" neft mədənlər idarəsində qazmaçı, buruq ustası, sahə rəisi kimi vəzifələrdə çalışıb. Sonra isə texnoloji texniki şöbənin rəisi (1967-1971), qazma işləri idarəsində mərkəzi rayon texnoloji xidmətinin rəisi (1971-1975-ci il), "Bulla" dəniz kəşfiyyat qazma idarəsinin rəisi (1975-1985), "Kürsahil" qazma işləri idarəsinin rəisi (1985-1987-ci il), Qobustan kəşfiyyat idarəsinin baş mühəndisi (1987-1991), Abşeron Qazma işləri idarəsinin baş mühəndisi (1991-1994), Sahil dəniz kəşfiyat qazma işləri idarəsinin rəisi (1994-1995) vəzifələrində işləmişdır. 1995-ci ildən Qobustan kəşfiyyat qazma işləri idarəsinin texniki istehsalat şöbəsinin rəis müavini vəzifəsində çalışır.

Onun rəhbərliyi altında idarənin planı vaxtından əvvəl yerinə yetirilmiş qəzaların qarşısı vaxtında alınmışdır. Zirədə işləyən dövrdə (1958-1967) quyunun dərinliyinə görə ən dərin quyulardan olan 3 quyu Avropada ən dərin quyular kimi qiymətləndirilmişdir. Sanqaçal qazma idarəsinin 60% qazma işlərini onun rəhbərliyi altında olan RİTX görmüşdür.

Duvannı-dəniz, Sanqaçal-dəniz və Bulla-dəniz sahələrində estakadada maili quyuların qazılmasına görə onun rəhbərliyi altında olan sahə birinci sayılırdı.

Bulla-dəniz kəşfiyyat idarəsinə rəis vəzifəsinə təyin olunan zaman 14 buruqdan 5-də qazma işləri aparıldı, qalan quyular isə mürəkkəbləşmə və qəza vəziyyətində idi. Az bir vaxtda qəzalar və mürəkkəbləşmələr ləğv edilib qazma işləri bərpa olunmuşdur. Hər rüb idarə SSRİ Neft Sənayesinin keçici bayrağı ilə təltif olunurdu, Bulla-ada, Hamam-dağ, Duvannı, Sanqaçal, 8 Mart, Persianin, İqnati-daşı, Qarasu, Ələt-dəniz sahəsində qazma işləri aparılmış, ilk dəfə Bulla dənizdə 8 Horizont lay dəstəsi açılmışdır, Bulla-dəniz, Bulla-adası kimi qaz-kondensat yataqları aşkar edilmişdir. Quruda işləyən zaman demək olar ki, Azərbaycanın bir çox sahələrində qazma işləri aparılmışdır.

O, bir çox fəxri fərmanlar, SSRİ Neft Sənayesinin "Əlaçı neftçi" adı almış, SSRİ XTHS-nin sərgisinin bürünc medalı ilə təltif olunmuşdur. 4 dəfə rayon və qəsəbə sovetinə deputat seçilmişdir.

A. Ə. Abbasov həyatda çox çətinliklərlə qarşılaşıb, ancaq ruhdan düşməyib, çətinliyə düşdükcə bərkiyib, gücünü artırıb. O, indi də belə işləyir, fəaliyyət göstərir.





# BİLİYƏ CAN ATAN İNSAN

*"Hər gecə biliyə qapı açmadan*
*Başımı yastığa qoymadım bir an".*
*Nizami*

Cahangir Səməd oğlu Axundov 1936-cı il may ayının 1-də Ağcabədi rayonunun Mehrablı kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1953-cü ildə Ağcabədi rayonunda orta məktəbi qurtardıqdan sonra, Azərbaycan Sənaye İnstitutunun Neft-mədən fakültəsinə daxil olmuş, 1958-ci ildə Neft və qaz quyularının qazılması ixtisasına yiyələnmişdir.

Sonra o, "Qaradağneft" neft mədənləri Qazma İdarəsində qazmaçı, qazmacı köməkçisi, boru və turbin qazıyıcısı sexində rəis müavini işlədikdən sonra, 1960-cı ildə onu buruq ustası vəzifəsinə təyin etmişlər.

C. S. Axundov 1962-ci ildən 1971-ci ilə kimi Bakı axşam neft texnikumunda "Qazma texnikası və texnologiyası", "Materiallar müqaviməti" və "Nəzəri mexanika" fənlərindən dərs demişdir. O, buruq ustası işlədiyi dövrdə, 1965-ci ildə istehsalatdan ayrılmamaq şərti ilə aspiranturaya daxil olmuş, 1971-ci ildə Azərbaycan Elmlər Akademiyasının Dərin Neft Yataqlarının Problemləri İnstitutunda "Dərin neft və qaz quyularının qazılmasında bəzi məsələlər" mövzusunda dissertasiya müdafiə edərək texnika elmləri namizədi adı almışdır. C. S. Axundov 1969-cu ildən 1973-cü ilə kimi Bakı Şəhər Sovetinin deputatı və onun tərkibində olan Sənaye komissiyasının sədri olmuşdur.

O, 1972-ci ildə məşhur neftçi Qurban Abasovun təklifi ilə Sahil dəniz kəşfiyyat qazma idarəsinin baş mühəndisi təyin edilmişdir. 1975-ci ildən 1980-ci ilə kimi həmin idarənin rəisi işləmiş, "Xərə-Zirə dəniz", "Bulla dəniz", "Ələt dəniz" və "Sanqaçal dəniz" yataqlarında dərin kəşfiyyat quyularının qazılması ilə məşğul olmuşdur.

On ildən çox müddətdə "Xərə-Zirə" dəniz yatağında aparılan kəşfiyyat qazma işləri bir çox mürəkkəbləşmələr nəticəsində başa çatdırılmamış və bunun nəticəsində yatağın neftliliyi haqqında heç bir məlumat alınmamışdır. Sonralar aparılan işlər nəticəsində, Azərbaycan Neft Kimya İnstitutunun qazma kafedrasının, Azərbaycan Elmlər Akademiyasının kimya və fizika institutlarının, Dəniz Layihə Elmi Tədqiqat İnstitutunun və idarəsinin bir çox mütəxəssislərinin birgə səyləri nəticəsində rast gəlinən mürəkkəbləşmələr onları törədən səbəblər müəyyənləşdirilmiş, quyuların qazılmasında yüksək kalsili buruq məhlulunun tədbiqinə başlanmış, quyuların konstruksiyalarında bir çox texnoloji dəyişikliklər aparılmışdır. Nəticədə 1973-cü ildə dərinliyi 5217 metr olan 18 saylı "Xərə-Zirə" buruğu ilk dəfə olaraq məhsuldar qatın VII horizontundan 500 ton/sutka kondensatla və 1,5 milyon $m^3$/sutka qaz hasilatı ilə işləməyə başlamış, bu da "Xərə-Zirə" neft yatağının açılması demək idi. Bununla da uzun müddət çəkilmiş zəhmət öz bəhrəsini vermiş və bundan az sonra "Bulla dəniz"də qazılan çox dərin kəşfiyyat quyusu güclü neft fontanı vurmuşdu. Bundan sonra bu yataqlarda neft quyularının qazılması geniş miqyas almışdır.

1981-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun qazma kafedrasına dosent seçilən C. S. Axundov 1982-ci ilə kimi orada dosent işləmiş, bu müddətdə mühəndis kadrları hazırlamaqla bərabər, elmi işlərlə məşğul olmuş və 64 səhifəlik dərs vəsaiti hazırlayıb nəşr etdirmişdir.

İnstitutda işlədiyi dövrdə Qazaxıstan Respublikasının "Manqışlaqneft" istehsalat birliyinin xahişi ilə oraya bir qrup mütəxəssis C. S. Axundovun rəhbərliyi altında getmişdir.

O, 1982-ci ilin may ayında geridə qalmış Neftçala qazma işləri idarəsinə rəis vəzifəsinə göndərilmişdir. Orada aparılan tədbirlər nəticəsində idarə respublikada qabaqcıllar sırasına çıxmış, "Neftçala" və "Xıllı" sahəsində qazılan quyular böyük sürətlə qazılaraq istismarçılara təhvil verilmişdir.

C. S. Axundov 1985-ci ildə Abşeron qazma işləri idarəsinə baş mühəndis vəzifəsinə göndərilmiş, bu dövrdə "Qaraçuxur", "Suraxanı", "Bibiheybət", "Sabunçu", "Ramana" və "Balaxanı" sahələrində qazma işləri aparılmışdır.

C. S. Axundov 1986-cı ildən indiyə qədər indiki Qobustan kəşfiyyat qazma işləri idarəsinin istehsalat texniki şöbəsinin rəisi işləyir.

Burada "Puta", "Quşxana", "Lökbatan", "Atəşgah", "Binəqədi", "Ağaməmmədli", "Tərsdəllər", "Bozyeri", "Gürzündağ" və "Naftalan" sahələrində kəşfiyyat və istismar quyularının qazılması işi aparılır.

Şübhəsiz ki, C. S. Axundovun respublikanın neft sənayesinin görkəmli şəxsiyyətləri olan Bəxtiyar Məmmədov, Ələkbər Süleymanov, Bəhmən Hacıyev, Qurban Abasov, Şərif Əhmədov və görkəmli elm xadimləri akademik Səftər Quliyev, akademik Paşa Quluzadə və akademiyanın müxbir üzvü Seyid-Rza ilə birgə işləməyi onun üçün çox əhəmiyyətli olmuşdur.

O, V. İ. Leninin yüzilliyi ilə əlaqədar "Nümunəvi əməyə görə" medalı ilə, SSRİ Neft Sənayesi Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmiş və Azərbaycan Respublikası Ali Sovetinin fərmanı ilə adı respublikanın fəxri kitabına yazılmışdır. O, 14 elmi məqalənin, bir dərs vəsaitinin və 2 elmi kəşfin, çoxlu səmərələşdirici təklifin müəllifidir.





# O, HARADA İŞLƏYİBSƏ, ORADA UĞUR QAZANIB

*"İnsana arxadır onun kamalı,*
*Ağıldır hər kəsin dövləti, malı".*
***Nizami***

Cəfərov Cəfər Bədrəddin oğlu 1934-cü ildə Ucar rayonunun Ramal kəndində anadan olmuşdur. 1952-ci ildə Ağdaş şəhər I saylı orta məktəbini bitirmiş və həmin il Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) neft mədən fakültəsinə daxil olmuşdur. 1957-ci ildə həmin institutu bitirərək "Dağ mühəndisi", neft və qaz quyularının qazılması ixtisasına yiyələnmişdir. Onun institutda diplom işi üzrə elmi rəhbəri Azad Xəlil oğlu Mirzəcanzadə, istehsalat işləri üzrə isə məşhur qazma mühəndisi rəhmətlik Kazımov Yaqub Rza oğlu olmuşdur. Cəfər Cəfərov 1957-ci ildə "Azərdənizneftkəşfiyyat" trestinın 2 saylı tikinti-quraşdırma idarəsinə (sonradan bu idarənin əsasında "Xəzərdənizqazmainşaat" - tresti yaradılmışdır) işləməyə göndərilmişdir. O, bu idarədə dəniz əsaslarının (platformaların) quraşdırılması və tikintisi işləri üzrə 4-cü, 5-ci və 6-cı dərəcəli çilingər, sonralar isə usta, iş icraçısı, sahə rəisi vəzifələrində işləmişdir. Bu müddət ərzində kollektiv qocaman Xəzərin qoynunda - "Neft Daşları"nda, Palçıq təpəsində, Gürov adası ətrafında, Qum adası ətrafında, Bahar yatağında, Səngəçalda, Duvannı və Bulla adaları ətrafında, Bulla dəniz, Ələt dəniz, Hamamdağda, Oblivnoy adası ətrafında, Yanan plitədə, Persiyani daşlarında, Darvin və Abşeron bankalarında, Zirə dənizdə, Yaşmada, Şurabadda, Qrıqorenko bankasında, Dağıstanın İzberbaş rayonunda, Türkmənistanın - Çələkən adası ətrafında, Jdanov, Livanov və Andreyevski bankalarında və s. - yüzlərcə əsaslar quraşdırıb və tikdirib qazmaçılara təhvil vermişdir.

Bahar yatağında (noyabr 1962-ci il 100 tonluq kranlı gəmi "50 LET KPSS"-lə), Səngəçal yatağında (13 mart 1963-cü il, "Stalinneft" kranlı gəmisiylə), Bulla adası yatağında, Bulla-dəniz yatağında, Gilov adası ətrafında ilk bünövrələr bilavasitə Cəfər Cəfərovun rəhbərliyilə quraşdırılıb və tikilib.

C. Cəfərov 1965-ci ildə Bulla adasında 3 saylı Qazma idarəsi təşkil edilərkən rəhbərlik tərəfindən həmin idarəyə, vışqaquraşdırma sexinə rəis göndərilmişdir. Orada sexi təşkil edərək üç il ona rəhbərlik etmişdir.

1968-1970-ci illər "Abşeronneftqazma" trestinin vışqaquraşdırma idarəsində baş mühəndis vəzifəsində işləmişdir.

C. Cəfərov Azərbaycanda Neft Sənayesi Nazirliyinin ləğvi və eləcə də "Abşeronneftqazma" trestinin yenidən qurulması ilə əlaqədar 1970/71-ci illər Dənizdə Geoloji Kəşfiyyat İdarəsində texniki rəhbər vəzifəsində işləmiş, burada bilavasitə onun rəhbərliyilə, heç bir tikinti-quraşdırma idarəsinin köməyi olmadan Savenko bankası yatağında 14 saylı, Sumqayıt-Yaşma yaxınlığında Kürkaçıdağ yatağında 2 saylı platformanı quraşdırıb tikmişdir.

C. Cəfərov 1972-1974 və 1979-1980-ci illər buruq avadanlıqlarının quraşdırılması üzrə Suriya Ərəb Respublikasına ezam olunmuşdur. Bilavasitə onun rəhbərliyi altında, layihə və cizgilərin əsasında, Suriya Ərəb Respublikası neft təsərrüfatı tarixində ilk dəfə 53 metrlik vışka sökülmədən, ayaq üstə, bir yataqdan başqa bir yatağa köçürülmüşdür.

O, 1974-cü ildən 1981-ci ilə kimi "Xəzərdənizqazmaınşaat" trestinin texniki şöbəsində böyük mühəndis vəzifəsində işləyərək, yenə də dənizdə platformaların tikilib-quraşdırılması işlərinə yaxından kömək etmişdir.

C. Cəfərov 1981-ci ildən 1986-cı ilə kimi keçmiş Yanacaq Komitəsinin, indiki "Azərnefttəchizat" Birliyinin Bakı Neft Bazasının baş mühəndisi, sonralar isə Komitənin keyfiyyət və kəmiyyət şöbəsinin rəisi, hal-hazırda isə "Azərnefttəchizat" Birliyinin texniki-istehsalat şöbəsində neft bazalarının istismarı üzrə mühəndis vəzifəsində işləyir.

İş prosesində R. M. Seyidrza, B. M. Məmmədov, Y. R. Kazımov, N. X. Babayev, Ə. B. Süleymanov, Q. A. Abasov, Y. X. Kərimov kimi alim və neftçi mütəxəssislər C. Cəfərova kömək və yardımçı olmuşlar.

C. Cəfərovun həyat yoldaşı - Cəfərova Zeynəb Məhəmməd qızı ali təhsilli müəllimədir. Bakı şəhərinin 239 saylı məktəbində işləyir. Böyük oğlu - İlham iki institut qurtarıb (Texniki Universitet, Ərəb və Fars Dilləri Üzrə İnstitut), iki uşaq atasıdır.

Qızı - Sevinc texniki universiteti bitirib, Neft Şirkətinin Layihələndirmə İnstitutunda işləyir.

Kiçik oğlu - İlqar Kiyev Ali Mülki Təyyarəçilik İnstitutunu bitirmiş, hazırda Kiyevdə işləyir.

C. Cəfərov 1963-cü ildə "Əlaçı neftçi" medalı ilə, bir neçə tərifnamələrlə təltif olunmuşdur. 1973-cü ildə Suriya Ərəb Respublikası Neft Şirkətinin tərifnaməsini və qiymətli mükafatını almışdır.

Cəfər müəllim M. S. Ordubadinin sözlərini xatırlayır:

"İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağılın kəskin olması lazımdır".



# BACARIQLI İQTİSADÇI, MALİYYƏÇİ



*"Dünya zirəklərin karvan yoludur,*
*Düz və təmizlərin sadiq quludur".*
*Nizami*

Rəsul Qaraş oğlu Əmirov 1951-ci il fevralın 21-də Bakı şəhərində anadan olmuşdur. O, 1968-ci ildə orta məktəbi bitirdikdən sonra M. Əzizbəyov adına Neft və Kimya İnstitutunun "Neft və qaz sənayesinin iqtisadiyyatı və təşkili" ixtisası üzrə "Mühəndis iqtisad" fakültəsinə daxil olmuşdur.

1973-cü ildə institutu bitirdikdən sonra, "Azərneftkəşfiyyat" trestinin Qobustan Kəşfiyyat Qazma idarəsində mühəndis iqtisadçı vəzifəsinə təyin edilmişdir. Lakin o, əmək fəaliyyətinə, özünün xahişi ilə istehsalatla daha yaxından tanış olmaq məqsədilə həmin idarənin Mərkəzi mühəndis-texnoloji xidmətində növbə rəisi vəzifəsindən başlamış və 1983-cü ilədək həmin idarədə istehsalat texniki şöbənin mühəndisi, böyük mühəndis-iqtisadçı, maliyyəçi, baş mühasibin maliyyə üzrə müavini, plan iqtisad şöbəsinin və layihə smeta qrupunun böyük mühəndisi, layihə smeta qrupunun və plan iqtisad şöbəsinin rəisi vəzifələrində çalışmışdır.

1983-1992-ci illərdə "Xəzərdənizneftqaz" İB-nın "Bulla" Dəniz Kəşfiyyat Qazma İdarəsində baş iqtisadçı və idarə rəisinin iqtisadiyyat üzrə müavini vəzifələrində işləmişdir.

1992-1993-cü illərdə ARDNŞ-nin "Xəzərdəniz Neft Donanması" baş idarə rəisinin iqtisadiyyat üzrə müavini vəzifəsində işləmişdir.

1993-cü ildə R. Q. Əmirov ARDNŞ-nin İqtisadiyyat və maliyyə üzrə Baş idarəsində Maliyyə şöbəsinin rəis müavini vəzifəsinə irəli çəkilmiş və 1994-cü ilin mart ayınadək həmin vəzifədə çalışmışdır.

Respublika neft sənayesinin idarə edilməsinin səmərəliliyinin artırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 1994-cü il tarixli 50 saylı sərəncamı ilə ARDNŞ-nin yeni strukturu təsdiq edilmişdir. Bu sərəncamın yerinə yetirilməsi məqsədi ilə ARDNŞ-nin əmri ilə digər baş idarələr kimi Magistral Neft Kəmərləri Baş İdarəsi ləğv edilmiş və əvə-

zində Magistral Neft Kəmərləri İstehsalat Birliyi yaradılmışdır. Bu İstehsalat Birliyinin əsas vəzifəsi xam neftin qəbulu, saxlanması, nəqli və təhvili olmaqla bərabər, ARDNŞ-nin əmri ilə 1994-cü il fevral ayının 1-dən etibarən Quruda və Dənizdə NQÇ İB-dən xam neftin alışı və neft emalı İstehsalat Birliklərinə satışı Magistral Neft Kəmərləri İstehsalat Birliyinə həvalə edilmişdir.

Bununla əlaqədar, MNK İB-də baş direktorun iqtisadiyyat üzrə müavini vəzifəsi ştat vahidi yaradıldı və bu vəzifəyə 5 mart 1994-cü il tarixdən R. Q. Əmirov təyin edildi və hal-hazırda həmin vəzifədə çalışır. O, çalışdığı vəzifədə düzlük və təmizlik nümayiş etdirir.

Savadı və bacarığı sayəsində öz ixtisasını dərindən bilən bir mütəxəssis kimi R. Q. Əmirovun bütün işlədiyi müəssisələrdə iqtisadi məsələlərin, neftçilərin çoxsaylı problemlərinin həllində və iqtisadçı, maliyyəçi kimi mütəxəssislərin yetişdirilməsində əhəmiyyətli rolu olmuşdur.





# ELMİ AXTARIŞLAR YOLUNDA



*Həzrəti Məhəmməd əleyhissalam buyurmuşdur: "Elmin fəziləti ibadətin fəzilətindən əfzəldir".*

Əmirov Sabir Qaraş oğlu 1954-cü il mayın 19-da Bakı şəhərində anadan olmuşdur. O, 1971-ci ildə orta məktəbi bitirdikdən sonra M. Əzizbəyov adına Neft və Kimya İnstitutunun "Kimya-texnologiya" fakültəsinə daxil olmuşdur.

1976-cı ildə institutu bitirdikdən sonra "Kimya-sənaye" İstehsalat Birliyinin (Sumqayıt şəhəri) "Layihə-konstruktor bürosu"na mühəndis vəzifəsinə təyin edilmişdir. Elmə olan marağı onu Elmlər Akademiyasının "Bioloji tədqiqatlar mərkəzi"nə gətirmişdir. O, 1978-1980-ci illərdə bu mərkəzdə irsi xəstəliklərin insan qanında mühüm fermentlərin aktivliyi ilə əlaqəsinin öyrənilməsi üzrə yaradılmış laboratoriyada çalışmışdır.

1981-1983-cü illərdə indiki Azərbaycan Dövlət Neft Akademiyasının "Üzvi maddələrin texnologiyası və sənaye ekologiyası" kafedrasında aspiranturada əyani oxumuşdur.

S. Q. Əmirov 1984-1989-cu illərdə elmi işçi, baş elmi işçi vəzifələrində çalışmış, 1990-cı ildən Azərbaycan Dövlət Neft Akademiyasının "Üzvi maddələrin texnologiyası və sənaye ekologiyası" kafedrasında baş müəllim vəzifəsinə, bir müddət sonra isə dosent vəzifəsinə seçilmişdir.

S. Q. Əmirov 1987-ci ildə ekoloji nöqteyi-nəzərincə təhlükəsiz olan dünya elektrotexnika sənayesində əvəzsiz sayılan sintetik dielektrik mayesinin sintezinin səmərəli üsulunun tədqiqinin nəticələri əsasında dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Tədqiqatların nəticəsi kimi 1993-cü ildə Rusiya Federasiyasının "Altaykimyasənaye" İstehsalat Birliyində onun təklif etdiyi üsul əsasında ekoloji cəhətdən təhlükəsiz texnologiya əsasında dielektrik mayesinin istehsalının sənaye qurğusu işə salınmışdır.

S. Q. Əmirov İNTAS Beynəlxalq təşkilatının proqramı üzrə elmi-tədqiqat işlərinin yerinə yetirilməsində yaxından iştirak etmiş, beynəlxalq konfransların iştirakçısı olmuşdur. Onun elmi rəhbərliyi ilə üç magistrlik və iki namizədlik dissertasiyaları müdafiə olunmuşdur.

S. Q. Əmirov beş ixtira və 60-dan çox elmi məqalənin müəllifidir. Hazırda S. Q. Əmirov doktorluq dissertasiyası üzərində çalışır.



# HÜNƏRVƏR NEFTÇİ

*"İnsanın zinəti hünərdir, hünər,*
*Onsuz insan oğlu miskin görünər".*
*Ə. Əbivərdi*

Pənah Aslan oğlu Haqverdiyev 1938-ci ildə Gürcüstan Respublikası Bolnisi rayonunun Faxralı kəndində anadan olmuşdur.

O, Faxralı orta məktəbini 1958-ci ildə bitirərək Bakıya gəlmiş və həmin il Azərbaycan Politexnik İnstitutunun avtomobil nəqliyyatının istismarı şöbəsinə daxil olmuş və həmin institutu 1964-cü ildə bitirərək mühəndis-mexanik ixtisasına yiyələnmişdir.

İş fəaliyyətinə 1964-cü ildə "Başdənizneft" birliyi "İriləşdirilmiş neft mədənləri idarəsi"nin nəqliyyat-traktor sexində (Çilov adasında) mexanik vəzifəsindən başlamışdır. Sonra həmin sexin rəisi, 1970-1971-ci illərdə N. Nərimanov adına "NQÇİ"-nin nəqliyyat-traktor sexinin rəisi işləmişdir.

1971-ci ildən sonra "Azərbaycandənizneftttikinti" trestinin avtomobil nəqliyyatı idarəsində baş mühəndis və direktor vəzifələrində çalışmışdır.

1980-1999-cu illərdə "Xəzərdənizneftqaztikinti" trestinin inşaat mexanikləşdirmə idarəsində baş mühəndis vəzifəsində işləmiş, iş yeri fasiləsiz olaraq yalnız neft sahəsi olmuşdur.

P. A. Haqverdiyev Dəniz Stasionar platformalarının quruda quraşdırılmasında böyük əhəmiyyəti olan mürəkkəb texniki quruluşa malik, yüksək hidravlik təzyiq altında işləyən və yük götürmə qabiliyyəti 300 ton olan Almaniya Respublikasında istehsal olunmuş CC-2000 ("Demaq") markalı özü hərəkət edən 360° dönmə qabiliyyətinə malik kranların texniki cəhətdən mənimsənilməsi və istismarı üzrə keçmiş SSRİ-də ilk mütəxəssis olmuşdur.

Bakıya gətirilmiş dörd ədəd bu markalı kran 1980-ci ildə onun rəhbərliyi altında müvəffəqiyyətlə quraşdırılıb istismar olunmuşdur.

O, 1981-ci ildə isə SSRİ qaz sənayesi nazirliyinin göstərişi ilə Klaypeda şəhərinə göndərilmiş və SSRİ-yə gətirilmiş 5-ci kranı quraşdırıb işə buraxmışdır. Göstərilən tip kranların istismarı ilə əlaqədar olaraq 1982-ci ildə birincilər sırasında Vyetnam Sosialist Respublikasına ezam olunmuş və 1982-1986-cı illər dövründə orada çoxlu sayda bu cür kranların təmiri və istismarı üzrə sahə rəisi kimi fəaliyyət göstərmişdir.

O, işlədiyi müddət ərzində Vyetnam vətəndaşları sırasından xeyli sayda mütəxəssis hazırlamışdır.

Böyük çəkiyə və həcmə malik olan platformaların kranların köməyi ilə dənizin lap kənarına çəkilməsi və pantonlara yüklənməsi üzrə P. A. Haqverdiyevin və öz əməyi ilə seçilən neftçi - hazırda "Xəzərdənizneftqazsənaye" İB-nin baş mexaniki İ. Ramazanovla birgə verdikləri və istehsalata tətbiq etdikləri səmərələşdirici təklif bu günə qədər qüvvədədir.

P. A. Haqverdiyev hal-hazırda 1999-cu ildə təşkil olunmuş "AY Crane" Alyansında şöbə rəisi vəzifəsində çalışır.

"AY Crane" Alyansı - Azərbaycan Dövlət Neft Şirkəti, "Şelflayihə" İB, "Xəzərdənizneftqaztikinti" trestinin və "AY Crane LTV" şirkətinin yaratdığı alyansdır. Alyansın əsas iş fəaliyyəti "Şelflayihə" İB və "Xəzərdənizneftqaz" trestinin balansında olan CC-300, CC-600, CC-1000, CC-2000 və CC-4000 markalı kranlarını təmir və istismar etməkdir. Kranların xidmət yerləri MDB dövlətləri və başqa xarici dövlətlər olmaqla bərabər Bakıda neftlə əlaqədar işləyən müxtəlif xarici firmalardır.

P. A. Haqverdiyev işlədiyi müddət ərzində aşağıdakı mükafatlara layiq görülmüşdür:

- 1984-cü ildə adı Vyetnamın qızıl kitabına yazılmaqla bərabər "Dostluq" ordeni ilə;
- 1970-ci ildə "V. İ. Leninin 100 illiyi şərəfinə şərəfli əməyə görə" medalı ilə;
- 1989-cu ildə "Əmək veteranı" medalı ilə və s.



10*



# XEYİRLİ FƏALİYYƏT

*"Ağıl qızıl tacdır"*

*Atalar sözü*

Quliyev Rafiq İsrafil oğlu 1945-ci il sentyabrın 12-də Bakı şəhərində anadan olmuşdur. O, 1963-cü ildə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuş və 1967-ci ildə "Neft və qaz yataqlarının işlənməsinin texnologiyası və kompleks mexanikləşdirilməsi" ixtisası üzrə neft-mədən fakültəsini bitirmişdir.

R. İ. Quliyevin həyat fəaliyyəti neft sənayesi ilə bağlıdır.

O, 1965-ci ildən 1969-cu ilə qədər istehsalatda, "Leninneft" neft-mədənləri idarəsinin operatoru, Azərbaycan dəniz neft kəşfiyyatı trestinin qazma kontorunun laborant-kollektoru, qazmaçı köməkçisi, sahənin böyük mühəndisi vəzifələrində işləmişdir.

1969-cu ildən indiyədək R. İ. Quliyev elmi, pedaqoji, elmi-metodik və təşkilatçılıq işlərində olmuşdur: 1969-cu ildən 1983-cü ilə qədər respublika neft sənayesinin Azərbaycan elmi-tədqiqat layihə institutunda - böyük mühəndis, kiçik elmi işçi, baş elmi işçi, hidromexanika bölməsinin müdiri işləmişdir.

Azərbaycan Neft və Kimya İnstitutunda (indiki Azərbaycan Dövlət Neft Akademiyası) 1983-1988-ci illərdə sənaye müəssisələrinin təşkilatçıları fakültəsinin iqtisadiyyat, təşkilat və idarəetmə kafedrasının müdiri; 1988-ci ildən hazırkı vaxta qədər isə Azərbaycan Dövlət Neft Akademiyasında "Neft və qaz quyularının qazılması" kafedrasının müdiri vəzifəsində işləyir.

R. İ. Quliyev 1971-ci ildə "Başlanğıc təzyiq qradiyentinin təzahürü şəraitində quyular qazılmasının hidravlik xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası, 1982-ci ildə isə "Mürəkkəb şəraitdə qazılan quyuların hidravlik proqramının işlənməsinin nəzəriyyəsi və təcrübəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1985-ci ildə professor adını almışdır.

R. İ. Quliyev 200-dan çox elmi işin müəllifidir. Onların içərisində 3 kitab, 120 elmi məqalə, 40 fond elmi işləri, 20 tədris-metodik işləri, 10 müəlliflik şəhadətnaməsi vardır.



Onun rəhbərliyi altında 10 namizədlik dissertasiyası müdafiə edilmiş, hazırda isə 5 aspirantın elmi rəhbəridir.

Aşağıda qeyd edilənləri professor R. İ. Quliyevin fundamental xarakterə malik ən əhəmiyyətli işləri hesab etmək olar:

Quyu-lay sistemində kütlə dəyişkənliyi hesabına quyuda təzyiqlər fərqinin azaldılması üsullarının işlənməsi;

Quyuda qazma məhlulunun hidrodinamik xarakteristikasının idarə edilməsi və ona operativ nəzarət üsullarının işlənməsi;

Təşkilatı idarəetmə nəzəriyyəsindən istifadə etmək əsasında quyu qazılmasının hidravlik proqramının optimallaşdırılması;

Dərin maili quyuların qazılması zamanı əyriliyin idarə edilməsi prosesinin optimallaşdırılması.

R. İ. Quliyevin elmi tədqiqatlarının nəticələri 1973-cü ildə Moskvada "Nedra" nəşriyyatında çapdan çıxmış "Quyuların qazılması üzrə mühəndisin məlumat kitabı"na daxil edilmiş, Azərbaycan Respublikasında tədris-metodiki və rəhbər sənədlər şəklində nəşr edilmişdir.

Prof. R. İ. Quliyevin elmi işlərinin və ixtiralarının tətbiq edilməsi xeyli iqtisadi səmərə vermişdir.

1971-ci ildən başlayaraq professor R. İ. Quliyev neft və qaz yataqlarının işlənməsi məsələlərinə həsr edilmiş çoxlu sayda konfransların, seminarların, iclasların iştirakçısı olmuşdur.

Professor BMT-nin eksperti kimi Çin Xalq Respublikasının (1988-ci il) və Albaniyanın (1990, 1993 və 1994-cü illər) neft sənayelərinin inkişafında bilavasitə iştirak etmişdir.

O, Neft Akademiyasının ictimai həyatında fəal iştirak edir, doktorluq dissertasiyasının müdafiəsi üzrə ixtisaslaşdırılmış şuranın və akademiyanın Elmi Şurasının üzvüdür.

Azərbaycan Respublikası Elmlər Akademiyasının "Yer haqqında elm" bölməsi nəzdində "Neftqazçıxarma" problemi üzrə elmi şuranın "Neft və qaz quyularının qazılması" seksiyasının sədridir.

Professor R. İ. Quliyev "Azərbaycan MEA-nın Xəbərləri" jurnalının (yer elmləri) və "Azərbaycan Neft təsərrüfatı elmi texniki və istehsalat jurnalının redaksiya heyətinin üzvüdür. 1997-ci ildə Amerikanın mühəndis neftçilər cəmiyyətinə üzv seçilmişdir.

Professor R. İ. Quliyev 1981-ci ildə X beşilliyin müvəffəqiyyətlə yerinə yetirilməsindəki nailiyyətlərinə görə "Əmək igidliyinə görə" medalı ilə təltif edilmişdir.

O, 2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

2001-ci ildə Azərbaycan Respublikasının Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.



# TANINMIŞ ELM XADİMİ

*"Öz əsərlərində yaşayanlar ölmürlər"*

*C. Bovin*

Texnika elməri doktoru, professor, Azərbaycan Dövlət Neft Akademiyası "Maşınqayırma texnologiyası" kafedrasının müdiri Sabir Həbib oğlu Babayev 1929-cu il oktyabrın 8-də Bakı şəhərində anadan olmuşdur. O, 1952-ci ildə Moskva Avtomexanika İnstitutunu bitirmişdir. İş fəaliyyətinə Minsk traktor zavodunda başlamış və burada 1955-ci ilədək işləmişdir. 1955-ci ildən 1958-ci ilə qədər Belorusiya Elmlər Akademiyası nəzdində aspiranturada təhsil almışdır. 1959-cu ildə böyük uğurla namizədlik dissertasiyası müdafiə etmişdir.

S. H. Babayev 1962-ci ildən Neft Maşınqayırma Ümumittifaq Elmi-Tədqiqat və Layihə-Texnologiya İnstitutunda işləmişdir. Burada işlədiyi 10 il ərzində laboratoriya müdiri vəzifəsindən institutun direktoru vəzifəsinə kimi (1972-1976-cı illər) böyük elmi yol keçmişdir.

S. H. Babayev 1970-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş, 1971-ci ildən professordur.

S. H. Babayev 1976-cı ildən bu günə qədər Azərbaycan Neft Akademiyasında çalışır, neft mexanika fakültəsinin professor-müəllim heyəti arasında böyük nüfuza malikdir. Hal-hazırda "Maşınqayırma texnologiyası" kafedrasının müdiridir. Bununla yanaşı, o, problem laboratoriyaya da elmi rəhbərlik edir.

Professor S. H. Babayevin elmi fəaliyyətinin əsas istiqamətləri maşınqayırma texnologiyası və qurğuların etibarlığı, möhkəmliyi, davamlılığı və onların neft maşınqayırmasında tətbiqinə həsr olunub.

S. H. Babayevin müstəqil, həmçinin də elmi işçilər və aspirantlarla birgə 400-ə yaxın elmi əsəri çap edilmişdir. Bu qiymətli mənbələr - kitablar, monoqrafiyalar, dərs vəsaitləri, elmi-tematik icmallar və məqalələr respublikamızda və xarici elmi dövri nəşrlərdə çap olunmuşdur. Görkəmli professorun 37 müəllif şəhadətnaməsi və Rusiya Federasiyasının patenti vardır.

S. H. Babayev neft maşınqayırma məhsullarının istehsalının keyfiyyətinin yaxşılaşdırılması və maşınqayırma texnologiyasının məhsuldarlığının



yüksəldilməsi ilə məşğul olur. O, sürtülmə və almaz honinqlənməsi kimi tədqiqatlar aparıb. Onun bir çox işləri maşınqayırma zavodlarında öz tətbiqini tapmışdır. Professor S. H. Babayevin bu sahədə "Maşın hissələrinin sürtülməsi və son şəklə çatdırılması" və "Dərin və dəqiq dəliklərin almaz honinqlənməsi" ("Maşınostroyenniye" nəşr. M.) monoqrafiyaları da bir çox maşınqayırma zavodlarında öz tətbiqini tapmışdır.

Professor S. H. Babayev ilk dəfə neft sənayesi qurğularının tətbiqində etibarlıq nəzəriyyəsi sahəsində elmi istiqaməti yaratmış və ona başçılıq etmişdir. Bu sahədə o, bir sıra nəzəri tətbiqlər işləmişdir. Orjinal tədqiqatlar aparmışdır, monoqrafiyalar çap etdirmişdir.

"Neft və qaz qazmasında istifadə olunan qurğuların keyfiyyətinin artırılması" ("Maşınostroyeniye" nəşr. M., 1972), "Qazma qurğularının keyfiyyəti və uzunmüddətliliyi" ("Nedra" nəşr. M., 1974), "Qaz istifadəsinin qeydiyyat sisteminin etibarlılığı" ("Elm" nəşr., 1998) bu qəbildəndir. Bu silsilədən olan işlərin əsas nəticəsi 1996-cı ildə çap olunmuş "Neftsənaye qurğularının keyfiyyət və etibarlılığının artırılması" ("Elm" nəşr., 35 çap vərəqi) kitabı olmuşdur. Bu əsər neft maşınqayırmasının inkişafında əsas olan istiqamətdir. Bununla yanaşı S. H. Babayev "Qaz və neft təchizatı sistemlərinin etibarlılığı" adlı (nəşr., "Nedra" M., 1994) ilk dəfə çap olunan məlumat kitabının müəlliflərindən biridir.

Professor S. H. Babayevin elmi işlərində ilk dəfə olaraq dəniz yığım sistem qurğularının etibarlığı tədqiqatları, məhsulun hazırlanma və nəql edilməsi, həmçinin istehsalatda travmatizmlə bağlı olan təhlükəli imtinaların qiymətləndirilməsi üzrə tədqiqatlar diqqəti cəlb edir. Onun əsərlərində imtinaların səbəblərinin tədqiqatına, xarici mexaniki təsirlərin, mühitin, materialın, sürtünmə səthinin vəziyyətinin öyrənilməsinə böyük diqqət yetirilib.

Professor S. H. Babayev iki dövlət standartlarının həmmüəlliflərindəndir: QOST 27.504 "Texnikada etibarlılıq. Etibarlılıq göstəricilərinin senzurlaşdırılmış seçimlər üzrə qiymətləndirilmə üsulları" və QOST 27.503 "Texnikada etibarlılıq. İnformasiyanın yığım və təkmilləşdirilmə sistemi. Etibarlılıq göstəricilərinin qiymətləndirilməsi üsulları".

Professor S. H. Babayev tərəfindən aparılan neft maşınqayırmasının konkret məhsullarının etibarlılığının və keyfiyyətinin artırılmasına həsr olunmuş tədqiqatların çoxunun nəticələri neft və qaz sənayesi müəssisələrində öz tətbiqini tapmışdır.

Professor S. H. Babayevin elmi-pedaqoji kadrların hazırlanmasında da böyük əməyi vardır. Onun rəhbərliyi altında 3 doktorluq və 44 namizədlik dissertasiyaları müdafiə olunmuşdur. O, tələbələrin tərbiyəsinə böyük diqqət yetirən təcrübəli pedaqoqdur. Bir sıra dərslik vəsaitləri çap etdirmişdir. İlk dəfə olaraq - "Neft sənaye qurğularının etibarlılıq nəzəriyyəsinin əsasları" dərsliyini buna misal göstərmək olar.

Professor S. H. Babayev elmi və pedaqoji fəaliyyəti ilə bərabər fəal və böyük elmi-təşkilati iş aparır. O, müxtəlif illərdə Kimya və Neft Maşınqayırma Nazirliyinin elmi-texniki şurasının üzvü olmuşdur. Azərbaycan maşınqayıranlarının maşınlarda sürtünmə, köhnəlmə və sürtgü bölgüsünün sədri, Azərbaycan Sovet Ensiklopediyasının elmi-redaksiya şurasının üzvü olmuşdur.

Hal-hazırda professor S. H. Babayev AzTU nəzdində dissertasiyaların müdafiəsi üzrə ixtisaslaşdırılmış şuranın, "Azərbaycan neft təsərrüfatı" jurnalının redaksiya heyətinin üzvüdür.

S. H. Babayevin elmin inkişafındakı xidmətləri dövlət mükafatları ilə qeyd olunmuşdur. O, Qırmızı Əmək Bayrağı Ordeni, XTNS-nın bürünc medalı və xalq təsərrüfatında ilk dəfə tətbiq edilən ixtiralarına görə "SSRİ-nın ixtiraçısı" döş nişanı ilə təltif olunmuşdur.

2000-ci ilin dekabr ayında ona Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" adı verilmişdir.







# ŞƏRƏFLİ ÖMÜR

*"Təcrübə fəaliyyətlə qazanılıb, zamanla təkmilləşir"*

*V. Şekspir*

Görkəmli elm xadimi, alicənab insan, istedadlı mütəxəssis, səmimi dost, texnika elmləri doktoru, professor Əli Əhməd oğlu Məmmədov 1931-ci il dekabrın 10-da Şərur rayonunun Dəmirçi kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Naxçıvan Dövlət müəllimlər institutunun fizika-riyaziyyat fakültəsinə daxil olub, 1951-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib. 1951-1954-cü illərdə hələ özünün öyrənməyə ehtiyacı - meyli olduğu halda, həyat məcburiyyətindən Şərur rayonunun Sədərək və Dəmirçi kənd orta məktəblərində müəllimlik edərək şagirdlərə fizika-riyaziyyatın sirrlərini öyrədib. 1954-cü ildə Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsinə daxil olub, 1959-cu ildə oranı fərqlənmə diplomu ilə qurtarıb. Elmi fəaliyyətinə Azərbaycan Elmi-Tədqiqat neft maşınqayırma institutunda başlayıb. 1985-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat qazma və Azərbaycan Neft sənayesi elmi-tədqiqat və layihə institutunda böyük mühəndis, baş elmi işçi, laboratoriya və şöbə müdiri vəzifələrində işləyib.

1963-1966-cı illərdə Azərbaycan Politexnik İnstitutunun aspirantı olub. 1966-cı ildə texnika elmləri namizədi, yeddi ildən sonra isə texnika elmləri doktoru elmi dərəcələrini almaq üçün dissertasiya müdafiə edib. 1985-1990-cı illərdə Azərbaycan Politexnik İnstitutunda kafedra müdiri vəzifəsində işləyib. O, uzun müddət Azərbaycan Neft Akademiyasında və Azərbaycan Texniki Universitetində elmi adları verən xüsusi elmi şuraların və Azərbaycan Elmlər Akademiyasının "Dərin Neft və Qaz quyularının qazılmasının problemləri" üzrə elmi-metodik şuranın üzvü olmuşdur. Hazırda Azərbaycan Texniki Universitetinin professorudur.

1951-ci ildə Naxçıvan Dövlət Müəllimlər İnstitutunda dövlət imtahanları gedirdi. On doqquz yaşlı gənc oğlan fizika fənnindən imtahan verirdi. Onun cavabları komissiya üzvlərini heyran edir. Bakıdan gəlmiş dövlət im-

tahan komissiyasının sədri oğlanın istedadına, güclü məntiqinə aludəliyini gizlədə bilmir. "Əhsən oğlum, çox yaxşı. Amma sən gərək bununla kifayətlənməyəsən, təhsilini davam etdirib, mütləq mühəndis olmalısan. Sənin böyük gələcəyinə mən inanıram". Həmin gənc fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə qurtaran bizim Əli Əhməd oğlu Məmmədov idi.

Əli müəllimlik edir, ana kolxozda işləyir, ailəni korluq çəkməyə qoymurdular. Onun şagirdləri ali məktəblərə qəbul olunur. Bu gənc Əli müəllimi həm sevindirir, həm də kədərləndirirdi. Çünki onun özünün hələlik ali savad almaq, mühəndis olmaq üçün imkanı yox idi. Mühəndis olmaq fikri Əli müəllimi rahat buraxmırdı. Nəhayət, o, arzusuna çatır. İndiki Azərbaycan Texniki Universitetini fərqlənmə diplomu ilə başa vurur, mühəndis olur. Gecəli-gündüzlü gərgin əməyinin, əzmkarlığının, güclü biliyi və iradəsinin nəticəsində Əli müəllim mühəndisliyin ən yüksək pilləsinə ucalır.

Əvvəlcə texnika elmləri namizədi, sonra doktoru və ən nəhayət professor olur. Elmi səviyyəsini daima yüksəldən professor Ə. Məmmədov ilk dəfə olaraq respublikanın neft-qaz yataqlarında qazma və istismar proseslərində qoruyucu kəmərlərin deformasiyası ilə əlaqədar ləğvolunmuş quyuları tədqiq edərək qəzaların təsnifatını vermiş, elmi araşdırmalar əsasında hər bir konkret hal üçün nəzəri və təcrübi əhəmiyyət kəsb edən tədbirlər işləyib hazırlamışdır.

Fundamental araşdırmalardan biri qoruyucu kəmərlərin süzgəc zonasının deformasiyası və nəticədə quyunun sıradan çıxması problemi olmuşdur. Nəzəri və təcrübi tədqiqatlar nəticəsində kəmərlərin süzgəc zonası üçün yeni hesablama üsulu təklif olunmuşdur.

Bununla yanaşı, məhsuldar qatın açılması üçün tətbiq edilən müxtəlif tipli perforatorların səmərəliliyi tədqiq edilmiş, nəzəri və xüsusi stendlərdə aparılan sınaqlar əsasında perforasiya prosesində boru divarlarının çatlaması və bəzi hallarda sınması müəyyən olunmuşdur. Bu halları aradan qaldırmaq üçün boruların möhkəmlik qrupundan və ölçülərindən asılı olaraq perforatorun seçilməsi üsulu işlənib hazırlanmışdır.

Professor Ə. Məmmədovun rəhbərliyi altında aparılan mühüm tədqiqatlardan biri boruların istehsalı prosesində onların divarlarında əmələ gələn gözlə görünməyən çatların aşkar olunmasında defektoskopiya üsulunun tətbiqi üçün kriteri normaları nəzəri və eksperimental tədqiqat vasitəsilə təyin olunmuşdur.

Professor Ə. Məmmədov geniş elmi-tədqiqat işləri ilə yanaşı, uzun illərdir ki, əvvəlcə Azərbaycan Politexnik İnstitutunda, hazırda isə Azərbaycan Texniki Universitetində müvəffəqiyyətlə pedaqoji fəaliyyətlə də məşğul olur. Tədris prosesini yaxşılaşdırmaq məqsədilə işlədiyi kafedranın bir qrup əməkdaşları ilə 10-a qədər metodiki göstəriş və dərs vəsaiti tərtib etmişdir. Ümumiyyətlə professor Əli Məmmədov 200-ə qədər elmi məqalənin, Moskvada "Nedra" nəşriyyatı tərəfindən çap olunmuş iki monoqrafiyanın müəllifidir. Çoxlu ixtiraları var.

Professor Ə. Məmmədov uzun müddət "Azərbaycan neft təsərrüfatı" və "Neft və qaz" elmi-texniki jurnalları ilə əməkdaşlıq etmişdir.

Professor Ə. Məmmədov 1986-1991-ci illərdə Azərbaycan Təhsil Nazirliyinin tədris-metodik şurasının Həyat fəaliyyətinin təhlükəsizliyi bölməsinə rəhbərlik etmişdir.



# PEŞƏSİNİN USTASI



*"Ot kökü üstə bitər".*
*Atalar sözü.*

Zülalovlar (inqilabdan əvvəl Zülali) sülaləsi Şuşada "Bülbülcan ailəsi" adı ilə məşhurdur. Zülalovlar ailəsinin Azərbaycan incəsənəti tarixində "istedadlar ailəsi" kimi tanınması təsadüfi deyildir.

XX əsrin II yarısı, dövrünün qabaqcıl ziyalılarından olan Əli bəy Zülalov öz maddi imkanları ilə Tiflisdə Azərbaycan teatrını inşa etdirmişdir.

Əbdülbaqi Zülalov (Bülbülcan) (1841-1927) Üzeyir bəy Hacıbəyovun sevib pərəstiş etdiyi sənətçilərdən olub, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski və başqa məşhur xanəndələrin müəllimi olmuşdur. Əbdülbaqi, Əlibəy, Məmmədağa Zülalovlar dövrünün ən vətənpərvər, mübariz maarifçiləri və musiqişünasları olan M. F. Axundov, Əbdülrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyov kimi dahi, nəhəng şəxsiyyətlərlə səmimi, ailəvi dost münasibətlərində olmuş, bir çox mühüm arzu və ideyalarını birlikdə həyata keçirmişlər. Mahir ustad öz sənəti ilə dəfələrlə şahın (Əfzələddin şah), çarın (II Aleksandr) qiymətli hədiyyələrinə layiq görülüb.

1923-cü ildə Bülbülcan Üzeyir bəy Hacıbəyovun təkidi və xahişi ilə Tiflisdən Bakıya köçmüş, dahi sənətkarın təşkil etdiyi Azərbaycan Dövlət Musiqi məktəbində muğamdan dərs deməyə başlamışdır. O, Əmək qəhrəmanı kimi yüksək ada layiq görülmüşdür.

Əbdülbaqinin qızı (Əzizə Məmmədova) (1892-1961) milli teatrımızın ilk azərbaycanlı qadın aktrisası olmuşdur), nəvəsi və qardaşı uşaqları: Əzizə xanım, Sona xanım, Əli və Qəmbər Zülalov qardaşları gözəl səsləri və mahir sənətləri ilə Bülbülcanın nəcib ənənələrini layiqincə davam etdirmişlər.

Bu yaxınlarda bu nəslin daha bir nümayəndəsi olan hüquq elmləri doktoru, professor Solmaz xanım Zülalova (mərhum Əli Zülalovun qızı, keçmiş SSRİ-nin respublikaları arasında ilk dəfə Azərbaycanda Hüquq Tədris Mərkəzinin təşkilatçısı və yaradıcısı olmuşdur). Amerika Birləşmiş Ştatlarında Ədliyyə Nazirliyi nəzdində fəaliyyət göstərən Hüquq Tədris Mərkəzi Direktoru tərəfindən "2001-ci ilin qadını" adı verilmişdir.

Zülalovlar ailəsinin bir çox üzvü müxtəlif sahələrdə elmlər doktoru, elmlər namizədi kimi çalışırlar.

Neft sənayesində isə yalnız Zülalov Yusif İsfəndiyar oğlu çalışır.

O, 1929-cu ildə Ağdam şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1938-ci ildə ailəsi ilə Bakıya köçmuşdur. Atası Zulalov İsfəndiyar Məhəmməd oğlu hərbçi olmuş, məsul vəzifələrdə isləmis, 1942-ci ilin fevral ayının 6-da ailə repressiyaya məruz qalmışdır. Anası heç kimin köməyi olmadan üç oğlunu böyütmüş, üçünə də ali savad vermişdir.

Yusif I-X sinifləri 1949-cu ildə Bakıda bitirmiş və Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, 1954-cü ildə "Neft və qaz quyularının qazılması" fakültəsini bitirib öz arzusuyla "Neft Dasları"na təyinat almışdır. O, 1954-1965-ci illərdə orada müxtəlif vəzifələrdə - qazmaçı köməkçisi, buruq ustası, sahə rəisi, texniki şöbədə böyük mühəndis, elmi-tədqiqat təcrübə sexində aparıcı mühəndis vəzifələrində çalışmışdır. 11 il "Neft Daşları"nda nəhəng şəxsiyyətlərlə - Bəxtiyar Məmmədov, Bəhmən Hacıyev, Cümşüd İbrahimov, Qurban Abbasov, Seyid Rza, Yusif Kərimov, Ağasəf Mövsümov və başqaları ilə birlikdə çalışmış və onlardan çox şeylər görüb-götürmüş və öyrənmişdir.

Y. I. Zülalov 1965-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının Dərin Neft-Qaz Yataqları Problemləri İnstitutunda (DNQYPI) aspiranturanın əyani şöbəsinə daxil olmuş və 1967-ci ildə müvəffəqiyyətlə dissertasiya müdafiə edərək, texniki elmlər namizədi elmi dərəcəsi almışdır. O, böyük alimlərlə birlikdə ilk dəfə müxtəlif diametrli hidromonitor, pilləli, pərli baltalar konstruksiyasını, həndəsi ölçüləri nəzəri və təcrübi olaraq öyrənmişdir. "LIR" tipli baltaların tətbiqi göstərdi ki, onlar adi pərli baltalardan, həmçinin klassik diyircəkli (şaroşkalı) baltalardan 2-2,5 dəfə artıq göstəricilərə malikdir. Bu baltalara görə Y. I. Zülalov gümüş və bürünc medallarla təltif edilmişdir. İnstitutda işləyərkən onun 40-dan artıq elmi məqalə və bir qiymətli monoqrafiyası dərc olunmuşdur.

Y. I. Zülalov 1969-cu ildə Akademiyanın DNQYPİ-da işləyərkən akademik M. T. Abbasovun rəhbərliyi və köməkliyi nəticəsində Akademiyada müsabiqə yolu ilə baş elmi işçi vəzifəsinə layiq görülmüşdür.

1976-cı ildə o, öz arzusu ilə yenə istehsalata qayıtmış, Quruda NQÇ İstehsalat Birliyinin Qobustan Kəşfiyyat Qazıma İşləri İdarəsində işləməyə başlamışdır. Artıq 27 ildir ki, o, Qobustan KQİİ-də Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə Baş mühəndis müavini vəzifəsində çalısır.

O, hələ 1980-ci ildə işin xüsusiyyətini, spesifikasını nəzərə alan 200 səhifəlik təlimatlar toplusu hazırlayıb bütün buruqlara - ustalara vermisdir.

Əməyin mühafizəsi və təhlükəsizliyi kimi çox mühüm məsələ daima diqqət mərkəzində olmuşdur. Elə onun nəticəsidir ki, Quruda NQÇ İB-nin Qobustan Kəşfiyyat Qazıma İşləri idarəsində son 26 ildə bir nəfər belə istehsalatda işləyərkən həlak olmamışdır. 26 il müddətində peşə-ixtisas xəstəliyinə görə cəmi 4 nəfər əlillik dərəcəsi almışdır. Qeyd etmək yerinə düşərdi ki, Qobustan KQİİ-nin obyektlərində 15 il ərzində yanğın hadisəsi, həmçinin dərəcəli qəzalar da olmamışdır. Əlbəttə, burada uzun illərin təcrübəsi, tələbkarlıq və prinsipiallıq da mühüm rol oynamışdır.

Əməyin mühafizəsi və təhlükəsizliyinin qorunması üzrə aparılan islər diqqətə layiq olduğu üçün müəssisənin iş təcrübəsi normativ tədqiqat stansiyası tərəfindən bir neçə dəfə öyrənilmiş və digər müəssisələr arasında yayılmışdır.

Y. I. Zülalov 1980-1990-cı illərdə Dövlət Dağ-texniki Nəzarət Komitəsinin ictimai müfəttişi, Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutunun (Az.DƏMTTETİ) elmi şurasının üzvü kimi fəaliyyət göstərmiş, institutun həll etdiyi bir sıra məsələlər Qobustan KQİİ-nin buruqlarında müvəffəqiyyətlə tətbiq edilmisdir.

Onun Qazmanın texnika-texnologiyasına, son illər isə əməyin mühafizəsi və təhlükəsizliyinə dair 50-yə yaxın elmi məqalələri Bakı, Moskva jurnallarında, həmçinin Akademiyaların "Xəbərləri"ndə dərc edilmişdir.



# QAZ SƏNAYESİNİN PROBLEMLƏRİ



***"Elm uzaq Çində də olsa, ona sahib olmaq üçün yola çıxmaqdan çəkinməyin"***

***Məhəmməd Peyğəmbər***

Aslanov Vaqif Dadaş oğlu 1939-cu ildə anadan olmuşdur. 1955-ci ildə orta məktəbi gümüş medalla bitirmişdir. 1960-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Dövlət Neft Akademiyası) bitirərək, dağ mühəndisi ixtisasına yiyələnmişdir. 1960-1964-cü illərdə keçmiş "Azərneft" Birliyinin "Buzovnaneft" NQÇİ-də (indiki M. Əzizbəyov adına NQÇİ) quyuları yeraltı təmir sexi briqadasının operatoru və ustası vəzifələrində işləmişdir. 1965-1967-ci illərdə Azərbaycan Dövlət Universitetinin aspiranturasında oxumuş və 1969-cu ildə geologiya-mineralogiya elmləri namizədi alimlik adı almışdır.

O, 1968-ci ildən indiyə qədər Azərbaycan Elmi-Tədqiqat və Layihə Qaz İnstitutunda - AzETLQİ (keçmiş VNİPİQaz), böyük elmi işçi, bölmə rəhbəri, aparıcı elmi işçi, laboratoriya rəhbəri (eyni zamanda, 1986-1988-ci illərdə elmi işlər üzrə direktor müavini) vəzifələrində çalışmışdır. V. D. Aslanov əmək fəaliyyətinin əsas hissəsini qaz sənayesinin aktual problemlərinə həsr etmiş və onun elmi-tədqiqat işləri Şimali Qafqaz, Şimali Tümen, Ukrayna, Gürcüstan və Azərbaycanı əhatə etmişdir. Qaz sahəsində zəngin təcrübəyə malik olan Vaqif müəllimin elmi fəaliyyətinə qısaca nəzər salmaq oxucularımız üçün maraqlı olardı:

70-ci illərdə o, Azərbaycanın, Şimali Qafqazın və Gürcüstanın neftli-qazlı vilayətlərində anomal-yüksək lay təzyiqlərinin əmələ gəlmə qanunauyğunluqları və onların qaz-qazkondensat yataqlarının axtarışında roluna həsr olunmuş elmi-tədqiqat işlərini aparmış və bu sahədə müəyyən nailiyyətlər qazanmışdır. 70-ci illərin sonlarından başlayaraq, yeraltı qaz anbarlarının (YQA) yeni metodlarla yaradılması istiqamətində elmi-tədqiqat işlərini araşdırmış və onların nəticələri istehsalata tətbiq olunmuşdur;

80-ci illərdə Çeçenistanın Qoyt-Kort neft yatağında (çokrak horizontunun XXIII layı) neftin çıxarılma əmsalının artırılması məqsədilə həyata keçirilən qaz repressiyası prosesində (neftin çıxarılması məqsədilə kompressor stansiyasında - KS yüksək təzyiq altında sıxılmış qazın laya vurulması) yeraltı qaz anbarının yaradılması təklif olunmuş və prosesin texnoloji sxemi işlənib hazırlanmışdır. Qoyt-Kort yatağında neftin çıxarılması məqsədilə istifadə edilən qaz repressiyasından əldə olunan nəticələrin Azərbaycanın neft yataqlarında tətbiq olunması və sonradan qaz anbarlarına çevrilməsinin mümkünlüyü təklif olunmuşdur;

- Kompressor stansiyasında yüksək təzyiq altında sıxılmış qazın İnquşetiyanın Karabulak-Açaluki neft-qaz yatağının yuxarı təbaşir çöküntülərində tükənməmiş "qaz papağı"na vurulması nəticəsində ağır karbohidrogenlərin çıxarılması, "qaz papağı" zonasından qazgötürmənin tənzimləyici rejimində istifadə olunması və sonradan yeraltı qaz anbarının yaradılması prosesi;

- Gürcüstanın Samqori-Patardzeuli yatağında kompressor stansiyasında yüksək təzyiq altında sıxılmış qazın orta eosen çöküntülərinin neft yatağının tağ hissəsinə vurulması nəticəsində süni (texnogen) "qaz papağı"nın yaradılması və texnogen proses nəticəsində yaradılmış qaz zonasının dövrü istismarı nəticəsində yeraltı qaz anbarının yaradılması prosesinə keçməsi;

Neft zolağı olan Şimali Tümenin Urenqoy qazkondensat yatağının neft zolağından ağır karbohidrogenlərin çıxarılması məqsədilə yeni tikiləcək kompressor stansiyasında yüksək təzyiq altında sıxılmış qazın yuxarı təbaşir çöküntülərinin valanjin mərtəbəsinin horizontlarına vurulmasının səmərəli üsulları təklif edilmişdir. Urenqoy qazkondensat yatağının neft zolağının mürəkkəb geoloji xüsusiyyətlərə malik olan neftinin (yüksək parafin-qətran) çıxarılması məqsədilə bu yataqda qaz repressiyasının tətbiq edilməsini təklif etmiş və tədbir neft zolağının işlənmə layihəsinə daxil edilmişdir. Vaqif müəllimin iştirakı ilə Urenqoy yatağının az keçiriciliyə malik olan neokom horizontlarının kollektorlarının neftinin SevKavNİPİneft institutunda (Qroznı ş.) yüksək təzyiqli qazla sıxışdırılıb çıxarılmasının eksperimenti aparılmış və müsbət nəticələr alınmışdır;

Ukraynanın Novo-Troitskoe qazkondensat yatağında alt karbonun vizey mərtəbəsinin B-23 layında həyata keçirilən ənənəvi saykling-prosesinin əvəzinə yeni modifikasiyalı saykling-prosesinin həyata keçirilməsi, yəni qış mövsümündə resirkulyasiya qazının yenidən laya qaytarılması deyil, yataqdan götürülən qazdan regionun qaz təminatında istifadəsi və sonradan yeraltı qaz anbarının yaradılması prosesi təklif olunur;

Qaradağ yeraltı qaz anbarında retroqrad prosesi nəticəsində layda qalmış qaz kondensatının yüngül karbohidrogenlərin geniş fraksiyası (YKGF) vasitəsilə çıxarılması prosesi təklif edilmişdir. Bu məqsədlə, Qaradağ anbarının (VII horizont dəstəsi) qaz kondensatı nümunəsindən və kernasından



(süxur nümunələri) istifadə edərək, süxurların məsamələrindən qaz kondensatının YKGF vasitəsilə çıxarılmasının VNİİQazda (Moskva ş.) eksperimentini aparmış və müsbət nəticələr əldə edilmişdir. Yaxın perspektivdə Qaradağ YQA-nın rekonstruksiyasından sonra anbarda yüksək təzyiqlər yaradıldıqda (20-25 MPa) həmin eksperimentin nəticələrindən istifadə edərək, yataqdan retroqrad kondensatının müəyyən hissəsinin çıxarılması prosesini reallaşdırmaq mümkün olacaqdır;

Lökbatan neft-qaz yatağının tükənmiş "qaz papağı"nda (məhsuldar qatın VII horizont dəstəsi) Bakı şəhəri üçün lokal tipli ("pik") nisbətən kiçik fəal qaz həcminə (200 mln.m3) malik olacaq yeraltı qaz anbarının yaradılması təklif edilmiş və prosesin texnoloji sxemi tərtib edilmişdir;

Azərbaycan Respublikasının qaz resurslarından səmərəli istifadə edilməsi yolları barədə Proqram layihəsi işlənib hazırlanmışdır.

Hazırda AzETLQİ-nın "Yeraltı qaz anbarları" laboratoriyasında onun rəhbərliyi altında Qalmaz və Qaradağ YQA-nın yaradılması, istismarı üzrə müəlliflik nəzarəti, qaz anbarlarının işinin optimallaşdırılmasının texnoloji həllinin işlənib hazırlanması, qaz anbarlarının rekonstruksiya olunması və genişləndirilməsinə dair elmi-tədqiqat işləri aparılır. O, Azərbaycanın qaz sahəsinə xidmət etmək, elmi-texniki tərəqqini inkişaf etdirmək həvəsi ilə yaşayır-yaradır və qaz sahəsinin perspektiv inkişaf istiqamətlərini aşağıdakı problemlərin həllində görür.

V. D. Aslanov 1993-1995-ci illərdə "Azərbaycan Respublikasının 1995-2000-ci illərdə və 2015-ci ilə qədərki dövrdə yanacaq-enerji resurslarının səmərəli istifadə olunmasının inkişaf proqramı"nı işləyib hazırlamışdır.

Onlar aşağıdakılardır:

- neftçıxarma, neft emalı sənayesinin daha da inkişaf etdirilməsi, neftayırma zavodlarının, dərin özüllər, neft-mədən maşınqayırma zavodlarının rekonstruksiya olunması və modernləşdirilməsi;
- quru bölgələrindəki köhnə neft-qaz yataqlarının qalıq karbohidrogen ehtiyatlarının çıxarılması problemləri;
- Xəzər şelfində sənaye əhəmiyyətli neftlə çıxarılan kiçik təzyiqli səmt qazlarının tutulub sahilə nəql edilməsi və AzQEZ-da propan-butan komponentlərinin ayrılması prosesi;
- Şahdəniz qazkondensat yatağının və dənizdəki digər yeni yataqların bazis qazkondensat horizontlarının təbii qazlarının çıxarılması problemləri;
- rekonstruksiyası - genişləndirilməsi gözlənilən Qalmaz və Qaradağ yeraltı qaz anbarlarının normal qaz təminatında, ixrac qazının nəqlində tənzimləyici kimi rolu və onların problemlərinin həlli yolları,
- Naxçıvan Muxtar Respublikasının Nehrəm duz yatağında yeraltı qaz anbarının və duzçıxarma kompleksinin yaradılmasının texniki-iqtisadi göstəriciləri; müxtəlif kateqoriyalardan olan qaz istehlakçılarının qazlardan sə-

mərəli istifadəsi, perspektivdə enerjidaşıyıcılarının, o cümlədən, karbohidrogen qazlarının tələb olunan həcmlərinin əsaslandırılması;

- maye qaz resurslarından yanacaq kimi səmərəli istifadə edilməsi və bu sahədəki problemlərin həlli yolları;

- elektrik stansiyalarında və istilik-elektrik mərkəzlərində elektrik-istilik enerjilərinin istehsalında enerjidaşıyıcılarının potensialından məqsədyönlü və səmərəli istifadə yolları;

- təklif edilən sənaye əhəmiyyətli texnoloji proseslərin proqnoz texniki-iqtisadi göstəriciləri.

Son illər V. D. Aslanov Azərbaycanda ilkin enerjinin (neft, qaz və HES-nın enerjisi) perspektiv (2001-2030-cu illər) istehsalının, istehlakının və ixracının proqnozlaşdırılmasına dair araşdırmaları elmi əsaslarla işləyib hazırlamışdır. Xarici şirkətlərin Xəzərin Azərbaycan sektorundakı neft-qaz yataqlarına olan marağını, onların bu sahədə uzun illər fəaliyyət göstərəcəklərini, investisiyaların durmadan artacağını nəzərə alaraq, habelə ARDNŞ-nin, "Azəriqaz" QSC-nin və "Azərenerji" SC-nın xarici şirkətlərlə olan qarşılıqlı anlaşmasının vahid müstəviyə gətirilməsi və onların inteqrasiya olunması məqsədilə qaz təchizatı sisteminə Vahid Energetika Sistemi çərçivəsində ilkin enerjinin, o cümlədən, karbohidrogen qazlarının istifadəsi nöqteyi-nəzərindən baxılır və onların potensial imkanları araşdırılır, neft və qazın həcmində hesablamalar "ton neft ekvivalenti" üzrə ("toe") aparılmışdır.

Qalmaz YQA-da hazırda qazın vurulması prosesi nisbətən işlək vəziyyətdə olan 10 ədəd 10QKN/55-125 tipli aqreqatlardan təşkil olunmuş kompressor stansiyası vasitəsilə həyata keçirilir, maksimum lay təzyiqi isə cəmi 9,5 MPa-a qədər çatdırıla bilir. Anbarın məhsuldarlığını yüksəltmək məqsədilə əlavə olaraq 23 yeni quyu qazılmışdır. KS-ın gücü artırılarsa və anbara nisbətən yüksək təzyiqli təbii qaz resursları yönəldilərsə, onda lay təzyiqini layihəyə görə 16,6 MPa-a qədər qaldırmaq mümkündür. Anbarda rekonstruksiya aparılarkən, yeni KS quraşdırılacaq və fəal qaz həcmini 1,5 mlrd.m3-ə çatdırmaq mümkün olacaqdır.

1995-ci ildən yüksək təzyiqli idxal qazının alınmasının dayandırılması ilə əlaqədar olaraq, V. D. Aslanovun həmmüəlliflərlə verdiyi təklifin mahiyyətinə görə yerli qazın təzyiqi nisbətən kiçik (2,5-2,7 MPa) olduğundan, Qalmaz YQA-da KS-ın girişində qazın təzyiqini daha da artırmaq məqsədilə, mövcud birpilləli sıxıcı KS-i ikipilləli etmək lazım gəlmişdir. Mövcud KS-ın birinci sexinin aqreqatlarından qazın təzyiqini 2,5-2,7-dən 4,0-5,0 MPa-a qədər, ikinci sexdə isə qazın təzyiqini 4,0-5,0-dən 7,5-8,5 MPa-a qədər sıxmaq üçün istifadə olunmuşdur. "Neft Daşları"ndakı yeni KS-dən AzQEZ-na göndərilən səmt qazının təzyiqi qaz emalı zavodunun girişində 1,8-2,1 MPa olduğu üçün anbara vurulan qazın təzyiqi 1,7-1,9 MPa olur, bu isə kifayət qədər qazın vurulmasına imkan vermir. Ona görə ki, KS-in girişinə daxil olan qazın təzyiqini I pillədə 1,3-1,5-dən 4,0-4,5 MPa-a qədər sıxacaq üç yeni qaz-turbin aqreqatlarının quraşdırılması təklif olunur. Digər üç qaz-



turbin aqreqatlarında isə qazın təzyiqini 4,0-4,5-dən 12,0-14,0 MPa-a qədər (II pillə) qaldırmaq mümkün olacaqdır.

Qaradağ YQA-nın məqsədləri üçün I mərhələdə 35 yeni quyudan istifadə ediləcək və rekonstruksiya-genişləndirmə aparılarkən II mərhələdə daha 15 yeni quyu qazılacaqdır. Anbar layihə gücünə çatdırıldıqda, orta lay təzyiqi 25,0 MPa olacaqdır. YQA-a qazvurma prosesi 1986-cı ildə başlanmış və buraxılış obyekti kimi gücü 300 mln.m3 olan ikipilləli 5 ədəd 10QKN2/40-150 tipli porşenli KS quraşdırılmışdır. Sahədə sonradan qazılmış yeni 24 ədəd dərin quyunun şleyf vasitəsilə yeni tikiləcək qazpaylayıcı məntəqəyə (QPM-2) qoşulması anbarın fəal qaz həcmini 1,5 mlrd.m3-ə (I növbə) çatdırmağa imkan verəcəkdir. YQA-a qazılacaq 50 istismar quyularının hamısının işə salınması nəticəsində fəal qaz həcmi 3 mlrd.m3-ə çatdırılacaqdır.

Qalmaz və Qaradağ YQA-da lay kollektorlarının məsaməlik həcmlərinin azalmasının, suların qaz zonasına daxil olunmasının qarşısının alınması məqsədilə aşağıdakı təkliflər verilmişdir:

Qalmaz və Qaradağ yeraltı qaz anbarlarında minimal lay təzyiqləri uyğun olaraq 7,0 və 8,0 MPa-dan aşağı olmamalı, qazgötürmə prosesində anbarların mərkəzi zonasından istifadə olunmalı və yüksək depressiya yaradılmamalıdır;

Qaradağ YQA-nın potensial həcm tutumunu qoruyub saxlamaq məqsədilə, sulaşmaya daha çox meyl edən və lay suları nisbətən aqressiv olan altda yatan VIIa horizontu üstdə yatan VII horizontdan sementləmə yolu ilə təcrid edilməlidir;

Qaradağ YQA-nın quyularına zəlzələnin göstərə biləcəyi mənfi təsiri aşkarlamaq, yuxarı laylar ilə anbarın mümkün olacaq əlaqəsini araşdırmaq, quyudibi zonalarının süzmə-həcm parametrlərinin öyrənilməsi məqsədilə, mədən-geofizika işləri bərpa edilməlidir;

"Sofreqaz" firmasının (Fransa) məlumatlarına görə Qalmaz YQA-nın yenidənqurulması və obyektin fəal qaz həcminin 1,5 mlrd.m3-ə çatdırılması üçün 81 mln.$ məbləğində investisiya tələb olunur. Qaradağ YQA-nın isə yenidənqurulması - genişləndirilməsi məqsədilə qoyulacaq investisiyalar iki mərhələdə həyata keçiriləcəkdir: I mərhələdə 35 yararlı quyunun köməyilə yerüstü mədən avadanlıqlarının təzələnməsi, o cümlədən, qaz-turbin tipli ikinci sıxıcı KS-in quraşdırılması, laylarda yaradılacaq təzyiqin 8,0-16,0 MPa intervalına çatdırılacağı və fəal qaz həcminin 1,5 mlrd.m3-ə çatdırılması məqsədilə 80 mln.$ məbləğində investisiya tələb olunur. I mərhələnin işə salınması nəticəsində illik gəlir 21,4-33,5 mln.$ məbləğində gözlənilir, o cümlədən, hər qaz götürmə mövsümündə təxminən 5000 t retroqrad kondensatı hasil oluna biləcək; II mərhələdə isə anbarının daha da genişləndirilməsi, onun fəal qaz həcminin 3 mlrd.m3-ə çatdırılması üçün əlavə olaraq 15 quyunun qazılması, lay təzyiqini 8,0-dən 23,0 MPa-a qədər qaldıracaq qaz-turbin tipli üçüncü KS-ın tikilməsi və mədən avadanlıqları-

nın quraşdırılması nəzərdə tutulur və 111 mln.$ məbləğində sərmayə tələb olunur.

Qalmaz və Qaradağ YQA-nın yaradılması, rekonstruksiyası-genişləndirilməsi, fəal qaz həcmlərinin 4,5 mlrd.m3-ə çatdırılması və istismarının səmərəliyinin artırılması məqsədilə, yuxarıda göstərilən məsələlərin təklif edilmiş həlli yollarının həyata keçirilməsi nəticəsində ölkənin qaz təchizatı sisteminin, habelə yaxın perspektivdə Türkiyə və Avropa ölkələrinə ixrac olunacaq yerli qazın uzaq məsafələrə nəqlinin etibarlığı təmin ediləcəkdir.

Yaxın zamanlarda Naxçıvan MR-nə Xoy-Culfa istiqamətində təbii qazın veriləcəyini nəzərə alaraq, 1992-ci ildə Nehrəm duz yatağı bazasında geotexnoloji metodla-duz laylarının yuyulması üsulu ilə YQA-nın yaradılması AzETLQİ tərəfindən təklif edilmiş və AzETLQİ, UkrQazlayihə (Kiyev ş.) və QosNİİxlorlayihənin (Moskva ş.) birgə gücü ilə bu prosesin Texniki-İqtisadi Əsaslandırması tərtib edilmişdir. Nehrəm YQA-nın üstünlüyü və səmərəliyi üç əsas amillə səciyyələnir: dünya praktikasından duz laylarında yeraltı qaz anbarlarının yaradılması təcrübəsinin məlum olması, nisbətən kiçik zaman kəsiyində bu tipli yeraltı qaz anbarlarının öz xərcini ödəməsi; yeraltı duz kameralarının yuyulması prosesində çıxarılan duz məhlulunun yeni tikiləcək zavodda emalı nəticəsində yüksək keyfiyyətli xörək duzunun və texniki duzun alınmasıdır.

Həmin obyektin texniki layihələndirilməsi üç mərhələ üzrə aparılmalıdır. I mərhələ 6 ildə həyata keçirilir və 10 texnoloji quyuda daş duzun yuyulması nəticəsində kameralar yaradılır. Həmin proses nəticəsində kondisiyalı duz məhlulunun (300 q/l) zavodda emalı nəticəsində 1 mln.t duz əldə etmək mümkün olacaqdır. II mərhələdə 10 il müddətində 20 texnoloji quyu vasitəsilə yeraltı qaz kameraları yuyulub hazırlanacaqdır. Bu müddət ərzində zavodun buxarlanma sexlərində 2 mln.t və ya hər il 200 min t duz, o cümlədən, 20 min.t xörək duzu emal oluna biləcəkdir. III mərhələdə 14 il ərzində daha 30 texnoloji quyu vasitəsilə yeraltı duz kameraları yuyulub anbar məqsədilə hazırlanacaqdır. Bu halda isə zavodun buxarlanma sexlərində 3 mln.t və ya hər il 220 min.t duz, o cümlədən 22 min t xörək duzu emal oluna biləcəkdir. Yuma nəticəsində Nehrəm duz yatağı bazasında yaradılacaq 60 kamerada gələcəkdə hər mövsümdə 300 mln.m3 fəal təbii qaz saxlamaq mümkün olacaqdır. Göstərilən qaz həcmi üçün yeraltı kameralar yaradıldıqdan sonra da, duz məhlulunun yeni quyular vasitəsilə çıxarılması prosesi, yəni duzçıxarma mədəni və fəaliyyətini daha 100 il müddətində davam etdirə biləcəkdir. Nehrəm yeraltı qaz anbarının və duzçıxarma kompleksinin tikintisi üçün 1992-ci ilin qiymətlərinə görə təxminən 30 mln.$, o cümlədən yeraltı təbii qaz anbarının tikintisi üçün 20 mln.$ tələb olunur.

V. D. Aslanovun kütləvi informasiya vasitələrində respublikanın qaz sənayesinin aktual problemlərinə həsr etdiyi məqalələri də praktiki əhəmiyyət kəsb edir. O, "Delat stavku na poputnı qaz" ("Vışka", 13.09.90) məqaləsində "28 Aprel" (indiki "Günəşli") yatağından neftlə bərabər çıxarılan səmt qazının tutulması məqsədilə, qazın mədən hazırlığı qurğularının, sıxıcı kompressor stansiyasının tikilməsinin və yeni qaz kəmərinin çəkilməsinin vacibliyindən, səmt qazının zavodda emalı nəticəsində külli miqdarda maye qazın tutula biləcəyindən bəhs edilmişdir. Son illər həmin təkliflər öz bəhrəsini vermiş, Günəşli və Neft Daşları yataqlarından tutulan kiçik təzyiqli neft qazları burada tikilmiş yeni KS-də sıxıldıqdan sonra AzQAZ-a nəql edilir, emal nəticəsində propan-butan komponentləri ayrılıb, maye qaz kimi istifadəyə göndərilir. Yaxın vaxtlarda isə Azəri-Çıraq-Günəşli (dərin dəniz hissəsi) neft-qaz yataqlarının 3-5 mlrd.m3 səmt qazları tutulub qaz emalı zavoduna göndəriləcəkdir. Həmin proses nəticəsində hər il 150-200 min ton maye yanacaq istehlakçılara göndəriləcəkdir.

Əsası hələ 1991-ci ildə qoyulmuş və 1992-ci ilin sonunda həyata keçirilməyə başlanmış qaz "klirinq-kvotası"nın respublikamız üçün zərərli barter olduğu V. D. Aslanovun "Azərbaycana klirinq lazımdırmı?" ("Aydınlıq", 18.06.93), "Xaricdən təbii qazın alınmasına ehtiyac yoxdur" ("Səhər", 22.02.94), "Yeni yanacaq-enerji proqramı layihəsinin həyata keçirilməsi" ("Azərbaycan", 7.07.94), "Xaricdən qaz almağa ehtiyac yoxdur" ("Azərbaycan", 24.11.95) və s. məqalələrində öz əksini tapmışdır. Türkmənistandan təbii qazın baha qiymətə (1000 m3-ə görə 80$) alınmasının lüzumsuz olduğunu və həmin "əməliyyatın" məcburi müharibəyə cəlb olunmuş ölkənin iqtisadiyyatını iflic vəziyyətinə gətirib çıxardığını hörmətli prezidentimiz Heydər Əliyev kəskin tənqid edərək, türkmən qazının idxalının təcili dayandırılmasına (12.04.95) sərəncam vermişdir. Qeyd edək ki, respublikadakı istilik-elektrik stansiyalarının yandırdıqları mazutun bir hissəsini ekoloji yanacaq olan təbii qazla əvəz etmək məqsədilə, 2000-ci ilin sonundan başlayaraq, Azərbaycan müvəqqəti olaraq, Rusiya Federasiyasından sutkada 13-15 mln.m3 təbii qaz idxal edir. Hazırkı idxal qazının qiyməti isə hər 1000 m3 üçün 48-52$-dir. İndiki idxal qazının haqqı ona ekvivalent olan və "Şimal marşrutu" vasitəsilə nəql edilən xam neftin hesabına ödənilir. Lakin 2003-cü ildə nəhəng "Şahdəniz" qazkondensat yatağı işlənməyə buraxıldıqdan sonra, təbii qaz idxalı dayandırılacaq və 2005-ci ildən sonra isə Türkiyəyə və Avropa ölkələrinə təbii qazın ixracı başlanacaqdır.

V. D. Aslanov "Problemlərin həlli öz əlimizdədir" ("Azərbaycan", 6.09.95) məqaləsində neft-qaz sənayesi və elektrik-istilik enerjisi istehsalı sahələrindəki mövcud infrastrukturların fəaliyyəti barədə o vaxt belə yazmışdır: "Bazar iqtisadiyyatı şəraitində Səhmdar Cəmiyyətlərinin yaradılması məqsədyönlü hesab edilməlidir. Lakin bütün hallarda strateji obyektlər dövlətin monopoliyasında saxlanılmalıdır. İnkişaf etmiş ölkələrin praktikasını nəzərə alaraq, neft, qaz, energetika dövlət şirkətlərini və komitəsini üzvü surətdə özündə birləşdirən Azərbaycan Respublikasının Yanacaq-Energetika Nazirliyinin yaradılması bizcə, məqsədəuyğun olardı". Həmin vaxtdan altı il vaxt keçdikdən sonra Yanacaq-Energetika Nazirliyinin yara-

dılmasını təqdirəlayiq hadisə hesab etmək olar. Yeni yaradılmış nazirlik energetika şirkətlərinin inteqrasiyasını səmərəli təmin edəcək və onların işini, habelə debitor borclarını tənzimləyəcəkdir.

V. D. Aslanov dəfələrlə Beynəlxalq və Ümumittifaq konfranslarda (Moskva, Krasnodar, Aşqabad, Qroznı, Tbilisi, İvano-Frankovsk, Bakı) qaz sənayesinin aktual problemlərinə həsr edilmiş elmi məruzələr etmişdir. 1998-ci ildə "Azəriqaz" QSC-nin nümayəndə heyəti tərkibində AzETLQİ-nin "Yeraltı qaz anbarları" laboratoriyasının rəhbəri kimi "Qaz-de Frans" və "Sofreqaz" şirkətlərinin dəvəti ilə Fransada elmi ezamiyyətdə olmuşdur. Özünün neft-qaz resursları olmayan Fransanın energetika sahəsində əldə etdiyi nailiyyətlərin sirrini öyrənmişdir.

2001-ci il iyunun 5-8-də "Xəzər neft, qaz, neftayırma və neft-kimyası" 8-ci Beynəlxalq sərgi və konfransında V. D. Aslanov "Yeraltı qaz anbarlarının qaz sənayesinin inkişafında rolu" mövzusunda maraqlı məruzə etmişdir. Onun elmi əsaslarla işləyib hazırladığı Azərbaycanın fəaliyyətdə olan yeraltı qaz anbarlarının, habelə perspektivli Nehrəm qaz anbarının və duzmədən kompleksinin üç ölçülü maketləri 1998-ci ildən başlayaraq, "Xəzər neft-qaz" Beynəlxalq sərgilərində nümayiş etdirilir. "Neft i qaz" "Evraziya" jurnalının 3-cü sayında onun "V poiskax kapitala dlya stroitelstva podzemnıx xraniliş qaza" adlı samballı məqaləsi çap olunmuşdur.

V. D. Aslanov uzun illər apardığı elmi-tədqiqat və layihə işlərinin nəticəsi kimi "Azərbaycanın qaz təchizatı problemlərinin həlli yolları ilə əlaqədar yeraltı qaz anbarlarının yaradılmasının geoloji əsasları" mövzusunda doktorluq dissertasiyasını tamamlamışdır. Doktorluq dissertasiyasında alınmış nəticələr qaz sənayesində praktiki əhəmiyyət kəsb edir. Doktorluq dissertasiyasının ümumiləşdirilmiş materialları əsasında o, "Qaz təchizatı problemlərinin həlli yolları ilə əlaqədar yeraltı qaz anbarlarının yaradılmasının geoloji əsasları" mövzusunda monoqrafiyasını 2001-ci ildə çap etdirmişdir.

Vaqif müəllimin Respublikada və onun hüdudlarından kənarda 80-dan artıq elmi məqaləsi elmi jurnallarda dərc olunmuşdur. Onun elmi nailiyyətlərinin istehsalata tətbiqi sahəsində müəyyən nəticələr qazanılmışdır. O, bir neçə müəlliflik şəhadətnaməsinin və səmərələşdirici təklifin müəllifidir. Qaz sahəsinin aktual problemlərinə həsr olunmuş 90-a qədər məqaləsi mətbuat səhifələrində çap olunmuş, dəfələrlə çıxışları televiziya və radio verilişlərində səslənmişdir. Qaz sənayesində fəal və nümunəvi işinə görə Azərbaycan Respublikasının Fəxri Fərmanı ilə təltif olunmuşdur. "Qaz Sənayesi Əlaçısı" adını almışdır. 1994-cü ildə "Azərbaycanın iqtisadi inkişafına" dair keçirilmiş yaradıcılıq müsabiqəsinin qalibidir. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.



# GEOLOQ, ELM ADAMI, JURNALİST



***"Elm uzaq Çində də olsa, ona sahib olmaq üçün yola çıxmaqdan çəkinməyin"***

***Məhəmməd Peyğəmbər***

Geologiya-mineralogiya elmləri doktoru Adil Abbasəli oğlu Əliyev geologiya elminin təşkilatçısı və təbliğatçılarından biri, görkəmli geologiya alimidir. O, 1930-cu il sentyabrın 7-də Bakıda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetini (indiki BDU) fərqlənmə diplomu ilə bitirmiş, neftçi-geoloq ixtisasına yiyələnmişdir. 1954-cü ilin sonunda ADU-nun geologiya fakültəsinin elmi şurasının qərarı ilə A. Əliyev Azərbaycan EA Geologiya İnstitutunun aspiranturasına göndərilmişdir. 1958-ci ilin əvvəllərində o, namizədlik dissertasiyası müdafiə etmişdir. Onun dissertasiya mövzusu o vaxtlar hələ öyrənilməmiş Aşağı Kür rayonu qazma sahələrinin öyrənilməsinə həsr edilmişdir. Hansı ki, sonralar "Gürovdağ", "Müşovdağ", "Qalmaz" və başqa sahələrdə böyük neft-qaz yataqları açılmışdır.

Adil Əliyev hələ tələbəlik illərində elmi-tədqiqat işlərinə böyük maraq göstərmiş, institutun birinci kursundan başlayaraq, paralel olaraq həm də Azərbaycan EA Geologiya İnstitutunda işləmiş, çöl ekspedisiya işlərində, laboratoriya tədqiqatlarında fəal iştirak etmişdir. O, dördüncü kursda olarkən "Tərtər çayının yuxarı hissəsinin geoloji quruluşu" mövzusundakı elmi işi tələbə elmi cəmiyyətində yüksək qiymətləndirilmiş, ona fəxri fərman təqdim olunmuşdur. İstedadlı tələbə 1954-cü ilin fevralında, hələ institutu bitirməmiş, Geologiya İnstitutunun neft mədənləri geokimya laboratoriyasına qəbul edilmiş, böyük laborant vəzifəsinə təyin edilmişdir. Namizədlik dissertasiyası müdafiə etdikdən sonra, Adil Əliyev həmin laboratoriyada geokimyəvi tədqiqatlarla məşğul olmuş, bu tədqiqatlar Azərbaycanın neftli-qazlı sahələrinə həsr edilmişdir.

1950-ci ilin axırları, 1960-cı ilin əvvəllərində Şamaxı, Xəzəryanı - Quba rayonlarında və Kür çökəkliyinin şərqində çöküntü süxurların öyrənilməsi geniş şəkildə aparılırdı. Aparılan işlərin nəticələri onun "Xəzəryanı - Quba vilayətinin təbaşir və üçüncü dövr çöküntülərində orqanik maddələr" (1963), "Şərqi Kür çökəkliyinin üstpliosen çöküntülərinin geoloji-geokimyəvi xassələri" (1965) kitablarında öz əksini tapmışdır.

1960-cı illərin ikinci yarısında orqanik maddələrin öyrənilməsi Qərbi Azərbaycan və Şərqi Gürcüstan ərazilərini əhatə etməyə başladı. Bu işlərin aparılmasında A. Əliyevin bitum və orqanik maddələr laboratoriyasının da böyük rolu olmuşdur.

A. Əliyev Palçıq vulkanlarının problemlərinə ömrünün 30 ilini sərf etmişdir. Onun apardığı tədqiqatların nəticələri "Xəzəryanı neftli-qazlı vilayətinin palçıq vulkanları" kitabında dərc edilmişdir (1969). 1985-ci ildə A. Əliyevin yeni bir kitabı - "Palçıq vulkanlarının geokimyası və yerin dərin qatlarının neftli qazlılığı" işıq üzü görmüşdür.

1986-1990-cı illərdə A. Əliyev Suriyanın Dəməşq şəhərinə ezam olunmuş və orada o, Suriya neft kampaniyasının baş mühəndis - geokimyaçı və elmi məsləhətçi vəzifəsində fəallıq göstərmişdir. O, mezozoy və polezoy çöküntülərinin geokimyəvi xəritələrini tərtib etmişdir.

1992-ci ildən A. Əliyev bir sıra xarici kampaniyalarla və firmalarla - o cümlədən, "Britiş Petroleum", "Statoyl", "AMOKO", "Ekson" ilə əməkdaşlıq edir.

A. Əliyev 300-dən çox elmi işin, o cümlədən 8 monoqrafiyanın müəllifidir. O, nəinki keçmiş sovetlər məkanında, hətta uzaq ölkələrdə tanınmışdır. A. Əliyev bir sıra beynəlxalq konqreslərdə məruzə ilə çıxış etmişdir. Bir alim kimi o, müxtəlif simpoziumların iştirakçısı olmuşdur (Moskva, Türkiyə, Almanıya, Macarıstan).

Elmi tədqiqatlarla yanaşı, A. Əliyev 40 ildən artıq jurnalistika ilə də məşğul olmuşdur. O, 150-dən çox qəzet və jurnal məqalələrinin müəllifidir. Böyük geoloq, görkəmli elm adamı, sərıştəli jurnalist Adil Abbasəli oğlu Əliyev fasiləsiz olaraq, elmi axtarışlarla məşğul olur və öz həmkarlarının hörmətini qazanmışdır.



# 40 İL ELMİ-PEDAQOJİ FƏALİYYƏTDƏ



*"Çox zaman can yandırıb çalış,*
*axıt inci tər,*
*Beləliklə, taparsan taca layiq*
*bir gövhər".*
*Nizami*

Elmira Məmmədəmin qızı Ramazanova 1934-cü il oktyabr ayının 28-də Bakı şəhərində həkim ailəsində dünyaya gəlmişdir. O, 1952-ci ildə Bakıda 134 saylı orta məktəbi qızıl medalla qurtarmışdır. Sonra Azərbaycan Sənaye İnstitutunun (indiki ADNA) Energetika fakültəsinə daxil olmuş, həmin institutu 1957-ci ildə fərqlənmə diplomu ilə bitirmiş "istilik-energetikası" ixtisası almışdır. Bir müddət Az.SSR Energetika idarəsində işləmişdir. 1960-cı ildə o, Azərbaycan Neft və Kimya İnstitutunun aspirantı olmuş, burada neft-qaz və qazkondensat sisteminin termodinamikası ilə məşğul olmuş, elmi-tədqiqat işləri aparmışdır.

1965-ci ildə Elmira xanım namizədlik dissertasiyası müdafiə etmişdir.

Sonralar öz elmi-tədqiqatlarını davam etdirərək E. E. Ramazanova doktorluq dissertasiyası üzərində işləmiş və onu tamamlamışdır. O, 1975-ci ildə "Adaptasiya metodları tətbiqi əsasında neft-qazkondensat yataqlarının termodinamik tədqiqatı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

E. M. Ramazanova 1963-cü ildən 1977-ci ilə qədər doğma institutda "İstilik texnikasının nəzəri əsasları" kafedrasında assistent, sonra dosent, professor vəzifələrində işləyib. 1978-ci ildə "Neft yataqlarının işlənməsi və istismarı" kafedrasında professor seçilmişdir. İnstitutda prof. E. Ramazanova bir neçə rəhbər işdə çalışmışdır. 1981-1992-ci illər ərzində institutun axşam və qiyabi təhsili üzrə prorektoru olmuşdur. 1992-ci ildən indiyə kimi "Neft qaz və kimyanın geotexnoloji problemləri" elmi-tədqiqat institutunun direktoru vəzifəsində çalışır.

40 ildir elmi-pedaqoji fəaliyyət göstərən professor E. M. Ramazanova 200-dən çox elmi əsərin müəllifidir. Onun əsərləri başlıca olaraq "Neft və qaz geologiyası", "Qaz sənayesi", "Neft və qaz" və digər nüfuzlu jurnallarda çap olunmuşdur.

Professor E. Ramazanovanın elmi tədqiqatları, neftqazkondensat yataqlarının istismarı zamanı parametrlərin və göstəricilərin hesabatında yeni metodların işlənib hazırlanması və tətbiqinə aiddir. Onun hazırladığı karbohidrogen sisteminin faza tarazlığının hesabat metodu layihə, tədqiqat və istehsalat təşkilatlarında öz tətbiqini tapmışdır. Onun tərəfindən neftqazkondensat sistemlərinin termoqazhidrodinamikası nəzəriyyəsi və praktikasında yeni istiqamət yaradılmışdır. O, parametrlərin və tərkibin geniş diapazonunda qaz-kondensat-neft sistemlərində faza keçidinin qanunauyğunluluğunu tapmışdır. Onun verdiyi sistemin faza keçidlərinin təyini metodu ayrı-ayrı komponentlərin aktiv desorbsiya anlarının tapılmasına imkan verir, neftqazkondensat sistemlərinin mürəkkəbliyi və qeyri-cinsliyi ilə əlaqədar olan yeni effektlərini aşkarlayır. Burada doyma təzyiqi və lay təzyiqi arasındakı əlaqənin alınması böyük əhəmiyyət kəsb edir.

Qazın ayrılmasının ilkin diaqnostika olunması, cari lay təzyiqinin və doyma təzyiqinin proqnozlaşdırılmasının yüksək effektli metodu (dərin yataqlar üçün) metodik rəhbərlik kimi Qərbi Sibirdə neft yataqlarında doyma təzyiqini tapmaq üçün təklif edilib. Hazırlanmış ekspress-metod Azərbaycanda, Qərbi Türkmənistanda və Qərbi Sibirdə neft yataqlarının növünün təyin edilməsində geniş tətbiq tapmışdır.

Hal-hazırda Elmira xanımın rəhbərliyi altında geniş hal parametrlərində kondensatın, neftin, neft məhsullarının termodinamik, istilik-fiziki, kalorik xassələri kompleks tədqiq edilir.

Professor Ramazanova xalq təsərrüfatının müxtəlif sahələri üçün yüksək ixtisaslı kadrların yetişdirilməsində xidmətlər göstərmişdir.

İşdə xidmətlərinə görə professor E. M. Ramazanova "Şərəf Nişanı" ordeni (1985), "SSRİ neft sənayesinin əlaçısı" nişanını (1981), "SSRİ-nin fəxri neftçisi" adını (1990), "Azərbaycan Respublikasının əməkdar elm xadimi" (1990) adını almışdır. 1995-ci ildən "Şərq Neft Akademiyası"nın akademikidir.



# GÖRKƏMLİ ALİM-GEOFİZİK



*"Ağıl olan yerdə şərəf də olar"*
***Atalar sözü.***

Nazim Əliheydər oğlu Qarayev 1927-ci il mart ayının 6-da Bakı şəhərində anadan olmuşdur. 1950-ci ildə Moskva Geoloji Kəşfiyyat İnstitutunun geofizika fakültəsini bitirmişdir. İnstitutu bitirdikdən sonra, 1950-1955-ci illərdə "Geofizkömürkəşfiyyat" Trestinin Kompleks Seysmik Dəstəsinin texniki rəhbəri, baş mühəndis vəzifələrində işləyib. 1955-1960-cı illərdə isə o, Leninqrad şəhərinin Dağ İnstitutunun aspirantı olmaqla, eyni zamanda Leninqrad geoloji kəşfiyyat elmi-tədqiqat laboratoriyasının seysmik dəstəsinin texniki rəhbəri vəzifəsində çalışmışdır.

1960-1970-ci illərdə Nazim Əliheydər oğlu Qarayev özünün təşəbbüsü ilə yaradılmış Ümumittifaq Geoloji Kəşfiyyat Laboratoriyasının rəhbəri olmuşdur. Bu laboratoriya sonralar seysmik şöbəyə çevrilmişdir. Şöbəyə Nazim müəllim 1991-ci ilə qədər rəhbərlik etmişdir.

Hal-hazırda fizika-riyaziyyat elmləri doktoru Nazim Qarayev Leninqrad Dağ İnstitutunun baş elmi işçisi vəzifəsində işləyir.

Nazim Əliheydər oğlu Qarayevin tədqiqatları, nəinki seysmik məsələlərə, hətta yerin təkinin öyrənilməsinə həsr edilmişdir.

1994-cü ildə N. Ə. Qarayev "Əməkdar elm və texnika xadimi" fəxri adına layiq görülmüşdür. O, 1995-ci ildə Rusiya Federasiyası Elmlər Akademiyasının müxbir üzvü, 2000-ci ildə isə bu akademiyanın akademiki seçilmişdir.

O, 170 elmi işin, o cümlədən, 8 monoqrafiyanın, 4 kitabçanın və 3 ixtiranın müəllifidir.

Hal-hazırda Nazim Əliheydər oğlu Qarayev iki ixtisaslaşdırılmış elmi şuranın (Sankt-Peterburq Dağ İnstitutunun və Rusiya "Filizgeofizika" İnstitutunun), həmçinin Rusiya "Geofizika" jurnalının redaksiya heyətinin üzvüdür. Onun elmi işləri xarici alimlərin diqqətini cəlb etmişdir. O, Çinin Çançun Universitetinin fəxri professoru seçilmişdir. Nazim Əliheydər oğlu Qarayevin adı Rusiyanın üç ensiklopedik nəşrinə daxil edilmişdir ("Rusiyanın geoloqları və dağ mühəndisləri", "Rusiyanın geofizikləri", "Rusiya elmlər akademiyasının müxbir üzvləri" ensiklopediyaları).

1995-ci ildə o, elmi nailiyyətlərinə görə akademik P. L. Kapitsanın diplomuna və gümüş medalına, həmçinin imperator Birinci Pyotrun xatirəsinə həsr edilmiş diploma və gümüş medala layiq görülmüşdür (1998-ci il).



# PERSPEKTİVLİ MENECER

*"İrəli baxan, irəli gedər"*
*Atalar sözü*

Yolçuyev Tariyel İbrahim oğlu 1957-ci il yanvar ayının 14-də Ermənistanın Qafan şəhərində anadan olmuşdur.

1973-78-ci illərdə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun ingilis-fransız dili fakültəsini bitirmişdir. O, orta məktəbdə müəllim işləmişdir.

1983-87-ci illərdə T. İ. Yolçuyevə böyük etimad göstərilərək onu xarici turizm üzrə Dövlət Komitəsinin böyük tərcüməçisi vəzifəsinə irəli çəkmişlər.

Böyük səriştə və dil təcrübəsinə yiyələnmiş T. Yolçuyev 1987-1990-cı illərdə keçmiş SSRİ Müdafiə Sənayesi Nazirliyi xətti ilə Hindistan Respublikasına ezam olunmuşdur. Bu illərdə o, xarici diplomatiya sahəsində kifayət qədər təcrübə toplamış və eyni zamanda ingilis dilinin mənimsənilməsi sahəsində bir sıra uğurlar qazanmışdır. T. Yolçuyev zəngin təcrübəsini 1991-1993-cü illərdə Dövlət Neft Konsernində davam etdirmişdir.

O, 1991-ci ildən başlayaraq, öz taleyini neft sənayesinə bağlamış, əvvəlcə, Böyük Britaniyanın "Kembric" Universitetində təhsilini davam etdirmiş, idarəetmə sahəsində bir sıra nəzəri biliklər əldə etmişdir.

Qərbin inkişaf etmiş Neft Şirkətlərinin idarəetmə təcrübəsinə yiyələnmək üçün T. Yolçuyev ABŞ-ın İndiyana ştatında yerləşən "Vinsenz" Universitetinin Biznes idarəçiliyi və rəhbərliyi üzrə Magistratura kursunu bitirərək, yenidən Azərbaycan Dövlət Neft Şirkətinə qayıtmışdır. O, əvvəlcə ABŞ-ın ARDNŞ ilə birgə "VMV oyl İNK" müəssisəsində marketinq üzrə menecer, sonralar isə ABŞ-ın "Konoko" Şirkətində ofis meneceri vəzifəsində çalışmışdır.

1999-cu ildən etibarən T. Yolçuyev Salyan oyl LTD Əməliyyat Şirkətində "Dövlət və ictimaiyyətlə əlaqələr üzrə menecer vəzifəsində çalışır.



# GEOLOQ VƏ GEOFİZİKLƏRİN BÖYÜK MARAĞINA SƏBƏB OLMUŞDUR



*"Həmişə dünyada yaxşılıq axtar,*
*Yaxşı ad almaqda əbədiyyət var".*
*Nizami*

Geofizika və Mühəndis geologiyası İB-nin geoloji şöbəsinin rəisi, geologiya-mineralogiya elmləri namizədi Zeynalov Mir Adil Mir Kazım oğlu 1936-cı il oktyabrın 20-də Şamaxı rayonunun Hacıqədirli kəndində doğulmuşdur. O, 1959-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Azərbaycan Dövlət Neft Akademiyası) dağ mühəndisi - geoloq ixtisası üzrə bitirdikdən sonra, "Azərneftkəşfiyyat" trestində texnik-kartoqraf, qazma idarəsinin geoloqu, Şamaxı və Beyləqan rayonlarında struktur-axtarış qazması partiyasının böyük geoloqu vəzifələrində işləmişdir (1959-1962-ci illər). 1962-1965-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun əyani aspiranturasında təhsil almış və 1966-cı ilin fevral ayında geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün "Pirsəhhət və Girdiman çayları arasında Üçüncü dövr çöküntüləri zolağının geoloji quruluşu və neftlilik-qazlılıq perspektivləri" mövzusunda dissertasiya müdafiə etmişdir (elmi dərəcə 1966-cı ilin may ayında təsdiq olunmuşdur).

1966-1992-ci illərdə M. M. Zeynalov Azərgeofizika elmi-tədqiqat institutunda böyük mühəndis, kiçik elmi işçi, baş elmi işçi, bölmə müdiri, laboratoriya müdiri, şöbə müdiri vəzifələrində çalışmışdır. O, ardıcıl olaraq 25 il ərzində, yəni 1967-1992-ci illərdə, əsas vəzifələri ilə yanaşı, institutun elmi katibi vəzifəsini yerinə yetirmişdir.

1993-cü ilin yanvarında o, yeni yaranmış Geofizika və Mühəndis geologiyası İB-nın geoloji şöbəsinə keçmiş və burada geoloq, şöbə müdiri vəzifələrində çalışmışdır. 1993-cü ilin noyabrından 1994-cü ilin fevralına kimi, həmçinin Birliyin baş geoloqunu əvəz etmişdir.

İstehsalatda və elmi-tədqiqat institutunda çalışdığı müddət ərzində M. M. Zeynalov Azərbaycanın ayrı-ayrı neftli-qazlı rayonlarının müxtəlif sahələrinin tektonik xüsusiyyətlərini, neftlilik-qazlılıq perspektivlərini yüksək peşəkarlıq səviyyəsində araşdırmışdır. Qobustana həsr etdiyi elmi məqalələrində Mezozoy çöküntülərinin sahədə, xüsusilə də Cənubi Qobustanda yüksək perspektivə malik olduğunu, bu çöküntülərin cavan çöküntülərlə ayrı-ayrı zonalarda müxtəlif struktur münasibətdə yatdığını mövcud geoloji-geofiziki məlumatlar əsasında açıqlamışdır. Ceyrankeçməz çökəkliyində (Cənub-Şərqi Qobustan) ümumqafqaz istiqamətdə uzanan antiklinal qırışıqların eninə istiqamətdə uzananlara nisbətən daha perspektivli olduğunu elmi əsaslandırmışdır. Məşhur Vəndam geoantiklinal zonasının gömülmüş cənub-şərq uzantısının Şimali və Mərkəzi Qobustanın təmas xəttində yerləşən Goradil antiklinal zolağına uyğun gəldiyini sübut etmişdir.

O, GMG İB-nin şöbə müdiri kimi Birliyin geoloji-geofiziki tədqiqatlarının əlaqələndirilməsi, tədqiqatlar üçün obyektlərin seçilməsi və əldə edilmiş nəticələrin araşdırılması işində yaxından iştirak etmişdir.

Apardığı tədqiqatlara məsuliyyətlə yanaşması əldə etdiyi elmi nəticələrin səviyyəsini daim artırmağa imkan vermişdir. O, 93 elmi işin müəllifidir və bunlardan 70 iş dövri mətbuatda dərc edilmişdir. Dərc olunmuş elmi işlər sırasına dörd iri həcmli geoloji-geofiziki atlas, iki kitab və rusca-azərbaycanca geofizika terminlərinin izahlı lüğəti daxildir. Digər tədqiqatçılarla birlikdə Leninqradda və Amerikada (Hyüstonda) nəşr edilmiş Azərbaycanın və Cənubi Xəzərin neftli-qazlı və perspektivli strukturlarının geoloji quruluşunu əks etdirən atlaslar və onların izahat kitabçaları nəinki Azərbaycanın, ilk növbədə xarici ölkə geoloq və geofiziklərinin böyük marağına səbəb olmuşdur. M. M. Zeynalovun iştirakı ilə tərtib olunmuş bir sıra mühüm geoloji xəritələrdə ("Qara dəniz - Cənubi Xəzər regional gömülmə vilayətinin dərinlik quruluşu xəritəsi", "Azərbaycanın neft-qaz geoloji rayonlaşdırma xəritəsi", "Azərbaycanın tektonik rayonlaşdırma xəritəsi" və s.) bu qəbildəndir.

1997-ci ildə M. M. Zeynalov Beynəlxalq Ekoenergetika Akademiyasının professoru - elmlər doktoru seçilmişdir.

O, "Şərəfli əmək uğrunda" medalı (1970 il), "Azərbaycan neftinin milyardıncı tonu" nişanı (1971), SSRİ Geologiya Nazirliyinin Fəxri Fərmanları (1970, 1986) ilə təltif olunmuşdur.



# BEYNƏLXALQ STANDARTLARA UYĞUN



*"Olma qane elmdə, hər rütbəyə
çatsan da bil,
Səyin artdıqca bu yolda artacaqdır
qiymətin".*
***M. Füzuli***

Cabbarov Rauf Cavad oğlu 1949-cu il iyunun 27-də Tbilisi şəhərində anadan olmuşdur. 1966-cı ildə Bakıda orta məktəbi bitirmiş, həmin ildə də M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun neft-mexanika fakültəsinə daxil olmuş, 1971-ci ildə həmin institutu "Neft və qaz mədən maşın və avadanlığı" ixtisası üzrə bitirmişdir. İnstitutda oxumaqla bərabər 1970-ci ildə Azərbaycan Maşınqayırma Texnologiyası İnstitutunda əvvəlcə texnik, sonra mühəndis və kiçik elmi işçi vəzifələrində çalışmışdır. 1973-cü ildə AzİNMAŞ-ın aspiranturasının əyanı şöbəsinə qəbul olmuş, 1974-cü ildən etibarən AzİNMAŞ-da kiçik elmi işçi vəzifəsində işləməyə başlamışdır. 1976-cı ildə aspiranturanı bitirmişdir.

1979-cu ildə Moskva İ. M. Qubkin adına Neft Kimya və Qaz Sənayesi İnstitutunda "Yeraltı avadanlığın etibarlığının artırılması" mövzusu üzrə namizədlik dissertasiyasını müdafiə etmişdir.

1979-cu ildə AzİNMAŞ-ın nasos ştanqları bölməsinin müdiri təyin edilmişdir.

R. C. Cabbarovun rəhbərliyi altında ştanqlı nasos qurğularının - dərinlik nasos ştanqları, onların muftaları və eləcə də korroziyalı (6-25%-ə qədər $N_2S$ və $CO_2$) mühitdə və Qərbi Sibir şəraitində istismar oluna bilən quyuüstü avadanlığın bir neçə növü yaradılmışdır.

1987-ci ildən institutun elmi işlər üzrə direktor müavini və 1991-ci ilin yanvar ayından etibarən isə institutun direktoru vəzifəsinə təyin olunmuşdur.

R. C. Cabbarov 13 ixtiranın, 6 patentin, 60-dan çox elmi işin müəllifidir. 1318343 saylı müəlliflik şəhadətnaməsi üzrə "Dərinlik nasosları üçün başcıqlı ştanqların hazırlanması üsulu" adlı ixtirası bir sıra xarici ölkələrdə patentləşdirilmiş, istehsalatda müvəffəqiyyətlə tətbiq olunaraq böyük iqtisadi

səmərə əldə edilmişdir. Bu ixtiraların lisenziyasının satışından AzİNMAŞ 200000 ABŞ dolları məbləğində gəlir əldə etmişdir

R. C. Cabbarov 1995-ci ildə Beynəlxalq İqtisadi Enerji Akademiyasının elmlər doktoru diplomunu almışdır.

Son 10 il ərzində R. C. Cabbarovun rəhbərliyi altında Azərbaycan neft sənayesi üçün bir sıra mühüm avadanlıq layihələri işlənilmiş, hazırlanıb sınaqlardan keçirilərək neftçilərə təhvil verilmişdir. AzİNMAŞ-ın layihə etdiyi neft-mədən avadanlığı beynəlxalq standartlara uyğundur. Bunlardan 50 ton yükqaldırma qabiliyyəti olan qazma kompleksi, 700 atm təzyiqli fontan armaturu, yükqaldırma qabiliyyəti 40 və 60 ton olan qaldırıcı aqreqatlar, hesablama texnologiyasının tətbiqi ilə əlaqədar yaradılmış səyyar qurğu, ştanqlar üzrə dövlətlərarası standartları xüsusi əhəmiyyətə malik layihələrdir.





# QALDIRICI AQREQATLAR



*"Bilik gündəlik təcrübənin zərrələrindən əmələ gəlir"*

*D. İ. Pisaryev*

Əlizadə Vaqif Ələkbər oğlu 1947-ci ildə Bakıda anadan olmuşdur. 1966-cı ildə orta məktəbi bitirmiş və həmin ildə də Odessa Dəniz Donanması mühəndisləri institutunun axşam şöbəsinə daxil olmuş, oxumaqla yanaşı 1966-1967-ci illərdə Vano Sturua adına zavodda çilingər işləmişdir. 1972-ci ildə mühəndis-mexanik diplomu ilə institutu bitirmişdir.

1970-ci ildən başlayaraq AzİNMAŞ-da çertyojçu, baş texnik, kiçik elmi işçi, baş elmi işçi, bölmə müdiri, şöbə müdiri vəzifələrində işləmişdir.

1973-1975-ci illərdə AzİNMAŞ-ın aspiranturasında oxumuşdur.

1981-ci ildə V. Ə. Əlizadə Moskva İ. M. Qubkin adına Neft və Qaz İnstitutunda namizədlik dissertasiyasını müdafiə etmiş, texnika elmləri namizədi adını almışdır.

1991-1992-ci illərdə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda dosent olmuşdur.

1992- ci illərdə bir sıra kommersiya strukturlarında işləmişdir.

Hal-hazırda AzİNMAŞ-ın elmi işlər üzrə direktor müavini vəzifəsində işləyir.

V. Ə. Əlizadə 80-dən artıq elmi işin, 50-dən artıq ixtiranın müəllifidir. Onun bir çox ixtiraları dünyanın bir sıra xarici ölkəsində (ABŞ, AFR, İtaliya, ÇXR və s.) patentləşdirilmişdir. Quyularda endirib-qaldırma əməliyyatlarını aparmaq üçün qaldırıcı qurğular üzrə ixtiraları istehsalatda tətbiq olunaraq böyük iqtisadi səmərə vermişdir.

V. Ə. Əlizadənin rəhbərliyi altında KPR-12 hidravlik açarı və SQ hidrostansiyası, KOT, KTDU açarlarının bir çox tipölçüləri, SQ-32 hidravlik spayderi yaradılmış və hal-hazırda Səbayel maşınqayırma zavodu, İşimbay maşınqayırma zavodu tərəfindən seriya ilə buraxılır. FM tipli frezer-tutucular Balaxanı maşınqayırma zavodu, KORO1-80 qurğusu üçün borututanlar Ukraynada Frunze adına Suma EİB, quyuların təmiri üçün yüksək mexanikləşdirilmiş UPA-32 qurğusu Keşlə maşınqayırma zavodu tərəfindən istehsal edilir.

Hal-hazırda V. Ə. Əlizadə yükqaldırma qabiliyyəti 40 və 60 ton olan qaldırıcı aqreqatların yaradılmasına rəhbərlik edir. Bu aqreqatlara təkcə Azərbaycanda deyil, MDB-nin bir çox bölgələrində də böyük ehtiyac var.



## LAYİHƏNİN BAŞ MÜHƏNDİSİ

*"Səadəti məqsədlərimizdə deyil, energiyamızda axtarmaq lazımdır".*
*Aristotel.*

Rzayev Əlibala Əlibəndə oğlu 1929-cu il noyabr ayının 10-da Bakı şəhərinin Ramanı kəndində ziyalı ailəsində anadan olmuşdur. 1947-ci ildə Bakı şəhərindəki 44 №-li orta məktəbi bitirdikdən sonra Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna daxil olmuş Neft Mədən fakültəsini bitirmişdir. 1953-cü ildə institutu bitirdikdən sonra, "Artyomneft" dəniz qazma trestinin kontoruna işləməyə göndərilmişdir. 1953-cü ildən 1960-cı ilə qədər həmin kontorda borular üzrə mühəndis, texniki istehsalat şöbəsində baş mühəndis və Neft-Mədən idarəsinin (NMİ) dəniz qazma kontorunda şöbə rəisi vəzifəsində çalışmışdır. NMİ-nin dəniz qazma kontorunda çalışdığı müddət ərzində 400-dən çox maili-küt quyuların qazılmasına rəhbərlik etmişdir.

Rzayev Ə. Ə. Azərbaycanın bütün neft yataqlarında kiçik diametrli maili-küt quyuların qazılmasını təklif etmiş və həyata keçirmişdir.

1960-cı ildən 1962-ci ilə kimi Əlibala Rzayev "Qaradağneft" NMİ-nin 2 N-li qazma kontorunda baş mühəndis vəzifəsində çalışmışdır. Onun rəhbərlik etdiyi geoloji mürəkkəb şəraitdə, dərin neft və qaz quyularının qazılması təmin olunmuşdur.

O, 1962-1963-cü illərdə "Əzizbəyovneft" NMİ-nin qazma kontorunda sahə rəisi işləmiş, 1963-1965-ci illərdə "AzNIIBurneft"də qazma texnologiyası bölməsində müdir vəzifəsində çalışmışdır.

1967-ci ildə "Maili quyuların qazılmasının texnika və texnologiyası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1968-1976-cı illərdə AzNSETLİ-də mürəkkəbləşdirmə laboratoriyasında müdir olmuşdur. 1976-1992-ci illərdə AzNSETLİ-nin qazma sahəsində elmi işlər üzrə direktorun müavini vəzifəsində çalışmışdır.

Əmək veteranı Ə. Ə. Rzayev Azərbaycanın Əməkdar mühəndisi, "Neft sənayesinin əlaçısı", "Fəxri neftçi" adlarına layiq görülmüş, medallarla fəxri fərmanlarla təltif olunmuşdur. O, beş ixtiranın müəllifidir.

Ə. Ə. Rzayev 100-dən çox elmi məqalənin və elmi işlərin müəllifidir. Onlardan 28-i çap olunmuşdur.

1992-ci ildən etibarən Ə. Ə. Rzayev AzNSETLİ-nin qazma şöbəsində layihənin baş mühəndisi vəzifəsində işləyir.



## ELMİ TƏDQİQATLAR, ELMİ MƏRUZƏLƏR



*"İnsanı yalnız bilik azad və böyük edir"*
*D. İ. Pisaryev*

Həsənov Asif Pənah oğlu 1934-cü il mayın 25-də Goranboy rayonunun Ağamalıoğlu kəndində anadan olmuşdur. 1951-ci ildə kənd orta məktəbini bitirib həmin ildə də Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, 1956-cı ildə oranı bitirərək "Əzizbəyovneft" Neft Mədənlər İdarəsinə göndərilmişdir. Həmin idarənin müxtəlif mədənləri və sexlərində operator, usta köməkçisi, sahə rəisi, böyük mühəndis, şöbə müdiri vəzifələrində çalışmışdır. 1966-1968-ci illərdə idarənin istehsalat-texniki şöbəsinin rəisi vəzifəsində işləmiş, baş mühəndisi əvəz etmişdir.

1966-cı ildə İ. M. Qubkin adına Moskva Neft və Qaz Sənayesi İnstitutunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1968-ci ildən 1972-ci ilə qədər Ümumittifaq Neft Təhlükəsizlik Texnikası İnstitutunda neft-mədən laboratoriyasına rəhbərlik etmişdir.

1972-ci ildən AzİNMAŞ-a "Quyu təmiri avadanlığı və alətləri" elmi-tədqiqat və konstruktor şöbəsinə müdir vəzifəsinə təyin olunmuş, hal-hazırda da bu vəzifədə işləyir.

1993-cü ildə İ. M. Qubkin adına Moskva dövlət Neft və Qaz Sənayesi institutunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1995-ci ildə professor elmi adını almışdır. 120 adda çap olunmuş elmi əsərin, o cümlədən 24 ixtiranın müəllifidir. 7 monoqrafiyası çap olunub.

A. P. Həsənovun elmi fəaliyyəti neft və qaz quyularının təmiri texnikasının yaradılması və təkmilləşdirilməsi istiqamətində elmi-tətbiqi məsələlərin həlli, bu sahədə nəzəri və eksperimental tədqiqatların aparılması, yeni elmi-texniki həllə malik olan neft avadanlığı və qurğuların işlənməsi və onların neft və qaz sənayesində tətbiqi ilə əlaqədardır.

A. P. Həsənovun elmi rəhbərliyi altında və şəxsən iştirakı ilə ilk dəfə olaraq yeni baxımda kompleks şəklində nəzəri, eksperimental və təcrübə konstruktor işləri aparılmışdır. Həmin tədqiqatların nəticələri Rusiyanın və

respublikanın mərkəzi nəşriyyatlarında və jurnallarında - "Nedra", "Ximiceskoe i neftyanoe maşinostroyenie", "Maşını i neftyanoe oborudovanie", "ЦİNTİXİMNEFTEMAŞ" "İNTIXIMNEFTEMAŞ", "Azerbaydjanskoye neftyanoye xozyaystvo", "Za texniçeskiy proqress", "Neft i qaz" və s. çap edilmişdir.

A. P. Həsənov apardığı tədqiqatlarda ilk dəfə olaraq yüksək effektli yeni konstruksiyalı quyu avadanlığı yaratmaq məqsədilə neft və qaz quyularında natural şəraitdə aparılan təmir proseslərini laboratoriya şəraitində təmsil edən fiziki və riyazi modelləşmənin əsası qoyulmuş, alınmış modellərin nəzəri və eksperimental tədqiqi üçün metodologiya işlənib tətbiq edilmişdir. Konstruktiv parametrlər silsiləsini sistemləşdirən metodiki və rəhbər sənədlər işlənib istehsalata tətbiq edilmişdir.

Tədqiqatlar nəticəsində təklif olunmuş və müəlliflik şəhadətnamələrilə müdafiə olunmuş, elmi-texniki və prinsipcə yeni konstruktor işləmələri əsasında onun şəxsən iştirakı ilə 57 tip ölçüdən çox yeni və təkmilləşdirilmiş konstruksiyada quyu avadanlığı və alətləri işlənib seriya ilə buraxılmış respublikanın və keçmiş İttifaqın neft və qaz sənayesində tətbiq edilmişdir. Bu avadanlıq və alətlərin tətbiqi quyuların təmir-bərpa işlərini 2-3 dəfə sürətləndirməyə imkan vermişdir.

A. P. Həsənovun rəhbərliyi altında aparan tədqiqatlar dövlət və sahələrarası proqramlar əsasında yerinə yetirilmişdir. Onun təşəbbüsü və rəhbərliyi ilə 1984-cü ildə Bakıda Ümumittifaq sahələrarası əlaqələndirmə müşavirəsi təşkil edilmişdir.

A. P. Həsənov elmi kadrların hazırlanması sahəsində də dəyərli işlər görmüşdür. O, bir neçə illər AD Neft Akademiyasının "Neft mədən mexanikası, maşın və mexanizmlər" kafedrasında professor vəzifəsi tutmuşdur. Hazırda "Neft maşınqayırma texnologiyası" kafedrasının professorudur. Onun kitabları və dərs vəsaitləri tədris prosesində istifadə olunur.

Son illər Təhsil Nazirliyinin əmri ilə Neft Akademiyasında Dövlət İmtahan Komissiyasının sədri təsdiq olunmuşdur.

Texniki elmlər üzrə Ali Attestasiya Komissiyasının ekspert şurasının üzvü olmuşdur. AD Neft Akademiyasının namizədlik və doktorluq müdafiələri üzrə ixtisaslaşdırılmış şuranın üzvüdür.

A. P. Həsənovun elmi rəhbərliyi ilə 5 nəfər aspirant Moskva və Bakı şəhərlərində namizədlik dissertasiyası müdafiə etmişdir.

AzİNMAŞ-ın, AzNSETLİ-nin, Əməyin mühafizəsi və təhlükəsizlik texnikası institutlarının elmi şuralarının üzvüdür.

A. P. Həsənov öz elmi tədqiqatlarının nəticələri barədə elmi məruzələrlə respublikada və onun hüdudlarından kənarda - Bakı, Moskva, Nijnevartovsk, Samara, Surqut, Tümen və s. şəhərlərdə çıxış etmişdir.

İ. M. Qubkin adına Dövlət Neft və Qaz Sənayesi (Rusiya Federasiyası), Tonxua Neft Kompaniyası (Çin Xalq Respublikası), Hyüston İnjeneris, İNK (ABŞ) kimi xarici elmi mərkəzlərlə elmi əlaqələri olmuşdur.

1999-cu ildə ABİ Amerika Bioqrafiya İnstitutu tərəfindən A. P. Həsənovun adı "Əsrin yubiley nəşri" kitabına salınmışdır.



# ETİBARLI VƏ DAVAMLI NEFT - MƏDƏN AVADANLIQLARI



*"Təhsil xəzinədir, əmək onun açarı"*
*S. Əzim*

Qəhrəmanov Xalid Tofiq oğlu 1932-ci il iyunun 5-də Azərbaycan Respublikasının Qazax şəhərində anadan olmuşdur.

1950-ci ildə Bakıda orta məktəbi bitirmiş, Respublika tərəfindən Bauman adına Moskva Ali Texniki Universitetinə (MVTU) göndərilmişdir. Oranı 1956-cı ildə qurtarıb, raket mühərrikləri üzrə mühəndis-mexanik diplomu almış və Smolensk şəhərində SSRİ Müdafiə Nazirliyinin "Avıo" zavodunda 1959-cu ilə qədər aparıcı texnoloq vəzifəsində işləmişdir.

1959-cu ildə Bakıya qayıdaraq, Azərbaycan Elmlər Akademiyasının Fizika-Kimya İnstitutunda baş mexanik, 1961-ci ildən Kimya Prosesləri İnstitutunda akademik Dadaşov Bilalın rəhbərlik etdiyi "Raket yanacaqları laboratoriyasında" böyük mühəndis vəzifəsində işləmişdir.

1962-ci ildə həmin institutun aspiranturasına daxil olmuş və 1965-ci ildə "Raket mühərriklərinin yanacaqlarında yüksək tezlikli yanmanın kimyəvi tərkibindən asılılığı" mövzusu üzrə Moskva mütəxəssislərinin iştirakı ilə məxfi dissertasiya işini müdafiə etmiş, 1965-ci ildə təsdiqini almışdır.

Bu işlə əlaqədar olaraq ilk dəfə Azərbaycanda mayeli raket mühərriklərinin modeli yaradılmış, işə salınmış və həmin model Rusiya aparıcı institutlarında tətbiq edilmişdir.

Laboratoriyanın profili dəyişildiyinə görə 1965-ci ildə AzİNMAŞ-a işə daxil olmuş və "Fontan avadanlığının layihələndirilməsi və tədqiqatı" adlı 1 N-li şöbənin "Kipləyici qurğular" laboratoriyasına rəis təyin edilmişdir.

Bu şöbədə işlədiyi müddət ərzində ilk dəfə olaraq fontan armaturları üçün düzaxınlı kipləyicilərin layihələndirilməsi başlamış, sınaq işləri aparılmış, siyirtmələrə lazım olan kipləyici yağ (LZ-162) və asbest-qrafit tərkibli manjetlər (ANQ) Leninqrad və Yaroslavl institutları ilə birlikdə yaradılmış, sınaqdan keçirilmiş və istehsalatda geniş tətbiq edilmişdir.

12*

Həmin illərdə kiçik təzyiqli fontan armaturları üçün kipləyici yağı istifadə etməklə, kran kipləyiciləri layihə edilmiş və Rusiyanın Yuqo-Kamsk şəhərindəki zavodda istehsal edilməyə başlanmışdır.

Bundan əlavə, siyirtmələri təmir etmək üçün, quyunu saxlamadan çıxarmaq üçün lazım olan alət layihə edilmiş, stend sınağından keçirilmişdir.

1972-ci ildən yeni şöbənin "Texnologiya materialşünaslıq, qaynaq avadanlıqları" adlı 10 N-li şöbəyə müdir təyin edilmişdir.

Bu şöbədə işlədiyi müddət ərzində o, sürtünmə ilə qaynaq avadanlığının yaradılması və tətbiqi, institutun layihə etdiyi avadanlıqların materiallarının seçilməsi və korroziyaya davamlı materialların tədqiqi məsələləri ilə məşğul olmuşdur.

"Sürtünmə üsulu ilə ştanq başlıqlarının qaynağı üçün hazırlanmış maşın" adlı ixtiranın yaradılmasında iştirak etmiş, bu ixtiraya bir sıra qabaqcıl xarici ölkələrin (ABŞ, AFR, Kanada, İngiltərə və s.) patentini alınmış və lisenziyanın satışından AzİNMAŞ böyük mənfəət əldə etmişdir.

Bundan əlavə neft və qazın tərkibində 6% və 25% olan $CO_2$ və $H_2S$ mühitlərinə davamlı mənfi 60 S soyuğa davamlı fontan avadanlıqları üçün materiallar seçilmiş, SSRİ-də ilk dəfə olaraq, iki fazalı austenit ferrit tərkibli "Uranus" tipli poladın hərtərəfli tədqiqi aparılmış və istehsalata tətbiq edilmişdir. Soyuğa və hidrogen-sulfid mühitinə davamlı fontan armaturları üçün rezin, "Armatol-238" adlı kipləyici yağ və lubrikatorda kanatı kipləmək üçün "Lubritol" adlı kipləyici yağlar ixtira əsasında yaradılmış və istehsalatda tətbiq edilmişdir. Bu yağlar SSRİ yağlar kataloquna düşmüşdür.

Kimyəvi elementləri quyuya vurmaq və layihələnən aqreqat üçün materiallar tədqiqatlar əsasında təklif edilmişdir. Metalı əvəz edən polimer materialların siyahısı verilmişdir və s.

Bu müddət ərzində şöbədə stendlər yaradılmış, xeyli normativ sənədlər hazırlanmışdır.

Beləliklə, Neft Maşınqayırma Sənayesində yeni-korroziyaya davamlı neft-mədən avadanlıqları sahəsi yaradılmışdır.

O, AzİNMAŞ-da işlədiyi müddət ərzində 100-dən çox məqalə çap etdirmiş, 13 ixtira üçün şəhadətnamə alınmışdır. Bu ixtiraların doqquzu istehsalatda tətbiq edilmişdir.

Dəfələrlə SSRİ-nin "Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində" iştirak etmiş, bir gümüş, üç bürünc medal almış, "Əmək qəhrəmanlığına görə" və "Əmək Veteranı" medalları ilə təltif edilmiş. SSRİ-nin Neft və Kimya Maşınqayırma Nazirliyinin əmri ilə "Əməkdə fərqlənmə" adına layiq görülmüşdür.



# ELMİ-TƏDQİQAT VƏ KONSTRUKTOR İŞLƏRİ



***"Həyatda büdrəməyən adam yoxdur, lakin qəhrəmanlıq odur ki, büdrəyəndə yıxılmayasan"***

***M. Tandi***

Rəsulov Vaqif Əziz oğlu AzİNMAŞ-ın fontan quyularının quyu ağzının hermetikləşdirmə avadanlıqları adlı elmi-tədqiqat və konstruktor şöbəsinə böyük texnik vəzifəsinə 1966-cı ilin aprel ayında qəbul olunmuşdur. Həmin ildə o, Odessa Dəniz Mühəndisləri İnstitutunun Bakı filialının axşam şöbəsini, gəmi maşın və mexanizmlərinin mühəndis-mexaniki ixtisası üzrə bitirmişdir.

İşə başladığı gündən V. Ə. Rəsulov işçi təzyiqi Pi-50 MPa, sonralar isə Pi-70 MPa olan fontan armaturları, sütun sarğıları, düzaxımlı paralel şiberli siyirtmələr, quyuağzı avadanlığının siyirtmələrinin təzyiq altında dəyişdirilməsi üçün qurğunu işləyən qrupa daxil etmişdir. 1966-1973-cü illərdə o, vəzifə pillələrini keçərək böyük texnik vəzifəsindən aparıcı konstruktor vəzifəsinə qədər yüksəlmişdir. Bu illər ərzində R. Ə. Rəsulov konstruktor işlərindən əlavə elmi-tədqiqat işləri və yeni avadanlıqların neft sənayesində tətbiqi ilə də məşğul olmuşdur. Onun yaxından iştirakı ilə siyirtmələrin ANQ tipli kipləndiricilərin konstruksiyaları işlənmiş və sınaqdan keçirilmişdir. Həmin işlərin nəticəsi seriya ilə buraxılmaq üçün Yeqorov şəhəri Rezin texniki məmulatlar zavoduna verilmiş və həmin zavod bu günə qədər MDB ölkələrini kiplendirici manjetlərlə təmin edir.

60-cı illərin ikinci yarısında "Krasnı Molot" zavodu Dk-50 mm, Pi-50 MPa olan fontan armaturlarının istehsalını mənimsəmiş və əsas istehlakçısı "Xəzərdənizneftqaz" İB olan bu armaturları seriya ilə istehsal etmişdir. Belə armaturların istehsalı yüksək təzyiqin qazkondensat yatağı olan "Bahar" yatağının quyularının istismarını təmin etmişdir.

1973-1982-ci illərdə o, layihələrin Baş konstruktoru vəzifəsini tutmaqla, 1 saylı şöbənin əməkdaşları və institutun rəhbərliyi ilə birlikdə "Krasnı

Molot" zavodunda keçidinin diametri Dk-65 mm, işçi təzyiqi Pi-70 MPa olan fontan armaturlarının və sütun sarğılarının istehsalında yaxından iştirak etmişdir.

Siyirtmələrin təzyiq altında dəyişdirilməsi üçün yaradılmış qurğuya görə Rəsulov V. Ə. SSRİ XTN sərgisində qızıl medala layiq görülmüşdür. Beynəlxalq və ittifaq sərgilərində dəfələrlə iştirak etmiş V. Ə. Rəsulov qızıl, gümüş və üç bürünc medallarla təltif olunmuşdur.

O, 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində, dəniz neft mədənlərinin dərin sahələrində quraşdırılmış özüllərdən, yüksək təzyiqli və məhsuldar quyuların ağır istismar şəraitini nəzərə alaraq, məsafədən və avtomatik idarə olunan siyirtmələri, işçi təzyiqi 70 MPa keçidinin diametri 80/50 mm və 100/80 mm olan fontan armaturları və avtomatik idarəetmə stansiyalarının işlənib hazırlanmasında, seriya ilə buraxılmasında yaxından iştirak etmişdir. Həmin fontan avadanlıqlarından Azərbaycanın dəniz neft yataqlarında, Orta Asiyada, Ukraynada və Rusiyada geniş istifadə olunmuşdur.

1982-ci ildən 1986-cı ilə qədər V. Ə. Rəsulov AzİNMAŞ-ın kontinental şelfin neft yataqlarının avadanlıqları üzrə layihələrin Baş konstruktoru vəzifəsinə təyin olunur. Bu illərdə onun rəhbərliyi və iştirakı ilə stasionar dəniz özüllərinin, üzən qazma qurğularının bəzi avadanlıqları yaradılmış, işçi təzyiqi 35 MPa olan, dənizin 200 m-ə qədər dərinliyində yerləşən quyuların quyuağzı fontan armaturu işlənmiş, sınaq nümunəsi hazırlanmışdır.

1985-86-cı illərdə V. Ə. Rəsulov ABŞ "Kameron" firmasının istehsalı olan 70 MPa işçi təzyiqli sualtı fontan armaturunun öyrənilməsi və 28 May adına neftçıxarma idarəsinin 15 saylı quyusunda sınaqdan keçirilməsində iştirak etmişdir.

O, MİNXİMMAŞ tərəfindən dövlət qəbul komissiyasının üzvü kimi həmin ildə "Şelf-6" üzən qazma qurğusunun qəbulunda (Klaypeda şəhəri) iştirak etmişdir.

1986-cı ildən 1989-cu ilə qədər 10 saylı "Sualtı fontan avadanlıqları elmi-tədqiqat konstruktor şöbəsi"nə müdir təyin olunub. 1989-cu ildən 1 saylı şöbədə müdir müavini, 1998-ci ildən isə şöbə müdiri vəzifəsində çalışır.

O, son illərdə şöbənin əməkdaşları ilə birlikdə işçi təzyiqi 21, 35 və 70 MPa olan ANİ standartlarının tələblərinə cavab verən fontan armaturlarının yaradılması ilə məşğul olmuşdur.

1981-ci ildə V. Ə. Rəsulov "Azərbaycanın əməkdar səmərələşdiricisi" fəxri adına layiq görülmüşdür. O, 7 müəllif şəhadətnaməsinin, 15 səmərələşdirici təklifin və 34 elmi məqalənin müəllifidir.



# YARADICI QADIN



*"Təvazökarlıq ləyaqət artırır"*
*F. Laroşfuko*

Cəmilə Mahmud qızı Sadıqova 1926-cı il fevralın 14-də Bakıda anadan olmuşdur.

1945-ci ildə orta məktəbi bitirmiş və elə həmin ildə də Bakı Sənaye İnstitutunun neft-mexanika fakültəsinə daxil olmuşdur. 1950-ci ildə institutu bitirdikdən sonra həmin ildən etibarən AzİNMAŞ-da işləməyə başlamışdır. Burada mühəndis, böyük mühəndis və LBM-Layihənin baş mühəndisi vəzifələrində işləmişdir. Hal-hazırda aparıcı konstruktor vəzifəsində çalışır.

AzİNMAŞ-da işlədiyi uzun illər ərzində C. M. Sadıqova mədənlərdə tətbiq olunan ştanqlı nasos qurğularının intiqalında yeniliklər etmiş, yeni mancanaq dəzgahlarının sınaq işlərində iştirak etmişdir.

C. M. Sadıqova mancanaq dəzgahları üçün çoxsaylı kataloqlar işləmişdir. Neft-mədən avadanlığının, xüsusilə neft hasilatı üçün ştanqlı nasos qurğularının yaradılması, tətbiqi və tədqiq edilməsində onun böyük əməyi olmuşdur.

C. M. Sadıqova yeni SK, SKN və SKD tipli mancanaq dəzgahlarının konstruksiyalarının layihələrini işləmiş, onların hazırlanmasında, sınaq işlərində texniki yardım göstərmişdir. Ştanqlı dərinlik nasos avadanlığı kompleksinin texniki proqnozlaşdırılması elmi işinin məsul icraçısı olmuşdur. O, hal-hazırda tətbiq olunan MDD tipli mancanaq dəzgahları üçün texniki şərtlər, AZS 038-99 Azərbaycan Dövlət Standartını işləyib hazırlamışdır.

C. M. Sadıqova 35 elmi işin, 10 ixtiranın müəllifidir. Onun iştirakı ilə hazırlanmış avadanlıqlar bir neçə dəfə XTNS-də, eləcə də Macarıstan, Türkiyə, Yuqoslaviya və Kolumbiyada keçirilən beynəlxalq sərgilərdə nümayiş etdirilmişdir. O, XTNS-nın bürünc və gümüş medalları, "V. İ. Leninin 100 illiyi medalı", "Əmək veteranı" medalı ilə və fəxri fərmanlarla təltif olunub. Əmək fəaliyyətində göstərdiyi böyük xidmətlərinə görə "Xalqlar dostluğu", "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri ilə təltif olunmuşdur. C. M. Sadıqovanın adı AzİNMAŞ-ın fəxri kitabına salınmışdır. Həmişə də öz təvazökarlığı ilə seçilmişdir.

C. M. Sadıqova hal-hazırda təqaüddədir.



# MÜXTƏLİF VƏZİFƏLƏRDƏ MƏSULİYYƏTLİ FƏALİYYƏT

*"İş insanın cövhəridir"*

*Atalar sözü*

Səyyad Cabbar oğlu İbrahimov 1936-cı ildə Şəki şəhərində aqronom ailəsində anadan olmuşdur. O, Şəki şəhər 10 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra, 1954-cü ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) neft-mexanika fakültəsinə daxil olmuş, institutu 1959-cu ildə fərqlənmə diplomu ilə bitirmişdır. Sonra o, əmək fəaliyyətinə "Gürgan neft" Mədənlər İdarəsinin (indiki "Neft daşları" neft və qaz çıxarma idarəsi) 1-ci mədənində neft-mədən avadanlığı üzrə təmirçi çilingər kimi başlamışdır. Az sonra o, mexanik böyük mexanik, neftçıxarma ustası vəzifələrində işləmişdır. İşlədiyi dövrdə Səyyad İbrahimov özünü bacarıqlı mütəxəssis kimi göstərmiş, tapşırıqların artıqlaması ilə yerinə yetirilməsində fəallıq göstərmişdir.

1968-ci ildə Səyyad Cabbar oğlu İbrahimov bir saylı mədənin böyük mühəndisi, mədən müdirinin müavini, daha sonra isə "Neft Daşları" bir saylı rayon mühəndis texnoloji xidmətinin rəisi, istehsalata xidmət bazasının rəis müavini, idarənin istehsalat texniki şöbəsinin rəisi kimi fəaliyyət göstərmisdır

1979-cu ildə S. C. İbrahimov "Neft Daşları" NQÇİ-nin baş mühəndisi vəzifəsinə təyin olunmuş, bu vəzifədə o, neft və qaz hasılatının sabit qalmasına, tədricən yüksəlməsinin və artmasının təmin edilməsinə çalışmışdır.

Səyyad İbrahimovun "Günəşli" yatağının işlənməsində böyük əməyi olmuşdur. On bir il ərzində Səyyad Cabbar oğlu İbrahimov "Neft Daşları"nda neft hasilatının artırılması ilə yanaşı, neft-mədən infra-strukturunun təkmilləşməsində, sosial inkişaf obyektlərinin tikilib istifadəyə verilməsində gərgin əmək sərf etmişdir. Bunlara misal olaraq, 1981-1986-cı illərdə inşa olunmuş Buxar-turbin stansiyasını əvəz edən qaz-turbin elektrik stansiyasını, Dübəndiyə çəkilən nəql neft xəttini, 5 və 9 mərtəbəli yataqxanaları göstərmək olar.



1991-ci ildə "Xəzərdənizneftqaz" İB-nin baş mühəndisi vəzifəsində də və bir az sonra "28 May" NQÇİ-nin rəisi vəzifəsinə təyin olunanda da Səyyad İbrahimov özünü təşkilatçı, yeniliyə can atan mühəndis, tələbkar rəhbər kimi göstərmişdir. O, "Şərəf nişanı" ordeninə, "Rəşadətli əməyə görə" medalına, "SSRİ Neft sənayesi əlaçısı" fəxri adına, Respublika Ali Sovetinin fəxri fərmanına, XTNS-nin "Gümüş medal"ına, S. Vavılov adına "Qızıl medala", "Respublikanın əməkdar mühəndisi" kimi yüksək ada layiq görülmüşdür. O, dəfələrlə Bakı Sovetinə deputat, "Azərbaycan Neft Təsərrüfatı" jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.

Səyyad Cabbar oğlu İbrahimov 4 ilə kimi ARDNŞ-nin 1-ci vitse-prezidenti vəzifəsində çalışmışdır.

Səyyad İbrahimov hal-hazırda DETLİ-nin baş mühəndisinin müavini vəzifəsində çalışır. Bu vəzifədə o, neft mədənlərinin abadlaşdırılması, carı iş prosesində texniki və texnoloji cəhətdən ortaya çıxan məsələlərin həll edilməsi, yeni texnika və texnologiyanın tətbiqi, qəzalı vəziyyətlərdə qərarların qəbul edilməsi, neft və qaz yataqlarının işlənməsində yaranmış bu günkü vəziyyəti nəzərə almaq şərtilə konsepsiyaların hazırlanması və onların texniki-iqtisadi cəhətdən əsaslandırılması və s. kimi işlərlə məşğuldur.





# ZƏNGİNLİKLƏRLƏ DOLU ÖMÜR

*"Elmin səmərəsi rahatlıq, dünya malının səmərəsi əzabdır"*

*Ərəb atalar sözü*

Texnika elmləri doktoru, professor görkəmli alım Anaxanım Hüseynbəy qızı Xanlarovanın 87 yaşı tamam olur. O, 1915-ci il oktyabrın 20-də Bakı şəhərində anadan olmuşdur. 1933-cü ildə N. Nərimanov adına Sənaye Texnikumunun, 1939-cu ildə isə Azərbaycan Dövlət Universitetinin kimya fakültələrini bitirmişdir. A. H. Xanlarova əmək fəaliyyətinə 1936-cı ildə Neft və Kimya İnstitutunda başlamış və 1952-ci ildən bu günə kimi "Dənizneftqazlayihə" DETLİ-də laboratoriya, şöbə müdiri, institutun korroziya üzrə baş mütəxəssisi olmuş və hazırda "Korroziyadan mühafizə elmi tədqiqat və layihə" şöbəsinin aparıcı elmi işçisidir

A. H. Xanlarova institutda işlədiyi müddətdə onun elmi rəhbərliyi altında dəniz hidrotexniki qurğularının neft-qaz mədən avadanlığının, sualtı boru kəmərlərinin və digər qurğuların metal konstruksiyalarının korroziyadan mühafizəsinin nəzəri və təcrübi üsullarının öyrənilməsi və yeni tövsiyələrin işlənib istehsalata tətbiqi sahəsində geniş miqyaslı elmi-tədqiqat və təcrübə işlərini yerinə yetirmişdir. Onun apardığı elmi tədqiqatlar nəticəsində dənizdə müxtəlif korroziya zonasında yerləşən neft-mədən avadanlıqlarının polad konstruksiyalarında korroziyanın yaranması səbəbləri ətraflı öyrənilmiş və bu qurğuların ayrı-ayrı hissələrində konstruktor dəyişikliklər edilməsinə imkan vermişdir. Bununla yanaşı, A. Xanlarovanın apardığı elmi-tədqiqat işlərinin nəticəsində dayaq bloklarının suüstü hissələrinin korroziyadan mühafizəsi üçün yeni tədbirlər hazırlanıb istifadə edilmişdir ki, bu da avadanlığın əsaslı təmirarası müddətinin xeyli artırılmasına imkan yaratmışdır.



A. H. Xanlarovanın rəhbərliyi ilə yerli məhsullar və zavod tullantılarının əsasında bitum örtüklərinin alınması, PS-1184, PS-1186 markalı dekorativ mühafizə emallarının hazırlanması geniş miqyasda tətbiq edilmişdir ki, bu da Sumqayıt Sintez Kauçuk İstehsalat Birliyində kors lakının sənaye istehsalının əsasını qoymuşdur. Bu istiqamətdə aparılan elmi-tədqiqat işlərinin nəticəsində yaradılmış yeni lak və müxtəlif rəng-boya materialları 60-cı illərdən başlayaraq geniş istifadə olunur.

A. H. Xanlarova tərəfindən yeni inhibitor bakterisid yaradılıb sənayedə tətbiq edilmişdir. Bundan başqa, alimin Gürcüstan Metallurgiya İnstitutunun əməkdaşları ilə birgə apardığı işlərin nəticəsində yeni L, M və R möhkəmlik qrupundan olan poladlar yaradılmışdır ki, bunlardan da nasos-kompressor boruları hazırlanıb dəniz neft-qaz yataqlarında müvəffəqiyyətlə sınaqdan keçirilmişdir.

A. H. Xanlarova 65 illik elmi-praktik fəaliyyətinin 50 ildən çoxunu "Dənizneftqazlayihə" DETLİ-də çalışaraq bütün bilik və bacarığını dəniz neft-qaz yataqlarının işlənməsində istifadə edilən avadanlıqların korroziyadan qorunmasına, onların işləmə müddətinin uzadılmasına və qarşıya çıxan digər çətinliklərin aradan qaldırılmasına sərf etmişdir.

O, 80 patent və müəlliflik şəhadətnaməsinin, 5 monoqrafiyanın və 300-dən artıq elmi məqalənin müəllifidir.

Anaxanım müəllimə bir çox beynəlxalq, ümumittifaq və respublika elmi-texniki konfransların, konqreslərin və simpoziumların iştirakçısı olmuş və məruzələrlə çıxış etmiş, onun rəhbərliyi ilə çoxsaylı kadrlar hazırlanmışdır.

A. H. Xanlarovanın fədakar əməyi layiqincə qiymətləndirilmiş, o, dəfələrlə müxtəlif medallarla təltif edilmiş, fəxri adlara layiq görülmüşdür.

"Dənizneftqazlayihə" DETLİ-nin çoxsaylı kollektivi A. H. Xanlarovaya möhkəm cansağlığı, uzun ömür və elmi fəaliyyətində nailiyyətlər arzulayır.



# ZƏHMƏT ÖMRÜN ZİNƏTİDİR

*"Gizli xəzinə var dünyada belə,
Zəhmətə qatlaşıb onu kəşf elə".*
*M. Əhvədi*

Cəfərov Raviq Rza oğlu 1959-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirərək bölgü üzrə Şirvan neft-qaz çıxarma idarəsinə işləməyə göndərilmiş, 1959-1964-cü illərdə mədənlərdə operator, usta köməkçisi, geoloq vəzifələrində işləmişdir. 1964-1967-ci illərdə "Qaradağneft" NQÇİ-nin elmi-tədqiqat və istehsalat sexində böyük geoloq vəzifəsində çalışmışdır.

1967-1980-ci illərdə qaz üzrə AzETLİ-də böyük mühəndis, kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində çalışarkən o, neft-qaz yataqlarında anormal yüksək lay təzyiqinin əmələgəlmə səbəbləri və onun neftqazlılıqla əlaqəsi problemləri üzərində gərgin iş aparmışdır. O, toplanmış materialları və tədqiqat məlumatlarının araşdırılmasını başa çatdıraraq, 1974-cü ildə dissertasiya müdafiə etmiş, geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsi almışdır. Alınan nəticələri və tövsiyələri yeni neft-qaz yataqlarının axtarışında, yataqların geometrikləşdirilməsində əsas faktorlardan biri kimi qəbul edilmişdir. O, 1968-1975-ci illərdə Azərbaycan ərazisində qazkondensat yataqlarının mənşəyi, axtarış-kəşfiyyat işlərinin baş sxemi və proqnoz ehtiyatlarının hesablanması elmi-tədqiqat işlərinin məsul icraçısı olmuşdur.

O, 1980-ci ildən "Dənizneftqazlayihə" DETLİ-nin neft və qaz ehtiyatlarının hesablanması laboratoriyasına başçılıq edir. Bu müddətdə o, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən yeni neft-qaz yataqlarının karbohidrogen ehtiyatlarının hesablanması, köhnə yataqların ehtiyatlarının dəqiqləşdirilməsi məsələləri üzərində çalışır.

Onun rəhbərliyi ilə 1985-ci ildə Günəşli yatağının karbohidrogen ehtiyatları ilk dəfə olaraq hesablanmış və keçmiş SSRİ-nin Nazirlər Soveti nəzdində olan Dövlət Ehtiyatlar Komissiyası tərəfindən təsdiq edilmişdir. Bununla yanaşı, o, Səngəçal-Duvannı-Xərə-Zirə, Pırallahı adası, Darvin bankası, Neft Daşları, Abşeron bankası və b. yataqların karbohidrogen ehtiyatlarının dəqiqləşdirilməsi məsələlərinə həsr olunmuş elmi-tədqiqat işlərinə rəhbərlik etmişdir. Alınan nəticələri layların sahələrinin təyini ilə bərabər, son neftçıxarma əmsalının artırılması məsələlərinin həllində də istifadə edilmişdir.

O, xarici ölkə mütəxəssisləri ilə birlikdə müştərək iş aparmaq məqsədi ilə Hyüston və London şəhərlərində elmi ezamiyyətlərdə olmuşdur.

O, 1993-cü ildə, "Əsrin müqaviləsi"nə hazırlıq görüləndə, Günəşli-Çıraq-Azəri yataqlarının neft-qaz ehtiyatlarını qiymətləndirmək üçün yaradılan qrupun tərkibində BP, Yunokal, Pennzoyl, Amoko şirkətlərinin mütəxəssisləri ilə birlikdə fəal çalışmışdır. O, neft hasilatının artırılmasına öz köməyini hiss etdikcə qəlbən rahatlıq tapır, daha səmərəli fəaliyyət göstərir.





# O, GƏRGİN ƏMƏKLƏ ÇALIŞIR

*"İnsanın ləyaqəti onun əməyi ilə müəyyən olunur"*

*V. Vaqner*

Kərimova Əzizə Əflatun qızı 1956-cı ildə Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

O, 1956-cı ildən 1961-ci ilə kimi Balaxanıneft NQÇİ-nin 13-cü mədənində operator, geoloq və böyük geoloq vəzifələrində işləmişdir.

1961-ci ildə Azərbaycan Sənaye İnstitutunun aspiranturasına daxil olmuş və 1966-cı ildə elmlər namizədi alimlik dərəcəsi adını almaq üçün namizədlik dissertasiyası müdafiə etmişdir.

1967-1981-ci illərdə DETLİqaz-da kiçik və böyük elmi işçi vəzifələrində işləmiş, bu müddət ərzində o, 1968-1975-ci illər üçün Azərbaycan ərazisində qazkondensat yataqlarının mənşəyi, axtarış-kəşfiyyat işlərinin Baş Sxemi, böyük dərinliklərdə ən iri qazkondensat yataqları axtarışının geoloji əsasları və Cənubi Xəzər çökəkliyində olan karbohidrogenlərin proqnoz ehtiyatlarının hesablanması elmi-tədqiqat işlərinin məsul icraçısı olmuşdur.

Ə. Ə. Kərimova 1981-ci ildən "Dənizneftqazlayihə" DETLİ-nın neft və qaz ehtiyatlarının hesablanması laboratoriyasında baş elmi işçi və 1989-cu ildən isə aparıcı elmi işçi işləyir. O, laboratoriyada yerinə yetirilən mövzuların ayrı-ayrı mərhələlərinin əsas müəlliflərindən biridir. Ə. Ə. Kərimova dəniz neft və qaz yataqlarının ehtiyatlarının hesablanması məsələləri üzrə məsul işçi olub, bu elmi tədqiqatları yüksək səviyyədə yerinə yetirmək üçün kollektivi səfərbərliyə almağı bacarır.

Ə. Ə. Kərimova nəzəri biliyini artırmaq üçün daim öz üzərində çalışır, 65-ə yaxın elmi məqalənin müəllifidir. Dəfələrlə neft və qaz geologiyasının aktual məsələləri mövzularında elmi konfranslarda çıxış etmişdir. O, xarici ölkə mütəxəssisləri ilə birlikdə müştərək iş aparmaq məqsədi ilə Hyuston, Los-Anceles və London şəhərlərində elmi ezamiyyətlərdə olmuşdur. Ə. Ə. Kərimova müştərək elmi işlərin nəticələrinə görə, ARDNŞ və Amoko neft kompaniyası tərəfindən Fəxri fərmanla mükafatlandırılmışdır.

Ə. Ə. Kərimova "Neftçilər günü" peşə bayramı münasibətilə neft və qaz sənayesinin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir.



# ƏMƏK SƏADƏT MƏNBƏYİDİR



*"Yaşamaq istəyirsənsə, irəliyə bax".*

*S.V.Mixalkov*

Bağbanlı Adil Ədhəm oğlu 1948-ci il may ayının 24-də Bakı şəhərində anadan olmuşdur. O, 1966-cı ildə Bakı şəhərindəki 134 saylı orta məktəbi bitirmiş, həmin il M. Əzizbəyov adına Azərbaycan Dövlət Neft və Kimya İnstitutuna daxil olmuş və 1971-ci ildə institutun neft-mədən fakültəsini bitirmiş, dağ mühəndisi ixtisasına yiyələnmişdir.

Bağbanlı Adil gənc mütəxəssis kimi 1971-ci ilin avqust ayında əmək fəaliyyətinə "Neft Daşları" NQÇİ-də neft və qazçıxarma operatoru kimi başlamışdır. Sonralar o, 1 saylı NQÇS -nin neft-qazçıxarma mühəndisi, MMTX-nın böyük mühəndisi, 6 saylı NQÇS-nın rəisi vəzifəsində işləmişdir. O, işlədiyi vəzifədə kompleks mühəndislik işlərinin yerinə yetirilməsində öz bacarığını və qabiliyyətini nümayi etdirə bilmişdir.

Bağbanlı Adil 1983-1991-ci illərdə müxtəlif məsul patriya vəzifələrində çalışmış, Bakı Alı Partiya Məktəbini bitirmişdir. O, 1993-cü ildən "28 May" NQÇİ-də mühəndis, sex rəisi vəzifələrində çalışmışdır.

A. Ə. Bağbanlı 1997-ci ildən neftin, qazın çıxarılması, hazırlanması, nəqli və təhvili şöbəsinin rəisi vəzifəsində işləyir. O, həm də qayğıkeş ailə başçısıdır. Həyat yoldaşı "28 May" NQÇİ-nin ETİİS-nin mühəndisi vəzifəsində çalışır. Qızı uşaq həkimi, oğlu isə kompüter proqramları üzrə mühəndis işləyir.

Adil Bağbanlı 1982-ci ilin dekabrında Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Azərbaycan Respublikasının Əməkdar mühəndisi" fəxri adına layiq görülmüşdür. Adil müəllim əməyi sevən insandır, o, həmişə fəaliyyətdədir, iş üstündədir. Söz düşəndə deyir: "Əmək sağlamlıq və səadət mənbəyidir, iş insanın cövhəridir".



# "İLK YATAQ AÇAN" NEFTÇİ

*"Ağıl geyimdir - köhnəlməyən,*
*Bilik mədəndir - tükənməyən"*
*Qırğız atalar sözü.*

Sabir Saleh oğlu Hacıyev 1931-ci il yanvar ayının 28-də Şəki şəhərində dünyaya göz açmışdır. 1954-cü ildə M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirmiş, dağ mühəndis-geoloq ixtisası almış və həmin ildən də Çilov adasında yerləşən "Dənizdə neft kəşfiyyatı qazma tresti"nin 2 saylı qazma idarəsində mühəndis-geoloq vəzifəsində iş fəaliyyətinə başlamışdır. 1955-ci ildə əmək fəaliyyətinə görə onu irəli çəkib "Mərkəzi Elmi Tədqiqat Laboratoriyası"nda lay fizikası laboratoriyasına müdir təyin etmişlər.

1957-1962-ci illər ərzində o, Aşağı Kür çökəkliyində yerləşən Müşovdağ, Gürovdağ, Babazanan, Kürsəngi sahələrində neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı işləri üzrə 2 və 5 saylı qazma kontorlarında böyük geoloq vəzifəsində fəaliyyət göstərmişdir.

1963-1989-cu illər ərzində o, Xəzəryanı - Quba neftli-qazlı rayonunda mezozoy çöküntülərində neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı işləri ilə məşğul olan Dəvəçi və Siyəzən qazma işləri, sonra isə Siyəzən neft və qazçıxarma işləri idarələrində baş geoloq vəzifələrində çalışmışdır.

O, Siyəzən monoklinalının paleogen çöküntülərində kəşf edilmiş yatağın şimal-qərb zonasının izlənilməsinin əsas istiqamətverici rəhbərlərindən olmuşdur. Siyəzən monoklinalının Zağlı-Zeyvə sahəsində dik yatan yataqlarda horizontal quyuların qazılması layihələrinin hazırlanmasının və qazılmasının, bir lay boyu lateral quyuların qazılmasının, eyni neftli layın iki dəfə açılmasının layihələndirilməsinin və qazılmasının əsas iştirakçısı və rəhbəri olmuşdur.

O, "CŞ Qafqazın Xızı zonasının mezozoy çöküntülərində yeni neft yataqlarının axtarışının perspektivliliyi və metodikası"na dair dissertasiya müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1983-1984-cü illərdə o, quruda neft və qazçıxarma üzrə "Azərneft" İB-nin ilk baş markşeyderi vəzifəsinə irəli çəkilmiş və 1984-cü ilin dekabr ayında ailə vəziyyəti ilə əlaqədar yenidən Siyəzən qazma işləri idarəsinə baş geoloq vəzifəsinə qayıtmışdır. Onun bilavasitə rəhbərliyi və nəzarəti altında Xəzəryanı - Quba rayonunun Yalama, Xudat, Xaçmaz, Talabi, Qaynaqca, Təngi - Beşbarmaq, Keşçay, Bəyimdağ - Təkçay, Şurabad strukturlarında dərin axtarış-kəşfiyyat qazma işləri aparılmış və paleogen-neogen çöküntülərinin geoloji quruluşu və neft-qaz perspektivliyinə dair fond hesabatları işlənib hazırlanmışdır.

O, 1991-1994-cü illər ərzində "Azərneft" istehsalat birliyinin "Kompleks geoloji-topoqrafik ekspedisiya"sına baş geoloq vəzifəsinə gətirilir. Azərbaycanın quru sahələrində aparılmış axtarış-kəşfiyyat və istismar qazma materiallarının nəticələrinə və neft mədənlərinin işlənməsindən əldə edilən məlumatlarına əsasən aparılan geniş tədqiqat işlərinə rəhbərlik etmiş, 4 fond hesabatlarının məsul icraçısı və rəhbəri olmuşdur.

S. S. Hacıyev 1994-cü ildən "Dənizneftqazlayihə" DETLİ institutunda neft və qaz ehtiyatlarının hesablanması laboratoriyasında aparıcı elmi işçi vəzifəsində çalışır. O, dəniz neft-qaz yataqlarının mədən-geoloji və geofiziki tədqiqatı ilə axtarış-kəşfiyyat sahələrində aparılmış seysmik-kəşfiyyat qazma məlumatlarının dərin təhlili və tədqiqinə, işlənmədə olan yataqların geoloji quruluşlarının yenidən öyrənilməsi ilə məşğul olur; yeni struktur xəritələr, seysmogeoloji profillər tərtib etməklə, yeni perspektivli tektonik bloklar aşkarlanır, yeni axtarış və istismar quyularının qazılması istiqamətləri aydınlaşdırılır. Laboratoriyada icra edilən "neft-qaz ehtiyatlarının yenidən hesablanması" hesabatlarının ayrı-ayrı bölmələrinin icrasını yerinə yetirir.

O, 30 fond hesabatlarının və 28 elmi məqalənin müəllifidir. Onun 4 səmərəli təklifi iqtisadi baxımdan yüksək qiymətləndirilərək qəbul edilmişdir.

Amerika neftçi geoloqlar cəmiyyətinin Azərbaycan filialının üzvüdür. Beynəlxalq elmi konfranslarda elmi məruzələrlə çıxış edir.

Bir çox fəxri fərmanlar və medallar ilə təltif edilmiş, Kürsəngi yatağının kəşf edilməsində böyük xidməti olmuş, olduqca az mütəxəssisə nəsib olan "ilk yataq açan" geoloqlardan biridir və keçmiş SSRİ-nin geologiya nazirliyinin fəxri diplomunu almışdır.



# O, ÖZ ƏMƏYİ İLƏ FƏXR EDİR

*"Bizim hər birimiz - öz əməyimizin övladlarıyıq"*

*S. M. Servantes*

Cavadzadə Tamilla Mirxəlil qızı 1962-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsini geofizika ixtisası üzrə bitirmişdir.

1962-ci ildən başlayaraq "Azneftgeofizkəşfiyyat" trestinin nəzdində METL-də, sonra isə Moskva İnstitutunun filialı olan AzGeofiz. ETİ-də işləmişdir.

Quyularda mədən-geofiziki tədqiqatın təhlili ilə məşğul olur: neft və qaz ehtiyatının hesablanması və yenidən hesablanması üçün geofiziki parametrləri qiymətləndirir, geofiziki metodlarla yatağın işlənməsinə nəzarəti həyata keçirir.

O, 1969-1980-ci illərdə Qazaxıstanda - Manqışlaqda işləmişdir. Onun tərəfindən Şimali və Cənubi Üstyurtun QGT təhlili aparılmışdır. O. Karajanbas və Kalamkas yataqları üçün geofiziki parametrləri ehtiyatın yenidən hesablanması məqsədilə hazırlamışdır.

T. M. Cavadzadə 1980-ci ildən Dənizneftqazlayihə İnstitutunda işləyir. İnstitutunda neft-qaz mədən geofizikası laboratoriyasının müdiridir. Onun tərəfindən Xəzər dənizinin bütün yataqları üzrə - Səngəçal-dəniz - Duvannı-dəniz - Xərə-Zirə adası, Pirallahı adası, Darvın bankası, Palçıq pilpiləsi, "Neft Daşları", Gürgan dəniz, Çıraq, Kəpəz. Əlat dəniz, Günəşli, Cənub, Çilov adası, Hövsan, Zığ - ehtiyatın hesablanması və yenidən hesablanması üçün geofiziki parametrlər işlənib hazırlanmışdır.

T. M. Cavadzadə Total, Unocal, AIOS, SIPCO, Lukoyl, Ajip şirkətlərinin layihələrində iştirak etmişdir. O, 56 müxtəlif mövzulu işin müəllifidir.

T. M. Cavadzadə özünə, öz əməyinə arxalanır, işinin nəticələrindən xoş əhval-ruhiyyə duyur, fəxr edir.



# SƏYLƏ ÇALIŞIR, MƏQSƏDİNƏ NAİL OLUR



*"Həyatda məqsəd - insan ləyaqətinin və insan xoşbəxtliyinin ürəyidir"*

*G. A. Uşinski*

Hüseynov Fikrət Musa oğlu 1932-ci ildə oktyabrın 11-də Bakı şəhərində anadan olmuşdur. O, 171 saylı məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, 1955-ci ildə institutu bitirərək, dağ mühəndisi geoloqu ixtisası almışdır.

F. M. Hüseynov institutu bitirdikdən sonra "Qaradağneft" NQÇİ-nin mədənlərinə göndərilmiş, orada NQÇİ-nin geoloji şöbəsinin müdiri təyin edilmişdir.

O, istehsalatda işləməklə bərabər dissertasiya müdafiə etmiş, geologiya - mineralogiya elmləri namizədi elmi dərəcəsi almışdır. 13 il istehsalatda işləyəndən sonra konkurs vasitəsilə Respublika EA-na baş elmi işçi vəzifəsinə keçirilir və burada "Dərin neft və qaz yataqları problemləri" institutunda çalışır.

1980-ci ildən başlayaraq indiyə qədər "Dənizneftqazlayihə" institutunun neftqazmədən geologiyası laboratoriyasının rəhbəri vəzifəsində işləyir. İnstitutda işlədiyi vaxt ərzində neftqazmədən geologiyası, neft və qaz yataqlarının işlənməsinin layihələndirilməsi və bu istiqamətdə aparılan tədqiqat işləri ilə məşğul olur.

"Səngəçal-dəniz - Duvannı-dəniz - Xərə-Zirə adası", "Günəşli", "Ələtdəniz", "Qumdəniz", "Gürgan-dəniz", "Palçıq pilpiləsi", "Çilov" və s. yataqların qalıq ehtiyatlarının hesablanmasında əsas icraçılardan biri və rəhbəri olmuşdur.

O, Xəzər dənizində yerləşən neft və qaz yataqlarının məhsuldar laylar üzrə struktur xəritələrini qurmuşdur. 60-a qədər müxtəlif jurnallarda dərc olunmuş elmi məqalələrin müəllifidir. Bir neçə fəxri fərmanla, digər mükafatlarla mükafatlandırılmışdır.

F. M. Hüseynov peşəsinin məsuliyyətini dərindən dərk edir, iş yoldaşlarına həssaslıqla yanaşır, daşıdığı vəzifədə səylə çalışır, qarşısına qoyduğu məqsədə nail olmaq üçün mübarizə aparır, fəallıq göstərir.



# ƏMƏYİ AZ OLMAMIŞDIR

*"Elə bir namuslu əmək yoxdur ki, əvvəl-axır mükafatlandırılmasın"*

*O. Balzak*

Süleymanov Yusif Allahverdi oğlu 1937-ci ildə Bakı şəhərində nəslən neftçi ailəsində anadan olmuşdur. 1959-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsini neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı ixtisası üzrə bitirmişdir.

O, əmək fəaliyyətinə "Şirvanneft" NQÇİ-də 1 N-li mədəndə operator kimi başlamışdır. Sonra mühəndis-geoloq işləmişdir. Qarabağlıda (təzə yataqda) mədən açılarkən, orada böyük geoloq kimi işləmişdir. 1965-ci ildə "Salyanneft" NQÇİ-nın geoloji şöbəsinə rəis - baş geoloqun müavini vəzifəsinə təyin edilmişdir.

1967-1979-cu illərdə Elmlər Akademiyasının Dərin Neft və Qaz yataqları Problemləri İnstitutunda elmi işlə məşğul olmuşdur. Neftin və qazın ehtiyatını hesablayarkən, onu daha çox neft yataqlarının struktur quruluşu və tektonikası maraqlandırırdı.

1974-1976-cı illərdə o, Əlcəzair Xalq Demokratik Respublikasının Neft və Qaz İnstitutunda neft geologiyası kafedrasında müəllim işləmişdir.

Y. A. Süleymanov 1980-cı ildən "Dənizneftqazlayihə" DETLİ-nin neft-qaz-mədən geologiyası laboratoriyasında işləyir, əvvəlcə sektor rəhbəri kimi, son 15 il ərzində böyük elmi işçi kimi.

Son 35 il ərzində demək olar ki, dəniz neft və qaz yataqlarının çoxlarının, o cümlədən Günəşli, Çıraq, Azəri, Kəpəz, Ələt-dəniz, Xərə-Zirə adası, Qum-dəniz və s. ehtiyatlarının hesablanmasında və onların yenidən tektonik quruluşunu tərtib edilməsində Y. A. Süleymanovun da əməyi az olmamışdır.

Y. A. Süleymanov 35-ə qədər çap olunmuş elmi məqalənin müəllifidir. Yusif müəllim səbrlə, təmkinlə çalışır, neft sənayesinin inkişafına öz əmək töhfəsini vermək üçün ciddi səy göstərir. O, heç bir mükafat gözləmədən işinə vicdanlı münasibət bəsləyir. Elə bu keyfiyyətlərinə görə də kollektivdə hörməti vardır.



# ELM HƏMİŞƏ YAŞAYIR



*"Elmi oğru apara bilməz, əcəl də onu öldürə bilməz. Elm zamanın gərdişindən nə xarab olandır, nə də seldəsuda batıb qərq olan"*

*M. Əhvədi*

Xəlilov Nüsrət Yusif oğlu 1925-ci il mayın 9-da Göyçay şəhərində anadan olmuşdur. 1932-ci ildə Göyçay şəhərində orta məktəbə getmişdir. 1937-ci ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüş və orada orta məktəbi 1942-ci ildə bitirmişdir. Hərbi zavodda fəhlə işləmiş və 1943-cü ilin may ayında cəbhəyə yollanmışdır.

18 yaşında Böyük Vətən müharibəsində iştirak etmiş və Ukraynanın, Belarusiyanın, Polşanın və Almaniyanın azad olunmasında fəal döyüşmüşdür. Dördüncü Ukrayna cəbhəsində ağır yaralanmışdır. Döyüşlərdə göstərdiyi şücaətlərə görə 2 orden və 13 medalla təltif olunmuşdur.

Faşist Almaniyasının üzərindəki qələbənin 55 illiyi münasibəti ilə Moskvada yerləşən Beynəlxalq Birləşmiş Bioqrafiya Mərkəzi müharibədə fəal iştirak etdiyinə və müharibədən sonra elm, texnika və digər sahələrdə nailiyyətlərinə görə Nüsrət Xəlilovun adı "Görkəmli müasirlər - müharibə iştirakçıları" sırasına daxil edilmiş və adı çox qiymətli bir kitaba daxil edilmişdir.

N. Y. Xəlilov 1946-cı ildə Azərbaycan Sənaye İnstitutunun geoloji kəşfiyyat fakültəsinə daxil olmuş və 1951-ci ildə oranı bitirdikdən sonra dənizdə kəşfiyyat qazma idarəsində geoloq, baş geoloq vəzifələrində 30 il çalışmışdır.

Bu illər ərzində Xəzər dənizində 10 neft və qaz yatağının açılmasında bilavasitə iştirak etmişdir.

Nüsrət Xəlilov 1963-cü ildə namizədlik, 1972-ci ildə isə geologiya-mineralogiya elmləri üzrə doktorluq dissertasiyası müdafiə etmişdir.

N. Y. Xəlilov 1979-cu ildən "Dənizneftqazlayihə" Dövlət Elmi Tədqiqat və Layihə İnstitutunda "Dəniz neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" laboratoriyasına rəhbərlik edir. Onun rəhbərliyi ilə Xəzri, Duvannı-dəniz, Xərə-Zirə-dəniz, Ələt-dəniz, Atəşgah, Azəri, Çıraq, Kəpəz, Daşlı, Şah-dəniz, Novxanı, Şimalı Abşeron, Səyyar, Ümid, Qarasu, İnam, Lənkəran-dəniz, Aran-dəniz, Abşeron, Qarabağ, Türkmən sektorunda, Qərbi Livanov, Qubkin, Barınov, Qazaxıstan sektorunda Skalistaya strukturları üçün kəşfiyyat layihələri tərtib edilmiş və qazılması nəzərdə tutulan quyuların sayı, yerləşmə planı əsaslandırılmışdır.

O, 35 elmi-hesabatın rəhbəri, 4 rəhbər sənədin, 230 çap olunmuş məqalənin, üç monoqrafiyanın və eləcə də iki dərsliyin müəllifidir. İndiyə qədər 1 elmlər doktoru və 4 elmlər namizədi hazırlamışdır. Hal-hazırda 2 aspiranta rəhbərlik edir.

20 ildir fasiləsiz olaraq Azərbaycan Elmlər Akademiyasının Geologiya institutunda doktorluq müdafiəsi üzrə Elmi Şuranın üzvüdür.

"Dənizneftqazlayihə" İnstitutunun Veteranlar Şurasının sədridir, hal-hazırda institutda elmi işlərlə məşğul olur və ölkəmizə lazım olan çox faydalı mövzuların rəhbəridir.

Xəlilov Nüsrət Yusif oğlu həyatında qarşısına çıxan bütün çətinlikləri elmin gücü ilə dəf edə bilmiş, sevimli neftçi peşəsində bir sıra uğurlar qazanmışdır. Onun elmi araşdırmaları hələ çox neftçilər nəslinə gərək olacaqdır.

Nüsrət müəllim 2-ci dərəcəli müharibə əlili, əmək veteranı, Azərbaycan Respublikasının Əməkdar geoloqu, geologiya-mineralogiya elmləri doktoru, professordur.

O, 1967-ci ildə yeni neft yataqlarının açılmasındakı əməyinə görə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.



# DƏNİZ FATEHLƏRİNDƏN BİRİ - QADIN-ALİM



*"Nə vaxt ki, qəmlisən işlə, bu, kədəri qovmaq üçün yeganə vasitədir. Heç nə iş qədər adamı cansıxıcı boşluqdan xilas etmir"*

***İ. R. Bexer***

Bu gün respublikamızda dəniz neft yataqları yerləşən ərazilərin mühəndis-geoloji işlərini dərindən bilən "Dənizneftqazlayihə" Dövlət elmi-tədqiqat layihə institutunda çalışan, ömrünün 50 ilini Xəzərin qoynunda inşa edilən qurğuların mühəndis-axtarış işlərinə rəhbərlik edən, layihənin baş mühəndisi - alim-geoloq Dilşad Mirzəbaba qızı Həsənova öz təkrarsız dəsti-xətti ilə dəniz neftçiləri tərəfindən sevilən, böyük nüfuz sahibidir.

Həsənova Dilşad Mirzəbaba qızı 1925-ci ildə Bakı şəhərində, fəhlə ailəsində anadan olmuşdur. 1931-ci ildə 3 №-li orta məktəbə daxil olmuş və 1941-ci ildə oranı qurtarmışdır.

O, M. Əzizbəyov adına Neft və Kimya İnstitutunu bitirib və "dağ-mədən geoloq"u ixtisası alandan sonra, 1951-ci ildə "Dənizneftqazlayihə" İnstitutuna işə qəbul olunub və institut yaranan günündən indiyədək fasiləsiz işləyərək Xəzər neftli-qazlı akvatoriyasında mühəndis-axtarış işləri ilə məşğul olanlardan biridir.

Əmək fəaliyyətinə yeni sahədə sıravi mühəndis-geoloq kimi başlayan D. M. Həsənova institutda mühəndis-axtarış şöbə rəisinə qədər yüksəlmiş və mühəndis-geologiya sahəsində yüksək səviyyəli mütəxəssis dərəcəsinə çatıb.

Onun rəhbərliyi altında bütün mühəndis-axtarış işləri dənizdə neft-mədən qurğularının layihələnməsi üçün aparılıb və onların dəniz dibinə bərkidilməsi haqqında təkliflər verilib.

O, Xəzər dənizində olan "Neft Daşları", Qum-dəniz, Səngəçal-dəniz, Bahar və dərin sularda olan Günəşli, Azəri, Çıraq və Kəpəz kimi iri neft-qaz yataqlarının istismarı və abadlaşdırılması məsələlərinin həllində bilavasitə iştirak edib.

O, Xəzərin Azərbaycan sektorundan başqa, dənizin digər sektorlarında da axtarış işlərində iştirak edib.

D. M. Həsənovanın bilavasitə iştirakı və rəhbərliyi altında Xəzər dənizində mühəndis-geoloji tədqiqatlarının aparılması metodikası yaradılıb. Bundan başqa D. M. Həsənova vəsait kimi istifadə məqsədilə dəniz neft-qaz akvatoriyasını mənimsəmək üçün onun mühəndis-geoloji xəritələrinin tərtibi ilə bağlı elmi-tədqiqat mövzularına rəhbərlik edir.

D. M. Həsənova tərəfindən 30 elmi iş və məqalə yazılıb, o, 18 fond materialının və iki ixtiranın müəllifidir.

Böyük təcrübəsi və yüksək peşəkarlığı, elmi hazırlığı və təşkilatçılığı D. M. Həsənovaya dənizdə mühəndis-geologiya və mühəndis-axtarış işlərində bir sıra aktual problemləri müstəqil həll etməyə imkan verir. Onun neft sənayesinin müəssisə və idarələrində çoxlu yetirmələri vardır.

O, keçmiş SSRİ-də şelf zonasının (Azov, Qara, Baltik, Şimal, Oxot və s dənizlər) mənimsənilməsi üçün aparılan dəniz axtarış işləri məsələlərində məsləhətçi olub.

1969-cu ildə istehsalatdan ayrılmadan namizədlik dissertasiyası müdafiə edib, geologiya-minerologiya elmləri namizədi elmi dərəcəsi alınışdır.

D. M. Həsənova intizamlı olmaqla yanaşı, gördüyü işi yüksək keyfiyyətlə, vaxtında və vicdanla yerinə yetirir; işlədiyi müddət fəxri fərmanlarla, pul mükafatları ilə, təşəkkürlə və s. mükafatlandırılıb.

1982-1985-ci illərdə Səbayel rayonu üzrə rayon və Bakı Sovetinin deputatı seçilmişdir. "SSRİ neft sənayesi əlaçısı"dır.

O, 1985-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə uzun müddətli və vicdanlı əməyə görə "Əmək veteranı" medalı ilə təltif olunmuşdur. ARDNŞ-nin fəxri fərmanı ilə mükafatlandırılmışdır.



# TƏCRÜBƏLİ LAYİHƏÇİ MÜTƏXƏSSİS



***"İnsan həyatda qabil olduğu peşəyə yiyələnmişsə, əmək onun üçün fərəhlidir"***

***G. S. Titov***

Əkrəm Kamal oğlu Ömərov 1950-ci il avqustun 9-da Qazax rayonunun Sadıxlı kəndində anadan olmuş, 1967-ci ildə həmin rayonun Böyük-Kəsik orta məktəbini bitirmişdir.

O, 1968-1977-ci illərdə Azərbaycan Dəmir Yolu Bakı yol distansiyasında yol təmirçisi işləmiş, 1973-1975-ci illərdə hərbi qulluqda olmuş, 1978-1980-ci illərdə Qafqaz Mineral Xammallar İnstitutunun Azərbaycan geoloji-metodik partiyasında geoloq vəzifəsində çalışmışdır. 1979-cu ildə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyasının) geoloji-kəşfiyyat fakültəsini bitirmiş, neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı, dağ mühəndisi - geoloq ixtisasına yiyələnmişdir.

Ə. K. Ömərov 1980-ci ildən indiyə qədər "Dənizneftqazlayihə" DETLİ-də "Quyu tikintisi layihələrinin geoloji təminatı" laboratoriyasında: 1980-1984-cü illərdə böyük mühəndis, 1984-1986-cı illərdə bölmə rəisi, 1986-1996-cı illərdə laboratoriyada böyük elmi işçi vəzifələrində çalışmışdır. 1996-cı ildən laboratoriya müdiri vəzifəsində fəaliyyət göstərir.

O, laboratoriyanın yerinə yetirdiyi quyu tikintisi layihələrinin geoloji hissəsinin tərtibində və bütün elmi-tədqiqat işlərində məsul icraçı və elmi rəhbər kimi çalışır. Xəzərdə bir çox neft-qaz yataqlarının açılıb istifadəyə verilməsində bilavasitə iştirak etmişdir.

1988-ci ildə Ə. K. Ömərov Moskvada İ. M. Qubkin adına MİNQ nəzdindəki "ALS-Qazma"nın mənimsənilməsi üzrə ixtisasartırma kursunu bitirmiş və qazmada layihə-smeta sənədlərinin avtomatlaşdırılması diplomunu almışdır.

İnstitutda işlədiyi müddətdə Ə. K. Ömərov istehsalatla sıx əlaqə şəraitində Xəzərin Azərbaycan, Türkmənistan və Qazaxıstan sektorlarında 200-dən artıq quyu tikintisi layihələrinin yüksək səviyyədə hazırlanıb başa çatdırılmasında bilavasitə məsul icraçı və rəhbər kimi iştirak etmişdir.

Təcrübəli layihəçi Xəzərin Azərbaycan sektorunda yerləşən Babək, Hamamdağ-dəniz, Struktur çıxıntı, Çıraq, Kəpəz, Azəri və Daşlı sahələrinin geoloji quruluşunun öyrənilməsi və həmin sahələrdə aparılacaq axtarış və kəşfiyyat işlərinin əsaslandırılması üçün gərgin əmək sərf etmişdir. Eləcə də Novxanı, Əşrəfi və Qarabağ sahələrinin kompleks öyrənilməsi və kəşfiyyat quyularının qazılması zamanı gözlənilən mürəkkəbləşmələrin proqnozlaşdırılması və onlara qarşı tədbirlər işləyib hazırlamışdır. Onun seysmik zaman profillərinin və qazma məlumatlarının təhlilinə əsasən kiçik dərinliklərdə qaz-su təzahürlərinin proqnozlaşdırılması, Xəzər dənizində Mezozoy çöküntülərinin neftlilik-qazlılıq perspektivliyi və qazılma şəraitinin təhlili sahəsində böyük əməyi olmuşdur.

Ə. K. Ömərov müxtəlif aktual mövzular üzrə elmi hesabatların və "Dənizdə neft və qaz quyularının tikintisinin vahid texniki qaydaları" rəhbər sənədin işlənib hazırlanmasında məsul icraçı və elmi rəhbər kimi iştirak etmişdir.

Ə. K. Ömərovun məsul icraçı kimi iştirak etdiyi layihələr əsasında Çıraq, Azəri, Kəpəz, Novxanı, Skalistaya-dəniz, Şəfəq kimi neft-qazkondensat yataqları açılmışdır.

Əkrəm Ömərov həmişə yenilik əzmilə çalışmaqla bilik və təcrübəsini artırır. Onun neft-qaz yataqlarının axtarış-kəşfiyyatı istiqamətləri, məhsuldar layların səmərəli qazılması, açılması və mənimsənilməsinin aktual problemlərinə həsr olunmuş 18 elmi məqaləsi Moskva, Sankt-Peterburq və Bakı şəhərlərində müxtəlif jurnallarda çap olunmuşdur.

Quyu tikintisi layihələrinin geoloji hissəsinin tərtibində böyük təcrübəyə malik olan Ə. K. Ömərov öz bilik və bacarığını gənclərə həvəslə öyrədir, onun yetişdirmələri hal-hazırda layihələrin geoloji hissəsini sərbəst tərtib etmək bacarığına malikdirlər.

Hal-hazırda təcrübəli mütəxəssis Əkrəm Ömərovun rəhbərlik etdiyi "Quyu tikintisi layihələrinin geoloji təminatı" laboratoriyasında 4 nəfər böyük elmi işçi, aparıcı elmi işçi və 2 nəfər yüksək kateqoriyalı mühəndis geoloq çalışır. Onların əksəriyyəti bilavasitə həmin laboratoriyanın təşkil olunduğu gündən ötən 20 il ərzində burada yetişib formalaşmaqla Ə. K. Ömərovla birlikdə fəaliyyət göstərirlər. Heç şübhə yoxdur ki, Ə. K. Ömərovun başçılığı ilə həmin bacarıqlı kollektiv bundan sonra da Xəzərin Azərbaycan sektorunun mürəkkəb geoloji şəraitlə səciyyələnən müxtəlif strukturlarında yeni karbohidrogen yataqlarının tezliklə açılıb istifadəyə verilməsində yaxından iştirak edəcəkdir.



# İSTEHSALATÇI ALİM - PROFESSİONAL MÜTƏXƏSSİS



***"Dünyada inamı və xoşbəxtliyə çatmaq üçün bilikdən asan və yaxın yol yoxdur".***

***"Min bir gecə" kitabından***

Zeynalov Feyruz Yusif oğlu 1934-cü il sentyabrın 18-də Ağdam rayonunun Qullar kəndində anadan olmuşdur.

O, 1943-cü ildə Ağdam şəhər 1 saylı orta məktəbinə daxil olmuş və 1953-cü ildə həmin məktəbin 10-cu sinfini bitirmişdir.

1953-cü ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyasının) neft-mədən fakültəsinə daxil olmuş və 1958-ci ildə oranı neft və qaz quyularının qazılması ixtisası üzrə bitirmişdir. İnstitutu bitirdikdən sonra göndərişlə "Neft Daşları"nda qazma idarəsində əvvəlcə qazmaçı köməkçisi, qazmaçı və buruq ustası işləmişdir. Sonra 1959-1969-cu illərdə "Neft Daşları"nda elmi-tədqiqat və istehsalat sexində böyük mühəndis və şöbə rəisi vəzifələrində çalışmışdır. Həmin illər ərzində neft və qaz quyularının qazılması zamanı baş verən bir çox mürəkkəbləşmələri aradan qaldırmaq məqsədilə səmərəli işlər aparmış, bu işlərin nəticələri istehsalatda tətbiq edilmişdir.

F. Y. Zeynalov 1969-cu ildə Abşeron Dəniz Qazma Trestinin 3 saylı kontoruna texnoloji şöbənin rəisi təyin edilmiş, müxtəlif şəraitdə qazma işləri aparan həmin kontorda 1975-ci ilə kimi işləmişdir. Bu illər ərzində Səngəçal-dəniz, Duvannı-dəniz sahələrində qazılan dərin maili quyuların layihə dərinliyinə qəzasız çatdırılması üçün quyu quruluşunun səmərəli seçilib əsaslandırılması və onun həyata keçirilməsinə nail olmuşdur.

1975-ci ildə F. Y. Zeynalov yüksək ixtisaslı mütəxəssis kimi Sahil Dəniz Kəşfiyyat Qazma İdarəsinə baş mühəndis vəzifəsinə irəli çəkilmişdir. Bu idarədə baş mühəndis işlədiyi dövrdə böyük təcrübə və nəzəri hazırlıq sayəsində əsl professionallıq nümayiş etdirməklə, Bulla-dəniz yatağında çox çətin geoloji şəraitdə VII horizontun tam açılmasına nail olmuşdur. Belə ki, həmin yataqda çox dərin quyuların qəzasız qazılması üçün quyu quruluşunun səmərəli seçilib əsaslandırılmasına və onun keçmiş İttifaqda təsdiq etdirilməsinə nail olmuşdur. Bu da öz növbəsində qazma işlərinin səmərəsini artırmışdır. Qazma zamanı baş verən mürəkkəbləşmələrin - məsə-

lən, eyni zamanda quyu lüləsində həm udulmanın, həm də su təzahürünün qarşısını almaq üçün idarənin bir neçə əməkdaşı ilə birlikdə tədbir işləyib həyata keçirmiş və bunun sayəsində onlarla quyunun uğurla qazılıb istismara verilməsinə imkan yaranmışdır.

F. Y. Zeynalov istehsalatdan ayrılmadan 1970-ci ildə namizədlik dissertasiyası müdafiə etmiş, müxtəlif jurnallarda qazmanın aktual problemlərinə dair çoxsaylı məqalələr dərc etdirmişdir.

1980-ci ildən Feyruz müəllim "Dənizneftqazlayihə" Dövlət Elmi Tədqiqat və Layihə İnstitutunda "Quyu tikintilərinin layihələndirilməsi" şöbəsinin rəisi təyin edilmişdir.

İnstitutda işlədiyi müddətdə 1985-ci ilin noyabr-dekabr aylarında maili quyuların qazılmasını müəyyən etmək üçün yüksək ixtisaslı mütəxəssis kimi Kuba Respublikasına ezam edilmişdir. Bu sahədə geniş təcrübə toplamış Feyruz Zeynalov 1989-1991-ci illərdə İran İslam Respublikasının İran şelfində qazılan dərin kəşfiyyat quyusunun baş mühəndisi işləmiş, quyunun uğurla qazılmasına gərgin əmək sərf etmişdir.

Sonra o, 1995-1999-cu illər ərzində "AMOKO" şirkətində quyuların qazılması üzrə məsləhətçi işləmişdir.

F. Y. Zeynalov 1999-cu ildən indiyə kimi "Dənizneftqazlayihə" DETLİ-də "Quyu tikintilərinin layihələndirilməsi" şöbəsində layihənin baş mühəndisi vəzifəsində işləyir. Təcrübəli istehsalatçı alim dərc olunmuş 36 elmi məqalənin və 4 ixtiranın müəllifidir.

Bütün bu elmi məqalələr və ixtiralar neft və qaz quyularının qazılmasının effektliyinin artırılmasına yönəldilmiş, təcrübədə tətbiq olunmaqla müsbət nəticələr vermişdir.

Təcrübəli alim öz bilik və bacarığını gənclərə həvəslə öyrətmiş, onun yetişdirmələri hal-hazırda müxtəlif qazma müəssisələrində məsul vəzifələrdə çalışmaqla etimadı doğruldurlar.

Feyruz Zeynalov dərin (eləcə də maili istiqamətləndirilmiş) quyuların qazılmasında zəngin təcrübəyə malik, nəzəri cəhətdən yüksək səviyyəli professional mütəxəssis kimi tanınıb. Odur ki, qazma üzrə çətin problemlərin həlli yollarının axtarılmasında fikir və tövsiyələrini əsaslandıra bildiyindən həmkarları onunla hesablaşır, məsləhətləşirlər. Bu da öz bəhrəsini verir.



# İSTEHSALATÇI ALİM - MÜƏLLİM



*"Qüvvət elmdədir, başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz.*
*Hər uca rütbədən biliniz, fəqət,*
*Alimin rütbəsi ucadır əlbət".*

*Nizami*

Pənah Həşim oğlu Mehdiyev 1938-ci il sentyabrın 20-də Ağdam rayonunun Sarı Hacılı kəndində anadan olmuşdur. O, 1960-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsini Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı ixtisası üzrə bitirmiş, istehsalata göndərilmişdir. 40 ilə yaxın bilavasitə istehsalatda neft-qaz sənayesi sistemində əvvəlcə mədəndə (quruda) fəhlə, tədqiqat üzrə usta, mühəndis, geoloq, sonra dərin axtarış-kəşfiyyat qazması müəssisələrində (dənizdə) mühəndis-geoloq, böyük geoloq, geoloji şöbə rəisinin müavini, şöbə rəisi, baş geoloq, geologiya üzrə Baş mütəxəssis vəzifələrində işləyib. Son illərdə isə "Dövlətdəniz-neftqazlayihə" Elmi-tədqiqat Layihə İnstitutunda "Dənizdə neft-qaz yataqlarının geologiyası və kəşfiyyatı" laboratoriyasında baş elmi işçi, "Axtarış-kəşfiyyat işlərinin operativ təhlili" sektorunun müdiri vəzifələrində, hal-hazırda isə "Quyu tikintisi layihələrinin geoloji təminatı" laboratoriyasında aparıcı elmi işçi işləyir.

1973-cü ildə istehsalatdan ayrılmadan Azərbaycan Respublikası Elmlər Akademiyasının aspiranturasını bitirib, "Kənızdağ-Səngəçal-dəniz-Duvannı-dəniz-Bulla adası antiklinal bölgəsinin geoloji-hidrogeoloji xüsusiyyətləri ilə əlaqədar onların neftlilik-qazlılıq perspektivliyi" mövzusunda dissertasiya müdafiə etmiş, geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1992-ci ildə "Dərin batımlı çökmə hövzələrdə karbohidrogen yığımlarının yerləşmə xüsusiyyətləri, onların səmərəli axtarış və kəşfiyyatının əsasları (Cənubi Xəzərin misalında)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Respublikada və xarici mətbuatda dərc olunmuş elm-istehsalat əhəmiyyətli 6 kitabın, 200-dən çox elmi, elmi-kütləvi məqalələrin, eləcə də çoxsaylı publisistik yazıların müəllifidir. İstehsalatın vacib praktik məsələlərinin həllində tətbiq olunmuş çoxlu səmərəli təklifləri və yenilikləri var. Elmi-praktik fəaliyyətlə yanaşı, pedaqoji sahədə yüksək ixtisaslı istehsalatçı-mütəxəssis kadrların və elmi işçilərin hazırlanmasında fəal iştirak edir. 1990-cı ildən istehsalatdan ayrılmamaqla Azərbaycan Dövlət Neft Akademiyasının "Neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı" kafedrasında saat hesabı müəllim, baş müəllim, dosent, professor vəzifələrində işləyib. Hal-hazırda həmin kafedranın professorudur.

40 ilə yaxın istehsalatda işləməklə, bir çox iri neft-qaz-kondensat yataqlarının (Səngəcal-dəniz-Duvannı-dəniz-Xərə-Zirə adası, Bulla-dəniz, Bahar, Qarasu, Ələt-dəniz, 8 Mart adına və s.) kəşf olunub istifadəyə verilməsində bilavasitə iştirak edib.

P. H. Mehdiyevin nəzəri-praktik əhəmiyyətli, geniş şaxəli tədqiqatlarında kompleks araşdırmalar əsasında axtarış-kəşfiyyat işlərinin səmərəli aparılmasının perspektivli istiqamətləri aydınlaşdırılır, böyük dərinliklərdə neftli-qazlı layların varlığı, effektli açılması, sınanması və mənimsənilməsi problemlərinin həlli yolları göstərilir. Həmin problemlərə həsr olunmuş çoxsaylı əsərlərin 30-dan çoxu (o cümlədən 2 kitab - Moskvada) dərc olunub.

P. H. Mehdiyevin tədqiqat işləri, əlaqəli geoloji-hidrokimyəvi, geotermobarik amillərin kompleks təhlilinə əsaslanmaqla, neft-qaz axtarışı kəşfiyyatı işlərinin əsas istiqamətlərini əhatə edir. Belə ki, strukturların geoloji quruluşunun əsas xüsusiyyətləri öyrənilməklə karbohidrogen yığımlarının paylanma qanunauyğunluğu, onların tərkibi, fiziki-kimyəvi xassələrinin dəyişilmə xarakteri müəyyənləşdirilir. Neftlilik-qazlılıqla bağlı kəsilişin geoloji-hidrogeokimyəvi xüsusiyyətləri aydınlaşdırılmaqla, karbohidrogen yığımlarının formalaşma və pozulma şəraiti yeni aspektdə öyrənilir. Aşkar olunur ki, orta pliosenin qumlu-alevritli süxurları çox böyük dərinliklərdə də karbohidrogen yığımları üçün əlverişli kollektorluq xüsusiyyətlərini saxlaya bilir. Bu baxımdan Xəzərin cənubunda 25 km qalınlığa çatan çöküntülər kompleksi üçün neftlilik-qazlılıq cəhətdən böyük perspektivlər açılır.

Paleotektonik tədqiqatlarla əsaslandırılır ki, tektonik bölgələrin strukturları və onların uzununa regional dərin pozulma xətləri daha qədim mənşəli olmaqla, hələ orta pliosen çöküntüləri toplanana qədər mövcud olmuşdur. Odur ki, strukturların uzununa keçən pozğunluqla ayrılan müxtəlif qanadlarının (bloklarının) müstəqil geoloji inkişaf dövrü keçirməsi sübut olunur. Bununla da, həm strukturların və həm də uzununa pozğunluqların konsedimentasiya mənşəli olması göstərilir. Bu hal lay flüidlərinin paylanması və onların fiziki-kimyəvi xüsusiyyətlərinin dəyişilmə müxtəlifliyilə bir daha təsdiq olunur.



Dərin axtarış-kəşfiyyat qazma işləri nəticəsində alınmış yeni faktik materiallar əsasında Sərgəçal-dəniz, Duvannı-dəniz, Xərə-Zirə adası, Bulla-dəniz, 8 Mart, Ələt-dəniz və b. strukturların tektonikası xeyli dəqiqləşdirilmişdir.

Böyük dərinliklərdə lay flüidlərinin paylanma xarakteri və onların fiziki-kimyəvi xüsusiyyətlərinin dəyişilmə qanunauyğunluqları aşkar edilmişdir. Bu məqsədlə, lay flüidləri analizlərindən istifadə metoduna diqqət verməklə, onların dəyişilməsinə səbəb olan kompleks faktorlar dərindən araşdırılır. Karbohidrogen yığımlarının paylanması, strukturların geoloji-hidrogeoloji, termobarik xüsusiyyətləri və lay flüidlərinin fiziki-kimyəvi xassələrinin dəyişilməsi arasında qarşılıqlı əlaqə olması aşkar edilmişdir. Belə qarşılıqlı əlaqənin öyrənilməsi də öz növbəsində tektonikanın dəqiqləşdirilməsinə, vacib elmi və praktik məsələlərin həllinə imkan yaratmışdı. Bununla əlaqədar neft yataqlarının tektonikasının aydınlaşdırılmasının hidrogeokimyəvi metodu işlənib hazırlanmışdır.

İlk dəfə müəyyən edilmişdir ki, neft-qaz yataqlarının toplandığı hissələrdə yod-brom elementləri kontur arxası və digər neftsiz-qazsız zonalarla müqayisədə xeyli azalır. Neft-qaz yataqları sularından praktik istifadə, onlardan yod-brom elementləri almaq perspektivliyi faktik materiallar əsasında öyrənilmişdir.

Müəyyən horizontlar üçün, xüsusilə böyük dərinliklərdə yeraltı suların tərkibində sulfat ionlarının və metan qazının artması neftlilik-qazlılıq perspektivliyi üçün (əsasən qaz-kondensat yataqları) müsbət hidrokimyəvi kriteriya kimi qiymətləndirilir. Böyük dərinliklərdə geotermik qradiyentin azalması dərin yatımlı obyektlərdə neft yataqlarının varlığını sübut edən faktik material kimi əsaslandırılır. Neft-qaz yığımları ilə münasibətinə görə lay sularının yatım şəraiti (tağ, tavan, daban, aralıq sular və b.) aydınlaşdırılmış, onların təsirini aradan qaldırmaq üçün tədbirlər hazırlanmışdır.

Lay sularının ion-duz tərkibinin və hövzənin paleohidrogeoloji rejiminin tədqiqi əsasında orta pliosen çöküntüləri sularının genezisi ilə bağlı problemlər araşdırılmaqla karbohidrogen yığımlarının formalaşması və pozulmasının hidrogeoloji şəraiti öyrənilmişdir. Bununla əlaqədar depressiya zonalarına yönəlmiş strukturların, yaxud tektonik blokların ən çox neftlilik-qazlılığa malik olması səbəbi aydınlaşdırılmışdır. Aşkar edilmiş kompleks kriteriyalar əsasında karbohidrogen yığımlarının səmərəli axtarış-kəşfiyyatının nəzəri əsasları və metodları işlənib hazırlanmışdır.

Bəzi tədqiqat əsərlərində böyük dərinliklərdə istifadəsiz qalmış yanacaq sərvətinin proqnozlaşdırılması və istifadəsi ilə bağlı elmi-istehsalat əhəmiyyətli problemlərin həlli yolları göstərilir. Həmin məsələlərin praktik həlli üçün dərin quyuların səmərəli qazılmasına və eləcə də neftli-qazlı obyektlərin effektli açılmasına, sınanmasına və mənimsənilməsinə təsir

edən geoloji amillər kompleks aşkarlanmış və onların aradan qaldırılması yolları göstərilmişdir. Bununla bağlı, ilk dəfə dəniz yataqları üçün üfiqi qazmanın da effektliliyi geoloji cəhətdən əsaslandırılmışdır. Cənubi Xəzər hövzəsi üçün axtarış-kəşfiyyat işlərinin səmərəli kompleksi işlənib hazırlanmış və praktik tövsiyələr verilmişdir.

Məsələn, hələ 1972-1980-ci illərdə P. H. Mehdiyev sübut etmişdir ki, Bulla-dəniz yatağının cənub-qərb qanadı mövcud olduğundan da mürəkkəb geoloji quruluşa malikdir (stratiqrafik dərinlik üzrə layların yatım bucağının artmasına görə). Odur ki, sonrakı axtarış quyularını səmərəli yerləşdirmək üçün tektonikanı dəqiqləşdirmək məqsədi ilə müasir üsullarla yeni seysmik kəşfiyyat işləri aparmaq təklif olunurdu. Lakin əlavə tədqiqat aparmadan 6400 metrə qədər qazılan yeni quyular layihə horizontunu aça bilmədi və bununla da deyilənlər təsdiq olundu.

Qeyd edək ki, P. H. Mehdiyevin bir çox tədqiqat işləri 30-35 il əvvəl dərc olunmaqla, o vaxt bəzi strukturlarda (indi işlənmədə olan) axtarış-kəşfiyyat qazması təzə başlanırdı. Belə ki, Bakı və Abşeron arxipelaqlarının, bir çox strukturlarının neftlilik-qazlılıq perspektivliliyi qiymətləndirilmiş və sonralar axtarış-kəşfiyyat qazması ilə yeni yataqlar açılmaqla təcrübədə təsdiq olunub. Beləliklə, onun vaxtilə dərc olunmuş tədqiqat əsərləri neft geologiyası və hidrogeologiyasına həsr olunmuş ilk əsərlərdən olmaqla, vaxt ərzində sınaqdan keçmiş və təsdiq olunmuşdur.

P. H. Mehdiyevin vaxtilə "Sahil" DKQİ-də işlədiyi uzun müddət ərzində dərin obyektlərin açılması və mənimsənilməsində laya qarşı əks təzyiqin azaldılması, qazma məhlulunun udulması, Suraxanı və Balaxanı lay dəstələrində yüksək basqılı sularla, az dərinliklərdə su-qaz təzahürləri və b. səbəblərlə bağlı mürəkkəbləşmələrin aradan qaldırılması üçün praktik tövsiyə və təklifləri çətin geoloji şəraitdə qazmanın effektliliyini artırmağa imkan yaratmışdır. Həmin işlərin praktikada tətbiqi o vaxtkı pulla milyon manatlarla iqtisadi səmərə verdiyi hesablanmışdır.

Pənah müəllimin uzun illər dərc etdirdiyi elmi-bədii kitablarında, elmi-publisistik yazılarında, satirik-yumoristik hekayələrində, miniatür və şerlərində neqativ hallara qarşı münasibətini də açıq hiss etmək olur. Bu baxımdan 60 yaşı ərəfəsində yazdığı şerlərindən aşağıdakı beytlər səciyyəvidir.

Həyatımda qazancım əqidəm, amalımdı,
Haqsızlığa nifrətim, düzlüyə inamımdı.

Yaxud vaxtilə "Vışka" qəzetində dərc etdirdiyi (özümlə söhbət formasında) "Gördün" başlıqlı şerinin bir yerində belə deyir:



Sirli yataqları ilkin açanda,
Yeni kəşflərinlə qarşılaşanda.
Elmi ideyalar coşub-daşanda,
Fürsəti boş gündə, aylarda gördün.

Yüzlərlə əsərdə yazıldı adın,
Heç bir mükafatın bilmədin dadın.
Təltif cərgəsindən çıxdı soyadın,
Səbəbin kimsəsiz çağlarda gördün.

Başqa şerlərindən birində isə müəllif öz oxucusunu haqqa-ədalətə səsləyir:

Əyriliyi tez görəndə gözlərim,
Daşa dəyib, geri dönüb sözlərim.
Saç ağarıb, əyiləndə dizlərim,
Daha aydın seçilibdi izlərim.

...Yaxud, aşağıdakı bəndə nəzər yetirək:

Ömür boyu öz odumla alışmışam, yanmışam,
Həqiqəti, doğruluğu aramışam, anmışam.
Təmizliyi, haqq işini ən ucalıq sanmışam,
Əzabların acısını hər addımda qanmışam.

İstehsalatçı alim Pənah Mehdiyevin elmi-pedaqoji, bədii yaradıcılıq fəaliyyəti deyilənlərlə məhdudlaşmır. Onun planları genişdir. Xeyli elmi, bədii əsərləri, dərslikləri dərc olunmaq ərəfəsindədir.

Pənah Mehdiyev dörd övlad böyüdüb, boya-başa çatdırıb. Həyat yoldaşı Şövkət xanım Azərbaycan dili və ədəbiyyatı müəlliməsidir. Qızı Təranə kimya müəlliməsidir, ailəlidir, 2 övladı var. Oğlanlarından İlham neftçi geoloqdur, ailəlidir, 2 övladı var. Natiq mayor rütbəsində hərbi qulluqdadır, Qarabağ müharibəsi veteranıdır, evlidir. Qorxmaz isə neftçi-mühəndisdir.



# ÖZ İŞİNİN PROFESSİONALI

*"Günlərin səhifəsi ömür səhifəsidir, ona ən gözəl əməllər və ən dəyərli əsərlərdən başqa heç nə yazmayın".*
***Firudin***

Rauf Nəcməddin oğlu Qarayev 1942-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, orta məktəbi bitirdikdən sonra Odessa Dəniz Donanması Mühəndisləri İnstitutuna daxil olmuş, 1965-ci ildə institutu bitirərək gəmi mühəndisi ixtisasına yiyələnmişdir.

Gənc mütəxəssis əmək fəaliyyətinə gəmi təmiri zavodlarında başlamış, usta, böyük usta, birinci dərəcəli texnoloq, mühəndis-konstruktor işləmişdir. O, 1969-cu ildən DETLİ-də baş mütəxəssis, baş konstruktor, layihənin baş mühəndisi vəzifələrində çalışmış, hal-hazırda isə burada şöbə müdiri vəzifəsində fəaliyyət göstərir. Onun elmi və praktik işləmələri əsasən donanma, sualtı-texniki işlər, dalğıc sahələrini əhatə edir. Bundan başqa R. N. Qarayev dənizdə təhlükəsizlik məsələləri ilə də məşğul olur.

Yüksək professionallıq t.e.n. R. N. Qarayevə elmi-istehsalat fəaliyyətini Odessa Dəniz Donanması İnstitutunda, sonra isə Azərbaycan Neft Akademiyasında müəllimlik fəaliyyəti ilə səmərəli uyğunlaşdırmağa, bununla bərabər bir neçə tədris vəsaiti, o cümlədən MDB-də ilk vəsait olan "Üzən dəniz neft-qaz-mədən qurğuları" kitabını yazıb çap etdirməyə imkan vermişdir".

Yüksək ixtisaslı mütəxəssis kimi Qarayev R. N. Azərbaycanı Vyetnamda layiqincə təmsil etmiş, sahə üzrə iki kitab hazırlamış və "Dənizdə sağqalma" adlı tədris-metodiki film çəkdirmişdir. Məhsuldar işlədiyinə görə Vyetnamda o, fəxri fərmanla və "Vyetsovpetro" xatirə medalı ilə təltif olunmuşdur.

Rauf Qarayev yüksək səviyyəli mütəxəssis, zəhmətsevər, işə yüksək məsuliyyət hissi ilə yanaşan, tələbkar işçidir. Harada çalışmasından asılı olmayaraq, işə yüksək məsuliyyət hissi ilə yanaşması, təşəbbüskarlığı Rauf müəllimə müvəffəqiyyətlər qazanmaqda böyük kömək etmişdir. O, "SSRİ-nin ixtiraçısı" adına layiq görülmüş, səmərəli fəaliyyətinə görə bir çox fəxri fərmanlar və digər mükafatlar almışdır.

R. N. Qarayev 70 elmi işin, 15 ixtiranın, bir neçə tədris-metodiki vəsaitlərin müəllifidir. O, öz elmi axtarışlarını davam etdirir, ömür səhifələrini yaxşı əməllərlə bəzəmək üçün gərgin əmək sərf edir.



# BİLİYİN GÜCÜ İLƏ



*"Döyüşdə tüfəng necə lazımdırsa, ictimai həyatda, bütün həyatın yeni qayda ilə təşkil edilməsində bilik də eləcə lazımdır"*
***N. K. Krupskaya***

Həmidov Həzrətqulu Allahqulu oğlu 1937-ci il may ayının 14-də Xaçmaz rayonunun Susay kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1946-1950-cı illərdə Susay kənd ibtidai məktəbində, 1950-1956-cı illərdə Xudat şəhər orta məktəbində oxumuş və məktəbi əla qiymətlərlə bitirmişdir. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə daxil olmuş və 1962-ci ildə universiteti mexanika ixtisası üzrə bitirmişdir. 1962-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının Su Problemləri İnstitutuna kiçik elmi işçi vəzifəsinə göndərilmişdir.

O, 1964-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının Dərin Neft-qaz Yataqlarının İşlənməsi Problemləri İnstitutunun aspiranturasına (əyani şöbəyə) qəbul olunmuşdur.

1966-cı ildən Azərbaycan Neftçıxarma Elmi-Tədqiqat İnstitutunda (indiki Azərbaycan Neft Sənayesinin Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutu AzNSETLİ) mühəndis, kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində çalışmış və 1968-ci ildə "Doyma təzyiqindən aşağı lay təzyiqində neft yataqlarının işlənməsinin hidrodinamiki tədqiqinin bəzi məsələləri" mövzusunda fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi adı almaq üçün dissertasiya müdafiə etmiş və 1974-cü ildə Ali Attestasiya komissiyasının "Neft, qaz və plazma" mexanikası ixtisası üzrə böyük elmi işçi diplomunu almışdır. AzNSETLİ-də işlədiyi müddətdə neft və qaz yataqlarının işlənməsinin nəzəri və praktiki məsələlərinin hidrodinamiki tədqiqi, neft laylarına istiliklə (istisu, buxar kimyəvi reaksiya və s.) təsir etməklə işlənməsi zamanı temperaturun paylanması, riyazi üsulların tətbiqi ilə neft və qaz ehtiyatlarının qiymətləndirilməsi, layların son neftveriminin təyini, qazlı mayelərin məsaməli mühitdə süzülməsi məsələlərinin həlli ilə məşğul olunmuşdur.

O, 1979-1983-cü illərdə Əlcəzair Xalq Demokratik Respublikasının Neft, Kimya və Energetika Nazirliyində neft və qaz yataqlarının işlənmə-

si və hidrodinamiki tədqiqatları üzrə baş mühəndis vəzifəsində çalışmış, Əlcəzair neft və qaz yataqlarının səmərəli işlənməsi, layların neft-qaz ehtiyatlarının qiymətləndirilməsinə aid 12 elmi-metodiki iş yerinə yetirmiş, özünü çox əməksevər göstərmiş və SSRİ səfirliyinin fəxri fərmanına layiq görülmüşdür. 1984-1991-ci illərdə yenidən AzNSETLİ-də böyük elmi işçi vəzifəsində çalışmışdır.

1992-ci ildən "Dənizneftqazlayihə" DETLİ-nin neft və qaz yataqlarının layihələndirilməsi və təhlili laboratoriyasına müdir təyin olunmuş və hal-hazırda həmin vəzifədə işləyir.

H. A. Həmidov dəniz neft və qaz yataqlarının işlənməsinin layihələndirilməsi, çıxarıla bilən neft ehtiyatlarının qiymətləndirilməsi, layların son neftverimi əmsallarının təyin olunması, layihələrin tətbiqi üzərində müəlliflik nəzarətinin aparılması məsələlərinin həlli ilə məşğul olur və bilavasitə rəhbərlik edir. Son illərdə laboratoriyada aparılan tədqiqatlar nəticəsində "Günəşli", "Neft Daşları", "Darvin bankası", "Palçıq Pilpiləsi", "Pirallahı adası" və s. yataqların böyük həcmdə çıxarıla bilən karbohidrogen ehtiyatlarına malik olduğu təyin edilmişdir. Yataqların səmərəli istismarı üçün H. A. Həmidov tərəfindən layların neftverimini artırmaq məqsədilə bir neçə hidrodinamiki üsullar təklif olunmuş və "Günəşli", "Neft Daşları", "Bahar", "Səngəçal-Duvannı-Xərə Zirə adası" yataqlarında tətbiq olunmuş və böyük həcmdə iqtisadi səmərə əldə edilmişdir.

H. A. Həmidov 1993-1994-cü illərdə İngiltərənin BP, Norveçin Smedviq və Kverner neft şirkətləri ilə birlikdə "Günəşli" yatağının işlənilməsinin texniki-iqtisadi əsaslandırılması üzrə hesabatların hazırlanmasında fəal iştirak etmiş, 2 dəfə İngiltərəyə ezamiyyə olunmuşdur. 2001-ci ildə Amerika Bioqrafiya İnstitutunun Tədqiqat Şurasına məsləhətçi seçilmişdir. O, 75-dən çox elmi işin müəllifidir. Neft və qaz yataqlarının işlənməsi və termohidrodinamiki tədqiqatlarına həsr olunmuş Moskva, Kiyev, Qazan, Poltava, Bakı şəhərlərində keçirilmiş elmi konfranslarda iştirak etmiş və son illərdə isə Bakıda keçirilən dəniz neft-qaz yataqlarının işlənməsinə həsr olunmuş Beynəlxalq simpoziumlarda elmi məruzələrlə fəal iştirak edir. İnstitutun Elmi Şurasının və Dənizdə neft və qazçıxarma üzrə İstehsalat Birliyinin geologiya, geofizika və yataqların işlənməsi Elmi Şurasının üzvüdür. Həzrətqulu Həmidov biliyin gücü ilə yol gedir, hər sahədə bilik onun köməyinə gəlir. Bu biliyi isə o, alın təri hesabına qazanmışdır.



# HÖRMƏT QAZANMIŞDIR



*"Əmək və bilik "ikinci təbiəti" yaradır, bu isə sözün dəqiq və əsl mənasında mədəniyyətdir"*

*M. Qorki*

Məmmədbəyli Minirə Rzaqulu qızı 1955-ci ildə Azərbaycan Sənaye İnstitutunun geologiya fakültəsini bitirmişdir. O, 1955-ci ilin fevral ayından "Neft Daşları"nda hasilatı ölçən, 1955-ci ilin may ayından 1 №-li mədənin geoloqu vəzifəsində çalışmışdır. İşlədiyi müddətdə mədənin baş geoloqu Xoşbaxt Yusifzadənin köməkliyi ilə geoloji və mədən işlərini, dəniz neft yataqlarının geologiyasını və neft-tədqiqat məsələlərini dərindən öyrənmişdir.

1960-cı ildə Neft Daşlarının baş geoloqu Fuad Səmədov ona elmi işlə məşğul olmağı təklif etmiş və elmi məlumatların toplanmasına, elmi işin yazılmasına köməklik etmişdir. Həmin illərdə F. Səmədovla birlikdə bir neçə elmi məqalələri məcmuələrdə dərc edilmişdir.

M. R. Məmmədbəyli 1962-ci ildə Azərbaycan Elmlər Akademiyasının "Neft-qaz yataqlarının işlənməsi" institutuna mühəndis qəbul edilmişdir. 1967-ci ildə F. İ. Səmədovun rəhbərliyi altında neft-qaz yataqlarında qazma dərinliyinin artması ilə əlaqədar kollektor xüsusiyyətlərinin azalmasına həsr edilmiş elmi işi üzrə namizədlik dissertasiyası müdafiə etmişdir.

M. R. Məmmədbəyli 1972-ci ildə "Dənizneftqazlayihə" DETLİ-nın dəniz neft-qaz yataqlarının abadlaşdırılması şöbəsinə baş elmi işçi vəzifəsinə qəbul edilmişdir. 1975-ci ildə institutun Elmi şurasının təsdiqi ilə dəniz neft-qaz yataqlarının perspektiv tədqiqatları sektorunun müdiri təyin olunmuşdur.

1979-cu ildə "Akvatoriyada geoloji-kəşfiyyat işlərinin operativ analizi" laboratoriyasının müdiri vəzifəsinə keçirilmişdir.

M. R. Məmmədbəyli 1984-1987-ci illərdə Vyetnam Sosialist Respublikasında SP "Vetsovpetro"-nun mühəndis-geologiya laboratoriyasının aparıcı mühəndisi və müdiri işləmişdir.

O, 1987-ci ildən "Dənizneftqazlayihə" DETLİ-nin qazma texnologiyası laboratoriyasına böyük elmi işçi vəzifəsinə qəbul edilmişdir.

1991-ci ildən "Quyu tikintisi layihələrinin geoloji təminatı" laboratoriyasında böyük elmi işçi vəzifəsində çalışır. İnstitutda işlədiyi müddətdə M. R. Məmmədbəyli 937, 1082, 1210, 1209, 1423, 1383, 1424 saylı müqavilələrə əsasən işlənib hazırlanmış elmi hesabatlarda icraçı və məsul icraçı kimi iştirak etmişdir.

M. R. Məmmədbəyli bir sıra geoloji məsələlərin və dəniz yataqlarının işlənməsinə dair 40-a yaxın elmi məqalə yazmışdır.

M. R. Məmmədbəyli özünə qarşı tələbkarlığı, yüksək mədəniyyəti, təvazökarlığı və sadəliyi ilə laboratoriya kollektivində hörmət qazanmışdır.





# DÜŞÜNCƏ ETİBARLI KÖMƏKÇİDİR



*"Adamın öz düşüncəsi ən etibarlı köməkdir"*

*J. Fabrisi*

Şükürəli Paşa oğlu Kazımov 1956-cı il iyunun 25-də Kürdəmir rayonunda kolxozçu ailəsində anadan olmuşdur. 1977-ci ildə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun "Qazneft-mədən" fakültəsinə daxil olmuş və 1982-ci ildə institutu Qırmızı diplomla bitirmişdir.

Ş. Kazımov institutu qurtardıqdan sonra, təyinatla M. Əzizbəyov adına NQÇİ-də neftçıxarma operatoru işləmişdir.

Elmi axtarışlar və elmə olan böyük həvəs Şükürəli Kazımovu çox düşündürürdü. Elə bu həvəs, bu arzu ilə də gənc mütəxəssis 1985-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun aspiranturasına daxil olmuşdur.

O, 1987-ci ildə Azərbaycan Neft Sənaye Elmi-Tədqiqat və Layihə İnstitutunda mühəndis vəzifəsindən direktorun elmi işlər üzrə birinci müavini vəzifəsinədək yüksəlmişdir. Gərgin elmi axtarışlar nəticəsində namizədlik dissertasiyası müdafiə edərək texnika elmləri namizədi adını almışdır.

50-dən artıq elmi məqalə və ixtiranın müəllifi olan Şükürəli Kazımov 1999-cu ildə Azərbaycan NSETLİ-nin 70 illik yubileyinə həsr olunmuş "Neft elminin beşiyi" kitabının müəlliflərindən biridir. Onun müəlliflərindən biri olduğu rusca yazılmış "Ştanqlı quyu nasosları ilə neft hasilatı" kitabı da neftçilərə-istehsalatçı və tədqiqatçılara qiymətli hədiyyədir.

Şükürəli Kazımov "Mürəkkəb istismar şəraitində neftçıxarma problemlərinin həlli yolları" mövzusunda doktorluq dissertasiyası üzərində çalışır.



# ZƏHMƏTİN BƏHRƏSİ

*"Biliyimizin hüdudu yoxdur, çünki dərketmə obyekti olan təbiət sonsuzdur".*

*B. Paskal*

Z. H. Dilbazi 1928-ci il sentyabrın 1-də anadan olmuşdur. 1952-ci ildə M. Əzizbəyov adına Azərbaycan Neft Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirmiş və dağ mühəndisi geoloq adını almışdır.

1952-1957-ci illərdə Bakı Neft Texnikumunda müəllim, 1957-1959-cu illərdə Bakı axşam neft texnikumunda ixtisas fənləri üzrə metodist-inspektor vəzifəsində çalışmışdır. O, eyni zamanda 1954-1959-cu illərdə M. Əzizbəyov adına Neft-Kimya İnstitutunda ümumi geologiya kafedrasında müəllim işləmişdir.

1959-1963-cü illərdə o, "Şirvanneft" neft mədənləri idarəsində böyük mühəndis, geoloji şöbədə böyük geoloq və şöbə rəisi vəzifəsində çalışmışdır.

İşgüzarlığını və yüksək ixtisasa malik olmasını nəzərə alaraq ona 1963-cü ildə yeni yaranmış "Salyanneft" neft mədənləri idarəsində baş geoloq vəzifəsi tapşırılmışdı. Bu vəzifədə o, yüksək mühəndis qabiliyyəti ilə neft, qaz və qazkondensat yataqlarının axtarış, kəşfiyyat və işlənmə işlərinə rəhbərlik etmişdir. Onun iştirakı və rəhbərliyi ilə Qarabağlı, Kürsəngi, Gürovdağ yatağının şimali-qərb hissəsinin neftliliyi, Netçala neft yatağının Cənubi şərq periklinal hissəsinin neftliliyi aşkar edilmişdir. Neftçala neft yatağının XXI horizontunun neftliliyi onun zəhməti sayəsində sübut olunmuşdur.

Müşovdağ neft yatağının mənimsənilməsində və neftlı sahənin genişlənməsində, Xıllı neft yatağının konservasiyadan çıxarılması və yenidən mənimsənilməsi, onun fəal iştirakı ilə həyata keçirilmişdir.



O, 1971-ci ildə Azərbaycan Neft Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutuna köçürülüb. Əvvəlcə böyük mühəndis, sonra böyük elmi işçi vəzifələrində çalışıb.

1975-ci ildə institutun təklifi ilə o, Əlcəzair ölkəsinə xidməti ezamiyyətə göndərilmişdir. O, ƏXDR-də yanacaq və energetika Nazirliyində neft yataqlarının işlənilməsi sahəsində şöbədə ekspert, baş mühəndis və sonra şöbə rəisi vəzifələrində çalışmışdır.

Z. H. Dilbazi 1976-cı ildə geologiya-mineralogiya elmi üzrə namizədlik dissertasiyası müdafiə etmişdir.

1978-ci ildə xidməti ezamiyyətdən qayıdaraq, yenə də AzNSETLİ-də çalışmağa başlamışdır.

1983-cü ildən Mərkəzi və Şərqi Abşeron yataqlarının işlənilməsi laboratoriyasının müdiri və 1993-cü ildən isə geologiya və işlənilmə sahəsində direktorun müavini vəzifəsində çalışır.

O, Beynəlxalq EKO energetika akademiyasının elmlər doktoru, professorudur. Amerika-Azərbaycan Neftçi Geoloqları Assosiasiyasının aktiv üzvüdür. Azərbaycan Dövlət Elmlər Akademiyasının Yer haqda elmlər bölməsi və Azərbaycan Elmlər Akademiyasının geoloji-kəşfiyyat işləri üzrə Mütəxəssislər Şurasının üzvüdür.

Azərbaycan Dövlət Neft Şirkətinin geologiya-kəşfiyyat, neft və qaz ehtiyatları, neft-qaz və qazkondensat yataqlarının işlənməsi üzrə Mərkəzi Komissiyanın üzvüdür. AzNSETLİ-nın Böyük Elmi Şurasının üzvü, şuranın geologiya və neft-qaz yataqlarının işlənməsi bölməsinin sədridir.

Z. H. Dilbazının təşəbbüsü və bilavasitə yaxından iştirakı ilə 1994-cü il mayın 21-də ABŞ-ın Kaliforniya ştatının Anaheym şəhərində Amerika-Azərbaycan dostluğu cəmiyyəti yaradılmışdır.

Z. H. Dilbazi 80-dən artıq çap olunmuş və 110-dan artıq fond materiallarının müəllifidir.

Onun "Kompleksnaya proqramma po razvitiyu neftedobıçi na mestorojdenix Azerneft na period do 2010 qoda" Azərbaycan Dövlət Neft Şirkətinin Neftçilər yığıncağında geniş müzakirə olunmuş və yüksək qiymətləndirilmişdir.

Əmək fəaliyyəti müddətində dəfələrlə mükafatlandırılmış və keçmiş SSRİ Neft Sənayesi, ƏXDR (Əlcəzair) səfirliyi tərəfindən fəxri fərmanlarla təltif olunmuşdur.



# ÖMRÜN ANLARI

*"İnsanın ləyaqəti onun əməyi ilə müəyyən olunur"*

*R. Vaqner*

Şamxal İsmayıl oğlu İsmayılov 1936-cı ilin gözəl bir yay günündə respublikamızın dilbər guşələrindən olan Qubadlı bölgəsinin Əyin kəndində müəllim ailəsində anadan olmuşdur.

O, 1954-cü ildə orta məktəbi medalla, 1959-cu ildə isə M. Əzizbəyov adına Neft və Kimya (indiki Neft Akademiyası) institutunu bitirmiş, neft və qaz yataqlarının işlənməsi ixtisası üzrə dağ mühəndisi ixtisasını almışdır. 3 ilə yaxın neft sənayesinin müxtəlif sahələrində işləmiş, 1962-ci ildən isə əvvəlcə AzET qazma institutunda, sonra isə bu günə kimi Azərbaycan Dövlət Neft Sənayesinin Elmi-Tədqiqat və Layihə İnstitutunda (AzNSETLİ) çalışır.

1964-cü ildə aspiranturaya daxil olmuş, 1968-ci ildə namizədlik dissertasiyası müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. O, öz ləyaqəti və elmi ilə böyük hörmət qazanmışdır.

1973-cü ildə ona böyük elmi işçi diplomu verilir. Artıq neçə vaxtdır ki, 40 ildən çox çalışdığı AzNSETLİ-də qazma üzrə direktor müavini vəzifəsində işləyir.

Şamxal müəllim 4 elmi monoqrafiyanın, 100-ə yaxın elmi məqalənin, 15 ixtiranın və 10 rəhbər sənədin, onlarla elmi hesabatların müəllifidir. O, "Neft sənayesinin əlaçısı" adına layiq görülmüşdür 1996-cı ildə ona Beynəlxalq EKO Energetika Akademiyasının doktor-professoru diplomu verilmişdir. Hal-hazırda qazma bölməsinin sədri, institutun elmi şurasının sədr müavinidir.

Şamxal müəllim Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin mərkəzi qazma komissiyasının üzvüdür. Onun rəhbərliyi və iştirakı ilə bir neçə gənc mütəxəssis alimlik dərəcəsinə layiq görülmüşdür.



# ELMİN ZİRVƏLƏRİNƏ DOĞRU



***Bilik can quşuna qanaddır inan,***
***Ruhunu göylərə odur qaldıran.***

***M. Əhvədi***

Qənimət Əsəd oğlu Səfərov 1951-ci il avqustun 11-də Cəbrayıl rayonunun Qaracallı kəndində müəllim ailəsində anadan olmuşdur. 1968-ci ildə N. Nərimanov adına Balyand kənd orta məktəbini bitirmiş və həmin il M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya (indiki Neft Akademiyası) İnstitutunun mühəndis-iqtisad fakültəsinə daxil olmuşdur. 1973-cü ildə həmin institutu müvəffəqiyyətlə bitirmiş və "Neft və qaz sənayesinin iqtisadiyyatı, planlaşdırması və təşkili" ixtisası üzrə mühəndis-iqtisadçı diplomu almışdır.

O, 1974-1975-ci illərdə Azərbaycan Respublikasının MSİ-nin Cəbrayıl RİHM-də baş mühəndis, 1975-1977-ci illərdə B. Sərdarov adına neft maşınqayırma zavodunda böyük mühəndis, 1977-1980-ci illərdə M. Əzizbəyov adına AzNKİ-da MÖHT kafedrasında böyük mühəndis vəzifələrində çalışmışdır.

1981-1984-cü illər ərzində Q. Ə. Səfərov AzNSETLİ-nin aspiranturasında təhsil almış, 1982-ci ildən mühəndis, kiçik elmi və böyük elmi işçi, "Neft yataqlarının işlənməsinin iqtisadiyyatı" laboratoriyasının müdiri olmuş, 1996-cı ildən isə iqtisadiyyat sahəsində elmi işlər üzrə direktor müavini vəzifələrində çalışır.

1986-cı ildə Q. Ə. Səfərov Ufa Neft İnstitutunun İxtisaslaşdırılmış Şurasında müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmiş və ona iqtisad elmləri namizədi alimlik dərəcəsi verilmişdir.

Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının qərarı ilə 1993-cü ildə Qənimət Səfərova "Baş elmi işçi" adı verilmişdir.

İnstitutda çalışdığı bu müddətdə Q. Ə. Səfərovun bilavasitə iştirakı və rəhbərliyi ilə neft sənayesinin iqtisadi problemlərinə dair bir sıra elmi-tədqiqat işləri yerinə yetirilmişdir. Elmi-tədqiqat işlərinin təcrübədə tətbiqinə çalışmaq, müxtəlif səviyyəli (beynəlxalq, respublika) konfrans və yığıncaqlarda çıxış etmək, əməksevərlilik, həmkarlarına köməklik etmək və s. Q. Ə. Səfərovu səciyyələndirən əsas keyfiyyətlərdəndir.

Qənimət Səfərov Amerika İnsan Resurslarının İnkişafı Departamenti İnstitutun, 1999-cu ildə isə "Tasis" proqramı üzrə bir illik kursları bitirmişdir və həmin il Böyük Britaniyada Oksford İnstitutunda ayyarımlıq təcrübə keçərək "Layihələrin iqtisadi qiymətləndirilməsi; Layihələrin yerinə yetirilməsində qərarların qəbul edilməsi; investisiyanın idarə edilməsi; Layihələrdə menecment" ixtisasları üzrə beynəlxalq sertifikat almışdır. Q. Səfərov həmçinin Çin Respublikasının "Şen Li Ltd" neft kompaniyasının dəvəti ilə Pekin şəhərinə ezam olunmuş, konkret layihə barəsində qərarın qəbul edilməsində bilavasitə iştirak etmişdir.

Qənimət Səfərovun bu illər ərzindəki əməyi onun iki monoqrafiyası, həmmüəlliflərlə bir kitabı, iki metodika və 70-dən çox elmi məqalələrində və AAK-na təqdim etdiyi doktorluq dissertasiyasında öz əksini tapmışdır.

Qənimət Səfərovun iki övladı var. Oğlu Elşən Neft Akademiyasında, qızı Mehriban isə Dillər Universitetinin ingilis dili fakültəsində təhsil alırlar.

Qənimət Səfərov elmin zirvəsinə gedən yolun başlanğıcındadır və ona bu yolda uğurlar diləyirik.





# NEFT SƏNAYESİNƏ HƏSR EDİLƏN MƏNALI ÖMÜR



*"Əməl zülmət içində bir işıqdır, qəlbə qüvvətdir"*

*M. Hadi*

Arif Murtuz Əli oğlu Xasayev 1934-cü ildə Qazax rayonunun Qıraq-Kəsəmənli kəndində anadan olmuş, orta təhsilini 1954-cü ildə Bakı şəhərində almışdır. 1956-cı ildə Azərbaycan Sənaye İnstitutunu (indiki Azərbaycan Dövlət Neft Akademiyası) dağ-mədən ixtisası üzrə bitirmişdir. İnstitutu bitirdikdən sonra on ilə yaxın istehsalatda - neft mədənlərində operator, texnik, mühəndis, böyük mühəndis, baş mühəndis vəzifələrində çalışmış, bir neçə il NQÇİ mədənlərində elmi-tədqiqat işlərinə rəhbərlik etmişdir. İstehsalatda işlədiyi müddətdə namizədlik dissertasiyası müdafiə etmişdir. Onun elmi pedaqoji fəaliyyəti Azərbaycan Neft Sənayesi Elmi Tədqiqat Layihə İnstitutu və Azərbaycan Dövlət Neft Akademiyası ilə bağlıdır. Belə ki, AzNSETLİ-də 20 il müddətində müxtəlif laboratoriyalara və elmi-tədqiqat şöbəsinə rəhbərlik etmiş və onun bütün fəaliyyəti neft sənayesinin müxtəlif problemlərinin həllinə həsr edilmişdir.

Pedaqoji fəaliyyəti Bakı Neft Texnikumunda və ADNA-da olmuşdur. O, burada kafedra müdiri vəzifələrində çalışmışdır.

O, 1974-cü ildə doktorluq dissertasiyasını müdafiə etmiş, 1980-ci ildə professor elmi adını almışdır.

Professor A. M. Xasayev bu illər ərzində çox məhsuldar işləmişdir. Onun 200-ə qədər elmi məqaləsi həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda müxtəlif məcmuələrdə çap olunmuşdur. O, 70-dən artıq kitabın müəllifidir. Onun dərsliklərindən, dərs vəsaitlərindən, metodik göstəricilərindən, rəhbər sənədlərindən həm təhsil sahəsində, həm də istehsalatda bu gün də geniş istifadə olunur. Onun neftçıxarmanın texnika və texnologiyasına və yataqların işlənilməsinə aid 60-dan artıq ixtirası vardır. O, neft sahəsində ən yaxşı elmi-tədqiqat işlərinə görə Qubkin adına mükafata layiq görülmüşdür. Xarici ölkələrdə keçirilən bir çox elmi konfrans, simpozium və müşavirələrdə məruzələrlə çıxış etmiş və Azərbaycan elminin irəliləməsində böyük işlər görmüşdür. A. M. Xasayev dünya ictimaiyyətində

tanınmışdır. Belə ki, o, Amerika Bioqrafik İnstitutunun Oner qızıl medalına və Böyük Britaniya Bioqrafik İnstitutunun Beynəlxalq Əməkdar xadimi adına və müvafiq ordeninə layiq görülmüşdür.

Alimin xidmətləri Azərbaycanda da müsbət qiymətləndirilmiş, müxtəlif medallarla, o cümlədən Müstəqil Azərbaycan Respublikasının "Tərəqqi" medalı ilə təltif edilmişdir.

A. M. Xasayevin elmi rəhbərliyi altında 20-dən çox dissertasiya işləri müdafiə edilmişdir. Hal-hazırda o, AzNSETLİ-də elmi məsləhətçi vəzifəsində çalışır. Xeyirxah əməllər sahibidir.






# KOMPLEKS GEOLOJİ-GEOFİZİKİ ARAŞDIRMALAR



*"Dünyada ən gözəl şah əsərləri,*
*Yaratdı zəhmətin cəsur əlləri.*
*Zəhmətə arxalan, işə güvən sən,*
*Budur tərəqqinin yolu əzəldən".*
**M. Şəhriyar**

Əli Mahmud oğlu Süleymanov 1937-ci il martın 13-də Dəvəçi rayonunun Zeyvə kəndində anadan olmuşdur.

O, 1954-cü ildə Dəvəçi şəhər orta məktəbini bitirmiş və 1955-ci ildə Azərbaycan Dövlət Neft Sənaye İnstitutunun (indiki Neft Akademiyası) geoloji kəşfiyyat fakültəsinə daxil olmuş və həmin institutu 1960-cı ildə dağ-mühəndisi geoloqu ixtisası üzrə bitirmişdir. Həmin il öz təyinatını Türkmənistanın Cənubi-Şərqi Qaraqum geoloji ekspedisiyasına alan Ə. Süleymanov burada 1961-ci ilə kimi çalışmış, sonra isə səhhətinə görə Bakıya qayıtmışdır.

1961-ci ildən Azərbaycan Dövlət Elmi-Tədqiqat Neftçıxarma İnstitutunda (indiki Azərbaycan Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutu) fəaliyyətə başlayan Ə. Süleymanov 1965-1968-ci illərdə bu institutun aspiranturasında oxumuşdur. O, aspiranturanı müvəffəqiyyətlə bitirib, 1969-cu ildə institutun Elmi Şurasında namizədlik dissertasiyasını müdafiə edərək, geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

1978-1980-ci illərdə bir ekspert geoloq kimi Hindistana ezam olunan Ə. Süleymanov bu müddətdə neft-qazlılıq perspektivliyinin elmi əsaslarını işləyib hazırlamışdır.

Sonralar, 1980-1986-cı illərdə yenidən AzNSETLİ-də baş elmi işçi kimi o, öz elmi fəaliyyətini davam etdirmişdir.

1986-1989-cu illərdə Ə. Süleymanov yenidən xarici ölkəyə - Suriya Ərəb Respublikasına ezam olunmuşdur. Bu ölkənin Mezozoy və Paleozoy çöküntülərində axtarış-kəşfiyyat işlərinin səmərəli istiqamətlərini müəy-

yən etmək üçün onun tərəfindən kompleks-geoloji-geofiziki araşdırmalar aparılmış və işinin nəticələri Suriya Neft Şirkəti tərəfindən kompleks layihələrə daxil edilmişdir.

Həmişə öz zəhmətinə arxalanan Ə. Süleymanov 1989-cu ildən 1994-cü ilə kimi AzNSETLİ-nin geoloji şöbəsində baş elmi işçi vəzifəsində işləmiş, 1994-cü ilin martından indiyə kimi institutun geoloji-kəşfiyyat işlərinin təhlili və layihələndirilməsi laboratoriyasına rəhbərlik edir.

O, institutun Elmi Şurasının üzvüdür. 2001-ci ildən isə Beynəlxalq Neftçi Geoloqlar Cəmiyyəti - Amerika Neftçi Geoloqlar Assosiasiyasının üzvüdür və AzNSETLİ üzrə bölmənin sədridir.






# İNAM HİSSİ



***"İnsan yalnız öz qüvvəsinə inandığı vaxt istədiyinə nail olur".***

***A. Feyerbax***

Xamis Məhəmməd oğlu Yusifov 1938-ci il fevralın 7-də qədim Şamaxı şəhərində anadan olmuşdur.

1956-cı ildə Şamaxı şəhər orta məktəbini bitirən X. M. Yusifov həmin ildə M. Əzizbəyov adına Azərbaycan Dövlət Sənaye İnstitutunun (indiki Neft Akademiyası) geologiya fakültəsinə daxil olmuş və 1961-ci ildə institutu neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı ixtisası üzrə bitirmişdir.

O, 1961-ci ildə təyinatla Türkmənistanın geoloji idarəsinin sərəncamına göndərilmiş və 1963-cü ilin avqustuna kimi bu idarənin Quqitanq geoloji ekspedisiyasında bir neftçi-geoloq kimi Mezozoy çöküntülərində neft və qaz yataqlarının axtarışı ilə məşğul olmuşdur.

Ailə vəziyyəti ilə əlaqədar olaraq, X. Yusifov 1963-cü ildə Bakıya gəlmiş və həmin ildən 1969-cu ilə kimi Azneftin indiki Binəqədi Neft idarəsinin 3-cü mədənində neftçıxarma üzrə sahə rəisi və istismar üzrə mühəndis vəzifələrində çalışmışdır.

Elmə olan həvəs onu 1969-cu il aprel ayında o vaxt akademik Ə. Ə. Əlizadənin rəhbərlik etdiyi Azneft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutuna gətirmiş və onun xeyir-duası ilə institutun neft geologiyası laboratoriyasında çalışmağa başlamışdır. 1979-cu ildə X. Yusifov Məhsuldar qat kəsilişində neft və qaz yataqlarının əmələ gəlməsi və paylanması qanunauyğunluqlarına həsr edilmiş dissertasiya işini Şimali Qafqazın Qroznı şəhərində yerləşən Neft İnstitutunda müdafiə edərək, alimlik dərəcəsi almışdır.

1981-1985-ci illərdə Əlcəzair Respublikasında SONATRAK neft şirkətində ekspert-geoloq kimi çalışan X. Yusifov bu ölkənin Mezozoy və Paleozoy yaşlı çöküntülərində axtarış və kəşfiyyat işlərinin səmərəliliyini artırmaq üçün elmi əsaslandırılmış təkliflər işləyib hazırlamışdır. Onun bu ölkə-

dəki elmi fəaliyyəti SSRİ-nin buradakı səfirliyinin təşəkkürnaməsinə layiq görülmüşdür.

1985-ci ildə yenidən AzNSETLİ-yə qayıdan X. Yusifov, 1987-ci ildən institutun geoloji-geofiziki ümumiləşdirmə laboratoriyasına rəhbərlik etməyə başlayır. 1988-ci ildə özünü bacarıqlı təşkilatçı və yaradıcı alim kimi göstərən X. Yusifov neft və qaz yataqlarının geologiyası və işlənməsi sahəsi üzrə AzNSETLİ-nin direktor müavini - Baş geoloqu vəzifəsinə təyin olunur. 1993-cü ildən bu günə kimi o, institutun geoloji-geofiziki ümumiləşdirmə laboratoriyasının müdiri vəzifəsində çalışır. Neft geologiyasının müxtəlif məsələlərinə həsr olunmuş 100-ə qədər elmi işin müəllifidir.

Xamis müəllim axtarışlar aparır, düşünür, öz qüvvəsinə inanır.

X. Yusifov AzNSETLİ-nin Elmi Şurası və bürosunun üzvüdür. 1994-cü ildən isə o, Beynəlxalq Geoloqlar cəmiyyəti olan Amerika Neftçi Geoloqlar Assosiasiyasının həqiqi üzvüdür. 1999-2001-ci illərdə bu assosiasiyanın bölməsi olan Azərbaycan neftçi geoloqları cəmiyyətinin vitse-prezidenti olmuşdur. Hal-hazırda bu cəmiyyətin orqanı olan "Azərbaycan Geoloqu" jurnalının beynəlmiləl redaksiya heyətinin üzvüdür. 2001-ci ildə isə o, Avropa geoloq-alimləri və mühəndisləri cəmiyyətinin üzvü seçilmişdir.

Bununla yanaşı o, 1998-ci ildən Azərbaycan Neft Akademiyasında neft-qaz yataqlarının geologiyası və kəşfiyyatı üzrə buraxılış imtahan komissiyasının üzvüdür.

X. Yusifov "SSRİ neft Sənayesi əlaçısı" adına layiq görülmüşdür.






# ŞƏRƏFLİ ÖMÜR YOLU



***"Əsl sevinc zəhmətdən sonrakı istirahətdir"***

***İ. Kant***

Doğma Azərbaycanımızın cənnət guşələrindən olan gözəl Şuşamızda 1916-cı il sentyabrın 20-də dünyaya göz açan Ənvər bu gün adlı-sanlı neftçi, neftçıxarma texnikası və texnologiyası sahəsində görkəmli alimdir.

1938-ci ildə Azərbaycan Sənaye İnstitutunu müvəffəqiyyətlə bitirən Ənvər Rüstəmov əmək fəaliyyətinə Bibiheybətin neft mədənlərində mühəndis vəzifəsində başlamış, qısa müddətdə mədən müdiri, trestin Baş mühəndisi, SSRİ Neft Sənayesi Nazirliyinin xüsusi konstruktor Bürosunun rəisi və nəhayət, AzNSETLİ kimi qocaman neft institutunda laboratoriya müdiri kimi vəzifələrə yüksəlmişdir.

Ənvər müəllim harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq, o, həmişə özünü bacarıqlı və təşəbbüskar mütəxəssis və məharətli təşkilatçı kimi göstərmişdir.

Məhz Ənvər müəllimin böyük yaradıcılıq əməyinin nəticəsi idi ki, AzNSETLİ uzun illər boyu keçmiş Sovetlər İttifaqında ştanqlı dərinlik quyu nasosları texnika və texnologiyası üzrə baş tədqiqat mərkəzi olmuşdur. Onun bu sahədə dərc etdirdiyi 100-dən artıq elmi məqalə, 5 monoqrafiya, onlarla rəhbər sənəd, sahə və dövlət standartları, 20-dən artıq ixtira bu gün də öz əhəmiyyətini itirməmiş və geniş tətbiq edilməkdədir.

Ənvər müəllim Böyük Vətən müharibəsi və əmək veteranı, texnika elmləri namizədi, Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının əməkdar mühəndisi, "Neft Sənayesi Əlaçısı", İ. M. Qubkin adına mükafatın laureatı, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl, gümüş, bürünc medallarının sahibidir.



# QƏLBİNİN İŞIĞI İLƏ YOL GEDƏN ALİM

*"İnsan qanadsızdır, lakin o, öz ağlının gücünə arxalanarsa, uça bilər"*
*N. Y. Jukovski*

Kənan Zaman oğlu Qayıbov 1936-cı il noyabrın 20-də Quba rayonunun Alpan kəndində müəllim ailəsində anadan olmuşdur.

O, 1944-cü ildə Alpan kənd orta məktəbinə daxil olmuş və oranı 1954-cü ildə qurtardıqdan sonra, həmin ildə M. Əzizbəyov adına Azərbaycan Neft Akademiyasına (keçmiş Neft və Kimya İnstitutu) daxil olmuşdur.

1959-cu ildə institutu bitirdikdən sonra "Neft daşları" Neft və Qaz Çıxarma İdarəsində (keçmiş "Gürganneft" Neft Mədənləri İdarəsi) işə başlamışdır.

K. Qayıbov 1959-1977-ci illərdə "Neft daşları" NQÇİ-də fəhləlikdən başlayaraq müxtəlif vəzifələrdə işləmişdir.

1978-ci ildə Azərbaycan Neft Sənayesinin Elmi-Tədqiqat və Layihə İnstitutunda (AzNSETLİ) böyük elmi işçi vəzifəsində işə başlamışdır.

1984-cü ilin yanvar-avqust aylarında "Dənizneftqaz" Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunda bölmə müdiri vəzifəsində işləmişdir.

1984-cü ilin sentyabr ayında yenidən AzNSETLİ-yə qayıtmış və orada laboratoriya müdiri vəzifəsinə təyin olunmuşdur. Həmin tarixdən indiyə qədər "Neft və Qaz Ehtiyatlarının hesablanması" laboratoriyasına rəhbərlik edir.

K. Qayıbov 1971-1973-cü illərdə Kuba Respublikasında ezamiyyətdə olmuş və orada "Neft və qaz yataqlarının işlənməsi" üzrə məsləhətçi işləmişdir.

1975-ci ildə dissertasiya müdafiə etmiş və geologiya-mineralogiya elmləri namizədi dərəcəsi almışdır. O, öz ağlına güvənir və beləcə fəaliyyət göstərir. Öz qəlbinin işığı ilə yol gedir.

K. Qayıbov Neft və qaz yataqlarının geologiyası, işlənməsi və ehtiyatların hesablanması məsələlərinə həsr edilmiş 40-dan artıq elmi iş və məqalənin müəllifidir. Əmək veteranıdır, müxtəlif medal və fəxri fərmanlarla təltif olunmuşdur.



# XEYİRXAH VƏ NƏCİB İNSAN



*"Əmək insanı nəcibləşdirir, onu xeyirxah edir"*
*V. Q. Belinski*

Nəsrullayev İbad Əsəd oğlu 1934-cü ildə Xaçmaz rayonunun Mirzəməmməd kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1941-ci ildə Qımıl-qışlaq 7 illik kənd məktəbinə daxil olmuş və 1948-ci ildə oranı bitirdikdən sonra Quba Pedaqoji Texnikumuna daxil olmuşdur. 1952-ci ildə texnikumu bitirdikdən sonra Bakı Dövlət Universitetinin (o vaxtkı Azərbaycan Dövlət Universiteti) fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. Universiteti 1957-ci ildə fizika ixtisası üzrə bitirmişdir.

Əmək fəaliyyətinə çox erkən başlayan İ. Ə. Nəsrullayev məktəbdə oxuduğu illərdə kolxozda işləmiş, universitetdə tələbə ikən, 1956-cı ildə AzNSETLİ-nin "yeraltı hidrodinamika" laboratoriyasında texnik vəzifəsində işə başlamışdır. 1957-ci ildə, universiteti bitirdikdən sonra burada mühəndis, böyük mühəndis, kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində işləmişdir.

1963-cü ildə fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

1967-ci ildə "Hidrodinamika" ixtisası üzrə "böyük elmi işçi" adına layiq görülmüşdür.

1974-cü ildən lay və quyuların tədqiqatı laboratoriyasında böyük elmi işçi, 1978-ci ildən isə burada laboratoriya müdiri işləmişdir. 1999-cu ildən indiyə kimi həmin laboratoriyanın bazasında yaradılmış "neft mexanikası" laboratoriyasında müdir işləyir.

1999-cu ildə 01.02.05 və 05.15.06 ixtisasları üzrə texnika elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

100-dən çox elmi məqalənin və ixtiranın müəllifidir. İ. Ə. Nəsrullayev neft yataqlarının işlənməsi, yeraltı hidrodinamika, laylara istilik təsiri metodları, lay və quyuların hidrodinamik tədqiqatı sahələrində tanınmış mütəxəssisdir. O, xeyirxah və nəcib insandır.

O, Azərbaycan Respublikasının "Tərəqqi" medalı, Fəxri fərmanlarla və "Neft əlaçısı" nişanı ilə təltif edilmişdir.



# ELMİ AXTARIŞLAR

*"Elmdə həqiqət həmişə özünə yol açır"*

*A. D. Landau*

Firudin Məhəmmədəli oğlu Hacıyev 1936-cı il aprelin 26-da Goranboy rayonunda anadan olmuşdur. 1958-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu geoloq ixtisası üzrə qurtarmışdır. Dağ mühəndisi ixtisası almışdır. 1958-ci ildən 1959-cu ilə qədər Azərbaycan Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunda kiçik elmi işçi, 1960-1961-ci illərdə Yod zavodunda böyük mühəndis, (1962-1964-cü illərdə Azərbaycan Neft və Kımya İnstitutunun aspirantı) 1964-cü ildən bu vaxta qədər Azərbaycan Neft Sənayesi Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunda (AzNSETLİ) mühəndis, kiçik elmı işçi, böyük elmi işçi, 1980-ci ildən isə laboratoriya müdiri vəzifələrində çalışmışdır. 1968-ci ildə elmlər namizədi, 1990-cı ildə isə elmlər doktoru alımlik dərəcəsi almaq üçün dissertasiyalar müdafiə etmişdir. O, 3 ixtiranın, 170 elmi işin müəllifidir ki, bunlardan da 102-si çap olunmuşdur. Bu əsərlərin içərisində "Nedra" nəşriyyatında çap olunmuş iki, "Çaşıoğlu" nəşriyyatında çap olunmuş bir monoqrafiya və üç regional xəritə xüsusi yer tutur.

F. M. Hacıyevin apardığı tədqiqatlar Azərbaycan Respublikasında, Cənubi Qafqazda, o cümlədən Xəzər dənizi akvatoriyasında neft və qaz yataqlarının axtarış-kəşfiyyatının istiqamətlərini elmi surətdə əsaslandırmağa, "Azərneft" İstehsalat Birliyi müəssisələrinin fəaliyyətlərinin geoloji mühitə mənfi təsirlərini azaltmaq üçün tövsiyələrın işlənib hazırlanmasına və s. imkan vermişdir.

F. M. Hacıyev AzNSETLİ-nın və Azərbaycan Dövlət Əməyin mühafizəsi və təhlükəsizlik texnikası elmi-tədqiqat institutunun elmi şuralarının,



Azərbaycan Respublikası Prezidenti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının Yer haqqında elmlər üzrə Ekspert Şurasının, Azərbaycan Milli Geofizika komitəsinin üzvü və Beynəlxalq Ekoenergetika Akademiyasının akademikidir. O, elmi axtarışlarını uğurla davam etdirir.

F. M. Hacıyev "Azərneft" İstehsalat Birliyinin və Azərbaycan Respublikası Neft və Qaz Sənayesi Həmkarlar Təşkilatının, Nərimanov rayon İcra Hakımiyyətinin Fəxri Fərmanları, keçmiş SSRİ Neft Nazirliyinin və SSRİ neft sənayesi işçiləri Həmkarlar Təşkilatı Mərkəzi komitəsi Rəyasət Heyətinin "Neft sənayesi əlaçısı" nişanı, "Əmək veteranı" medalı ilə təltif olunmuşdur.





# O, İŞƏ CAN YANDIRIR

*"Adamların fəaliyyəti onların fikirlərinin ən yaxşı tərcümanıdır"*

*C. Dokk*

Suğra Əhəd qızı Səttarova 1942-ci ildə Bakı şəhərinin Maştağa rayonunda anadan olmuşdur. Orta təhsilini həmin rayonun 187 №-li orta məktəbində almış və həmin məktəbi gümüş medalla bitirmişdir 1959-cu ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur. 1964-cü ıldə həmin fakültəni "Neftmədən geofizikası" ixtisası üzrə bitirdikdən sonra təyinatla "Azərneftgeofizika" trestinin Küryanı geofizika idarəsinə göndərilmişdir 1967-ci ilə qədər orada əvvəlcə mühəndis, sonra isə interpretator vəzifəsində çalışmışdır.

S. Səttarova 1968-ci ildən isə Azərbaycan Neft Sənaye Elmi Tədqiqat Layihə İnstitutunun (AzNSETLİ) neft-mədən geofizika laboratoriyasında mühəndis, elmi işçi, böyük elmi işçi olmuş, 1993-cü ildən hal-hazıra kimi həmin laboratoriyanın müdiri vəzifəsində çalışır.

Bilavasitə S. Səttarovanın iştirakı və rəhbərliyi ilə Kür çökəklıyının bütün yataqlarının, Şərqi və Qərbi Abşeron yataqlarının neft və qaz ehtiyatlarının hesablanması üçün geofiziki üsullarla parametrlər təyin olunmuşdur. Bundan əlavə, o, Kür çökəkliyi yataqlarında neftli kollektorların dəqiqləşdirilməsi üzrə tövsiyələr, Şərqi Abşeron yataqlarının bir qismində cari neftlədoymanın paylanmasının mədən geofizika üsulları ilə araşdırılması və Azərbaycan Respublikasının quru ərazisindəki neftli-qazlı rayonlar üzrə neft yataqlarının işlənməsinin cari vəziyyətini nəzərə almaqla qazılacaq istismar quyuları üçün optimal geofiziki tədqiqat kompleksinin (GTK) tətbiqinə dair təlimat kimi elmi işlərin yerinə yetirilməsinə rəhbərlik etmişdir.

1994-cü ıldə "Yunokol" şirkəti tərəfindən Kaliforniya ştatının Los-Anceles şəhərində elmi ezamiyyətdə olmuş, 2000-ci ildə "Tasıs İnoQEYT" tərəfindən təşkil olunmuş "karbohidrogen ehtiyatlarının qiymətləndirilməsi" mövzusu üzrə seminarda iştirak etmiş və həmin kurs üzrə sertifikat almışdır. Onun 30-dan artıq elmi məqaləsi dərc edilmişdir. Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsi Milli Patent Ekspertizası Mərkəzi tərəfindən təsdiq olunmuş "Neft laylarına təsir üsulu" İxtirasının müəlliflərindən biridir.



# İŞƏ VİCDANLI MÜNASİBƏT



*"Namuslu əmək insan üçün ən mənfəətli işdir"*

*M. İ. Kalinin*

Seyidov Səməndər Məhəmməd oğlu 1956-cı ildə M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini (indiki Azərbaycan Dövlət Neft Akademiyasını) bitirdikdən sonra "Kirovneft" (indiki "Binəqədineft") Neft-qazçıxarma İdarəsinə işə göndərilmişdir.

Orada idarənin 3-cü mədənində ardıcıl olaraq quyuların tədqiqatı üzrə operator, neftqazçıxarma operatoru, neftqazçıxarma üzrə usta köməkçisi, usta, mədənin geoloqu, böyük geoloqu və müdiri işləmişdir. Sonra 1968-ci ilin fevral ayından idarənin baş geoloqu - rəis müavini vəzifəsinə təyin olunmuş və burada 1985-ci ilin iyul ayınadək işlədikdən sonra, həmin tarixdən 1987-ci ilin iyulunadək eyni vəzifədə "Orjonikidzeneft" NQÇİ-də işlədikdən sonra, həmin vaxtdan hal-hazıradək Azərbaycan Dövlət Neft Sənayesinin Elmi-Tədqiqat və Layihə İnstitutunda 1992-ci ilədək "Neft-mədən geologiyası" laboratoriyasına, 1992-ci ildən indiyədək isə "Mərkəzi və Şərqi Abşeron neft-qaz yataqlarının işlənilməsi" laboratoriyasına başçılıq edir. O, harada olubsa vicdanla işləyib.

**Səməndər Seyidov öz əmək fəaliyyəti ilə bağlı belə dedi:**

- Binəqədi rayonunda işlədiyim 29 il müddətində müşahidə etdiyim və həyata keçirdiyim tədbirlərin xarakterik cəhətlərini şərh etməyim üzərində dayanım. İlk müşahidəm ondan ibarət olmuşdur ki, qeyri Nyuton neftlərə malik layları kiçik diametrli nasoslarla (28 və 32 mm) istismar edərkən, nasosun faydalı işləmə əmsalı 15-20%-dən artıq təşkil etmir, səbəb odur ki, belə neftlər böyük özlülüyə (lay şəraitində 30-40 və daha çox mPa.s) malik olduğundan, bu cür məhsul verən quyulardan, onların hasilatını artırmaq

üçün quyulara hökmən böyük diametrli nasoslar (44,56 mm və daha çox) buraxmaqla (onun nəzəri məhsuldarlığını sabit saxlamaq şərtilə) məsələnin həllinə nail olmaq olar.

Elə belə də oldu, bir sıra quyularda bu tədbiri həyata keçirdik və irəli sürdüyümüz fikrin düzgün olmasını təcrübədə yoxladıq. Beləliklə, irəli sürülən təklifin tətbiqi nəticəsində nasosun faydalı iş əmsalının 15-20%-dən 75-80%-dək çatdırılmasına və hasilatın dəfələrlə artmasına nail olundu.

Bu təklif və onun praktiki nəticəsinin məlumatlarına əsasən həmin idarədə mənimlə işləyən mədənçi mərhum (Məmmədov Nadir Cavad oğlu) texnika elmləri üzrə namizədlik dissertasiyasını istehsalatdan ayrılmadan bu mövzuda müdafiə etdi və sonralar "Kirovneftin" elmi-tədqiqat və istehsalat işləri sexinə rəhbərlik etmək vəzifəsinə irəli çəkildi.

Binəqədi yatağının şimal qanadında və Qırməkən yatağında Qırməkanaltı lay dəstəsinə 1954-1959-cu illərdən suvurma prosesinin aparılması həyata keçirilirdi. Bu horizontun işlənilməsi 1-ci yataqda 1914-cü ildən başlandığından, əksər tektonik bloklarda lay təzyiqi o qədər azalmışdır ki, (72 atm ilk təzyiqindən, proses başlanan ərəfədə orta hesabla 15-20 atm-dən artıq deyildi) xeyli miqdarda quyuları "fasiləli" iş rejimi ilə istismar edirdilər. Suvurma nəticəsində 5-6 aydan başlamış 1-1,5 il müddətində hasilat quyularının debitinin artması müşahidə olunmaqla bərabər, quyularda tez-tez qum tıxacının əmələ gəlməsi nəticəsində onların təmirarası işləmə müddəti 10-15 və bəzən 5-6 gündən artıq davam etmirdi. Aparılan tədqiqat işləri lay təzyiqinin artmasını göstərirdi, bu artımdan səmərəli istifadə etmək üçün birinci növbədə laya vurulan suyun həcmi ilə ondan gündəlik maye götürmə miqdarı arasında təcrübi yolla prosesi tənzimləmək ideyasını irəli sürdük, bu fikir bəyənildi. Təklif olundu ki, hər hansı quyuda qum tıxacının əmələ gəlməməsi üçün, quyunun hasilatını artırmazdan əvvəl onun vurduğu məhsulun mexaniki qarışığının analizini aparmaq lazımdır. Əgər analiz nəticəsində müəyyən edilsə ki, məhsulun tərkibində mexaniki qarışıq (qum və gil) yoxdursa və yaxud cüzi miqdardırsa, onda nasosun nəzəri məhsuldarlığını mövcud kəmiyyətə nisbətən 5-10, sonra isə 15-20 və 25-30%-dək artıraraq, quyunun iş rejiminə ciddi nəzarət qoymaqla götürmə tempini daha da çoxaltmaq olar.

Bu artımlardan sonra mexaniki qarışığın miqdarı dəyişməz qalarsa, götürmə tempini daha da artırmaq olar, əgər mexaniki qarışıq məhsulda varsa, onda götürmə tempini dəyişmək olmaz. Bu yolla əksər quyularda hasilatın artımına nail olundu və quyuların debiti ilə bərabər təmirarası işləmə müddəti də xeyli (bir neçə dəfə) uzaldılmış oldu. Bu üsulla qalan kateqoriya quyuların da iş rejiminin optimal hala salınmağına nail olundu, bu, yüz min tonlarla neft artımına və milyon manatlarla pul vəsaitinə qənaət olunmasına səbəb oldu.

Bizim təklifimizlə istər bu horizontdan və istərsə də başqa horizontlardan istismardan çıxmış və ləğv olunmağı gözləyən onlarla quyularda II lülə qazımaq yolu ilə onların bərpa edilməsi nəticəsində yüz min tonlarla əlavə neft alınmasına və külli miqdarda dövlət vəsaitinə qənaət olunması təmin edilmişdi. (Təzə quyular əvəzinə II lülə qazımaq tədbiri quyularda böyük həcmdə süxur qazılmasının həcmini azaltmağa kömək edir).



Bu tədbirin iqtisadi səmərəliliyi digər neftqazçıxarma idarələrində olduğu kimi məhz "Kirovneftdə" daha çox üstünlük təşkil edirdi. Araşdırmalar nəticəsində müəyyən etmişdik ki, Sulutəpə yatağında Qırməkanaltı lay dəstəsinin işlənilməsi prosesində onunla qonşu olan və eyni kollektor xüsusiyyətlərinə və nefti fiziki tərkibcə oxşar olan Çaxnaqlar yatağında qırməkanaltı lay dəstəsində 1968-ci ilin əvvəlinə olan müddətə onların faktiki və gözlənilən son neftvermə əmsallarının arasında böyük fərq əmələ gəlmişdir. Bunun səbəbini aydınlaşdırarkən müəyyən etdik ki, Sulutəpə yatağında bu lay dəstəsindən qırışığın tağına yaxın zonada istismar olunan bir sıra quyuların bəzisindən ya heç neft axınını yaratmağa nail olunmamış və bəzilərindən isə vaxtından əvvəl istismarı dayandırmaqla laydan götürülməsi mümkün olan neftin çıxarılmasına əhəmiyyət verməmişlər. Bunu nəzərə alaraq, bu lay dəstəsinə qazılıb istismar olunmuş və işdən çıxmış bütün quyuların işləri təhlil edilərək, onların vaxtından əvvəl başqa horizontlara qaytarılması və yaxud ləğv olunması dəqiqləşdirildikdən sonra, 1971-ci ildən başlayaraq sonrakı illərdə bir sıra quyuları yenidən bu lay dəstəsini (Qırməkanaltı lay dəstəsini - PK svita) istismar etmək üçün quyularda əsaslı təmir işləri aparmaq və ya II lülə qazımaq yolu ilə horizontun işlənilməyə cəlb olunmasının fəallaşdırılması nəticəsində bu lay dəstəsindən eyni vaxtda işləyən maksimum quyular sayına məhz 1971-ci ildən sonra nail olunmuş və bu tədbirlər hesabına 100 min tondan çox neft alınmış və neftvermə əmsalının 1968-ci ilin yanvarın birinə olan 0,552 rəqəminin 1998-ci ilin əvvəlinə 0,613, yaxud 6,1% artmasına nail olunması və hal-hazırda bu lay dəstəsindən ilk balans neft ehtiyatından isə 4% neft çıxarılır və lay üzrə son neftvermə əmsalının 76,8%-ə çatdırılması gözlənilir. Bu da qonşu Çaxnaqlar yatağındakı eyni adlı lay dəstəsinin son neftvermə əmsalından cəmi 4-5% fərqlənməsi deməkdir ki, bu da normal hal sayıla bilər.

1927-1938-ci illər ərzində Siyahşor və Məhəmmədli sahələrində Qırməkən lay dəstəsinə bir sıra quyular qazılmış, onlardan gündə 1-3 tonadək neft alınmış, lakin onların qısa müddətli istismarından sonra quyular ləğv olunmuş və sahələr də perspektivsiz sayılaraq adları siyahıdan silinmişdir. Apardığımız hərtərəfli araşdırmalar nəticəsində müəyyən etmişdik ki, bu sahələrin yenidən işlənilməyə cəlb olunması məqsədə uyğundur. Buna görə hər sahənin işlənilməyə cəlb olunması üçün lazımı geoloji-texniki iqtisadi əsaslandırma tərtib edərək, onu Azneftin rəhbərliyi və AzNSETLİ-nin müvafiq laboratoriyaları ilə razılaşdırıldıqdan sonra, onlarda idarənin daxili vəsaitləri hesabına az kapital qoyuluşu sərf etməklə, xeyli təzə dayaz quyular qazıldı və bir sıra köhnə quyular bərpa olundu. Bu sahələr hesabına da

neft ehtiyatı 5,4 mln. ton artırıldı, 01.01.98 tarixə bu yataqlardan - 616 min ton neft istehsal olunub.

Adı siyahıdan silinmiş Masazır deyilən sahədə də buna oxşar işlər aparmaq nəticəsində miosen çöküntülərinin sənaye əhəmiyyətli neftliliyini Abşeron yarımadasında Binəqədi yatağından sonra ilk dəfə məhz burada aşkar etdik. Burada xeyli dayaz quyular qazmaq hesabına neft ehtiyatının 2,6 min ton artımı əldə edildi, 01.01.98 tarixə bu yataqdan 172 min ton neft çıxarılıb. İşlənilməyə cəlb olunmuş bu 3 yataqlardan 1997-ci ildə 13 min ton neft çıxarılmışdır ki, bu da Binəqədineft NQÇİ üzrə illik neft hasilatının 10%-ni təşkil edir.

1985-1987-ci illərdə indiki Suraxanıneftdə işləyərkən Suraxanı yatağında ilk dəfə olaraq məhsuldar qatın "fasilə" lay dəstəsinin neftqazlılığını 1786, 1787 və b. quyulardan alınan gündəlik yüksək neft hasilatının məlumatları əsasında aşkar etdik.

Bu yataqda həmçinin mərkəzi tektonik sahənin bəzi yerlərində Qırməkanaltı lay dəstəsinin neftqazlı olmadığı fərz olunurdu. Lakin vaxtilə həmin sahələrin qonşuluğunda 1937-1939-cu illərdə qazılıb istismar olunmuş quyuların məlumatlarını hərtərəfli öyrənib təhlil edəndən sonra, qərara gəldik ki, bu vaxtadək yuxarıda dediyimiz fikrin heç bir elmi əsası yoxdur. Ona görə də bu sahələrdə bir neçə təzə quyular (1868, 1867, 1869 və b.) qazılması ideyasını irəli sürdük və təklif bəyənildi. Bu tədbirin həyata keçirilməsi dediklərimizi sübut etdi və həmin quyular qazılıb istifadəyə verildikdən sonra, onlardan yüksək neft hasilatı alındı (hər birindən gündə 15-20 və 30-40 tonadək).

Bu yatağın şimal-şərq qanadının uzaq batımında vaxtilə 1953-cü ildə 1550 N-li quyudan Qala lay dəstəsi sınaqdan keçirilərkən sutkada böyük neft hasilatı alınmışdı (fontan üsulu ilə 80-100 tonadək). Lakin qısa müddətli istismardan sonra bu sahə bu günədək işlənilməyə cəlb olunmayıb. Araşdırmalar göstərir ki, bu sahə böyük neftqazlılıq perspektivinə malikdir. Sahənin geoloji quruluşu dəqiqləşdirilməli, orada qazma işləri yenidən bərpa olunsa, böyük neftqaz ehtiyatları aşkar olunub istifadəyə verilə bilər.

AzNSETLİ-də 1987-ci ildən bu vaxtadək işləməyə başladığım müddətdə əvvəllər "Neft-mədən geologiyası" laboratoriyasında geoloji quruluşunu dəqiqləşdirmək üçün işlədiyimiz Qala yatağında aşkar etdik ki, burada məhsuldar qat çöküntüləri tam qalınlıqda açılmayıb və o da böyük perspektivliyə malikdir.

Lakin ərazinin böyük bir hissəsində kəsilişin bu hissəsi heç açılmayıb və o da böyük perspektivliyə malikdir. Burada qazılası quyuların sayı, qazma yerləri, onların dərinlikləri və qazma nəticəsində neft ehtiyatlarının nə qədər artımının gözlənilməsi müəyyən edilib elmi-tədqiqat işinin yekun hesabatında (1987-1989-cu illərdə) verilmişdir. Buradaca Qala lay dəstəsinin də qırışığın neftliqazlı olduğu yerlərdə tam açılmadığı da göstərilib ki, bu



da neftqaz ehtiyatlarının böyük artımına səbəb olar (əgər göstərilmiş sahələrdə qazma işləri həyata keçirilərsə).

Sonrakı tədqiqatlarımızda Zirə-Türkan və Dübəndi sahələrinin geoloji quruluşlarını dəqiqləşdirərkən birinci iki yataqda məhsuldar qat çöküntülərinin böyük neftqaz ehtiyatlarına malik olmasını aşkar etdik. Tədqiqatlar nəticəsində müəyyən etmişik ki, bu vaxtadək bu yataqlar üzrə hesabatda olan balans neft ehtiyatları on dəfələrlə çoxdur və bu yataqlar quruda neftqaz hasilatının kəskin surətdə artımına səbəb olar (əgər burada təzədən qazma işləri bərpa olunarsa).

"Mərkəzi və Şərqi Abşeron neft yataqlarının işlənilməsi" laboratoriyasına rəhbərlik etdiyim müddət ərzində (1992-ci ilin sonundan bu günədək) yerinə yetirdiyimiz elmi-tədqiqat işlərilə bərabər, yataqların işlənilməsinin təkmilləşdirilməsi məqsədilə dərindən məşğul olduğumuz məsələlər içərisində böyük elmi-praktik əhəmiyyət kəsb edən problemlərin həllində də iştirak edirik. Bununla əlaqədar yaxşı məlumat alınmış bir problemin öyrənilməsini xatırlayım:

Məlumdur ki, hər hansı bir horizontun və ya lay dəstəsinin balans neft ehtiyatını hesablayarkən süxurların məsaməliliyi (düzgün təyin olunmuş qiyməti) ehtiyatın dəqiq hesablanmasına böyük təsir göstərir (hər bir faiz məsaməlik ümumi ehtiyatın 4,2-4,8% dəqiqliyinə təsir edir).

Bu parametr də süxur nümunələri və yaxud quyuların geofiziki tədqiqatı materiallarına əsasən hesablanır ki, bu da laylara qazılmış ümumi quyular sayından 10-15% artıq məlumat vermir.

Belə olan halda şübhəsiz, bu parametrin dəqiqliyi yəqin ki, müəyyən xətalarla aparılır, belə ki, adətən bu parametrin tədqiqat aparılan quyular üzrə bütün strukturu əhatə etmədiyindən, məlumat olmayan sahə üzrə məlumatı olan sahələrdən istifadə edərkən şübhəsiz yuxarıda göstərilən kimi xətalara yol verilmiş olur. Bu qüsuru nəzərə alaraq mən, başqa yoldaşlarla birlikdə (Z. H. Dilbazi, A. İ. Kələntərov) süxurların faydalı məsaməliyini quyuların elektrik karrotaj diaqramlarına əsasən layların qumluluğu ilə məsaməliliyin asılılığından istifadə edərək, quyuların məlumatlarından istifadə edərək, bu parametrin qiymətini dəqiqləşdirmişik.

Bu tədbiri Buzovna-Maştağa yatağının Qırməkanaltı və Qırməkan lay dəstəsinin bütün horizontlarında tətbiq edərək yaxşı nəticələr əldə etdik. Gələcəkdə bu tədbiri bütövlükdə hər yataqda tətbiq etmək olar.



# O, YATAQLARIN İŞLƏNMƏSİNİN İQTİSADİYYATINA CİDDİ DİQQƏT YETİRİR

*"Zəhmətə qatlaşsan, muradına çatarsan"*

*Arif Ərdəbili*

İnqilab Müzəffər oğlu Kərimov 1931-ci il noyabrın 5-də Şamaxı şəhərində anadan olmuşdur. Orta məktəbi 1950-ci ildə bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) iqtisadiyyat fakültəsinə daxil olmuş və oranı fərqlənmə diplomu ilə qurtarmışdır. İnqilab təyinatla "Artyomneft" neft-mədən idarəsinə göndərilmiş və o vaxtdan həyatını neft sənayesi ilə bağlamışdır. O, 1955-1959-cu illər ərzində bu idarədə mühəndis, elmi-tədqiqat layihə işləri sexində texniki-iqtisadi əsaslandırma şöbəsinin müdiri vəzifələrində çalışmış, bu illər ərzində neft texnikumunda gənc nəslə iqtisadiyyatın sirlərini öyrətmişdir.

Sonradan, yəni 1959-cu ildən tale İnqilab Kərimovu Azərbaycan Neft Sənayesi Elmi-Tədqiqat Layihə İnstitutuna gətirmiş və bu günə kimi də o, burada fəaliyyət göstərir. İnstitutda çalışdığı müddətdə o, mühəndis, elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini, laboratoriya müdiri vəzifələrində çalışmış, neft sənayesinin kəşfiyyat, neftçıxarma, yataqların işlənməsinin iqtisadiyyatına aid məsələlərin həlli ilə məşğul olmuşdur. Bütün bu işlər onun 100-ə yaxın elmi məqalələrində öz əksini tapmışdır.

Bir sıra məsələlərin həllində prinsipial mövqedən çıxış etməklə İnqilab Kərimov respublika neft sənayesinin quru sahələrində istismarda olan yataqların hələ də rentabelli olduğunu sübut etmişdir. Belə ki, 1990-cı ildə keçmiş SSRİ-nin Neft Sənayesi Nazirliyində Azərbaycanın quru sahələrində istismarda olan 6000 quyunun az debitli olması ilə əlaqədar olaraq ləğvi məsələsi müzakirə edilərkən, İnqilab müəllim faktiki materiallar əsasında bu fikrin səhv olduğunu sübut etmiş, məsələnin müsbət həll edilməsinə nail olmuşdur. Bununla o, bir qrup erməni və ermənipərəstlərə layiqli cavab vermişdir.

Başqa bir məqamı da xatırlamaq yerinə düşərdi. Həmin illərdə Moskvada neft nazirliyində Azərbaycanın quru sahələrində hasil edilən neftin yüksək maya dəyərinə malik olmasını bəhanə gətirərək, bu yataqlarda qoyulacaq kapital qoyuluşunun iki dəfə azaldılması məsələsi müzakirə edilirdi. Bu məsələnin də müsbət həllində İnqilab müəllimin müstəsna rolu olmuşdur.

İnqilab Kərimovun əmək fəaliyyətində iqtisadçı kadrların hazırlanması xüsusi yer tutur. O, uzun illər indiki Azərbaycan Neft Akademiyasında iqtisadiyyat fənnindən dərs demiş, kurs, layihə və diplom işlərinə, bir neçə nəfərin namizədlik dissertasiyasına rəhbərlik etmişdir. İnqilab Kərimov deyir: "Yaxşı iqtisadçı olmaq üçün neftin geologiyası, quyuların qazılması, neftin çıxarılması və onun texnika və texnologiyası, yataqların işlənməsi kimi məsələləri öyrənmək vacibdir". Onun bir iqtisadçı kimi qazma və neftçıxarma müəssisələri kollektivlərində də hörməti böyükdür.

İnqilab Kərimov 1970-ci ildə müvəffəqiyyətlə dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi elmi adı almışdır. Onun əməyi Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı, Azərbaycanın "Əməkdar iqtisadçı"sı, əmək veteranı, bir neçə medalla qiymətləndirilmişdir.



# LAYİHƏLƏNDİRMƏ SİSTEMLƏRİ

*"Çalışmaq qabiliyyəti insan üçün əsl sərvətdir"*

*Ezop*

Qəzənfər Əli oğlu Məmmədov 1932-ci ildə Şəki şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1951-ci ildə orta məktəbi, 1956-cı ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini riyaziyyatçı ixtisası üzrə müvəffəqiyyətlə bitirib göndərişlə AzNSETLİ-yə gəlmiş və mühəndis vəzifəsinə işə götürülmüşdür. Ötən müddət ərzində böyük mühəndis, böyük elmi işçi, sektor, laboratoriya və şöbə müdiri vəzifələrində işləmişdir. Hal-hazırda "Neft yataqlarının işlənməsinin və quyuların qazılmasının avtomatlaşdırılmış layihələndirmə sistemləri" laboratoriyasına rəhbərlik edir.

Q. Məmmədov 1964-cü ildə "Bircins və qeyribircins laylarda neft-su sərhəddinin hərəkəti və quyuların sulaşması məsələlərinin elektromodelləşdirmə üsulu ilə tədqiqi" mövzusunda 05.15.06. - "Neft və qaz yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə dissertasiya müdafiə edərək, SSRİ AAK tərəfindən texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

1965-ci ildə isə AAK-nın qərarı ilə "Hesablama riyaziyyatı" üzrə böyük elmi işçi adına layiq görülmüşdür. Alim rus və Azərbaycan dillərində dərc edilmiş 120-dən artıq elmi məqalənin, 4 monoqrafiya, bir neçə metodik vəsaitlərin və 2 ixtiranın müəllifi və həmmüəllifidir.

O, yeraltı hidrodinamika, neft-qaz yataqlarının işlənməsi və istismarı məsələlərinin həlli, avtomatlaşdırılmış layihələndirmə sistemlərinin yaradılması sahəsində 70-dən artıq elmi-tədqiqat işinin rəhbəri və əsas icraçısı olmuşdur.

Q. Məmmədov "Xəzərneftqazyataq-2000" beynəlxalq konfransında "Hidrodinamika" bölməsinin rəhbəri, bir neçə beynəlxalq konfransın təşkilat komitəsinin üzvü olmuşdur. Qəzənfər müəllim Respublika neft sənayesinin, neft elminin müxtəlif problemlərinə həsr edilmiş 20-dən artıq publisistik məqalənin müəllifidir. O, "SSRİ neft sənayesi əlaçısı" adına layiq görülmüş və "Rəşadətli əməyə görə" medalı ilə təltif edilmişdir. Müxtəlif fəxri fərmanlarla, o cümlədən 2001-ci ildə ARDNŞ-nin fəxri fərmanı ilə mükafatlandırılmışdır.





# ELMİ-TƏDQİQAT İŞLƏRİ

*"Böyük istedadlar xırdaçılıqdan uzaqdırlar"*

*O. Balzak*

Rakiz Məmməd oğlu Səttarov 1945-ci il dekabr ayının 12-də Bakı şəhərində anadan olmuşdur. 1952-ci ildə orta məktəbə daxil olmuş və 1963-cü ildə fəhlə gənclər məktəbini bitirmişdir. Hələ məktəbdə oxuduğu dövrdə Rakiz Səttarov Bakı maşınqayırma zavodunda çilingər işləmişdir.

Orta məktəbi bitirdiyi il o, M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası - ADNA) Neft-mexanika fakültəsinə daxil olmuşdur.

R. M. Səttarov 1967-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasını bitirmiş və 1968-ci ildə institutun "Neft, qaz və qazkondensat yataqlarının işlənməsi və istismarı" kafedrası üzrə aspiranturaya daxil olmuşdur.

Tələbə olan dövrdə o, mühəndis fənnlərinin mənimsənilməsində yüksək səy göstərmiş və bununla bərabər, fizika-riyaziyyat fənnlərinin əlavə bölmələrini dərindən öyrənmək məqsədilə Azərbaycan Dövlət Universitetində yüksək ixtisaslı professorların mühazirələrinə qulaq asmışdır.

Aspiranturanı bitirdikdən sonra, 1972-ci ilin martından R. M. Səttarov ADNA-da assistent vəzifəsində işləmişdir.

1973-cü ildə o, Minsk şəhərində Belarusiya Elmlər Akademiyası İstilik və Kütlə Mübadiləsi İnstitutunda müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmişdir.

1976-cı ilin sentyabrında R. M. Səttarov "Neftçıxarmanın texnikası və texnologiyası" problem laboratoriyasının böyük elmi işçisi, 1981-ci ilin fev-

ralından "Lay nefti və qazlarının tədqiqi" problem laboratoriyasının müdiri vəzifələrində işləmişdir.

R. M. Səttarov 1983-cü ildə "Neft və qaz çıxarmada texnoloji proseslərin səmərəliliyinin artırılması məqsədilə geoloji mürəkkəb sistemlərin xassələrinin diaqnozlaşdırılmasının və təyin edilməsinin elmi əsasları" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və az sonra ona professor elmi adı verilmişdir. Professor R. M. Səttarov 1984-cü ildən "Neft və qazın nəqli və saxlanması" kafedrasının müdiri vəzifəsinə seçilmiş və hazırda həmin vəzifədə işləyir.

Professor R. M. Səttarov 1988-ci ildən əvəzçilik üzrə MEA-nın Riyaziyyat və mexanika institutunun "Neft və qazın qeyri-xətti mexanikası" şöbəsinin "Reologiya" laboratoriyasının müdiri vəzifəsində çalışır.

Professor R. M. Səttarov "Səpt mühitin mexanikası", "Mexanikanın riyazi üsulları", "Termoqazodinamikanın əsasları", "Dalğalar nəzəriyyəsi", "Sinergetik üsullar", "Neft və qaz-mədən mexanikasının tərs məsələləri" və "Qaz-mədən məlumatının işlənməsi və tətbiqi üsulları" kurslarından mühazirələr oxuyur.

O, 1981-ci ildə Qaz sənayesi nazirliyinin "Qaz sənayesinin qabaqcıl işçisi" döş nişanı ilə təltif edilmişdir.

Professor R. M. Səttarov namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi üzrə İxtisaslaşdırılmış Şuraların, Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının ekspertlər komissiyasının üzvüdür.

O, dənizdə, Qərb və Şərq marşrutları ilə inşa olunan ixrac neft boru kəmərlərinin layihələndirilməsi, tikintisi və "Azəri-Çıraq-Günəşli" yataqlarının tammıqyaslı işlənməsi layihəsinin eksperti və məsləhətçisidir.

Onun elmi-pedaqoji fəaliyyəti Moskvada və Kembric Universitetində dərc olunmuş "Kim kimdir" biblioqrafik toplusunda öz əksini tapmış, elmi işlərinə Azərbaycan və xarici ölkə alimlərinin əsərlərində istinad edilir.

Professorun elmi axtarışları reoloji mürəkkəb mayelərin hidrodinamikası və istilik mübadiləsində problem məsələlərə həsr edilmiş və o, maye və qazlar mexanikasının tətbiqi məsələləri sahəsində görkəmli alimdir.

Fəal elmi-tədqiqat işləri aparan professor R. M. Səttarov dövlət büdcəsindən maliyyələndirilən və təsərrüfat hesablı işlərin elmi rəhbəri, çoxsaylı ümumdünya və respublika konfrans, konqres, forum və seminarların iştirakçısı olmuşdur. Onun tərəfindən 160 elmi və tədris-metodiki iş dərc edilmuş, rəhbərliyi altında 15 elmlər namizədi və doktoru hazırlanmışdır.

Professor R. M. Səttarov tərəfindən aparılan tədqiqatlar keçmiş SSRİ məkanında ilk dəfə tərtib olunan, qeyri-nyuton neftlərin nəql olunmasının hidravlik hesablanması, neftlərin qeyri-taraz reoloji xüsusiyyətlərinin təyini üçün metodik tövsiyələrin, o cümlədən boru kəmərlərinin hidravliki və istilik hesablanmalarında modellərin seçilməsi, əsaslandırılmasının özəyini təşkil edir. R. M. Səttarov mədəndə tətbiq olunan, mayelərin qeyri-xəttiliyi, fraktallığı və özlüelastikplastik xassələri nəzərə alınmaqla, elastiközlü borularda neftin çıxarılması və nəqlinin yeni prinsiplərinin öyrənilməsi və yaradılması sahəsində apardığı tədqiqatları fundamentaldır. Bu tədqiqatların, yalnız MDB və Azərbaycan boru kəmərləri sistemlərində tətbiqi böyük iqtisadi səmərə əldə olunmasına imkan vermişdir. Onun tərəfindən, tədqiq olunan reoloji mürəkkəb mayelərdə yaranan qeyri-xətti həyəcan dalğalarının müəyyən şəraitdə son yayılma dərinliyinin və gərgin rejimlərin yaranması göstərilmişdir.

Rakız Səttarov respublikada neft-qaz obyektlərinin və boru kəməri kommunikasiyalarının layihələndirilməsi və tikilməsi problemlərinə yeni mühəndis təkamülü ilə yanaşmanın zərurəti haqqında ilkin qeyd edənlərdən biridir. Ona görə də təəccüblü deyil ki, o, respublikada yerli mütəxəssisləri qərb iş üsul və texnologiyaları ilə birləşdirən Azərbaycan - Britaniya - Norveç birgə "Bakı-Kverner-Kenni" mühəndis şirkətinin yaradıcılarından biridir.

Onun yaratdığı şirkət əsas etibarilə Bakı-Supsa ixrac boru kəmərinin qərb marşrutu layihəsinin və bir sıra digər layihələrin yaradılmasında iştirak etmişdir.

O, işlədiyi müddətdə ADNA əməkdaşlarının və tələbələrin böyük hörmətini qazanmışdır.

Professor Rakiz Səttarov ABŞ, İngiltərə, Türkiyə və Suriya kimi ölkələrin aparıcı neft və qaz şirkətlərinin dəvəti ilə bu ölkələrdə mütəmadi olaraq mühazirələr oxuyur və məsləhətlər verir.



16*



# GƏRGİN AXTARIŞLARIN SƏMƏRƏSİ

*"İnsanın ləyaqəti onun əməyi ilə müəyyən olunur"*

*R. Vaqner*

Söhrab Arif oğlu Şıxlinski 1955-ci ildə Bakı şəhərində anadan olmuşdur.

1977-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki ADNA) geoloji-kəşfiyyat fakültəsini bitirdikdən sonra o, Azərbaycan EA Geologiya İnstitutunun "Mikropaleontologiya" laboratoriyasında mühəndis, elmi işçi, sonra isə "Operativ biostratiqrafik analiz qrupunun" rəhbəri vəzifələrində işləmişdir. 1986-cı ildən Azərbaycan Neft Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutunda (AzNSETLİ) "Litologiya, stratiqrafiya və kollektor xassələri" laboratoriyasına rəhbərlik edir.

S. A. Şıxlinskinin elmi fəaliyyəti əsas etibarı ilə Qafqaz regionunun və Xəzər dənizinin üst təbaşir, paleogen, miosen və pliosen çöküntülərinin öyrənilməsi ilə bağlıdır. O, üst təbaşir və paleogen çöküntülərinin foraminiferlərini, miosen və pliosen yaşlı törəmələrin isə ostrakoda və foraminifera qalıqlarını tədqiq edən tətbiqi biostratiqrafiya sahəsində fəaliyyət göstərən bir alimdir. O, 85 təbii kəsiliş və 145-dən artıq quyu kəsilişinin stratiqrafik bölgüsünü vermiş, Naxçıvan Muxtar Respublikası, Kiçik Qafqazın şimal-şərq ətəklərinin, Kür və Qabırrı çayları arası neftli-qazlı rayonun, Qərbi Abşeron və Qobustan bölgələrinin, Şamaxı-İsmayıllı və Qonaqkənd-Quba rayonlarının üst təbaşir-paleogen çöküntülərinin, Xəzər dənizi, Abşeron yarımadası, Qaradağ rayonu və Aşağı Kür ovalığının isə miosen-pliosen çöküntülərinin stratiqrafik bölgü və korrelyasiya sxemlərini tərtib etmiş, respublikanın neft sənayesinin gündəlik işində tətbiq olunan bir sıra praktik tövsiyələr vermişdir.



S. A. Şıxlinski 1985-ci ildə "Kiçik Qafqazın Arazyanı zonasının paleogen çöküntülərinin plankton foraminiferalara əsasən zonal biostratiqrafiyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

S. A. Şıxlinski 1984-1985-ci illərdə YUNESKONUN "DÜMANT" proqramı üzrə elmi işçi kimi Atlantik okeanında və Qəraib dənizi hövzəsində tropik mənşəli mikrofauna komplekslərini tədqiq edərək, miosen-pliosen yaşlı çöküntülərin biostratiqrafik bölünməsi layihəsində iştirak etmişdir.

1986-cı ildən S. A. Şıxlinski sistematik olaraq Azərbaycanın neftli-qazlı bölgələrinin quyu materiallarının təbaşir, paleogen, miosen və pliosen çöküntülərinin biostratiqrafik tədqiqatı ilə məşğul olur.

S. A. Şıxlınskinin rəhbərliyi ilə qazma zamanı quyu sahəsində gil məhlulu və şlamdan istifadə etməklə stratiqrafik yaşın operativ təyin edilməsi metodikası işlənib hazırlanmışdır. Bu metoddan istifadə edərək o, Tərsdəllər, Gürzündağ, Molladağ, Dəmirtəpə-Udabno sahələrində üst təbaşir-paleogen, Xəzər dənizində xarici neft şirkətlərinin cəlb olunduğu Qarabağ, Dan Ulduzu, Əşrəfi, Naxçıvan və Oğuz kimi kontrakt sahələrində axtarış-kəşfiyyat quyularının miosen-pliosen çöküntülərində operativ biostratiqrafik tədqiqatlar aparmışdır.

S. A. Şıxlinski ARDNŞ-nin Amerikanın Eksson, Mobil və Yunokal neft şirkətləri ilə Azərbaycanın müxtəlif neftli-qazlı bölgələrinin perspektivliyinə həsr olunmuş birgə layihələrində stratiqrafiya üzrə ekspert kimi iştirak etmişdir. Eyni zamanda o, 1998-1999-cu illərdə Türkiyənin TPAO, Amerikanın Amono, İtaliyanın Acıp neft şirkətləri ilə birgə araşdırmalarda biostratiqrafik tədqiqatlara rəhbərlik etmiş, Abşeron NQV və Aşağı Kür NQV məhsuldar qat çöküntülərinin mikrofaunistik tərkibini öyrənmiş, biostratiqrafik bölgü sxemini tərtib etmiş və bu iki vilayətin pliosen çöküntülərinin stratiqrafik korrelyasiya sxemini tərtib etmişdir.

S. A. Şıxlinski 57 çap olunmuş elmi əsərin və 1 monoqrafiyanın müəllifidir. O, dörd Beynəlxalq Elmi Konfransın iştirakçısı olmuşdur.



# ÖZ İŞİNİN USTASI

*"Xoşa gələn əmək adama çətin gəlməz"*

*V. Şekspir*

Samut Tariverdi oğlu Manafov orta məktəbi medalla bitirdikdən sonra M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun neftmədən fakültəsinə daxil olmuş, 1956-cı ildə institutu bitirmiş və dağ mühəndisi ixtisasına yiyələnərək Neft Daşlarının 2-ci qazma idarəsinə təyinat almışdır.

Bir qədər burada işlədikdən sonra, Leninneft qazma idarəsinə göndərilib. Bu idarə Abşeron yarımadasının müxtəlif sahələrində mürəkkəb bir şəraitdə qazma işləri aparırdı. O, əvvəl qazma ustası, sonra şöbə müdiri vəzifələrində, daha sonra Abşeron yarımadasında Qırməki sahəsində mezozoy çöküntülərinə qazılan kəşfiyyat quyusunda baş usta vəzifəsində işləmişdir. İstehsalatda işlədiyi zaman qazma texnikasının və texnologiyasının təkmilləşdirilməsində onun böyük rolu olmuşdur.

1961-ci ildə Azərbaycanda qazma üzrə elmi-tədqiqat institutu təşkil olduqda S. Manafov bu instituta "maili qazma" laboratoriyasına baş mühəndis vəzifəsinə, sonra isə bu laboratoriyanın rəisi vəzifəsinə təyin olunub.

O zaman "Neft Daşları"nda maili quyuların qazılması üçün S. Manafovun rəhbərlik etdiyi laboratoriya texnoloji reqlamentlər işləmişdir. Sonra dənizdə geniş miqyasda kəşfiyyat qazma işləri aparıldığı üçün, elmi tədqiqat institutunda "dəniz qazma" laboratoriyası təşkil edilir və S. T. Manafov bu laboratoriyaya müdir təyin olunur. Dənizdə qazma, dərin axtarış və kəşfiyyat quyularının, quyu quruluşunun, qazma məhlulunun parametrlərinin seçilməsində və texnoloji məsələlərin həllində onun böyük rolu olmuşdur.



S. T. Manafovun rəhbərliyi ilə Xəzər dənizinin Türkmənistan sektorunda Qərbi Livanov, V. Jdanov, Qubkin və Lam sahələrində qazılan axtarış və kəşfiyyat quyularının qazılması üçün texnoloji reqlamentlər tərtib olunmuş və quyuların layihə dərinliyinə çatdırılmasında uğurlar əldə edilmişdir.

Azərbaycan Respublikasında qazma işlərinin həcmi və quyuların layihə dərinlikləri artdığı üçün elmi əsaslandırılmış layihə-smeta sənədləri tələb olunur. Bunu nəzərə alaraq qazma institutunda 1975-ci ildə quyuların tikilməsinin layihələndirilməsi şöbəsi təşkil olunur. Bu şöbəyə S. T. Manafov müdir təyin edilir. Quyuların qazılması üçün S. T. Manafovun rəhbərliyi ilə elmi-əsaslandırılmış layihə-smeta sənədləri Xəzər dənizinin Türkmənistan, Qazaxıstan və Dağıstan sahələrində qazılan axtarış və kəşfiyyat quyuları üçün tərtib olunur və bu quyular layihə dərinliyinə çatdırılır.

Bundan başqa, Gürcüstanın sahələrində qazılan quyular üçün elmi-əsaslandırılmış layihələr tərtib olunur və onların həyata keçirilməsində S. T. Manafovun əməyi az olmamışdır.

Qərbi Azərbaycanda Muradxanlı, Zərdab, Şıxbaqi, Tərsdəllər və sair sahələr kəşf edildikdən sonra, bu sahələrdə axtarış və kəşfiyyat quyularının qazılması üçün elmi-əsaslandırılmış layihələr işlənib hazırlanmışdır. Bu layihələrin həyata keçirilməsində S. Manafovun böyük əməyi olmuşdur. Təcrübəli neftçi peşəsini ürəkdən sevir.

Tümen vilayətində qazma işləri başladıqda S. T. Manafov bir neçə dəfə Luqanskneft qazma idarəsinə ezamiyyətə göndərilib və Sibir neftçilərinə küt maili quyuların qazılmasında böyük köməklik göstərmişdir.

S. T. Manafov 1965-ci ildə elmlər namizədi alimlik dərəcəsi almışdır. O, 35 elmi məqalənin, 40-dan artıq elmi hesabatın, 6 ixtiranın və 6 rəhbər sənədin müəllifidir.

S. T. Manafovun əməyi dövlət və hökumət tərəfindən yüksək qiymətləndirilmişdir. O, "Qırmızı Əmək Bayrağı" ordeni və "Şərəfli əməyə görə" medalı ilə təltif edilmiş, SSRİ-nin fəxri neftçisi adına layiq görülmüşdür



# DÜŞÜNÜR, AXTARIR

*"Düşünən heç vaxt darıxmaz"*
*A. Urbani*

Rəşid Mırzəməmməd oğlu Kərimov 1933-cü ildə Salyan rayonunun Şirvan Cəngən kəndində kolxozçu ailəsində anadan olmuşdur. İlk təhsilini Cəngən kəndində, orta təhsilini isə Salyan şəhərində 2 №-li məktəbdə almışdır. Orta məktəbi 1950-ci ildə gümüş medalla bitirib, həmin ildə də Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur. O, 1955-ci ildə həmin fakültəni "Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" ixtisası üzrə bitirdikdən sonra o vaxtkı "Artyomneft" neftçıxarma idarəsinə göndərilmişdir. Orada 1961-ci ilə kimi, əvvəlcə neft quyularının tədqiqatı və neftçıxarma operatoru, sonra neftçıxarma ustası vəzifəsində çalışmış, 1961-ci ildə Neftçıxarma üzrə Azərbaycan Elmi Tədqiqat İnstitutu nəzdindəki aspiranturanın əyani şöbəsinə daxil olmuş və oranı 1964-cü ildə bitirib "Darvin Bankası, Artyom adasının Şimal qırışığı və Gürgan-Dəniz yataqlarında məhsuldar qatın alt şöbəsinin istismar obyektlərinə bölünməsinə dair geoloji-mədən tədqiqatları" üzrə dissertasiya müdafiə edərək, geologiya-mineralogiya elmləri namizədi adı almışdır. Həmin ildən başlayaraq Neftçıxarma üzrə Elmi-Tədqiqat institutunda əvvəlcə mühəndis, sonra elmi işçi, baş elmi işçi vəzifələrində çalışmışdır. 1972-1973 və 1978-1980-ci illərdə İraq Respublikasının Milli Neftçıxarma Kompaniyasında İraq Respublikası ərazisində "Neft ehtiyatlarının qiymətləndirilməsi" üzrə kontraktlarda Baş mühəndis vəzifəsində çalışmış və yaxşı işlədiyinə görə həmin kompaniyanın medalı ilə təltif edilmişdir.

İraqdan qayıtdıqdan sonra Azərbaycan Neft Sənayesinin Elmi-Tədqiqat və Layihə İnstitutunda (AzNSETLİ) əvvəlcə baş elmi işçi, 1981-ci ildən indiyə kimi isə həmin institutda Neft və qaz ehtiyatlarının hesablanması laboratoriyasının müdiri vəzifəsində çalışır.

1964-2001-ci illər ərzində bilavasitə Rəşid Kərimovun iştirakı və rəhbərliyi ilə Kür Çökəkliyinin bütün yataqlarının, Şərqi Abşeron və Abşeron



Arxipelaqının bir sıra yataqlarının tektonikası dəqiqləşdirilmiş, neft və qaz ehtiyatları hesablanmışdır. Həmin ehtiyatlar əvvəllər köhnə SSRİ-nin Ehtiyatlar üzrə Dövlət komissiyası, sonralar Azərbaycan Neft Şirkətinin Ehtiyatlar üzrə mərkəzi komissiyaları tərəfindən yüksək qiymətlə qəbul edilmişdir. Bu ehtiyatlar əsasında yuxarıda göstərilən yataqların layihələri tərtib edilmişdir.

R. Kərimovun bütün elmi fəaliyyəti ərzində 40-dan artıq elmi məqaləsi dərc edilmişdir. O, həmişə düşünür, axtarır, xalqına xeyir verməyə çalışır.

R. Kərimov AzNSETLİ-də Elmi Şuranın və Şirkətdə Ehtiyatların hesablanması üzrə Mərkəzi komissiyanın üzvüdür. O, səmərəli fəaliyyətinə görə bir sıra mükafatlara layiq görülmüşdür.





## SAF ZƏKA

*"Saf zəka, pak zehin, doğru təlim əxlaqi təmizliyə aparır"*
*M. C. Dəvani*

Məmməd Bəy oğlu Xeyirov 1925-ci ildə Xaçmaz rayonunun Susay Qışlaq kəndində anadan olub. 1942-1944-cü illərdə rayonun orta məktəblərində fizika-riyaziyyat müəllimi işləmişdir. O, 1944-cü ildə Azərbaycan Dövlət Universitetinin fizika və riyaziyyat fakültəsinə daxil olub, 1949-cu ildə oranı "Rentgenquruluş təhlili" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmiş və ona fizik ixtisası verilmişdir.

1947-1949-cu illərdə (hələ tələbə ikən) Universitetin "Rentgenquruluş təhlili" laboratoriyasında laborant, baş laborant, 1949-1950-ci illərdə isə həmin laboratoriyanın müdiri vəzifələrində işləmişdir.

1957-ci ildən bu günə qədər AzNSETLİ-də böyük mühəndis (1957-1965), kiçik (1965-1966), böyük (1966-1986) və baş elmi işçi (1986-cı ildən indiyə kimi) vəzifələrini yerinə yetirmişdir.

1964-cü ildə "Rinkitin kristallik quruluşu və kristallokimyası" dissertasiya işinə görə M. B. Xeyirov fizika-riyaziyyat elmləri namizədi, 1975-ci ildə isə "Azərbaycanın neftli-qazlı sahələrinin gil mineralları və neft geologiyasının bəzi məsələləri" mövzusunda dissertasiyasına görə geologiya-mineralogiya elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

M. B. Xeyirov 1957-ci ildən indiyə kimi müasir mineraloji tədqiqat üsullarını tətbiq etməklə Azərbaycanın mezokaynozoy çöküntülərinin gilləri və gil minerallarının tərkibi, genezisi, litogenetik və quruluş xüsusiyyətlərini tədqiq etmiş və onların fəza və zamana görə yayılma qanunauyğunluqlarını müəyyən etmişdir.

M. B. Xeyirov gil və gil minerallarının neft geologiyası və litologiyasının müxtəlif məsələlərinin (neftin əmələ gəlməsindən, onun kəşfiyyatından başlamış quyuların qazılması, mənimsənilməsi və yataqların işlənməsinə qədər) həllindəki rolunu müəyyən etmişdir. O, nəinki Azərbaycanda, həm də keçmiş SSRİ-də bu sahədə çalışan bacarıqlı mütəxəssislərdəndir, AMEA-nın müxbir üzvüdür. O, saf zəkası, pak zehni ilə hörmət qazanmışdır.



## XEYİRXAH ƏMƏLLİ, XOŞ NİYYƏTLİ İNSAN



*"Heykəli görkəmi, insanı isə əməlləri gözəlləşdirir"*
*Pifaqor*

Sultan Hacı oğlu Nadirov 1948-ci ildə Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini qurtarandan sonra, 1955-ci ilə qədər Azərbaycan neft sənayesinin axtarış və kəşfiyyat idarələrində çalışmışdır. 1948-ci ildən Gəncə neft-kəşfiyyat və neft-kəşfiyyat trestlərində baş geoloqun müavini, baş geoloq və "Dənizneftkəşfiyyat" Trestinin nəzdində elmi-tədqiqat laboratoriyasının müdir müavini vəzifələrində fəaliyyət göstərmişdir. Bu müddət ərzində Gəncə və Şamaxı-Qobustan bölgələrində aparılan kəşfiyyat işlərinə rəhbərlik etmiş, nəticədə Tərtər, Umbakı, Hacıvəli, Duvannı və Daşgil neft yataqları açılmışdır.

S. H. Nadirov 1955-ci ildən AzNSETLİ-də laboratoriya müdiri, şöbə rəisi, elmi-tədqiqat işləri üzrə direktor müavini və aparıcı elmi işçi vəzifələrində çalışaraq, 43 il ərzində 120 elmi-tədqiqat mövzularının və kəşfiyyat layihələrinin rəhbəri və əsas icraçısı olmuşdur. 1960-cı ildə namizədlik dissertasiyası müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsi almışdır.

S. H. Nadirovun rəhbərliyi altında Azərbaycanın və Xəzər dənizinin neftli-qazlı vilayətlərinin neftlilik və qazlılıq perspektivliyi və karbohidrogen resurslarının qiymətləndirilməsi və gələcək axtarış və kəşfiyyat planları, layihələri yerinə yetirilmişdir, ən dərin Saatlı quyusunun bütün materialları təhlil edilmiş və elmi nəticələr çıxarılmışdır.

S. H. Nadirov tərəfindən işlənən əsas problemlərdən biri də mezozoy çöküntülərinin neftlilik və qazlılıq perspektivliyinin qiymətləndirilməsi və həmçinin pliosen çöküntülərində neft və qaz yataqlarının əmələ gəlmə və paylanma şəraitinin qanunauyğunluğudur.

S. H. Nadirov Azərbaycanda neft və bitum yataqlarının açıq və şaxta üsulu ilə işlənməsinin geoloji əsaslarını işləyib hazırlamışdır. Onun rəhbərliyi altında aparılan elmi-tədqiqat və layihə işləri Azərbaycanda və Xəzər

dənizi akvatoriyasında neft və qaz yataqlarının açılmasına kömək etmiş və o, aşağıdakı yataqların açılmasının iştirakçısı olmuşdur: Tərtər, Tərsdəllər, Muradxanlı, Cəfərli, Səngəçal-Zənbil adası - Bulla adası, Bulla-dəniz və s.

S. H. Nadirov 220-dən artıq elmi işin, o cümlədən 100-dən çox çap olunmuş məqalələrin və 6 monoqrafiyanın müəllifi və həmmüəlliflərindən biridir. Sultan müəllim harada işləyirsə, işləsin onu yalnız xoş niyyət, xeyirxah əməllər düşündürür.





# XALQA XİDMƏT YOLUNDA



*"Bilik - gündəlik təcrübənin zərrələrindən əmələ gəlir"*

*D. İ. Pisarov*

Azərbaycan Neft Sənayesinin Elmi Tədqiqat Layihə İnstitutunun (AzNSETLİ) aparıcı elmi işçisi, geologiya-mineralogiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar Geoloqu, SSRİ-nin Fəxri neftçisi, SSRİ neft sənayesinin əlaçısı Çingiz Məhəmməd oğlu Şeydayev 1930-cu il iyulun 22-də Bakı şəhərində anadan olmuşdur. O, 1954-cü ildə M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (Azərbaycan Dövlət Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsini bitirib dağ mühəndis-geoloq ixtisasına yiyələnmişdir. Ç. Şeydayev 1955-ci ilin aprel ayınadək dəniz seysmik-kəşfiyyat partiyasında operator, sonra 1955-ci ilin may ayından 1959-cu ilin sentyabr ayınadək "Kaqanoviçneft" və "Orconikidzeneft" Trestlərinin mədənlərində ikinci geoloq və baş geoloq vəzifələrində işləmişdir.

Ç. Şeydayev 1959-cu ilin sentyabr ayından AzNSETLİ-də ardıcıl olaraq böyük mühəndis, elmi katib, neft-mədən geologiya laboratoriyasının rəisi və layların neftverimə qabiliyyətinin artırılması şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1962-ci ildə "Suraxanı və Qaraçuxur neft yataqlarında QLD-nin səmərəli işlədilməsi" mövzusunda geologiya-mineralogiya elmləri üzrə namizədlik, 1968-ci ildə "Abşeron neft-qaz əyalətində QLD çöküntülərinin xüsusiyyətləri və səmərəli işlədilməsi yolları" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir.

O, elmi-istehsalat fəaliyyəti ərzində bir sıra quru və dəniz yataqlarının işlənməsi layihələrinin müəllifi olmuşdur: - neftçıxarma proseslərinə təsir edən amillərin öyrənilməsi, layın neftverimə qabiliyyətinin layı təşkil edən çöküntülər və onların xüsusiyyətlərindən asılılığı, laya istilik və fiziki-kimyəvi təsir üsullarının xüsusiyyətləri, quyularda qum təzahürü və sulaşmaya qarşı aparılan mübarizəyə aid məsələlər, quyu toru sıxlığının neft ehtiyatlarının realizə edilməsi tempinə təsiri, quyular arasında interferensiya hadisəsinə aid məsələlər və s.

Ç Şeydayev 250-yə yaxın elmi əsərin, o cümlədən "Abşeron vilayətinin QLD çöküntüləri, kollektor göstəriciləri, neft-qaz paylanması və işlədilməsinin xüsusiyyətləri" adlı monoqrafiyanın və "Laya istılik və fiziki-kimyəvi təsir üsullarına aid problemlər" adlı broşüranın müəllifidir. Bir sıra patentləri vardır. O, 26 aspirant və dissertantın elmi rəhbəri olmuş, Azərbaycan Respublikası Jurnalistlər Birliyinin "Qızıl qələm" mükafatını almışdır. Azərbaycan Milli Yaradıcılıq Akademiyasının üzvüdür.

Böyük həyat təcrübəsi Çingiz müəllimin biliyini daha da zənginləşdirilmişdir. O, bu biliyi xalqımıza verməkdən böyük məmnunluq duyur.





# XOŞBƏXTLİYİNİ ƏMƏKDƏ TAPAN NEFTÇİ



*"Xoşbəxtlik göydə uçmur, o, əməklə qazanılır"*

***Alman atalar sözü***

Sabir Məmməd oğlu Qasımov 1956-cı ildə Azərbaycan Sənaye İnstitutunu bitirdikdən sonra təyinatla "Neft daşları" NMİ-yə işə göndərilmiş, burada idarənin 1-ci mədənində neftçıxarma operatoru, geoloq işlədikdən sonra, 1960-cı ildə elmi-tədqiqat və istehsalat işləri sexinin lay təzyiqinin saxlanılması sahəsində mühəndis vəzifəsinə təyin edilmişdir.

O, 1964-1971-ci illərdə "Cənub" iriləşdirilmiş neft-mədən idarəsində (Çilov adasında) böyük geoloq vəzifəsində işləmişdir. S. Qasımov bu dövr ərzində yeni açılmış "Cənub" qazkondensat yatağının qazılıb işlənilməyə buraxılması layihəsinin və həyata keçirilməsinin iştirakçısı və icraçısı olmuşdur. Bundan əlavə, o, işlənilmənin son mərhələsində olan Çilov neft yatağında qalıq neft ehtiyatının çıxarılması məqsədilə hər birindən 4 hasiledici quyu qazılacaq 2 dəniz özülünün və 5 quyu qazılmaq üçün iki "Damba" (süni qurudulmuş sahə) düzəldilməsi layihəsinin müəlliflərindən biri olmuşdur. Qazılmış bu quyulardan indiyə qədər on minlərlə ton neft çıxarılmış və hasilat davam edir.

S. Qasımov 1971-1993-cü illərdə "Xəzərdənizneftqaz" IB N. Nərimanov adına NQÇİ-də əvvəlcə geoloji şöbədə böyük geoloq, 1 №-li neft mədənində geologiya üzrə müdirin müavini, elmi-tədqiqat və istehsalat işləri sexinin rəisi, geoloji şöbədə rəis müavini, şöbənin rəisi və 1981-ci ildən 1993-cü ilin aprel ayına qədər NQÇİ-nin rəis müavini - baş geoloqu vəzifələrində çalışmışdır. Onun işlədiyi müddət ərzində, Səngəçaldəniz-Duvannı-dəniz-Bulla adası yatağında 1971-ci ilin iyul ayından həyata keçirilən laya suvurma işlərinə əvvəlcə sex rəisi, sonra isə baş geoloq kimi başçılıq etmiş, aparılan təsir üsulunun səmərəliliyini artırmaq məqsədilə bəzi kimyəvi reagentlərdən (SAM və Azərbaycan-4) istifadə edərək yaxşı nəticələr əldə etmişdir.

Bundan əlavə, S. Qasımov az hasilatlı qazlift quyularında qaz sərfinə qənaət etmək məqsədilə onların vaxtaşırı istismara keçirilməsi təklifinin müəlliflərindən biridir və onun həyata keçirilməsinə rəhbərlik etmişdir. Baş geoloq işlədiyi dövrdə Bakı arxipelaqı sahəsində axtarış-kəşfiyyat nəticəsində aşkar edilmiş 2 yeni - 8 Mart adına qaz-kondensat və Ələt-dəniz neft yataqlarının açılmasında yaxından iştirak etmiş və onların istismara verilməsi üçün texniki-iqtisadi əsaslandırılmanın müəlliflərindən, həmin yataqların neft, kondensat və qaz ehtiyatlarının hesabatının icraçılarından biri olmuşdur.

S. Qasımov Səngəçal-dəniz-Duvannı-dəniz-Bulla adası neftqazkondensat və Bulla-dəniz qazkondensat yataqlarında qalıq neft, təbii qaz və kondensat ehtiyatlarının çıxarılması üçün işlənilmə şəbəkəsini təkmilləşdirərək yeni quyular qazılması təklifinin müəllifidir və onun həyata keçirilməsinə rəhbərlik etmişdir.

Birinci yataqda işlənilmədən kənar qalmış III tektonik blokun qazılıb istismara daxil edilməsinə başçılıq etmişdir.

N. Nərimanov adına NQÇİ-də işlənilməkdə olan 4 yataqdan biri (S.d-D.d-Bad) həm estakadadan, həm də dəniz özüllərindən, 3-ü isə ancaq ayrı-ayrı dəniz özüllərindən, bir və ya bir neçə (5-ə qədər) quyu qazılmaqla istismar olunur. Belə bir şəraitdə, yataqların və layların iqtisadi cəhətdən səmərəli işlənilmə şəbəkəsinin yaradılması məqsədilə tikiləcək estakada və dəniz özüllərinin istiqamət və yerlərinin müəyyən edilməsi böyük və vacib məsələlərdən biridir. Bu layihələrin hazırlanması və həyata keçirilməsinə son 12 ildə S. Qasımov rəhbərlik etmişdir. O, NQÇİ-də işlədiyi dövr ərzində 10-dan çox səmərəli təklifin və 3 ixtiranın müəllifi olmuşdur.

Köhnə axtarış, səmərəli təklif və yeni fikirləri davam etdirərək, 1997-ci ildə Dövlət Elm və Texnika Komitəsi tərəfindən keçirilən müsabiqədə "Fontan üsulundan alternativ enerji mənbəyi kimi istifadə üçün qurğu" mövzusunda iş (S. Qasımov və başqa iki müəlliflə) 2-ci yerə layiq görülmüş və həmin təklif ixtira kimi müəllif şəhadətnaməsi almaq üçün Elm və İxtira Komitəsinə verilmişdir.

S. Qasımov 1993-1994-cü illərdə Azərbaycan Dövlət Dağ Texniki Təhlükəsizlik Elmi Tədqiqat İnstitutunda "Partlayış işlərinin təhlükəsizliyi və yer təkinin qorunması" laboratoriyasında böyük elmi işçi, 1994-cü ilin sentyabr ayından bu vaxtadək AzNSETLİ-də "Mərkəzi və Şərqi Abşeron neft yataqlarının işlənilməsi" laboratoriyasında böyük elmi işçi vəzifəsində çalışır.

Elə ilk gündən laboratoriyanın 94.İ.51.96 №-li müqaviləsi üzrə "Qala yatağının işlənilməsinin təhlili, işlənilmənin səmərəli aparılması üçün tədbirlərin hazırlanması və neft hasilatının 2000-ci ilə qədər proqnozlaşdırılması" elmi-tədqiqat işinin məsul icraçısı kimi işləmişdir.

1997-ci ildə Qala və Qaraçuxur yataqlarında çıxarıla bilən neft ehtiyatlarının hesablanmasında, 97.İ.51.98 №-li mövzularda məsul icraçı, 97.İ.50.97 №-li mövzu üzrə isə icraçı kimi iştirak edir. Bir sözlə, Sabir Qasımov xoşbəxtliyini əməkdə tapmışdır.



# PROFESSORUN MƏNALI HƏYAT YOLU



***"Yaşamağı bacarmaq hər damcı ilhama 99 damcı tər qatmaqdan ibarətdir"***

***M. İ. Larin***

Tovsif Muxtar oğlu Məmmədov 1929-cu il martın 22-də anadan olmuşdur.

O, 1952-ci ildə Azərbaycan Sənaye İnstitutunun (indiki ARDNA) neft-mədən fakültəsini bitirmişdir. İnstitutu bitirdikdən sonra, 1952-1962-ci illərdə Buzovnaneft mədənlərində neftçıxarma ustasının köməkçisi, neftçıxarma ustası, mədənin böyük mühəndisi və mədən müdiri vəzifələrində işləmişdir. 1962-1972-ci illərdə Azərneftin quyuların sınaqdan çıxarılması və əsaslı təmiri kantorunun baş mühəndisi, 1972-1983-cü illərdə Suraxanıneft neft-qazçıxarma idarəsinin baş mühəndisi və 1983-cü ilin mayından 1992-ci ilin mayına kimi Binəqədineft neft-qazçıxarma idarəsinin rəisi vəzifələrində işləmişdir. Hazırda Azərneft sənayesi elmi-tədqiqat və layihə institutunun Neftçıxarmada qumla mübarizə laboratoriyasında aparıcı elmi işçi vəzifəsində çalışır.

İstehsalatdan ayrılmadan 1967-ci ildə dissertasiya müdafiə edərək, texnika elmləri namizədi, 1981-ci ildə isə texnika elmləri doktoru alimlik dərəcəsini almışdır.

İstehsalatda işləməklə bərabər, 1983-cü ildə müsabiqə yolu ilə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki ARDNA) neft yataqlarının işlənməsi və istismarı kafedrasının professoru seçilmişdir və o vəzifədə 1994-cü ilin oktyabrına qədər işləmişdir.

Neft yataqlarının işlənməsi və istismarı üzrə 67 elmi əsərin, o cümlədən 3 monoqrafiyanın və 16 ixtiranın müəllifidir.

Elmi fəaliyyətinin əsas istiqaməti neft yataqlarının işlənməsi və istismarında karbohidrogen həlledicilərinin və onların emilsiyalı sistemlərinin tətbiqi məsələləri olmuşdur ki, onlar da neftçıxarmanın 18-texnoloji əməliyyatlarını əhatə edir. Tovsif müəllim mənalı həyat yolunda nə uğurlar qazanıbsa, özünün zəhməti ilə, alın təri ilə qazanmışdır.

1991-ci ildə ona neft yataqlarının işlənməsi və istismarı kafedrasında professor elmi adı, 1971-ci ildə Azərbaycan Respublikasının əməkdar mühəndisi fəxri adı verilmişdir.



# LAYA TERMİKİ TƏSİR

*"İnsana arxadır onun kamalı,*
*Ağıldır hər kəsin dövləti, malı".*
*Nizami*

Filosofların təbirincə desək həyat mürəkkəbdır, sevinclidır, kədərlidır iztirablıdır. Hamının həyatında həm sevincli, həm də kədərli anlar olur. Bəs iztirabları öldürməyin həqiqi yolu nədir? İbrahim müəllim bu sualın cavabında eramızdan əvvəlki VI əsr filosoflarına istinad edir: - Düz görmək, doğru düşünmək, düz danışmaq, düz hərəkət etmək, düz yaşamaq, düz çalışmaq, diqqəti düz toplamaq və fikri düz cəmləşdirmək!

İbrahim Muradxan oğlu Camalov 1924-cü ildə Zəngilan rayonunun Tatar kəndində anadan olmuşdur. 1941-ci ildə Qaryagin (indiki Füzuli) pedaqoji texnikumunu bitirdikdən sonra, Zəngilan rayonunun Cahangirbəyli, Zəngilan və Pirçivan məktəblərində fizika-riyaziyyat fənlərindən dərs demişdir. 1950-ci ildə Azərbaycan Sənaye İnstitutuna (indiki Neft Akademiyası) daxil olmuş və 1955-ci ildə institutu fərqlənmə diplomu ilə qurtarmışdır.

1955-1958-ci illərdə Artyomneft (indiki Abşeronneft) Neftqazçıxarma İdarəsinin 6-cı mədənində sahə rəisi vəzifəsində, 1958-1966-cı illərdə Azərbaycan Dövlət Elm və Texnika Komitəsində baş mütəxəssis vəzifəsində işləmişdir.

Respublikada ilk dəfə olaraq 1966-cı ildə o, Azərbaycan elmi-tədqiqat və layihə neft institutunda laya termiki təsir laboratoriyasını təşkil etmiş və 1991-ci ilə qədər ona rəhbərlik etmişdir. 1991-ci ildən hal-hazıra qədər institutda aparıcı elmi işçi vəzifəsində çalışır.

Onun rəhbərliyi və bilavasitə iştirakı ilə laya termiki təsir üsuluna aid bir neçə texnoloji proseslər işlənmiş və respublikanın neft mədənlərində tətbiq olunmuşdur. Neft sənayesində hasilatın yeni üsullarla artırılmasına aid 2 monoqrafiya, 6 broşura, müxtəlif texniki jurnallarda dərc edilmiş 175 məqalə və 18 ixtiranın müəllifidir.

1966-cı ildə dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. 1979-cu ildə Azərbaycanın əməkdar səmərələşdiricisi fəxri adına layiq görülmüşdür. Keçmiş SSRİ-nin ixtiraçısıdır, bir neçə medalla təltif edilmişdir.



# ONUN ƏSAS TƏDQİQAT OBYEKTLƏRİ



*"Ağıllı o adamdır ki, dinləməyi və əməl etməyi bacarır"*
*Əbdül Fərəc*

Geofizika və Mühəndis Geologiyası İB-nin Baş geoloqu əvəzi, geologiya-mineralogiya elmləri namizədi Şahvələd Süleyman oğlu Köçərli 1936-cı ildə Gədəbəy rayonunun İsalı kəndində anadan olmuşdur. O, 1959-cu ildə ADU-nin geologiya fakültəsini əla qiymətlərlə bitirmiş, neftçi-geoloq ixtisasına yiyələnmişdir. 1959-1962-ci illərdə "Azərneftkəşfiyyat" trestinin 5 N-li qazma idarəsində qazmaçı köməkçisi, qazmaçı, mühəndis-geoloq və böyük geoloq vəzifələrində çalışmış, Aşağı Kür çökəkliyi və cənub-qərbı Qobustanda Kürsəngi, Qalmaz, Daşgil və b. yataqların kəşfiyyatında iştirak etmişdir.

Ş. S. Köçərli 1962-1964-cü illərdə AzEA Geologiya İnstitutunun aspiranturasında oxumuş, 1965-ci ildə "Aşağı Kür çökəkliyi neft və qaz yataqlarının əmələ gəlməsi və pozulmasında dizyunktiv pozğunluqların rolu" mövzusunda dissertasiya müdafiə edib elmlər namizədi adı almışdır.

1974-cü ilə qədər Geologiya institutunda kiçik və baş elmi işçi vəzifələrində çalışmaqla, o, Azərbaycanın depressiya zonalarının neftlilik-qazlılıq perspektivlərinin öyrənilməsi ilə məşğul olmuşdur.

1974-cü ildə Ş. S. Köçərli yenidən istehsalata qayıtmış, 1981-ci ilə qədər "Azərneft" İB-nın geoloji şöbəsinin müdir müavini və müdiri vəzifələrində işləmişdir. Bu dövr ərzində onun rəhbərliyi və bilavasitə iştirakı ilə Azərbaycanın mərkəzi və qərb rayonlarında kəşfiyyat işlərinin istiqaməti

17*

müəyyənləşdirilmiş, respublika ərazisində xeyli həcmdə dərin qazma və geofiziki kəşfiyyat işləri aparılmış, milyonlarla ton sənaye əhəmiyyətli neft və qaz ehtiyatı hazırlanmışdır.

1981-ci ildə Ş. S. Köçərli "Azərneftgeofizika" trestinin Baş geoloqu vəzifəsinə təyin edilmiş, 1988-ci ilə qədər bu işdə çalışaraq quru ərazisinin neftli-qazlı rayonlarının geofiziki üsullarla tədqiqinə rəhbərlik etmişdir. Bu illər ərzində respublikada onun iştirakı ilə onlarla yeni perspektivli struktur dərin qazmaya hazırlanmış, bunlardan bəzilərində, məsələn: Tərsdəllərdə, Gürzündağda, Zərdabda və s. sənaye əhəmiyyətli neft alınmışdır.

1988-1992-ci illərdə Ş. S. Köçərli "Azərneftgeofizika" İB-nin Baş direktoru vəzifəsində çalışmış, Azərbaycanın quru sahələrində aparılan mədən və kəşfiyyat geofizikası işlərinə bilavasitə rəhbərlik etmişdir.

1992-ci ilin noyabrında Geofizika Baş idarəsi yaradılanda o, əvvəlcə geoloji şöbənin rəisi, sonralar isə Baş geoloq vəzifələrinə təyin edilmişdir.

Ş. S. Köçərli 1993-1998-ci illərdə Türkiyə petrollarında çalışmışdır.

Hazırda GMG İB-nin Baş geoloq əvəzidir.

Ş. S. Köçərlinin əmək fəaliyyətində təşkilatçılıqla yanaşı, ciddi elmi axtarışlar da mühüm yer tutmuşdur. Geofizika məlumatların geoloji interpretasiyası, Azərbaycanın depressiya zonalarının geoloji quruluşu və inkişaf tarixi, neft-qaz yataqlarının əmələ gəlmə qanunauyğunluqları, yataqların axtarış-kəşfiyyat istiqamətləri və metodikası və s. onun əsas tədqiqat obyektləridir.

Bu mövzulara aid onun tərəfindən 100-dən artıq elmi və publisistik əsər yazılmışdır. Şahvələd müəllimin yüksək keyfiyyətlərindən biri də budur ki, o, ağıllı fikirləri, məsləhətləri diqqətlə dinləyir və ona əməl edir.

O, Azərbaycan neftçiləri və geoloqlarının həyatından götürülmüş "Biz yaşadıq bunları" adlı yumoristik hekayətlər kitabçasının müəllifidir.

SSRİ neft sənayesi əlaçısıdır.



# SAF ÜRƏKLİ, CƏSARƏTLİ VƏ SƏMİMİ İNSAN



***"Dünyada böyük işlərin hamısı cəsarət sayəsində görülmüşdür"***

***Smayls***

Əmək və müharibə veteranı, təcrübəli neftçi-veteran Rza Həsən oğlu Əliyev öz mənalı ömrünün 90 ilini arxada qoymuş, həyatının onuncu onilliyini yaşayır. O, şərəflə ucaldığı zirvədə vüqarla görünür.

Azərbaycan Respublikasının Əməkdar mühəndisi, Böyük Vətən müharibəsinin birinci qrup əlili Əliyev Rza Həsən oğlu 1912-ci il fevral ayının 28-də Qazax şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1937-ci ildə Azərbaycan Neft Sənayesi İnstitutunun neft-kimya fakültəsini bitirmişdir. Həmin il o, "Azərneftzavodlar" Trestinə işə göndərilmişdir. Sonrakı illərdə R. H. Əliyev 2 nömrəli peşə məktəbində neftin emalı üzrə dərs demişdir. O, 1941-ci il sentyabrın 9-da cəbhəyə çağırılmış, atıcı bölmənin 826-cı alayında, 396-cı diviziyanın tərkibində Kerç və Rostov şəhərlərinin alman faşistlərindən azad edilməsində iştirak etmişdir. 1942-ci il mart ayının 23-də Feodosiya şəhəri ətrafında gedən döyüşlərdə ağır yaralanmış, həmin ilin iyun ayında Vətən müharibəsi əlili kimi ordudan tərxis olunmuşdur.

R. H. Əliyev ordudan qayıtdıqdan sonra 1943-1944-cü illərdə 2 saylı peşə məktəbində dərs demişdir. Sonra o, 1945-ci il yanvar ayının 15-dən "Azərneftzavodlar" Trestində əvvəlcə böyük mühəndis, sonra isə bir nömrəli sexin müdiri işləmişdir.

R. H. Əliyev 1951-ci il sentyabr ayının 9-da tikilməkdə olan Katalizator fabrikinin direktoru təyin olunmuşdur. O, bu məsul vəzifənin icrasına böyük məsuliyyət və cəsarətlə girişmişdir. Həmin fabrik vaxtından əvvəl tikilib qurtarmış və alüminium-silikat məhsulu istehsalına başlamışdır.

R. H. Əliyev 1956-cı ildə Vano-Sturua adına Bakı krekinq zavoduna direktor təyin olunmuşdur. Bacarıqlı təşkilatçı bu vəzifədə də özünü doğrultmuşdur. 1959-cu ilin fevral ayında o, İraq Respublikasına (Bağdad şəhəri) xidməti ezamiyyətə göndərilmiş, burada sovet mütəxəssislərinin rəhbəri olmuşdur. Ezamiyyətdən qayıtdıqdan sonra R. H. Əliyev zavod direktorunun (NBNZ) ümumi məsələlər üzrə müavini təyin edilmişdir.

Təcrübəli neftçi 1963-cü il aprelin 25-dən sentyabrın 2-dək Qahirədə xidməti ezamiyyətdə olmuş, 1964-cü ilin may ayında Bakı qazalın tənzimləmə zavoduna direktor təyin edilib, 1969-cu ilin dekabrında isə NBNZ zavodunun baş mühəndisinin müavini vəzifəsinə keçirilib.

R. H. Əliyev 1987-ci il dekabr ayının 1-dən təqaüdə çıxmışdır. Rza müəllim çox mənalı və şərəfli bir həyat yolu keçmişdir. O, müxtəlif vaxtlarda Xətai, Nizami, Suraxanı rayon sovetlərinin deputatı seçilmiş, 1972-ci ildə "Azərbaycan Respublikasının Əməkdar mühəndisi" fəxri adına layiq görülmüşdür. Əmək veteranı R. H. Əliyev 21 müxtəlif medalla, 20 fəxri fərmanla və digər mükafatlarla mükafatlandırılmışdır. O, 1934-1987-ci illər ərzində neft-qaz sənayesi üçün ixtisaslı kadrlar hazırlanmasında misilsiz əmək sərf etmişdir. O, silikat katalizator məsələlərindən bəhs edən qiymətli kitabın müəllifidir. Onun səmərələşdirici təklifləri iqtisadiyyatımıza milyon manatlarla xeyir vermişdir.

R. H. Əliyev gənclərin hərbi-vətənpərvərlik, mənəvi tərbiyəsində yaxından iştirak edir.

...Qorxulu və mürəkkəb olan 1937-ci illərdə R. H. Əliyev öz xalqına xeyir vermək həvəsi ilə yaşamış, fəaliyyət göstərmiş, təhsil almışdır. Onun əmək fəaliyyətinin təxminən 50 ili indiki "Azərneftyanacaq" İstehsalat Birliyində gənclərə neftçi peşəsinin sirlərini öyrətməkdə, texnoloji qurğuların inşası və yenidən qurulmasında dəyərli məsləhətlər verməkdə, əsl işgüzarlıq nümunəsi göstərməkdə hər bir kollektiv üzvünə nümunə olmuşdur.

Təcrübəli neftçi-veteran təqaüdə çıxsa da "Azərneftyanacaq" İstehsalat Birliyi ilə həmişə sıx əlaqə saxlayır, kollektivin müvəffəqiyyətlərinə sevinir, fərəhlənir. Bu isə onun saf, səmimi hisslərindən xəbər verir. Rza müəllimin daha bir ali keyfiyyəti - cəsarəti həyatda ona uğurlar, nailiyyətlər qazandırıb, hörmət gətirib.



# ELMİ İŞƏ MARAQ



*"Elm sərkərdə, təcrübə isə onun əsgəridir".*

*Leonardo da Vinçi.*

Şirəliyev İsgəndər Yaqub oğlu 1960-cı ildə Neftçala rayonunun Novo-Vasilyevka kəndində neftçi ailəsində anadan olmuşdur.

1968-ci ildə Neftçala rayonundakı 1 saylı orta məktəbin 1-ci sinfinə getmiş, 1978-ci ildə həmin məktəbi bitirmişdir. 1978-ci ildə Azərbaycan Neft və Kimya institutunun "Neft-qaz mədən" fakültəsinə daxil olmuşdur. 1983-cü ildə həmin institutu "dağ mühəndisi" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. İnstitutu bitirdikdən sonra əmək fəaliyyətinə Səngəçal Dəniz Qazma İşləri İdarəsində qazmaçı köməkçisi peşəsindən başlamışdır. 1984-cü ildə buruq ustası vəzifəsinə təyin olunmuşdur. Buruq ustası işlədiyi dövrdə rəhbərlik etdiyi briqada 11 quyunu vaxtından əvvəl, qənaətlə qazıb təhvil vermişdir.

İ. Şirəliyev 1985-ci ildə elmi işlə məşğul olmaq üçün aspiranturaya daxil olsa da, müəyyən səbəblər üzündən işi davam etdirə bilməmişdir.

1987-ci ildə onun başçılıq etdiyi briqada Səngəçal yatağı üzrə bir briqada ilə rekord göstəricilər əldə edərək 7367 metr qazma işi yerinə yetirmişdir.

1987-ci ildə isə başçılıq etdiyi briqadaya "Xəzərdənizneftsənaye" Ümumittifaq İstehsalat Birliyinin "Ən yaxşı briqadası" adı verilməsi münasibəti ilə Fəxri Fərmana layiq görülmüşdür. Həmçinin 1999-cu il dekabr ayında ADNŞ-nin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

İ. Şirəliyev 1988-ci ildə İvano-Frankovskda Qaz sənayesi gənc mütəxəssislərinin konfransında iştirak etmiş və orada "maili quyuların qazılmasında texnika və texnologiyanın təkmilləşdirilməsi" mövzusunda məruzə etmişdir. Mühazirə yüksək qiymətləndirilmişdir.

O, 1990-cı ildə Səngəçal Dəniz Qazma İşləri İdarəsində 2 saylı Rayon mühəndis texnoloji xidmətinin rəis müavini işləmişdir. 1992-ci ildə "Qum adası" Dəniz Qazma İşləri İdarəsində baş mühəndis, 1993-cü ildə müvəqqəti idarə rəisi vəzifəsində çalışmışdır.

İsgəndər müəllim 1993-cü ilin yanvar ayından idarə rəisi vəzifəsində işləyir.

Onun rəhbərlik etdiyi hazırkı "Qum adası" DQII-sı 1938-ci ildən fəaliyyət göstərərək həm istismar, həm də kəşfiyyat quyularını qazaraq, "Hovsan", "Zığ", "Səngəçal", "Darvin-Bankası", "Abşeron Bankası", "Şimal qatı", "Çilov", "Cənub yatağı", "Duvannı", "Bahar", "Qum dəniz", "8 Mart" və bir çox sahələrdə qazma işləri aparmışdır.

1988-ci ildən etibarən idarənin göstəriciləri kəskin surətdə aşağı düşmüş, iqtisadi cəhətdən demək olar ki, tənəzzüllə uğramışdı.

Respublikada ağır siyasi və iqtisadi böhranın hökm sürdüyü bir vaxtda belə bir müəssisəyə rəhbərlik etmək olduqca çətin və məsuliyyətli idi. Lakin bütün bu çətinliklərə baxmayaraq I. Şirəliyeva kollektivdə böyük dönüş yaratmağa nail oldu. Belə ki, 1993-cü ildən etibarən ildən-ilə plan göstəriciləri artıqlaması ilə yerinə yetirildi.

1998-ci ildə idarə qazma keçidi planını raport verərək, noyabrın 22-də yerinə yetirməyə müvəffəq olmuşdu. 18500 m əvəzinə 19150 m qazma keçidi yerinə yetirilərək, plan 103,5% təşkil etmişdi. Sifarişçilərə 5 quyu əvəzinə 10 quyu təhvil verilərək plan 200% yerinə yetirilmişdi. Bunun müqabilində idarə 5683 mln. manat gəlirlə işləmişdi.

1999-cu ildə illik plan noyabrın 28-də yerinə yetirilərək 17650 m qazma işləri əvəzinə 18752 m qazma işləri görülmüşdü. Beləliklə, qazma keçidi üzrə planı 106,2% yerinə yetirmişdi. Plan üzrə 8 quyu əvəzinə 9 quyu tikintisi qurtararaq sifarişçilərə təhvil verilmişdi.

2000-ci ildə idarə 4 sahəsində ("Bahar", "Qum dəniz", "Hövsan", "Zığ") qazma işləri apararaq, qazma keçidi planını 100,4% yerinə yetirmişdir.

Belə ki, idarə 23 dekabr 2000-ci il tarixdə raport verərək illik qazma keçidi planını yerinə yetirmişdir. 2000 m əvəzinə 20086 m qazaraq 4773 mln. manat gəlirlə işləmişdir ki, bu da planda nəzərdə tutulduğundan 1163 mln. manat artıqdır.

Cari ildə uğurlu qazma işləri görülmüşdür. Qazma kommersiya sürəti yerinə yetirilmişdir. Quyu tikintisi planını 100% yerinə yetirərək 4 quyu təhvil verilmişdir. Hal-hazırda idarə gəlirlə işləyir.

İşinin çətin, məsuliyyətli olması, gərgin əmək tələb etməsi İ. Şirəliyevin elmi axtarışlara olan marağını söndürə bilməmişdir. Hələ 1985-ci ildən arzusunda olduğu elmi işlə məşğul olmaq üçün 1987-ci ildə yenidən ADNA-nın aspiranturasına daxil oldu. Qazmada problem məsələlərdən biri sayılan "Maili quyuların qazılması" mövzusunda elmi iş aparmış və bu sahədə namizədlik dissertasiyası müdafiə edib Texnika Elmləri Namizədi adı almışdır. Elmi işini istehsalatda tətbiq edərək, faydalı nəticələr əldə edilmişdir.

O, 4 monoqrafiya çap etdirmiş, müxtəlif elmi mətbuatda 12 elmi məqalə dərc etdirmişdir. İstehsalatda böyük səmərə verən 3 ixtirası vardır.

Neft-qaz quyularının qazılmasına aid 2 kitabı çıxmışdır.

1987-ci ildə onun başçılıq etdiyi briqadaya "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İstehsalat Birliyinin "Ən yaxşı briqadası" adı verilmişdir. Özü isə Fəxri Fərmana layiq görülmüşdür. Həmçinin 1999-cu il dekabr ayında o, ARDNŞ-nin Fəxri Fərmanı ilə təltif olunmuşdur.



# ВЕТЕРАН-НЕФТЕРАЗВЕДЧИК



Шикар Аллахверди оглы Ибрагимов родился 28 мая 1932 года в Геранбойском районе Азербайджана. Семья состояла из 9 человек, которых содержали мать Шикара, работающая в колхозе, и старший брат, который учительствовал в районе. Время было трудное, поэтому Шикар учебу в средней школе сочетал с работой в колхозе, помогая тем самым прокормить семью.

В 1949 году Шикар поступил в Азербайджанский индустриальный институт им М. Азизбекова (нынешняя Государственная нефтяная академия) и в 1954 году получил квалификацию инженера по бурению нефтяных и газовых скважин.

После окончания института Шикар Ибрагимов по распределению начал работать буровым мастером в нефтеразведке Геолого-поисковой конторы в море. За короткое время он прошел путь от начальника нефтеразведки до заместителя директора этой конторы.

В годы, когда он возглавлял нефтеразведку в районе банки Головачева, островах Глиняном, Обливном, приходилось самостоятельно решать многие возникающие проблемы. В те годы разведка медленно, но уверенно велась в труднодоступных местах акватории Каспия. Штормовые ветры и связанные с этим сильные волнения моря вносили коррективы в ритмику нефтеразведки. Приходилось решать вопросы монтажа и демонтажа бурового оборудования, доставки технического оборудования, утяжелителя и химических реагентов для бурового раствора, продуктов питания, горюче-смазочных материалов для механизмов. Нередко на бурящихся скважинах случались выбросы нефти и газа, горные породы вскрывались в условиях аномально-высоких пластовых давлений. Однако все эти трудности устранялись молодым инженером, скважины бурились с опережением графика. Каждая из пробуренных скважин давала бесценную информацию о геологии недр земли.

В этом Шикару Ибрагимову оказывали неоценимую помощь и поддержку такие маститые нефтяники, какими были ныне покойные М. Ю Саламов, М. К. Сулейманов, Н. Бабаев, в те годы возглавлявшие нефтегазовый сектор Азербайджана. Сегодня Шикар Ибрагимов вспоминает о них с душевной теплотой и сам, кстати, имеет многих учеников, плодотворно работающих в отечественных предприятиях и иностранных компаниях.

Большую техническую работу выполнял Шикар Ибрагимов по строительству первой плавучей буровой установки понтонного типа "Гипроморнефть", а затем и по монтажу прибывшего в 1968 году из Голландии самоподъемной плавучей буровой установки "Хазар". Кстати, с помощью этой плавучей буровой на акватории Каспийского моря были открыты нефтегазовые месторождения Ази Асланова, банка Ливанова-Восточная, им. Баринова (последние два в туркменском секторе Каспия), изучено геологическое строение площади им. Ф. Самедова и ряда площадей в северо-западной части Абшеронского архипелага. Две установки - СПБУ "Абшерон" и "Сиазань" проводили буровые работы у берегов Дагестана, где было открыто нефтегазовое месторождение "Инчхе-море" и у казахстанских берегов - "Скалистое-море". Во всех этих работах заслуги Шикара Ибрагимова несомненны.

В 1962 г. Шикар Ибрагимов был командирован на Кубу, где по роду деятельности встречался с Фиделем Кастро, Камиллой Сьенфуэгос, Эрнесто Че Геварой, а с мая 1976 до июня 1978 года пребывал в служебной командировке во Франции в городе Руане. Здесь строилось буровое судно шлангокабельного бурения, получившее впоследствии название "Спецсудно № 1 им. Али Амирова". Это было по тем временам судно, оснащенное передовым оборудованием, на котором применялась новейшая буровая технология. Весь цикл работ - от строительства корабля, его испытания в Ла-Манчском проливе, доставки на Каспий и бурении здесь ряда инженерно-геологических скважин для изучения природных отложений моря проводились под непосредственным руководством Шикара Ибрагимова.

В 1996 году ПО по добыче нефти и газа в море ГНКАР и голландская компания "Фугро" подписали контракт о создании совместного предприятия "Азери-Фугро". На пост директора этого СП был назначен Шикар Аллахверди оглы Ибрагимов. Предприятие выполняет геофизические, геотехнические исследования, занимается топогеодезической съемкой на акватории Каспия, вопросами экологии моря.

Предприятие приобрело современное геотехническое лабораторное оборудование системы "Автокад" и установило его на территории Комплексного Морского геологоразведочного управления. Сотрудники лаборатории выполнили большое количество анализов пород для AIOC, BP, Total/Fina/Elf, Agip и другие.

В связи с 70-летием Шикара Аллахверди оглы Ибрагимова хочется от души поздравить ветерана-нефтеразведчика с юбилеем и пожелать ему долгих лет жизни, благополучия в деле, которому он посвятил большую часть своей жизни. Думаю, к этому поздравлению присоединится не одно поколение геологоразведчиков Каспия.



# O, ÖZ QÜVVƏSİNƏ İNANIR



***"İnsan öz qüvvəsinə inandığı vaxt istəyinə nail olur"***

***A. Feyerbax***

İsgəndərov Arzuman Qiyas oğlu 1939-cu ildə Füzuli rayonunun Rəfədinli kəndində kəndli ailəsində doğulmuşdur. O, 1957-ci ildə Füzuli rayonunun Pirəhmədli kənd orta məktəbini bitirmişdir. 1958-ci ildə Bakı statistika texnikumuna qəbul olunmuş və 1960-cı ildə həmin texnikumu fərqlənmə diplomu ilə bitirmişdir.

A. İsgəndərov əmək fəaliyyətinə 1960-cı ildən başlamışdır. O, 1960-1962-ci illərdə Az.SSR Jdanov (indiki Beyləqan) rayonu 5 N-li trestinin 4 N-li TQİ-də iqtisadçı, mühasib vəzifələrində çalışmışdır. 1962-1965-ci illərdə hərbi xidmətdə olmuşdur.

O, 1965-ci ildə Az.Pİ-nin mexanika fakültəsinin əyani şöbəsinə daxil olmuş. 1970-ci ildə həmin institutun "yeyinti sənayesinin maşın və avadanlığı" fakültəsini bitirib, mühəndis-mexanik ixtisasına yiyələnmişdir.

1970-ci ildən 1973-cü ilə qədər Şamaxı rayon Xaqani adına sovxozun Şərab zavodunda böyük mühəndis-mexanik vəzifəsində çalışmışdır.

1973-cü ilin yanvarından isə Zaqafqaziya magistral neft kəmərləri idarəsinə (indiki MNK İB) işə qəbul olmuşdur. Burada o, istehsalat şöbəsində mühəndis, böyük mühəndis, həmin şöbənin rəisi, əsaslı tikinti şöbəsinin rəisi vəzifələrində çalışmışdır. 1979-cu ildən bu günə qədər isə həmin idarədə Baş direktorun əsaslı tikinti üzrə müavinidir.

A. Q. İsgəndərov 1975-ci ildə Qroznı Neft İnstitutunda "Sənaye və mülki tikinti" ixtisası üzrə ixtisasartırma kursunu bitirmişdir.

O, 1976-1980-ci illərdə tikilmiş Samqori-Batumi magistral neft kəmərlərinin (L=401 km Dş-500 mm) tikıntisində, 1983-cü ildə istifadəyə verilmiş Qroznı-Bakı neft kəmərlərinin (L=601 km, Azərbaycan ərazısində isə neft kəmərlərinin uzunluğu 216 km, Dş=700 mm) tikintisində Sifarişçi kimi fəal iştirak etmişdir. Qroznı-Bakı neft kəmərləri vasitəsi ilə Qərbi Sibir nefti respublikanın neftayırma zavodlarına nəql olunurdu.

A. Q. İsgəndərov 1995-ci ildə istifadəyə verilmiş Dübəndi-Bakı neft kəmərlərinin (Dş-700 mm, Dş-500 mm, Dş-300 mm - 2 ədəd, L=125 km) Bakı şəhərinın yaşayış sahələrindən - Serebrovski (ındiki Qara Çuxur), Razin (indiki Bakıxanov), 8-ci km qəsəbələrindən çıxarılması tikintisinə, 1997-ci ıldə istismara verilmiş Dübəndı neft boşaltma bazasının yenidən qurulması proqramına daxil olan, həcmı 40 min kubmetr olan "çənlər parkı kompleksinin tikintisi"nə, 1998-ci ıldə istıfadəyə verilmiş Dübəndi NBB-da müasir səviyyədə tıkılmiş "Qazanxana kompleksinin tikintisi"nə bılavasitə rəhbərlik etmişdir.

Azərbaycan neftini xaricə ixrac etmək üçün qısa bır müddətdə "Sumqayıt neftvurma stansiyası" obyektinin, 1998-ci ildə tikilməsində və 1999-cu ildə isə nəql olunacaq neftin həcminın artırılması məqsədi ilə "Sumqayıt neftvurma stansıyası" kompleksinin genişləndirilməsi tikintisində onun böyük əməyi olmuşdur.

Arzuman İsgəndərov işlədiyi sahədə ciddı fəallıq göstərır, tapşırıqların yerinə yetirilməsində gərgin əmək sərf edir.

Arzuman müəllım öz qüvvəsinə inanır və həmişə məqsədinə nail olur.



# ÖMÜRDƏN CİZGİLƏR



***"Alimləri eşidin, çünki onlar dünyanın çırağı, axirətin nurudur"***
***Məhəmməd Peyğəmbər***

Zəngin və sonsuz həyat çalarları əhatəsində olan ınsan ömrü nəhayətsiz, sonu görünməyən bir ümmandır. Maraqlıdır ki, öz mənalı ömrünü bu ümmanda yaşayan hər bir kəs, həm də zaman gerçəkliyi və vaxt axarı kəsiyındə silinməz və sezilməsi o qədər də asan olmayan izlərlə öz taleyini - "Ömür abidəsi"ni yaradan memar olur. Həyatda xoşbəxt o kəslərdir ki, onlar özlərının "Ömür abidələrin"də, gələcək nəslin qıdalana biləcəyi mənalı ömrün cizgilərini "yarada" bilirlər.

Bu mənada, bizım müasirimiz olan və bir mütəxəssis kimi elmın müxtəlif sahələrində (nazik təbəqələr fizikası, kristallofizika, biofizika, lazer spektroskopsyası və onun canlı və cansız aləmdə tətbiqi, neftin tədqiqi və s.) çalışaraq dəqıq araşdırmaları olan və kəşf səviyyəsində nəticələr əldə edən, işlərində yüksək dəqiqliyə, tariximizi, ədəbiyyatımızı, musiqimizi dərindən sevən Fəxrəddın Əvəz oğlu Quliyev bu qəbil ışçilərdəndir.

Öz qayğılı uşaqlıq ıllərini Zəngəzur mahalının dilbər guşələrindən birində, Kəpəz dağının ətəyində qərar tutan, barlı-baharlı Ağbulaq kəndində keçirən F. Ə. Quliyev, 1949-cu il iyunun 12-də müəllim ailəsində dünyaya göz açmışdır.

Atasını çox erkən itirən Fəxrəddin, 1956-cı ildə birinci sinfə gedir. Öz həmyaşıdlarından fərqli olaraq uşaqların şıltaq və sevincli günlərindən məhrum olan Fəxrəddın uşaqkən zəhmətə qatlaşır və bu əməksevərlılik ona hələ kıçik yaşlarında yüksək həssaslıq, qayğıkeşlik və dıqqətlilik aşılayır, hansı ki, bu xüsusiyyətlər sonrakı ıllərdə Fəxrəddinin bütün fəaliyyət istıqamətlərində özünü qabarıq şəkildə göstərir.

1964-cü ildə Fəxrəddın Bakıya gəlir və o, özündən böyük qardaşı Yusif Quliyevın (Respublıkanın əməkdar mühəndisi, tanınmış neftçi-energetik) tövsiyəsilə Bakıxanov qəsəbəsində yerləşən Bakı Neft Texnikumunun "Nəzarət ölçü cihazlarının istehsalı" ixtısası üzrə fakültəsinin gündüz şöbə-

sinə daxil olur. Texnikuma, respublika pedaqoji ictimaiyyətində böyük nüfuza və zəngin təcrübəyə malik mərhum Ələkbər Mirzəyev rəhbərlik edirdi. F. Ə. Quliyev birinci kursdan etibarən yüksək tələbkarlığa malik texnikum müəllimlərinin diqqət mərkəzində olur.

O, Lenin (indiki Sabunçu) rayonu ərazisində olan maşınqayırma zavodlarında, neft mədənlərində tez-tez olur və neft-mədən avadanlıqlarının quruluşları və funksiyalarını mükəmməl mənimsəməyə cəhd göstərirdi. 1966-cı ildə Balaxanıneftin 6-cı mədəninin 3-cü sahəsində, 1967-ci ildə 8-ci mədənin "yeraltı təmir sexi"ndə 3-cü dərəcəli operator kimi çalışmışdır.

F. Quliyev sonrakı illərdə təhsilini S.M. Kirov adına ADU-nun fizika fakültəsində davam etdirir.

Universitet həyatı Fəxrəddinin elmi, ictimai və ədəbi dünyagörüşünün formalaşmasında böyük rol oynadı. O, burada istedadlı alimlərdən dərs alaraq, hələ 3-cü kursdan etibarən nazik təbəqələr fizikası sahəsində ilk elmi-tədqiqat işlərini aparmağa başlamışdır.

1970-ci illərdə güclü elmi kadr potensialı hazırlamaq məqsədilə Azərbaycan dövləti və hökuməti istedadlı tələbələrin keçmiş ittifaqın qabaqcıl tədris və elm mərkəzlərində təhsil almalarına şərait yaratdı. Universitetin 5-ci kursunda təhsil alan Fəxrəddin bir qrup seçilmiş tələbələrlə birlikdə 1971-ci ildə ADU tərəfindən Moskvaya, SSRİ EA-nın Şubnikov adına "Kristalloqrafiya" İnstitutuna göndərilrdi.

Bu, o institut idi ki, vaxtilə Azərbaycan xalqının alimi Xudu Məmmədov da bu institutda aspirantura illərini keçirərək, özünün böyük elmi nəticələrini almışdır. Fəxrəddin burada kimyəvi birləşmələrin kristalloqrafik metodla aydınlaşdırılması və onun kristallofizikası və kristallokimyası ilə məşğul olur. Bu tədqiqat sahəsi bir neçə elmlərin (fizika, riyaziyyat, üzvi və qeyri-üzvi kimya, mineralogiya, kristalloqrafiya, kristallofizika, kristallokimya və s. elmlərin) kəsişdiyi sahədə olduğundan, bu elmlərin dərindən mənimsənilməsi və tədqiqatın kompleks şəkildə aparılması zəruri idi.

O, hələ Moskvada ikən təyinatını Azərbaycan Respublikası EA-nın Fizika İnstitutuna olduğu xəbərini eşidir. Diplom işini yerinə yetirərək Bakıya qayıdan F. Ə. Quliyev, 1972-ci ildə fizika fakültəsinə iki ixtisas-elektronika və kristallofizika ixtisasları üzrə bitirir.

Bir müddət Fizika İnstitutunda işlədikdən sonra mərhum X. Məmmədov Fəxrəddinlə maraqlanaraq, onu EA-nın Qeyri-üzvi və Fizika-kimya İnstitutuna, rəhbərlik etdiyi şöbəyə dəfət edir. Onunla söhbətindən məmnun olan Xudu müəllim, dərhal onu öz yanında elektron şüalarının köməyi ilə kimyəvi birləşmələrin kristalloqrafik strukturlarının öyrənməsini məsləhət görür və təyinatını Fizika institutundan işlədiyi instituta dəyişdirir. O, burada 1974-cü ilin sonuna kimi çalışır.

Fəxrəddinin qeyri-adi düşünmə qabiliyyətini duyan Xudu müəllim onu D. Mendeleyevin kimyəvi elementlərinin dövri cədvəlində Bi, T e və Se elementlərinin yarımkeçirici birləşmələrdə rolu movzusunda əlavə araşdırmalar aparması tapşırığını verir. Kristallokimya baxımından Fəxrəddin müəllimin apardığı araşdırmaların nəticələri 1974-cü ildə EA-nın gənc alimlərinin iştirakı ilə keçirilən konfransda dinlənilir və geniş müzakirəyə səbəb olur. Elmi araşdırmaların nəticəsi kimi 5-ci və 6-cı qrup elementləri üçün mövcud qanunauyğunluqlardan fərqli, yeni təhlillər verilir və nəticələr kristallokimya baxımından tam izah olunurdu. Bu isə yeni bir istiqamətin başlanğıcı demək idi. Əlbəttə, bu Xudu müəllim təfəkkürünün ucalığından xəbər verirdi. Qeyd edək ki, o əlçatmaz ucalıqda nadir bir cizgini Fəxrəddin fəhmi ilə görə bilmişdir.

Görkəmli alim, gözəl insan X. Məmmədovun rəhbərliyi altında işlədiyi dövr F. Quliyev üçün bütöv, sirli olan bir dünyaya pəncərə olur. Bu illərdə o, bir şeyi özü üçün qət edir, yüksək elmi araşdırmaların aparılması üçün alim ilk növbədə zəngin, təmiz daxili aləmə malik olmalıdır.

F. Ə. Quliyev artıq hiss edir ki, molekulyar səviyyədə tədqiqatların aparılması üçün mövcud metodların həssaslığı, onların ayird etmə qabiliyyəti kifayət etmir. O, fikirlərini iki istiqamətdə cəm etdi: böyük həssaslığa malik metodların yaradılması və tədqiqat obyektinin canlı aləm seçilməsi.

Fəxrəddin müəllim, tərəddüd etmədən öz fundamental elmi axtarışlarının gələcək inkişafını fotosintez prosesinin molekulyar mexanizminin öyrənilməsində görür. Bu məqsədlə fotosintetik aparatda piqment sisteminin quruluşu və bu sistemdə udulan Günəş enerjisinin ötürülməsi mexanizminin öyrənilməsi üçün Lazer şüalarının tətbiqi seçilir.

Fəxrəddin müəllimin, bu istiqamət üzrə inkişafında, Azərbaycanda 1960-cı illərdən başlayaraq bu günə kimi böyük elmi potensiala malik molekulyar biologiya, radiobiologiya, genetika, biofizika, biokimya, gen mühəndisliyi, bioloji sistemlərin riyazi modelləşdirilməsi və s. sahələr üzrə elmi məktəbin yaradılmasında yorulmadan böyük əmək sərf edən və gənc kadrların keçmiş ittifaqın qabaqcıl elm mərkəzlərində təhsil almalarında müstəsna rolu olan, akademik Cəlal Əlirza oğlu Əliyevin xidmətlərini xüsusi qeyd etmək lazımdır. Müxtəlif istiqamətlər üzrə onlarca alimin yerləşməsində Cəlal müəllimin əməyi o qədər böyükdür ki, bu əməyin bəhrəsini yalnız əsrlərlə yaşayan bir məbədə bənzətmək olar. Cəlal müəllim, öz elmi fikirlərində elmi-texniki tərəqqinin istiqamətlərini dəqiq müəyyən edən və elmi axtarışlarda əsas nəticələri müxtəlif elmlərin sərhəddində kompleks şəkildə tədqiqində görməyə üstünlük verən ilk alimlərimizdən olmuşdur. O, F. Ə Quliyevi Ukrayna EA-na məqsədli aspiranturaya göndərərək, ona bir alim və bir insan kimi özünün yüksək qayğısını göstərmişdir.

F. Ə. Quliyev, 1975-79-cu illər Kiyev şəhərində Ukr. EA BFİ-də "Biofizika" ixtisası üzrə məqsədli aspiranturada oxumuşdur. O, keçmiş ittifaqda ilk dəfə olaraq spektrin Ultrabənövşəyi hissəsindən başlayaraq yaxın infraqırmızı oblastına qədər geniş bir diapazonu əhatə edən və tənzim olunan tezliklərdə işləyən lazer spektrofluorimetrik qurğusunu yaratdı.

F. Ə. Quliyev 1977-78-ci illərdə Ukr. EA BFİ-nin hər il keçirdiyi konkursda iki il dalbadal laureat adını qazanaraq onun təsis etdiyi birinci dərəcəli diploma layiq görülmüşdür.

O. Kiyevdə işlədiyi institutda böyük nüfuz qazanmışdır. Hətta aspirantura müddəti tamam olanda ona Kiyevdə qalıb işləmək təklif olunsa da, o, 1979-cu ilin sonunda Bakıya qayıdaraq akademik C. Ə. Əliyevin şöbəsində işə qəbul olunur və burada öz işlərini onun rəhbərliyi altında qurmağa daha çox üstünlük verir. 1980-ci ildə "Biofizika" ixtisasf üzrə dissertasiyasını uğurla müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi alır. Fəxrəddin müəllim tənzim olunan tezliklərdə işləyən lazer spektrofluerimetrik qurğusunun yaradılması və tətbiqi sahəsində respublikamızın ilk mütəxəssisi olmuşdur.

Böyük təcrübəyə malik F. Ə. Quliyev, keçmiş SSRI-nin lazer texnikası sahəsində qabaqcıl elm mərkəzləri ilə sıx əlaqə saxlayaraq çox qısa müddətdə EA Fizika İnstitutunun "Bioloji Tədqiqatlar Elm Mərkəzi"ndə Cəlal müəllimin rəhbərliyi və böyük qayğısı sayəsində Lazer spektrofluorimetrik qurğusunu yaradaraq baş elmi işçi vəzifəsində öz tədqiqat işlərini davam etdirir.

F. Ə. Quliyev, dəfələrlə Lazer şüalarının tətbiqinə həsr olunmuş Beynəlxalq, Ümumittifaq konfranslarında və simpoziumlarında iştirak edərək, respublikamızın layiqli təmsilçisi olmuşdur.

1980-ci illərin əvvəllərində bir müddət BDU-da mühazirə və məşğələlər aparmışdır. Bu illərdə laboratoriyada alınan elmi nəticələr yerli televiziya və mətbuatda işıqlandırılmış və o, 1980-ci ildə "Sosializm yarışının qalibi" adına layiq görülmüşdür.

1985-ci ildən "Dənizneftqazlayihə" DETLI-də baş elmi işçi kimi çalışan Fəxrəddin müəllim, korroziyaya qarşı yeni reqlamentin mikrobioloji xassələrinin öyrənilməsi və tətbiqi istiqamətində aparılan işlərdə çalışmışdır. Eyni zamanda, lazer şüalarının spesifik xüsusiyyətlərindən istifadə edərək, onu yeni bir sahədə - mürəkkəb karbohidrogen birləşmələrinə selektiv təsir edərək parçalanmasında axtardı.

1986-cı ilin sonunda bu istiqamətdə tədqiqatların aparılması üçün AMEA RMİ-nin XKV tərəfindən dəvət alan F. Q. Quliyev layihə baş konstruktoru vəzifəsində çalışaraq, laboratoriya şəraitində xam neftin emalı üçün yeni lazer stend qurğusunu yaradır. Mürəkkəb üzvi birləşmələrə selektiv seçici təsir etməklə tərkibin məqsədyönlü parçalanmasına nail olan tədqiqatçı, bütövlükdə yeni bir istiqamətin işlənməsinin əsasını qoyur. Nəticədə, laboratoriya şəraitində ilkin emalsız neftin "emal dərinliyi"nin faizi yüksəlir və alınan neft məhsullarının turşuluğu və kükürdlülüyü son, aşağı həddə olur. Ədəbiyyat araşdırmaları bu istiqamətdə dünya praktikasında işlərin olmamasını göstərdi.

Qeyd edək ki, əgər bu bir tərəfdən lazer şüalarının imkanlarının genişliyindən xəbər verirdisə, digər tərəfdən isə neft emalı sahəsində yeni texnikanın tətbiqində yenilik və şəraitə uyğun texnologiyanın işlənməsini qarşıya qoyurdu.

1980-ci illərdə Lazer texnikasına xüsusi maraq göstərən tətbiq sahələrindən biri də maşınqayırma sənayesində tez sıradan çıxan işlək maşın hissələrinin möhkəmliliyinin artırılması məsələsi idi. Qeyd edək ki, bu texnologiyanın Respublikaya gətirilməsi məqsədilə F.Ə. Quliyev bir neçə dəfə Respublikamızdan kənara müvafiq təşkilatlara ezam olunmuşdur. O cümlədən, keçmiş ittifaq dövründə Moskvada - Lixaçov adına "Zil" zavodunda - SSRİ EA-nın burada fəaliyyət göstərən lazer texnalojı mərkəzinə.



O, 1980-ci illərin sonunda Respublika Lazer cərrahiyyə mərkəzinin əsas Lazer avadanlıqlarının işə salınmasında yaxından iştirak etmişdir.

1992-ci ilin yanvarından yenidən dəniz neft sahəsinə qayıdan F. Ə. Quliyev, bir müddət "Bulla" Dəniz Kəşfiyyat Qazma İdarəsində çalışır və 1992-ci ildən isə daha məsul bir işə cəlb olunur. ARDNŞ-də yeni yaradılan, quru və dəniz neft sahələrini əhatə edən "Əsaslı tikinti üzrə Baş idarə"nin "texniki-istehsalat şöbəsi"nə rəhbərlik edir. İdarəyə neft-qaz tikinti-quraşdırma sahəsində böyük təcrübəsi, yüksək təşkilatçılığı ilə tanınan və bir insan kimi həm kollektiv üzvlərinin və həm də bütün neftçilərin sevimlisi olan, ARDNŞ-nin vitse-prezidenti Əhməd müəllim Zeynalov rəhbərlik edirdi.

O, 1993-cü ildə ilk dəfə olaraq işlənən "Yeni texnika, texnologiya səmərələşdirici təkliflər üzrə "Əsasnamə" müəlliflərindən biri olmaqla onun bəndlərindən irəli gələn tələblərin həyata keçirilməsinə çalışmışdır.

F. Ə. Quliyev, 1994-cü ilin əvvəlindən ARDNŞ-nın Dənizdə NQÇ İB-nin "Texniki İstehsalat şöbəsi"ndə yeni texnikanın yaradılması istiqamətində yerinə yetirilən elmi işlərin əsas aparıcılarından biridir.

Göründüyü kimi, Fəxrəddin müəllimin elmi maraq dairəsi çoxşaxəli, geniş və əhatəlidir. Bu məqsədlə də ona Respublika və onun hüdudundan kənarda elmi-texniki məhsulun yaradılması istiqamətində IB tərəfindən edilən praktik əhəmiyyətli sifarişlərin aparıcılığı etibar edilmişdir.

1990-cı illərin sonlarında EA-nın və DNQÇ IB-nın bir qrup alim və mütəxəssislərinin birlikdə dəniz mühiti üçün işləyib hazırladıqları və "M. Süleymanov" gəmisində quraşdırılaraq, kompüter sisteminə qoşulan "Ekoloji kompleks" qurğusunun yaradılmasında F. Ə. Quliyevin xüsusui rolu olmuşdur. Bu istiqamətdə yerinə yetirilən işlər Beynəlxalq simpoziumlarda (1996, 1997, 1998) dinlənilmişdir. F. Ə. Quliyevin, çap olunmuş və öz nəşrini gözləyən elmi işi kifayət qədərdir.

Fəxrəddin müəllim haqda olan bu qısa qeydlərimiz yalnız onun mürəkkəb ömür yolunun sezə bildiyimiz bir hissəsidir. O, ömrünün məhsuldar bir dövrünü yaşayır və yaradır. O, eyni zamanda nümunəvi ailə başçısıdır. Onun Azərbaycan Neft Akademiyasında təhsil alan iki övladı - Arif və Mehman ailənin layiqli davamçılarıdırlar.

Fəxrəddin müəllimin həyatından bəhs edən bu yazını aşağıdakı sonluqla bitirmək istərdik: "O, əvəzsiz etibar sahibi, etibarlı etimad beşiyi, düzgünlük yolunun etirafçısıdır".



# YATAQLARIN İŞLƏNMƏSİ VƏ İSTİSMARI

*"Kamillik yalnız biliyin dərinliyində, hisslərin zənginliyində deyil, eyni zamanda iradənin qüvvəsindədir".*

*Aristotel.*

Asif Muxtar oğlu Rəsulov 1931-ci il iyulun 5-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1950-ci ildə Azərbaycan Sənaye İnstitutunun neft-mədən fakültəsinə daxil olmuş, 1955-ci ildə İnstitutu bitirmiş, 1955-ci ildən 1962-ci ilə qədər "Buzovnaneft" Neft Mədənlər İdarəsində operator, usta köməkçisi, neftçıxarma ustası, böyük mühəndis və elmi-tədqiqat istehsalat işləri sexində laboratoriya müdiri vəzifəsində çalışmışdır. 1962-1966-cı illərdə Moskva şəhərində Ümumittifaq Təbii Qazlar İnstitutunda aspiranturada oxumuş və böyük elmi işçi vəzifəsində çalışmışdır.

A. M. Rəsulov 1966-cı ildən 1994-cü ilə qədər Ümumittifaq Təbii Qazlar İnstitutunda laboratoriya müdiri, elmi işlər üzrə direktor müavini vəzifəsində işləmişdir. 1994-cü ildən "Dənizneftqazlayihə" Dövlət Elmi-Tədqiqat Layihə İnstitutunda şöbə müdiri vəzifəsində çalışır.

1966-cı ildə "Təbii qazlardan ağır karbohidrogenlərin və benzin fraksiyalarının qısa tsikilli adsorbsiya qurğusu ilə çıxarılması" mövzusunda namizədlik dissertasiyası, 1988-ci ildə isə "Mürəkkəb qazkondensat sistemlərinin mədən şəraitində işlənilməsinin yeni texnoloji proseslərinin yaradılması" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1990-cı ildə "Neft və qaz yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə professor adına layiq görülmüşdür.

Professor A. M. Rəsulovun elmi istiqaməti təbii və səmt qazlarının ayrılması, onlardan ağır karbohidrogenlərin çıxarılması, təbii qazların qurudulması və nəqlə hazırlanması sahəsində olmuşdur. O, uzun illər təbii qazların ayrılması, benzinsizləşdirilməsi, qurudulması və nəqlə hazırlanması sahəsində geniş masştablı elmi-tədqiqat işləri aparmışdır. Bu istiqamətdə aparılan işlərə - çoxkomponentli maye sistemlərinin birlikdə həll olmasının nəzəri əsaslarının öyrənilməsi, nəql olunan karbohidrogen qazlarının termodinamiki parametrlərindən və neftqazçıxarma rayonlarının klimatik şəraitindən asılı olaraq, təbii qazların nəqlə hazırlanmasının optimal variantlarının seçilməsi və s. elmi-tədqiqat işləri daxildir. Bununla əlaqədar olaraq ağır karbohidrogenlərin metanol su və mineral duzların müxtəlif şəraitlərdə faza vəziyyətləri öyrənilib araşdırılmışdır.

Çox komponentli sistemlərin faza dəyişikliklərinin öyrənilməsi sahəsində aparılan geniş masştablı fundamental elmi-tədqiqat işlərinin nəticəsi, həllolma sisteminin öyrənilməsi və karbohidrogen maye və qazlarının ayrılması sahəsində yeni texnoloji proseslərin yaradılmasına və təkmilləşdirilməsinə imkan verir.

A. M. Rəsulov tərəfindən təbii qazların çıxarılması və nəqli sistemində hidrat ingibitoru kimi geniş masştabda istifadə olunan metil spirtinin (metanolun) karbohidrogen-qaz-kondensatı-lay suyu sistemində müxtəlif termodinamiki şəraitlərdə həll olması ətraflı öyrənilmiş və bunun əsasında neftqaz sənayesi sistemində ilk dəfə olaraq metanolun regenerasiya qurğusu hazırlanıb sənaye miqyasında həyata keçirilmişdir.

Bu tip qurğular "Norilskqazprom"un - "Messoyax" qaz yatağında və "Komiqazprom"un "Vuktıl" qazkondensat yatağında tətbiq edilib ki, bu da metanol itkisinin qarşısının alınmasına və külli miqdarda iqtisadi səmərənin əldə olunmasına imkan vermişdir. Bu istiqamətdə aparılan elmi-tədqiqat işləri geniş masştabda təkmilləşdirilərək 1980-ci ildə "Orenburqqazprom"un qazkondensat yatağında metanolun regenerasiyasının iki pilləli texnoloji qurğusu yaradılıb sınaqdan keçirilmişdir. Geniş masştabda aparılan və yüksək iqtisadi səmərəyə malik olan bu işlərin nəticəsi 1978-ci ildə Sov.İKP MK, SSRİ Nazirlər Soveti, Həmkarlar İttifaqı və Ümumittifaq komsomolunun Keçici Qırmızı Bayrağı ilə təltif olunmuşdur.

A. M. Rəsulovun yaxından iştirakı ilə patent səviyyəsində yaradılmış yeni hidrat ingibitoru (izopropil spirti) və qazquruducusu (propilenqlikol) ekoloji və iqtisadi cəhətdən tam sərfəli olub, xaricdən alınan ingibitorları tamamilə əvəz edir.

Bu reagentlər 1995-ci ildən dənizdə neftqazçıxarma idarələrinin mədənlərində geniş masştabda istifadə edilərək, təbii qazların qurudulması və nəqlə hazırlanmasını təmin edir ki, bu da texnoloji qurğuların və qaz kəmərlərinin normal işləməsini təmin edir.

Professor A. M. Rəsulovun son illər apardığı elmi-tədqiqat işləri dənizdə neft və qazçıxarmanın texnika və texnologiyasının təkmilləşdirilməsi, neftin və qazın yığılması, hazırlanması və nəqli sahəsinə yönəldilmişdir.

O, elmi-tədqiqat işlərini aparmaqla yanaşı, pedaqoji işdə də fəaliyyət göstərir. 1990-cı ildən Azərbaycan neft Akademiyasının professorudur və 1996-cı ildən neft-mədən fakültəsində Dövlət imtahan komissiyasının sədri və magistr buraxılışı üzrə Dövlət komissiyasının üzvüdür.

A. M. Rəsulovun apardığı elmi-tədqiqat işlərinin nəticələri 210 elmi əsərdə, o cümlədən 16 kitabçada və 48 müəllifik şəhadətnaməsi və patentlərdə öz əksini tapmışdır. Onun rəhbərliyi ilə 8 elmlər namizədi hazırlanmışdır.

O, Dənizneftqazlayihə ETLİ-nun elmi Şurasının üzvü, Azərbaycan Dövlət Neft Akademiyasında İxtisaslaşdırılmış Elmi Şuranın və Azərbaycan Respublikasının Elm və Texnika Komitəsində yanacaq-enerji problemləri üzrə Şuranın üzvüdür.

Asif Rəsulov Bolqarıstan, Rusiya, Ukrayna, Belorusiya, Moldova, Özbəkistan, Gürcüstan, Türkmənistan, Latviya və s. ölkələrdə keçirilən bir sıra simpozium və Beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir.

Professor A. M. Rəsulov elmi-istehsalat sahəsindəki əməyinə görə "Şərəf nişanı" ordeni və bir çox medallarla təltif olunmuşdur. O, Qərbi Sibir neft-qaz yataqlarının işlənilməsinə görə iki dəfə Akademik İ. M. Qubkın adına elmi-texniki cəmiyyətin təsis etdiyi diploma layiq görülmüşdür

A. M. Rəsulov SSRİ Qaz Sənayesi Nazirliyinin "Fəxri işçisi" diplomuna və Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin üç medalına layiq görülmüşdür.



# NEFT EMALI SƏNAYESİNİN İNKİŞAFINDA GƏRGİN ƏMƏK



*"Müdriklik sonsuzdur - onda nə qədər uzağa getsən, bir o qədər sənə lazım olur".*

*L. N. Tolstoy.*

Fərudin İsgəndər oğlu Zeynalov 1927-ci il aprelin 9-da Gəncə şəhərində doğulmuşdur. O, 1945-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) texnologiya fakültəsinə qəbul olmuşdur.

1950-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasını (ADNA) bitirdikdən sonra, "Azərneftyağ" İB-ə təyinat almış, sonradan "Azərneftyanacaq" İB-nə köçürülmüş və burada böyük operator, növbə mühəndisi, qurğu rəisi, sexin böyük mühəndisi texniki şöbənin rəisi - baş texnoloq, istehsalat şöbəsinin rəisi - baş mühəndisin müavini vəzifələrində işləmişdir.

1961-1979-cu illərdə o, Yeni Bakı Neft Emalı zavodunda (indiki "Azərneftyanacaq" İB) baş mühəndis və on üç il müddətində (1966:1979-cu illər DIREKTOR vəzifələrində çalışmışdır.

1972-ci ildə AEA Neft-Kimya Prosesləri İnstitutunda "Alümosilika katalizatoru ilə sənaye katalitik krekinq prosesinin intensivləşdirilməsinin tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1979-1981-ci illərdə ADNA-nın "Neft və qazın texnologiyası" kafedrasında baş müəllim vəzifəsində çalışmışdır.

ADNA-da işlədiyi müddətdə onun tərəfindən "Yüksək keyfiyyətli benzin, yavaşıdılmış kokslaşdırma ilə yüksək aromatikləşmiş katalitik qazoylxammal almaq və seçmənin dərinliyini artırmaq məqsədilə katalitik krekinq qurğusunun ayrı-ayrı qovşaqlarının yenidən qurulmasının təkmilləşdirilməsi" mövzusunda təsərrüfat-büdcə işi yerinə yetirilmişdir.

Neft Akademiyasında işlədiyi müddətdə F. Zeynalov özünü sözünün üstündə duran, intizamlı əməkdaş kimi tanıtmış, kafedra kollektivinin hörmətini qazanmışdı

1981-1992-ci illərdə o, akademik Ə. Quliyev adına Aşqarlar Kimyası İnstitutunda texniki şöbənin müdiri, laboratoriya müdiri vəzifələrində çalışmışdır.

O, 1992-ci ildən AMEA AKI-nin aşqarların texnologiyası laboratoriyasında aparıcı elmi işçi vəzifəsində işləyir.

F. Zeynalov Respublikanın neft emalı sənayesinin yaradılması və inkişafına böyük əmək sərf etmişdir.

1960-cı ildə o, Rumıniyada tozşəkilli alümosilikat katalizatorundan istifadə etməkdə vakuum destillyatından yüksək oktan ədədli benzin almaq məqsədilə katalitik krekinq qurğusunun işə buraxılması və mənimsənilməsində iştirak edən sovet mütəxəssisləri qrupuna rəhbərlik etmişdır.

F. Zeynalov Almaniya Demokratık Respublikası və Yuqoslaviyada uyğun neft emalı sahələrinə texniki köməklik göstərmişdir.

Neft sahəsində işlədiyi müddətdə Dövlət onun respublika neft emalı sənayesinin inkişafındakı xidmətlərini yüksək qiymətləndirib. O, "Qırmızı əmək bayrağı", "Şərəf nişanı" ordenləri, çox sayda medallarla mükafatlandırılıb, Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Azərbaycan Respublikasının Əməkdar ixtiraçısı" fəxri adına layiq görülüb Yüksək əmək göstəricilərinə nail olduğuna görə Azərbaycan Respublikası Ali Sovetinin bir neçə fəxri fərmanı ilə mükafatlandırılıb. O, dəfələrlə şəhər və rayon Sovetinin deputatı olmuş, AHİŞ Rəyasət heyətinə və dəfələrlə Azərbaycan KP BK-ya üzv seçilmişdir.

F. Zeynalov Azərbaycan KP XXIX və Sov.İKP XXV qurultaylarına nümayəndə seçilib.

F. Zeynalovun işlədiyi (1951-ci ildən 1979-cu ilədək müddətdə) Yeni Bakı Neft emalı zavoduna dəfələrlə hökumət mükafatları verilmişdir.

1967-ci ildə YBNEZ yüksək istehsalat göstəricilərinə görə Sov.İKP MK-nın, Sovet İttifaqı Nazirlər Sovetinin, Sovet İttifaqı Ali Sovetinin və ÜİHİŞ-nin zavodda həmişəlik saxlanmaq şərti ilə Xatirə "Yubiley Qırmızı Bayrağı" almışdır.

1970-ci ildə YBNEZ yüksək istehsalat göstəricilərinə görə Sov.İKP MK-nın, Sovet İttifaqı Nazirlər Sovetinin, Sovet İttifaqı Ali Sovetinin və UYHİŞ-nin "Şərəf Nişanı" ilə mükafatlandırılmışdır.

IX beşillikdə əldə olunan yüksək göstəricilərə görə YBNEZ "Oktyabr İnqilabı" ordeni ilə mükafatlandırılıb və ordeni zavoda o dövrdə Azərbaycan KP MK-nın birinci katibi olan H. Əliyev təqdim edib.

F. Zeynalov 52 illik əmək və elmi fəaliyyəti dövründə yalnız "yeni bakılılar" kollektivində deyil, neft emalı ilə məşğul olan öz həmkarları arasında da böyük nüfuz və hörmət qazanmışdır.



O, özünü texnoloji proseslərin mükəmməlləşdirilməsi məsələlərinin həlli ilə bağlı mürəkkəb istehsalat məsələlərini həll etməyi bacaran, təşəbbüskar, savadlı mühəndis kimi göstərmişdir. Neft emalı sənayesinin texniki potensialının istifadə edilməsində onun şəxsi töhfəsi böyükdür. Təkcə onun işləyib hazırladığı 100-dən artıq ixtira və səmərələşdirici təklifin istehsalata tətbiqi nəticəsində neft emalı müəssisələri milyon manatlarla qənaət əldə etmişdir.

F. Zeynalovun fəal yaradıcı iştirakı ilə "Azərneftyanacaq" İB-də təsərrüfat müqaviləsi ilə bir neçə elmi-tədqiqat işləri aparılmışdır

Onun fəal yaradıcı fəaliyyəti hökumət tərəfindən yüksək qiymətləndirilib. O, respublikada "Azərbaycan SSR-ın Əməkdar səmərələşdiricisi" adına ilk layiq görülənlərdən biridir.

F Zeynalov dəfələrlə D. İ. Mendeleyev adına ümumittifaq Kimyaçılar Cəmiyyətinin diplomları ilə mükafatlandırılıb.

Yeni müasir qurğuların yaradılması və mənimsənilməsindəki yüksək göstəricilərə görə o, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin qızıl və bürünc medalları ilə təltif olunub.

1981-ci ildən bəri AMEA Aşqarlar Kimyası İnstitutunda çalışan F. Zeynalov özünü elmi fəaliyyətində istifadə etdiyi böyük praktiki təcrübəni dərin nəzəri biliklərlə bacarıqla uzlaşdıran yüksək ixtisaslı mütəxəssis kimi tanıtmışdır.

Texniki şöbənin müdiri, laboratoriya müdiri, aparıcı elmi işçi vəzifələrində çalışan F. Zeynalov bir sıra elmi-tədqiqat işləri, İXP-388, SB-3, S-75, S-150, İXP-101, BFKu, Depressator AZ.NİI aşqarlarının texnologiyasının mükəmməlləşdirilməsi və aşqarların istehsalında əmələ gələn tullantılardan istifadə edilməsi üzrə ekoloji tədqiqatlar, təsərrüfat müqavilələri üzrə işləri yerinə yetirmiş, digər laboratoriyalarla birlikdə aşqarlar istehsalının bir sıra proseslərinin layihələşdirilməsinin texnoloji reqlamentlərinin tərtibində iştirak etmişdir.

Hal-hazırda onun tərəfindən alkilfenol tipli İXP-114, sulfonat tipli S-75 aşqarlarının istehsalında mütərəqqi fasiləsiz texnoloji proseslərin və yeni aparatların işlənib hazırlanması, aşqarlar istehsalının fasiləsiz proseslərinin çoxseksiyalı texnoloji aparatlardan istifadə etməklə riyazi modelləşdirilməsi və optimallaşdırılması üzrə tədqiqatlar aparılır.

Elmi-istehsalat fəaliyyəti dövründə onun tərəfindən 3 monoqrafiya və 89 elmi məqalə çap etdirilmişdir. O, 25 müəlliflik şəhadətnaməsi alınmışdır.



# MƏSULİYYƏT TƏLƏB EDƏN İŞ SAHƏSİNDƏ

*"Bu günü daha yaxşı görmək üçün keçmişi bilməliyik".*
*Ö. Xəyyam.*

Məmmədov Məhərrəm Nəbi oğlu 1952-ci ildə Qərbi Azərbaycanda anadan olmuşdur. 1987-ci ildə Azərbaycan Mühəndis-İnşaat İnstitutunu bitirmiş, mühəndis-hidrotexnik ixtisası almışdır. 1969-cu ildən əmək fəaliyyətinə bailamışdır. O, müxtəlif iş sahələrində işlədikdən sonra, 1979-1983-cü illərdə Zaqafqaziya Magistral Neft Kəmərləri İdarəsinin Dübəndi Neft Boşaltma Bazası kimi strateji cəhətdən mühüm bir obyektdə çalışmışdır.

O vaxtlar DNBB-nın yenidən qurulmasında fəal iştirak etmiş və boru kəmərlərinin ahəngdar işini və texnoloji proseslərin təkmilləşdirilməsini təmin etmək üçün təmir və tikinti-quraşdırma işlərinə rəhbərlik etmişdir. Qısa müddətdə gördüyü işlərlə özünü bacarıqlı mütəxəssis kimi tanıdan M. Məmmədov Zaqafqaziya Magistral Neft Kəmərləri İstehsalat Birliyinin (indiki MNK İB) rəhbərliyi tərəfindən 1983-cü ildə Təmir-tikinti idarəsinə baş mühəndis vəzifəsinə təyin edilmişdir. Həmin illərdə tikintisi çoxdan başlamış, ancaq başa çatdırılmamış Suraxanı neftvurma stansiyasının (NVS), Binəqədi NVS-nin və başqa obyektlərin tikintisini qısa müddətdə başa çatdırıb istismara vermişdir. bununla yanaşı, MNK İB üzrə istismarda olan ümumi uzunluğu 700 km-dən yuxarı müxtəlif diametrli boruların (hər il orta hesabla 25-30 km) təmiri ilə məşğul olmuşdur.

M. Məmmədov 1992-ci ildən Magistral Neft Kəmərləri İstehsalat Birliyinin Təmir-tikinti İdarəsində çalışır. 1997-ci ci ildə bilavasitə onun rəhbərliyi altında ARDNŞ üçün Sumqayıtda NVS-nin tikinti işlərinin birinci mərhələsini, 2000-ci ildə isə Azərbaycan və tranzit neftlərin nəqli ilə əlaqədar



Sumqayıt NVS-nin buraxma qabiliyyətinin artırılması üzrə tikintini (II mərhələ) yüksək keyfiyyətlə başa çatdırıb təhvil verilmişdir.

Məhərrəm Məmmədov neft sənayemizin dünənini öyrənməyə, yaxşı təcrübəni əxz etməyə çalışır. Qazanılan təcrübəni bugünkü fəaliyyətində tətbiq edir.

Qeyd etməliyik ki, Məhərrəm Məmmədov hər hansı bir çətinliklə qarşılaşarkən dərhal çıxış yolu tapa bilir, işləri öz məcrasına yönəldir. Beləliklə də, çalışdığı sahədə uğurlar qazanmağa nail olur.

ÜÇÜNCÜ BÖLMƏ

# HƏYATDA İZİ QALANLAR

ONLAR XALQIMIZIN SƏADƏTİ UĞRUNDA FƏDAKARLIQ GÖSTƏRMİŞLƏR

## BAĞIROV GÜLHÜSEYN AĞAHÜSEYN OĞLU (1942-2000)



Neft sənayesinin yüksək ixtisaslı mütəxəssislərindən biri - Azərbaycan Dövlət Neft Şirkətinin "MAKDOK" müştərək müəssisəsinin baş direktoru Gülhüseyn Ağahüseyn oğlu Bağırov 2000-ci il iyul ayının 23-də vaxtsız vəfat etmişdir.

Gülhüseyn Ağahüseyn oğlu Bağırov 1942-ci il fevral ayının 16-da Bakı şəhərində anadan olmuşdur.

Əmək fəaliyyətinə 1960-cı ildə Abşeron Meşə təsərrüfatında başlamış, sonradan Paris kommunası adına gəmi təmiri zavodunda çilingər, texnik-konstruktor, mühəndis-konstruktor, usta vəzifələrində işləmiş və 1965-ci ildə istehsalatdan ayrılmadan Odessa Dəniz Donanma Mühəndisləri İnstitutunu mühəndis-mexanik ixtisası üzrə bitirmişdir.

1965-1966-cı illərdə ordu sıralarında xidmət etmişdir.

1967-1973-cü illərdə həmin zavodda yenidən usta, iş icraçısı, istehsalat şöbəsinin rəisinin müavini, baş iş icraçısı vəzifələrində işləmişdir.

1974-1976-cı illərdə Bakı mebel kombinatında direktorun müavini, 1976-cı ildən "Xəzərdənizneftdonanma" idarəsinin Gəmi təmiri zavodunda istehsalat şöbəsinin rəisi, baş mühəndisin müavini vəzifələrində işləmişdir.

1979-1983-cü illərdə G. A. Bağırov "Xəzərdənizneftdonanma" idarəsinin baş mühəndisi vəzifəsinə təyin olunmuş və 1983-cü ilə qədər bu vəzifədə işləmişdir.

1983-1986-cı illərdə G. A. Bağırov Gəmi təmiri zavodunun direktoru, 1988-1989-cu illərdə "Xəzərdənizneftqaz" İB-nin Dəniz nəqliyyatı şöbəsi-

nin rəisi, 1989-1994-cü illərdə "Xəzərdənizneftdonanma" idarəsinin baş mühəndisi vəzifələrində işləmişdir.

1994-cü ildə yeni yaranmış "MAKDOK" müştərək müəssisəsinin baş direktoru vəzifəsinə təyin olunmuş və ömrünün axırına qədər bu vəzifədə çalışmışdır.

Bütün yuxarıda göstərilən vəzifələrdə işləyərkən G. A. Bağırov özünü yüksək ixtisaslı bir mütəxəssis, işgüzar, tələbkar, istehsalatın təşkilatçısı, rəhbər işçi kimi göstərmişdir.

G. A. Bağırov Gəmi təmiri zavodunun direktoru, "Xəzərdənizneftdonanma" idarəsinin baş mühəndisi vəzifələrində işləyərkən, onun gəmilərin təmirində, yeni texnika və texnologiyanın tətbiqində, sahil obyektlərinin istismara verilməsində xüsusi xidmətləri olmuşdur.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsində onun rəhbərlik etdiyi "MAKDOK" müştərək müəssisəsinin səmərəli fəaliyyəti olmuşdur.

G. A. Bağırov Donanmanın ixtisaslı mütəxəssislərlə təmin olunmasında fəal iştirak etmiş, gənc mütəxəssislərə qayğı ilə yanaşmış, onlara yaxından köməklik göstərmişdir.

G. A. Bağırov ARDNŞ-nin və DNQÇ İB-nin rəhbərliyinin tapşırığı ilə bir neçə dəfə MDB respublikalarında, Polşada, Finlandiyada, Yuqoslaviyada ezamiyyətdə olmuş, verilən tapşırıqları ləyaqətlə yerinə yetirmişdir.

Bacarıqlı təşkilatçı, bütün həyatını Neft Donanmasının inkişafına həsr etmiş yüksək ixtisaslı mütəxəssis Gülhüseyn Ağahüseyn oğlu Bağırovun əziz xatirəsi Azərbaycan neftçilərinin qəlbində daim yaşayacaqdır.



## BƏKİROV TELMAN MUXTAR OĞLU (1941-2001)



T. M. Bəkirov 1941-ci il mart ayının 28-də Qazax şəhərində qulluqçu ailəsində anadan olmuşdur. O, Qazaxdakı 1 saylı orta məktəbi bitirmiş, elə həmin ildə Azərbaycan Neft və Kimya İnstitutunun kimya-texnologiya fakültəsinə qəbul olunmuşdur. İnstitutu bitirdikdən sonra T. M. Bəkirov 1965-1968-ci illərdə gənc mütəxəssis kimi Sumqayıtın kimya müəssisələrində mühəndis işləmiş, bu illər ərzində o, elmi axtarışlara xüsusi maraq göstərmişdir. Bu arzu ilə də gənc mütəxəssis Ümumittifaq Elmi-tədqiqat Qaz İnstitutunun Azərbaycan filialına (1968-1969) gəlmişdir. 1970-ci ildə böyük ümid verən kimyaçı-texnoloq T. M. Bəkirov Moskvada Ümumittifaq Elmi-tədqiqat Qaz İnstitutunun aspiranturasına qəbul olunmuş, 1972-ci ilin sonunda uğurla dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. Elə oradaca - Moskvada institutun rəhbərliyi T. M. Bəkirovun potensial imkanlarını nəzərə alaraq onu institutda saxlamağı qərara alır. Beləliklə, həmyerlimiz orada ömrünün axırına qədər elmi-praktik axtarışlar aparmışdır. Onun elmi axtarışlarının nəticələri Urenqoy, Yamburq və başqa neft mədənlərində tətbiq olunmuşdur. O, təbii qazın və neft qazının ilkin emalı üzrə texniki problemləri uğurla həll edə bilmişdir.

T. M. Bəkirov xidməti ezamiyyətlərdə olarkən Rusiya Federasiyasının, Ukraynanın, Türkmənistanın, Qazaxıstanın və başqa respublikaların neft-qaz yataqlarında qarşıya çıxan hər hansı bir problemin, çətinliyin həll edilməsində gərgin əmək sərf etmişdir.

T. M. Bəkirov 1991-ci ildə təbii qazın ilkin emalına həsr edilmiş doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş, bu barədə bir sıra qiymətli monoqrafiyaları nəşr edilmişdir. Ümumiyyətlə, T. M. Bəkirov 190-

dan çox elmi nəşrin və 20 ixtiranın müəllifi idi. Keçmiş İttifaqın müxtəlif regionlarından mütəxəssislər Moskvaya gələrək qazın çıxarılması və emalı barədə Telman müəllimdən məsləhətlər alırdılar.

Beynəlxalq miqyasda tanınan T. M. Bəkirov xarici alimlərlə və mütəxəssislərlə sıx əlaqə saxlayırdı. Onun elmi əsərləri xarici ölkələrdə, o cümlədən ABŞ-da nəşr edilirdi. O, beynəlxalq simpozium və konfranslarda (ABŞ, Fransa və s.) dəyərli məruzələrlə çıxış edirdi. Texnika elmləri doktoru T. M. Bəkirov bir çox elmi şuraların, elmi-texniki cəmiyyətlərin üzvü idi. 1997-ci ildə o, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdi, onun adı A. Hüseynovun "XX əsr Azərbaycanın 100 görkəmli şəxsiyyəti" kitabına daxil edilmişdir.

Amansız ölüm görkəmli elm adamı T. M. Bəkirovu vaxtsız yaxaladı. 2001-ci ilin yanvar ayında onun qəlbi döyünməkdən qaldı.

Mərhumun cənazəsini Moskvadan doğma Vətənə yola saldılar. Hava limanına toplaşan Azərbaycan diasporunun nümayəndələri, alimin çalışdığı institutun əməkdaşları böyük elm xadimi gözəl insan T. M. Bəkirovu böyük təəssüflə yola saldılar. Uzun illər Moskvada yaşayan həmyerlimizin əziz xatirəsi həmişə qəlbimizdə yaşayacaqdır.



## CƏLİLOV QURBAN NİZAMƏDDİN OĞLU (1927-2000)



Q. N. Cəlilov 1927-ci ildə Şəki şəhərində anadan olmuşdur. 1934-cü ildə Şəki şəhərində orta məktəbə daxil olmuş və onu gümüş medalla bitirmişdir.

1945-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuş və 1950-ci ildə oranı müvəffəqiyyətlə bitirərək riyaziyyatçı ixtisası almışdır. Həmin il o, Azərbaycan EA fizika və riyaziyyat institutu nəzdində aspiranturaya daxil olmuşdur.

Q. N. Cəlilov 1954-cü ildə namizədlik dissertasiyası müdafiə etmiş və fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

1953-cü ildən 1961-ci ilədək əvvəlcə Azərbaycan SSR EA Neft ekspedisiyasında kiçik və baş elmi işçi, daha sonra Azərbaycan Elmi Tədqiqat Neftçıxarma İnstitutunda baş elmi işçi vəzifələrində çalışmışdır. 1961-ci ildən ömrünün sonunadək Azərbaycan EA Dərin neft və qaz yataqları problemləri institutunun (DNQYPİ) yeraltı hidrodinamika şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

1962-ci ildə texnika elmləri doktoru alimlik dərəcəsi almaq üçün "Neft konturunun" hərəkəti, quyuların sulaşması və süzülmənin fəza məsələləri" mövzusunda dissertasiya müdafiə etmişdir. 1966-cı ildə professor adı almışdır. 1972-ci ildə "Neft, qaz və kondensat yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə Azərbaycan EA-nın müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir. 1974-cü ildən 1988-ci ilə qədər DNQYP institutunda elmi işlər üzrə direktor müavini işləmişdir. 1980-ci ildən isə Azərbaycan EA Yer haqqında elmlər bölməsinin akademik katibinin müavini vəzifəsini icra etmişdir.

Q. N. Cəlilovun tədqiqatları yüksək elmi səviyyəsi ilə seçilir və neft-qaz yataqlarının işlənməsinin nəzəriyyə və təcrübəsi üçün sanballı töhfədir.

Q. N. Cəlilov 200-dən çox elmi əsərin, 4 monoqrafiyanın və iki müəlliflik şəhadətnaməsinin müəllifidir. O, yüksək səviyyəli elmi kadrların hazırlanması sahəsində böyük iş aparmışdır. Onun rəhbərliyi altında 3 elmlər doktoru və 25 elmlər namizədi hazırlanmışdır

O Azərbaycandakı Neft Daşları, Palçıq pılpıləsı, Qaradag, Cənub, Darvin hövzəsi, Hövsan, Duvannı yataqlarının işlənməsi layihələrinin texnologiya hissəsinin rəhbəri olmuşdur.

Yeraltı hidroqazodinamikanın müxtəlif məsələləri üzrə Moskva, Kazan, Bakı və s. şəhərlərdə keçirilən qurultay, konfrans və digər toplantılarda məruzələrlə çıxış etmişdir.

Q. N. Cəlilovun elmi işi pedaqoji fəaliyyəti ilə müvəffəqiyyətlə uzlaşırdı. O, elmi bilik və təcrübəsini gənc nəslə çox böyük həvəslə öyrədən gözəl alim idi Politexnik institutunda (indiki Texniki Universitetdə) hidravlikadan, Bakı Dövlət Universitetində yeraltı maye və qaz dinamikasından, "Təfəkkür" özəl universitetində maye və qazların mexanikasından mühazirələr oxuyurdu.

Q. N. Cəlilov keçmiş SSRİ EA-da neft-qaz yataqlarının işlənməsi üzrə elmi şuranın, Azərbaycan Neft ensiklopediyasının redaksiya heyətinin, DNQYP institutunda və Azərbaycan Dövlət Neft Akademiyasında İxtisaslaşdırılmış Elmi şuraların, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Neft, qaz, kondensat yataqlarının işlənməsi" üzrə mərkəzi komissiyasının və geoloji elmi-texniki bölməsinin üzvü olmuşdur.

Onun çoxillik və məhsuldar fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, "Xalqlar Dostluğu" ordeni, "Şərəfli əməyə görə", "V. İ. Leninin 100 illiyi" medalları ilə təltif edilmiş, Azərbaycan SSR Ali Sovetinin və Azərbaycan EA Rəyasət heyətinin fəxri fərmanları və "Neft sənayesi əlaçısı" nişanı ilə təltif edilmişdir.

Q. N. Cəlilovun apardığı elmi-tədqiqat işləri SSRİ Neft-Qaz Sənayesi Elmi Texniki Cəmiyyətinin İ. M. Qubkin adına mükafatına layiq görülmüşdür.

Görkəmli alim, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, texniki elmlər doktoru, professor Qurban Nizaməddin oğlu Cəlilov 2000-ci il oktyabrın 1-də qəflətən dünyasını dəyişmişdir.



## CƏRULLAYEV ŞAHMƏRDAN ƏLİŞ OĞLU (1933-2001)



Şahmərdan Əliş oğlu Cərullayev 1933-cü ildə Zərdab rayonunun Nəzərlı kəndində kolxozçu ailəsində anadan olmuşdur. Natamam orta məktəbi kənddə bitirdikdən sonra tam orta təhsilini Zərdab rayonunda M. Qorki adına məktəbdə almışdır. 1951-1952-ci tədris ilində M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil olub, oranı 1956-cı ildə bitirdikdən sonra "Gürganneft" istehsalat idarəsinə işləməyə göndərilmişdir. İşlədiyi dövrdə operatorluqdan tədqiqat üzrə mühəndis, tədqiqat laboratoriyasının rəisi vəzifəsinə qədər yüksəlmişdir.

1969-cu ildə N. Nərimanov adına NQÇİ-nin elmi-tədqiqat istehsalat işləri sexində işlənmə şöbəsinin rəisi, sexin rəis müavini - baş geoloq vəzifələrində çalışmışdır.

Şahmərdan müəllim yuxarıda adları çəkilən NQÇİ-lərdə neft-qaz yataqlarının işlənməsində böyük təcrübə toplamışdır. Onun rəhbərliyi altında işlənmədə olan "Neft Daşları" və "Səngəçal-dəniz" - "Duvannı-dəniz" - "Bulla adası" yataqlarının müxtəlif horizontlarında işlənmə ilə əlaqədar olaraq böyük elmi-tədqiqat işləri aparılmışdır.

1973-cü ildən istehsalatda göstərdiyi elmi fəaliyyətini daha səmərəli davam etdirmək üçün Elmlər Akademiyasının Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda elmi işə başlamışdır.

1975-ci ilə kimi topladığı və apardığı elmi işlərin nəticəsi olaraq "Müxtəlif təbii amilləri nəzərə almaqla lay parametrlərinin təyin edilməsinin bəzi üsulları" mövzusunda dissertasiya müdafiə edərək, texnika elmləri namizədi adına layiq görülmüşdür.

1977-1980-ci illərdə Əlcəzair Xalq Demokratik Respublikasının Neft Nazirliyində ekspert kimi fəaliyyət göstərmişdir. 1988-ci ildə ona böyük elmi işçi rütbəsi verilmişdir. 1994-cü ildən İB-nin KDQKİ-nin Dəniz Neft və

Qaz Yataqlarının İşlənməsinə Nəzarət Ekspedisiyasının dənizdə lay və quyuların hidrodinamiki tədqiqatı şöbəsinin rəisi vəzifəsində işləmişdir.

2001-ci ildə "28 May" NQÇİ-nin ETIIS-də geologiya üzrə texniki rəhbər, neft-qaz yataqlarının geologiyası işlərinə və tədqiqata nəzarət şöbəsinin rəis müavini işləmişdir.

Ş. Ə. Cərullayev 65 elmi məqalənin, 2 ixtiranın və 15 səmərələşdirici təklifin müəllifidir. Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində dəfələrlə iştirak etmiş, gümüş və bürünc medallarla təltif edilmişdir. Şahmərdan müəllim işlənmədə və yeni açılmış neft-qaz, qaz-kondensat yataqlarında aparılan tədqiqat işlərində yeni üsullar tətbiq etməyə nail olmuşdur. Neftçi-geoloq Şahmərdan Əliş oğlu Cərullayev ömrünün 68-ci ilində vəfat etmişdir. Ş. Cərullayevin əziz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq.



# ƏHMƏDOV ƏHMƏD MAHMUD OĞLU (1910-1988)



Əhmədov Əhməd Mahmud oğlu 1910-cu ildə Zərdab şəhərində anadan olmuşdur. Valideynlərini vaxtsız itirdiyindən Bakıdakı 2 saylı uşaq kommunasında tərbiyə və təhsil almışdır. Dəmirçi və dülgərlik ixtisasına yiyələnməklə yanaşı, Bakı pedaqoji məktəbində də oxumuşdur. 1929-cu ildə M. Əzizbəyov adına Bakı Sənaye İnstitutuna daxil olan Ə. M. Əhmədov yay tətillərində Şimali Osetiyada, Dağıstanda və Azərbaycanın bir çox bölgələrində geoloji səfərlərdə olmuş, əməli təcrübə qazanmışdır. İnstitutu bitirdikdən sonra onu təyinatla "Azərneftkəşfiyyat" trestinin sərəncamına göndərmişlər. Dağ mühəndisi-geoloq ixtisası ilə o, trestdə geoloji dəstə rəisinin köməkçisi, geoloq, dərin kəşfiyyat qazma qrupunda böyük geoloq işləmişdir.

1937-ci ildə "Azərneft" birliyinin "Ələtneft" trestinə keçirilən Əhməd müəllim Neftçala üzrə böyük geoloq kimi fəaliyyət göstərməyə başlamışdır 1940-cı ildən isə yeni təşkil edilmiş Neftçalaneft trestinə baş geoloq təyin olunmuşdur. Doqquz il bu vəzifədə çalışan Ə. Əhmədov 1949-cu ildə Azərneft birliyində baş geoloqun müavini olmuş, sonralar uzun müddət bu birliyin, birlik neft sənayesi nazirliyinə çevrilərkən isə nazirliyin baş geoloqu kimi fəaliyyət göstərmişdir.

1977-ci ildə fərdi təqaüdə çıxsa da, Əhməd müəllim Azərneft istehsalat birliyində işləməkdə davam edirdi. Onun təcrübəsi və biliyi çoxlarına gərək idi. Respublikamızda bir çox yeni neft yataqlarının, o cümlədən Neft Daşları, Kürovdağ, Müşovdağ, Gürsəngi, Qarabağlı və digər yataqların aşkar edilməsi və mənimsənilməsi Əhməd Əhmədovun adı ilə bağlıdır. Onun neft və qaz yataqlarının kəşfiyyatı ilə bağlı 60-dan çox işi nəşr olunmuşdur. Əməyi Lenin ordeni, üç Qırmızı Əmək Bayrağı, iki "Şərəf Nişanı" ordeni, çoxlu medal və fəxri fərmanlarla qiymətləndirilmiş Ə. Əhmədov Azərbaycan KP XXVI, XXVII qurultaylarının nümayəndəsi olmuş, keçmiş Azərbaycan SSR Ali Sovetinə dəfələrlə deputat seçilmişdir.

Ə. Əhmədov 1988-ci il avqustun 30-da dünyasını dəyişmişdir. Məzarı Bakı şəhərindədir.



# ƏMİROV QARAŞ İBRAHİM OĞLU (1926-1973)

Əmirov Qaraş İbrahim oğlu 1926-cı ildə Zəngılan rayonunun Tatar kəndində yoxsul kəndlı ailəsində anadan olmuşdur.

1944-cü ildə hökumətin çağırışı ilə respublıkanın kənd rayonlarından bir neçə min oğlanla birlikdə o da Bakıya gəlmiş və həmin vaxtdan taleyini neft sənayesinə bağlamışdır.

O, Bibiheybət rayonunun qazma kontorunda qazmaçı köməkçisi vəzifəsində işləməyə başlayaraq, böyük qabiliyyəti sayəsində tezliklə dərin və çox dərin quyular qazan qabaqcıl ustalardan biri olmuşdur.

1957-ci ildə Q. İ. Əmirov Kür ovalığındakı yeni perspektivli neft yataqlarını istifadəyə vermək üçün oraya göndərilmişdir. Gürovdağ, Müşovdağ, Qarabağlı, Kürsəngi və başqa bu kimi iri neft yataqları bilavasitə onun iştirakı ilə kəşf edilmişdir.

Görkəmli istehsalat təşkilatçısı, əməksevər və tələbkar rəhbər, tükənməz qüvvəyə malik olan, yaradıcılıq axtarışlarında yorulmaq bilməyən Q. İ. Əmirov 1969-cu ildə "Azərneftkəşfiyyat" Trestinin 1 nömrəli qazma kontorunun direktoru vəzifəsinə irəli çəkilmiş, sonra isə Carlı və Qobustan kəşfiyyat qazma idarələrinə rəhbərlik etmişdir.

Q. İ. Əmirov texniki tərəqqinin fəal tərəfdarı, neft istehsalatı yenilikçisi idi. O, gənc neftçi kadrlarını tərbiyələndirir və yetişdirir, öz zəngin həyat və istehsalat təcrübəsini onlara həvəslə öyrədirdi.

Qaraş İbrahim oğlu Əmirov böyük istehsalat fəaliyyəti ilə yanaşı, respublıkanın ictimai-siyasi həyatında da fəal iştırak edirdi. O, Azərbaycan KP MK-nın və rayon partıya komitələrinin üzvü, Azərbaycan SSR Ali Sovetinin (6-7 çağırış) deputatı seçilmiş, Sov. İKP XXII və XXIII qurultaylarının nümayəndəsi olmuşdur.

Hökumət Q. İ. Əmirovun əmək cəbhəsindəki xidmətlərini yüksək qiymətləndirmişdir. Çox dərin quyuların sürətlə qazılmasında və yeni yataqların kəşfində qazandığı müvəffəqiyyətlərə görə 1963-cü ildə o, Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ada layiq görülmüşdür. 1971-ci ildə isə ona "Azərbaycan SSR neft ustası" fəxri adı verilmişdir.

Neft istehsalatının bacarıqlı təşkilatçısı, geniş qəlbli insan, həssas və qayğıkeş rəhbər olan Qaraş İbrahim oğlu Əmirov 1973-cü il mart ayının 22-də xidməti vəzifəsini yerinə yetirərkən, vertolyot qəzası nəticəsində həlak olmuşdur. Cənazəsi Bakı şəhərində 2 saylı fəxri xiyabanda dəfn olunmuşdur.

Faciəli ölümündən sonra dərinliyi 4500 m və daha çox olan kəşfiyyat quyularının sürətlə və keyfiyyətlə qazılması uğrunda qazma briqadalarının apardıqları ilin rüblərinə görə işlərinin yekunları üçün yarış qaliblərinə "Azərneft" Birliyi və Neft və Qaz Sənayesi Fəhlələri Həmkarlar İttifaqı Respublika Komitəsinin qərarı ilə Qaraş Əmirov adına keçici mükafat təsis edilmişdir.

Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində onun işlədiyi idarənin qarşısındakı küçə Qaraş Əmirovun adını daşıyır.

Həmyerlilərinin istəyi ilə xalqın bu layiqli oğlunun xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə Qaraş Əmirovun oxuduğu Zəngilan rayonunda Cahangirbəyli orta məktəbinə onun adı verilmişdir.

Qaraş Əmirov 4 oğul atası idi. Qaraşın faciəli ölümündən sonra onun həyat yoldaşı Züleyxa xanımın uşaqların böyüyüb-başa çatmasında böyük zəhməti olmuşdur. Hal-hazırda böyük oğlu Əmirov Rəsul - ARDNŞ-nin Magistral Neft Kəmərləri İstehsalat Birliyində Baş direktorun müavini vəzifəsində çalışır. Bir oğlu Əmirov Sabir - kimya elmləri namizədidir və Azərbaycan Dövlət Neft Akademiyasının "Üzvi maddələrin texnologiyası və sənaye ekologiyası" kafedrasının dosentidir. Digər iki oğlu - Rza və İbrahim də neft sənayesi müəssisələrində çalışırlar.



Böyük sənətkar Rəşid Behbudov neftçilərin qonağıdır.
Solda: Qaraş Əmirov (1961)



# ƏHMƏDOV HƏSƏN ƏBDÜL ƏLİ OĞLU (1906-1981)

Həsən Əbdül Əli oğlu Əhmədov 1906-cı ildə kəndli ailəsində anadan olmuş, 1928-ci ildə Bakı şəhərində fəhlə fakültəsini, 1933-cü ildə isə M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsini bitirmişdir. Təhsilini başa çatdırdıqdan sonra o, "Azərneft" Birliyi sisteminə işə göndərilmişdir. Burada müxtəlif vəzifələrdə çalışmış və çöl dəstəsinin sıravi geoloqundan "Azərneftkəşfiyyat" trestinin baş geoloqu və geoloji-kəşfiyyat kontorunun direktoruna qədər yüksəlmişdir.

O, ixtisası üzrə əmək fəaliyyətinin ilk illərində özünü bacarıqlı tədqiqatçı kimi göstərmişdir. H. Ə. Əhmədov 1933-1936-cı illərdən başlayaraq Qobustan və Qərbi Abşeronda Məhsuldar Qatın Litologiyası və tektonikasının öyrənilməsinə böyük diqqət yetirmişdir. Şəxsən onun təşəbbüsü ilə bu rayonlarda bir sıra strukturların geoloji quruluşu müfəssəl öyrənilmiş və sənaye əhəmiyyətli Qaradağ, Kənizdağ, Anart, Daşgil kimi neft, qaz və kondensat yataqları aşkar edilmişdir. 1938-ci ildə Qaradağ sahəsində Məhsuldar Qatın V horizontunda sənaye əhəmiyyətli neft və qaz yatağı aşkar edilmişdir.

Daha sonra, 1955-1956-cı illərdə qazılmış kəşfiyyat quyuları Qaradağ strukturunun cənub qanadının və şərq periklinalının VII və VIII horizontlarında iri qazkondensat və neft yataqlarının olduğunu təsdiqləmişdir.

1939-cu ildə H. Ə. Əhmədov yüksək ixtisaslı geoloq kimi Qərbi Ələt kəşfiyyat qrupunun baş geoloqu, 1941-ci ildə isə Kürətrafı və Gəncə rayonlarının kəşfiyyatı ilə məşğul olan trestin baş geoloqunun müavini və geoloji şöbənin rəisi təyin olunur. O, bu rayonlarda yeni kəşfiyyat sahələrində, o cümlədən Aşağı Kür çökəkliyinin perspektivli sahələrində axtarış-kəşfiyyat işlərinin təşkilində aktiv iştirak edir.

H. Ə. Əhmədov 1942-ci ildə, Azərbaycanda kəşfiyyat işlərinin müvəqqəti olaraq dayandırılması ilə əlaqədar partiya işinə cəlb olunur - Azərbaycan KP MK-nın neft şöbəsinə təlimatçı təyin edilir. Burada o, neftçilərə və Azərbaycan Geologiya İdarəsinin geoloji təşkilatlarına hərtərəfli yardım göstərir.

1942-ci ilin axırında Azərbaycan KP MK Bürosunun qərarı ilə H. Ə. Əhmədov yenidən "Azərneftkəşfiyyat" trestinin müdir müavini vəzifəsinə göndərilir. 1943-cü ildə isə o, müharibə ilə əlaqədar dayandırılmış geoloji-axtarış işlərini bərpa etmək məqsədilə geoloji-axtarış kontoruna direktor təyin edilir.

1946-cı ildə H. Ə. Əhmədov Qərbi Azərbaycan və Qobustanın neft yataqlarının bacarıqlı tədqiqatçısı kimi yeni təşkil olunmuş "Korgöz" trestinin, 1947-ci ilin əvvəlində isə yenidən "Azneftkəşfiyyat" trestinin baş geoloqu vəzifələrinə təyin edilir.

H. Ə. Əhmədov 1949-cu ilin fevralından "Azneftkəşfiyyat" Birliyinin nəzdində Geoloji-Kəşfiyyat Elmi-Tədqiqat İnstitutunun baş mühəndisi, 1951-ci ildən isə direktoru kimi fəaliyyət göstərir. 1955-ci ilin əvvəlində o, Azərbaycan Neftçıxarma Elmi-Tədqiqat İnstitutunun baş geoloqu, sonra direktor müavini təyin edilir. 1965-ci ilin sentyabrında H. Ə. Əhmədov yeni təşkil olunmuş keçmiş SSRİ Geologiya Nazirliyinin Ümumittifaq Elmi-Tədqiqat Geofizika İnstitutunun Azərbaycan filialına direktor təyin olunur. O, bu institutun təşkilatçılarından biri olmuşdur.

Onun Pliosen-Miosen və Təbaşir çöküntülərinin litologiya, petroqrafiya və kollektor xüsusiyyətlərinin öyrənilməsinə aid fundamental əsərləri geniş şöhrət qazanmışdır. H. Ə. Əhmədovun Şamaxı-Qobustan vilayətində apardığı uzunmüddətli tədqiqatlar Məhsuldar Qat, Miosen, Oliqosen və Mezozoyun mürəkkəb geoloji quruluşunun və bu çöküntülərdə neft-qaz yataqlarının formalaşma şəraitinin izah edilməsinə imkan vermişdir.

H. Ə. Əhmədov Mezozoy çöküntülərində sənaye əhəmiyyətli neft-qaz yataqlarının aşkarlanmasına yönəlmiş geoloji-kəşfiyyat, geofizika və elmi tədqiqat işlərinin ilk təşəbbüskarlarından və təşkilatçılarından biri olmuşdur.

Uzunmüddətli bu tədqiqatların nəticəsi Azərbaycan EA-nın Geologiya İnstitutunun Elmi Şurası tərəfindən yüksək qiymətləndirilmiş və müəllif H. Ə. Əhmədova 1947-ci ilin oktyabrında geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsi verilmişdir.

1956-cı ilin iyun ayında o, doktorluq dissertasiyası müdafiə etmişdir. 1959-cu ildə H. Ə. Əhmədova professor adı verilmişdir və o, 1963-cü ildə Azərbaycan EA-nın müxbir üzvü, 1967-ci ildə isə həqiqi üzvü seçilmişdir.

H. Ə. Əhmədovun əmək fəaliyyətini səciyyələndirən əsas xüsusiyyətlər - canlı, praktiki işlə sıx bağlı ciddi elmi tədqiqatlar, dərin elmi təfəkkür və neft-qaza yönəlmiş geoloji-axtarış, geofiziki və kəşfiyyat işlərinin layihələndirilməsində və aparılmasında böyük təcrübə olmuşdur.

Akademik H. Ə. Əhmədovun elmi fəaliyyətinin nəticələri çap olunmuş 160 əsərdə, o cümlədən 12 monoqrafiyada öz əksini tapmışdır.

Onun əsərlərindən "Cənub-şərqi Qobustanda Məhsuldar Qatın geoloji-geofiziki xüsusiyyətləri və neftlilik perspektivləri", "Azərbaycanın əsas neftli horizontları", "Cənubi Qobustanda Oliqosenin və Miosenin neftli horizontları", "Qobustanın geologiyası və neftliliyi", "Azərbaycanın neft və

qaz yataqlarının geologiyası", "Azərbaycanın Mezozoy və Üçüncü dövr çöküntülərində neft və qaz axtarışı perspektivləri" və başqaları respublikanın neftçi geoloqları tərəfindən geniş istifadə edilir.

H. Ə. Əhmədov "Azərbaycanın Mezozoy çöküntüləri və onların neftlilik-qazlılıq perspektivləri "monoqrafiyasına görə akademik İ. M. Qubkin adına mükafata layiq görülmüşdür.

Azərbaycanda tətbiqi geofizika sahəsində elmi tədqiqatların təşkilində və inkişaf etdirilməsində də H. Ə. Əhmədovun əməyi olmuşdur. O, uzun müddət Ümumittifaq ET Geofizika institutunun Azərbaycan filialına başçılıq etmişdir. Bu müddət ərzində onun rəhbərliyi altında tətbiqi geofizikanın yeni üsullarının yaradılması və təkmilləşdirilməsi sahəsində çoxsaylı elmi-tədqiqat işləri aparılmışdır.

O, 30-dan çox elmlər doktoru və elmlər namizədi yetişdirmişdir. Onun bütün həyatı Azərbaycanda neft geofizikası elminin inkişaf etməsi və formalaşması ilə sıx bağlı olmuşdur. O, nəinki Azərbaycanın neftçiləri və geoloqları, hətta onun hüdudlarından kənarda da alimlərin dərin hörmətini qazanmışdır.

Akademik H. Ə. Əhmədov 1964-cü ildə Hindistanda keçirilmiş XXII Beynəlxalq geoloji konqresin sessiyasının nümayəndəsi olmuş, 1968-ci ildə keçmiş SSRİ Geologiya Nazirliyinin tapşırığı ilə Türkiyədə Mərkəzi və Şərqi Anadolunun perspektivli neft-qaz rayonlarında dərin qazmanın elmi əsaslandırılması işlərində iştirak etmişdir. Azərbaycanın neft sənayesində nümunəvi əməyinə görə H. Ə. Əhmədov "Şərəf nişanı" ordeninə, "Fədakar əməyə görə", "Qafqazın müdafiəsinə görə", "Böyük Vətən müharibəsi dövründə fədakar əməyə görə", "Əməkdə fərqlənməyə görə" medallarına və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin iki Fəxri Fərmanına layiq görülmüşdür.

Onun əsərləri Azərbaycanın perspektivli neft-qaz rayonlarında geoloji-geofiziki və axtarış-kəşfiyyat işlərinin aparılmasında soraq mənbələri kimi və bir neçə nəsl gənc mütəxəssislərin və alimlərin yetişdirilməsində dərslik kimi istifadə edilir.

O, 1981-ci ilin iyun ayının 9-da vəfat etmişdir.



## HƏMZƏYEV FƏRHAD AĞA OĞLU (1929-1991)



Uzun müddət "XXII partiya qurultayı" adına (indiki "Neft Daşları") NQÇİ-də işləyən Həmzəyev Fərhad Ağa oğlunun neft sənayesində xüsusi xidmətləri olub.

1962-1979-cu illərdə F. A. Həmzəyev bu NQÇİ-də baş mühəndis, rəis müavini vəzifəsində məşhur neftçi Bəhmən Hacıyevlə birgə çalışmışdır.

Bilik və bacarığını açıq dəniz şəraitində neft yataqlarının səmərəli işlənməsinə, dəniz şəhərinin genişlənməsinə, avadanlıqların təkmilləşdirilməsinə həsr etmişdir.

1966-1967-ci illərdə N. Nərimanov adına NQÇİ-nin rəisi vəzifəsində işləyib. 1979-cu ildən "Xəzərdənizneft" İB-də müxtəlif vəzifələrdə çalışıb.

F. Həmzəyev neft sənayesinin inkişafındakı xidmətlərinə görə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmiş, Respublikanın Əməkdar mühəndisi fəxri adına layiq görülmüşdür.

F. A. Həmzəyev özünün işgüzarlığı ilə böyük hörmət qazanmış, həmişə etimada layiq olmuşdur.



# XADİKOV XƏZRƏT AXMETOVİÇ (1905-1970)

Xəzrət Axmetoviç Xadikov "Neft Daşları" Dənizdə Qazma İşləri İdarəsinə uzun müddət rəhbərlık etmiş, ışlədiyi müddətdə özünü yüksək ixtisaslı bir mütəxəssis, tələbkar rəhbər kımi göstərmışdır.

"Neft Daşları", "Həzi Aslanov", "Palçıq təpəsi" və "Cənub-1" yataqlarında quyuların qazılıb istifadəyə verilməsində onun böyük əməyi olmuşdur. Bu yataqda olan quyuların dayaz olmasına baxmayaraq qazma işləri çox çətinliklə gedirdı.

X. A. Xadikovun bacarığı və mühəndislik qabılıyyətı nəticəsində baş verə biləcək bütün çətinliklər, qabaqcadan aradan qaldırılmış və böyük müvəffəqiyyətlər əldə edilmışdir.

X. A. Xadikov harada işləyibsə, ətrafdakıların dıqqətini özünə cəlb edib, işə yanaşma tərzi, yoldaşlarına qayğısı, həssaslığı və mehribanlığı ona böyük hörmət qazandırmışdı.





# XƏLİLOV CƏLİL MUSTAFA OĞLU (1900-2001)

Cəlil Mustafa oğlu Xəlilov 1900-cu il dekabrın 20-də anadan olmuşdur. O, 1914-cü ildə orta məktəbi bitirdikdən sonra kənd təsərrüfatı ilə məşğul olmuş, pedaqoji texnıkumu bıtirdikdən sonra müəllim işləmiş və məktəb direktoru vəzifəsində çalışmışdır. Sonralar, 1925-ci ildə C. M. Xəlilov təhsilini davam etdirmək məqsədilə Bakıya göndərilir və 1929-cu ildə Azərbaycan Dövlət Universitetinin təbiət şöbəsində təhsilini başa vurur. 1929-1931-ci illərdə Cəlil müəllim Azərbaycan Dövlət Muzeyində işləmışdır. 1932-1945-ci illərdə isə o, Azərbaycan Elmi-Tədqiqat Neft İnstitutunda elmı işçi vəzifəsində çalışmış və burada ardıcıl olaraq, stratiqrafiya və paleontologiya sahəsində geniş tədqiqat işləri aparmışdır. Keçmiş SSRI məkanında mikropaleontoloji tədqiqatların başlanğıc dövründə C. M. Xəlilov Azərbaycan və Türkmənistanın Mezo-Kaynozoy çöküntülərinin mikrofaunasını öyrənərək, ilk dəfə olaraq region üzrə mərtəbə və horizontlar ayırmış, onların geoloji yaşını əsaslandırmışdır. Bu mövzuda da 1940-cı ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir.

Cəlil müəllim 1945-ci ildən Azərbaycan EA Geologiya İnstitutunun "Mikrofauna və stratiqrafiya" laboratoriyasına rəhbərlik etmiş və ömrünün sonuna kimi həmin kollektivdə çalışmışdır.

Cəlil Mustafa oğlu bir sıra sanballı əsərlərin müəllifidir. Onlardan iki cılddən ibarət "Azərbaycanın Paleogen çöküntülərinin mikrofauna və stratiqrafiyası", "Azərbaycanın Paleogen çöküntülərinin zona bölgüsü" monoqrafiyalarını və s. göstərmək olar. Ümumiyyətlə o, Təbaşır, Paleogen, Miosen, Pliosen və Antrapogen çöküntülərinin stratiqrafiya və mikrofaunasına aid 150-dən artıq elmi əsərin müəllifidir. O, əsərlərində elmi və təcrübi əhəmiyyəti olan foraminifer və ostrakod nümayəndələrinin 350-dən artıq yeni fəsilə, növ və yarımnövlərini müəyyən edərək foto və təsvirini vermişdir.

Professor C. M. Xəlilov tərəfindən təsvir edilən taksonomik vahidlərin nümayəndələri dünya ədəbiyyatına, kataloqlara düşmüş, Avropa və Asiyanın bir çox Mezo-Kaynozoy çöküntülərinin kəsilişlərində tapılmışdır.

C. M. Xəlilovun əsərlərində Krım-Qafqaz neftlı-qazlı vilayətin Paleogen çöküntülərinin dəqiq stratiqrafik bölgüsünün işlənməsi və mikrofaunasının təsviri əsas yer tutur. Müəllif stratiqrafiya problemləri ilə yanaşı, paleontologiyanın vacib məsələlərinin həllinə aid problemlər də qaldırırdı. O, foraminiferlərin bir çox qrupunun təkamülünü öyrənərək, genetik əlaqələrini müəyyənləşdirmiş və bunun əsasında filogenetik sxemlər tərtib etmişdir.

C. M. Xəlilov 1958-ci ildə "Azərbaycan Paleogen çöküntülərinin mikrofauna və stratiqrafiyası" mövzusunda elmlər doktoru alimlik dərəcəsini almaq üçün dissertasiya müdafiə etmişdir.

C. M. Xəlilov 1956-cı ildə Ümumittifaq Paleontologiya Cəmiyyətinin həqiqi üzvü seçilmiş, 1969-cu ildə elmi-pedaqoji fəaliyyətinə görə professor adına layiq görülmüşdür.

Professor C. M. Xəlilovun tədqiqatlarının sədası nəinki keçmiş SSRİ-dən, eyni zamanda uzaq ölkələrdən də gəlirdi. O, Avropa, Amerika və digər ölkələrin görkəmli alimləri ilə geniş elmi əlaqə saxlayır, elmi sessiya və konfranslarda, çöl ekspedisiyalarında iştirak edirdi.

Cəlil Mustafa oğlu Azərbaycanda apardığı tədqiqatlarla yanaşı, SSRİ miqyasında paleontologiya və stratiqrafiya üzrə aparılan elmi işlərə də cəlb olunurdu. O, həmçinin nəşrə hazırlanan kitabları redaktə edir, dissertasiyalarda rəsmi opponentlik edir və s. elmi işlərlə, kadr hazırlığı ilə məşğul olurdu.

Elmi fəaliyyəti ilə yanaşı, professor C. M. Xəlilov 1931-1956-cı illərdə Azərbaycan Pedaqoji, Azərbaycan Sənaye İnstitutunda, Azərbaycan Dövlət Universitetində "Ümumi və tarixi geologiya", "Paleontologiya" və "Mikropaleontologiya" fənlərindən mühazirələr oxuyur, məşğələ dərsləri aparırdı. O, 1962-ci ildə Azərbaycan dilində ilk dəfə olaraq nəşr edilən "Paleontologiya" dərsliyinin müəlliflərindən biridir.

Cəlil müəllimin, Azərbaycan əsas olmaqla, eləcə də Türkmənistan, Dağıstan, Çeçen-İnquş və digər respublikalar üçün elmlər namizədləri, doktorları, ümumiyyətlə, yüksək ixtisaslı mikropaleontoloqların hazırlanmasında böyük əməyi olmuşdur. Həmkarları onu elmi, pedaqoji fəaliyyəti ilə yanaşı, müxtəlif komitə, komissiya, elmi şuralarda işgüzar, sözükeçən alim kimi tanıyırlar.

Professor C. M. Xəlilov SSRİ Stratiqrafiya Komitəsinin Paleogen Komissiyasının, SSRİ Mikropaleontologiya Komissiyasının üzvü və foraminifer təsnifatının kuratoru olmuşdur. O, Azərbaycan EA Geologiya İnstitutu, Azərbaycan Dövlət Universitetinin elmi şuralarının üzvü kimi fəal iş aparırdı.

C. M. Xəlilovun elmi-təşkilati, pedaqoji fəaliyyəti Azərbaycan SSR hökuməti tərəfindən yüksək qiymətləndirilmişdir. O, Şərəf Nişanı, Qırmızı Əmək Bayrağı ordenləri və medallarla, müxtəlif diplom, təşəkkürnamələrlə təltif olunmuşdur.



## XƏLİLOV ƏBDÜLHƏMİD YUSİF OĞLU (1911 - 1990)



Paleontologiya və mezozoy stratiqrafiyası sahəsində böyük alim, professor Əbdülhəmid Yusif oğlu Xəlilovu Azərbaycanda yaxşı tanıyırdılar. Onun elmi fəaliyyəti öz məqsədyönlülüyü ilə fərqlənirdi. Ə. Y. Xəlilovun Böyük və Kiçik Qafqazda geniş yayılmış aşağı təbaşir çöküntülərinin faunasına həsr olunmuş elmi fəaliyyəti respublikamızın elmi ictimaiyyətinə yaxşı tanışdır. Bu problematika çərçivəsində Ə. Y. Xəlilov hərtərəfli tədqiqatlar üzə çıxarmışdır. Bu biliklər aşağı təbaşirin müxtəlif faunasının qrupları, tektonik proseslərdən asılı olaraq onların təkamülünün xassələri və sürəti, Azərbaycanın erkəntəbaşirli göllərinin paleoqrafik şərtləri və başqa məsələlərə həsr olunmuşdur.

Ə. Y. Xəlilov Böyük və Kiçik Qafqazın aşağı təbaşirli çöküntülərinin stratiqrafiyasının müasir sxemlərini işləyib hazırlamışdır və erkəntəbaşirli molyuskaların yüzdən çox növünü təsvir etmişdir.

Ə. Y. Xəlilovun böyük erudisiyası, təklif etdiyi stratiqrafik sxemlərin dəyərini, məzmununu artırmışdır. Onun fikirləri paleoqrafiya, Qafqazda mezozoy dövründə neftin axtarışı ilə bağlı olan məsələlərin həlli sahəsində bir çox nəzəri problemlərin həllinə imkan vermişdir. Onun Azərbaycanın aşağı təbaşirinin stratiqrafiya və paleoqrafiya üzrə əsaslı tədqiqatları bütün əsas məlumat kitablarına daxil olunmuşdur.

Alimin paleontoloji stratiqrafik tədqiqatlarının nəticələri, respublikanın aşağı təbaşir çöküntüləri haqqındakı müasir təsəvvürlərin əsasını təşkil edir. Onun elmi araşdırmaları SSRİ-nın cənubunun Alp qurşağının təbaşır dövrünün geoloji tarixinin və təbaşır sisteminin stratiqrafiyasının öyrənilməsinə böyük köməklik göstərir.

Professor Ə. Y. Xəlilovun tədqiqatları nəticəsində ilk dəfə olaraq Kiçik Qafqazda layaltılarının mövcudluğu təsdiq olunmuş, yuxarı albın çöküntülərinin yayılmasının yeni rayonları aşkar edilmişdir.

Görkəmli geoloqpaleontoloq V. V. Boqaçyovun tələbəsi olan akademiklər K. A. Əlizadə və M. M. Əliyevlə birlikdə işləyən professor Əbdülhəmid Xəlilov böyük alim kimi püxtələşmişdir. Ə. Y. Xəlilov Böyük və Kiçik Qafqazın cənub-şərq hissələrinin aşağı təbaşirli törəmələrin aparıcı mütəxəssisi olmuşdur. O, SSRİ-nin stratiqrafiya komitəsinin, SSRİ təbaşir komissiyasının üzvü kimi mezozoy stratiqrafiyası, təbaşir və yur stratiqrafik imkanlarının unifikasiyasının bir sıra problemlərinin həllində geniş fəaliyyət göstərmişdir.

Ə. Y. Xəlilov Moskvada çap olunmuş litoloqopaleogeocoğrafi xəritələrin, SSRİ regional stratiqrafiya xəritə-atlasın müəlliflərindən biri olmuşdur. O, bir çox mükafatlara layiq görülmüşdür.



# İSGƏNDƏROV MƏMMƏD ƏBDÜL OĞLU (1915-1985)



İsgəndərov Məmməd Əbdül oğlu ilk təhsilini anadan olduğu Qubadlı rayonunun Eyvazlar kəndində almış, 1932-ci ildə Bakı Pedaqoji Texnikumunu, 1941-ci ildə Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə 1932-ci ildən başlayan İsgəndərov Məmməd Əbdül oğlu 1932-1936-cı illərdə Zəngilan rayonunda müəllimlik etmiş, 1936-1941-ci illərdə Azərbaycan Sənaye İnstitutunda oxumuşdur. İnstitutu bitirdikdən sonra o, 1941-ci ildə bir müddət "Molotovneft" trestinin 1 saylı mədənində baş geoloqun köməkçisi işləmiş, 1941-1943-cü illərdə ordu sıralarında xidmət etmişdir. Ordu sıralarından tərxis olunduqdan sonra İsgəndərov Məmməd Əbdül oğlu 1943-1945-ci illərdə "Molotovneft" trestinin 3 saylı mədənində geoloq, 1944-1945-ci illərdə trestin 6 saylı mədənində partiya komitəsinin katibi vəzifələrində çalışmış və eyni zamanda Azərbaycan Elmlər Akademiyasının aspiranturasında oxumuş, 1946-cı ildə dissertasiya müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

M. Ə. İsgəndərov 1945-1949-cu illərdə partiya və dövlət işlərinə irəli çəkilmişdir. O, 1945-1947-ci illərdə Bakı Partiya Komitəsində neft şöbəsi müdirinin müavini, 1947-1948-ci illərdə Lenin Rayon Partiya Komitəsinin birinci katibi, 1948-1949-cu illərdə Azərbaycan SSR Dövlət Nəzarəti Nazirinin müavini olmuşdur.

O, 1949-1953-cü illərdə yenidən neft işinə qayıtmış, 1949-1951-ci illərdə "Orconikidzeneft", 1951-1952-ci illərdə "Leninneft" trestlərinin rəisi, 1952-1953-cü illərdə "Azərneft" Birliyinin Baş mühəndisi vəzifələrində çalışmışdır.

İsgəndərov Məmməd Əbdül oğlu 1953-1970-ci illərdə bir daha partiya və dövlət işlərinə irəli çəkilmiş, 1953-1959-cu illərdə Bakı Partiya Komi-

təsinin birinci katibi, 1959-1961-ci illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1961-1970-ci illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrində işləmişdir.

1956-cı ildə doktorluq dissertasiyası müdafiə edərək geologiya-mineralogiya elmlər doktoru alimlik dərəcəsi almışdır

O, 1970-ci ildən pensiyada idi. İsgəndərov Məmməd Əbdül oğlu 70 yaşında Bakı şəhərində dünyasını dəyişmişdir

İsgəndərov Məmməd Əbdül oğlu bacarıqlı partiya və dövlət xadimi olmaqla yanaşı, həm də neft geologiyası üzrə görkəmli alim idi. Onun neftmədən geologiyası və neft-qaz yataqlarının işlədilməsi" monoqrafiyası bu gün də neft, qaz və qazkondensat yataqlarında çalışan mütəxəssislərin stolüstü kitabıdır. Görkəmli dövlət xadimi dəfələrlə xarici ölkələrə gedən Azərbaycan nümayəndə heyətinə rəhbərlik etmiş və hər yerdə vətənimizi layiqincə təmsil etmişdir. O, nəsillərə örnək ola biləcək bir şəxsiyyət idi.

## НЕФТЯНИК-УЧЕНЫЙ-ГОСУДАРСТВЕННЫЙ ДЕЯТЕЛЬ

Всю свою жизнь крупный организатор нефтяного производства посвятил развитию нефтяного и нефтехимического машиностроения в Азербайджане. Им был пройден большой и славный путь от простого геолога на нефтепромысле до Председателя Президиума Верховного Совета Азербайджанской ССР.

М. А. Искендеров родился в 1915 году, в семье крестьянина. В возрасте 14 лет, в 1929 году, он приезжает в Баку. Для получения образования поступает в педагогический техникум им. Сабира. По окончании техникума получает распределение на преподавательскую работу в средней школе селения Ханлыг Кубатлинского района. Однако непреодолимая тяга к совершенствованию образования не покидает его, и поэтому в 1935 году М. А. Искендеров поступает в Азербайджанский индустриальный институт (ныне Азербайджанская государственная нефтяная академия), по окончании которой получает специальность инженера-геолога.

Вероломное нападение гитлеровской Германии нарушило течение мирной жизни советских людей, и молодой специалист-геолог отправляется на фронт на защиту Отечества. Однако, принимая во внимание огромную потребность в увеличении нефтедобычи и развитии нефтяной промышленности для нужд военной промышленности и боевой техники, руководство страны принимает решение об отзыве с фронта многих специалистов-нефтяников. Поэтому в 1944 году М. А. Искендеров направляется на нефтяные промыслы "Азнефти".

За период с 1944 по 1953 год М. А. Искендеров прошел все этапы становления специалиста от геолога-нефтяника до главного инженера "Азнефти", руководил трестами "Сураханынефть" и "Балаханынефть". Одновременно, без отрыва от трудовой деятельности, защищает кандидатскую диссертацию, заложив тем самым фундамент для будущей докторской, которую с успехом защитил в 1956 году. В тот же период была издана монография "Нефтепромысловая геология и исследования нефтяных и газовых месторождений". Результаты многочисленных исследований легли в основу, принципы и правила разработки газоконденсатных месторождений. Активная научная деятельность не мешала практической работе по разработке месторождений Карадагского района Азербайджана.

Будучи ученым, М. А. Искендеров был одним из первых специалистов в области исследований физико-энергетического состояния залежей, пластов-коллекторов, а также их поисков на основе статистической модели. Им была разработана и реализована программа по развитию выпуска нефтяной литературы в Азербайджанской ССР.

С 1953 по 1970 годы М. А. Искендеров находится на руководящих должностях в государственных структурах. В период с 1953 по 1959 год работает в должности Первого секретаря Бакинского горкома Коммунистической партии Азербайджана, с 1959 по 1961 год - Председатель Совета Министров Азербайджанской ССР, а с 1961 по 1970 год - Председатель Президиума Верховного Совета Азербайджанской ССР

Сегодня готовится к изданию книга, посвященная деятельности М. А. Искендерова, поэтому мы обращаемся к вам с просьбой поделиться своими воспоминаниями и впечатлениями об этом человеке.

**Я. С. Искендеров**



## KAZIMOV YAQUB RZA OĞLU (1901-1968)

Yaqub Rza oğlu Kazımov əmək fəaliyyətinə sıravi mühəndis kimi başlamış, sonralar "Azərneft" birliyinin Dənizdə istismar qazma trestinin rəisi, Dənizdə Neftçıxarma üzrə Baş idarənin qazma şöbəsinin rəisi vəzifələrinə qədər yüksəlmişdir.

O, quruda və dənizdə bir çox yataqların aşkar olunmasında ilk yolaçanlardan olmuşdur.

Y. Kazımovun dəniz quyularının küt və maili qazılmasının inkişafında böyük xidməti olub. Bu xidmətlərinə görə ona Azərbaycanın Əməkdar mühəndisi adı verilmişdir. Onun xatirəsini əbədiləşdirmək üçün Xəzər dənizindəki kran gəmiyə Y. Kazımovun adı verilmişdir.

Dostları, əzizləri, yaxınları, keçmiş iş yoldaşları Y. R. Kazımovu həmişə xoş xatirələrlə yada salırlar, onun qaynar həyatından, səmimiliyindən və mehribanlığından söz açırlar.



## QARAYEV SADIQ KƏRİM OĞLU (1906-1976)



S. K. Qarayev 1906-cı il oktyabrın 25-də Şamaxı şəhərində anadan olmuşdur. O, 1921-1926-cı illərdə N. Nərimanov adına neft texnikumunda təhsil almış, texnikumun neft-kimya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

S. K. Qarayev "İliç Buxtası" NQÇİ-də işləyə-işləyə təhsilini M. Əzizbəyov adına Azərbaycan Politexnik İnstitutunda davam etdirmişdir. 1930-cu ildə S. Orconikidzenin şəxsi göstərişi ilə və SSRİ Xalq Təsərrüfatı Şurasının qərarı ilə S. K. Qarayev gənc neftçi-mütəxəssislərin tərkibində təcrübə mübadiləsi məqsədilə ABŞ-a göndərilmişdir. Amerikadan qayıtdıqdan sonra onun "Xılls Ketelmax yatağında qazma texnikası" mövzusunda geniş və məzmunlu məruzəsinə yüksək qiymət verilmişdir. 1931-ci ildə S. K. Qarayev Amerika tərəfinin dəvəti və SSRİ Xalq Təsərrüfatı Şurasının qərarı ilə bir il müddətinə yenidən ABŞ-a ezam olunmuş, sonra kontrakt müddəti iki dəfə artırılmışdır.

S. K. Qarayev xarici ezamiyyətdən qayıtdıqdan sonra "İliç Buxtası" NQÇİ-nın baş mühəndisi təyin edilmişdir.

1941-1945-ci illərdə S. K. Qarayev Böyük Vətən müharibəsində iştirak etmiş, əsir düşmüşdür. Əsirlikdən qayıtdıqdan sonra, o, repressiya olunaraq Komi Muxtar Respublikasına sürgün edilmişdir.

S. K. Qarayev 1956-cı ildə Komidən qayıtmış, SSRİ Ali Məhkəməsi kollegiyasının qərarı ilə bəraət qazanmışdır. Elə həmin il o, "Azərneftkəşfiyyat" Trestində texniki şöbə rəisi, 1957-ci ildə isə həmin trestin baş mühəndisi vəzifələrində çalışmışdı.

S. K. Qarayev 1966-cı ildən ömrünün axırına qədər (1976) "Xəzərdənizneft" Birliyində qazma texnologiyası şöbəsinin rəisi işləmişdir.

S. K. Qarayev bir çox dövlət mükafatlarına layiq görülmüşdür. O, Azərbaycan SSR Ali Sovetinin və Ümumittifaq Həmkarlar İttifaqları

Mərkəzi Şurasının fəxri fərmanları ilə təltif olunmuşdur. Ona Azərbaycan SSR-in Əməkdar mühəndisi, SSRİ-nin neftçıxarma sənayesi əlaçısı, SSRİ-nin fəxri neftçisi adları verilmişdir. O, 1960-cı ildən ömrünün sonuna qədər SSRİ neft-qaz sənayesi Elmi-Texnıki Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur.

S. K. Qarayev 10 ixtira və səmərələşdirici təklifin, dərin qazma işlərinə həsr edilmiş 40-dan çox elmi əsərin müəllifi və həmmüəllifi olmuşdur. O, ömrünün sonuna kimi (1976) Azərbaycanın neft sənayesində çalışmışdır.



# QARAYEV ƏLÖVSƏT KƏRİM OĞLU (1914-1988)



Qarayev Əlövsət Kərim oğlu 1914-cü il avqustun 10-da Şamaxı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Sənət seçmək vaxtı yetişəndə o, qəti bir qərara gəldi ki, böyük qardaşları - Nəcməddin və Sadıq kimi neftçi olsun.. (yeri gəlmişkən, Nəcməddin və Sadıq sonralar dəniz neft-mədən qurğularının tikintisi və quyuların qazılması sahəsində görkəmli mütəxəssis olmuşlar).

Ə. K. Qarayev öz arzusuna çatmaq məqsədilə Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, oranı uğurla bitirmiş, dağ mühəndisi ixtisası almışdır. Gənc mütəxəssis 1934-cü ildən "Leninneft" və "Orconikidzeneft" trestlərində əmək fəaliyyətinə başlamışdır. O, burada qazma mühəndisi, trestin baş mexaniki vəzifələrində işləmişdir. 1940-cı ildən isə onun həyatının Rusiya dövrü başlayır. Gənc mütəxəssis Azərbaycan LKGİ MK xətti ilə Uzaq Şərqə göndərilir. O, burada əvvəl "Dövlətgeonəzarət" İdarəsində rəis müavini, 29 yaşında isə "Dalneft" Birliyində neftçıxarma və qazma işləri üzrə rəis müavini təyin olunur.

Ə. K. Qarayev işlədiyi sahələrdə təşkilatçılığı ilə diqqəti cəlb etmiş, onu 1945-ci ildə Kubanda neft təsərrüfatını dirçəltmək məqsədi ilə oraya göndərmişlər. O, burada 7 il ərzində "Krasnodarneftkəşfiyyat" İdarəsində baş mühəndis, kollektivin başçısı olmuş, sonra isə "Krımneftqazkəşfiyyat" Trestinə baş mühəndis göndərilmişdir.

Ə. K. Qarayev 1963-cü ildə qaz və kondensat yataqlarının işlənməsi və yenidən qazılması probleminin kompleks həllinə görə SSRİ-nin yüksək mükafatına - Lenin mükafatı laureatı adına layiq görülmüşdür.

Tanınmış neftçi 1963-cü ildə Şimali Qafqaz Neft və Qaz Sənayesi İdarəsinin rəisi vəzifəsinə irəli çəkilmiş, 1965-ci ildə isə onu Moskvaya SSRİ-nın Neftçıxarma Sənayesi Nazirliyinə işə dəvət etmişlər. O, "Başcənubneftçıxarma" İdarəsində rəis, sonra isə Texniki İqtisadiyyat İdarəsinin rəisi təyin olunmuşdur.

Ə. K. Qarayev 1965-1976-cı illərdə SSRİ Neftçıxarma Sənayesi Nazirliyinin kollegiya üzvü seçilmişdir. Məşhur neftçi Ə. Qarayev S. Orucovdan sonra ikinci azərbaycanlı idi ki, nazirliyin rəhbərlərindən biri olmuşdur.

Ə. K. Qarayev Qazaxıstan, Özbəkistan, Türkmənistan, Azərbaycan, Dağıstan, Çeçenistan, Kuban sahələrində neft və qaz çıxarılması yolunda böyük enerji ilə çalışmış, özünün yüksək təşkilatçılığını, istedad və bacarığını göstərmişdir.

Böyük dünyagörüşü, yüksək intellekti, böyük analitik və elmi-potensialı olan ixtisaslı mütəxəssis Ə. K. Qarayev elmi-texniki məsələlərin inkişafına və təkmilləşdirilməsinə böyük əmək sərf etmişdir. Onun 76 elmi işi, monoqrafiyaları, broşüraları, məqalələri vardır. 31 şəhadətnamənin müəllifi olmuşdur. O, ətraf mühitin qorunması məsələləri ilə məşğul olan Sovet-Amerika komissiyasının üzvü, Beynəlxalq Enerji Konfransı Sovet Milli Komitəsinin büro üzvü, SSRİ-nin Elm və texnika üzrə Dövlət Komitəsi Elmi Şurasının sədr müavini olmuşdur.

Ə. K. Qarayev "Azərbaycanın Əməkdar mühəndisi", "SSRİ-nin fəxri neftçisi", "SSRİ qaz sənayesinin fəxri işçisi" adlarına, çoxlu sayda fəxri fərmanlara, beş yüksək ordenə, medallara, ÜXTNS-nin iki qızıl, gümüş və bürünc medallarına, həmçinin digər yüksək mükafatlara layiq görülmüşdür.

1988-ci ildə qəfil ölüm görkəmli neftçinin həyatına son qoydu.



# QARAYEV NƏCMƏDDİN KƏRİM OĞLU (1911-1990)



Azərbaycan neft sənayesinin veteranı, dənizdə neft-mədən tikintisi üzrə tanınmış mütəxəssis, Azərbaycanın Əməkdar mühəndisi, fəxri neftçi Qarayev Nəcməddin Kərim oğlu 1990-cı il may ayının 2-də 79 yaşında vəfat etmişdir.

N. K. Qarayev 1911-ci ildə Şamaxı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. O, M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirmiş, əmək fəaliyyətinə neft sənayesi sahəsində "Leninneft" Trestinin elektrik montaj kontorunda usta kimi başlamışdır. O, burada özünü bacarıqlı və təşəbbüskar mütəxəssis kimi göstərdiyinə görə əvvəlcə baş mühəndis, sonra elektrik montaj kontorunun direktoru, 1935-ci ildə isə "Leninneft" Trestinin baş energetiki vəzifəsinə təyin olunmuşdur.

N. K. Qarayev Böyük Vətən müharibəsi illərində Nijni-Tagil şəhərində müdafiə məqsədi ilə işləyən zavodlarda çalışmışdır. O, həmçinin "Azərdənizneftinşaat" Trestində müxtəlif rəhbər vəzifələri yerinə yetirmişdir.

1963-1976-cı illərdə N. K. Qarayev "Xəzərdənizneft" Birliyində əsaslı tikinti işləri üzrə rəis müavini vəzifəsində çalışmışdır.

Bu illərdə KMG "Koroğlu"dan istifadə etməklə dənizin böyük dərinliklərinə çıxmaq üçün tikinti sənayesinin əsasları qoyulurdu. Təşəbbüskar, işgüzar və enerjili istehsalat təşkilatçısı olan Qarayev N. K. "Süleyman Vəzirov" birjasından yeni borudöşəmə metodlarının appozisiyasının və o dövrdə ilk dərin özüllər (dənizin 42,84 və b. dərinlikləri üçün) tikintisinin başlanğıcında duranlardan idi.

İstedadlı mühəndis N. K. Qarayevin səmərəli əməyi iki dəfə Qırmızı Əmək Bayrağı ordeninə, "Şərəf Nişanı" ordeninə və bir çox medallara layiq görülmüşdür.

Neft sənayesinin veteranı, bacarıqlı mütəxəssis, həssas və qayğıkeş insan Nəcməddin Kərim oğlu Qarayevin xatirəsi əzizlərinin, onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.



# QULUZADƏ KAZIM NOVRUZƏLİ OĞLU (1908-1979)

Kazım Novruzəli oğlu Quluzadə 1908-ci ildə Bakıda fəhlə ailəsində anadan olmuşdur. Orta məktəbi, sonra isə Bakı Sənaye Texnikumunu bitirən N. Quluzadə 1929-cu ıldə Azərbaycan Politexnik İnstitutunun (hazırda Azərbaycan Dövlət Neft Akademiyası) Energetika fakültəsinə daxil olur. 1934-cü ildə institutu fərqlənmə diplomu ilə bitirib, neft mədənlərində mühəndis kimi fəaliyyətə başlayır. O, istehsalatda mühəndis-elektrik vəzifəsindən Azneftin baş energetiki vəzifəsinə kimi böyük həyat yolu keçmiş, özünü neft sənayesinin mürəkkəb elektroenergetika təsərrüfatının mütərəqqi inkişafının fəal tərəfdarı kimi göstərmişdir.

1940-cı ildən K. N. Quluzadə əvvəlcə neft sənayesində texniki təhlükəsizlik üzrə Bakı Elmi-Tədqiqat İnstitutunda elmi işçi, sonra isə Azərbaycan SSR Energetika İnstitutunda baş elmi işçi, institutun elmi işlər üzrə direktor müavini işləyir, eyni zamanda elektrik intiqalı laboratoriyasına rəhbərlik edir.

Bu illər ərzində o, neft-mədən maşın və mexanizmlərinin elektrik intiqalı, neft mədənlərinin səyyar elektrik şəbəkələrinin, neftçıxarma və neft emalı şəraitində yerləşdirilən mühafizə elektrik qurğularının nəzəriyyəsi və təcrübəsi sahəsində bir sıra tədqiqatlar aparır. Azərbaycanın inkişaf edən energetikası üçün elmi kadrların hazırlanmasında onun böyük əməyi vardır.

Elmi və istehsalat fəaliyyəti ilə yanaşı K. N. Quluzadə Azərbaycan Neft və Kimya İnstitutunda 1936-cı ildən başlayaraq assistent, baş müəllim, dosent vəzifələrində işləyir. 1941-ci ildə K. N. Quluzadə neft energetikası məktəbinin yaradıcısı professor M. M. Skvortsovun rəhbərliyi ilə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir. Gənc alimin bu tədqiqatları neft mədənlərinin elektrik təchizatının bir sıra mürəkkəb məsələlərinin həll edilməsinin elmi əsaslarının bünövrəsi olmuşdur. Bu işlərin nəticələrinin istehsalata tətbiqi yeni neft yataqlarının işlənməsində böyük rol oynamışdır. 1948-ci ildən isə kafedra müdiri təyin edilir və beləliklə də otuz ildən artıq bir dövr ərzində o, bütün fəaliyyətini ali məktəbə həsr edir.



Neft mədənlərinin elektrik energetikası sahəsində uzun illərdən bəri apardığı tədqiqatlar əsasında K. N. Quluzadə doktorluq dissertasiyası hazırlamış və 1961-ci ildə Moskva Energetika İnstitutunun Elmi Şurasında müvəffəqiyyətlə müdafiə etmişdir. Bundan sonra, çox keçmədən ona, professor elmi adı verilmişdir.

K. N. Quluzadə hansı işdə çalışdığından asılı olmayaraq öz qaynar enerjisini, parlaq istedadını qarşıda duran məsələlərin həllinə həsr etmiş, elmi işi ixtisaslı mühəndis kadrların hazırlanması, istehsalata fəal və əməli köməyi ilə əlaqələndirmişdir.

Texniki ali məktəbdə tədris prosesinin və ideya-tərbiyə işinin əsl təşkilatçısı kimi professor K. N. Quluzadənin parlaq istedadı 1961-1965-ci illərdə Energetika fakültəsinin dekanı olduğu zaman özünü göstərmişdir.

Kazım Novruzəli oğlu Quluzadə tədris və tərbiyə işində həmişə yenilik tərəfdarı olmuş, aparıcı texniki ali məktəblərin qabaqcıl təcrübəsini geniş yaymış və yaradıcılıqla zənginləşdirmişdir.

Professor K. N. Quluzadənin yaradıcılıq sahəsi geniş və rəngarəngdir. O, qazma və neftçıxarma üçün elektrik avadanlığı, neft mədənlərinin elektrik təchizatı, neft sənayesi obyektlərində elektrik enerjisindən səmərəli istifadə sahəsində bir sıra orijinal tədqiqatlar aparmışdır.

K. N. Quluzadə 160-dan çox nəşr edilmiş elmi işin, o cümlədən 30-a qədər kitabın - dərslik, dərs vəsaiti, monoqrafiya və broşüranın müəllifidir. Onun kitablarından energetiklər indi də geniş istifadə edirlər. Bu əsərlərin çoxu tələbələrin, istehsalatda işləyən mühəndislərin, elmi-tədqiqat və layihə institutlarının əməkdaşlarının stolüstü kitabına çevrilmiş və Vətənin elmi-texniki ədəbiyyatının qızıl fondunda özünəməxsus yer tutmuşdur. Onun bir sıra əsərləri xarici dillərə tərcümə olunmuş, Rumıniyada və Almaniyada çap edilmişdir.

1970-1978-ci illərdə professor K. N. Quluzadə Azərbaycan Neft Kimya İnstitutunun rektoru olmuşdur. Həmin dövrdə o, böyük elmi-pedaqoji və inzibati işləri çoxsahəli ictimai işlərlə müvəffəqiyyətlə əlaqələndirmişdir. K. N Quluzadə dəfələrlə rayon, şəhər ictimai təşkilatların rəhbər orqanlarına seçilmiş, bir sıra çağırışlarda Bakı şəhər Sovetinin deputatı, texnika sahəsində Azərb. SSR Dövlət mükafatları üzrə Komitənin sədr müavini, Azərb. Sovet Ensiklopediyası baş redaksiyasının üzvü olmuş, "Neft və qaz" jurnalını redaktə etmişdir.

Professor K. N. Quluzadənin çoxillik məhsuldar fəaliyyəti yüksək hökumət mükafatları ilə - Lenin, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz, "Şərəf nişanı" ordenləri, SSRİ medalları, Azərb. SSR Ali Sovetinin fəxri fərmanları, Sovet-Alman Cəmiyyətinin qızıl medalı ilə və s. qeyd edilmişdir.

K. N. Quluzadənin əziz xatirəsi tələbələrinin, aspirantlarının, iş yoldaşlarının və onu tanıyanların yaddaşında əbədi yaşayacaqdır.



# QURBANOV NƏRİMAN HÜSEYN QULU OĞLU (1932-1999)

Qurbanov Nəriman Hüseyn Qulu oğlu 1932-ci il dekabrın 14-də Lənkəran şəhərində anadan olmuşdur. 1950-ci ildə Lənkəranda orta məktəbi bitirmiş, Moskva Avtomexanika İnstitutuna daxıl olmuşdur. 1955-ci ildə mühəndis-mexanik ixtisasına yüyələnərək oranı bitirmiş, Mingəçevir Maşınqayırma zavoduna göndərilmişdir. 1957-ci ilə qədər orada mühəndis-konstruktor və mexaniki təmir şöbəsinin rəisi vəzifələrində çalışmışdır.

1957-ci il aprelin 1-dən etibarən Azərbaycan Elmi-Tədqiqat Neft Maşınqayırma İnstitutunda (AzİNMAŞ) işləməyə başlamışdır. Burada mühəndis, Baş mühəndis, şöbə müdiri və 1974-cü ildən etibarən AzİNMAŞın elmi işlər üzrə direktor müavini vəzifəsində işləmişdir.

N. H. Qurbanovun rəhbərliyi altında atqıya qarşı, quyuağzı istismar və qazma avadanlıqları, quyuların təmiri və mənimsənilməsi üçün mexaniki və hidravlik intiqallı yüksək mexanikləşdirilmiş qurğular, quyularda təzyiq altında endirmə-qaldırma əməliyyatlarını aparmaq üçün avadanlıqlar kompleksi, neft hasilatının intensivləşdirilməsi və quyuların sementlənməsi, kanat işləri və bir çox digər avadanlıqlar yaradılmış, onların standartlaşdırılması, o cümlədən dövlətlərarası standartlar yaradılması və patentləşdirilmə üzrə işlər aparılmışdır.

1963-1975-ci illərdə N. H. Qurbanovun rəhbərliyi altında quyuların sementlənməsi üçün 3CA-400, 3CA-400A markalı nasos qurğuları layihə edilmiş və bu qurğular Qroznının "Krasnı Molot" zavodunda seriya ilə buraxılmışdır. Daha sonra 2SMH-20 sement qarışdırıcı qurğusu su vuran 1AC-20 və 2AC-22 markalı nasos bloku ilə Novoçerkassk şəhərində "Neftemaş" zavodu tərəfindən seriya ilə buraxılmışdır. Üzən qazma qurğuları, onlar üçün sementləmə kompleks avadanlığın yaradılmasında və tətbiq edilməsində də onun böyük əməyi olmuşdur.



N. H. Qurbanovun müəllifi olduğu "Nasos ştanqlarının hazırlanması üsulu" adlı ixtirası dünyanın bir sıra xarici ölkəsində (ABŞ, Kanada AFR, İngiltərə, Argentina və s.) patentləşdirilmiş, istehsalatda tətbiq olunaraq böyük səmərə vermişdır.

Qurbanov N. H. 50-yə yaxın ixtiranın, 110-dan artıq elmi işin müəllifidir. Onun əməyi yüksək qiymətləndirilmiş, SSRİ Neft və Kimya Maşınqayırması Nazirliyinin iki fəxri fərmanı, "Qırmızı Əmək Bayrağı" ordeni, "Əmək Veteranı" və Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi medalları ilə təltif olunmuşdur. Azərbaycan Respublikasının Əməkdar İxtiraçısı, SSRİ Nazirlər Sovetinin Laureatı adlarına layiq görülmüşdür.

1999-cu il noyabrın 24-də vəfat etmışdir.



# MİRZƏYEV ƏLƏKBƏR NƏSİB OĞLU (1907-1970)

Neft sənayemizin inkişafı naminə yüksək ixtisaslı neftçi-texnik kadrların hazırlanması yolunda müstəsna rolu olmuş, yüksək təşkilatçılıq qabiliyyətinə, mahir pedaqoji səriştəyə, geniş dünyagörüşünə, apardığı işlərdə cavabdehliyə, münasibətlərində sadəliyə, həyatda təvazökar insanlıq hisslərinə malik olan və ibrətamiz həyat yolu keçmiş Ələkbər Nəsib oğlu Mirzəyevin əziz xatirəsi həmişə qəlbimizdədir.

Ə. N. Mirzəyev uzun müddət neft sənayesinin inkişafı üçün orta-texniki ixtisaslı neftçi kadrların texniki səviyyələrinin artırılması istiqamətində dönmədən fəaliyyət göstərən Oktyabr İnqilabı adına Qırmızı Əmək Bayrağı Ordeni Bakı Neft Texnikumuna rəhbərlik etmişdir.

Ələkbər müəllim 1907-ci ildə Şəki şəhərində yoxsul ailədə dünyaya göz açmışdır. Uşaqlıq illəri o qədər də rəvan olmayan Ə. N. Mirzəyev ailəyə kömək məqsədi ilə kiçik yaşlarından əməyə qatlaşmış və 1922-ci ildə hələ 15 yaşı tamam olmamış Şəki şəhərində 3 saylı İpək fabrikində fəhləlik etməyə başlamışdır.

İpək fabrikində tezliklə onun əməksevərliliyi və yaşının hələ az olmasına baxmayaraq, təşkilatçılıq qabiliyyəti üzə çıxmışdır. 1927-ci ildə fabrik partiya rəhbərliyi tərəfindən Bakıya N. Nərimanov adına Neft Sənaye Texnikumuna təhsil almağa göndərilmişdir. 1931-ci ildə texnikumun mexanika şöbəsini müvəffəqiyyətlə bitirən Ələkbər müəllim bir müddət Budyonnı adına zavodun mexaniki sexində mexanik işləmişdir.

Təhsilini davam etdirmək məqsədilə o, 1932-ci ildə M. Əzizbəyov adına Qırmızı Əmək Bayrağı Ordenli Sənaye İnstitutunun Neft-mədən fakültəsinə daxil olmuş və oranı 1937-ci ildə bitirmişdir. İnstitutda təhsil ala-ala eyni zamanda riyaziyyat və fizikadan dərs demişdir.



Peşəkarlığı və təşkilatçılığı nəzərə alınaraq 1937-ci ildə Ələkbər müəllimə daha məsul bir vəzifə - Lassal adına Bakı Neft Texnikumunun direktoru vəzifəsi etibar edilmişdir.

Məlumdur ki, bu illərdə İttifaq hökuməti ölkə iqtisadiyyatının yüksəlişində əsas strateji inkişaf sahələrindən biri olan neft-qaz sənayesinin inkişaf etdirilməsini ön plana çəkmişdir. Burada da yüksək ixtisaslı neftçi texnik və mühəndis kadrların yetişdirilməsi dövlət əhəmiyyətli məsələlər səviyyəsində dururdu. Belə məsul bir dövrdə Ə. N. Mirzəyevin Lassal adına Bakı Neft Texnikumuna direktor təyin edilməsi artıq onun yüksək təşkilatçılıq və pedaqoji hazırlığından xəbər verirdi. Bu vəzifədə o, 1940-cı ilin əvvəlinə kimi çalışmışdır, texnikuma rəhbərlik etdiyi dövrdə onun qeyri-adi fitri təşkilatçılıq qabiliyyəti bir daha özünü büruzə vermiş, onu partiya işinə irəli çəkmişlər. 1940-cı illərdə o, partiya işi sahəsində yorulmadan çalışmışdır. O, Azərbaycan KP MK-da kadrlar üzrə təlimatçı, Neftçala rayon Partiya Komitəsinin katibi, Bakı şəhərində Lenin rayonunun (indiki Sabunçu rayonu) Partiya Komitəsində Kadrlar şöbəsinin müdiri vəzifələrində çalışmışdır. Ə. N. Mirzəyev 1946-1948-ci illərdə Bakı Ali Partiya Məktəbində təhsil almışdır.

Ə. N. Mirzəyev uzun illər ərzində topladığı təcrübəni gənc nəslə vermək və onların potensial imkanlarından ölkə iqtisadiyyatının yüksəlməsi naminə istifadə etmək məqsədilə, yenidən 1950-ci illərin əvvəlində bir təşkilatçı kimi formalaşmasında xüsusi rol oynayan doğma kollektivinə, Oktyabr İnqilabı adına Bakı Neft Texnikumuna rəhbər vəzifəyə təyin olunmuşdur.

Ələkbər müəllim 1951-ci ildən ömrünün sonuna kimi - 18 mart 1970-ci ilə kimi bu texnikumda direktor vəzifəsində gənc neftçi-texnik kadrların yetişməsində yorulmadan çalışmışdır. O, bu illər ərzində minlərlə ixtisaslı neftçi kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. Sonrakı illərdə bu tələbələrin əksəriyyəti dünya şöhrətli elm adamları, dövlət xadimləri və s. məsul şəxslər olmuşlar.

Əsası 1921-ci ildə qoyulan Bakı Neft Texnikumunun təşəkkül tapmasında, onun inkişafında, formalaşmasında Ə. N. Mirzəyevin xüsusi xidməti olmuşdur. Bu mənada Ələkbər müəllimin keçdiyi şərəfli ömür yolu elə Bakı Neft Texnikumunun böyük inkişaf yolu keçmiş tarixi deməkdir. Bakı Neft Texnikumunun tam formalaşması üçün böyük yol keçmiş, zəngin inkişaf tarixinin əsası demək olar ki, XIX əsrin 90-cı illərinin sonundan başlamışdır. Bu elə bir dövr idi ki, Bakı nefti ayrı-ayrı şəxsi kapitalistlərin tabeliyində olduğundan milli kadrlarımız yox dərəcəsində idi. Yalnız Bakı şəhər Dumasının 10 noyabr 1897-ci il tarixli qərarı ilə bu qədim neft diyarında ilk dəfə olaraq bu istiqamət üzrə texniki məktəb yaradılmışdır.

...1907-ci ilin dekabr ayından başlayaraq Bakı və onun ətraf rayonlarında neft sənayesi sürətlə inkişaf etməyə başlayır ki, bu zaman da ixtisaslı mütəxəssislərə olan ehtiyac günbəgün artır. 1920-ci ildə "AzNeft"in texniki-peşə təhsilli bazası əsasında keçmiş Balaxanı rayonunun neft mədənlərinin birində neft ustalarının ixtisaslarının artırılması üçün "Texniki-peşə

kursları" təşkil olunur. Bu kursların bazasında 1921-ci ildə Bakı şəhəri Lenin rayonunun Sabunçu qəsəbəsində "Realnı məktəbi"nin binasında Lassal adına Bakı Neft Texnikumu yaranır ki, bu da sonrakı inkişaf yolunda Oktybar İnqilabı adına Qırmızı Əmək Bayrağı Ordenli Bakı Neft Texnikumunun tam təşkilinə gətirib çıxarır.

Keçmiş İttifaqda Bakı Neft Texnikumunun ən iri Orta-texniki tədris müəssisəsi olmasında Ələkbər müəllimin xidmətləri böyükdür. Məhz onun rəhbərlik etdiyi dövrdə texnikum şərəfli yol keçərək İttifaq miqyaslı iri tədris sənaye müəssisəsinə çevrilmişdir. O, ölkənin neft və maşınqayırma sənayesi üçün minlərlə yüksək ixtisaslı kadrlar yetişdirmişdir ki, bunlar da ölkənin bütün guşələrində çalışırlar.

Ə. N. Mirzəyevin səyi və təşkilatçılığı sahəsində texnikumda zəngin fənn kabinetləri, laboratoriyaları təşkil olunmuş və bunlar müasir avadanlıqlarla, cihazlarla və digər əyani vəsaitlərlə təchiz olunmuşdur. Texnikum uzun müddət ÜXTNS-nin iştirakçısı olmuş, burada bir çox xarici ölkə tələbələri təhsil almışlar. Texnikumda axşam və qiyabi şöbələr təşkil olunmuşdur. 1956-cı ildə Bakının artıq 9 neft mədən idarəsində axşam filialları fəaliyyət göstərirdi ki, bunların da əksəriyyəti sonrakı illərdə sərbəst fəaliyyət göstərməyə başlamışdır. Sonralar bu filialların sayı daha da artmışdır.

Bu tədris ocağından xalqımızın onlarca görkəmli şəxsiyyətləri çıxmışdır. Bunlardan, xalq yazıçısı M. Ə. İbrahimovu, AMEA Əlyazmalar İnstitutunda şöbə müdiri M. A. Sultanovu, "Bakı" axşam qəzetinin redaktoru N. İmanquliyevi, SSRİ neft sənayesi naziri işləmiş, sonralar SSRİ Dövlət Plan Komitəsinin sədri işləmiş N. K. Baybakovu, Sosialist Əməyi Qəhrəmanı Akif Əmənovu, "Xəzərdənizneftqaz" İB Baş direktoru işləmiş Ə. B. Süleymanovu və Sosialist Əməyi Qəhrəmanı Q. A. Abbasovu, Azərbaycan Respublikası neftayırma və kimya sənayesi nazırı K. A. Akimovu, respublikanın "Əməkdar mühəndisi" neftçi-energetik Y. Ə. Quliyevi, fizika-riyaziyyat elmləri doktoru, professor C. Əliyevi, Sosialist Əməyi Qəhrəmanı Xanoğlan Bayramovu və onlarca başqalarını misal gətirə bilərik.

Texnikumda 13 əsas ixtisas üzrə 3 şöbədə (gündüz, axşam və qiyabi) orta texniki-mütəxəssislər hazırlanırdı. Mənəvi cəhətdən sağlam müəllim kollektivi mövcud idi. Akademik S.M. Quliyev, akademik Ş. Əzizbəyov, professor Şahmalıyev, professor Aslan Məmmədov və başqaları vaxtilə bu texnikumda dərs demişlər.

Texnikum müəllimləri tərəfindən neçə-neçə metodik tövsiyələr, bir sıra dərsliklər və dərs vəsaitləri yazılmışdır.

Bütün bunlar bilavasitə Ə. N. Mirzəyevin texnikumda yaratdığı sağlam psixoloji mühitin təsirinin nəticəsi idi.

Ələkbər müəllim eyni zamanda qayğıkeş ailə başçısı idi. Övladları onun əməllərinin davamcılarıdır.

Biz bu yazımızda Ələkbər müəllimin ömür salnaməsindən əsas görünən məqamlara toxunduq. Lakin onun bu məqaləyə sığmayan daha böyük xidmətləri vardır. Onun xidmətləri dövlət və hökumətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, müxtəlif illərdə Bakı Şəhər Sovetinin deputatı, Bakı Şəhər Partiya Komitəsinin büro üzvü seçilmişdir. O, ÜXTNS-nin "Qızıl medalı", Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Cismən bizdən ayrılsa da, onun əziz xatirəsi qəlbimizdə həmişə yaşayır.

Xoş əməllər daşıyıcısı olan Ə. N. Mirzəyev özündən sonra sonsuz, həmişəyaşar izlər qoyub getmişdir. Onun əməlləri çoxsaylı tələbələrinin timsalında və böyük əmək sərf edərək uzun illər yaratdığı doğma kollektivi tərəfindən bu gün də davam etməkdədir.

Ələkbər müəllimə - ruhun şad olsun, deyirik.

**Fəxrəddin QULİYEV**

**Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin "Elmi-Texniki" şöbəsinin aparıcı mütəxəssisi, elmlər namizədi**



# MƏMMƏDOV FƏRRUX MƏMMƏD OĞLU (1915-1996)

Fərrux Məmməd oğlu Məmmədov 1915-ci il martın 15-də Şəki şəhərində anadan olub. 1940-cı ildə Odessa Rabitə İnstitutunu şəhərlərarası telefon-teleqraf stansiyaları və rabitə xətləri üzrə mühəndis-elektrik ixtisası üzrə bitirmişdır.

1940-1946-cı illərdə F. M. Məmmədov Rabitə Nazirliyində sahə rəisi vəzifəsində və Bakı Avtomat Telefon stansiyasında mühəndis, baş mühəndis, rəis vəzifələrində çalışıb. 1946-cı ildən başlayaraq "Azərneft" İB-nın Radıo-telefon rabitə idarəsində Baş mühəndis və rəis vəzifələrində işləyib.

Neft sənayesində işlədiyi müddətdə Məmmədov Fərrux Məmməd oğlu özünü yüksək dərəcəli mütəxəssis kimi göstərmişdir. O, Neft Daşlarında, Bulla adasında, Əli Bayramlıda, Siyəzəndə, Sanqaçalda, İmişlidə, Saatlıda, Məmmədlidə, Tərsdəllərdə və sairə yerlərdə yeni neft sahələrinin yaranmasının fəal iştirakçılarından biri olub.

Fərrux Məmməd oğlu Məmmədovun rəhbərliyi altında, neftçiləri daha keyfiyyətli rabitə ilə təmin etmək məqsədilə yeni texnologiyadan istifadə edilmişdir. Belə ki, radio-rele tipli 24 kanallı TRAL aparatları və 404 tipli 24 kanallı radiostansiya qurulmuş, neft kəşfiyyatı sahələrinin telefonlaşması həyata keçirilib, köhnə telefon stansiyaları avtomat telefon stansiyalarla əvəz olunub.

Neft sənayesinin inkişafında böyük xidmətləri olduğu üçün Fərrux Məmməd oğlu Məmmədov "Qırmızı Əmək Bayrağı" və "Şərəf Nişanı" ordenləri ilə, "Qafqazın müdafiəsi uğrunda", "1941-1945-ci illərin Böyük Vətən müharibəsində şərəfli əməyə görə", "Şərəfli Əmək", "Əmək Veteranı", "1941-1945-ci illərin Böyük Vətən müharibəsində qələbənin 30 illiyi", "1941-1945-ci illərin Böyük Vətən müharibəsində qələbənin 40 illiyi" medalları ilə təltif edilmişdir. "SSRİ-nin Fəxri rabitəçisi" adına layiq görülmüşdür.

Fərrux Məmməd oğlu Məmmədov işində çox tələbkar, məsuliyyətli, işini sevən bir insan olub. İşçilərə hörmətlə yanaşıb, onların hörmətini qazanıb, kollektivin ictimai həyatında fəal iştirak edib, işçilərə qarşı qayğıkeş bir rəhbər olub.

Quruda Neft və Qazçıxarma İB-nin Rabitə İdarəsinin rəisi vəzifəsində işləyən Fərrux Məmməd oğlu Məmmədov 1996-cı il avqustun 18-də vəfat etmişdir.



21—108



# NƏBİYEV RƏCƏBƏLİ ƏBDÜLƏLİ OĞLU (1927-1983)

Rəcəbəli Əbdüləli oğlu Nəbiyev 1927-ci il yanvar ayının 16-da Azərbaycanın qədim mədəniyyət diyarı olan Şəki şəhərində anadan olmuşdur.

Ağır və çətin olan İkinci Dünya müharibəsi illərində arxa cəbhənin möhkəmləndirilməsi üçün Azərbaycanın bütün rayonlarından gənclər xalq təsərrüfatının müxtəlif sahələrinə səfərbər olunurdular. Neft sənayesi mühüm strateji sahə olduğu üçün səfərbər olunan gənclərin çoxu məhz bu sahəyə göndərilirdi. 17 yaşlı Rəcəbəli Nəbiyev də 1944-cü ildə Bakıya gəlmiş və Neft Sənayesi Nazirliyinin 227 saylı neft emalı zavodunda operator köməkçisi vəzifəsində əmək fəaliyyətinə başlamışdır. 21 yaşlı Rəcəbəli Nəbiyev həmin zavodda neft emalı prosesi texnologiyasını qısa müddət ərzində tam mənimsəmiş və fədakar əməyinə görə 1948-ci ildə "Şöhrət Nişanı" ordeni ilə təltif edilmişdir.

O, 1951-1954-cü illərdə Azərbaycan Neft Texnikumunda oxumuş və təhsilini tərifnamə ilə başa vurmuşdur.

R. Nəbiyev ömrünün 40 ilini neft emalı zavodu ilə bağlayaraq, keçmiş "Azneftzavodlar" Birliyinin 2 N-li Bakı Qazoyl-stabilləşdirmə zavodunda operator köməkçisi, operator, böyük operator, qurğu rəisi, sex rəisi, baş mühəndis və direktor vəzifələrində işləmişdir. Sonralar isə həmin zavod Yeni Bakı Neftayırma Zavodunun (indiki "Azərneftyanacaq" İstehsalat Birliyi) tərkibinə daxil olunduğu üçün o, əsas texnoloji sexinin rəisi vəzifəsində çalışmışdır.

Neft emalı yenilikçisi R. Ə. Nəbiyevin çoxsaylı ixtiraları və səmərələşdirici təklifləri respublikanın neft emalı müəssisələrində uğurla tətbiq edilmişdir. O, işlədiyi zavodun texnoloji proseslərinin yeniləşdirilməsi üçün çoxlu dəyişikliklər etmişdir. ED-AV-2 ilkin neft emalı qurğusunun istismara buraxılmasında və Azərbaycanın neft emalı sənayesinin inkişafında onun xüsusi rolu və böyük fəaliyyəti olmuşdur.



R. Ə. Nəbiyevin əmək fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, "Qırmızı Əmək Bayrağı", "Şöhrət Nişanı" ordenləri ilə, "Şərəfli əməyə görə" və bir sıra başqa medallarla təltif edilmişdir. Neft və Qaz sənayesinin inkişafı sahəsində görkəmli fəaliyyətinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmiş, "Neft ustası" fəxri adına layiq görülmüşdür. SSRİ Neft sənayesi nazirinin əmri ilə ona "1-ci dərəcəli neft emalı ustası" adı verilmişdir.

Hansı işdə, vəzifədə çalışmasından asılı olmayaraq Rəcəbəli müəllim təmiz vicdanla, bacarıqla, yüksək vətəndaşlıq hissi ilə fəaliyyət göstərirdi. Səmimiliyi, insani keyfiyyətləri onu tanıyanların qəlbində xalqın əsl ziyalı nümayəndəsi kimi daim yaşadacaqdır.

Hal-hazırda onun davamçıları olan iki oğlu - Yaşar və Nəriman atalarının vaxtı ilə işlədiyi "Azərneftyanacaq" istehsalat birliyində işləyirlər. Yaşar - baş direktorun köməkçisi, Nəriman isə plan-iqtisad şöbəsinin rəisi vəzifələrində çalışırlar. Onlarla çiyin-çiyinə babası işlədiyi müəssisədə nəvəsi Elman da - NÖC çilingəri işləyir.

Nəbiyevlər sülaləsinin neft emalı sənayesində 100 ildən artıq əmək fəaliyyəti vardır.



## NƏZİROV RZAQULU MƏSİ OĞLU (1907-1979)

Azərbaycan Respublikasının Əməkdar inşaatçısı R. M. Nəzirov yüksək ixtisaslı mütəxəssis və bacarıqlı rəhbər olmuşdur. Onun bilavasitə iştirakı ilə bir çox hidrotexniki qurğular tikilib istismara verilmişdir.

Ayrı-ayrı vaxtlarda R. M. Nəzirov "Azərdənizneftlikinti" birliyinin xüsusi idarəsinin rəisi, "Azərdənizneftrtresti"nin müdiri, Azərbaycan Neft Sənayesi Nazirinin müavini, Neft Sənayesi Nazirliyinin əsaslı tikinti idarəsinin rəisi, "Dənizneftqazlayihə" institutunun direktoru olmuşdur.

Xidmətlərinə görə R. M. Nəzirov 2 dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmiş, Azərbaycan Respublikasının "Əməkdar Mühəndisi" adına layiq görülmüşdür.

R. M. Nəzirovun sadəliyi, işə məsuliyyətli münasibəti, təvazökarlığı hamının diqqətini cəlb edirdi. İş yoldaşları onu qəlbinin təmizliyinə görə ürəkdən sevirdilər.

R. M. Nəzirov gənclərin mənəvi tərbiyəsində böyük rol oynayırdı.





## NAĞIYEV SALMAN AĞALI OĞLU (1926-2000)

Sosialist Əməyi Qəhrəmanı Salman Ağalı oğlu Nağıyev 1926-cı ildə Salyan rayonunda kəndli ailəsində anadan olmuşdur.

O, əmək fəaliyyətinə 1944-cü ildə Neft Sənayesində başlamışdır. 1944-cü ildə Babazanı kəşfiyyat Qazma İdarəsində 5-ci dərəcəli operator kollektor, sonra qazmaçı köməkçisi, qazmaçı, gilli məhlul üzrə texnik, 1958-ci ildən isə "Azərneftkəşfiyyat" trestinin 5 saylı qazma kontorunda buruq ustası kimi fəaliyyət göstərmişdir.

1971-ci ildən ömrünün sonuna kimi Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində buruq rəisi işləmişdir.

O, Azərbaycanın müxtəlif sahələrində, Daşgil, Duvannı, Kürsəngi, Əmirarx, Tərsdəllər və sair bu kimi mürəkkəb geoloji şəraitdə qazma işləri aparmışdır. Onun rəhbərlik etdiyi briqada Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsinin Mayak briqadaları adlanırdı. Bu briqadanın iş təcrübəsi nailiyyətləri, əməyinin təşkili haqqında çox danışılmış və çox yazılmışdır.

Salman Nağıyevin briqadasına 1966-cı ilin əvvəlində Kommunist əməyi briqadası adı verilmişdir. Ardıcıl olaraq üç beşilliklərin (IX, X və XI beşilliklərin) dövlət plan tapşırıqlarını və öz sosialist öhdəliklərini üç il yarımda yerinə yetirmişdir.

Onun briqadası bütün beşilliklərin sosializm yarışının qalibi olmuş və buna görə də Neft Nazirliyinin ən yaxşı qazma briqadası adına layiq görülmüşdür. Qeyd etmək lazımdır ki, bu müvəffəqiyyətlərin ən mühüm şərti yüksək icra, əmək və istehsal intizamı və texnoloji intizamdır. İdarədə Salman Nağıyevin briqadasının əsasında qabaqcıl təcrübə məktəbi yaradılmışdır. O, istehsalatda zərbəçi əmək nümayiş etdirməklə yanaşı, həm də ictimai işlərdə fəallıq göstərirdi. Salman Nağıyev dəfələrlə Bakı şəhər sovetinə deputat seçilmişdir. 1973-1975-ci illərdə Yuqoslaviya, Portuqaliya, Ya-

poniya, Vyetnam, Hindistan dövlətlərində Azərbaycan neftçilərini ləyaqətlə təmsil etmişdir.

Dövlətimiz onun əməyini qiymətləndirərək 1963-cü ildə o, Kürsəngi sahəsində zəngin neft yatağının açılmasına görə "Lenin" ordeni ilə təltif edilmişdir.

1970-ci ildə "Əməkdə fərqlənməyə" görə medalı ilə təltif edilmişdir.

1971-ci ildə 2-ci dəfə Lenin ordeni ilə təltif olunmuş və Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Daha sonra "Neft Sənayesi əlaçısı" nişanı ilə təltif olunmuşdur.

Əməkdə göstərdiyi nailiyyətlərə görə onun briqadası dəfələrlə Qaraş Əmirov və Rüstəm Rüstəmov adına prizin qalibi olmuşlar.

Bütün ömrünü "qara qızılın" tapılıb aşkar edilməsinə həsr edən bu təcrübəli neftçi 2000-ci il aprel ayının 21-də dünyasını dəyişdi.

Lakin yetişdirmələri bu gün də onun işinin davamçılarıdır.



## RƏCƏBOV NADİR ƏSGƏR OĞLU (1929-1999)



Texnika elmləri doktoru, professor, görkəmli alim və neft maşınqayırma mütəxəssisi, Azərbaycanın əməkdar mühəndisi Nadir Əsgər oğlu Rəcəbov 1953-cü ildə Azərbaycan Sənaye İnstitutunun neft-mexanika fakültəsini bitirmiş, "neft və qaz mədənləri maşınları və avadanlıqları" ixtisasına yiyələnmişdir. Gənc mütəxəssis institutu bitirdikdən sonra işləmək üçün leytenant Şmidt adına (indiki Səttarxan adına) zavoda göndərilmişdir. O, burada özünü istedadlı mühəndis kimi göstərə bilmişdir.

N. Ə. Rəcəbov bu zavodda işlədiyi 20 ildən çox bir vaxtda sıravi mühəndislikdən zavodun baş mühəndisi vəzifəsinə qədər yüksəlmişdir. O, burada işlədiyi müddətdə neft-mədən avadanlıqlarının davamlığı və etibarlığı istiqamətində qiymətli tədqiqat işləri aparmışdır. Bacarıqlı mütəxəssis konstruktor işlərini nəzəri tədqiqatları ilə əlaqələndirmiş, səmərəli elmi-metodik nəticələrə nail olmuşdur. Bu illərin elmi axtarışlarına əsaslanan N. Ə. Rəcəbov namizədlik dissertasiyası müdafiə etmiş, Səttarxan adına zavodun konstruktor bürosunda güclü mühəndis-konstruktor komandası yaratmışdır. Sonra o, doktorluq dissertasiyası müdafiə etmiş, professor adı almışdır.

N. Ə. Rəcəbov 1974-cü ildə Keşlə maşınqayırma zavoduna göndərilmiş, o, burada 1977-ci ilə qədər baş mühəndis vəzifəsində çalışmışdır. Onun əmək fəaliyyətinin sonrakı 22 ili Azərbaycan Neft Maşınqayırma Elmi-Tədqiqat və Layihə İnstitutunda keçmişdir. O, burada şöbə rəisi vəzifəsində işləmişdir. Ömrünün son aylarında - aprel-iyul 1999-cu il - istedadlı maşınqayırma mütəxəssisi və gözəl insan Nadir Rəcəbov həmin institutda qazma texnikası laboratoriyasının müdiri vəzifəsində çalışmışdır.

N. Ə. Rəcəbovun elmi fəaliyyətinin nəticələri onun 70 elmi işində, o cümlədən 3 monoqrafiyada, 20 ixtirada və 5 xarici ölkə patentində 30 rəhbər normativ sənəddə öz əksini tapmışdır. O, neft-mədən və qazma avadan-

lıqlarının tətbiqinə dair bir çox xarici ölkələrdə - Hindistanda, İranda, Yuqoslaviyada və başqa ölkələrdə öz metodiki köməkliyini göstərmişdir.

N. Ə. Rəcəbovun neft maşınqayırma sahəsində çoxillik elmi-texniki fəaliyyəti qiymətləndirilmişdir. 1969-cu ildə ona "Azərbaycanın əməkdar mühəndisi" fəxri adı verilmişdir.

N. Ə. Rəcəbov çoxtərəfli, istedadlı şəxsiyyət olmuşdur. O, musiqi ilə, poeziya ilə, rəssamlıqla, idmanla yaxından maraqlanmışdır. Tarda gözəl musiqi havaları ifa edirdi, hətta Əhsən Dadaşovun ansamblında olmuşdu, rəsm əsərləri çəkirdi, şer yazırdı, boksla, motosiklet idmanı ilə, paraşüt idmanı ilə məşğul olurdu və yaxşı nəticələr əldə edirdi.



## İBADOV FƏXRİ ƏBÜLFƏZ OĞLU (1937-1994)



İbadov Fəxri Əbülfəz oğlu Şamaxı rayonunun Dəmirçi kəndində qulluqçu ailəsində anadan olmuşdur. Onun atası və yeganə qardaşı Böyük Vətən müharibəsində həlak olmuş, sonra anası da vəfat etmişdir. Fəxri çox erkən yaşlarından valideynlərini itirdiyindən Bakıya gəlmiş, burada yaşayan əmisi Məmməd İbad oğlu Rəhimovun (o, uzun illər Azərbaycan KP Mərkəzi Komitəsində məsul vəzifələrdə işləmişdir) himayəsində yaşamış və təhsil almışdır.

İbadov Fəxri Əbülfəz oğlu Bakı Neft Texnikumunun neft və qaz quyularının istismarı şöbəsini bitirmiş, 1952-1956-cı illərdə neftçıxarma texniki ixtisasına yiyələnmişdir. Sonra o, neftçıxarma sənayesinə dair tədris-kurs kombinatında təkmilləşdirmə və ixtisasartırma dərsləri keçmiş, xüsusi vəsiqə almışdır.

F. Ə. İbadov 1975-1977-ci illərdə Bakı İstehsalın Riyazi Üsullarla İdarə Olunması Üzrə İctimai İnstitutunu bitirmişdir. O, 1956-cı ildən başlayaraq 38 il Suraxanı NQÇİ-də operator, yerüstü avadanlıq ustası, sahə rəisi, mühəndis-dispetçer, böyük mühəndis, idarəetmə cihazlarının istehsalat şöbəsinin mühəndisi, MMTX-nın böyük mühəndisi, NQÇİ-nin növbə rəisi vəzifələrində işləmişdir. O, ömrünün son illərində MMTX-nin böyük mühəndisi vəzifəsində çalışmaqla Məlumat Məntəqəsinə rəhbərlik etmişdir. Birinci dərəcəli mühəndis kimi o, fəaliyyətinin bütün mərhələlərində özünün çalışqanlığı, təşəbbüskarlığı, təşkilatçılığı ilə fərqlənmiş, kollektivin hörmətini qazanmışdır.

F. Ə. İbadov xidməti vəzifəsini vicdanla yerinə yetirməklə yanaşı, həm də ictimai işlərdə fəallıq göstərirdi. O, Suraxanı Rayon Xalq Nəzarəti Komitəsinin neft və qazçıxarma sənayesi bölməsində ictimai əsaslarla səmərəli fəaliyyət göstərmişdir. Fəxri İbadov "Bilik" Cəmiyyətinin fəal üzvü kimi neftçilər arasında mühazirə təbliğatının genişləndirilməsinə xüsusi səy göstərmişdir.

F. Ə. İbadov 10-dan çox səmərələşdirici təklifin müəllifi idi. O, dəfələrlə müxtəlif fəxri fərmanlara, müxtəlif mükafatlara və "Əmək veteranı" medalına layiq görülmüşdür.



# RÜSTƏMBƏYOV FƏTULLA ƏSƏD OĞLU (1867-1946)

Rüstəmbəyov Fətulla Əsəd oğlu ömrünün 45 ilini neft sənayesi ilə bağlamışdır. Onun barəsində bizə çoxlu məlumat bəllidir. Bununla belə bu məlumatlar Fətulla Əsəd oğlu Rüstəmbəyovun həyatını tam əks etdirmir. Rüstəmbəyov Fətulla Əsəd oğlu 1867-ci il avqust ayının 25-də hüquqşünas ailəsində anadan olmuşdur. Onu dövlət hesabına Bakının real məktəbinə qəbul etmişlər.

F. Ə. Rüstəmbəyov oranı qurtardıqdan sonra Peterburqun Texnologiya İnstitutuna daxil olmuş və 1893-cü ildə bu institutu bitirmiş, dağ mühəndisi ixtisası üzrə diplom almışdır.

İnstitutu bitirdikdən sonra Fətulla Əsəd oğlu Rüstəmbəyov Bakıya qayıtmış və Musa Nağıyevin mədənlərində işləmişdir. Tez bir zamanda o, mədənləri idarə edərək, texniki rəhbər vəzifəsinə qədər yüksəlmişdir.

Hələ institutda oxuyarkən F. Ə. Rüstəmbəyov yeni maşınlara və mexanizmlərə maraq göstərmiş, mürəkkəb texnoloji proseslərlə maraqlanmışdır. Hələ tələbəlik illərində o, Rusiya İmperatoru Texniki Cəmiyyəti Bakı şöbəsinə üzv seçilmişdir.

Fətulla Əsəd oğlu Rüstəmbəyovun rəhbərlik etdiyi Musa Nağıyevin mədənləri başqa neft milyonçularının mədənlərindən seçilmiş, açıq fontanların sayı azalmış, yeni texnikanın tətbiqi artmışdır. Belə ki, F. Ə. Rüstəmbəyovun rəhbərliyi altında Rusiya neft sənayesində ən birinci olaraq jelonka İvanitski və Sokolovskinin dərin quyu nasosları ilə əvəz edilmişdir.

F. Ə. Rüstəmbəyov ilk dəfə Bakı mədənlərində "Bakı qazma sistemini" tətbiq etmişdir. Eyni zamanda Fətulla Əsəd oğlu neft mədənlərində ağır şəraitdə işləyən fəhlələrə qayğı göstərmiş və bununla onların dərin hörmətini qazanmışdır.

Ölkədə vətəndaş müharibəsi illərində Bakı mədənləri bərbad hala düşmüşdü. Neft quyularının 3/4 hissəsi işləmirdi, qazma işləri tamamilə dayandırılmışdı. 1920-ci il mayın 28-dən sonra neft sənayesi milliləşdirilməyə başlandı. O vaxt neft sənayesinə - "Azneft"ə A. Serebrovski rəis təyin edildi Belə bir şəraitdə neft sənayesini bərpa etmək üçün yüksək texniki səviyyəli mütəxəssislərə ehtiyac yarandı.

Belə şəraitdə Fətulla Əsəd oğlu Rüstəmbəyov "Azneftkom"un mədən müdiri və rəyasət heyətinin üzvü seçilmiş, sonralar o, "Azneftkimya"ya müdir köməkçisi, böyük texniki direktor və nəhayət, "Azneft"in rəisi vəzifəsinə seçilmişdir.

F. Ə. Rüstəmbəyov Bakı neft mədənlərində baş vermiş yanğınların söndürülməsinə rəhbərlik etmiş (texniki cəhətdən), Bibiheybət limanının torpaqla örtülməsində iştirak etmişdir.

F. Ə. Rüstəmbəyovun rəhbərliyi altında Azərbaycan neft sənayesinin texnika ilə təchiz olunması təmin olunmuşdur.

1930-cu illərdə Bakı mədənlərinin elektrikləşməsində F. Ə. Rüstəmbəyovun böyük rolu olmuşdur. Bu vaxtlarda mədənlərdə yeni texnikanın tətbiqi geniş miqyas almışdı.

1920-ci ildə F. Ə. Rüstəmbəyov Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuş və onu Amerikaya ezamiyyətə göndərmişlər. F. Ə. Rüstəmbəyov Amerikanın neft sənayesi ilə dərindən tanış olmuşdur. O, müxtəlif aqreqatların fotoşəklini və çertyojunu Bakıya gətirmiş və burada qaz emalı üçün müxtəlif avadanlıqlar tətbiq olunmasına nail olmuşdur.

1930-cu ildə F. Ə. Rüstəmbəyovu həbs edir və Amerikadan gətirdiyi materialları müsadirə edirlər. O, 10 il həbs cəzasına məhkum olunur. Ancaq onu həbsdən S. Orconikidze xilas edir. Sonralar onu Ukraynanın kömür hasilatı ilə məşğul olan trestə texniki direktorun müavini vəzifəsinə təyin edirlər

1932-ci ilin iyul ayında F. Ə. Rüstəmbəyovu yenidən "Azneft"ə göndərirlər. O, əvvəlcə böyük mühəndis, sonra isə qrup rəhbəri vəzifəsinə təyin olunur

1934-cü ildə o, "Azneftlayihə"nin Baş mühəndisi, direktor müavini vəzifələrində işləyir. Eyni zamanda o, "Azneft"in Dəniz Komitəsinin müdiri vəzifəsini icra edir. 1937-ci ildə F. Ə. Rüstəmbəyov təqaüdə çıxır və ömrünün axırına qədər "Azneft"də elmi-texniki problemlər üzrə məsləhətçi vəzifəsində işləyir.

F. Ə Rüstəmbəyov 1946-cı il dekabrın 30-da vəfat etmişdir. O, neftçilərin ürəyində həmişə yaşayacaqdır.



## RÜSTƏMBƏYOV ƏSƏD FƏTULLA OĞLU (1911-1982)

Ə. F. Rüstəmbəyov Azərbaycanın neft sənayesinin ən yüksək ixtisaslı mütəxəssislərindən biri olmuşdur. Onun neft və qaz çıxarılması sahəsində böyük xidmətləri vardır.

Azərbaycan Neft Sənayesi Elmi-tədqiqat və Layihə İnstitutu direktorunun elmi işlər üzrə müavini işləyirdi.

Ə. F. Rüstəmbəyov 1911-ci ildə Şuşada doğulmuşdur. M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirdikdən sonra əmək fəaliyyətinə 1932-ci ildə neft sənayesində işləməklə başlamışdır. Əmək fəaliyyətinin ilk günlərindən özünü bacarıqlı, yaxşı təşkilatçı, təşəbbüskar işçi kimi göstərən gənc mütəxəssis qısa müddət ərzində mühəndislikdən böyük qazma idarəsinin rəhbərliyinə yüksələ bilmişdir. O, 1941-1959-cu illərdə Abşeron yarımadası üzrə kəşfiyyat trestində baş mühəndis işləmişdir. 1959-1968-ci illərdə Ə. F. Rüstəmbəyov "Azneftkəşfiyyat" Trestinin rəisi olmuş, 1968-ci ildən ömrünün sonuna kimi Azərbaycan Neft Sənayesi Elmi Tədqiqat Layihə İnstitutunda çalışmışdır.

Ə. F. Rüstəmbəyov hansı sahədə işləyibsə, üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlmiş, ona göstərilən etimada layiq olmuşdur. O, bütün bilik və bacarığını gənc kadrların yetişdirilməsinə, respublikada neft sənayesinin inkişafına, qazma texnikasının təkmilləşdirilməsinə sərf etmişdir. O, dərin və çox dərin quyuların qazılması üzrə yüksək ixtisaslı mütəxəssis idi. Bilavasitə onun yaxından iştirakı ilə keçmiş SSRİ-nin Uzaq Şərq sahəsində və doğma Azərbaycanda bir çox neft-qaz yataqları aşkar edilmişdir.

Ə. F. Rüstəmbəyovun xidmətləri yüksək qiymətləndirilmişdir. O, dörd Qırmızı Əmək Bayrağı ordeni, "Şərəf nişanı" ordeni və bir sıra medallarla, fəxri fərmanlarla, digər hədiyyələrlə mükafatlandırılmışdır. Ona "Azərbaycanın əməkdar mühəndisi" fəxri adı verilmişdir.

Amansız ölüm 1982-ci il oktyabrın 17-də onun ömrünə son qoydu.

Ə. F. Rüstəmbəyovun əziz xatirəsi qəlbimizdə həmişə yaşayacaqdır.



## SULTANOV CAHANGİR KAZIM OĞLU (1907-1967)



Böyük neftçi-mütəxəssis, Azərbaycanın əməkdar mühəndisi, texnika elmləri namizədi, istedadlı alim və pedaqoq, texniki təhlükəsizlik üzrə Ümumittifaq Neft Elmi-Tədqiqat İnstitutunun direktoru Sultanov Cahangir Kazım oğlu yaradıcılığının çiçəkləndiyi bir vaxtda həyatdan köçmüşdür.

C. K. Sultanov 1907-ci ildə doğulmuşdur. O, əmək fəaliyyətinə 1920-ci ildə başlamış, şərəfli həyat yolu keçmiş, neft sənayesində texniki təhlükəsizlik üzrə sadə, sıravi işdən institut direktorluğuna qədər yüksəlmişdir.

C. K. Sultanov 1933-cü ildə Moskva Dağ-mədən İnstitutunu bitirdikdən sonra öz taleyini neft sənayesinə bağlamışdır. O, qazma ustası, qazma üzrə mühəndis, sonra isə texniki təhlükəsizlik üzrə Ümumittifaq Neft Elmi-Tədqiqat İnstitutunda işləmiş, 1944-cü ildən ömrünün son günlərinədək bu institutun direktoru olmuşdur. O, ömrünün çox hissəsini neft sənayesində texniki təhlükəsizlik üzrə elmi-tədqiqat işlərinə həsr etmişdir.

C. K. Sultanov çoxlu monoqrafiya, dərs vəsaiti və texniki təhlükəsizliyə dair elmi işlərin müəllifi olmuşdur. Bu əsərlərin çoxu xarici dillərə tərcümə edilmiş və yayılmışdır. Onun yazdığı "Neft sənayesində texniki təhlükəsizliyin əsasları", "Neft-qaz mədənlərində təhlükəsizliyin təşkili" adlı kitabları tələbələr və neftçilər üçün qiymətli vəsait sayılır.

C. K. Sultanov neft sənayesində geniş tətbiq olunan bir çox ixtiranın müəllifi olmuşdur. O, elmi işini pedaqoji işlə əlaqələndirmiş, bir çox mütəxəssis hazırlamış, texniki təhlükəsizlik məsələlərinə dair çoxlu dissertasiyaların yazılmasına rəhbərlik etmişdir. O, elmi işlə bərabər, geniş ictimai iş aparmışdır. Dəfələrlə Bakı Xalq Deputatları Sovetinə deputat seçilmiş, partiya və həmkarlar ittifaqı təşkilatlarının rəhbər orqanları tərkibinə daxil edilmişdir.

C. K. Sultanov neft-qaz sənayesində elmi-texniki cəmiyyətin rəyasət heyətinin, "Sənayedə əməyin təhlükəsizliyi" jurnalının redaksiya heyətinin üzvü seçilmişdir. Onun səmərəli əməyi yüksək qiymətləndirilmiş, "Şərəf Nişanı" ordeninə və medallara layiq görülmüşdür. C. K. Sultanov bütün gücünü, səyini neft sənayesinin inkişafına sərf etmişdir. Onun əziz xatirəsi qəlbimizdə həmişə yaşayacaqdır.



# SARIYEV RAMİZ ADİL OĞLU (1948-1982)

Ağsu rayonunun Pirhəsənli kəndində yaşayan Sarıyevlər ailəsinin ilk övladı dünyaya 1948-ci ilin sentyabr ayında göz açdı. Bu oğlan uşağının dünyaya gəlməsi gənc ailəyə - Adil müəllimə və Xına bacıya, babası Kərim kişiyə, nənəsi Zeynəb anaya elə bir sevinc bəxş etmişdi ki, onlar sanki uçmağa qanad axtarırdılar. Valideynlərinin və əzizlərinin xeyir-duası ilə körpənin adını Ramiz qoydular...

...Sinəsini qəhrəmanlıq və igidlik orden və medalları bəzəyən Adil müəllim Böyük Vətən müharibəsi - 1941-1945-ci illər cəbhəsindən doğma kəndə qalib əsgər kimi qayıdanda sevincindən qəlbi sinəsinə sığmırdı. Bu sevinc və qürur hissini dünənki əsgərin şirin arzuları birə-beş artırırdı. O arzular ki, qalib döyüşçü ailə həyatı quracaq, övlad şirinliyi duyacaq, yenə də xalqının xeyirinə əmək fəaliyyəti ilə məşğul olacaqdı...Adil müəllim arzularının qanadlarında "sevinc piyaləsi"nin şərbətini içdi. Adil müəllim bu sevincdən istəkli həyat yoldaşı Xına bacıya, Kərim babaya, Zeynəb nənəyə, başqa əzizlərinə də pay verdi: - İlk övlad şirinliyini duydu, təhsil aldı, xalqının işinə yaradı, bacarıqlı partiya, sovet və təsərrüfat işçisi kimi səmərəli fəaliyyət göstərməyə başladı.

..Bəziləri isti yorğan-döşəkdə yuxu bişirəndə Adil müəllim soyuq səngərlərdə düşmənlərə qarşı ölüm-dirim mübarizəsi aparırdı, dəfələrlə vuruşlarda ağır yaralar alsa da, yenə cəbhəyə can atırdı. Bax, beləcə, Böyük Vətən müharibəsindəki Qələbədən sonra o, ordudan tərxis olundu, doğma Pirhəsənli kəndinə qayıtdı və müqəddəs ailə həyatına qovuşdu, övladları dünyaya gəldi... Ramizdən sonra ailədə Almaz, Faiq, Əbil, Loğman doğuldular, bu evə özləri ilə bir dünya sevinc gətirdilər. Sonralar bu gül balaların üçü ali, biri isə orta ixtisas təhsili aldı



Adil müəllim də, Xına bacı da öz övladlarının tərbiyəsi ilə, qayğıları ilə ciddi məşğul oldular. Əlbəttə, bu övladların hamısı ata-ana üçün çox əziz idi, ancaq istək payında - qalın qaşlı, ala gözlü, uca boylu, gözəl simalı, iti zəkalı, üzündə təbəssüm cilvələnən Ramizin xüsusi yeri vardı. Elə lap kiçik yaşlarından Ramiz təhsildə, tərbiyədə, səmimiyyətdə, işgüzarlıqda başqalarından seçilirdi, qeyri-adi istedadı ilə fərqlənirdi.

Ramiz Adil oğlu Sarıyev 1955-ci ildə Pirhəsənli səkkizillik məktəbinə daxil olmuş, kənddə orta məktəb olmadığı üçün təhsilini Ağsu orta məktəbində davam etdirmişdir. O, orta məktəbi 1966-cı ildə gümüş medalla bitirmiş, sonra Azərbaycan Dövlət Neft Akademiyasının geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş, 1972-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa vuraraq geoloq-mühəndis ixtisasına yiyələnmişdir. Onun diplom işinin rəhbəri dünya şöhrətli alim Xudu Məmmədov olmuşdur.

Ramiz hərbi hissədə qulluq etmişdir. Hərbi xidməti başa çatdırdıqdan sonra Elmlər Akademiyasının tövsiyəsi ilə o, Azərbaycan Elmi Tədqiqat Geofizika İnstitutunda mühəndis-geoloq vəzifəsində fəaliyyət göstərmişdir. Ramiz geoloji-kəşfiyyat dəstəsi ilə - dəstənin rəhbəri kimi bir müddət Balakən rayonunda filiz yataqlarının axtarışı ilə məşğul olmuşdur.

1977-ci ildə Ramiz Sarıyevin həyatında əzizlərinə sevinc bəxş edən daha bir əlamətdar hadisə baş vermiş, o, təhsilini davam etdirmək arzusu ilə aspiranturaya daxil olmuş, seysmologiya üzrə elmi işini davam etdirmişdir. Ramizin aspiranturaya qəbulu, əsl alim olmaq arzusu ilə yaşaması anası Xına bacıya böyük ruh vermişdi, bir dünya sevinc, qürur gətirmişdi. O vaxt Ramiz anasının bu qürurundan - anası da oğlunun sevincindən xoşbəxt anlar yaşayırdılar. Vəfasız dünyanın qəribə işləri çoxdur. O vaxt Ramiz bilmirdi ki, iki ildən sonra - 1979-cu ildə əziz anasını 48 yaşında torpağa tapşıracaqlar. O vaxt - 1977-ci ildə Xına bacı da Ramizin alimlik diplomunu gözləyirdi... Nə biləydi ki,...

Ramiz aspiranturada oxuyarkən Azərbaycan Elmlər Akademiyasının tapşırığı ilə respublikamızın üç rayonunda - Kürdəmirdə, Saatlıda, Ağsuda elmi-tədqiqat və təcrübə işləri aparmışdır. Bu elmi araşdırmalar qiymətli kəşfiyyat nəticələri almağa imkan vermişdi.

Müəyyən təcrübə topladıqdan sonra Ramizi Tümen vilayətinə elmi ezamiyyətə göndərmişlər, o, vilayətdə kəşfiyyat işləri ilə yaxından tanış olmuş, müəyyən nəticələr, informasiyalar toplamışdır. Tümendən qayıtdıqdan sonra Ramiz Kürdəmir, İmişli, Zərdab və Füzuli rayonlarında ekspedisiya rəhbəri kimi neft kəşfiyyatı işləri aparmışdır. Gənc mütəxəssis işləyə-işləyə elmi axtarışlarını uğurla davam etdirmiş, onun elmi işi təsdiq üçün Moskvaya - SSRİ Geologiya Nazirliyinə göndərilmişdir. Onun bu elmi işinə Moskvada, faydalı qazıntılar üzrə yüksək ixtisaslı mütəxəssislər, həmçinin Bakıda akademik İsmayılzadə, professor Qurban Mustafayev və başqaları yüksək rəy, böyük qiymət vermişlər... Lakin... lakin 1982-ci il iyun ayının 4-də Pirhəsənli kəndinin adamlarını, onun əzizlərini, iş yoldaşlarını tük ürpədici bir qara xəbər sarsıtdı. Gözlənilməz hadisə ürəklərə dağ çəkdi, könülləri yandırıb-yaxdı, ah-nalə ərşə qalxdı, acı göz yaşları qəmli yanaqlara şırımlar çəkdi... Ramiz Adil oğlu Sarıyev bahar təravətli arzularının çiçəkləndiyi bir vaxtda, ömrünün qaynar çağında, 34 yaşında iş başında faciəli

surətdə... deməyə adamın dili gəlmir... Heyf səndən, Ramiz! Sən Vətəninə, xalqına, elinə, obana, doğma Pirhəsənli kəndinə çox gərək idin, layiqli oğul idin. Hələ sən neçə-neçə elmi əsərlərin müəllifi olacaqdın, neçə-neçə regionda yeraltı sərvətlərimizi kəşf edəcəkdin... Haqq dünyasındakı "cənnət beşiyin" nurla dolsun!... Səndən... üç ay sonra Moskvadan xəbər gəldi ki, mövzu təsdiq edilmişdir, Ramiz elmi işini müdafiə edə bilər... Eh, dünya, vəfasız dünyadır! Ancaq o vaxt artıq gec idi - "qatar getmişdi". İndi sevib-seçdiyin həyat yoldaşın Nəzirə xanım daim səni fikirləşir, yadigar qoyub getdiyin o iki gül balanın - Fərid və Farizin qayğıları ilə yaşayır... Böyük ürək sahibi olan dünyagörmüş, nəvələri ilə nəfəs alan atan Adil müəllimin səninlə fəxr etməyə mənəvi haqqı vardır. Ona görə ki, sən öz gözəl mənəviyyatınla sözün əsl mənasında, fəxr mənbəyi idin, fəxr edilməli oğul idin.

Böyük hörmət və izzət sahibi, əsl ağsaqqal sayılan Adil Sarıyevin o böyük və qəmli ürəyində əbədi olan, ölməzliyə qovuşan bir isti yuva var: Bu, Ramiz yuvası, Ramiz məkanı, Ramiz dünyasıdır...



## VƏLİBƏYOV AZƏR MUSTAFA OĞLU (1934-1995)



A. M. Vəlibəyov 1934-cü il iyul ayının 19-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur.

1960-cı ildə Azərbaycan Dövlət Universitetinin Geoloji-Kəşfiyyat fakültəsini mühəndis-geoloq ixtisası üzrə bitirdikdən sonra Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının Dağ-mədən sənayesi idarəsində mühəndis, böyük mühəndis vəzifələrində çalışmışdır.

1964-1972-ci illərdə A. M. Vəlibəyov Azərbaycan SSR Nazirlər Sovetində referent, şöbə rəisinin müavini, daha sonra isə katibliyin müdiri vəzifəsində işləmişdir.

1972-ci ildə A. M. Vəlibəyov partiya işinə irəli çəkilərək, "Leninneft" Neft və Qazçıxarma İdarəsinin partiya komitəsinin (raykom hüquqlu) katibi seçilir.

1976-cı ildə A. M Vəlibəyovun yüksək təşkilatçılıq qabiliyyətini nəzərə alaraq o, daha məsul vəzifəyə - "Xəzərdənizneft" İstehsalat Birliyinin kadr və sosial məsələlər üzrə baş direktorun müavini vəzifəsinə irəli çəkilmiş və 1993-cü ilədək həmin vəzifədə çalışmışdır. 1993-cü ildən ömrünün axırına kimi isə "Azəriqaz" Dövlət Şirkətinin müşaviri olmuşdur.

A. M. Vəlibəyov 1995-ci il dekabrın 19-da 61 yaşında Bakı şəhərində vəfat etmişdir.

A. M. Vəlibəyov işlədiyi müddət ərzində respublikamızın ictimai-siyasi həyatında fəal iştirak etmiş, 1974-1980-ci illərdə Bakı şəhər Partiya Komitəsinin üzvü, 1973-1974-cü illərdə Bakı şəhər sovetinin deputatı seçilmişdir.

Bundan başqa o, uzun illər Azərbaycan Neft və Qaz Sənayesi işçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi Rəyasət Heyətinin üzvü və Azərbaycan SSR Xalq Təhsili Nazirliyi yanında respublika müəssisələrarası kadrların ixtisasartırma və təkmilləşdirmə şurasının üzvü kimi geniş ictimai fəaliyyət göstərmişdir.

22—108

A. M. Vəlibəyov Azərbaycan Neft Sənayesinin inkişafında göstərdiyi xidmətlərə görə 1970-ci ildə "Əməkdə fərqlənməyə" görə medalına, 1984-cü ildə isə "Qaz sənayesinin fəxri işçisi" adına layiq görülmüşdür.

Uzun illər Azərbaycan neft sənayesinin korifeyləri Ələkbər Süleymanov və Qurban Abbasovun rəhbərliyi altında əmək fəaliyyəti göstərmiş A. M. Vəlibəyov tərəfindən İB-i və onun strukturlarına daxil olan idarə, müəssisə və təşkilatlarda kadrların düzgün seçilməsi, hazırlanması, onların ixtisaslarına uyğun yerləşdirilməsi, kadrların hazırlığına dair zəruri metodik təlimatların işlənib hazırlanması, əmək və icra intizamının möhkəmləndirilməsi, işçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması, yardımçı kənd təsərrüfatlarının yaradılması və inkişaf etdirilməsi istiqamətində xeyli işlər görülmüşdür.

Keçmiş ittifaqın, Moskva, Kalininqrad, Murmansk, Orenburq, Tümen və digər şəhərlərində kadr məsələləri ilə bağlı keçirilən elmi-praktik müşavirələrdə müxtəlif problem məsələlərin müzakirəsi zamanı A. M. Vəlibəyov tərəfindən verilən təklif və tövsiyələr həmişə öz aktuallığı ilə xüsusi fərqlənirdi.

80-ci illərin əvvəllərində "Xəzərdənizneftsənaye" Ümumittifaq İstehsalat Birliyinin tərkibində "Çələkənneft" İB-yi yaradılarkən kadrlarla bağlı bir sıra prinsipial məsələləri həll etmək üçün o zamanlar "Xəzərdənizneftsənaye" İB-nin baş direktoru vəzifəsində çalışan məşhur neftçi Qurban Abbasovun tapşırığı ilə A. M. Vəlibəyov dəfələrlə Türkmənistan KP MK-da xidməti ezamiyyətlərdə olmuş və qarşıya çıxan bütün problem məsələlərin həlli üçün çox böyük qətiyyət və əzmkarlıq göstərmişdir.

1983-cü ildə Respublika Hökumətinin qərarı ilə Bakıda ilk dəfə olaraq keçirilmiş "Neft-Qaz-83" Ümumdünya Beynəlxalq sərgisinə baş direktor təyin edilən A. M. Vəlibəyov tərəfindən sərginin təşkili və onun müvəffəqiyyətlə başa çatdırılması, eləcə də sərginin iştirakçılarının respublikamızın ictimai-iqtisadi və mədəni sahədə əldə olunmuş uğurların və qədim odlar yurdunun tarixini, mədəniyyətini özündə əks etdirən tarixi abidələrlə yaxından tanışlığı üçün hər cür imkan və şərait yaradılması təmin edilmişdir.

A. M. Vəlibəyov eyni zamanda geniş dünya görüşünə malik, xalqımızın tarixini, mədəniyyətini dərindən bilən ensiklopedik biliyə malik bir insan idi.

A. M. Vəlibəyovun əziz xatirəsi onu tanıyanların və yaxın dostlarının qəlbində əbədi yaşayır.



## VƏZİROV ŞAMİL SÜLEYMAN OĞLU (1942-2001)



Akademik Y. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun laboratoriya müdiri, texnika elmləri doktoru, professor Şamil Süleyman oğlu Vəzirov 2001-ci il aprel ayının 2-də vaxtsız vəfat etmişdir.

Ş. S. Vəzirov 1942-ci il may ayının 18-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, atasının – keçmiş SSRİ-də neft sənayesinin təşkilatçılarından biri, görkəmli dövlət xadimi Süleyman Azad oğlu Vəzirovun ənənələrini şərəflə davam etdirmişdir.

Ş. S. Vəzirov 1964-cü ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunu bitirdikdən sonra onun əsas elmi və əmək fəaliyyəti Azərbaycan EA Neft-Kimya Prosesləri İnstitutu ilə bağlı olmuşdur.

Ş. S. Vəzirov 1968-ci ildə namizədlik, 1986-cı ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Görkəmli alimin tədqiqatlarının nəticələri onun 80 elmi işində, o cümlədən müəlliflik şəhadətnaməsi və patentlərində öz təcəssümünü tapmışdır. Onun rəhbərliyi ilə 5 namizədlik, bir doktorluq dissertasiyası müdafiə olunmuşdur.

1975-1976-cı illərdə Ş. S. Vəzirov ABŞ-ın Massaçust Universitetində öz ixtisası üzrə təcrübə mübadiləsində (təkmilləşmədə), 1984-cü ildə isə BMT-nin Şimali Koreyada eksperti olmuş, orada katalitik mərkəzin təşkili üzrə Beynəlxalq qrupun tərkibində, həmçinin polifinilxloridin alınması prosesi ilə əlaqədar Xımxın şəhərindəki zavodda çalışmışdır.

Respublikada kimya alimləri tərəfindən tanınmış mütəxəssis olan Ş. S. Vəzirov ingilis dilində gözəl danışırdı. O, dəfələrlə ABŞ-da, Hindistanda, Şimali Koreyada, Türkiyədə, MDB ölkələrində keçirilən Beynəlxalq simpoziumlarda, konfranslarda Azərbaycan kimya elmini yüksək səviyyədə təmsil etmişdir. Səmərəli elmi fəaliyyətinə görə Ş. S. Vəzirov akademik Y. Məmmədəliyev adına medalla təltif olunmuşdur.

Ş. S. Vəzirovun parlaq xatirəsi həmişə qəlbimizdə yaşayacaqdır.



# ZEYNALOV MİRSAAB MİRKAZIM OĞLU (1929-1971)

Zeynalov Mirsaab Mirkazım oğlu 1929-cu il may ayının 2-də Şamaxı rayonunun Hacıqədirli kəndində anadan olmuşdur. Orta məktəbi əla qiymətlərlə başa vuran gənc Mirsaab 1948-ci ildə Əzizbəyov adına Sənaye İnstitutunun (indiki Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur.

İnstitutun I kursundan əla qiymətlərlə oxuyan Mirsaab elmi-tədqiqat işlərinə də böyük maraq göstərir, tez-tez tələbə elmi konfranslarında məruzələr edirdı. 1951-ci ıldən institutda təhsilini davam etdirməklə bərabər, geoloji-axtarış və kəşfiyyat dəstələrində kollektor, böyük kollektor vəzifələrində çalışır. Görülən praktiki işlər ona nəzəri bilikləri daha dərindən qavramağa kömək edir. 1953-cü ildə Azərbaycan Sənaye İnstitutunu fərqlənmə diplomu ilə qurtaran Mirsaab 1953-1954-cü illərdə "Azneftkəşfiyyat" birliyinin çöl geoloji-xəritəalma dəstəsində geoloq vəzifəsində çalışır. Bu vaxt o, Səttar Əliyev ilə birlikdə Xəzəryanı-Quba, Qobustan və Küryanı neftli-qazlı vilayətlərində paleogen-neogen çöküntülərinin xarakterik kəsilişlərini öyrənməklə məşğul olur.

Elmi-tədqiqat işlərinə olan böyük maraq Zeynalovu 1954-cü ıldə Sənaye İnstitutunun nəzdindəki aspiranturaya gətirir. Aspirant Zeynalov yenə əvvəlki kimi çöl işlərindən əl çəkmir, 1954-1957-ci illər ərzində çöl geoloji xəritəalma dəstəsində geoloq vəzifəsində işini davam etdirir və eyni zamanda geoloji fakültədə müəllimlik edir. Aspiranturada oxuduğu illər ərzində Zeynalov Cənubi Qobustanın və Abşeron yarımadasının palçıq vulkanlarına həsr edilmiş 10-dan artıq məqaləni "Azərbaycan neft təsərrüfatı", "Neft-qaz" jurnallarında və Neftçıxarma İnstitutunun elmi əsərləri məcmuələrində nəşr etdirir. Elmin və təcrübənin vəhdətinə nail olan Zeynalov 1958-cı ildə "Cənubı Qobustanın palçıq vulkanları və onların neft-qaz yataqları ilə əlaqəsi" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə edib, geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsinə layiq görülür.

Bundan sonra Mirsaab öz taleyini Azərbaycan Dövlət Neft Sənayesi Elmi-Tədqiqat Layihə İnstitutuna (AzNSETLİ) bağlayır. Burada o, böyük mühəndis, kiçik elmi işçi vəzifələrində çalışır, özünü neft geologiyası və regional geologiya məsələlərini yaxşı bilən gənc bir mütəxəssis kimi göstərir. 1959-cu ildə onu regional geologiya qrupunun rəisi təyin edirlər. Sonralar bu qrupun əsasında regional geologiya laboratoriyası yaradılır və Zeynalov müsabiqə yolu ilə laboratoriyanın müdiri seçilir.

1960-cı ildə onun namizədlık dissertasiyası 10 çap vərəqi həcmində monoqrafiya şəklində (Azneftnəşr tərəfindən) nəşr edilir.

Qeyd etmək lazımdır ki, bu vaxt Neftçıxarma İnstitutuna artıq görkəmli alim, ictımai xadim, gözəl müəllim, böyük elm fədaisi akademik Əliəşrəf Əlizadə rəhbərlık edirdi. Onun rəhbərliyi ilə ınstitutda neft elminin bütün sahələri üzrə dövlət əhəmıyyətli elmi-tədqiqat işləri aparılır. Regional geologiya sahəsində çalışan Zeynalov akad. Ə. Əlizadə və akad. H. Əhmədovun rəhbərliyi altında Azərbaycanın regional geologiyası, xüsusən neftli-qazlı vilayətlərin geoloji quruluşlarının öyrənilməsi ilə ciddi məşğul olur. Böyük və Kiçik Qafqaz dağlarının keçilməz yamaclarında mezozoy və üçüncü dövr çöküntülərinin kəsilişlərini öyrənir, bunları qazılmış quyuların kəsilişlərilə müqayisə edır. Azərbaycan ərazisini əhatə edən regional profillər şəbəkəsi hazırlanır, neft-qaz yataqlarının və hövzələrin struktur-tektonik xəritələri qurulur. Azərbaycanın məhsuldar qat çöküntüləri kompleks şəkildə öyrənilir və müqayisə olunur. Məlum neft yataqları, kəşfiyyat sahələri və aşkar edilmiş strukturların pasportlaşdırılması həyata keçirilir.

Zeynalov 1962-ci ildə başa çatdırılmış "Gəncə neftli-qazlı vilayəti və Talış üzrə geoloji materialların tənqidi analizi və ümumiləşdirilməsi" adlı 6 cildlik hesabatda (800 səh.) akad. Əliəşrəf Əlizadə, Həsən Əhmədov və Sultan Nadirov ilə birlikdə rəhbər və əsas icraçılardan biri olmuşdur.

1963-cü ildə o, Moskva Dövlət Universitetinin bir qrup geoloqu ilə birlikdə Cənub-Şərqi Qafqazda mezozoy çöküntülərində qırışıqlıqların tipləri və əmələgəlmə şəraitlərinin öyrənilməsi üzrə elmi hesabatı başa çatdırır.

Sonrakı illər ərzində Zeynalov Azərbaycanın palçıq vulkanlarını, Acınohur, Xəzəryanı-Quba neftli-qazlı vilayətlərinin, Böyük Qafqazın cənub yamacının geoloji quruluşunun öyrənilməsinə həsr olunmuş elmi hesabatların rəhbəri kimi fəaliyyət göstərir.

M. M. Zeynalov Azərbaycanın neft yataqlarını öyrənməklə daim məşğul olur və 1970-ci ıldə neft yataqlarının atlasını hazırlayıb başa çatdırır.

M. M. Zeynalov elmı-tədqiqat işlərinin nəticələrini mütəmadi olaraq geoloji jurnallarda dərc etdirir. O, 120-dən artıq elmi əsərin, o cümlədən 6 monoqrafiyanın və 3 elmi-kütləvi kitabın müəllifidir. Mirsaab müəllim elmin populyarlaşdırılmasını da unutmur. Bu cəhətdən ana dilimizdə dərc olunan "Azərbaycanın palçıq vulkanları", "Şirvan nefti" kitabları çox səciy-

yəvidir. Geologiya elmi sahəsində əldə edilmiş nailiyyətləri kütlələrə çatdırmaq üçün "Elm və həyat" jurnalı ilə sıx əməkdaşlıq edir. O, hər bir oxucunun başa düşəcəyi dildə elmi-kütləvi məqalələr nəşr etdirir. "Azərbaycanın tükənməz sərvətləri", "Hacıvəli vulkanının püskürməsi", "Azərbaycanın mezozoy sərvətləri", "Dağ silsilələri necə əmələ gəlir" bu qəbildən olan əsərlərdir.

Azərbaycan geologiyası sahəsində ensiklopedik biliyə sahib olan Zeynalov "Azərbaycan Sovet Ensiklopediyasında" respublikanın neft yataqları və neftli-qazlı vilayətlərinə dair 9 məqalə dərc etdirir.

1966-cı ildə M. M. Zeynalov Azərbaycanın görkəmli alimləri Ə. Əlizadə, H. Əhmədov, Ə. Əhmədov və A. Əliyevlə birlikdə 33 çap vərəqi həcmindəki "Azərbaycan neft yataqları" monoqrafiyasını Moskvanın "Nedra" nəşriyyatında nəşr etdirir.

Azərbaycan neft geologiyasının bir çox sahələri üzrə yorulmaq bilmədən fəaliyyət göstərən Mirsaab müəllim 1969-cu ildə "Azərbaycanın üst təbaşir çöküntüləri və onların neftlilik-qazlılıq perspektivləri" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək geologiya-mineralogiya elmləri doktoru alimlik dərəcəsi alır. Onun 9,5 çap vərəqi həcmində nəşr olunmuş eyni adlı monoqrafiyası üst təbaşir çöküntülərini öyrənənlər üçün bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

1971-ci ildə M. M. Zeynalov akademiklər Ə. Əlizadə və Ə. Yaqubovla birlikdə "Azərbaycanın palçıq vulkanları atlasını" hazırlayıb, Almaniya Demokratik Respublikasının Rostok şəhərində nəfis şəkildə dərc etdirir. Bu albomda palçıq vulkanları haqqında Azərbaycan və ingilis dillərində verilən müfəssəl məlumatlar və elmi mülahizələr hər bir geoloq üçün çox faydalı olmuşdur.

1972-ci ildə çapdan çıxmış "Azərbaycanın mezozoy çöküntüləri və onların perspektivliyi" monoqrafiyasına görə Mirsaab müəllim Ə. Əlizadə, Ə. Əhmədov, N. Haqverdiyev və M. Rzayev ilə birlikdə akad. İ. M. Qubkin adına mükafata layiq görülmüşdür. Çox təəssüf ki, Mirsaab müəllim bu sonuncu əsərinin nəşrini və təltif olunmasını görmədi. O, 1971-ci il noyabrın 29-da artıq dünyasını dəyişmişdi. Yuxusuz gecələr, susuz çöllərdə, uca dağlarda, istidə, soyuqda istirahət bilmədən çalışmaq artıq öz işini görmüşdü. Bu ölüm Mirsaab müəllimin ailəsini, qohum-qardaşını, iş yoldaşlarını sarsıtdı. Lakin bir qədər keçdikdən sonra Mirsaab müəllimin elmi irsinə müraciət etdikcə başa düşdük ki, elm fədailəri və ümumiyyətlə yaradıcı insanlar dünyalarını dəyişdikdən sonra da yaşamaqda davam edirlər.



# ŞIXƏLİYEV FƏRHAD ƏLİƏŞRƏF OĞLU (1929-2000)



Görkəmli neftçi-alim Fərhad Əliəşrəf oğlu Şıxəliyev gənclərə örnək olacaq şərəfli həyat yolu keçmişdir. 1950-ci ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) neft-mədən fakültəsini fərqlənmə diplomu ilə bitirib "Neft və qaz yataqlarının işlənməsi üzrə dağ mühəndisi" ixtisası almışdır. Hələ tələbəlik illərində (1947-1950) Suraxanı neft mədənində texnik, usta köməkçisi və neft ustası, 1950-1952-ci illərdə "Buzovnaneft" tresti qazma idarəsində texniki şöbədə baş mühəndis və müdir vəzifələrində çalışmış, kifayət qədər istehsalat təcrübəsi, təşkilatçılıq və idarəçilik bacarığına yiyələndikdən sonra, o, gənc mütəxəssis kimi öz sonrakı həyatını elmi-pedaqoji fəaliyyətlə bağlamışdır. 1952-1954-cü illərdə, yəni 2 ildən də az bir müddətdə F. Ə. Şıxəliyev "Qazmada gilli məhlullar tətbiqi hidravlikası" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək Azərbaycan Dövlət Neft Akademiyasında assistent və dosent vəzifələrində çalışmışdır.

1973-cü ildə "Dərin qazmada mürəkkəb şəraitdə quyuların möhkəmləndirilməsi problemləri və onların elmi-praktiki həlli" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş və 1976-cı ildə professor elmi adı almışdır. 1969-cu ildə Akademiyanın "Əmək mühafizəsi" kafedrasının müdiri seçilmiş və 30 ildən artıq bu vəzifədə müvəffəqiyyətlə çalışmış, neft və qaz sənayesi üçün yüksək ixtisaslı kadrlar hazırlanması sahəsində görkəmli pedaqoq və böyük alim kimi tanınmışdır.

F. Ə. Şıxəliyev respublikamızda, ondan uzaqlarda da Azərbaycan ziyalısı, pedaqoqu, alimi və təşkilatçısı kimi vətənimizi ləyaqətlə təmsil etmiş-

dir. Belə ki, 1962-1964-cü illərdə Hindistanda, 1984-1986-cı illərdə Küveyt Əmirliyində BMT eksperti işləmiş, burada elmi işlərin və kadrların hazırlanmasında fəal iştirak etmişdir.

Fərhad müəllim 120-dən artıq elmi məqalə, monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir. 14 nəfər aspirant və dissertantın gənc alım kimi yetişməsində müstəsna rol oynamışdır. Bir çox əsərləri Çində, Hindistanda, Rumıniyada, Küveyt və Rusiyada çap edilmişdir.

Keçmiş SSRİ Ali Təhsil Nazirliyi nəzdində Ali Attestasiya Komissiyasının, bir çox elmi-tədqiqat institutları və ali məktəblərin elmi şurasının ABŞ Beynəlxalq Elmlər, Təhsil, Sənaye və İncəsənət Akademiyasının Azərbaycandan seçilmiş həqiqi üzvü olmuşdur.

SSRİ Neft Sənayesi əlaçısı, SSRİ Qaz Sənayesinin fəxri işçisi, "Əmək-də fərqlənməyə görə" medalı və bir çox başqa mükafatların sahibi F.Ə.Şıxəliyev 2000-ci il fevralın 17-də vəfat etmişdir.



## MÜNDƏRİCAT

### BİRİNCİ BÖLMƏ

**Azərbaycanın yeni neft strategiyası, yeni neft erası - "Əsrin müqaviləsi" ilə başlanmışdır**

"Neftçilər günü" peşə bayramının təsis edilməsi haqqında
**Azərbaycan Respublikası prezidentinin fərmanı** . . . . . 5
"Respublika" sarayında "Neftçilər günü"nə həsr edilmiş təntənəli mərasim . . 7
"Neftçilər günü"nə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi . . . . . 8
Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevin çıxışı . . . . . 18
"LUKoyl" şirkətinin dünya miqyasında tanınması Azərbaycanda "Əsrin müqaviləsi"ndə iştirakından başlayır
"LUKoyl" şirkətinin yubileyi şərəfinə . . . . . 22
"LUKoyl" Rusiya ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin inkişaf etməsində xüsusi rol oynayır . . . . . 27
Rusiya Federasiyasının "LUKoyl" neft şirkətinin prezidenti Vahid Ələkbərova "Şöhrət" ordeni təqdim olunmuşdur . . . . . 27
Azərbaycan prezidenti Heydər Əliyev mərasimdə iştirak etmişdir
Azərbaycan prezidenti Heydər Əliyevin nitqi . . . . . 27
"LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərovun çıxışı . . . . . 31

### İKİNCİ BÖLMƏ

**Neft sənayesinin inkişafında gərgin əmək sərf edənlər**

O, peşəkarlığı və ciddiliyi ilə başqalarından seçilmişdir . . . . . 34
Narahat ürəkli neftçi... . . . . . 36
Ata nəsihəti . . . . . 38
O, "Xəzərdənizneftdonanma"nın inkişafında böyük əmək sərf etmişdir . . . . . 40
İstehsalat xidmətinin başçısı . . . . . 41
Təcrübəli neftçi . . . . . 43
Səmərəli fəaliyyət . . . . . 45
Məşhur neftçinin oğlu . . . . . 48
Fəal iştirak edir . . . . . 50
Dənizdə mühəndis-geoloji tədqiqatlar . . . . . 51
Neftçi, müharibə veteranı . . . . . 53
Yanacaq xəzinəsinin "xəzinədarı" . . . . . 55
Rəğbət belə qazanılır . . . . . 57
"Bayıl limanı"nın baş geoloqu . . . . . 59

Nüfuz əməklə qazanılır .60
Ona rəğbət bəsləyirlər .62
Şıltaq xəzərin dərinliklərini fəth edən fateh .63
Onun həyatı gənclər üçün nümunədir .66
Məsuliyyət və cavabdehlik hissi .68
Qurub-yaratmaq eşqi .70
Patriarx morskoy qeoloqu .73
Ruh yüksəkliyi ilə .77
43 il bir müəssisədə .78
Hamıdan öyrənməyə çalışan və heç kimə bənzəməyən insan .79
Çətin və məsuliyyətli peşədə .82
Fəal iştirak edir .83
O, mürəkkəb geoloji şəraitdə böyük zəhmət sərf etmişdir .84
Yüksək mənəviyyatlı zəhmət adamı .85
İşgüzarlıq və xoş ünsiyyət bacarığı .86
Neftçi peşəsinə bağlılıq .88
Stend Laboratoriyasında .89
Bilik və bacarığını sərf edir .91
Təmiz əqidə və saf mənəviyyat .93
Təcrübəli mütəxəssis .95
"İfrat dərin" quyu .97
Təcrübəli metroloq .99
Ömrünü kəşfiyyat qazmasına həsr etmiş mühəndis .100
Respublikanın əməkdar nəqliyyatçısı .102
Fasiləsiz və etibarlı rabitə .104
Ziyalılar ailəsi .106
İctimai iş fəallarından biri .108
Peşəkar energetik .109
Təcrübəli alim, neftçi-geoloq .112
Əmək adamı .113
İşgüzar alim .115
Peşəsinin vurğunu .117
Zəhmət adamı .119
Həssas və işgüzar insan .120
Yaşasın şairə el məhəbbəti... .122
Sadə və təvazökar əmək qəhrəmanı .126
Qabaqcıllar sırasında .129
Kəşfiyyat qazma işləri uğurla davam edir .131



O, isə ürəkdən yanaşır .133
O, taleyindən razıdır .134
Kəşfiyyat qazma işləri davam edir .136
Biliyə can atan insan .138
O, harada işləyibsə, orada uğur qazanıb .141
Bacarıqlı iqtisadçı, maliyyəçi .143
Elmi axtarışlar yolunda .145
Hünərvər neftçi .146
Xeyirli fəaliyyət .148
Tanınmış elm xadimi .150
Şərəfli ömür .153
Peşəsinin ustası .155
Qaz sənayesinin problemləri .157
Geoloq, elm adamı, jurnalist .165
40 il elmi-pedaqoji fəaliyyətdə .167
Görkəmli alim-geofizik .169
Geoloq və geofiziklərin böyük marağına səbəb olmuşdur .171
Beynəlxalq standartlara uyğun .173
Qaldırıcı aqreqatlar .175
Layihənin baş mühəndisi .176
Elmi tədqiqatlar, elmi məruzələr .177
Etibarlı və davamlı neft-mədən avadanlıqları .179
Elmi-tədqiqat və konstruktor işləri .181
Yaradıcı qadın .183
Müxtəlif vəzifələrdə məsuliyyətli fəaliyyət .184
Zənginliklərlə dolu ömür .186
Zəhmət ömrün zinətidir .188
O, gərgin əməklə çalışır .190
Əmək səadət mənbəyidir .191
"İlk yataq açan" neftçi .192
O, öz əməyi ilə fəxr edir .194
Səylə çalışır, məqsədinə nail olur .195
Əməyi az olmamışdır .196
Elm həmişə yaşayır .197
Dəniz fatehlərindən biri - qadın-alim .199
Təcrübəli layihəçi mütəxəssis .201
İstehsalatçı alim-professional mütəxəssis .203
İstehsalatçı alim-müəllim .205

Öz işinin professionalı .210
Biliyin gücü ilə .211
Hörmət qazanmışdır .213
Düşüncə etibarlı köməkçidir .215
Zəhmətin bəhrəsi .216
Ömrün anları .218
Elmin zirvələrinə doğru .219
Neft sənayesinə həsr edilən mənalı ömür .221
Kompleks geoloji-geofiziki araşdırmalar .223
İnam hissi .225
Şərəfli ömür yolu .227
Qəlbinin işığı ilə yol gedən alim .228
Xeyirxah və nəcib insan .229
Elmi axtarışlar .230
O, işə can yandırır .232
İşə vicdanlı münasibət .233
O, yataqların işlənməsinin iqtisadiyyatına ciddi diqqət yetirir .238
Layihələndirmə sistemləri .240
Elmi-tədqiqat işləri .241
Gərgin axtarışların səmərəsi .244
Öz işinin ustası .246
Düşünür, axtarır .248
Saf zəka .250
Xeyirxah əməlli, xoş niyyətli insan .251
Xalqa xidmət yolunda .253
Xoşbəxtliyini əməkdə tapan neftçi .255
Professorun mənalı həyat yolu .257
Laya termiki təsir .258
Onun əsas tədqiqat obyektləri .259
Saf ürəkli, cəsarətli və səmimi insan .261
Elmi işə maraq .263
Veteran-nefterazvedçik .265
O, öz qüvvəsinə inanır .267
Ömürdən cizgilər .269
Yataqların işlənməsi və istismarı .274
Neft emalı sənayesinin inkişafında gərgin əmək .277
Məsuliyyət tələb edən iş sahəsində .280



## ÜÇÜNCÜ BÖLMƏ

**Həyatda izi qalanlar**

**Onlar xalqımızın səadəti uğrunda fədakarlıq göstərmişlər**

Bağırov Gülhüseyn Ağahüseyn oğlu (1942-2000) .283
Bəkirov Telman Muxtar oğlu (1941-2001) .285
Cəlilov Qurban Nizaməddin oğlu (1927-2000) .287
Cərullayev Şahmərdan Əliş oğlu (1933-2001) .289
Əhmədov Əhməd Mahmud oğlu (1910-1988) .291
Əmirov Qaraş İbrahim oğlu (1926-1973) .292
Əhmədov Həsən Əbdüləli oğlu (1906-1981) .294
Həmzəyev Fərhad Ağa oğlu (1929-1991) .297
Xadikov Xəzrət Axmetoviç (1905-1970) .298
Xəlilov Cəlil Mustafa oğlu (1900-2001) .299
Xəlilov Əbdülhəmid Yusif oğlu (1911-1990) .301
İsgəndərov Məmməd Əbdül oğlu (1915-1985) .303
Kazımov Yaqub Rza oğlu (1901-1968) .306
Qarayev Sadıq Kərim oğlu (1906-1976) .307
Qarayev Əlövsət Kərim oğlu (1914-1988) .309
Qarayev Nəcməddin Kərim oğlu (1911-1990) .311
Quluzadə Kazım Novruzəli oğlu (1908-1979) .312
Qurbanov Nəriman Hüseynqulu oğlu (1932-1999) .314
Mirzəyev Ələkbər Nəsib oğlu (1907-1970) .316
Məmmədov Fərrux Məmməd oğlu (1915-1996) .320
Nəbiyev Rəcəbəli Əbdüləli oğlu (1927-1983) .322
Nəzirov Rzaqulu Məsı oğlu (1907-1979) .324
Nağıyev Salman Ağalı oğlu (1926-2000) .325
Rəcəbov Nadir Əsgər oğlu (1929-1999) .327
İbadov Fəxri Əbülfəz oğlu (1937-1994) .329
Rüstəmbəyov Fətulla Əsəd oğlu (1867-1946) .330
Rüstəmbəyov Əsəd Fətulla oğlu (1911-1982) .332
Sultanov Cahangir Kazım oğlu (1907-1967) .333
Sarıyev Ramiz Adil oğlu (1948-1982) .334
Vəlibəyov Azər Mustafa oğlu (1934-1995) .337
Vəzirov Şamil Süleyman oğlu (1942-2001) .339
Zeynalov Mirsaab Mirkazım oğlu (1929-1971) .340
Şıxəliyev Fərhad Əliəşrəf oğlu (1929-2000) .343

## OXUCULARIMIZA

"Qara qızıl" ağ səadət rəngində" eyni adlı birinci, ikinci və üçüncü kitablarda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin neft strategiyası barədə danışılır.

Birinci kitabda neft və qaz sərvətinin xalqımızın xoşbəxtliyinə xidmət etməsi, "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac boru kəməri layihəsi barədə sazişlərin imzalanması məsələlərindən söhbət gedir, Azərbaycan Dövlət Neft Şirkətinin fəaliyyəti açıqlanır, Azərbaycan neft strategiyasının və "Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsi, əfsanəvi "Neft Daşları"nda əldə edilən nailiyyətlər, emal müəssisələrinin işi, neft-qaz sənayesinin tarixi inkişaf mərhələləri ön plana çəkilir. Birinci kitabda qəhrəman neftçilərin, alimlərin, geoloqların, qazmaçıların, inşaatçıların, energetiklərin, donanma işçilərinin, nəqliyyatçıların, yardımçı və xidmət təşkilatları işçilərinin fədakar əməyindən danışılır, texniki-təchizat məsələləri işıqlandırılır. Bu kitabda xalqımızın səadəti uğrunda yorulmaz fəaliyyət göstərən, mənalı həyatlarını neft sənayesinin inkişafına həsr etmiş, həyatda izi qalan mərhum neftçilərin həyatından bəhs olunur.

İkinci kitabda Azərbaycan neft sənayesinin inkişaf tarixinə dair qısa məlumatlar, Bakıda keçirilən "Xəzər neft, qaz, neftayırma və neft kimyası" sərgisi və konfransı haqqında geniş informasiya verilir, neft-qaz hasilatının artırılması sahəsində gərgin əməklə çalışan neftçilərin həyat və fəaliyyətlərindən söhbət açılır. Bununla yanaşı, ikinci kitabda da dünyalarını dəyişmiş fədakar neftçilər xatırlanır, onlar haqqında qısa bioqrafik məlumatlar verilir.

Üçüncü kitabda Azərbaycanın yeni neft strategiyasının, yeni neft erası - "Əsrin müqaviləsi"nin həyata keçirilməsi ilə əlaqədar materiallara geniş yer ayrılmış, ilk dəfə "Neftçilər günü" bayramı münasibəti ilə keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi verilmişdir.

Kitabda Rusiya ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin inkişaf etməsində xüsusi rol oynayan "LUKoyl" Şirkətinin yubiley tədbirlərindən, neft strategiyasının uğurla həyata keçirilməsində gərgin zəhmətlə çalışan neftçilərin, alimlərin və ziyalıların həyatından, onların iş fəaliyyətlərindən söhbət açılır.

Kitabın son bölməsində xalqımızın səadəti və rifahı naminə çalışmış, həyatda iz qoyub getmiş fədakar neftçilərimiz xatırlanır.

"Qara qızıl" ağ səadət rəngində" eyni adlı birinci, ikinci və üçüncü kitablarda Azərbaycanın "qara qızıl"ının xalqımızın səadətinə, xoşbəxtliyinə, onların firavan həyat sürmələrinə xidmət etməsi barədə jurnalistikanın müxtəlif janrlarında söhbət açılır, öz mənalı ömürlərini bütünlüklə neft sənayemizin inkişafına həsr etmiş, əbədiyyətə qovuşan qəhrəman neftçilərimiz xatırlanır.

Əlbəttə, yetmiş minlik neftçilər ordusunun bütün layiqli övladlarını bu üç kitabda əhatə etmək mümkün deyildir. Elə fədakar, qəhrəman, şöhrətli neftçilərimiz vardır ki, informasiya toplayarkən qarşıya çıxan bir sıra çətinliklər üzündən onlar barədə bu kitablarda hələlik məlumat verilməmişdir. Buna görə də oxucularımızdan, neftçilərimizdən, neftçi ailələrindən üzr istəyir, vəfat etmiş neftçilərimizin ruhları qarşısında baş əyirik. Hörmətli oxucularımıza onu da bildiririk ki, biz - müəlliflər layiqli neftçilərimizin həyat və fəaliyyətləri barədə ayrı-ayrılıqda və toplu halında yeni kitabların nəşr edilməsi üçün yaradıcılıq axtarışlarını davam etdirir, bu mövzuda yeni kitablar üzərində işləyirik.

***Əziz oxucularımızdan bir daha xahiş edirik ki, müəlliflərlə əlaqə yaratsınlar, öz arzu, təklif və mülahizələrini bizimlə bölüşdürsünlər.***

**Ünvanlarımız və telefonlarımız:**
**Məmməd Mirzəyev - Azərbaycan Respublikası Dövlət Neft Şirkəti.**
**97-53-47, 320-02-21.**
**Canalı Mirzəliyev - "AzərTayms" qəzetinin redaksiyası.**
**32-90-09, 311-53-72.**

# MƏMMƏD MİRZƏYEV, CANALI MİRZƏLİYEV
## "QARA QIZIL" AĞ SƏADƏT RƏNGİNDƏ

*Rəyçilər:*
**Rahib Rəhmanov,**
Geologiya-mineralogiya elmləri doktoru, professor, "Azgeofizika" Kəşfiyyat Üsulları Elmi Tədqiqat İnstitutunun direktoru

**Rasim Dadaşov,**
Geologiya-mineralogiya elmləri doktoru, Azərbaycan Respublikası Nazirlər Kabineti neft və kimya şöbəsinin müdiri

*Nəşriyyat redaktorları:*
**Firuzə Nağıyeva**
**Sevda Ağababayeva**

*Bədii və texniki redaktoru:*
**C. Xanalıoğlu**

*Operator:*
**Adilə Cəbbarova**
*Dizayner:*
**Cəbrayıl Təhməzov**

"Azərbaycan" nəşriyyatının nəşrlər şöbəsində hazırlanmışdır.

Çapa imzalanmışdır 30.07.2002. Kağız formatı 60x90 1/16. Şərti çap vərəqi 22,0. Uçot-nəşr vərəqi 18,64. Tirajı 1000. Sifariş 108. Müqavilə qiyməti ilə.

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
370073 Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.